*“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.*

**Heydər ƏLİYEV**

# TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-094

HİSTORY AND İTS PROBLEMS ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

3

ADİLOĞLU
BAKI – 2021

***Baş Redaktor -*** **Əsməd İmamməmməd qızı Muxtarova -** *Bakı Dövlət Universiteti*
***Baş redaktorun müavini -*** **İsmayıl Məhəmməd oğlu Məmmədov -** *Bakı Dövlət Universiteti*
***Məsul katib -*** **Qabil Əli oğlu Əliyev -** *Bakı Dövlət Universiteti*

Redaksiya heyəti (əlifba sırası ilə)

**Axundova Nərgiz Çingiz qızı -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Andrzej L.Bonusiak -** *Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
**Barış Özdal -** *Bursa Uludağ Universiteti (Türkiyə)*
**Danish Miroslav -** *Bratislava Komenski Universiteti (Slovakiya)*
**Əliyeva Sevinc İsrafil qızı -** *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**Əlizadə Hikmət Əbdül oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev İsmayıl Muxtar oğlu -** *AMEA Naxçıvan bölməsi*
**Hacıyev Sani Tofiq oğlu -** *Bakı Dövlət Universiteti*
**Hacıyev Zeynəddin Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**Hatice Palaz Erdemir -** *Manisa Calal Bayar Universiteti (Türkiyə)*
**Hüseynova İradə Mehtiqulu qızı -** *Bakı Dövlət Universiteti*
**Hüseynova Lalə Cavid qızı -** *AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
**İsgəndərov Anar Camal oğlu -** *Bakı Dövlət Universiteti*
**İsmayılov Qüdrət Seyfulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Qasımlı Musa Cəfər oğlu -** *AMEA Qafqazşünaslıq İnstitutu*
**Quliyeva Nərgiz Məlik qızı -** *AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
**Kvitsiani John Jokiyevich -** *İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
**Mahmudov Yaqub Mikayıl oğlu -** *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
**Mamoulia Georges Quramovich -** *Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
**Mehdiyeva Nisbət Canməmməd qızı -** *Bakı Dövlət Universiteti*
**Mirabdullayev Adil Mirabdulla oğlu -** *Bakı Dövlət Universiteti*
**Mohammad Salmansızadeh -** *Təbriz Universiteti (İran)*
**Turichın İqor Victoroviç -** *Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
**Vəlixanlı Nailə Məmmədəli qızı -** *Azərbaycan tarx müzeyi*
**Yusifzadə Sevinc Ziya qızı -** *Bakı Dövlət Universiteti*
**Zeynalov İbrahim Xudaverdi oğlu -** *Bakı Dövlət Universiteti*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
*Redaksiya ilə əlaqə:* TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

## MÜNDƏRİCAT

### QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR


| | | |
|---|---|---|
| MƏMMƏDOV N. | *Azərbaycan tarixinin öyrənilməsində Nizami Gəncəvi irsinin əhəmiyyəti* | 5-10 |
| MƏSİMOV A. | *Rusların Bərdəyə yürüşü və burada knyazlıq yaratmaq cəhdi* | 11-15 |
| ЭФЕНДИЕВ А.Ф. | *История Азербайджана в искусстве XIII века* | 16-21 |
| QASIMOVA S.A. | *Dünyanın qədim və qüdrətli xalqlarından olan türklərin tarixinə dair* | 22-27 |
| RUİNTƏN S.F. | *Osmanlı tarixinin terminlərlə izahı: "Ahilik"* | 28-35 |
| MİRZƏZADƏ Ə.A. | *İlkin orta əsr Muğan vilayətinin şəhərləri haqqında* | 36-41 |
| MƏMMƏDOVA S.B. | *XIII-XV əsrlər Azərbaycanda sufizm və hurifizm fəlsəfəsi* | 42-46 |
| OĞUZ KAĞAN BAYRAKDAR | *Bir anlayış olaraq şəhər şəxsiyyəti* | 47-51 |
| KÜRŞAD KÖSE | *Həştərxan xanlarının şəcərəsi* | 52-54 |


### YENİ DÖVR


| | | |
|---|---|---|
| MUSA RƏHIMOĞLU (QULİYEV) | *Kəngərli süvarilərinə verilmiş fəxri bayrağın müsəlman qoşunlarının hərbi yürüş atamanı Ehsan xanın sarayına köçürülməsi və digər fəxri bayraqlar haqqında* | 55-58 |
| ИСМАЙЛОВА С.А. | *Развитие науки и печати в Центральной Азии во второй половине XIX века* | 59-63 |


### MÜASİR DÖVR


| | | |
|---|---|---|
| ZEYNALOV İ.X. | *Qarabağ Azərbaycandır! Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır* | 64-70 |
| SƏFƏRİ H.Ə. | *XX əsr Cənubi Azərbaycan azadlıq hərəkatlarında Şeyx Məhəmməd Xiyabaninin yeri* | 71-76 |
| SEYİDOVA S.M. | *Heydər Əliyevin xarici siyasət kursu beynəlxalq təşkilatlarla əməkdaşlığın strategiyasıdır(1993-2003-cü illər)* | 77-80 |
| BAXIŞOV M. | *Regional inteqrasiya və onun mərhələləri* | 81-85 |
| CƏFƏROVA T. | *Azərbaycan Respublikası Milli məclisinin qanunvericilik fəaliyyətində qadın deputatların iştirakı (1995-2020-ci illər)* | 86-92 |
| İBRAHİMOV Ə.G. | *Rusiya Federasiyasının xarici siyasətinin formalaşmasına təsir göstərən başlıca amillər* | 93-98 |
| ГУСЕЙНОВА А.Г. | *Международная реакция на победоносную Карабахскую войну* | 99-107 |
| ORUCLU M. | *Etnik azlıqlar məsələsi və etno-siyasi münaqişələrin nizamlanmasında əsas prinsiplər* | 108-112 |
| HƏSƏNLİ E. | *Ermənilərin terror siyasəti və revanşist meyillər* | 113-118 |
| MƏMMƏDLİ M. | *Mərkəzi Asiyada geosiyasi proseslər Rusiya və Çinin regional maraqları kontekstində* | 119-123 |
| SƏFİYEVA H.K. | *İran İslam Respublikasının xarici siyasəti fonunda İran-İraq münasibətləri, İranın İraqa nüfuz etməsinin tarixi səbəbləri* | 124-128 |
| QURBANOVA A. | *Münaqişə anlayışına dair fərqli yanaşmalar* | 129-132 |
| QƏNİZADƏ Ə. | *Zəfərə gedən yolda ordu quruculuğu* | 133-138 |
| HÜSEYNOV İ. | *Azərbaycan və Yunanıstan arasında enerji sahəsində əməkdaşlığa mənfi təsir edən əsas amillər: SOCAR-DESFA sövdələşməsinin pozulmasını doğuran səbəblərin təhlili* | 139-144 |
| ƏLƏSGƏROVA S. | *ABŞ-da xarici lobbilər və onların fəaliyyəti* | 145-148 |
| НАГИЕВА Ш. | *Российско-азербайджанские отношения на современном этапе* | 149-153 |

| | | |
|---|---|---|
| VƏLİYEVA N. | *Avropa İttifaqının münaqişələr zamanı insan təhlükəsizliyi siyasəti* | 154-158 |
| İBADLI V.Ə. | *Yaxın Şərq regionunun geosiyasi əhəmiyyəti və Fransanın regionda tarixi maraqlarına dair* | 159-163 |
| QASIMOV T. | *Siyasi hakimiyyətin məzmunu və xüsusiyyətləri* | 164-168 |
| İMANLI S.S. | *Şimali və Cənubi Qafqaz Respublikaları: müstəqillik uğrunda ilk addımlar və qarşılıqlı əlaqələr* | 169-172 |
| ŞEYDA ÇEVİKEL | *Kırgızıstan dış politikasinda üç büyük gücün etkisi* | 173-176 |


**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA**


| | | |
|---|---|---|
| İSMAYILZADƏ Q.S., ABDULLAYEVA G., HEYDƏROVA S., ƏLIZADƏ P. | *Urmiya gölü hövzəsinin çoxtəbəqəli abidələri, onların xüsusiyyətləri və müqayisəli təhlili* | 177-181 |
| DADAŞOV Ə.N. | *Azərbaycan ərazisində orta tunc dövrünün təsərrüfat-məişət kompleksləri* | 182-187 |
| AXUNDOVA V.A. | *Daşkəsən rayonunun Alban xristian dini abidələri* | 188-192 |
| ZEYNALOV B. | *XX əsrin birinci yarısında taxılçılıq təsərrüfatında biçim, döyüm və taxılın saxlanması qaydaları* | 193-196 |


**MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, METODİKA**


| | | |
|---|---|---|
| МАМЕДОВА Н.В. | *Деятельность Римско-Католической церкви на территории Азербайджанского государства Сефевидов (по материалам французских исследователей)* | 197-204 |
| MUSTAFAYEV Q. | *XIX əsr mənbələrində Qarabağda baş verən siyasi proseslərin təhrifi və şişirdilməsi haqqında* | 205-211 |
| MƏMMƏDOV A.B. | *Azərbaycanın 60-70-ci illər tarixşünaslığında tarixi demoqrafiya məsələləri* | 212-217 |
| PAŞAYEVA U.M. | *XIX əsrin II yarısında Şamaxı qəzası üzrə əhalinin demoqrafik göstəriciləri* | 218-225 |
| SƏDRƏDDİNOVA G. | *XIX əsrdə Şamaxı bölgəsi üzrə əhalinin milli tərkibi və təhsil səviyyəsi (statistik məlumatlar əsasında)* | 226-232 |
| ABDULLAYEV İ.H. | *Azərbaycanın xarici ölkələrlə əlaqələri mif və aşıq yaradıcılığında* | 233-237 |
| QURBANZADƏ B. | *Azərbaycan Xalq Cümhuriyyətinin süqutu məsələsi XX əsrin 20-30-cu illər mühacir tarixşünaslığında* | 238-241 |
| ALLAHVERDİYEVA S. | *Məhəmməd Əmin Rəsulzadənin qələmindən İosif Vissarionoviç Stalinin kimliyi* | 242-246 |


**DÜZƏLİŞ**


| | | |
|---|---|---|
| AVŞAROVA İ.N. | *Azərbaycanın antik dövr tayfalarının mənəvi mədəniyyəti yazılı və arxeoloji mənbələrdə* | 247-252 |

UOT 94(479.24)

**NURU MƏMMƏDOV**
*T.e.d., Bakı Dövlət Universitetinin professoru*
**sabinamammad@mail.ru**

# AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ NİZAMİ GƏNCƏVİ İRSİNİN ƏHƏMİYYƏTİ

*Məqalədə Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin «Nizami Gəncəvi ili» elan edilməsinin əhəmiyyəti qeyd edilir. Göstərilir ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi olan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi yüksək sənətkarlıqla yaratdığı «Xəmsə» ilə ümumbəşəri şöhrət qazanmışdı. Məqalədə həmçinin qeyd edilir ki, dahi Nizaminin əsərlərində Azərbaycan tarixinin bir çox aktual məsələləri izah və şərh edilir.*

*Açar sözlər*: Heydər Əliyev, Prezident İlham Əliyev, Sərəncam, Nizami Gəncəvi, Azərbaycan tarixi, Nizami irsi, dahi şair, mütəfəkkir.

*Giriş.* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-ci il «Nizami Gəncəvi ili» elan edilmişdir. Bu il dahi Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Prezident Sərəncamında deyilir: «Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərindəndir. Nəhəng sənətkarın… parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır» [3]. Bəşər tarixində unudulmaz adlar və dünyaya böyük mənəvi sərvətlər verən şairlər və yazıçılar vardır. Onların arasında Firdovsi, Sədi, Şekspir, Puşkin, Bazak, Hote, Tolstoy və b. olmuşdur. Lakin ölməz əsərləri ilə Şərq bədii fikir tarixində yeni səhifə açmış, böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı bu ədəbiyyat ustadları ilə yanaşı durur [11, 5]. Dahi Nizami Gəncəvinin yaradıcılığı o vaxta qədərki Azərbaycan tarixinin və Azərbaycan gerçəkliyinin canlı ensiklopediyasıdır. Akademik J.E.Bertels Nizami yaradıcılığını araşdırarkən belə bir nəticəyə gəlmişdir ki, əgər Nizaminin əsərlərini böyük bir tərəzinin bir tərəfinə qoysaq, o zaman o biri tərəfinə Himalay dağlarını qoymalıyıq. Min ilə yaxındır ki, bu şairin adı və əsərləri dünyanı gəzir, sevə-sevə oxunur. Hazırda dünyanın bir çox xalqları «Xəmsə»ni öz ana dilində oxuyur və onun müəllifi dahi Nizamini öz doğma şairi kimi sevirlər. Dünya vətəndaşı olmağa layiq Nizami bütün əsrlər, zamanlar üçün öz bədii gücünü saxlayan ölməz əsərlər yaratmış, Azərbaycan şer-sənət dünyasının beşiyinin başında dayanmış, ona bəşəri dəyərlər və həqiqət işığı gətirmişdir [7, 4].

Azərbaycan xalqının tarixində Nizami irsinin böyük əhəmiyyətini nəzərə alaraq onun yubileyləri müntəzəm olaraq Moskva tərəfindən rəsmi şəkildə qeyd edilmişdi. Nizaminin 840 illiyi münasibəti ilə Sov.İKP MK-nın qəbul etdiyi qərarda deyilir: «…Əsərləri ilə Şərq bədii fikri tarixində yeni səhifə açmış Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı dahi ədəbiyyat ustadları ilə yanaşı durur» [11, 5]. Nizami Gəncəvinin 840 illiyini geniş keçirmək üçün Heydər Əliyevin Sərəncamı ilə 1981-ci ildə qərar qəbul edilmişdi. Prezident İlham Əliyevin imzaladığı Sərəncamda qeyd edilir ki, dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdı. Ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə Nizami Gəncəvi irsinin öyrənilməsini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edilmişdi. Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə ölməz sənətkarın 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində qeyd edilmişdir [11].

Nizami irsinin öyrənilməsinə yüksək qiymət verən ümummilli lider Heydər Əliyev demişdir: «…Dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Nizami Gəncəvi kimi korifeylərin yaradıcılığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideyaların bərqərar olmasına xidmət etmişdir» [1, 10]. 1141-ci ildə Azərbaycanın qədim elm və mədəniyyət şəhəri, dövrün böyük şəhərlərindən biri olan Gəncədə doğulan və şərəfli ömrünü bu şəhərdə başa vuran N.Gəncəvi bəşər tarixində nadir şəxsiyyətlərdən biri olmuş, Vətən torpağı ilə, onun tarixi, ədəbiyyatı və mənəvi mədəniyyəti ilə

qırılmaz tellərlə bağlı olmuş müdrik əsərləri ilə dünya şöhrəti qazanmışdı. Dünya ədəbiyyatında elə əsərlər var ki, onlar geniş bədii təsir gücünə, zəngin məzmuna və sənətkarlıq səviyyəsinə malik olub ümumbəşəri şöhrət qazanır. Bu baxımdan N.Gəncəvinin yaradıcılığı dövrün ən zəngin ensiklopediyasıdır və yaratdığı əsərlər sanki bir okeanı xatırladır. Nizaminin hikmət okeanından çoxları istifadə etmişdir. N.Gəncəvinin əsas əsərləri olan «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl» və «İsgəndərnamə» bütövlükdə beş ölməz əsərdən ibarət bu epopeya «Xəmsə» adlanır. bu poemalar toplusu dahi şairə ümumdünya şöhrəti qazandırmışdı. Heydər Əliyev demişdir: «Nizami Gəncəvinin əsərləri təkcə ədəbi-bədii cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir» [2, 157].

N.Gəncəvinin əsərlərində Azərbaycan tarixinin qədim və erkən orta əsrlər tarixi haqqında qiymətli məlumatlar verilir. Dahi şairin əsərlərində ümumi xətt və istiqamət olan başlıca cəhət odur ki, Azərbaycan xalqı qədim və zəngin keçmişə, inkişaf etmiş mədəniyyətə, milli mədəniyyətini, mənliyini və şərəfini qoruyan xalqdır və bu xalq həmişə özünün qəhrəmanlığı, əməksevərliyi, dövlətini və dövlətçiliyini göz bəbəyi kimi qoruyan igid xalqdır. İntibah mədəniyyətinin ən yüksək zirvəsində dayanan Nizaminin yaşadığı dövr Azərbaycanın ictimai-siyasi və sosial-mədəni həyatının ən mürəkkəb və ziddiyyətli dövrü olsa da Azərbaycan xalqı güclü və qüdrətli dövlətlərə malik olmuşdu. Yaxın və Orta Şərqin qüdrətli dövlətlərindən biri olan Azərbaycan Atabəylər Eldəgizlər dövləti, Şirvanşahlar dövləti N.Gəncəvinin yaşayıb yaratdığı dövrə təsadüf edir. Dahi Nizami nəinki öz dövrünün tarixini, eyni zamanda antik və erkən orta əsrlər tarixini mükəmməl bilir, dünyanın ən qabaqcıl elm tarixinə yaxından bələd olmuşdur. «Xəmsə»nin diqqətlə öyrənilməsi onu göstərir ki, Nizami çox dərin məlumat sahibi olmuşdur. Akad. Bertels qeyd edir ki, elmin o vaxtkı vəziyyətində onlardan bəzilərinin şairin hansı yolla əldə etməsi heyrət doğurur [12, 20]. Bu barədə Nizami Gəncəvi özü belə yazır:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, vuruşub gətirdim ələ.
Oxudum, oxudum sonar da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım.

Faktlar göstərir ki, Nizami antik dünya tarixi haqqında daha çox məlumat sahibi olmuşdur. Elmə yüksək qiymət verən söz ustadı Nizami demişdi: «Elm ilə hünərlə – başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz» [14, 28]. Məxəzlər məlumat verir ki, Nizami böyük şair olmaqla yanaşı tarix, fəlsəfə, astronomiya, hüquq, təbabət tarixi, dilçilik, etnoqrafiya elmlərinin bilicisi idi.

Nizami dühasında Azərbaycan tarixinin bir çox məsələləri öz əksini tapıb. Nizami irsində Azərbaycan tarixində xüsusi, böyük sosial, iqtisadi və mədəni inkişaf mərhələsi olan Azərbaycan renessansının zirvəsidir [7, 18]. İntibah mədəniyyəti dövrünün ən yüksək zirvəsində dayanan böyük ustad Azərbaycan tarixinin bir çox məsələlərinə aydınlıq gətirmiş, onların bədii şərhini və izahını da vermişdir. Nizaminin yaşadığı tarixi dövrü olan XII əsr və XIII əsrin əvvəlləri Azərbaycan tarixinin mürəkkəb və ziddiyyətli dövrü olmuşdur. Həmin dövrdə feodal ağalığı, feodal ara müharibələri, hakimiyyət uğrunda qanlı qırğınlar dövrü olsa da digər tərəfdən elm və mədəniyyət, intibah dövrü mədəniyyəti inkişaf edir, Nizaminin doğulub yaşadığı qədim Gəncə şəhəri Şərq ilə Qərbin tranzit şəhəri kimi böyüyür, dövrün inkişaf etmiş mədəniyyət və iqtisadi mərkəzi kimi geniş şöhrət qazanırdı. Azərbaycan tarixində Nizami məktəbinin və Nizami irsinin öyrənilməsinə böyük əhəmiyyət verən ümummilli lider Heydər Əliyev demişdir: «Nizami Gəncəvi elə bir şəxsiyyətdir, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər. Bu yubileylər Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır» [2, 156-157].

Şərq dünyasının mütəfəkkir sənətkarı, böyük alim və qüdrətli şairi Əbdürrəhman Camiyə (1414-1492) deyirlər ki, şer aləmində 3 nəfər peyğəmbərin adını desin. Cami cavab verib deyir ki, şer aləminin 3 peyğəmbəri olubdur: Firdovsi, Sədi və Ənvəri. Deyirlər bəs Nizaminin adı çəkilmir. Cami cavab verir: biz peyğəmbərlərdən danışırıq, Nizami şer aləminin Allahıdır [15].

Azərbaycan tarixinin ayrı-ayrı sahələrinin öyrənilməsində Nizami irsinin böyük əhəmiyyəti vardır. Çünki Nizaminin «Xəmsə»si zəngin bir elmi istiqamət kimi tədqiqatçıya bol-bol məxəzlər bəxş edir. Qədim yunan-roma mədəniyyətinin, Misir mədəniyyətinin, Çin, Hindistan mədəniyyətinin qiymətli əsərlərini ələ keçirən Nizami sözün əsl mənasında dərin ensiklopedik biliyə malik olmuşdur.

Hətta «Leyli və Məcnun» poemasını işləmək üçün ərəb-fars və tacik mənbələrini də dərindən mənimsəmiş, dövrün elm və mədəniyyət aləminin ən yüksək zirvəçsində qərar tutmuşdu. Akademik Ziya Bünyadov qeyd edir ki, elmin müxtəlif sahələrində dərin biliyinə əsasən demək olar ki, Nizami hərtərəfli təhsil görmüşdür. Nizaminin yüksək təhsilə malik olması Gəncənin çiçəkləndiyinə bir sübutdur [16, 225].

Nizami birinci əsərini – «Sirlər xəzinəsini (1178/79) Ərzincan hakimi Bəhram şaha həsr etmiş və əvəzində 5000 dinar, beş at və beş qatır yükü fəxri geyim mükafatı alır.

İkinci poeması – «Xosrov və Şirin» əsərini (1180/81) Nizami İraq Səlcuq sultanı III Toğrula həsr edir. Əslində isə bu poemanı Məhəmməd Cahan Pəhləvana ithaf etmişdi. Lakin M.C.Pəhləvan 1186-cı ildə öldüyü üçün Qızıl Arslana vermişdi. Poemanın müqabilində Qızıl Arslan Nizamiyə böyük bir kənd bağışlamış və fəxri geyim təqdim etmişdi.

Üçüncü əsəri olan «Leyli və Məcnun» poemasını Nizami Şirvanşah I Axistanın sifarişi ilə yazır (1188).

Dördüncü poemasını – «Yeddi gözəl» əsərini (1197) Marağa hakimi Körpə Arslana ithaf etmişdi.

Beşinci poemasını – «İsgəndərnamə»ni (1196-1200) Əhər hakimi Nüsrəddin Piş-Təkinə ithaf etmişdir [16, 226].

Nizami Gəncəvinin ədəbi-bədii və fəlsəfi görüşlərlə zəngin olan ensiklopedik yaradıcılıq fəaliyyətində dövlətçilik, dövlət quruluşu, dövləti idarə etmək məsələləri mühüm yer tutur. Məlumdur ki, N.Gəncəvinin yaşadığı tarixi dövrdə Azərbaycanın ən qüdrətli dövlətləri olan Atabəylər – Eldənizlər dövləti və Şirvanşahlar dövləti mövcud idi. Bu dövlətlər daxili quruluşuna, dövlətçilik prinsiplərinə, dövləti idarə etmək qabiliyyətinə və bütövlükdə sosial-iqtisadi, ictimai-siyasi və hərbi üstünlüklərinə görə Şərq dünyasında ən ədalətli, demokratik və güclü dövlətlərdən biri idi. Doğrudur, müəyyən tarixi zamanlarda obyektiv və subyektiv səbəblərə görə bu dövlətlər qismən zəifləmişdi. Nizami feodalizm dövrünün daxili mahiyyətini, zülm və istismar siyasətini, xalqları əzmək və itaətdə saxlamaq vəziyyətini cəsarətlə ifşa edərək, amansız zülmün müdhiş bir səhnəsini yaratmışdır. Buna görə də ədalətli cəmiyyətin yaranmasını, bərabərlik və firavan dövlətin bərqərar olmasını arzu etmiş və beləliklə, xoşbəxt quruluşun yaranmasını xarakterizə etmişdir. Feodal ara müharibələri nəticəsində zəifləyən ölkəmiz xarici işğalçıların hücumlarına məruz qalırdı. Dahi Nizami XII əsr Azərbaycanını «qılınclarla əhatə edilmiş ölkə» adlandırmış, böyük humanist şair Məhəmməd Füzuli «Bir yerdəyəm əsir ki, torpağı qan içər!» - demişdi [7, 10]. Azərbaycan dövlətlərinin zəifləməsindən istifadə edən xarici işğalçılar ölkəmizi ələ keçirdilər və işğal rejimi yaratdılar. Ölkəmizin çətin və mürəkkəb bir dövründə işğalçılar Azərbaycanı zəbt edəndə təbii ki, sosial, iqtisadi və mədəni inkişafı xeyli ləngitdilər. Ancaq bütün bu ağır sosial-iqtisadi çətinliklərə, işğalçılıq siyasətinə baxmayaraq Azərbaycan iqtisadiyyatı və mədəni həyatı nəinki inkişaf edir, həm də özünün mədəni intibah dövrünü yaşayırdı.

Azərbaycan tarixinin XIII əsrin əvvəllərində ölkəmizdə monqol əsarəti yarandı. Gah monqolların ağır işğalçılıq siyasəti və gah da Xarəzmşah Cəlaləddinin işğal siyasət ölkəmizin inkişaf tarixinə ağır zərbələr vurdu. Xalqımız işğalçılara qarşı müqavimət hərəkatına çıxdı, müstəqil dövlətmizi qorumaq və möhkəmlətmək üçün azadlıq mübarizəsi genişləndi. Gəncədə Bəndərin başçılığı ilə başlanan azadlıq mübarizəsinin üsyan dalğası bir çox yerlərə yayıldı. Beləliklə, işğalçılar xalqımızın mədəni-əxlaqi yüksəkliyi ilə və tarixi zərurətlə hesablaşmağa məcbur oldular.Yerli azərbaycanlı əhali ilə müqayisədə maddi və mənəvi inkişaf səviyyəsi xeyli aşağı olan monqollar, azərbaycanlıları dövlət idarələrinə cəlb etməyə, onların mədəniyyət və həyat tərzini qəbul etməyə məcbur oldular. Nəticədə monqollar nəinki Azərbaycan mədəniyyətinə və dilinə təsir göstərə bilmədilər, əksinə özləri tezliklə assimilyasiyaya uğrayıb yerli əhali ilə qarışdılar [8, 6].

Beləliklə, monqol əsarətinin çətinliklərinə baxmayaraq Azərbaycan elmi və mədəniyyəti, incəsənəti yüksəliş dövrü keçirirdi. İntibah mədəniyyətinin yüksək zirvəsində dahi Nizami Gəncəvi yaradıcılığı, onun yaratdığı monumental əsərlər dayanır. Nizami dühasının parlaq zəkası və onun yaratdığı ədəbi-bədii məktəb sonrakı əsrlərdə də Azərbaycan mədəniyyətinin inkişafına həlledici təsir göstərmişdir. Nizami Gəncəvi yaradıcılığı əslində Azərbaycanı Şərq-qərb dünyasının mühüm mədəni mərkəzlərindən birinə çevirmişdir. Təkcə onu demək kifayətdir ki, böyük dünyəvi alim Nəsrəddin

Tusi tərəfindən yaradılan Marağa rəsədxanası bütün orta əsrlər Şərqində geniş şöhrət qazanmış, Azərbaycanı yenə də intibah mədəniyyəti mərkəzinə çevirmişdi.

Nizami Gəncəvi yaradıcılığının tədqiqatçıları onu şer-poeziya aləminin okeanına bənzədirlər. Çünki dahi Nizami yaratdığı hər hansı poemasını yazarkən çoxlu-çoxlu materiallar toplayır, antik dövrün mənbə məxəzlərindən geniş istifadə edirdi.

Nizami tədqiqatçılarının görkəmli nümayəndəsi akademik J.E.Bertels yazırdı ki, Nizami antik dünya haqqında daha çox məlumat sahibi olmuş, antik dünya ənənələrinə geniş bir yol açmış, özünün yazdığı əsərlərini mümkün qədər zənginləşdirməyə cəhd etmişdi. Bertels davam edib yazır ki, Nizaminin istifadə etdiyim məxəzlər yalnız lazımi materiallarla məhdudlaşmır, eyni zamanda şifahi və yazılı xalq ədəbiyyatından geniş istifadə etmişdir. Bütün bu deyilənlərə görə «Biz tam inamla deyə bilərik ki, Nizami sənət zirvəsində dayanır» [12, 20].

Azərbaycan tarixində bir çox dövlətçilik və dövləti idarə etməyin demokratik məsələlərini ətraflı və sistemli şəkildə bədii boyalarla izah və şərh edən Nizami ədəbi məktəbi yüksək bəşəri ideyalar, təmiz, müqəddəs, xeyirxah hisslər xəzinəsidir. Bu hisslərdə böyük Nizaminin vətənpərvərlik duyğuları, xalqını, dövlətini, Vətənini və torpağını sevən dahi insanı görürük. Xalq yazıçısı, akademik Mirzə İbrahimov Nizami yaradıcılığından bəhs edərkən demişdir: «Nizami dühası Azərbaycan tarixində xüsusən böyük sosial, iqtisadi və mədəni inkişaf mərhələsi olan Azərbaycan renessansının zirvəsidir [10, 18]. İstedadlı şairin şairlik şöhrəti yalnız doğma Azərbaycanda deyil, uzaq ölkələrdə də əks-səda tapmışdı. Sənətinin pərəstişkarları gündən-günə, ildən-ilə çoxalırdı. Alovlu vətənəprəvər olan Nizami öz humanist görüşlərini, ictimai bərabərlik haqqındakı düşüncələrini bədii sözün ecazkar qüdrəti ilə şirin hekayələr təklinə salaraq saraylara göndərir [9, 8] onları ədalətli olmağa çağırırdı. Amma çoxlu dəvətlərə baxmayaraq saray şairi olmadı.

N.Gəncəvinin parlaq dühası çox cəhətdən yaşadığı əsrinin fövqünə qalxırdı. O, yeni və mütərəqqi fikirləri, tarixi-fəlsəfi görüşlər sistemi və ölməz sənət nümunələri ilə güclü ədəbi məktəb yaratmışdır [13, 8]. Bu məktəb Azərbaycanın tarixi və mədəniyyəti ilə zəngin olmuşdur. Nizami Azərbaycanın antik və erkən orta əsrlər tarixini dərindən bilmiş və bir çox qiymətli tarixi materialları toplayaraq öz yaradıcılıq prinsipinə uyğun yoxlamış, onları sistem halına salaraq əsərlərində tamamlamışdır. Dövlət quruluşu işində, dövlətin idarə edilməsində sosial ədalətin və demokratik prinsiplərin önə çəkilməsi «Xəmsə»də öz əksini tapmışdı.

Azərbaycan tarixinin qədim və erkən orta əsrlər tarixinin öyrənilməsində, Azərbaycan xalqının tarixən formalaşması prosesində N.Gəncəvi irsinin çox böyük elmi əhəmiyyəti vardır. Tarixçilər yaxşı bilirlər ki, Azərbaycan xalqının mənəvi aləmi zəngin bünövrə üzərində yaranıb, inkişaf edib və formalaşıb. Bu baxımdan deyə bilərik ki, Azərbaycan xalqının təşəkkül tapıb formalaşmasının 5 güclü dayağı olmuşdur: 1) Şuter-Babi mədəniyyəti; 2) «Avesta» mədəniyyəti; 3) Orxon-Yenisey mədəniyyəti; 4) «Dədə Qorqud» mədəniyyəti və 5) N.Gəncəvinin «Xəmsə» mədəniyyəti. Buradan da aydın olur ki, Azərbaycan xalqının formalaşması prosesində dahi Nizaminin yaratdığı «Xəmsə» epopeyasının böyük rolu olmuşdur. Unutmaq olmaz ki, Azərbaycan tarixinin ən mühüm və aktual problemlərindən biri məhz xalqımızın formalaşması prosesidir və bu prosseslər zaman-zaman inkişaf edərək özünün yüksək zirvəsinə çatmışdır. Eyni zamanda Azərbaycan xalqının dil birliyi də yaranır və formalaşırdı. Azərbaycan-türk dilində yazılan ədəbi-bədii əsərlər artırdı. XII-XIII əsrlərdə ərəb və fars dilləri hakim mövqe tutsa da dahi söz ustadı Nizami Azərbaycan-türk dillərində əsərlər yazmış, hətta 20 min beytdən ibarət «Divan» əsəri olmuşdur [8, 4]. Doğma Azərbaycan-türk dilini çox sevən şeyx Nizaminin ana dilində bir çox şerlər, qəzəllər, 20 min beytdən ibarət divan yazması barədə ədəbiyyatşünas alimlər məxəz məlumatları veriblər. Təsadüfi deyildir ki, Nizaminin əsərlərinin baş qəhrəmanı və başlıca obyekti türk gözəlidir. «Türk» sözünün məna çalarlarından biri də kainatın nəfəsli dürdanəsi olan «türk gözəli» kainatın əşrəfi, həyatın şah damarı, hərəkətverici qüvvəsi, ən böyük məhəbbət və səadət qaynağıdır [14, 6].

2021-ci ilin «Nizami Gəncəvi ili» kimi təntənəli yubiley kimi qeyd edilməsi xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, tarixi qələbələr əldə edən xalqımız müzəffər Azərbaycan Ordusunun şanlı qələbələri ilə tarixi bir dövr yaşayırıq. 30 illik işğala son qoyuldu. Beləliklə, Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan xalqının tarixində yeni dövr yarandı. Azərbaycanın əzəli torpaqları olan Qarabağ bölgəsi, bütün rayon və kəndlərimiz işğaldan azad edildi. Prezident İlham Əliyev demişdir:

«Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb-yaradıb» [4].

Nizami Gəncəvi irsi və Nizaminin yaratdığı ədəbi-bədii məktəb xalqımızın mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. «Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir. Əsrlər boyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verir ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi qoruya bilək» [5] və bütün dünyaya çatdıra bilək. Buna görə də bu gün şərəfli tariximiz yenidən yazılmalıdır. Prezident İlham Əliyev demişdir: «Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqət uyğun olması ilə bağlı bizim alimlər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil» [6]. Obyektiv tarixi yazmaq və tarixi həqiqətləri üzə çıxarmaq hər bir alimin müqəddəs borcudur. 44 günlük Vətən müharibəsi xalqımızın azadlıq müharibəsi idi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə, güclü və qüdrətli Azərbaycan Ordusunun qazandığı tarixi qələbələr Azərbaycan tarixinə əbədi həkk olundu. Bu qələbə qəhrəman əsgər və zabitlərimizin igidliyi, Ali Baş Komandanın qətiyyətli inamı sayəsində, xalq – ordu – Prezident birliyinin dəmir yumruğu sayəsində əldə edildi.

«Nizami Gəncəvi ili»nin yeni tarixi qələbələrlə zəngin olan indiki dövrdə böyük təntənə ilə qeyd edilməsi xüsusi olaraq mühüm əhəmiyyətə malikdir.

Qüdrətli sənət abidələri yaradan dahi şair və mütəfəkkir Nizami Gəncəvinin mütərəqqi fikirləri, vətənpərvərlik ideyaları, dünya mədəniyyəti xəzinəsinə qiymətli incilər bəxş edən zəngin irsinin və ədəbi-bədii məktəbinin öyrənilməsi bütün zamanlarda olduğu kimi, bu gün də mühüm əhəmiyyətə malikdir.

Müasir dövrümüzdə Nizami irsinin öyrənilməsi Azərbaycan tarixinin bir çox aktual məsələlərinin öyrənilməsi üçün gözəl sənətkarlıq məktəbidir, möhtəşəm bir tarixi abidədir, ən zəngin məxəzdir və mənbədir.

*Nəticə.* Nizami Gəncəvi ideyaları qədim və erkən orta əsrlər tariximizin müdriklik xəzinəsinin misilsiz elmi-mədəni və milli-mənəvi dəyərlərini özündə əks etdirir. Bu ideyalar xalqımızın minilliklərdən gələn mənəvi-mədəni təravətini, məzmun mahiyyətini ifadə edir, mənəviyyatımıza malik olan müqəddəs və zəngin bir hikmətlə dolu olan ədəbi-bədii və elmi bir məktəbdir. Bu məktəbdən çoxları istifadə etmiş və indi də istifadə edirlər. Prezident Sərəncamında deyildiyi kimi, Nizami irsinin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının və bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti vardır. Heydər Əliyev 2000-ci il mayın 24-də Gəncədə dahi şairin məqbərəsini ziyarət edərkən demişdir: «Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir… Onun yazdığı əsərlər bütün dünyada məşhurdur... Bu əsərlər təkcə şeirlərdən ibarət deyildir. Onların hər birində böyük elm var, bəyük fəlsəfə var, dahi fikirlər var... Buna görə onun əsərləri də, özü də yaşayır».

Dahiyanə əsərləri ilə Yaxın və Orta Şərq ədəbiyyatının inkişafına güclü təsir göstərən Nizami Gəncəvi bu gün də bizim mənəvi müasirimiz kimi dünya xalqları tərəfindən sevilir və yaşayır. Mütəfəkkir şairin təlqin etdiyi bəşəri ideyalar, vətənpərvərlik, xalqını və dövlətini sevmək aktual səslənir. Dahi Nizami irsinin əzəməti və qüdrəti, Nizami sənətinin ölməzliyi və Nizami irsinin sirri də bax, bundadır. Azərbaycan tarixində Nizami irsi əbədi yaşayacaqdır.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. B., Azərnəşr, 2001, 55 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, 608 s.
3. İlham Əliyev. Azərbaycan Respublikasında 2021-ci ilin «Nizami Gəncəvi ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / «Azərbaycan» qəzeti, 6 yanvar, 2021-ci il.
4. İlham Əliyev. Zəfər paradında nitq / «Azərbaycan» qəzeti, 11 dekabr, 2020-ci il.
5. “Nizami Gəncəvi ili” çərçivəsində ilk tədbir keçirilib / «Azərbaycan» qəzeti, 6 yanvar, 2021-ci il. - https://www.azerbaijan-news.az/posts/detail/ldquonizami-gencevi-ilirdquo-ccedilerccedilivesinde-ilk-tedbir-keccedilirilib-1609949432 [Müraciət tarixi: 03.09.2021].

6. İlham Əliyev Adın Kərimova Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib / Azərbaycan Respublikası Prezidentinin rəsmi səhifəsi, 27 yanvar 2021-ci il. - https://president.az/articles/50399 [Müraciət tarixi: 03.09.2021].
7. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 cilddə. Birinci cild. B., «Elm», 1982, 510 s.
8. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. Üçüncü cild. B., «Elm», 1984, 543 s.
9. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. Dördüncü cild. B., «Elm», 1985, 640 s.
10. Mirzə İbrahimov. - Azərb. klassik ədəbiyyat kitabxanası kitabında. 20 cilddə, Dördüncü cild, B., «Elm», 1981, 510 s.
11. Nizami Gəncəvi. Yeddi gözəl. B., «Elm», 1983, 359 s.
12. Nizami Gəncəvi. İsgəndərnamə. B., «Elm», 1983, 650 s.
13. Nizami Gəncəvi. Leyli və Məcnun. B., «Elm», 1981, 289 s.
14. Nizami Gəncəvi. Lirika, Sirlər xəzinəsi, Şərəfnamə. B., «Yazıçı», 1988, 629 s.

**НУРУ МАМЕДОВ**
*Профессор Бакинского Государственного Университета*

## ЗНАЧЕНИЕ НАСЛЕДСТВА Н.ГЯНДЖЕВИ В ИЗУЧЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

В статье отмечается значение распоряжения Президента Ильхама Алиева об объявлении 2021 года «Годом Низами Гянджеви». Отмечается, что видный представитель мировой литературы гениальный азербайджанский поэт и мыслитель Низами Гянджеви заслужил мировую известность созданием «Хамса» – «Пятерицы». В статье также отмечается, что в произведениях великого поэта Низами Гянджеви освещаются актуальные вопросы истории Азербайджана.

*Ключевые слова*: Гейдар Алиев, Президент Ильхам Алиев, распоряжение, Низами Гянджеви, история Азербайджана, наследство Низами, гениальный поэт, мыслитель.

**NURU MAMMADOV**
*Professor of Baku State University*

## THE SIGNIFICANCE OF N. GANJAVI'S HERITAGE IN THE STUDY OF THE HISTORY OF AZERBAIJAN

The article notes the importance of declaring 2021 the Year of Nizami Ganjavi by the Decree of President Ilham Aliyev. It is noted that the great Azerbaijani poet and thinker Nizami Ganjavi, an outstanding representative of world literature, gained worldwide fame with his "Khamsa", created with great skill. The article also notes that the works of the great poet Nizami Ganjavi highlight topical issues of the history of Azerbaijan.

*Keywords*: Heydar Aliyev, President Ilham Aliyev, decree, Nizami Ganjavi, history of Azerbaijan, Nizami's legacy, genius poet, thinker.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**ABBAS MƏSİMOV**
*Tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan Kooperasiya Universitetinin baş müəllimi*
**masimovv@gmail.com**

# RUSLARIN BƏRDƏYƏ YÜRÜŞÜ VƏ BURADA KNYAZLIQ YARATMAQ CƏHDİ

*Məqalədə orta əsrlər müəlliflərinin "943/44-cü illərdə rusların Bərdəyə yürüşü haqqında" məlumatları təhlil edilir. Nizami Gəncəvi, Məsudi, İbn Miskaveyh və s. görə ruslar Bərdəyə Alaniya və Xəzər ərazisindən hücum etmişlər və xəzərlər nəinki Bərdəyə yürüşə mane olmamışlar, hətta özlərinin Alaniya və Burtaslardan olan müttəfiqləri ilə birlikdə yürüş etmişlər. 913-cü ilə qədər rusların yürüşləri hərbi qənimət ələ keçirmək məqsədilə təşkil edilmişdir. 943-44-cü illərdə rus qoşunlarının Bərdəyə yürüşü işğalçılıq məqsədilə təşkil edilmişdir. Rusların Bərdəyə yeni işğalçı yürüşü göstərir ki, onlar burada knyazlıq yaratmaq istəyirdilər.*

*Açar sözlər*: xaqan, bulqar, burtas, canişin, imtiyaz, delta, diplomatiya, iudaizm, müttəfiq, knyazlıq.

*Giriş*. IX-X əsrlərdə Ərəb Xilafətinin zəifləməsi ilə əlaqədar olaraq onun ucqar ərazilərində bir sıra əmirliklər xilafətə tabe olmur və müstəqil feodal dövlətlərinə çevrilirdilər. Həmin dövrdə Azərbaycan torpaqlarında da müstəqil feodal dövlətləri yaranmışdı. Belə müstəqil dövlətlərədən biri X əsrin ortalarında Sacilər dövlətindən sonra yaranmış olan Salarilər dövləti idi. Salarilər sülaləsindən olan Mərzban ibn Məhəmmədin hakimiyyətinin ilk illərində işğalçılıq və qarətçilik yürüşü baş vermişdi. Bundan əvvəlki dövrlərdə də ruslar Azərbaycan torpaqlarında qənimət əldə etmək məqsədilə dəfələrlə qarətçi və dağıdıcı yürüşlər təşkil etmişdilər. Məqalədə rusların Bərdəyə təşkil etdiyi yürüşün mahiyyəti və məqsədi izah edilir.

*Xəzər xaqanlığının yaranması və qısa tarixi məlumat. Qısa tarixi məlumat*. IX əsrin ortalarında Kiyev Rus dövləti yarandıqdan sonar onun qonşuluğunda yaşayan köçəri tayfalar və dövlətlərlə tez-tez toqquşmalar baş verirdi. Bu dövlət yarandığı ilk dövlərdən başlayaraq öz ərazisini genişləndirməyə çalışırdı. O, cümlədən Kiyev Rus dövlətinin öz ərazilərini genişləndirməyə başlaması Xəzər dövləti ilə də müharibələrə səbəb olurdu. Kiyev Rus dövlətinin qonşuluğunda yaranmış olan Xəzər türk xaqanlığı meydana gəldiyi ilk dövrlərdə Terk çayının aşağı axarlarında və Xəzər dənizinin şimal qərb sahillərində yerləşirdi. Xaqanlığın əhalisi əkinçilik, maldarlıq və balıqşılıqla məşğul olurdu.

Xəzərlər Şimali Qafqazda yaşayan oturaq qəbilələr idi. VI-VII əsrlərdədən başlayaraq türk tayfaları bu yerlərə axın etməyə başladılar. İranda və Bizansda təqiblərə məruz qalan yəudu qəbilələrinin müəyyən hissəsi də Xəzər xaqanlığı ərazisinə gələrək burada məskunlaşdılar.

Xəzərlərin ehtimal olunan yaşadığı ərazilərdə rus sovet alimi L.N.Qumilyovun rəhbərliyi ilə arxeoloji tədqiqatlar aparmış və onların tarixinə dair qiymətli elmi məlumatlar əldə edilmişdir. Müəyyən edilmişdir ki, Xəzər dövləti yarandığı ilk dövrlərdə dənizin səviyyəsi indikindən mənfi 6-8 metr [1, s.222] aşağı olmuşdur. Ona görə də Xəzər dənizi quraqlıqla əlaqədar olaraq çəkildiyi üçün Xəzər xaqanlığının ərazisi geniş dənizsahili əraziləri də əhatə edirdi. Müəyyən tarixi dövlərdə Xəzər dənizinin səviyyəsinin dəyişməsi Xəzər Xaqanlığının əvvəlki paytaxtı Səməndər şəhərinin su altında qalmasına səbəb olmuşdur. Volqa çayının deltası çox geniş idi və Xəzər Xaqanlığın ərazisinin bir hissəsi, o cümlədən sonrakı paytaxtı İtil şəhəri də burada yerləşirdi.

Xəzərlərin əsas düşmənləri Qafqazın Şimal hissəsindəki çöllərdə yaşayan köçəri bulqar və burtas tayfaları idi. VI əsrdə Xəzər tayfaları ilə birləşən türklər bulqarları və burtasları məğlub edərək Xəzər türk Xaqanlığının ərazisində yerləşdilər.

VII əsrin 20-ci illərində Sasani-Bizans müharibəsində Xəzərlər Qafqazın cənub hissəsinə soxulmuşdular. Az sonra Sasani dövləti Ərəb Ərəb xilafəti tərəfindən süquta uğradıldıqdan sonra ərəblər Dərbənd keçidindən şimala hücum etməyə başladılar. Bu dövrdən başlayaraq Azərbaycanı ələ keçirmək üçün yüz ildən çox davam edən xəzər-ərəb müharbələri davam edirdi. VII-VIII əsrlər

ərzində ərəblər Xəzər xaqanlığı üzərinə ardıcıl surətdə hücumlar edirdilər. Azərbaycan torpaqları dəfələrlə əldən-ələ keçmişdi. Ərəb canişinləri əsir alınmış xəzərləri ailələri ilə birlikdə Azərbaycan torpaqlarında yerləşdirirdilər.

VII əsrin ortalarında Orta Asiyada Çinin Tan imperiyası tərəfindən məğlub edilən turkyutların bir hissəsi xəzərlər yaşayan yerlərə gəldilər. 650-ci [1, s.223] ildə xəzərlər turkyutlarla birlikdə özlərinin Xəzər-türk xaqanlığını yaratdılar. Xəzərlər turkyurtların başçısını özlərinə xan etdilər. Türk xaqan xəzərlər üçün çox əlverişli idi. O, öz köçəri təsərrüfatı ilə qış aylarında Volqa çayının aşağı axarlarında dolaşır, yaz-yay aylarını isə Terek, Kuban və Don çayları arasında keçirirdi. Xaqan xəzərlər üçün bütün cəhətlərdən sərfəli idi. Çünki türk xaqan xəzərlərdən vergi almırdı və öz təsərrüfatının gəlirləri ilə dolanırdı. Digər tərəfdən türk xaqanlar xəzərləri ərəblərin hücumlarından müdafiə edirdilər. Ərəblər isə Azərbaycandan-Dərbəd keçidindən tez-tez xəzərlər üzərinə hücumlar edirdilər.

Xəzər xaqlanlığının yarandığı ilk dövrlərdən başlayaraq Bizansda və İranda təqiblərə məruz qalan yəhudilər də tədricən buraya axın etməyə başladılar. Xaqanlıqda ticarətlə məşğul olan yəhudilər tədricən imtiyazlı təbəqəyə çevrilirdilər. İranda yəhudilər hələ II əsrdən görünməyə başlamışdılar və bundan əvvəl Babilin təqibindən qaçanlar da buraya gəlmişdilər. Roma ilə müharibədə məğlub olan yəhudiləri İranda qəbul edir və onları müxtəlif şəhərlərdə, o cümlədən Azərbaycanda da yerləşdirirdilər. Sonrakı əsrlərdə Sasani şahı Kavadın hakimiyyəti illərində dramatik hadisələr baş verdi. Şahın vəziri Məzdək hakim varrlı təbəqələrdən narazı olan xalq kütlələrinin hərəkatına başçılıq edirdi. Bu hərəkat onun rəhbərinin adı ilə Məzdəkilər hərəkatı adlanırdı. Məzdəkilər bərabərlik, o cümlədən bütün əmlakın bərabər bölüşdürülməsi uğrunda mebarizə aparırdılar. İranda yaşayan yəhudilərin bir hissəsi də Məzdəkilər hərəkatına qoşulmuşdular, digər hissəsi isə hərəkatın əleyhinə idilər və üsyan baş verdikdə Bizansa qaçmışdılar. Aclıq illərində güclü üsyan baş verdi və Kavad qaçmağa məcbur oldu. Üsyan yatırıldıqdan sonra Məzdək tutulub edam edildi. Məzdəkilər hərəkatına qoşulmuş yəhudilər Dərbəddən şimala qaçaraq Terek və Sulak çayları arasındakı düzənlik ərazidə yerləşdilər. Xəzrələrlə yəhudilər arasında dinc münasibətlər yarandıqdan sonra pravoslavlığı qəbul etmədiklərinə görə Bizasnda təqib edilən yəhudilər də təqribən qaçaraq Xəzər dövlətində yerləşdilər.

Şimali Qafqazda yerləşən yəhudilər öz adət və ənənələrini unutmağa başladılar. Onlar heyvandarlıq, əkinşilik, ticarətlə məşğul olub, şimal qonşuları xəzərlərlə dostluq münsaibətlərində yaşayır və həm də yəhudi tayfaları arasında iudaizm dinini yayırdılar. Buradakı yəhudilər özlərinin savadlı olmalarından istifadə edərək, diplomatiyanı, maarifi və ticarəti əllərində cəmləşdirmişdilər. VIII əsrdə cəsur yəhudilərdən olan Bulan [2, s.192] öz qoçaq və igidliyinə görə hərbi rəis oldu və yəhudi adətlərini, o cümlədən iudaizm dinini yaymağa başladı. Xəzərlər isə yəhudi adət və ənənələrinə tərəfdar oldular.

IX əsrin əvvələrində yəhudilərin başçısı Obadi Xəzər xaqanlığında dövlət çevrilişi edərək hakimiyyəti ələ keçirdi. Obadi peçeneklərə və qurlara arxalanaraq xəzər türklərini sıxışdırmağa başladı. Xəzər türklərinin bir hissəsi məğlub olaraq məhv edildilər, digər qalan hissəsi isə Macarıstana çəkilib hetdilər.

*Rusların Xəzər dənizi ilə cənub istiqamətində yürüşləri*. IX əsrin sonu X əsrlərdə Kiyev rus dövləti xeyli güclənmişdi və qonşu dövlətlərə qarşı hücumlar edirdilər. Ruslar Xəzər dövləti hökmdarının razılığı ilə buaradn keçərək Xəzər dənizinin cənub sahillərinə, o cümlədən İranın şimalına və Azərbaycana tez-tez qarətçi yürüşlər təşkil edirdilər. Məsələn, 909-cu ildə ruslar hücum edərək İranın Abaskun adaısnda dağntılar törətmişdilər. Sonrakı ildə isə onalr Mazandarana hücum etmiş, lakin məğlub olaraq geri qayıtmışdılar. Bundan sonra 913-cü ildə rusların 500 gəmidən ibarət böyük donanması Xəzər dövlətinin çarı Veniaminin [1, s.225] razılığı ilə Xəzər dənizinə daxil olaraq Gilan, Təbəristan və Şirvanın sahil ərazilərini qarət edib külli miqdarda qənimətlə xəzərlərin paytaxtı İtil şəhərinə qayıtmışdılar. Qarətçi yürüşdən qayıdan ruslar Xəzər dövlətinin çarına xəbər göndərərək şərtləşdirdikləri qənimət payını ona çatdırmaq istədilər. Bu hadisədən xəbər tutan müsəlmanlardan ibarət olan qoşun hissəsi Xəzər çarından tələb etdilər ki, əsir alınmış qadınların, uşaqların və müsəlman qardaşlarının qisasının alınmasına icazə versin. Xəzər çarı müsəlman qoşun hissəsinin ruslardan qisas almasına razılıq verdi. Üçgünlük qanlı döyüşdən sonra ruslar taqətdən düşərək məğlub edildilər. Rusların bu yürüşünü təsvir edən ərəb müəllifi Məsudi yazır ki, onlardan başqa heç

kim bu dənizdə üzmür [2, s.148] sonra o, göstərir ki, çoxlu qənimətlə qayıdan ruslar Volqanın mənsəbində xəzərlərin hücumuna məruz qalaraq darmadağın edildilər. Rusların sağ qalmış qalıqları Volqa çayı ilə şimala qaçsalar da köçəri burtaslar tərəfindən məhv edildilər [3, s.38]. Rus drujinasının 913-cü ildə təşkil etdiyi qarətçilik yürüşü onların faciəvi surətdə həlak olmaları ilə nəticələndi.

Bir sıra uğursuzluqlara baxmayaraq ruslar xəzərsahili ölkələrə yeni yürüşlər təşkil etmək niyyətlərindən əl çəkməmişdilər. Orta əsrlər müəlliflərindən dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin, Ərəb müəllifi Məsudinin və digər müəlliflərin məlumatlarına əsasən müəyyən edilmişdir ki, 913-cü ilə qədər rusların müsəlman ölkələrinə qarşı təşkil etdikləri yürüşlər qarətçilik xarakteri daşımışdır. Tarixi faktlar göstərir ki, artıq onların sonrakı yürüşləri işğalçılıq məqsədilə təşkil edilmişdir. Rusların yürüşlərində Xəzər dövləti də müəyyən rol oynayırdı.

Rusların Xəzər dənizi ilə cənubda yerləşən ölkələrə yürüşləri Xəzər dövləti üçün bir sıra cəhətdən əlverişli idi. Çünki hər uğurlu yürüşdən sonra xəzərlərə xeyli miqdarda pay verilirdi. Digər tərəfdən isə rusların cənub istiqamətində yürüşləri Dərbənddən şimala tərəf ərəblərin irəliləməsinin qarşısının alınmasında xəzərlərə kömək edirdi. Adətən ruslar yaz-yay aylarında yürüşləri təşkil edir, qış aylarının şaxtaları düşənədək geri öz yerlərinə qayıdırdılar.

943-cü ildə rusların Bərdə üzərinə təşkil etdiyi yürüşdə də Xəzər dövlətinin yaxından iştirakı olmuşdur. Müxtəlif orta əsr müəlliflərinin yazılı məlumatları bu fikri təsdiq edir. Nizami Gəncəvi özünün "İskəndərnamə" əsəri üzərində işləyərkən bir sıra tarixi mənbələri ciddi surətdə öyrənmiş, ən mühüm keşmiş hadisələr haqqında, o cümlədən rusların Bərdə üzərində yürüşü barədə dəqiq məlumatlar vermişdir. "İskəndərnamə"də verilən məlumatlardan aydın olur ki, Xəzər dövləti nəinki rusların Bərdə üzərinə yürüşünə icazə vermiş, hətta xəzərlər özləri də bu yürüşdə yaxından iştirak etmişdilər. "İskəndərnamə" poemasında verilən məlumatlar da təsdiq ki, ruslar Bərdə üzərinə Dərbəddən deyil, Xəzər dənizindən yürüş təşkil etmişdilər. Digər müəlliflərin yazılı məlumatlarından da aydın olur ki, 943/44-cü illərdə ruslar Bərdə üzərinə yürüşə böyük hərbi qüvvə ilə başlamışdılar. "İskəndərnamə" əsərindən məlum olur ki, həmin yürüşə Kiyev rus dövlətindən knyaz Sveneld başçılıq etmişdir. Göstərilən əsərdə yazılmış misralar bu tarixi faktı təsdiq edir:

Eşitdi rusların sərdarı Qintal
Ki, dövran doğurmuş başqa bir əhval
Yeddi rus soyundan tərpətdi ordu
Hər qövmə uyan bir yaraşıq vurdu
Burtastan, Alandan, Xərandan hədsiz
Sanasan sel kimi axdı dağ dəniz [4, s.319].

"İskəndərnamə" poemasının misralarından aydın olur ki, rusların yürüşünə hazırlaşərkən knyaz Sveneld yeddi rus torpağından ordu toplamaqla bərabər burtasları, alanları və xəzərləri də bu yürüşdə cəlb etmişdir. Rusların yürüşünə başçılıq edən knyaz Sveneldin adı "İskəndərnamə"də "Qintal" kimi göstərilmişdir. Çünki zaman keçdikcə bu ad fonetik dəyişikliyə uğramışdır. M.Tebenkov və bir sıra müəlliflərin fikrinə görə knyaz Sveneldin adı fonetik dəyişikliyə uğramış və göstərilən şəklə düşmüşdür: Sveneld Svenkal-Kintal (və ya Kvintal) [5, s.501].

Xəzər dövləti çox əlverişli coğrafi mövqedə yerləşirdi. Belə tranzit mövqedə yerləşməsi onun inkişafına müsbət təsir göstərirdi və Çindən gələn ticarət yolunu nəzarətə alaraq Volqa, Don çaylarından, daha sonra isə Kerç boğazından keçən karvan yolu ilə gömrük ticarəti aparırdı. Xəzər Xaqanlığı tranzit ticarətindən böyük mənfəət götütürdü. Xüsusilə burada məskunlaşan yəhudi tacirləri tranzitdən külli miqdarda gəlir əldə edirdilər. Əlverişli tranzit mövqedə yerləşməsi nəinki xəzərlərin ticarətinə mənfəət gətirir, hətta onun hərbi siyasətinə də təsir göstərirdi. Xəzərlər öz sərhədlərindən nəinki ticarət karvanlarını həm də onlarla düşmən münasibətdə olan Xəzər dənizinin cənubunda yerləşən müsəlman ölkələrini qarət etməyə gedən hərbi dəstələri də buraxırdılar.

X əsrin ərəb müəllifi ibn Miskaveyin məlumatlarından da görünür ki, rusların 943/44-cü ildə Bərdə üzərinə təşkil etdikləri yürüş işğalçılıq məqsədi daşımışdır. Digər müəlliflərin də verdiyi məlumatlardan da aydın olur ki, ruslar Bərdə üzərinə yürüşə çox mükəmməl hazırlaşmışdılar. Yürüş ərəfəsində ruslar öz qonşuları ilə münasibətləri özləri üçün münasib vəziyyətə gətirməyə çalışaraq

diqqətlə düşünülmüş tədbirlər görürüdülər. Kiyev rus dövləti Alaniya ilə Xəzər dövlətini və burtasları da yürüşə hazırlığa cəlb etmişdi. Xəzər dövləti əvvəllər Alaniya ilə rəqabət aparırdısa sonralar öz aralarında dinc münasibətlər yaratmışdı.

Ərəb müəllifləri ibn-əl-Əsir, ibn Misqaveyh, Məsudi və başqa orta əsrlər müəlliflərinin verdiyi yazılı məlumatlara əsasən müəyyən edilmişdir ki, 943/44-cü ildə rusların Bərdə üzərində təşkil etdiyi yürüş nəinki qarətçilik, həm də işğalçılıq xarakterində olmuşdur. Onların altı aydan artıq burada qalmaları bu fikri təsdiq edir.

941-ci ildən 982/83-cü illərədk mövcud olmuş Salarilər dövlətinin başçısı Mərzban ibn Məhəmmədin hakimiyyətinin ilk illərində rusların Bərdə üzərinə yürüşü başlandı. Uzun müddət yürüşə hazırlıq işlərini başa çatdırdıqdan sonra ruslar 943-cü ildə Don Volqa çaylarından və Xəzər dövlətinin paytaxtı İtil şəhərindən keçib Xəzər dənizinə daxil olaraq cənub istiqamətində üzməyə başladılar. Ruslar qayılarda Kür çayının mənsəbindən çayın axarına qarşı üzərək Bərdə yaxınlığında Mübarəki adlı yerə çatdılar. Salari Mərzban ibn Məhəmməd beş min nəfərlik dəstə ilə ruslara qarşı çıxsa da onların qarşısını ala bilmədi. Ruslar Mərzban ibn Məhəmmədi məğlub edərək Bərdəni tutdular. Ruslar şəhərin əhalisi ilə dinc münasibətlər yaratmağa çalışırdılar. İbn Miskaveyh yazır ki, ruslar şəhərə daxil olaraq əhaliyə elan etdilər ki, “Bizim borcumuz sizə yaxşı baxmaq, sizin borcunuz isə bizə yaxşı itaət etməkdir” [2, s.148].

Bununla belə ruslar şəhəri tutduqdan sonra soyğunçuluq və qarətçiliklə məşğul olurdular. Onlar şəhərin varlı adamlarını tutub incidir və ödənc alır, tabe olmaq istəməyən əhalini isə qılıncdan keçirirdilər.

Dövrün qaynaqları rusların Bərdəni tutmasını bu cür təsvir edir: “Rusların carçısı əhaliyə üç gün ərzində şəhəri tərk etmək əmrini elan etdi. Getmək imkanları olanların hamısı şəhərdən çıxdı, əhalinin əksəriyyəti isə təyin olunmuş vaxtdan sonra da Bərdədə qaldı. Ruslar onları qılıncdan keçirib xeyli insan məhv etdilər...

Yalnız qaça bilənlər xilas oldular. Ruslar əhalinin əmlakını qənimət kimi ələ keçirdilər, əsirləri qul etdilər, xoşlarına gələn qadınları da özləri üçün seçdilər” [5, s.365].

Salari Mərzban ibn Məhəmməd 30 minlik qoşun toplayıb rusların yerləşdiyi ərazini mühasirəyə aldı və şəhəri geri almaq üçün dəfələrlə həmlə etdi, hər iki tərəfdən xeyli itkilər oldu. Mərzbanın bu döyüşləri haqqında Abbasqulu ağa Bakıxanovun “Gülüstani irəm” əsərində də məlumat verilir. Döyüşlərin biri haqqında əsərdə göstərilir ki, Mərzban bu dəfə hiylə ilə müharibəyə başladı, azacıq müqavimətdən sonra qaçmağa üz qoydu. Ruslar da onları təqib eməyə başladı. Mərzban qayıdıb hücum etdi və pusuqda qoyduğu qoşun da rusların arxasına keçdi [7, s.75-765]. Digər müəlliflərin məlumatlarına görə döyüşlərin getdiyi vaxt rusların sərkərdələrindən biri öldürüldükdən sonra ruslar öz gəmilərinə çəkildilər. Ruslar Bərdədə altı aydan artıq qaldılar və özlərini həm talançı və həm də işğalçı kimi göstərirdilər. Müxtılif tarixi mənbələrdən də məlum olur ki, onların məqsədi Bərdədən Bağdada qədər olan əraziləri işğal edib, burada öz knyazlıqlarını yaratmaqdan ibarət olmuşdur. Az sonra rusların düşərgəsində ağır itkilərlə nəticələnən yatalaq xəstəliyi baş verdi və onlar qənimətlərini də gəmilərə yükləyərək geri üzməyə məcbur oldular. Beləliklə rusların Bərdədən Bağdadadək olan torpaqları işğal edib öz knyazlıqlarını yaratmaq cəhi baş tutmadı.

*Nəticə*. VI-VII əsrlərdə xəzərlər Qafqazın şimal-şərqində yaşayan oturuq qəbilələr idilər və əkinçilik, həm də maldarlıqla məşğul olurdular. Göstərilən əsrlərdən başlayaraq türk tayfaları bu yerlərə axın etməyə başladılar və 650-ci ildə xəzərlərlə birləşəcək Xəzər Xaqanlığını yaratdılar. Az sonra İranda və Bizansda təqib edilən yəhdilər də Xəzər türk Xaqanlığına axın edərək burada yerləşdilər. Yəhudilər əsasən ticarət və mədəniyyətlə məşğul olur. Çinlə gedən tranzit ticarətində başlıca rol oynayırdılar. Çünki “İpək yolu”nun bir qolu Xəzər Xqanlığının ərazisindən keçirdi. Yəhudilər tədricən Xəzər Xqanlığında dövlət idarəçiliyiin də ələ keçirdilə və buraya yəhudilərin yeni axınları baş verdi. IX əsrin əvvəllərində yəhudilərin başçısı Obadi xaqanlıqda hakimiyyəti ələ keçirdi. O, İranın – Xəzərin cənubunda yaşayan tayfalardan muzdla qoşun təşkil edərək xaqanlıqda yaşayan türk tayfalarının xeyli hissəsini məhv etdi. Türklərin qalan digər hissəsi isə Macarıstana çəkilib getdilər. Xəzər dövləti rusların Xəzər dənizinin cənubundakı torpaqlara qarətçi yürüşlərinə şərait yaradırdı və əvəzində qarət edilmiş qənimətdən pay alırdı. Rusların 943/44-cü illərdə Bərdə

üzərinə təşkil etdiyi yürüşə də Xəzər dövləti şərait yaratmışdı. Lakin rusların işğalçılıq və qarətçilik məqsədilə təşkil etdiyi bu yürüşdə qənimət ələ keçirsələr də öz işğalçılıq niyyətlərini həyata keçirə bilmədilər. Yəni onlar burada öz knyazlıqlarını yarada bilməyərək geri qayıtmağa məcbur oldular.

ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Üç cilddə. I cild. Bakı, Akademik nəşr, 1958, 148 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild. Bakı, Elm, 2007, 365 s.
3. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı, Kitab klubu, 2015, 76 s.
4. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, Lider nəşriyyatı, 2004, 319 s.
5. Лев Гумилев. Открытие Хазарии. Москва, Айрис-Пресс, 2004, 225 с.
6. Лев Гумилев. От руси до России. Москва, Айрис-Пресс, 2008, с.38.
7. Лев Гумилев. Тысячеления вокруг Каспия. Москва, Айрис-Пресс, 1997, 501 с.



**АББАС МАСИМОВ**

*Доктор философии по истории, ст. пред. АУК*


## ПОХОД РУССКИХ НА БЕРДАА И СТРЕМЛЕНИЕ СОЗДАТЬ ЗДЕСЬ КНЯЖЕСТВО


В статье анализируется сведения средневековых авторов “о походе русских на Бердаа в 943/4 гг”. Согласно Низами Гянджеви, Масуди, Ибн Мискавейха и других русские напали на Бердаа из Алании и Хазарии и хазары не только препятствовали походу на Бердаа, но даже участвовали в нем своими союзниками алании и буртасами. До 913 г. походы русских носили характер налётов с целю захвата военной добычи. Поход русских войск на Бердаа в 943/44 гг. был завоевательным походом. Новая завоевательная политика русских в Бердаа свидетельствует о том, того русские хотели создать в Бердаа княжества.



*Ключевые слова*: хаган, болгар, буртас, наместник, льгота, дельта, дипломатия, иудаизм, союзник, княжество.



**ABBAS MASIMOV**

*PhD in history, head teacher of the ACU*


## THE RUSSIAN CAMPAIGN AGAINST BARDA AND THE DESIRE TO CREATE A PRINCIPALITY HERE


The article analyzes the information of medieval authors “about the Russian campaign against Barda in 943/4 years”. According to Nizami Ganjavi, Masudi, Ibn Miskaveikha and others, the Russians attacked Barda from Alania and Khazaria, and the Khazars not only obstructed the campaign against Barda, but even participated in it by their allies Alania and Burtases. Until 913, Russian campaigns were in the nature of raids with the aim of seizing military booty. The campaign of the Russian troops to Barda in 943/44. was an aggressive campaign. The new aggressive policy of the Russians in Barda shows that the Russians wanted to create a principality in Barda.



*Keywords*: khagan, bulgar, burtas, viceroy, privilege, delta, diplomacy, judaism, ally, principality.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Zakir Əliyev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**АГАСАЛИМ ЭФЕНДИЕВ**
*Доктор философии по искусствоведению,*
*докторант Национального Музея Истории Азербайджана*
**efenag@yahoo.com**

# ИСТОРИЯ АЗЕРБАЙДЖАНА В ИСКУССТВЕ XIII ВЕКА

*Рукопись, "Варга и Гюльшах" написана прекрасным "насхи", а качество миниатюр говорит о царском происхождении заказчика. "Варга и Гюльшах" является единственным полным манускриптом, сохранившимся с домонгольского времени. Написанная в XI веке поэтом Айуки, в начале XIII века она была иллюстрирована художником Абдульмумином ибн Мухаммедом аль-Хойи. Из 71 миниатюры рукописи 25 являются сценами битвы войск или поединками как "Раби истребляет соплеменников Гюльшах", "Поединок Раби б. Аднана с воином из племени Бану Шейба», "Варга побеждает армию Адена".*

*Большое расписанное глазурью блюдо (т.н. хафт ранг / минаи) из Галереи Фрир в Вашингтоне описывает успешную осаду крепости на лицевой и охоту на оборотной стороне. Лицевая часть изображает сложное повествование о битве и дает имена победителей – тюркских эмиров, которые играли ключевую роль в нескончаемых стычках, захватах укреплений и битв в регионах Южного Азербайджана. Блюдо это уникально по своей визуальной программе, размерам и специфическому применению эпиграфии. Оно также уникально среди существующих образцов XII – XIII вв. с изображением современных событий.*

*Ключевые слова*: Музей Топкапы, Миниатюры, рукопись "Варга и Гюльшах", Айуки, Абдульмумин ибн Мухаммед аль-Хойи, керамическое блюдо из галереи Фрир в Вашингтоне, техника Минаи ("Хафт ранг").

*Введение.* Настоящая история батального жанра, как одного из важнейших в средневековом изобразительном искусстве Ислама начинается с единственного полного манускрипта начала XIII века – миниатюр к поэме Айуки "Варга и Гюльшах" (Стамбул, Топкапы, H.841). Оставаясь еще в подчинении древнейших стереотипов, художник в некоторых из миниатюр делает усилие к преодолению застылости, развивает и обогащает действие, вводя в композицию дополнительные персонажи (2, 11).

Миниатюры стамбульской рукописи "Варга и Гюльшах" Айуки (Музей Топкапы, Hazine 841) представляют исключительный интерес как произведение, значительно расширяющее рамки истории азербайджанской живописи и уходящее в героическую эпоху правления Сельджуков.

"Варга и Гюльшах" (H.841) является единственной рукописью, сохранившейся полностью от начала XIII века, т.е. домонгольского периода. Миниатюры ее пересекают по горизонтали все пространство текстовой части листа. И все они, за исключением первой – повествовательны.

Художником ее был азербайджанец Абд-аль Малик, уроженец Хоя. Роскошная рукопись могла быть представлена Махмуду Газневи. Она украшена 71 миниатюрой, богато иллюстрировавшими почти все эпизоды поэмы. 25 из них – батальные. Рукопись датируется стилистически XIII веком, т.к. типы людей, их прически в 4 косы – типично сельджукские, хотя и кони написаны в (синизирующей) китайской манере.

Р.Эттингаузен, М.Ипшироглу и С.Эйубоглу в своем предисловии к альбому «Turkey. Ancient Miniatures», по этому поводу оставляют открытым вопрос их происхождения(7, 4). Скорее всего, они считают иллюстрации Варги общетюркскими, хотя и прежде конкретизировали их Азербайджаном, и в этом мы с ними полностью согласны с обеими версиями, которые не противоречат друг другу.

По ряду признаков, не требующих доказательств – художник – тюрок: это и динамичность, гротескность, подчас даже карикатурность персонажей, ярость битвы – реальная в

своей силе убеждения, кони являются результатом долгих наблюдений, животные – предвещают шедевры Тебризской Калилы и Димны из Стамбульского Университета.

Айуки не упускает ни одной возможности затронуть тему войны.

Надпись над первой миниатюрой рукописи гласит: "Ночная атака Раби б. Аднана". На миниатюре тяжеловооруженные рыцари и пешие воины сражают внезапностью жителей племени Гюльшах.

После ночной атаки (л.9а). «Картина лагеря племени Бану Шейба с убитыми и ранеными после ночной атаки». – Таков текст эпизода под миниатюрой. «И в таком состоянии они оставались всю ночь, а утром они пронзили врага». Двустишие же вверху, над миниатюрой гласит: «Столько людей этой темной ночью погибло, что собралась целая гора трупов». У них под ногами четыре лежащих тела. В этой миниатюре – наибольшее количество фигур среди всех прочих миниатюр рукописи.

В миниатюре, иллюстрирующей строфу "Варга и его отец, словно разъяренные львы, покидают племя и направляются к равнине" их имена написаны над головами. Трое сопровождающих их всадников отношения к тексту не имеют. Одной фразы текста хватило, чтобы художник создал картину кавалькады воинов. Эту композицию также характеризует строгая симметрия.

Пристрастие художника к баталиям выражается в том, что… следующая миниатюра рукописи – "Поединок Раби б. Аднана с воином из племени Бану Шейба очень выразительна. Двустишие под ней гласит: "Раби бросился в бой. Острие его сабли прошло сквозь воина с головы до седла". В миниатюре на нейтральном фоне листа выделяются силуэты скачущих навстречу друг другу воинов: по 2 с каждой стороны.

Миниатюра "Раби рассекает надвое голову отца Варги", расположенная внизу листа, обрамлена снизу и сверху текстом: "Так сказал он и яростно бросился в бой. Своим закаленным в боях мечом он нанес удивительный удар и рассек его разом надвое". В этой миниатюре, как и во всех остальных, царит строгая симметрия, но ее отличает от других интересная деталь: растянувшийся в прыжке конь Хомама занимает в левой части композиции столько же места, сколько и Раби со спутником. Мощное движение слева направо завершается на рассеченной фигуре Хомама.

Итог поединка в следующей миниатюре отвечает тексту: "Раби б. Аднана обуяла ярость. Этот самодовольный пес сделал выпад и вонзил острие своего копья в бедро соперника".

"Варга освобожден, Гюльшах убила Раби" гласит надпись, сделанная художником рукописи. Миниатюра соответствует тексту, где "Эта юная дева с храбрым сердцем ударила Раби копьем в самое сердце, пронзив его насквозь. Так безжалостно убила его она ". Миниатюра "Старший сын Раби убит Гюльшах" довольно динамична в сравнении с другими: она пронзает сына Раби копьем насквозь. Изогнувшийся от удара юноша, вместе с конем образует круговую композицию.

В миниатюре "Поединок Гюльшах с Галибом", также как и в ряде предыдущих, всего два персонажа, схватившихся в поединке. Поединок Гюльшах с Галебом (л.24б). Надпись над миниатюрой: «Она набросилась на него, как Ангел Возмездия и нанесла удар копьем, он же вырвал копье из ее рук". И вновь здесь странной формы, как и весь растительный мир миниатюр рукописи, дерево в виде тройного подсвечника. Как и в некоторых предыдущих миниатюр, здесь пустоты заполнены летающими птицами, а под ногами коня Галиба бежит охотничий пес, заимствованный из сцен охоты.

В многофигурной сцене битвы "Варга побеждает армию Адена" – поздняя надпись, уточняющая действие миниатюры, где Варга выступает против объединенных войск противника. "Так сказал он и этот защитник армий и похититель жизней целую армию уложил, сравняв с землей".

Рукопашная Гюльшах с Галебом (л.25б). В миниатюре "Рукопашная Гюльшах с Галибом", также как и в ряде предыдущих, всего два персонажа, схватившихся в поединке. Гюльшах вновь справа. По тексту Галиб отсек голову коня Гюльшах под самое основание

шеи, а она, в свою очередь, подрубила колени его коня, отчего он упал прямо на голову. Именно в этот момент и изображены герои сюжета. «Обеими руками он схватил Гюльшах за пояс и подтянул к себе, словно воспламенившийся от ярости слон». Слева вверху – шамшир и копье Галиба, брошенные в нее, а справа, также вверху, щит и сабля Гюльшах, уравновешивающие композицию. В тексте они не упоминаются. Любопытно, что художник не делает различия между шамширом, саблей (тиг) и кинжалом (ханджар) в изображении.

Варга одним ударом отсекает голову стража.

В средневековом изобразительном искусстве ислама – одной из наиболее выраженных, а посему и наиболее ярких рефлексий духа ислама – отсутствовала необходимость в зрительном закреплении облика изображаемых героев. Художник ограничивался только стереотипом, этнографически оформленным и непременно непостоянным обликом персонажей. Стереотипные изображения типа *махруй* (луноликий, луноликая) или сочетания женских и мужских лиц с косами оставались только абстрактными образами, узнать которые без надписи или вне текстового сопровождения не представлялось возможной.

На основании сравнительного стилистического анализа с тремя современными ей рукописями, "Варгу и Гюльшах" можно датировать или самым концом XII века или же первой третью XIII.

Из этого ясно следует, что художник XIII века не ставил целью точное иллюстрирование действия, эпизода литературного произведения, а создавал синтетический образ темы, избранной для миниатюры он излагал художественными средствами не саму историю, а основную идею ее.

Миниатюры стамбульской рукописи "Варга и Гюльшах" Айуки (Музей Топкапы, Hazine 841) представляют исключительный интерес как произведение, значительно расширяющее рамки истории азербайджанской живописи и уходящее в героическую эпоху правления Сельджуков.

Эти миниатюры на сегодняшний день можно считать первым из образцов азербайджанской живописи.

Вторым значительным образцом, запечатлевшим историю Азербайджана, но уже в лицах, в отличие от безымянных тюркских воинов из «Варги», является керамическое блюдо из галереи Фрир в Вашингтоне.

Однако, прежде анализа Фрировского блюда обратимся к истокам этого искусства керамики.

Иранская керамика из Рея и Кашана для нас имеет вдвойне важное значение. С этой стороны, многочисленные сосуды и блюда с изображениями персонажей – единственное, что осталось от изобразительного искусства XII в., с другой – они свидетельствуют о влиянии арабской живописи на иранскую, а не наоборот. Лейн (4, 69) считает, что не только искусство египетских керамистов, но и они сами лично внесли лепту в развитие иранской керамики. В самом деле, керамика Рея появляется лишь после падения династии Фатимидов в 1171 г. и самый ранний образец относится к 1179 г. Техника люстра была хранима как секрет в нескольких семьях Междуречья, затем перенесена в Египет, и позже – в Иран (4, 37).

Некоторые рейские вещи, как блюдо с сокольничим, Лейн вообще относит руке египетского мастера. "В самом деле, – пишет он на стр.38, – керамика Рея расписана крупным штрихом и без детализации и завершенности, т.е. в манере, в которой фатимидское искусство эволюционировало и стало повсеместным в Айубидский период (1171-1250)". Вначале, как и в Египте, лица были крупными, а черты – индивидуальными, но затем фигуры мельчают, а изображение орнаментализируется, что позволяет Лейну утверждать, что именно этот стиль перешел в миниатюрную живопись (4, 55). Но в таком случае он утверждает о существовании в XII в. в Иране иллюстративных рукописей, тогда как их на сегодня нет. И потом, первые миниатюры, дошедшие до нас, XII в. доносят крупные фигуры, занимающие почти все пространство, например, "Макамы" и "Калила и Димна" Бидпая, позже - "Варка и Гюльшах". Скорее, это течение в искусстве с мелкоформатными персонажами, и оно перешло в керамику типа "Минаи". Одним из примеров мелкофигурного направления является блюдо из галереи

Фрир в Вашингтоне. Сама техника Минаи – эмалевая, семицветная (“Хафт ранг”) появляется в последней четверти XII века и исчезает в эпоху монгольского нашествия. В блюде из Фрир композиция вмещает десятки персонажей, пеших, всадников, боевых слонов и все виды вооружения. Их имена написаны над головами. Но в подобной керамике есть история Бижана, размещенная в три ряда, охота Бахрама Гура, триумф Фаридуна и т.д. Лейн утверждает, что все они были расписаны сельджукскими художниками миниатюристами, чьи рукописи погибли во время монгольского нашествия. Лейн, не знакомый с “Варкой и Гюльшах”, называет “Китаб-и Самак-Айар” середины XIV века.

Характерно для крупнофигурной керамики неподчинение композиции круговой форме, и ее самостоятельность.

Персидский же стиль – тяжеловесный и примитивный. Оба вида керамики производили на Среднем Востоке пока монголы в 1259 г. не осадили Ракку, центр керамики в Египте.

Сцена взятия крепости на блюде из Фрир – одно из самых ярких изображений крупномасштабных баталий в искусстве начала XIII века. Слева в композиции – атакуемая крепость, нижняя часть которой облицована керамическими плитами. Сквозь бойницы в верхней ее части стреляют лучники. Чуть выше – изображена катапульта, из которой метают на врага каменные глыбы. Вокруг крепости разбросаны в беспорядке шлемы и кольчуги, и это – уловка обороняющихся с целью показать большее число воинов, нежели в реальности. Нападающие скачут справа на маленьких степных лошадках, располагают также боевым слоном, которого художник уменьшил в масштабах. В центре композиции, на первом плане – часть осаждаемых, сделавших вылазку, но убитых, их трупы рассеяны по земле. Раздетые тела убитых – довольно редкое явление в изобразительном искусстве Ислама.

Композиция, сложная и многофигурная, резко отличается от односложных изображений на керамике того времени, как и миниатюр “Варги и Гюльшах”. Она позволяет предполагать существование более сложных и разработанных композиций, представляющих прогрессивное явление по сравнению с миниатюрами “Варги”. Она, несомненно, пришла в декоративно-прикладное искусство из миниатюрной живописи, т.к. последняя всегда была лидирующей, приоритетной в искусстве Ислама.

Таким образом, задача историка не ограничивается предложением интерпретации, но также и попыткой восстановления истории региона.

Детальное исследование надписи на ободке даёт возможность идентификации местности, где происходило событие – Таромские горы по границе Азербайджана (Иранского) и Дайлама. В статье изучаются две различные версии датирования события и, также места изготовления блюда. Первое предположение указывает на место происшествия, как одного из подвигов и приключений Султана Джалаладдина Мингбурну, последнего из Хорезмшахов в 1220-е годы. Другое предположение, исходящее от общепринятой хронологии и стилистических особенностей Кашана, как центра керамического производства, размещает событие ещё ранее, среди событий конца XII – начала XIII веков.

Исследование предлагает наиболее определенный анализ изображений на обеих сторонах, а также исторической среды, в которой создавалось блюдо, как и визуальную программу его заказа и производства.

Как физическим, так и визуальным центром сцены осады является одиночное изображение птицы. Её окружают две фигуры, и так проявляется ядро истории: победа осаждающих и поражение осаждённых. Справа от птицы скачет вождь атакующей армии, специально идентифицированный как по титулу, так и по имени как господин (худавенд) Музаффар аль-Давла ва-ль-Дин. Слева безымянный глава осаждаемых падает с парапета своего замка, с телом, простреленным двумя стрелами. Победившая армия охватывает центральное пространство шестью рядами, пятью по площади блюда, а шестым – по ободку кругом.

В XII – начале XIII вв. в регионе сформировались три значительные силы: Великие Сельджукские Атабеки, Исмаилиты и Хорезмшахи. Сельджукская Атабекская династия Эльдегизидов контролировала Азербайджан, а иногда и значительную часть Джибала (Верхогорья). Эльдегизиды взяли своё название от имени Шамсаддина Эльдегиза (ок.530-57/1136-

1175), который владел Азербайджаном как собственным уделом с 540/1146 г.; его владения простирались до Ирака. Он был атабеком сельджукских принцев Арслан-шаха ибн Тогрула и Малик шаха ибн Салджука, и значительно повысил свой престиж, женившись на Момине-хатун, матери Арслан-шаха и вдове Великого сельджукского султана Тугрила ибн Мухаммада ибн Маликшаха. Сыновья Эльдегиза были столь тесно связаны с главным (основным) сельджукским родом, что последние дали им достаточно высокий статус для развития придворной культуры, а также власть и разрешение вмешательства в многочисленные диспуты и предупреждать всякие попытки против их контролирования Западного Ирана. Эти сыновья, Нусрат аль-Дин Мухаммад Джахан Пахлаван (ум. в 1187) и Музаффар аль-Дин Кызыл Арслан Осман (ум. в 1191) были атабеками последнего из Великих Сельджукских султанов Ирана Тугрила (пр. в 1176-94 гг.). Джахан Пахлаван сформировал и содержал своё собственное формирование мамлюков-пахливанцев, которым он поручал различные административные и военные задачи. Эти мамлюки, на деле тюркские рабы (гуламы), а ныне эмиры, были возвышены до значительных должностей (1, 81-82).

Главная сцена на блюде была преждевременна, она опережала свою эпоху. Лишь век спустя сцены битв и осад регулярно появляются в иллюстрациях рукописях Рашидаддина и почти в то же время в рукописях Шах-наме. Во многом сцена осады предвосхищает эти сцены и вводит жанр, в дальнейшем развивавшийся школами Востока, как «Зафар-наме» и «Бабур-наме».

Многое в нём спорно. Одно лишь несомненно: время битвы (I четверть XIII в.) и место – Халхал на юго-восточной границе Азербайджана. Перечисленные лица – это представители тюркского военного класса эмиров. Кто его заказчик, статус блюда и его датирование в ряду других блюд хафт ранг - неизвестено.

*Заключение.* Расцвет Сельджукского искусства можно расценивать не только как взлёт городского и ремесленного искусства и визуальной культуры, но и как много мерную и длительно существующую динамику, которая обладала потенциалом, способным переосмыслить и преобразовать недавнее прошлое в эпическую форму. Атабеки и Мамлюки, как и ремесленники и историки, запечатлели память о событии, накладывая на визуальный код события его преподнесение. Они расширили и распространили этот код для использования его в будущем для больших иллюстрированных эпиков и исторических летописей XIV в.

ЛИТЕРАТУРА

1. Буниятов З.М. Государство Атабеков Азербайджана. Баку, «Элм», 1978, 136 с.
2. Эфендиев А. Батальный жанр в азербайджанской миниатюрной живописи XIII-XVI веков. Баку, Хазар, 2009, 182 с.
3. Holod Renata. Event and Memory: The Free Gallery's Siege Scene Plate //Ars Orientalis, Vol.42, Smithsonian Institution, 2012, pp.194-219.
4. Lane Arthur. Early Islamic pottery. New-York, Van Nostrand, 1948, 52 p.
5. Melikian-Chirvani A.S. Le Roman de Varqe et Golsah / Arts Asiatiques, 11, 1970, 283 p.
6. Papadopoulo Alexandre. L'Esthetique de l'art musulman. Vv. I-VI, Paris, Lille, 1972, v. I., 724 p.
7. Turkey. Ancient Miniatures. Preface by R.Ettinghausen, Introduction by M.S. Ipsiroglu & S.Eyuboglu. First Edition. Paris, New York Graphic Society,1961, 26 p., 32 color plates.

**AĞASƏLİM ƏFƏNDİYEV**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Azərbaycan tarixi muzeyinin doktorantı*

## XIII ƏSR TƏSVİRİ SƏNƏTİNDƏ AZƏRBAYCAN TARİXİ

"Vərqa və Gülşah"ın əlyazması gözəl "nəsx" xətti ilə yazılmışdır, miniatürlərin keyfiyyəti isə sifarışçinin kral mənşəyindən xəbər verir. "Vərqa və Gülşah" monqolara qədərki dövrdən günümüzə qədər tam olaraq gəlib çatan yeganə əlyazma əsəridir. XI əsrdə şair Ayyuki tərəfindən yazılmış əsər XIII əsrin əvvəllərində rəssam Abd əl-Mumin əl-Xoyi tərəfindən təsvir edilmişdir. 71 miniatürdən

25-i döyüş səhnələrini əks etdirir: "Rabi Gülşahın qəbilə yoldaşlarını məhv edir", "Rabi ibn Adnanın Banu Şeyba qəbiləsindən olan bir döyüşçü ilə döyüşü", "Vərqa Adenin ordusunu məğlub edir" və s.

Vaşinqtondakı Freer qalereyasında saxlanılan boyalı qabın ("haft ranq" / minai) ön tərəfində bir qalanın uğurlu mühasirəsi, arxa tərəfində isə bir ov təsvir edilmişdir. Lövhənin ön tərəfində mürəkkəb bir döyüş hekayəsi təsvir edilir və bu döyüşlərin qaliblərinin - Cənubi Azərbaycan bölgələrində aramsız toqquşmalarda, qalaların ələ keçirilməsində və döyüşlərdə əsas rol oynayan türk əmirlərinin adlarını əks etdirir. Lövhə vizual proqramı, ölçüsü və epiqrafiyanın xüsusi istifadəsi ilə unikaldır. O həmçinin XII-XIII əsrlərə aid mövcud nümunələr arasında da həmin dövrün hadisələri əks etdirməsi ilə də bənzərsizdir.

*Açar sözlər*: Topqapı muzeyi, miniatürlər, "Varqa və Gülşah" əlyazması, Ayuki, Əbdülmümin ibn Məhəmməd əl-Hoyi, Vaşinqtondakı Freer Qalereyasından keramika yeməyi, Minai texnikası ("Haft ranq").

**AGASALIM EFENDIYEV**
*Philosofy doctor in art History,*
*Doktorant of Azerbaijan National Museum of History*

## THE HISTORY OF AZERBAIJAN IN THE ART OF XIII CENTURY

The manuscript was written in wonderful "naskhi", while the quality of miniatures testifies to the royal origin of the customer. "Warka and Gulshah" is the only manuscript that survived in full from the pre-Mongol period. Its miniatures lie across the whole textual part of the sheet. They are all narrative. Written in XI c. by the author of the poem, Ayyuki, at the beginning of XIII c. it was illustrated by the painter Abd al-Mumin al-Khoyi. From 71 miniatures, 25 are Scenes of mass battles or single-battles like "Rabi exterminates Gulshah's fellow tribesmen", "Rabi b. Adnan's fight with a warrior from the Banu Sheyba tribe", "Warka defeats Aden's army" and others.

The large enamel-painted (so-called *haft rang/mina'i*) plate in the Freer Gallery depicts the successful siege of a castle on the front and hunting feats on the back. This study proposes an interpretation of the plate, its time, and its intended audience. The front of the plate portrays a complex narrative of a battle and names the victors - Turkish emirs who played key roles in the incessant skirmishes, fort takeovers, and battles in the regions of Azerbaijan northwest Iran.

*Keywords*: Topkapi Museum, Miniatures, manuscript "Varga and Gulshah", Ayuki, Abdul-mumin ibn Muhammad al-Hoyi, a ceramic dish from the Freer Gallery in Washington, Minai technique ("Haft rank").

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 mart 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94**

**SAMİRƏ QASIMOVA**
*Dosent əvəzi,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**samira.qasimova82@mail.ru**

# DÜNYANIN QƏDİM VƏ QÜDRƏTLİ XALQLARINDAN OLAN TÜRKLƏRİN TARİXİNƏ DAİR

*Məqalədə dünyanın ən qədim və qüdrətli xalqlarından olan türklər haqqında bəhs olunur. Türklərin təxminən dörd min il bundan əvvəl Altay – Sayan dağları boyunca yaşamaları tarixi fakt kimi təsdiqlənmişdir. Türklər Asiya, Avropa və Afrika qitələrinə yayılmış və həmin ərazilərdə böyük dövlətlər, imperatorluqlar qurmuşlar. Bununla yanaşı türk mədəniyyəti, türk dili, türk elmidə tarix boyu ən öncül mövqedə olmuş, bir çox xalqların mədəniyyətinə təsir edərək dərin iz buraxmışdır. Yetişdirdikləri ədəbi şəxsiyyətlər bütün dünyada öz təkrarsız yaradıcılıqları ilə tanınmış, mənsub olduqları xalqa böyük şöhrət qazandırmışlar. Ən vacib məqamlardan biri də odur ki, Vətən sevgisi əski türklərdə çox qüvvətli idi. Vətən sevgisi əski türklərdə vətənin müstəqilliyi ilə birgə toplumu birləşdirən ideya idi.*

*Açar sözlər:* qədim türklər, türk xalqları, zəngin tarix, imperiya, dövlət, türk mədəniyyəti.

*Giriş*. Türklər dünyanın qədim və qüdrətli xalqlarındandır. Çin səddindən Balkanlara, Sibirdən Bəsrə körfəzinə qədər yayılan türk xalqları uzaq, qədim bir tarix daşımaqdadırlar. Türklər Avropa və Asiyanın, o cümlədən Qafqazın tarixində ən qədim çağlardan müstəsna rol oynamış, nəhəng imperiyalar qurmuş, böyük mədəniyyətə sahib olmuşlar. XX əsr türk ədəbiyyatının məşhur nümayəndəsi Ə.Nesinin təbirincə desək "hər bir millətin böyüklüyü onun əhalisinin çoxluğuna və ərazisinin genişliyinə görə müəyyənləşdirilmir. Hər bir xalqın böyüklüyü onun tarix və mədəniyyətinin qədim və zənginliyinə görə müəyyənləşdirilir". Bu mənada türklər öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında böyüklüyünü, aparıcılığını tam şəkildə təsdiqləyə bilmişlər.

Bu bir həqiqətdir ki, qədim və zəngin tarixə malik olan türk xalqlarının dünya ədəbiyyatının inkişafında yaxından iştirak etmiş, yetişdirdiyi ədəbi şəxsiyyətlər bütün dünyada öz təkrarsız yaradıcılıqları ilə tanınmış, mənsub olduqları xalqa böyük şöhrət qazandırmışlar. Türk mədəniyyəti, türk dili, türk elmidə tarix boyu ən öncül mövqedə olmuş, bir çox xalqların mədəniyyətinə təsir edərək dərin iz buraxmışdır. Türk qövmlərinin Yaxın Şərq, Şərqi Avropa, Balkanlar, antik mədəniyyətllə ən azı iki-üç min illik təmaslarını təsdiq edən faktlar çoxdur [3, s.6]. Bu mənada türklər öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında böyüklüyünü, aparıcılığını tam şəkildə təsdiqləyə biliblər. Türklərin əsrlərdən bəri yaratdığı bu mənbələr indi də qorunub saxlanılır. Məsələn, Hun türklərinin "Oğuzxaqan", göytürklərin "Bozqurd", uyğur türklərinin "Köç" dastanları İslama qədər yayılmışdır. İslamdan sonra Qaraxanlı türkləri "Satuq Buğraxan", oğuz türkləri "Kitabi-Dədə Qorqud", qırğızlar tarixi "Manas" dastanlarını yaratmışlar. Bununla yanaşı türklər dünyada yazısı, yəni özlərinə aid bir neçə əlifbası olan öndər toplumlardan biridir. Bu gün məqsədli olaraq Orxon və ya Yenisey əlifbası deyə də adlandırılan bu yazı sisteminin zaman-zaman başqa xalqlardan türklərə keçdiyinə dair iddialar varsa da, hələ ki bu vəziyyət elmi sübut edilməmişdir [5, s.8].

Qədim türklərin vətəni ilk orta əsrlərdən bəri Türküstan kimi tanınan geniş çöllərdir. Şimalda Köqmən (Sayan) dağlarına, Sibir meşələrinə, Cənubda Tibetə, Şərqdə Sakit okcana, Sarı dənizə, Qərbdə isə Aral gölünə, Xəzər dənizinə, sonralar isə Qərbi Avropaya qədər uzanan bu çöllərdə türk atlarının ayaq səslərini qədim dövrlərin tarixçiləri hələ də eşidirlər. Arxeoloji araşdırmalar göstərir ki, haqqında söhbət gedən gcniş coğrafiyada türklərdən öncə hər hansı bir etnos- xalq tərəfindən ardıcıl şəkildə yaradılmış maddi mədəniyyətin izlərinə təsadüf cdilmir. Və həmin coğrafıyanın ilk dastanlarmı türklər söylədikləri kimi, ilk nəğmələrini də türklər oxumuş, ilk yazılarını da məhz türklər yazmışlar [1, s.3-4].

Bu gün qəbul edilən əqidəyə görə, türklərin ana yurdu Orta Asiyada Altay-Ural dağları arasındakı bozqırlar buradan ətrafa yayılmışlar. Əhalinin sürətli artımı, heyvandarlıq üçün əlverişli yerlərin axtarılması, varisliklə bağlı hakimiyyətdə olmayanların boş ərazilərdə yeni dövlətlər qurması (Şato, Tavqas və s.), iqlim dəyişiklikləri (Böyük hun köçü), daha güclü dövlətlərin təzyiqi altında köçüb getmə (Çin dövlətinin güclənməsi ilə "Tyuku" (türk) dövlətinin iki yerə parçalanması və köç etməsi), yeni ölkələrin zəbt edilməsi türk xalqlarının geniş ərazilərdə yayılmasına səbəb olmuşdur. Türklərin əski ataları e.ə. 1700-cü ildə Altay və Tanrı (Tyan-şan) dağları ətrafına hakim olmuşlar. Bunların bir qismi Qazaxıstan yolu ilə Mavərənnəhrə gəlib, arilər və Ural ellərilə təmas qurmuşlar. Əski türk ellərinin bir qismi ana yurddan ayrılaraq Çinin şimal qərbində Qansu və Ordos (Daxili Monqolustanda) bozqırlarına köçmüş, bir qismi isə İtil (Volqa) çayından keçib Qara dənizin quzey bozqırlarında yerləşmişlər. Bu ayrılıq onların dillərində də təsir qoyub, müxtəlif ləhcələrin meydana gəlməsinə səbəb olmuşdur. Qərbə gedən türklərdən bir qismi iskitlərin (saka) yanına gedib, onlarla bərabər yaşamışlar və onların hakim güruhunu təşkil etmişlər. Eramızdan min il qabaq türklər ilk dəfə olaraq Hindistana Hind-Pəncab məntəqəsinə köçmüşlər. Türk köçərilərinin miladdan sonrakı köçləri tarixlərdə qeyd edilmişdir. Məsələn, Orxon məntəqəsindəki hunların Güney Qazaxıstan və Türküstan bozqırlarına mühacirəti eramızın I əsrinin sonlarında başlamış, hunların yenidən Avropaya köçləri eramızın 375-ci ilində və hunların (eftalilərin) Əfqanıstan və Hindistana mühacirətləri eramızın 350-ci ilində olmuşdur. Oğurların (oğuzların qardaşları) Cənub-Qərbi Sibirdən Rusiyanın güneyinə mühacirətləri 65-461-ci illərdə olmuş və oğuzlar Orxon məntəqəsindən Seyhun çayı kənarına miladın onuncu qərnində köçüb, sonra Mavərənnəhrdən İran və Anadoluya keçmişlər. Avar türkləri Qərbi Türküstandan Orta Avropaya VI əsrin ortalarında, bulğar türkləri Qara dənizin qüzeyindən Balkana və Volqa çayının kənarına 668-ci ildən sonra mühacirət etmişlər. Sabar türkləri Aralın qüzeyindən Qafqaza V əsrin ortalarında və macarlarla bərabər bir dəstə türk Qafqazın şimalından orta Avropaya 835-ci ildən sonra köçmüşlər. Peçenq və kuman (qıpçaq) türk elləri və uzlar (oğuzların bir qolu) Xəzər dənizinin şimalındaş şərqi Avropa və Balkanlara IX-X əsrlərdə və uyğur türkləri Orxon məntəqəsindən iç Asiyaya 845-ci ildən sonra, yəni dövlətlərin inqirazından sonra mühacirət etmişlər [4, s.8].

Tarixdə "türk" kəlməsi ilk dəfə Göytürklər tərəfindən işlədilmiş, mənsubiyyət ifadə edən ad kimi qəbul olunmuşdur. Lakin, türk sözünün digər məna çalarlarına da malik olması (güc-qüvvət, törəmək-artmaq, yüyürmək, gözəl və s.), türk xalqının özünəməxsus fərdi keyfiyyət və xüsusiyyətlərini hər tərəfli müəyyənləşdirmək baxımından xarakterlidir [7, s.13]. "Türk" sözü əski mənbələrdə müxtəlif tələffüzlərdə qeyd edilmişdir (Heredotda "Tarkita", Hind mənbəyində "Turuxa, Çin mənbəyində "Tukuyə" və s.) [4, s.9]. Ən qədim zamanlardan müxtəlif türk xalqlarının adlandırılması ilə əlaqədar fərqli baxışlar mövcuddur. Müasir tarixşünaslıqda fikir belədir ki, özünü "türk" adlandıranlar yalnız VI əsrdən sonra məlumdur və onların adı "Orxon-Yenisey abidələrində" "türk budun" kimi çəkilir. Bu fikir yalnışdır. I əsr müəllifi Plini Şimali Qafqazda sarmatların bir tayfasının "tirk" adlandığını yazmışdır (Plini, VI, 19). Həmin əsrdə yaşamış (Pomponi Mella, II, 14). Qədim gürcü mənbələrində Makedoniyalı İsgəndər vaxtında (e.ə. IV əsr) Kartlidə buntürk adlı tayfanın yaşadığı göstərilir. Nədənsə, Avropa və Rus tarixçiləri bu faktları nəzərə almırlar. Bəzi türkoloji ədəbiyyatda "türk" etnoniminin "Avesta"da (e.ə.VII) çəkilən "tur" etnoniminin sonrakı forması olması göstərilir. Azərbaycan tədqiqatçıları Yusif Yusifov, Qiyasəddin Qeybullayev, Nizami Xudiyev, Firudin Cəlilov, Tofiq Hacıyev və b. hələ e.ə. I minillkidə Cənubi Azərbaycan ərazisində Manna və Midiyada türk tayfalarının yaşadıqları fikrini irəli sürürlər. Onlar qədim şərq mənbələrində qeyd olunan çoxlu toponimlərin və şəxs adlarının qədim türk dilləri vasitəsilə mənalarını açmışlar [11, s.16].

Yeri gəlmişkən Mahmud Kaşkarinin Türk sözünə verdiyi şərhi də xatırlatmaq yerinə düşər: "Türk: əleyhissalam Nuhun oğlunun adıdır .Bu ad Nuh oglu Türkün övladlarına tanrının verdiyi addır. "Türk" sözü Nuhun oğlunun adı kimi işləndikdə tək bir adamı bildirir, övladlarının adı olanda "bəşər" sözü kimi çoxluq və cəm bildirir." (II cild s.357-358) M.Kaşkariyə etimad etməməyə heç bir əsasımız yoxdur. Mənbəyin mövzusu, quruluşu və əhəmiyyəti haqqında ayrıca bəhs edilir. Uzun müddət türklərin yaşadığı cografiyanı gəzmiş M.Kaşkari öz əsərində 30-dan yuxarı türk ləhcəsini o cümlədən oğuz, qıpcaq, karluk, bulqar və digər türk dilində danışan xalqlar haqqında geniş məlumat verir. Belə hesab etmək olar ki türk insanları əsasən üç formada adlandırılmışlar: 1.Boyların vəya tayfaların adı ilə, 2.Yaşadıqları coğrafi adlarla, 3.Digər xalqların verdiyi adlarla.

Bir qrup tədqiqatçılar 30, bəziləri 60 müxtəlif adlarla, müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının adını çəkir. Tədqiqatçı Mədət Çobanov "Türkün qızıl kitabına" (Rəfiq Özbək) istinad edərək Türk xalqlarının 112 tanınmış dövlət qurumu haqqında məlumat verir. Bunlar arasında 15 imperatorluq, 38 dövlət, 34 bəylik, 4 atabəylik, 16 xanlıq, 5 cumhuriyyətin adı çəkilir. A.N.Qumilyovun tədqiqatlarında da çox sayda türk uluslarının adı çəkilir ki, bunların bir hissəsi böyük köçlər zamanı adları əvəz olunur, yeni adlar qoyulur, coğrafi adlarla adlandırılır, bəzi hallarda əsarət altına düşərək adları zorla dəyişdirilir. Məsələn, Çar Rusiyası zamanı azərbaycanlılara qafqaz tatarları, qazaxlara qırğız deyə müraciət etmişlər ki, bir sıra areallarda bu proses bu gün də davam edir. Tədqiqatçı F.Mustafa Araz nəşriyyatında 2012-ci ildə çapdan çıxmış 100 tyurkskix etyudov ensiklopediyasında hal-hazırda mövcud olan 100 adda türk dillərini təsnifləşdirir: 1) Azərbaycanlılar, 2) Altaylılar, 3) Arqular. 4) Qıpçak erməniləri, 5) Atuşlular, 6) Balkarlar, 7) Barabinlilər, 8) Baraqunilər, 9) Basmılılar, 10) Başqırdlar. 11) Beltırlər, 12) Besermyanlar, 13) Bulqarlar, 14) Qaqauzlar, 15) Dulqanlar, 16) İkanlı karabulaklılar, 17) İli türklər, 18) İliylilər və ya kuldjinlər, 19) Kazaxlar, 20) Kanlı, Kanqlı, Kanqli, 21) Cənubi Kappadokiyalılar, 22) Karaimlər, 23) Karakalpaklar, 24) Karamanilər, 25) Karamanlılar, 26) Karaçaylılar, 27) karluklar, 28) Kaşkaylılar, 29) Kereilər, 30) Kereitlər, 31) Göy-Monçakçılar, 32) Qırğızlar, 33) Krımçatlılar, 34) Koybalılar, 35) Kumadinlər, 36) Kumıklar, 37) Kuraminlər, 38) Kızıllılar. 39) Yenisey Qırğızları, 40) Lebedinlər, 41) Lobnorlar, 42) Manqıtlar, 43) Maymınlar, Maymalar, 44) Mesxetilər, 45) Meşerlər, 46) Mişarlar, 47) Naqaybaklar, 48) Naymanlar, 49) Çöl Noqayları, 50) Budjak Tatarları (Noqaylar), 51) Oyratlar, 52) Pontiçlər, 53) Salarlar, 54) Sarıq-Yuqurlar, 55) Soyot-çatanlar, 56) Soyotlar, 57) Sonkorlar, 58) Tatarlar, 59) Alabuq-Noqay Tatarları, 60) Astraxan Tatarları, 61) Barabin Tatarları, 62) Krım Tatarları, 63) Kıryaşen Tatarları, 64) Sibir Tatarları, 65) Saqay Tatarları, 66) Dağ Tatları, 67) Telenqitlər, 68) Teleutlar, 69) Teptiyarlar, 70) Tofalar, 71) Türkmənlər, 72) Türkiyə türkləri, 73) Turxmənlər, 74) Tuvalılar, 75) Tubalar, 76) Tuvinlər (todjinlər), 77) Turkomanlar, 78) Turfanlar, 79) Xorasan türkləri, 80) Özbəklər, 81) Uyqurlar, 82) Urumılılar, 83) Fuyuy qırğızları, 84) Çalkanlılar, 85) Çulımlılar, 86) Çuvaşlar, 87) Xakaslar, 88) Xalaclar, 89) Xotonlar, 90) Çalkın Yunanları, 91) Çaatanlar, 92) Çenqelilər, 93) Şarlar, 94) Şorlar, 95) Çalklar, 96) Eynu və ya Abdallar, 97) Yuryuklar, 98) Yuyqurlar, 99) Yakutlar, 100) Yarınlılar.

Göründüyü kimi türk fenomeni-etnosun yaranması, tarixi, mədəniyyəti və dünya sivilizasiyasına göstərdiyi xidmətlərin öyrənilməsi və təhlili son dərəcə mürəkkəbdir [5, s.12-13].

Tarix boyu ədalətə dayanan bir hakimiyyət quran Türklər milli, dini və insani duyğulara bağlı qalaraq bunların ahəngi içərisində Cahan hakimiyyəti idealına inanmış, əsrlər boyu Çin, Orta Asiya, Sibir, Hindistan, Rusiya, Əfqanıstan, Xorasan, Yaxın Şərq, İran, Azərbaycan, Qafqaz, İraq, Anadolu, Suriya, Rumeli, Şərqi və Orta Avropa, Balkanlar, Misir və bütün Şimali Afrikada hökmranlıq etmiş, tarix boyu bir çox dövlətlər və imperatorluqlar qurmuşlar. Bunlardan Turan, Aratta, Kuti, Lullu, Elam, Manna, Midiya, İskit (Saka, Skif), Alban, Şumer, Şərqi Hunlar, Qərbi Hunlar, Ağ Hunlar, Xəzərlər, Göy Türklər, Uyğurlar, Qarluqlar, Bulqarlar, Qaraxanlılar, Qəznəvilər, Xarəzmlər, Səlcuqlular, Moğollar, Tulunilər, İxşidilər, Osmanlılar, Elxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s. tarixin danılmaz dövlət və imperatorluqlarıdır. Bu müəzzəm tablo Türklərin iyirmi beş min illik bir mədəniyyətə sahib olduqlarının göstəriciləridir [6, s.8].

Dünya hakimiyyəti ideyası əski türk dövlətlərinin hamısında mövcud olmuş toplumun birləşdirici, bütövləşdirici ülküsü olmuşdu. Dünya hakimiyyəti ideyası əski türklərin dastan və əfsanələrinə də keçmişdir (Məsələn, "Oğuz dastanT'nda). Eyni fikir Orxon yazılı daşlarında və Çin tarixi mənbələrində də qeyd edilmişdir. Oğuz xan xaqanlıq elan etdikdən sonra toy (parlament) çağırmışdı. Günəş bayrağımız və göy (səma) çadırımızdır deyə çağırdığı toya gələnlərə müraciət emişdir. Bütün dünyada Göytanrı bir olduğu kimi xaqanın da bir olması gərəkliyi fikrini irəli sürmüşdü. Padşahlara tabe olmaları göndərdiyi məktublarda belə demişdir : "Mən uyğur xanıyam (Oğuz dastanı XIV əsrdə uyğur türkləri tərəfindən yazıya köçürülmüşdür). Dünyanın dörd guşəsinin xaqanı olmalıyam, sizdən itaət istəyirəm, yoxsa sizə qarşı qoşun çəkərəm". Mahmud Kaşğari 900 il qabaq yazdığı "Divan-i lüğət-it türk"də Əfrasiyaba Ucun Begi, yəni "dünya hakimi" demişdir. Cahan hakimiyyəti düşüncəsi, müsəlman olandan sonra isə islamı yaymaq şüarı türkləri fəthuat ideyasının əsasını təşkil etmişdir. Bir-birini əvəz edən Türk dövlət təşkilatlarının başında Xan, Şanyu, Xaqan,

İdikut adı verilən hökmdarlar dururdu. Dövlət, ailə, oba, oymaq və boyların bir araya gəlməsi ilə yaranmışdı [10, s.7].

Türklər tarixən hakimiyyətləri altında olan xalqlarla özləri arasında heç bir ayrı-seçkiliyə yol verməmişlər. Bütün bunlar xristianlığın "Yaşamaq üçün qovğa" təfəkkürünün əksinə olaraq Türk sülh və əmin-amanlığı, ədalət və doğruluğu Türklərin orta əsr dünyasına nə bəxş etdiyini bir daha tarix qarşısına sərgiləməkdədir. Əgər Türklərin Cahan hakimiyyəti ideyası ədalətə, insanlıq duyğularına, millətlərin arzu və istəklərinə əsaslanmasaydı, Türk hakimiyyətinin əzəmət və qüdrətinin uzun əsrlər boyu yaşaması da mümkün olmazdı. Türklərin ədalətə, insanlıq duyğusuna, hakim olduqları xalqların arzu və istəklərinə əsaslanmasının nəticəsidir ki, onlar ingilislərin ancaq yüz il hakim ola bildikləri Hindistanda doqquz yüz il, Qərbi Avropalıların əlli-altmış il əsarətdə saxlaya bildikləri ərəb ölkələrində təqribən min il hökmranlıq etmişlər. Çünki Türklər Avropalılardan fərqli olaraq yerli xalqlara ikinci dərəcəli xalq kimi baxmamış, onlara nə öz dillərini, nə də mənsub olduqları dinlərini zorla qəbul etdirməmişlər. Türklərin bu insani davranış və siyasətləri hər şeydən əvvəl Onların Özlərinin ilahi mənşədən gəlməsinə inanmaları və Cahan hakimiyyəti məfkurəsindən irəli gəlmişdir. Bu hiss və duyğular Türkləri İslam dini və mədəniyyətinə yiyələnmələri ilə daha da güclənmişdir [6, 9]. "Dünya sivilizasiyasının beşiyi hesab olunan" avropa xalqları intibah dövrünü XVI-XVIII əsrlərdə keçdiyi halda, Şərq xalqları, o cümlədən türklər bu tarixi oyanışı onlardan 8-9 əsr əvvəl başlamış və bü gün hamı tərəfindən tanınan və qəbul olunan, Uzaq Mancuriyadan başlayaraq Avropanın mədəni mərkəzlərindən hesab olunan Parisə qədər uzun və şərəfli yol keçmiş Atilla, Çingiz xan, Batı xan, Əmir Teymur, İldırım Bəyazid, Sultan Mehmet, Sultan Səlim, Şah İsmayıl, Şah Abbas, Nadir şah kimi şəxsiyyətlər bəxş etmişdir [9, s.3]. Ən vacib məqamlardan biri də odur ki, Vətən sevgisi əski türklərdə çox qüvvətli idi. Məşhur ərəb yazıçısı Cahiz IX əsrdə türkləri və onların vətənpərvərliklərini mədh etmişdir. Vətən sevgisi əski türklərdə vətənin müstəqilliyi, ülküsü ilə birgə toplumu birləşdirən ideya idi. İstiqlalları olmadığı zaman vətəni tərk -mühacirət etmişlər. Türklər müsəlman olub, yeni ölkələrdə yurd və vətən qurandan sonra da vətənlərini yüksək tutmuşdular [10, s.7].

Tarixən çox geniş coğrafiyaya malik olan türk xalqları təəssüf ki, tarixin çox ağır yollarından, çətin burulğanlarından keçsədə müxtəlif vaxtlarda türk xalqlarının parçalanması və zəifləməsi halları da baş vermişdir. Belə ki, XVII əsrin ortalarından etibarən kapitalizm ictimai-iqtisadi quruluşunun yaranması və sürətli inkişafı Avropa ölkələrinin müstəmləkəçilik siyasətinin gündən-günə güclənməsinə şərait yaradır. Odur ki, avropalılar XVII əsrin ortalalından etibarən Asiya, Amerika, Afrika və Avstraliya qitələrində geniş miqyaslı işğalçılıq müharibələrinə başlayırlar və həmin qitələrdə böyük müstəmləkələr tuturlar. Müstəmləkəçilər işğal etdikləri ölkələrin xalqlarının milli dövlətçilik ənənələrini darmadağın edib, çox ciddi müstəmləkə rejimi yaradırlar. Bu rejimin əsas məqsədi xalqı müstəmləkə altında saxlamağa, ölkənin iqsadi və maddi - mədəni abidələrini, mədəni-məişət mallarını, arxivlərini, yazılı mənbələrini, mədəni irsini-elm, ədəbiyyat və incəsənət əsərlərini və s. daşıyıb öz ölkələrinə aparmağa xidmət edirlər. İndi Avropa ölkələrinin bütün muzeylərini və arxivlərini Türk dünyasından aparılmış xalçalar, kilimlər, qaş-daşlar, mədəniyyət xəzinəsinin inciləri olan elmi, bədii, tarixi, incəsənət əsərləri bəzəməkdədir. Beləcə də, inkişaf etmiş orta əsrlər mərhələsində, yəni XI-XVII əsirlərdə Türk dünyasının bir qütbündə güclü, qüdrətli Osmanlı və Azərbaycan Səfəvilər imperyaları fəaliyyət göstərdiyi halda, Türk dünyasının digər qütbündə isə, Böyük imperyalar və dövlətlər məkanı olan ərazilərdə-ölkələrdə Türk xalqlarının parçalanması və zəifləməsi halları özünü büruzə verir [2, s.6].

Sovet İttifaqının dağılması, beynəlxalq səhnədə siyasi vəziyyətin və qüvvələr nisbətinin köklü şəkildə dəyişməsi, bütün postsovet məkanında yeni müstəqil dövlətlərin yaranması ilə nəticələndi. Türk dövlətləri arasında çoxtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi sahəsində dövlət başçılarının artıq ənənəvi xarakter almış Zirvə toplantıları xüsusi yer tutur. Zirvə toplantıları türk dövlətlərinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlər yaradılması, siyasi prinsiplərin bərqərar edilməsi sahəsinda mühüm rol oynayır [8, s.199].

Sevindirici haldır ki, son dövrlərdə türk dünyasında bir-birinə yaxınlaşma və birləşmə cəhdləri sürətləndirilmişdir. Türk dünyasının həmrəyliyi və birliyi, bütün dünyada yaşayan türklərin diaspor şəklində təşkilatlanması, mədəni-siyasi, iqtisadi əlaqələrin genişlənməsi ulu öndər Heydər Əliyev

ideyalarının və arzularının müasir dünyada reallığa çevrilməsidir. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət nəticəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri analoqu olmayan müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bu, Ulu öndər Heydər Əliyevin elan etdiyi "tək millət - iki dövlət" təliminin nə qədər böyük həyati gücə malik olduğunu bir daha təsdiq edir. Vətən müharibəsi dövründə daha da möhkəmlənən bu qardaşlıq münasibəti türk dünyası üçün, həmçinin dünyada əsl dostluq, qardaşlıq və həmrəylik nümunəsi kimi də ibrətamiz və qiymətli örnəkdir.

*Nəticə:* Türk xalqları Avropa və Asiyanın, o cümlədən Qafqazın tarixində ən qədim çağlardan müstəsna rol oynamış, nəhəng imperiyalar qurmuş, böyük mədəniyyətə sahib olmuşlar. Türklər tarix boyu öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında böyüklüyünü, aparıcılığını tam şəkildə təsdiqləyə biliblər.

## ƏDƏBİYYAT

1.Cəfərov N. Qədim türk ədəbiyyatı. Nizami Cəfərov. Bakı, AzAtaM, 2004, 322 s.
2.Çobanov M.N. Türk ədəbi dillərinin birliyinə doğru (II). Bakı, "Elm və təhsil", 2012, 100 s.
3.Hacılı A. Axısqa türkləri: Vətən bilgisi. Ahıska Reklam Tanıtım Ajansı, İstanbul, 2009, 584 s.
4.Heyət C. Türklərin tarix və mədəniyyətinə bir baxış (İslamdan əvvəl və islam dövrü) Başlanğıcdan islama qədər. Bakı, Aspoliqraf, 2009, 184 s.
5.Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəşünaslığı. Monoqrafiya. Bakı, ABC, 2014, 200 s.
6.Qasımlı A.M. Türklər (Tarixi oçerklər). Bakı, 2012, 545 s.
7.Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, "Conatant Empary", 2011, 568 s.
8. Qurbanov R. Türk xalqlarının tarixi. Ali məktəblərin Azərbaycan bölmələri üçün dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 216 s.
9.Məmmədov E.Ə. Türk dünyasının görkəmli şəxsiyyətləri. Bakı, Mürtəcim, 2010, 148 s.
10.Mirişli E. Türk ellərində dövlət təşkilatı / Türküstan qəzeti, 2019, 31 dekabr-6 yanvar, № 46. s.7.
11.Muxtarova Ə. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Ali məktəblər üçün dərslik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2013, 446 s.

**САМИРА ГАСИМОВА**
*АзербайджанскийГосударственныйАграрныйУниверситет*

## ОБ ИСТОРИИ ТЮРКОВ, ОДНОГО ИЗ ДРЕВНЕЙШИХ И МОГУЩЕСТВЕННЫХ НАРОДОВ МИРА

В статье рассматривается о турках, одном из древнейших и могущественных народов мира. То, что тюрки жили вдоль Алтае-Саян около четырех тысяч лет назад, подтверждено как исторический факт. Тюрки распространились по Азии, Европе и Африке и основали в этих регионах крупные государства и империи. В тоже время тюркская культура, тюркский язык, тюркская наука были на переднем плане всей истории, оставив глубокий след в культуре многих народов. Воспитанные ими литературные личности были известны во всем мире своими уникальными творениями и принесли большую известность народам, которым они принадлежали. Один из самых важных моментов – патриотизм был очень силен у древних тюрков. Патриотизм был идеей, которая объединяла древних тюрков с независимостью.

*Ключевые слова:* древние тюрки, тюркские народы, богатая история, империя, государства, тюркская культура.

**SAMIRA QASIMOVA**
*Azerbaijan State Aqrarian University*

## ON THE HISTORY OF THE TURKS, ONE OF THE OLDEST AND MOST POWERFUL NATIONS ON THE WORLD

The article talks about the turks, one of the most ancient and powerful peoples of the world. The fact that the turks lived along the Altai-Sayan Moun Mountains about four thousand years ago has been confirmed as a historical fact. The turks spread to Asia, Europe and Africa and established large states and empires in those areas. Turkic culture, turkic language, turkic science have been at the forefront throghrout history, leaving a deep mark on the culture of many nations. The literary personalities they brought up were known all over the world for their unique creations and brought great fame to the people to whom they belonged. One of the most important points is that the love of the homeland was very strong among the ancient turks. Patriotism was an idea that united the ancient turks with the independence of the homeland.

*Key words:* ancient turks, turkic peoples, rich history, empire, state, turkic culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Elgün Aslanov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94**

**SEVİNC RUİNTƏN**
*Bakı Dövlət Universitetinin dosenti*
**sevinjruintan@bsu.edu.az**

# OSMANLI TARİXİNİN TERMİNLƏRLƏ İZAHI: "AHİLİK"

*Tarix araşdırmaçıları xalqları "tarixi yaradan" və "tarixi yazan" olmaqla iki qrupa ayırırlar. Tarix yaradan xalqlardan olan türklər dünyanın dövlətçilik tarixində çox mühüm yeri olan, dünya tarixinin gedişinə çox böyük təsir göstərmiş bir çox dövlətlər və imperiyalar yaratmışlar ki, onların sırasında ilk yerdə duranlardan biri - mövcudluğu 623 il davam etmiş Osmanlı imperiyası olmuşdur. Yarandığı zamandan günümüzə qədər müxtəlif araşdırmalara mövzu olmasına baxmayaraq, Osmanlı tarixində hələ də aydınlıq gətirilməli olan məsələlər də qalmaqdadır. Belə mövzulardan biri dövlətin yaranmasında xüsusi rolu olmuş Ahilik məsələsidir. Bu baxımdan, hazırki məqalədə Ahilik anlayışına aydınlıq gətirilməsinə cəhd ediləcəkdir.*

*Açar sözlər:* Osmanlı dövləti, Ahilik, Ahiyan-i Rum, Fütuvvat, Ahi-Evran.

*Giriş.* Anadoluda Anadolu Səlcuqluları dövründə meydana çıxmış Ahilik XIII əsrdən XX əsrə qədər əsnaf və sənətkar birliklərinə verilən ad olmuşdur. Kiçik əsnafların, ustaların və şagirdlərin peşələrini doğruluq və dürüstlük prinsiplərinə əməl etməklə yerinə yetirmələri, bu istiqamətdə xüsusi olaraq təhsil almalarını təmin etməyi hədəfləyən təşkilat idi. Ahilik mövzusunun araşdırmaçıları arasında onunla bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi araşdırmaçılar onun ərəb fütuvvatının bənzəri, X əsrin sonlarında Bəsrədə qurulmuş olan İhvan üs-Səfa və digər oxşar təşkilatların uzantısı və ya İrandan alınma olduğunu düşünürlər (7, s.163-167). Digərləri hesab edirlər ki, özündə bir çox kadiləri (məhkəmə işlərinə baxan din xadimi – S.R.) və müderrisleri (mədrəsədə və ya camidə dərs deyən müəllim – S.R.) də birləşdirən Ahi təşkilatı sadəcə hər hansı sənətkar birliyi deyil, bu quruma aid olan və onun vasitəsilə öz inancını yaymağa cəhd göstərən bir məzhəb də sayıla bilər. Belə bir fikir də mövcuddur ki, bəlkə də ahi zaviyələrinin sığınacaq evlərinə gətirilməməsi üçün ahiliyin ilk şərtlərindən biri "sənətə sahib olmaq" kimi müəyyənləşdirilmişdi (12, s.4).

Hazırki məqalədə türkiyəli və xarici tədqiqatçıların araşdırmaları əsasında Ahi etnonimi, Ahi Evran, Ahiliyin Fütuvvatla əlaqəsi, Ahi kimliyi, Ahi təşkilatları, onların xüsusiyyətləri, qurulmalarına təsir edən amillər, Ahiliyin sosial-ictimai dayağı, Ahi təşkilatının təhsil sistemi və onların Osmanlı cəmiyyətində ictimai-siyasi, sosial-iqtisadi həyata təsiri məsələlərinə aydınlıq gətirilməsinə cəhd ediləcək. Bu məqsədlə, pandemiya dövrünün reallıqlarından çıxış edərək, bəzi istisnalar olmaqla, daha çox internet üzərindən əldə etdiyimiz Ahilik mövzusunun araşdırmaçıları Cemal Anadol, Neşet Çağatay, Kazım Ceylan, Hüseyin Yılmaz, Günay Ünver, Mikail Bayram, Gürata Mithat, Claude Cohen və b. əsərlərindən istifadə edilmişdir. Son olaraq, hazırki araşdırmada məqsədin Ahilik mövzusunu tədqiq etmək deyil, Osmanlı tarixinin terminlər üzrə öyrənilməsinə yardım etmək olduğunu da qeyd etməyi lazım bilirik.

*Ahilik. "Ahi" etnonimi.* Türkiyəli araşdırmaçı Neşet Cağatay bütün əlamətlərinə görə Ahiliyin V-VI əsrlərdən başlayaraq Türküstanda, Maveraünnehrdə türklər arasında geniş yayılmış bir dayanışma və yardımlaşma təşkilatı olduğunu bildirir. Mithat Gürata görə, Ahilik Samanilər və Qaraxanlılar dövründən başlayaraq Osmanlı türkləri zamanına qədər olan dövrdə varlığını qoruyub saxlamağı bacarmış bir düzənə sahib olmuşdur. Belə ki, türklər qədim zamanlardan sənaye və ticarətlə məşğul idilər. VIII əsrdən etibarən ərəblər türklərə aid sənaye şəhərlərini istila etməyə, sərvətlərini talamağa başlamışdılar. Hücuma məruz qalan şəhərlərin işsiz qalan əsnafları mallarını və canlarını qorumaq məqsədilə "Qaziyan" adı verdikləri hərbi zümrə formalaşdırmışdı. Bu təşkilatlanma nəticəsində özlərini qoruyan əsnaflar təkrar öz işləri ilə məşğul olmaq imkanı əldə etdilər ki, bu da ahiliyin meydana çıxmasına təkan vermiş oldu (8, s.74).

Ahi sözünün mənası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Türkiyəli araşdırmaçılar Mikail Bayram, Mehmet Kurtoğlu, Neşet Cağatay, Mustafa Yazıcı və b. hesab edirlər ki, sözün etnonimi ilə bağlı ən çox yayılmış fikir, onun "Divan-i Lüğati't-Türk" və "Kutadgu Bilig" mətnlərində rast gəli-

nən, "igid" / "comərd" / "əliaçıq" / "alicənab" mənalarını verən "Ahi" sözündən götürülməsi ilə bağlı olan fikirdir və ya, "Ahi" sözü ərəb dilində "qardaş" mənasını verən "ahi", və ya Orta Asiya türklərinin dilində "akı" (ərəbləşərək "ahi" sözünə çevrilib) sözlərindən də formalaşmış ola bilir (1, s.27-28; 3, s.45; 15, s.40; 20, s.19). Anadolu türklərinin sosial-iqtisadi həyatında çox mühüm rola sahib olmuş ahilik təşkilat olaraq formalaşana qədər, yəni XIII əsrin əvvəllərinə qədər əsnaf, sənətkar və sənət sahiblərinə "ahi" deyilirdi. Anadoluda bu sözə fars dilində cəm şəkilçisi də əlavə edilərək "Ahiyan", yəni "Ahilər" şəklində də işlədilmişdir.

Anadolu Ahiliyi geniş mənada islamiyyətdən qaynaqlanmışdır. Sosial-iqtisadi ehtiyacları ödəməyi hədəfləyən bu düşüncə tərzinin ruhu Qurandan və Peyğəmbər sünnətindən, təşkilatlanması və bir sistem olaraq həyata keçirilməsi isə türk millətinin tarixi təcrübəsindən və yaradılış xüsusiyyətlərindən qaynaqlanmışdır. Bu mənada Ahilik, mənəvi və maddi olmaqla 2 dayağı olan bir sistemdir. Anadolu Ahiliyinin mənəvi tərəfində Peyğəmbər əxlaqı, yəni: insanın öz rahatlığını, həyatını başqaları üçün fəda etməsi anlayışı, "İnsanların xeyirlisi, insanlara yararlı olanıdır" prinsipi vardır (7, s.174-175). Ahilik Mevlevilik kimi təkboyutlu deyil, türklərin Anadolu coğrafiyasında həm bu dünya üçün, həm də axirət üçün qurmuş olduqları bir mədəniyyətdir. Türkiyəli araşdırmaçı Kazım Ceylanın sözləri ilə desək, Ahilik, "imanın elmlə bəslənməsi, çalışma ilə şəkillənməsidir ... Ahilik, Səlcuqlu və Osmanlı türklərinin ortaya qoyduğu, Ahi Evran-i Vəlinin öncül olduğu, Kırşehirdən dünyaya yayılan sosial, iqtisadi, siyasi boyutları olan milli mədəniyyət, iman, əxlaq, igidlik və cihad hərəkatıdır" (10, s.893; 11, s.68).

*Ahi Evran. Ahi təşkilatının qurulması.* "Dəriçilərin piri" (debbağ esnafının piri), Ahi təşkilatının baş memarı, XI əsrdən müasir İran ərazisində məskunlaşmış olan türkmənlərdən hesab olunan Ahi Evran Hace Nasirü'd-din (1171-1262) 1171-ci ildə Xoy şəhərində anadan olmuşdu. Uşaqlığı və təhsil aldığı ilk illər Azərbaycanda keçmiş, gəncliyində Xorasan və Maveraünnehrə gedərək, o bölgələrdəki böyük ustadlardan dərs almışdı. Ən çox kəlam, fəlsəfə, təfsir və usul-i fiqh sahəsində əsərləri ilə tanınan Fahru'd-Din-i Razi və mütəsəvvif, alim, islam filosofu Hacı Bektaş Vəlidən faydalandığı məlumdur (1, s.86; 21). 1206-cı ildə sonradan qayınatası olacaq Evhad'üd-din Kirmani ilə Kayseriyə gələrək orada yerləşmiş və dabbaqçılıqla (dəriçiliklə) məşğul olmağa başlamışdı. Kayseriyə gələnə qədər isə Şam, Bağdad və Məkkə şəhərlərini dolaşmış, Kirmaninin təsiri ilə Abbasi xələfəsi Ən-Nasir li-Dinillahın qurduğu fütuvvat təşkilatına daxil olmuşdu. Kayseridə dabbaqçılıq və onunla əlaqəli olan sənət sahələrini inkişaf etdirmiş, monqol işğalları nəticəsində Anadoluya gəlməkdə olan sənətkar və tacirləri fütuvvatnamə qaydaları ilə idarə edilən təşkilatlarda birləşdirmişdi. Nəticədə, artıq XIII əsrin ortalarında türklərin yerləşdiyi bütün Anadolu şəhər və kəndlərində bir-birilə sıx əlaqədə olan əsnaf və sənətkar birliyindən ibarət təşkilat qurulmuşdu. Ahi Evran ümumilikdə fəaliyyətini Dənizli, Konya, Kayseri və Kırşehirdə davam etdirmişdi (3, s.45-46; 7, s.166). Ümumilikdə 32 əsnaf təşkilatı qurmasına baxmayaraq, Səlcuqlu və Osmanlı coğrafiyasında fəaliyyət göstərən bütün əsnaflar Kıpşehri Ahilik təşkilatının mərkəzi hesab etmiş və buradan "İcazetname" almışlar (4, s.126).

Anadolu Şeyxlərinin Şeyxi (Şeyh-i Şuyûh-ı Rûm) ünvanını daşıyan Evhad'üd-din Kirmaninin qızı Fatma xatunla evli olan Ahi Evran Kayseridə olduğu müddətdə həyat yoldaşı Fatma xatun vasitəsilə "Baciyan-i Rum" (Anadolu Bacıları) təşkilatını da (bəzi araşdırmaçılar arasında "tarixdə qadınların ilk təşkilatı" olduğu haqda fikirlər mövcuddur – S.R.) qurmuşdu (14, s.432). Ahi Evran 1329-cu ildə sui-qəsd nəticəsində öldürülmüşdür.

Qeyd edilməlidir ki, iqtisadi gücə və müstəqilliyə mühüm əhəmiyyət verən, həmçinin 1243-cü ildən başlayaraq şəhərlərin monqol hücumlarından qorunmasında da fəal iştirak edən ahilərə və Ahiliyə münasibət hər zaman eyni olmamışdır (4, s.115). Belə ki, 1237-ci ildə I Əlaəddin Keyqubadın zəhərlənərək öldürülməsi onunla sıx bağlı olan Ahilər tərəfindən narazılıqla qarşılanmış, hətta onlar II Qiyasəddin Keyhüsrev və vəzir Sadettin Köpek əleyhinə çıxmışdılar. Nəticədə, Ahilərə qarşı sərt cəza tədbirləri həyata keçirilmiş, onların bir çoxu, o cümlədən Ahi Evran da həbs edilmişdi (10, s.892). Ahi Evranın 20-yə yaxın əsəri məlumdur. O, əsərlərini siyasətnamələr xarakterində yazırdı. Özündə fütuvvat fikrini ehtiva edən bu tip əsərlər dövləti idarə edənlərə nəsihət məqsədilə yazılır, onlarda həyata keçirilməsi lazım olan və olmayan məsələləri izah edilirdi. Ahi Evran da əsərlərini dövrünün sultanları və irəli gələn dövlət adamlarına ithaf edərək yazmışdı. Əsərləri: "Metaliu'l-

İman", "Menahic-i Seyfi", "Murşidü'l-Kiyafe", "Muktebat Beyne Sadruddin-i Konevi" vb. (1, s.87-88).

*Ahiliyin Fütuvvatla əlaqəsi*. Ahi Evran və onun yoldaşları Ahiliyin əxlaq qaydalarını İslam ölkələrində bilinən və nəzəri olaraq "yaxşı insan olmaq" qaydalarından ibarət olan "fütuvvatnamə"lərə əsasən müəyyənləşdirirdilər. Anadoluda fütuvvat hərəkatı Abbasi xəlifəsi Ən-Nasir li-Dinillah zamanında siyasi və mədəni kontaktlarla başlanmışdı. Ən-Nasir (575-622) ona qədər mövcud olan fütuvvat hərəkatını yenidən təşkil etmiş və ona yeni bir mahiyyət verməklə siyasi gücünü artırmışdı. Onun ən böyük yardımçısı Anadolu Şeyxlərinin Şeyxi (Şeyh-i Şuyûh-ı Rûm) Şihabüddin Ebu Hafs Ömer əs-Suhraverdi olmuşdur. Suhraverdi fütuvvat təşkilatının qaydalarını özündə birləşdirən "Fütuvvatnamə" hazırlamışdı ki, burada təşkilat üzvlərinin əməl etməli olduqları qaydalar, keçiriləcək mərasimlər və s. əks edilmişdi. Bu sənəddə həm təsəvvüf, həm də imamiyyə əqidəsi birlikdə mövcud idi. Belə ki, Ən-Nəsir li-Dinillah həm şiələri, həm də sufiləri öz ətrafında birləşdirməyi hədəfləyirdi. I Qiyasəddin Keyhüsrev zamanında Bağdada gedən malatyalı Şeyx Mecdü'd-din İshakın geri dönərkən özü ilə bir çox alim və şeyxləri də gətirməsi, Anadolu Səlcuqlu sultanlarının şeyxləri himayə etməsi nəticəsində fütuvvat hərəkatı Anadoluda da yayılmışdı.

Fütuvvat ərəb dilində "feta" sözündən qaynaqlanır. "Fəta" – iradəsinə hakim olan, nəfsinə qalib gələn biri mənasını verir (7, s.165; 10, s.893). Bəzi araşdırmalarda fütuvvatın İslam tarixindən nümunələr gətirməklə izahına cəhd edilir: "Fütuvvat – Adəm kimi üzr istəmək, Nuh kimi xeyirxah, İsmayıl kimi dürüst, Musa kimi səmimi, Əyyub kimi səbirli, Davud kimi səxavətli, Məhəmməd kimi mərhəmətli, Əbubəkr kimi xeyirxah, Ömər kimi ədalətli, Osman kimi həyalı, Əli kimi bilgili olmaq deməkdir" (3, s.44). İslamiyyətə qədər ərəb cəmiyyətində insanlar ətraflarındakı insanların təqdirini qazanmaq üçün səxavətli davranırdılar. Cəsarət və yoldaşlıq kimi xüsusiyyətləri olan insanlar hörmət göstərilən və qürur duyulan insanlar olduğundan, səxavətli, qonaqpərvər, yardımsevər, həm də nəciblik və cəsarət sahibi olan insanlara "feta" deyilirdi. Ayrı-ayrılıqda bu keyfiyyətlərə sahib olan insanlar ilk dövrlərdə birlik olaraq fəaliyyət göstərmirdilər. Yalnız sonrakı dövrlərdə fütuvvat keyfiyyətlərinə malik insanların təşkilatlandığı, qruplar halında fəaliyyət göstərdiyi məlumdur.

Ahiliyin mənbəyi və fütuvvat ilə əlaqəsini araşdıran mütəxəssislər arasında fərqli fikirlər mövcuddur. Bu fikirləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Ahiliyin fütuvvatla bənzərlikləri olmasına baxmayaraq, ümumən o, türk cəsarətinin, yardım sevərliyinin və qonaqpərvərliyinin nəticəsi olaraq meydana çıxmışdır (16).

2. Kiçik Asiya və ona bağlı bölgələrdə müəyyən zamandan məlum olan "fityan" və ya "fütuvvat" və "ahilik" təşkilatları eyni təşkilatlardır. Bir tərəfdən Ahi adının digər müsəlman ölkələrində olmaması, digər tərəfdən xəlifə Ən-Nasirdən öncə də ahilərin varlığı, o dövrdə bunların Kiçik Asiyanın xaricində olmaları və fütuvvat ilə əlaqələrinin olmadığı diqqət çəkir. Bu baxımdan, ahiliyin fütuvvatdan qaynaqlanmadığı və hər 2 ideyanın Kiçik Asiyada görüşərək inkişaf etmələri ilə bağlı düşüncə meydana çıxır (6).

3. Ahi təşkilatı Anadolu Səlcuqluları zamanında siyasi və mədəni münasibətlər və fəaliyyətlər nəticəsində meydana çıxmışdır. O dönəmdə Ahi Evran Seyx Nasrü'd-din Mahmud kimi hakim və alimlərin rəhbərliyi nəticəsində fütuvvat təşkilatının daxilində Ahilik deyilən ayrı bir təşkilat yaratmışdı (4; 7).

4. Ahi və fütuvvat təşkilatları arasında əlaqə, oxşarlıq qurmaq gərəkirsə, müxtəlif ünsürlərdən qaynaqlanmasına rəğmən Ahilik Anadolu Türk toplumuna xas bir qurumdur. Fütuvvat daha çox fərdi fəzilətlərə və hərbi keyfiyyətlərə önəm verdiyi halda, Ahilik həm əsnaf birliyi və həmrəyliyi, həm də hərbi qüvvələrə yardımçı bir təşkilat olaraq davranırdı (7).

*Ahi kimliyi*. Fütuvvatnamələrə görə, hər məslək sahibi də Ahi hesab olunmaya bilərdi. Bunlar: şərab içənlər; zina edənlər; dedi-qodu ilə məşğul olub, qiybət edənlər; iftira atanlar; münafiq olanlar; mərhəmətsiz olanlar; bağışlamayanlar, sözünə əməl etməyənlər, yalan danışanlar, əmanətə xəyanət edənlər; qadınlara pis niyyətlə baxanlar; insanların ayıbını üzə vuranlar, xəsis olanlar, oğurluq edənlər; qatillər, münəccimlər, müştərini çəkidə aldadan tacirlər, mərhəmətsiz qəssablar, "ürəkləri daşlaşmış" cərrahlar, ovçular və b.

Ahi fütuvvatnamələrinə görə ahi: halal qazancla məşğul olmalı; haramdan uzaq olmalı, harama baxmamalı, haram yeməməli və içməməli; əli ilə qoymadığını götürməməli; nəfsinə uymamalı; ki-

minsə sənətinə tamah salmamalı; kiminsə məhrəminə baxmamalı; ibadət etməli, şəriətə, təriqətə müxalif olmamalı; gözəl əxlaqa sahib olmalı; sənəti olmalı; kasıblara və imkansızlara yardım etməli, alimləri sevməli, onlara xoş münasibət göstərməlidir; təvazökar olmalıdır; təmiz, yaxşı insanlarla söhbət etməli, namazı qəzaya buraxmamalıdır; həyalı olmalı, dünyaya düşkün olanlarla oturub durmamalıdır; kiminləsə düşmənçilik etməməli, həsəd aparmamalı; böyüyə hörmət etməli; bir əlinin qazancını özünün ehtiyacları üçün, digər əlinin qazancını axirəti üçün kasıblara sərf etməli; hər dəfə tərəzini əlinə aldığında Axirət tərəzisini xatırlamalı ki, "halalın hesabı, haramın əzabı" vardır; yalan danışmamalı, doğru, səbirli və dayanıqlı olmalı; böyüklərdən əvvəl sözə başlamamalı, keç kimi aldatmamalı, qənaətcil olmalı, dünya malına tamah salmamalı, güclü və üstün vəziyyətdə ikən bağışlamağı, hiddətli ikən səbirli davranmağı bacarmalı; özünün də ehtiyacı olduğu halda belə başqalarına yardım edəcək qədər comərd olmalı və s. Geniş baxıldığında, bütün bunlar əsrlər boyu Osmanlı xalqının əxlaqının təməl daşı olan xüsusiyyətlər olmuşlar (7, s.174-176; 9, s.274-276).

Ahilərin özlərinə məxsus geyimləri vardı. XIV əsr səyyahı İbn-i Battuta ahilərin üstlərinə hırka, başlarına ağ yundan sarılmış bir konus (külah – S.R.) və ayaqlarına məst kimi ayaqqabı geyindiklərini bildirirdi.

Ahilər öz milli xüsusiyyətlərini də əsas götürərək fütuvvatnamələri tətbiq etməklə Anadolu şərtlərində həm dünyəvi, həm də axirətlə bağlı (uhrevi) bir sistem qurmuşdular. Bu dünyanı imtahan yeri kimi qəbul edərək, "heç ölməyəcəklərmiş kimi bu dünya üçün, sabah öləcəklərmiş kimi axirət üçün" çalışmışlar. Hədəfləri aşağıdakı kimi olmuşdur:

1. Bu dünyada və axirətdə xoşbəxt ola bilmək üçün bir sənətə sahib olmaq;
2. Digər insanları düşünmək, onların da xoşbəxtliyi üçün çalışmaq;
3. İslam dininin və Ahilik təşkilatının istədiyi gözəl əxlaqa sahib olmağa çalışmaq;
4. İslam və Ahilik təşkilatının qaydalarına əməl edə bilmək üçün elm sahibi olmaq;
5. Dinin (dolayısıyla, Ahiliyin) əmr və qadağalarına uyğunlaşmağa çalışmaq (10, s.893).

*Ahi təşkilatları, onların quruluşu. Ahi birliklərinin qurulmasına təsir edən amillər. Ahiliyin sosial-ictimai dayağı.* Ahi birliklərinin qurulmasına siyasi, sosial, mədəni və iqtisadi amillər təsir etmişdir. Bu amilləri tarixi-ideoloji və sosial-iqtisadi amillər olmaqla iki qrupa ayırmaq mümkündür. X əsrdən etibarən türklərin heç bir hərbi müdaxilə və iqtisadi məcburiyyət olmadan kütlələr şəklində müsəlmanlığı qəbul etməyə başlamaları, onların tarixinin çox əhəmiyyətli hadisələrindən biridir. Belə ki, islamın Bizansı əzmək idealını gerçəkləşdirmək məqsədilə Səlcuqlular dövründə türklərin Anadoluya köçləri daha da artır. Səlcuqlu sultanları tərəfindən Anadoluda həyata keçirilən fəthlər Bizansı məğlub etmək və Orta Asiyadan köç edən türklərin yerləşdiriləcəyi məkan əldə etmək məqsədinə xidmət edirdi. 1225-ci ildən sonrakı köçlərin səbəbi isə monqol hücumları idi. Başqa sözlə, ilk dövrlərdə gələnlərin əksəriyyəti savaşçı, heyvandarlıqla məşğul olan köçərilər idisə, monqol hücumu səbəbindən köçüb gələnlərin arasında varlı tacirlər və sənətkarlar üstünlük təşkil edirdilər. İlk köçüb gələnlər özlərinin bütün maddi-mənəvi xüsusiyyətlərini, özəlliklərini qoruyub saxlaya bilirdilər. Monqol zülmündən qaçıb gələnlər isə Bizanslı həmkarları ilə rəqabətə davam gətirə bilmək üçün həmrəyliyə ehtiyac duyurdular. Və bu həmrəylik ilk növbədə türk xalqının ən çox ehtiyac hiss etdiyi sənət sahələri arasında, yəni dəriçilikdə meydana gəldi. Belə bir zamanda Ahi Evran dabbaq, ayaqqabı istehsalçısı və yəhərçiləri toplayaraq təşkilatlandırmağa başladı. Ustalığına, əxlaqi keyfiyyətlərinə və ədalətli olmasına görə böyük hörmət və sevgi qazandı. Qurduğu təşkilatın başçısı - "Ahi Baba"sı oldu. Bir müddət sonra isə 32 qola ayrılan dəri işi Anadolu, Balkanlar və Krımı əhatə edən böyük bir təşkilata çevrildi (5; 10, s.894).

*Ahi təşkilatının xüsusiyyətləri.* Ahi sistemi quruluşu baxımından ictimai birlik sistemi ilə müqayisə edilə bilər. Bütün əsnaflar, sənətkarlar, işçilər hər biri öz sənəti ətrafında birləşirdi. Hər peşə ən yüksək nöqtədə bir daha birləşir və bir-birləri ilə münasibət qururdular. Ən üst məqamda Ahi Baba dururdu. Ahiliyin ədalət və inam inanclarına uyğun olaraq, qazancın bir hissəsi Ahi Babaya təhvil verilirdi. O da öz növbəsində toplanan vəsaitin bir hissəsi ilə ehtiyacı olanlara, kasıblara, yeni dükan açanlara, ailə qura bilməyən gənclərə yardım edirdi. Ahi təşkilatlarının xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür (5; 6; 7; 12, s.153 və b.):

1) Ahilərin hərbi funksiyaları vardı, amma nizamlı ordu hissəsi deyildilər. Rəhbərləri olduğu halda daxili qarışıqlıqlara və ucqarlarda üsyanlara qarşı birliklər formalaşdırırdılar (məsələn, Anadolu Səlcuqluları dövründə taxt-tac uğrunda mübarizələrdə tərəf olmuşdular, Monqol tabeliyini qəbul edənlərə qarşı savaşlarda iştirak edirdilər, Osmanlı dövlətinin qurulmasında mühüm rol oynayıblar və s.).

2) Şəhərlərin idarə edilməsində mühüm rol oynayırdılar. Bunun nəticəsində, dövlətin müdaxiləsinə ehtiyac qalmadan əsnaf özü özünü idarə edir, aldatma, sui-istifadə və ənənələrə qarşı hər hansı hərəkətə yol verilmirdi.

3) XII əsrin II yarısından XIV əsrə qədər bir sıra görkəmli dövlət adamlarının, kadilərin, üləmanın, müxtəlif təriqətlərə aid olan şeyxlərin, böyük tacirlərin də bu təşkilata üzv olması, onun siyasi gücünün göstəricisi olaraq qəbul edilə bilər. Hətta dövlətin nüfuzunun azaldığı dönəmlərdə Ahilik daha bariz şəkildə meydana çıxırdı.

4) Ahilərin sosial yardım və dayanışma prinsipi onların iqtisadi fəaliyyətlərinin təməlini təşkil edirdi. Orta əsr Avropasındakı sərbəst rəqabətin əksinə, qarşılıqlı yardım və sosial danışma əsas götürülmüş və bunun sayəsində əldə edilən qazanc kasıblara və işsizlərə paylanmışdır.

5) Ahi birliklərinin üzvləri bacarıqlarına uyğun işlə məşğul olurdular. İş dəyişmək və ya birdən artıq işlə məşğul olmaq müsbət qarşılanmırdı. Bu səbəbdən, ahilər hər biri sahib olduğu sənət sahəsində rahat inkişaf edə bilirdilər.

6) Yarandığı gündən Ahilik bir təriqət formasında mövcud olmuşdur. Anadoludakı bütün sosial qruplar kimi, vəzifəsi bölgədə islamı yaymaq idi.

7) Ölkənin hər yerindəki əsnaf və sənətkarların ilin bəlli bir günündə əyləncə yerinə gedib əylənməsi ənənəvi adət idi.

*Ahi təşkilatının təhsil sistemi.* Ahilikdə təhsilə xüsusi önəm verilirdi. Ahi təşkilatının İslam prinsiplərinə uyğun fəaliyyət göstərən təhsil sistemi də mövcud idi. Təhsilin ömür boyu davam edən fəaliyyət hesab olduğunu düşünən ahilər təşkilatlarının üzvlərinə:

- Peşə bilikləri ilə bərabər, əxlaqi və ictimai biliklər də verilir;
- İş yerində verilən təlimlə işdən kənar verilən təlim bir bütün olaraq qəbul edilir;
- Təhsil sistemi Ahilik prinsiplərini qəbul edən hər kəs üçün açıq elan edilir;
- Təhsil sisteminin kəndlərdə də tətbiq edilməsi hədəflənir;
- Dərslər səlahiyyətli və mütəxəssis insanlar tərəfindən verilirdi.

Ən diqqətəlayiq xüsusiyyətlərdən biri də o idi ki, təhsil hər kəs üçün pulsuz idi (9, s.269). Ahilikdə təhsili 2 istiqamətdə müşahidə etmək mümkündür:

1. İş yerlərində verilən sənət təhsili;
2. Zaviyələrdə bütün Ahilərə verilən əxlaq təhsili.

İş həyatında mövcud olan "usta-çırak-kalfa" (usta-şagird-usta yardımçısı – S.R.) münasibətləri türk adət hüququ ilə İslam hüququna əsaslanırdı. Ahilikdəki bu münasibət dayanışma duyğusu, qul haqqı, sevgi, hörmət əsaslı, ata-oğul münasibəti xarakterli idi. Ahilik, sosial təminat, qarşılıqlı yardımlaşma məqsədli "Aralıq sandıq" ("Orta sandığı" – S.R.) prinsipini meydana gətirmişdi. Xəstəlik, əlillik və ya ölüm hallarında "Aralıq sandıq" daima sosial təminat funksiyasını yerinə yetirmişdir.

Ahilərin iş yerindən kənarda olan mərkəzləri – "zaviyə" adlanan evlər idi. Bu zaviyələrdə həm təhsil verilirdi, həm meydana çıxan problemlər həll edilirdi, idarəçilik həyata keçirilirdi, eyni zamanda kasıblar, yolçular (yol gedənlər – S.R.) yeyib-içə bilirdilər. Bu mənada, Ahilik həm də, yolda qalanların, şəhərə gələn qonaqların və kimsəsizlərin yardımına çatan, qarşılığını sadəcə Allahdan gözləyən bir cəmiyyətin könüllü təşkilatıdır (9, s.270-271).

*Ahi təşkilatlarının Osmanlı cəmiyyətində ictimai-siyasi, sosial-iqtisadi həyata təsiri.* "Sülh şəraitində müəllim, müharibədə əsgər" olan ahilər, istər monqol zülmü, istərsə də digər sıxıntılı zamanlarda insanlara maddi-mənəvi dəstək verərək, Osmanlı dövlətinin quruluşuna qədər Anadolunu dini və milli birlik içərisində saxlamağa müvəffəq oldular. Daha sonra Söğüt yaxınlığına gəlməkdə

olan Osmanlı bəyliyinin tabeliyinə keçdilər. Bu bölgəyə gələn türkmən kişilərini "Ahi kişilər", qadınlarını isə Fatimə Bacının yetişdirdiyi "Baciyan" qrupu tərbiyə etdi və beləliklə, ahilər 3 qitədə hakim olacaq Osmanlı nəslinin formalaşmasında mühüm rol oynadılar. Osman Qazi Ahi olan Şeyx Ədəbalının qızı ilə ailə qurdu. Orhan qazi və ya Murad-i Hüdavendigar, vəzirləri Alaəddin və Candarlı Kara Halil də ahi idilər. Beləliklə, Ahilərin bir qismi alim, kadi olaraq elm sahəsində, bir qismi vali və sərkərdə olaraq idarəçilikdə və hərb sahəsində, digər bir qismi isə ticarət və sənət sahəsində xidmət etdilər. Osmanlının ilk dövrlərində sənət və ticarət sahəsində qeyri-müsəlmanlar üstünlük təşkil edirdilərsə, Ahilik təşkilatları meydana çıxdıqdan sonra bu sahələrə türklər də qatılmış oldular. Ən mühüm nəticələrdən biri o oldu ki, Ahiliyin təsiri ilə Anadolu türklərinin köçəri həyatdan oturaq həyata keçməsi sürətləndi.

XIX əsrdə Osmanlıda Tənzimatın elanı, qərbləşmə siyasətinə keçidlə rəqabətə davam gətirə bilməyən əsnaf təşkilatlarının vəziyyəti ağırlaşdı. Nəticə etibarilə, Anadoluda və Balkanlarda 500 ilə qədər mövcud olmuş, Osmanlı dövlətinin yaranması, genişlənməsi və inkişafında mühüm rolu oynamış Ahilik funksional bir parçası olduğu sistemlə birlikdə tarix səhnəsindən silinmiş oldu (9, s.264).

*Nəticə.* XI - XIII əsrlərdə qərbdən Xaçlı yürüşləri, şərqdən Monqol istilası kimi iki böyük fəlakətlə üz-üzə qalmış olan Anadoluda bir sıra yenidən qurulma cəhdləri olmuşdur ki, onlardan biri də Ahilik düşüncəsi idi. Bir sıra araşdırmalarda "əxlaq, sənət və qonaqpərvərliyi özündə birləşdirdiyi" deyilən Ahiliyin təsiri ilə Anadolu türklərinin köçəri həyatdan oturaq həyata keçməsi sürətləndi. Belə ki, Ahilik türklərin Anadoluya gəlişləri sırasında köçərilikdən oturaq həyat tərzinə keçilməsində, "şəhərliləşmə"də böyük təsiri olmuş, sürətli bir "əsfnaslaşma" prosesini başlatdı. Bir qədər sonra əvvəlki dövrlərdən fərqli olaraq sənət və ticarət sahəsinə türklərin də qatılmasına şərait yaratdı. Özləri arasında qarşılıqlı yardımlaşma münasibətləri qurmağa başlayan türk sənətkar və tacirləri sadəcə bununla da kifayətlənmədilər, bu davranış qaydalarını xalq arasında da yaydılar və s. Ahilik sonrakı zamanlarda Osmanlı dövlətinin qurulmasında təsiri olmuş Ahiyan-i-Rum (Anadolu Ahiləri), Baciyan-i Rum (Anadolu Bacıları), Qaziyan-i Rum (Anadolu Qaziləri) və Abdalan-i Rum (Anadolu dərvişləri, səyyahları, türkmənləri) kimi təşkilatların yaranması üçün mənbə olmuşdur (13, s.737)

Ahiliyi bugünki mənada həm də istehlakçıların maraqlarının müdafiəçisi olaraq görənlər var. Belə ki, Ahi təşkilatlarında keyfiyyətsiz mal satmaq, qiymətdə, ölçüdə və çəkidə aldatmaq və s. məsələlərə ciddi nəzarət mövcud idi. Bunun qarşısını almaq məqsədilə cəzalar da tətbiq edilir, cəza almış şəxslər sosial təcrid edilirdilər (burada "başmağı dama atmaq" məsəlini xatırlatmaq yerinə düşür - S.R.). Bu mənada, günümüz Türkiyəsində Ahilik, sosial ədalətin daha da yayılmasını istəyənlər üçün ilk növbədə tətbiq edilməli olan iqtisadi bir düzən olaraq görülməkdədir (3, s.61; 18, s.11).

## ƏDƏBİYYAT

1. Ahilik Ansiklopedisi. Cilt I. Üçüncü Baskı. Ankara, TC Ticaret Bakanlığı, 2020, 485 s. - https://esnafkoop.ticaret.gov.tr/data/5ee71ab513b8763cf0228266/cilt-1_3%20baski_2020_TR_26042020_baski.pdf [Müraciət tarixi: 01.09.2021].
2. Ahilik Ansiklopedisi. Cilt II. Üçüncü Baskı. Ankara, TC Ticaret Bakanlığı, 2020, 481 s. https://esnafkoop.ticaret.gov.tr/data/5ee71ab513b8763cf0228266/cilt-2_3%20baski_2020_TR_26042020_baski.pdf [Müraciət tarixi: 01.09.2021].
3. Ali Akpınar. Fütüvvetin Dini Temelleri / I.Ahi Evran-ı Veli ve Ahilik Araştırmaları Sempozyumu, 12-13 Ekim 2004, Kırşehir. Kırşehir, 2005, s.43-61. - http://isamveri.org/pdfdrg/D140173/2005/2005_AKPINARA.pdf [Müraciət tarixi: 01.09.2021].
4. Bayram Mikail. Sosyal ve Siyasi Boyutlarıyla Ahi Evren-Mevlana Mücadelesi. Genişletilmiş ve İlaveli 3. Baskı. Konya, Nüve Kültür Merkezi Yayınları, 2012, 319 s.
5. Cemal Anadol. Türk-İslam medeniyetlerinde Ahilik kültürü ve fütüvvetnameler. Ankara, Kültür Bakanlığı Halk Kültürünü Araştırma Dairesi, 1991, 127 s.
6. Claude Cohen. İlk Ahiler Hakkında. Çev. Mürsel Öztürk. Nkara, 1986, s.591
7. Günay Ünver. "Dini ve Sosyal Yönleriyle Ahilik" / II. Ahi Evran-ı Veli ve Ahilik Araştırmaları Sempozyumu, 12 Ekim 2006, Kırşehir. Ankara, 2007, s.163-186. - http://isamveri.org/pdfdrg/G00085/2007_GUNAYU.pdf [Müraciət tarixi: 01.09.2021].

8. Gürata Mithat. Unudulan adetlerimiz ve Loncalar. Ankara, Tisa Matbaacılık, 1975, 151 s.
9. Hüseyin Yılmaz. Bir Anadolu Esnaf Teşkilatı olarak Ahilik ve Eğitim / Uluslararası Ahilikte İş ve Ticaret Ahlakı Sempozyumu. 27-28 Eylül 2018, Sivas Cumhuriyet Üniversitesi. Sivas, 2018, s.261-280. - https://docplayer.biz.tr/108157539-Uluslararasi-ahilikte-is-ve-ticaret-ahlaki-sempozyumu-tebligleri.html [Müraciət tarixi: 01.09.2021].
10. Kazım Ceylan. Türk Dünyasında Kadim bir Medeniyet Projesi Olarak Ahilik, s.891- 898 / 12.Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi. 30 Agustos – 06 Eylül 2014. Kazan, Tatarstan. 2.Cilt: Türk Dünyasında Kültürel ve Ekonomik İşbirliği. Kongre Bildirileri. İstanbul, TDAV, 2014, 1458 s.
11. Kazım Ceylan. Ahilik - Türk İslam Medeniyetinde Dünyevi ve Uhrevi Sistem. Ankara, TC Kültür Bakanlığı Yayınları No1, 2012, 96 s.
12. Köprülü Fuat, Türk edebiyatında ilk mütasavvıflar. Ankara, Alfa Yayıncılık, 2016, 560 s.
13. Mustafa Çoban. Model Bir Eğitim Kurumu Olarak Ahilik // Kahramanmaraş Sütçü İmam Üniversitesi Sosyal Bilimler Drgisi, Yıl 2018, Cilt 15, Sayı 2, s.717-734. - https://dergipark.org.tr/tr/pub/ksusbd/issue/40204/440728 [Müraciət tarixi: 01.09.2021].
14. Neşet Çağatay. Bir Türk Kurumu Olan Ahîlik ve Bunun Kurucusu Ahi Evren / Türk Tarih Kurumu Belleteni, Nisan 1982, Cilt XLVI, Sayı 182, s.423-436. - https://belleten.gov.tr/tam-metin/1736/tur [Müraciət tarixi: 01.09.2021].
15. Neşet Çağatay. Bir Türk Kurumu Olan Ahîlik. Ankara, Ankara Üniversitesi İlahiyat Fakültesi, 1974, 202 s.
16. Neşet Çağatay. Fütüvvetçilikle Ahiliğin Ayrıntıları // Belleten, Temmuz 1976, Cilt XL, Sayı 159, s.423-438. - https://belleten.gov.tr/sayi/143 [Müraciət tarixi: 01.09.2021].
17. Neşet Çağatay. Anadolu'da Ahilik ve Bunun Kurucusu Ahi Evren // Belleten, Nisan 1982, Cilt XLVI, Sayı 182, s.423-436.
18. Nurettin Öztürk. Ahilik Teşkilatı ve Günümüz Ekonomisi, Çalışma Hayatı ve İş Ahlakı Açısından Değerlendirilmesi // Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, Yıl 2002, Cilt, Sayı 7, s.1-12. - https://dergipark.org.tr/tr/download/article-file/55242 [Müraciət tarixi: 01.09.2021].
19. Gürsoy Akça. Ahilik Geleneği ve Günümüz Fethiye Esnafi // Selcuk Üniversitesi SBE 20.08.2003 tarihinde Kabul edilen doktora tezi özeti, s.209-219. https://dergipark.org.tr/tr/download/article-file/258188 [Müraciət tarixi: 01.09.2021].
20. Yazıcı Mustafa. Ahilik'in Esnaf Teşkilatındakı Tarihi Gelişmesine Bakış / Ahilik Yolu, TESV Yayını, Sayı 32, Ekim 1998, Ankara, s.19.
21. Ziya Kazıcı. Ahilik / TDV İslam Ansiklopedisi. 1.Cild. İstanbul, TDV, 1988, s.540-542. - https://islamansiklopedisi.org.tr/ahilik [Müraciət tarixi: 01.09.2021].

**СЕВИНДЖ РУИНТАН**
*Доцент Бакинского Государственного Университета*

## ИСТОРИЯ ОСМАНСКОЙ ИМПЕРИИ В ТЕРМИНАХ: «АХИЗМ»

Исследователи истории делят народы на две группы: творцов истории и писавших историю. Одной из наций, творяших историю и оказавших большое влияние на ход мировой истории, являются тюрки, которые создали множество государств и империй, занимавших важное место в истории человечества. Одним из таких государств является Османская империя, просуществовавшая 623 года. Хотя с момента создания его история было предметом различных исследований, все еще в истории Османской империи остаются вопросы, которые необходимо прояснить. В связи с этим в данной статье сделана попытка прояснить понятие «ахизм», о котором у нас относительно мало информации.

*Ключевые слова*: Девлет-и Алие-и Османийе (Османское государство), Футувват, Ахи, Футувватнамэ.

**SEVİNJ RUİNTAN**
*Associate professor of Baku State University*

## OTTOMAN HISTORY IN TERMS: "AHISM"

Historians divide peoples into two groups: "creators of history" and "writers of history". One of the peoples who created history the Turks, had established many states and empires that had a very important place in the history of world statehood and have had a great impact on the world history. One of them was the Ottoman Empire, which existed for 623 years. Despite the fact that, the history of the Ottoman Empire from its inception to abolition has been the subject of various studies, there are still issues in its history that need to be clarified. In this regard, this article has made an attempt to clarify such concepts as "ahism", about which we have relatively little information.

*Keywords*: Devlet-i Aliyye-i Osmaniyy-e (Ottoman State) Feta, Futuvvat, Ahi(s), Futuvvat-name.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**ƏLƏSGƏR MİRZƏZADƏ**
*Lənkəran Dövlət Universitetinin doktorantı*
**mirzezade.elesger@mail.ru**

# İLKİN ORTA ƏSR MUĞAN VİLAYƏTİNİN ŞƏHƏRLƏRİ HAQQINDA

*Məqalədə Muğan vilayətinin İlk Orta əsr (III – XI) şəhər-qalalarından bəhs olunur. Erkən feodalizmdə antaqonist siniflərin yaranması, sənətkarlıq və ticarətin inkişafı yeni şəhərlərin meydana gəlməsinə səbəb olurdu. Muğan şəhərləri haqqında mənbələr yazıda öz əksini tapmışdır. Ərəb, fars və Şərqin görkəmli tarix və coğrafiyaşünasları Muğan şəhərləri haqqında maraqlı məlumatlar verirlər. Onların əsərlərində Muğan, Bərzənd, Varsan, Həməşərə, Bacərvan, Kuştaspi, Şəhriyar kimi Muğan şəhərlərindən söhbət açılır. Bəzilərinin yeri müəmmalı olsa da, alimlərimizlə araşdırıb tapmağa səy göstəririk.*

*Açar sözlər:* Muğan vilayəti, ilk orta əsr, şəhərlər, mənbələr.

*Giriş.* İlk orta əsrlərdə Azərbaycan ərazisində ticarət və sənətkarlıq mərkəzləri olan inkişaf etmiş şəhər tipli böyük yaşayış məskənləri mövcud idi. Bu şəhərlər haqqında Ərəb coğrafiyaşünas və səyyahları, Avropa diplomatları, Şərq dünyasının qabaqcıl elm adamları maraqlı məlumatlar vermişlər. Həmçinin aparılan tədqiqatlar və araşdırmalar nəticəsində Azrbaycanın bir parçası olan Muğan ərazisində dağılmış bir neçə orta əsr qala-şəhərlər və şəhər tipli yaşayış məskənlərinin adı və təxmini ərazisi müəyyənləşdirilmişdir. Bu şəhərlər Bərzənd, Muğan, Bacrəvan, Həməşəhrə, Kuştaspi, Şəhriyar, Biləsüvar şəhərləridir. Həmin şəhərlərin qədim Azərbaycan torpağında Muğanın ən böyük və inkişaf etmiş şəhərləri olduğu elmi, tarixi dəlillərlə sübuta yetirilmişdir. Lakin ərəb mənbələrində adları çəkilən bu yaşayış məntəqələrinin heç də hamısı dövrümüzədək qalmamış, onların bəziləri haqqında tam dəqiqliklə məlumat əldə edilməmiş, hətta bəzilərinin adı belə unudulmuşdur.

Lakin bəzi şəhərlərin yeri ehtimalla aşkar olunsa da, elmi, tarixi dəlillərlə hələ ki, sübuta yetirilməmişdir. Bu da tədqiqatçı alimlərimizin bu şəhərlərin izinə (hansı ki, bölgələrin bəzi ərazilərində şəhər xarabalıqları özünü büruzə verir) arxeoloji nöqteyi-nəzərdən düşməməsidir. Düzdür, orta əsr xəritələrində mənbələrə əsasən, akademik Z.Bünyadov və N.Vəlixanlı tərəfindən Muğan şəhərinin adı və bölgə yeri təxmini qeyd edilmişdir və dəqiq yeri, hələ ki, müəmmalı olaraq qalır. Amma orta əsr ərəb və şərq mənbələri, son tədqiqatlar, araşdırmalar Muğan şəhərinin məhz Azərbaycanın cənub-şərq bölgəsində vaxtilə mövcud olmasına gətirib çıxarır. Mənbələr əsasında bunu əsaslandırmağa çalışacağıq.

Eramızın III əsrində Adurbadaqan canişinliyinə daxil olan Muğan vilayətinin adı ilk dəfə Sasani şahı Narsenin (293-302) 293-cü ilə aid Payqulu (Kürdüstanda) yazısında çəkilir. Yazının sonunda Narsenin şahənşah elan olunması mərasimində iştirak edənlər sırasında “Muğanşahın adı çəkilir”. Bu titul IX yüzildə ərəb müəllifi İbn Xordadbehin məlumatı ilə də təsdiq olunur [1, s.25].

Muğan şahlığı Rəvvadilər dövlətinə qatılmaqla tarixdən silinir.

Burada göründüyü kimi erkən orta əsrlərdə Muğan vilayəti ölkə olaraq göstərilir. Burada şahlıq qurulmuş, şahlıq Sasanilərdən asılı olmuşdur. Muğanşahlığın mərkəzi Muğan şəhəri olmuşdur. Mənbələrə görə, Muğanşahlıq ərəb istilasından həm əvvəl, həm də xilafətin zəifləməsindən sonra mövcud olub. İbn Miskəveyhin yazdığına görə, Muğan şahlığını o zaman Sipəhbud İbn Dəlulə idarə edirdi. Qətran Təbrizinin şeirlərindən məlumdur ki, Muğanda Dəlulə nəslindən olan feodallar ağalıq edirmişlər. Dəlulənin oğlu Əmir Sipəhbud Təbriz şahına tabe olmadığı üçün Vəhüstanın oğlu Abunəsr Məhəmmədin ordusu ilə (hücum edən Təbriz şahı olur) Muğan şəhərində döyüş olur. Bu döyüşdə Muğan şahı Sipəhbud məğlub edilir. Bu qanlı vuruşmada dahi şairimiz Qətran Təbrizi də iştirak edir [5, 7 s.26, s.34-35].

***Muğan şəhəri.*** Ərəb səyyahı əl-Məsudi (X əsr) “Muruc” əsərində Azərbaycanda iki Muğanın, onlardan birinin dəniz sahilində yerləşən şəhər, digərinin isə vilayət olduğunu qeyd edir. O, bunları

qarışdırmamağı tövsiyə edir. Səyyah Xəzər dənizi haqqında yazarkən göstərir ki, bu dəniz başqa vilayətlərlə yanaşı Muğanın da dənizidir.

Orta əsr ərəb və sərq qaynaqlarına əsasən Muğan Azərbaycanda həmin əsrlərə aid tarixi bir şəhər olub. Orta əsr müəlliflərinin (Müqəddəsi, İbn Xordadbeh, Yaqut Həməvi və b.) məlumatına görə, bağlarla əhatə olunmuş Muğan, Xəzər dənizi sahilində, **Kürün mənsəbindən təqribən 100 kilometr cənubda,** Ərdəbilin 60-70 kilometirliyində yerləşməklə iki çay arasında təsvir olunmuşdur. Bəzi mənbələr Muğanın Ərdəbildən gün yarim - iki günlük məsafədə yerləşməsini də qeyd edirlər. X əsrdə Müqəddəsi şəhərin gözəlliyi, əhalinin səxavət və hörmətcilliyini, Yaqut Həməvi şəhər əhalisinin əksəriyyətini türkmanların (Oğuz türkləri. Bu ifadəni ilk olaraq "türk-mən(man) formasında ərəblər işlətmişlər – *Ə.M.*) təşkil etməsini, burada çoxlu otlağın olmasını, İbn Xordadbeh yerli hakim Şəklə haqqında və s. maraqlı məlumatları qeyd etrmişlər [7, s.24].

Qaynaqların, o cümlədən ərəb müəlliflərinin Muğan şəhərinin adını müntəzəm çəkmələrinə baxmayaraq, sonrakı dövrlərdə şəhərin arxeoloji yeri haqqında dəqiq məlumat, demək olar ki, heç bir mənbə tərəfindən göstərilmir. Bir çox tədqiqatçıların fikirləri isə ziddiyyətlidir. Ərəb qaynaqlarına əsaslanan XX əsr Azərbaycan tarixçi alimləri xəritələrdə Muğan şəhərinin yerini üst-üstə düşməyən ərazilərdə qeyd edirlər. Məsələn, AMEA-nın Tarix İnstitutunun 2007-ci ildə buraxdığı 7 cildlik "Azərbaycan tarixi"nin II cildinin (III-XIII əsrlər) sonunda verilmiş xəritələrdə Muğan şəhərinin yeri haqqında uyğunsuzluq vardır. İkinci xəritədə (Arran və Azərbaycan vilayətləri Ərəb xilafətinin tərkibində) Muğan Xəzər dənizinin xəritə miqyasına görə 1 mm-də verilmişdir. Üçüncü xəritədə (Sacilər və Salarilər dövləti) yenə də Muğan şəhəri ikinci xəritədə olduğundan bir qədər cənuba və Xəzər dənizindən (miqyasa əsasən) 3-4 mm şərqə tərəf qeyd olunub. Dördüncü xəritədə (X əsrin II yarısı-XI əsrin II yarısı) qeyd olunan Muğan şəhərinin yeri əvvəlkilərə tamamilə uyğun gəlmir. Bu dəfə Muğan dənizdən 9 mm (miqyasa əsasən) uzaqda göstərilir. Xırda miqyasa malik olan xəritədə 1 mm - 9 mm arasındakı ərazi fərqinin olması uyğunsuzluğa gətirib çıxarır. Azərbaycan Tarixi Atlasında isə Muğan şəhərinin qeyd olunduğu yer, akademik Nailə xanım Vəlixanlının müəllifi olduğu 1-ci xəritəyə uyğun gəlir. Akademik Z.Bünyadov da öz əsərində Muğan şəhərinin yerini müəyyənləşdirmişdir. O, şəhərin yerini VII əsrə aid xəritədə bir neçə millimetr şimalda (təxminən, Azərbaycanın cənub-şərq bölgəsində) göstərmişdir.

Muğan şəhəri haqqında geniş və ətraflı məlumatı ərəb coğrafiyaşünas və səyyahları verirlər. VI əsrdən XII əsrə qədər olan dövr onların əsərlərində olduğu qədər heç bir mənbələrdə işiqlandırılmır. Bunun səbəbi, VII əsrin ortalarından başlayaraq Azərbaycan torpaqlarının ərəb qoşunları tərəfindən işğalı və onların burada IX əsrə qədər möhkəmlənməsi ilə bağlıdır.

***Ərəb səyyahı ibn əl-Fəqih əl Həmədani "Ölkələrin kitabı"*** adlı əsərində Muğanı görkəmli şəhərlər sırasına daxil edir. Qudama ibn-Cəfər Ərdəbildən dəniz sahilində yerləşən Muğan şəhərinə 4 fərsəx, yəni 28-30 km olduğunu qeyd edir. Xordadbeh isə yazır ki, Ərdəbildən Muğan şəhərinə 10 fərsəxdir (60-70 km). Ziya Bünyadov ikinci fikrə üstünlük verir.

***Əl-Müqəddəsi (X əsr) "İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü"*** əsərində yazır: "Bu şəhər (Muğan-Ə.M.) dəniz kənarındadır. Burada əhali əvvəllər çox idi, indi isə azalmışdır. Bu şəhər yol üstündədir. Şəhər başdan-başa bağ-bağatla örtülmüşdür". Əl-Müqəddəsi Muğanı Ərdəbilin şəhərləri sırasına, iqlim nöqteyi-nəzərindən isə "Ər-Rihab" iqliminə daxil edir. O yazır: "Bura geniş və səfalı iqlimdir". Ər-Rihab – ərəb dilində "geniş ərazi, genişlik" deməkdir. Müəllif qeyd edir ki," Təbriz və Xilatla yanaşı, Muğan ölkənin səfalı yerlərindəndir. Buranın meyvəsi və üzümü çoxdur. Satış qiymətləri ucuzdur. Buradan caylar axır. Biz buranın iqlimini (Ər-Rihabı – *Ə.M.*) bir neçə mahala böldük". Əl-Müqəddəsi ümumi məlumatdan sonra Muğan haqqında tam fikrini belə ifadə edir: "Muğan – gözəl bağlarla əhatə olunmuş şəhərdir, həmçinin şəhər meydanında da bağlar vardır. Bu şəhər də Təbriz kimi başdan-başa yaşılliqlarla örtülmüşdür. Bu şəhərdən Bərdəyə bir həftəlik yol var (at, dəvə, araba, piyada yolu nəzərdə tutulur – *Ə.M.*). Muğan şəhəri gözəldir. Buradan iki çay axır. Adamların sifətləri ləl və mərcan kimidir. Onlar çox səxavətli və hörmətcildir"[7, s.30].

Müəllifin verdiyi bu məlumatlar Muğan şəhər yerinin Azərbaycanın cənub-şərq bölgəsindən uzaqda olmadığını (Biləsuvar-Cəlilabad-Masallı bölgəsi) göstərir. Ərəb səyyahı sonra yazır: "Muğandan bir mərhələ aralı (I mərhələ = 25 km - *Ə.M.*) əl-Həzrə adlı qala var. Bir çox hökmdar bu qalanı işğal etmək istəmiş, lakin oraya qalxa bilməmişdir". Bu söz "əl-Həzrə", yaxud "əl-Həzər" də

ola bilər. Etimoloji cəhətdən "Həzrə" (ərəbcə) sözü tərcümədə "ev", "ocaq", "yaşayış yeri" mənasını verir. "Həzər" sözü də ərəb sözü olub, ona yaxın bir məna "şəhər", "qala" deməkdir. Bu sözlər fonetik cəhətdən digər mənaları da ifadə edir. Mənbələr əsasında araşdırmalarımız sübut edir ki, Müqəddəsinin qeyd etdiyi "əl-həzrə" (əl-həzər) çox ehtimal ki, **Qazan köşküdür**. Muğan şəhər yerinin olduğunu guman etdiyimiz, vaxtilə dənizə yaxın bir ərazidə yerləşən Həməşərə yurd yerindən, Şiləvəngə kəndinə yaxın dağılmış şəhər yerindən və bu gün adını qoyduğumuz Muğan kəndindən Qazan köşkünə 25-27 km məsafə var. Görkəmli coğrafiyaşünas alim Həmdullah Qəzvini vaxtilə Həməşara şəhərində olmuş və bu yaşayış yeri haqqında maraqlı məlumatlar vermişdir: "... Şəhər dəniz kənarında yerləşir. Dənizə qədər olan məsafə 2 fərsəxdir (1 fərsəx 6-7 km-dir – *Ə.M.*). Ərazi 5-ci iqlimə daxildir. Həməşara şəhəri Biləsuvarla talış mahalının arasında yerləşməkdədir".

Qala bu gün də öz möhtəşəmliyini saxlayır. Möhtəşəm Həməşərə abidəsi Mişarçay sakinlərinin bu günə qədər öz varlığını saxlamış yeganə yerüstü abidəsidir. Həməşərənin keçmişini əks etdirən Mişarçay abidələrində yaşayış üçün tikilmiş mədəni divar qalıqları aşkar edilmişdir. Divarlar çiy və qırmızı kərpiclərdən hörülmüüdür.

***Həməşəhrə** (Həməşərə).* Görkəmli coğrafiyaşünas alim Həmdullah Qəzvini vaxtilə Həməşara şəhərində olmuş və bu yaşayış yeri haqqında maraqlı məlumatlar vermişdir: "... Şəhər dəniz kənarında yerləşir. Dənizə qədər olan məsafə 2 fərsəxdir (1 fərsəx 6-7 km-dir - Ə.M.). Ərazi 5-ci iqlimə daxildir. Həməşara şəhəri Biləsuvarla talış mahalının arasında yerləşməkdədir".

Tarixçi və tədqiqatçı Rəşid Əsgərov Həməşərə sözünün Səidəli Kazımbəyoğlunun "Cəvahirnameyi-Lənkəran" adlı əsərinə istinadən "Haoma – şirə" sözündən yarandığını qeyd edir. Eyni zamanda, S.Kazımbəyoğlu "Cəvahirnameyi-Lənkəran" əsərində yazır: "Muğlar bu ərazidə yaşamış, Həməşərə şəhərində də muğların baş məbədi yerləşmişdir". Onlar bu şəhərdə "Haoma" şirəsi çəkmiş və ondan dini mərasimlərdə istifadə etmişlər. M.Boyls haomanın çəkilməsini belə təsvir edir: "Efedr bitkisinin budaqlarını yığır, onu daş həvəngdə sürtüb qabıqlarını çıxarırmışlar. Sonradan ona nar şirəsi qatar və süd əlavə edib içərmişlər. Dini mərasimləri qızışdırmaq üçün ibadətə gələnlərə paylayarmışlar" (bax: E.N.Doroşenko "Zoroasdriytcı İrana", s.74).

Həməşərə "yurd yeri"ndən tapılmış maddi-mədəniyyət abidələri – "Haoma" çəkilən həvəng, şirə saxlanılan küp və ağızlığı, haomanı qaynatmaq üçün təndirlər, bizə qədər gəlib çıxan "Həməşərə " üzüm sortu, şəhərin ətrafında o vaxtlar əkilən və indi də kol-kos şəklində öz varlığını saxlayan nar ağacları və s. sübut edir ki, bu şəhərdə " Haoma" şirəsi çəkilirmiş və zərdüştilərin dini mərkəzi yerləşibmiş. (Bu müqəddəs içki ayrı-ayrı mənbələrdə müxtəlif cür işlənib. Məs: dinşünas tədqiqatçı John Noss maqların bu içkisini "huma" yazır, yaxud, "Veda" kitabında "Suma" bitkisi kimi təqdim edilir).

Ancaq bu tapıntı və dəlillər bizə əsas vermir ki, əlimizdə tutarlı fakt olmadan deyək: "Həməşərə" şəhərinin adı buradan götürülmüşdür. İlahiyyat üzrə elmlər doktoru İ.İsmayılzadə də bəzi şərq mənbələrinə əsaslanaraq, bu fikirlə bağlı öz subyektiv fikirlərini belə ifadə edir: "Yuxarıda haoma(hum) şirəsi ilə bağlı təqdim edilən məlumatları nəzərdən keçirdikdə, həmin içkinin yalnız müəyyən bir məkan və coğrafi mövqedə deyil, əslində böyük bir ərazidə yayılmış Mehrpərəstlik və Muğan dinində ümumi bir din olduğu aydınlaşır. Belə olan halda həmin şərabın yalnız qədim Həməşərə ərazisində hazırlandığı və buna görə də bu diyarın adının haoma şirəsindən alındığını söyləmək sözün həqiqi mənasında çox çətin bir məsələdir". Sonra o yazır: ...Məcdi təxəllüsi ilə tanınan Əmir Məcdəddin Məhəmməd qələmə aldığı "Zinətül-məcalis"(Məclislərin bəzəyi) adlı əsərində... doğma diyarımızı "Əbərşəhr" kimi göstərir. Əbərşəhr "Əbər" (ən böyük) və "şəhr (şəhər) olduğu məlumdur... Fars mənşəli bu ad doğma diyarımızın qədim zamanlarda fars imperatorluğunun istilası və nüfuzu altında olduğunu göstərir... Qədim Həməşərənin adı "Əbərşəhr" olsa da,... onu İran ərazisində məşhur olan Əbərşəhr ilə səhv salmaq olmaz. Çünki qədim zamanlardan bəri İran ərazisində "Böyük şəhər" mənasını yetirən "Əbərşəhr"əslində Xorasan vilayətindəki Nişapur şəhəri olmuşdur. Şeyx Məhəmməd ibn Nəcib Bəkran Xorasani... qələmə aldığı "Cahannamə"adlı əsərində bu barədə belə yazmışdır: Əbərşəhr Nişapur şəhərinə deyilir... Amma tarixən eyni adda olan şəhərlərin olması danılmazdır. Əslində Ə.Firdovsi də "Şahnamə"də doğma diyarımızı yox, Xorasandakı Nişapuru qələmə alıb. Ümumiyyətlə, Bu əsərdə "Əbərşəhr" ifadəsi deyil, Əbərşah (ən böyük şah) ifadəsi işlənmişdir ki, bunun da bizim doğma Həməşərə şəhərinə heç bir aidiyyatı yoxdur" [5, s.141].

Rayon ərazisində yaşayan yaşlı nəsl nümayəndələrinin dediklərinə görə isə, Həməşərə "həm-əşirə" (ərəbcə) sözünün təhrif olunmuş formasıdır. "Həm-əşirə" ərəbcə "tayfa(lar)" mənasını verir.

Şəhərin yerləşdiyi mərkəzi təpə böyük bir ərazini əhatə eləməklə bu gün də öz əzəmətini saxlayır. Nişanələr sübut edir ki, şəhərdə 3-4 m hündürlükdə qala ilə əhatə olunmuş üzü günəşə atəşpərəstlərin baş məbədi yerləşmişdir. Şəhərin ayaq tərəfində karvansara, təndir yerləri, kiçik məbəd yerləri və s. aşkar olunmuşdur. Tarixi faktlara görə, Həməşərə bir neçə dəfə dağılıb yerlə-yeksan olmuş, lakin tarixin səhifələrində öz izini itirməmişdir. Bəzi tarixi rəvayətlərdə göstərilir ki, Həməşərə dəfələrlə sel-su və zəlzələ nəticəsində, bir dəfə xəzərlərin hücumları, 9 dəfə isə ərəb işğalçılarının hücumları nəticəsində darmadağın edilmişdir. Rəvayətə görə, Muğan şəhəri elə Həməşərə şəhərinin özüdür. Ərəblər şəhəri dağıdarkən bu şəhərə "Muğan", yəni "muğların, atəşpərəstlərin şəhəri" demişlər. (Bir şeyi də qeyd edək ki, Həməşərədə ərəblərlə muğanlılar arasında baş verən qanlı döyüşün nümunəsi kimi Cəlilabad şəhərindən 4 km məsafədə yerləşən Sərhədabad kənd ərazisində o dövrü təmsil edən ərəblərə aid əyri qılınc və qalxan tapılmışdır – *Ə.M.*). Görkəmli tarixçi mərhum Rəşid Əsgərov yazdığı "Tarixi keçmişimiz və Zərdüştlüyü təsdiqləyən Muğan abidələri" məqaləsində bu barədə araşdırma aparmışdır. Ərazidə tapılan əşyalar burada qala və şəhər yerini təsdiq edir. Ümumiyyətlə, Cəlilabad ərazisində tapılan yüzlərlə maddi-mədəniyyət nümunələrinin müəyyən hissəsi Zərdüştizmə aiddir [bax: 4, s.8].

Digər mənbələrdə Həməşərənin Xəzər dənizinin sahilində yerləşdiyi, dənizə qədər olan məsafənin 2 fərsəng (12-14km) olduğu göstərilir. Şəhərin tikilmə tarixi, kim tərəfindən tikilməsi, "Həməşəhrə" adının bir neçə versiyasının olmasına baxmayaraq, hələ də mübahisəli olduğu gündəmdədir.

Orta əsr Muğanının şəhərləri, ticarət mərkəzləri bunlarla bitmir. Onun Bərzənd, Varsan, Bacrəvan, Şəhriyar, Biləsuvar, Ağdam, Kuştaspi və digər İlk Orta əsr şəhər-qalaları mövcud olub. Yəqin ki, yaxın zamanlarda bunlar haqqında geniş məlumatlar verəcəyik.

***Bərzənd.*** Akademik Nailə xanım Vəlixanlı "IX-XII əsr ərəb coğrafişünas-səyyahları Azərbaycan haqqında" (Bakı, 1974) əsərində ərəb mənbələrinə əsaslanaraq göstərir ki, Muğan vilayətində qədim şəhərlərdən biri də Bərzənd olmuşdur. Bu şəhər Ərdəbildən təqribən 85 km şimalda olub. Bərzənddə toxuculuq, sənətkarlıq və ticarət inkişaf etmiş, o, xilafət dövründə mahal mərkəzi olmuşdur. Babək hərəkatı dövründə ərəb qoşunlarının komandanı Afşinin qərargahı Bərzənddə yerləşirdi (835-ci il), Babək əsir alındıqdan sonra Bərzəndə gətirilmişdir. Bərzənd ehtimal ki, monqol hücumları nəticəsində işğal edilmiş, dağıdılmış, XIV əsrdə isə tamamilə tənəzzülə uğramışdır [2, s.255].

İlahiyyat üzrə elmlər doktoru İlqar İsmayılzadənin şərq mənbələinə əsasən yazdığına görə "Muğan bölgəsində yerləşən və IV iqlimdən sayılan bu şəhər ərəb yürüşləri nəticəsində xarabalığa çevrildikdən sonra Abbasi sülaləsindən olan xəlifə Mötəsimin xidmətçisi onu yenidən abadlaşdırmış və oranı öz məskəninə çevirmişdir. İndi də ora balaca abad kənddən başqa xarabalıq halındadır. Oranın havası istiliyə meyillidir. Suyu isə bulaqlardandır. Bərzəndin hündür bir ərazisi də var. Onun məhsulunun o zamanlar taxıl olduğu bildirilmişdir". Müəllif qeyd edir ki, Bərzənd sözü əslində, fars dilində "hündür məkanlar mənasını verən "Bərcan" və ya "Borcan" ("borc" hündür bina, obyekt, "an " isə -lar, -lər şəkilçisidir) sözünün fonetik baxımdan dəyişikliyə uğramış forması, digər nəzərə görə "torpaq sahəsi" anlamındadır [5, s.13].

Mənbələr ərəb işğalından sonra şəhər həyatının nisbi inkişaf yoluna düşdüyü IX yüzilin ortaları bir çox şəhərlərlə yanaşı, Muğan, Bərzənd kimi "gözəl, eyni böyüklükdə" orta şəhərlərin adlarını çəkirlər. İbn Havqəl **Muğan** və **Bərzənd** də daxil olmaqla Cənubun bütün şəhərləri... haqqında yazır: "Bu şəhərlərin hamısını ağaclar bürümüş, hər yer buğda zəmiləri və xurma ağacları ilə..., hər cür mal-nemətlə zəngin və Allahın xeyir-bərəkəti ilə doludur".

İpəkçiliyin və xalçaçılığın Arran və Azərbaycanda inkişafı haqqında yerli və ərəb-fars müəlliflərinin əsərlərindəki məlumata görə yun, ipək və pambıq parçalar emal edən yerli sənətkarlar həmin parçaları və onlardan tikilmiş hazır paltarları bazara çıxarırdılar. **Bərzənddə**, ərəb qaynaqlarında "qəfilə" adı ilə qeyd edilən hamam dəsmalları, tirmə parçalar, örtüklər, çullar, **Varsanda** "zilu" adlanan xalılar, namaz xalçaları, **Muğanda** sumağ və palazlar, xalça çuvallar və s. hazırlanırdı.

Müqəddəsi bildirir: Bərzənddən Ərdəbilə15 fərsəxdir(1 fərsəx – 6-7 km). Bərdədən Bərzəndə 1 (bir) mənzil yol var.(1 mənzil – 30 km-ə yaxın) [7, s.114].

***Varsan.*** Muğanın ilkin orta əsr şəhərlərindən sayılan Varsan vaxtilə Araz çayının cənub sahilində yerləşibmiş, Beyləqan şəhərindən təqribən 40-45 km cənubda olmuşdur. Ərəb müəlliflərindən Bələzuri (IX əsr), ibn Xordadbeh (təq. 820-912), İstəxri (təq. 850-934), ibn Havqəl (X əsr), Müqəddəsi (X əsr), İdrisi (XII əsr) və başqaları Varsan haqqında məlumat vermişlər.

"Varsan" sözü ilk orta əsrlərdə "varsak", "varsaz" kimi işlənməsi ehtimalı güclüdür. Bu barədə Z.Bünyadov qədim və orta əsr mənbələrinə əsaslanaraq qeyd edir. Onun tədqiqatlarına və əsaslandığı mənbələrə görə "Varsan" (varsak) sözü yer adını, türk tayfa adını bildirir. "Fərhəng-i Cahangiri də eyni izahatı verir: "Varsaz yer adıdır". "Bürhan-i qati" lüğətinin müəllifi də "varsaz" sözünü "yer adı, vilayıt adı" kimi izah edir [2, s.173].

Bütün bu mənbələr göstərir ki, Varsan ölkəsinin adı həm "Varsaz", həm də "Varsak" kimi işlənib. "Varsan" sözü ehtimalla ərəblərin işlətdiyi ifadə olub. Bu şəhər, ölkə adının bütün mənbə izahlarında yer, tayfa, o cümlədən türk fayfasına verilən ad olduğu təsdiqlənir.

730-731-ci ildə Varsan yaxınlığında ərəblərlə Xəzərlər arasında qanlı döyüşlər baş vermişdi. Müharibələr zamanı dağılmış Varsan VIII əsrin ortalarında bərpa edilmişdi. Muğanın orta şəhərlərindən olan Varsan və onun ətrafındakı ərazilər xəlifə Harun ər-Rəşidin qızlarına bağışlanmışdı [2, s.192].

İbn Havqəl "Yollar və məmləkətlər kitabı"nda göstərir: " Varsan Beyləqandan daha böyük və genişdir; əhalisi, bazar və ticarət malları daha çoxdur. Böyük şəhərlərdə olan hər şey Varsanda da vardır. Şəhərin ətrafı divarlarla əhatə olunmuş, bazarları üçün isə xüsusi məhəllə ayrılmışdır".

IX əsrdə Xilafətdən asılı əmirliklərdən biri də Varsan əmirliyi olub. XIII əsrdə Varsanda gümüş sikkələr kəsilmişdir. Digər mənbələrdə də Varsanın çoxlu əhalisinin olmasından, geniş bazarlarının və müxtəlif çeşidli mallarının varlığından bəhs olunur. Bu şəhərdə əhaliyə xidmət yerləri və mehmanxana kimi hər şeyvar imiş. Şəhər hasarlarla əhatə olunmuş, xarici təhlükədən qorunmuşdur. Onun bazarı ilə məşhur olan böyük qəsəbəsi də şəhər səviyyəsində olub.

Ərəb müəllifləri Bərdədən və Beyləqandan Ərdəbilə gedən ticarət yolu və şəhərlərarasə məsafə haqqında da məlumatlar verirlər. **İstəxri** Beyləqandan Ərdəbilə olan məsafəni belə göstərir: Beyləqandan Varsana 7 fərsəx, Varsandan Bəlhəbə 7 fərsəx, Bəlhəbdən Bərzəndə 7 fərsəx, Bərzənddən Ərdəbilə15 fərsəxdir [7, s.114].

***Bacrəvan.*** IX – XIVəsrlərə aid mənbələrdə Cənubi Azərbaycan ərazisində, Muğan düzündə Bacrəvan adlı şəhər haqqında məlumat verilir. Bu şəhər Muğanın mərkəzi şəhərlərindən biri olmuşdur. Onun havasının 4-cü iqlimdən olduğu bildirilir.

Tarixi mənbələr göstərir ki, bu şəhər V-VII əsrə aid xəritələrdə Baqavan, VIII-IX əsr xəritələrində Badjravan kimi qeyd edilmişdir. Ərəb tarixçisi əl-İstəxri Bacrəvan şəhərini Azərbaycanın Təbriz, Bərzənd, Muğan və digər şəhərləri ilə bərabər sayaraq qeyd edir ki, Bəcrəvan şəhəri böyüklüyünə görə yuxarıda adları çəkilən şəhərlərə bənzəyir. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində qədim mənbələrə əsaslanaraq, Muğanda olan bir çox şəhərlərin, o cümlədən Həməşərə, Bərzənd, Bəcrəvan və digərlərinin adlarını çəkir. Muğanda iki Bəcrəvan tarix səhnəsinə çıxmışdır. Biri Güneydə, vaxtilə Ucarud adlanan mahalda, Xoruzlu dağının ətəyində böyük bir şəhər olmuş ***(Səid Əli Kazımbəyoğlu "Cəvahirnameyi-Lənkəran", s.38-39)*** və hal-hazırda xarabalıqları qalmış, digəri isə Cəlilabad rayonunun indiki Bəcrəvan (Böyük Bəcirəvan, Kiçik Bəcirəvan) kəndidir ki, Göytəpə çayı sahilində yerləşir. Tədqiqat və araşdırmalar burada da şəhər qalıqlarının olduğunu gündəmə gətirir. S.Nəsiroğlu ***Əhməd ibn-Asam əl-Kufi "Müharibələrin tarixi"*** əsərinə əsaslanaraq yazır: "739-cu ildə Səid ibn Həşərə özünün etibar etdiyi adamlarını çağırıb Bəcrəvan qalasını qorumağı, qalanın qapılarını bağlamağı əmr edir. Özü isə çoxlu ordu (58 min nəfər) ilə Xəzərlərə qarşı hücuma keçir, döyüşdə qalib gəlir. Əldə etdiyi qəniməti Bəcrəvana gətirir". Müəyyən araşdırmalar göstərir ki, bu hadisə Muğanın Cənubunda Ucarud mahalında yerləşən Bacrəvan qalasından gedir.

*Nəticə.* Məqalədə Vətənimizin bir parçası olan Muğan vilayəti haqqında, onun ilkın şəhərləri – Muğan, Varsan, Bərzənd, Həməşəra, Bəcrəvan və onların tarixi keçmişi, əhalisi, onların məşğuliyyəti, mədəniyyəti haqqında elmi şəkildə məlumatlar verilir. Orta əsr qaynaqlarına və sonrakı dövr tədqiqatlarına əsaslanaraq, Muqan şəhərlərinin zaman etibarilə yerəşdiyi məkanlar haqqında da məlumatlar öz əksini tapmışdır. Bəzi şəhərlərin (Muğan, Bacrəvan) yeri tam dəqiq müəyyən edilməsə də, ərəb və şərq müəlliflərinin mənbələrinə əsaslanaraq, təxmini hansı bölgədə yerləşməsi məqalədə öz

əksini tapmışdır. Məqalə yazılarkən tarixi əsərlərə, arxiv sənədlərinə, məqalə və monoqrafik yazılara, səyyahların yol qeydlərinə müraciət etdim, o taylı, bu taylı (Cənubi və Şimali Azərbaycan) Muğan ərazisində olarkən etdiyim qeydlərimə istinad etdim.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi.VII cilddə. II cild. Bakı, Elm, 2007, 605 s.
2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 335 s.
3. Dadaşzadə M.A. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyi. Bakı, "Elm" nəş., 1985, 214 s.
4. Əsgərov R.Ə. Cəlilabad: dünən və bu gün. Bakı, Çaşıoğlu, 2000, 129 s.
5. İsmayılzadə İ.Ə. Yurdumuzun tarixi. Cəlilabad, Özəl çap üsulu, 2021, 400 s.
6. Qətran Təbrizi, «Divan», «Əbu Nəsr Məmlan İbn Vəhüstanın mədhi». Bakı, AzSSR EA, 1967, 440 s.
7. Mirzəzadə Ə.A. Tarix və Zaman. Bakı, Elm və təhsil, 2007, 211s.
8. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafişünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm nəşriyyatı, 1974, 223 s.
9. Səidəli Kazımbəyoğlu Cəvahirnamei-Lənkəran. Bakı, Örnək nəş., 2000, 47 s.

**АЛЕСКЕР МИРЗАЗАДЕ**
*Докторант Ленкоранского Государственного Университета*

## О ГОРОДАХ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ В МУГАНСКОЙ ОБЛАСТИ

В статье рассказывается о городах-крепостях раннего средневековья (III-XI вв.) Муганской провинции. В условиях раннего феодализма в связи появлением антогонистических классов и развитием торговли появились также новые города. Интересные сведения об этих Муганских городов нашли свое отражение в трудах видных историков и географов Востока. В их произведениях рассказывается о таких городах, как Мугань, Барзанд, Варсан, Хамашара, Баджраван, Куштаспи, Шахрияр и т.д. Наряду недостаточной информации о местах нахождения некоторых из этих городов, Мы стараемся вместе с учеными принести ясность этой проблеме.

*Ключевые слова:* Провинция Муган, раннее средневековый, города, источники.

**ALASGAR MIRZAZADA**
*Doctoral student of Lankaran State University*

## ABOUT THE CITIES OF THE EARLY MEDIEVAL MUGAN

The articledeals With the early medieval towns and fortresses of Mugan province (III-Xi cent.) in evrly feudalism, the emergence of antogonistic classes the develortent of crafts and trade led to the emergence of new cilies Sources abont Mugan cilies are reflected in the article. Prominent arab and persian historians and geographers provide interesting information about the cities of Mugan, in the works Mugan, Barzand, Varsan, Hamashara, Bajravan, Kushtaspi and Shahriyar are mentioned. Although the location of some of them is misterans, we are trying to find out, with our sient ists in this article we give information about only two cities.

*Keywords:* Mugan province, early medieval, cities, sources.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Arif Məmmədov, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**SEVİNC MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universitetinin nəzdində*
*Sumqayıt Dövlət Texniki Kollecinin ictimai*
*elmlər və tarix fənn birləşməsinin muəllimi*
**TarixVeOnunProblemleri@gmail.com**

# XIII-XV ƏSRLƏR AZƏRBAYCANDA SUFİZM VƏ HURİFİZM FƏLSƏFƏSİ

*XIII-XV əsrlərin fəlsəfəsi Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində mühüm yer tutmuşdur. O zaman Azərbaycan fəlsəfəsinin əsas mövzusu Tanrı ilə insan arasındakı əlaqə idi. Bu dövrün təsəvvüf və hurifiliyinin görkəmli nümayəndələri arasında Mahmud Şəbüstəri, Fəzullah Nəimi, İmadəddin Nəsimi və başqaları vardı. Təsəvvüf İslamla bir düşüncə tərzi olaraq əlaqələndirilmişdir. Hurifizm təkcə dini və mistik bir hərəkat deyil, həm də Teymur hakimiyətinə qarşı siyasi bir hərəkat idi.*

*Açar sözlər:* Sufizm, təriqət, mistisizm, etiqad, hurifizm, kamillik.

*Giriş.* Bu gün biz tarixi keçmişin, mənəvi mədəniyyətin, ictimai-fəlsəfi fikrin düzgün qiymətləndirilməsinə və yenidən qiymətləndirilməsinə həmişəkindən daha çox ehtiyac duyuruq. Tarixi bilməyimiz müstəqilliyi möhkəmləndirmək, milli mənlik şüurunu dərinləşdirmək, mənəvi həyatımızı milli mədəni ənənələr və dünya mədəniyyətinin müasir nailiyyətləri əsasında inkişaf etdirmək səylərimizə şəraıt yaradan fəal və konstruktiv amil olmalıdır. XIII-XV əsrlər fəlsəfəsi Azərbaycamn. ictimai-fəlsəfi fikir tarixində xüsusi yer tutur. Həmin dövrdə Azərbaycan fəlsəfəsinin əsas mövzusu Allah-insan münasibətləridir. O dövrdə Azərbaycan fəlsəfəsinin ən mühüm fərqləndirici cəhəti əxlaq problemlərinə müstəsna diqqət yetirilməsidir. XIII-XV əsrlərdə Azərbaycan dünyaya bir sıra məşhur və görkəmli mütəfəkkirlər vermişdir. Onlärm arasmda Mahmud Şəbüstəri, Əvhədi Marağayi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Yusif Qarabaği, Məhərnməd Əli Saib Təbrizi, Zeynalabdin Şirvani xüsusi yer tutur.

Mahmud Şəbüstəri XIII əsrin axırlan - XIV əsrin əwəllərində Azərbaycan dini-fəlsəfi fikrinin görkəmli nümayəndəsi olmuşdur. Real varlığı - Allahı ali dərəcədə dərk etmiş bu sufi mütəfəkkiri vaxtilə o qədər böyük niifuz qazanmışdır ki, sufiliyə mənsub olan digər həqiqət axtaranlar tez-tez ona suallarla müraciət edir və onun cavablarma hörmətlə yanaşırdılar. Şəbüstəri bir sıra maraqlı traktatlarm müəllifidir, lakin onu ən çox məşhurlaşdıran "Gülşəni-raz" ("Sirlər gülüstam") adlı şah əsəridir. Bu əsərdə o; özünün "vəhdət əl-vücud" ("varlığm vəhdəti") təlimini fəlsəfi mövqedən izah edir. Bu təlimin rtıahiyyəti Allahm və dünyaron vəhdətini "hər şey Allahdır, Allah hər yerdə mövcuddur, Allah hər yerdə zühur edir" mənasmda panteistik isbat deyil, bütün varlığm Allah tərəfindən yaradılması aktlarmm vəhdətinin isbatıdır. Şəbüstərinin vəhdət əl-vücud təlimi Allahm və onun yaratdığı dünyanm ontoloji vəhdəti demək deyil, o, Tanrmın yeganəliyinin təzahürü kimi dünyanm yeganəliyinin insan tərəfindən dərk edilə bilməsini nəzərdə tutur [1, s.189, 191].

Sufizm təmsilçiləri hesab edirdilər ki, şəxsi ruhi-psixoloji təcrübə vasitəsilə insanın Allah ilə bilavasitə mənəvi ünsiyyəti, heç olmasa hələlik kənardan seyr etməsi, sonra isə tamamilə qovuşması mümkündür. Bu ünsiyyət ürəyində dərin ilahi məhəbbət olan insanın ehtiraslı vəcd (ekstaz) və mənəvi işıqlanma vasitəsilə yaranır. Orta əsrlərdə belə cərəyanlar nadir hadisə deyildi. Mistika bəşəriyyətdə mövcud olan bütün böyük dini sistemlərdə (buddizmdə, hinduizmdə, iudaizmdə, xristianlıqda) müəyyən yer tutur Sufilərə görə həqiqi bilik ilahi nurlanma yolu ilə, mistik məhəbbətlə, Allaha yaxınlaşmaq və nəhayət. Ona qovuşmaqla əldə edilir. Ona görə də sufilər intuitiv idraka can atırlar. Onlar hesab edirlər ki, Allah yeganə substansiyadır və dünya bu yeganə, bütöv substansiyanın təzahürləridir; bütün cisimlər, təbiət hadisələri müvəqqəti olaraq öz başlanğıcından aynlırlar, danxırlar, qayıtmaq istəyirlər və nəhayət, qayıdırlar (vəhdəti-vücud). Dünyanın vəhdəti, insanın Allaha qovuşmasının yalnız bir yolu var - məhəbbət. Burada ağıl gücsüzdür. Sufizmin üç mərhələdən keçdiyini daha çox qeyd edirlər: 1) şəriət - islamın bütün hüquq qaydalanmn yerinə yetirilməsi; 2) təriqət - hörmətli, tanınmış şeyxin, pirin yanında şagirdlik (müridlik) dövrü; arası kəsilməyən dualar və gərgin düşüncələr, rəqslə müşayiət edilən dini ayinlər vasitəsilə şəxsi iradəni məhv etmək; 3) mərifət

- Allahı ağılla yox, qəlblə dərk etmək; həqiqət - m\sx\a üsullarla mərifətlə həqiqəti Allahda tapmaq [2, s.107]. Sufizm bir etiqad və düşüncə tərzi kimi özünəqədərki başqa din və fəlsəfi görüşlərlə bağlılığı və oxşarlığı olsa da,o, islam dininin bətnindən doğulmuş,mühüm bir islam hadisəsi kimi nəşət etmişdir. Doğrudan da, onun əsas qaynaqları məhz islami cəmiyyətin atributlarıdır. Quran Məhəmməd (s.ə.s) peyğəmbərlə əlaqəli sünnə və hadisələr, səhabələrin kəlamları və davranış normaları, əhli-beytin sadə həyat tərzi, zöhd, təqva, təvəkkül, ixlas, şəriət qaydalarına dürüst əməl etmək,Tanrı eşqi ilə yaşamaq nəfslə mübarizə və s.təsəvvüfün ilkin qaynaqları srasındadır.

Sufizmin bir etiqad və düşüncə tərzi kimi özünəqədərki başqa din və fəlsəfi görüşlərlə bağlılığı və oxşarlığı olsa da, o, islam dininin bətnindən doğulmuş, mühüm bir islam hadisəsi kimi nəşət etmişdi. Doğrudan da, onun əsas qaynaqları məhz islami cəmiyyətin atributlarıdır. Quran, Məhəmməd (s.) peyğəmbərlə əlaqəli sünnə və hədislər, səhabələrin kəlamları və davranış normaları, əhli-beytin sadə həyat tərzi, zöhd, təqva, təvəkkül, ixlas, şəriət qaydalarına dürüst əməl etmək, Tanrı eşqi ilə yaşamaq, nəfslə mübarizə və s. təsəvvüfün ilkin qaynaqları sırasındadır. Ümumiyyətlə, ilkin dövrlərdən başlayaraq uzun müddət sufilərin bir çoxu təqibə məruz qalmışdır. Ruhanilər, fiqh və kəlam alimləri sufilərə radikal mövqedən yanaşmışlar. Təsəvvüf dünyasını bütövlükdə həmin töhmət, qınaq və təqiblərdən qurtaran isə islam şərqinin elm, fəlsəfə və din sahəsində ən böyük münəvvərlərindən sayılan imam Əbu Hamid Qəzali olmuşdur. Idrakının, elminin, imanının və fəzilətinin gücü ilə o, əgər belə demək mümkünsə, islamı təsəvvüflə barışdırdı [3, s.3, 14]. Sufilərin özünəməxsus fikir və ibadətləri vardır. Sufilik ifrat zahidlikdən (asketizmdən) ibarətdir. Sufi guya Allah eşqində özünü fəda edir, maddi hər nə varsa , ona laqeyid yanaşır. Sufilik təfəkkürünün ən batil müddəası «vəhdəti-vücuddur». Vəhdəti-vücud nəzəriyyəsinə görə Allahla insanın vücudu vahiddir. Allah sufinin cismində təcəlla edir, sufi öz rəbbində fənaya (yoxa) çevrilir. Bütün bu fikirlər İslam əsaslarına tamamilə ziddir. Sufilərin fikir və ibadətlərinə diqqət etsək, bu cərəyanda hinduizmin yoqa tə'liminin1 və qədim Çin konfusiçiliyinin2 tə'siri açıq şəkildə duyulmaqdadır. Tanınmış sufilərdən olan Hüseyn ibn Mənsur Həllac (858-952) bu fəlsəfi cərəyanda son dərəcə ifrat etmiş, Allahın insan bədəninə hülul etməsini (keçməsini) şiddətlə müdafiə etmişdir. Nəhayət, dövrünün əksər fəqihləri tərəfindən kafir e'lan olunmuş və ölümünə dair hökm kəsilmişdir [4, s.27, 28].

Sufi mistisizminə (təsəvvüfə) maraq, əslində, heç vaxt azalmamışdır. Həmin marağın nəticəsidir ki, hazırda istər Şərq, istərsə də Qərb ölkələrində sufizm haqqında müxtəlif dövrlərdə yaradılan dini ehkamların təfsirinə, həmçinin psixoloji təmrin vasitələrinə, ayin-mərasimlərinə görə bir-birindən fərqlənən sufi qardaşlıqları – təriqətləri haqqında nəhəng informativ qaynaqlar bankı meydana gəlmişdir. Bu da ilk baxışda sanki məsələnin mahiyyətini anlamaqda heç bir müşkül qalmadığı, hər kəs sufilik barədə yetərincə obyektiv məlumat almaq iqtidarında olduğu qənaətini formalaşdırır. Əslində, bu maraq və ədəbiyyatlar sufizmin tarixi, onun mistika, fəlsəfə, din, İslam, ədəbiyyat, incəsənət, elmlə əlaqələrinə ən müxtəlif və hətta bir-birinə diametral zidd baxışların meydana gəlməsinə gətirib çıxarmışdır. Göstərilən kontekstin çözülməsi sufiliyin, onun müxtəlif təriqətlərinin və ayrı-ayrı məşhur nümayəndələrinin humanist irsində əksini tapan, çoxəsrlik dini-mistik fəlsəfi ənənələri və həmin ənənələrin geniş tədqiqi təcrübəsi olan Azərbaycan fəlsəfəsi qarşısında bir çox, o cümlədən metodoloji planda yeni vəzifələr qoyur. Təbiidir ki, bu günü təhlil etmədən gələcəyə baxmaq və keçmişə nəzər salmaq mümkün deyil. Qeyd olunmalıdır ki, uzun əsrlər boyu mədəniyyətinin, o cümlədən fəlsəfəsinin inkişafı nəticəsində müsəlman Şərqi ilə bağlı olan Azərbaycan torpağında neçə-neçə sufi dahisi yetişmiş, hürufilik, nöqtəvilik, qızılbaşlıq ideologiyası kimi sırf Azərbaycan mühitinin məhsulu olan orijinal dini-mistik və fəlsəfi təlimlərin əsası qoyulmuşdur. Bu irs zaman-zaman araşdırılmış, bütün ideoloji əngəllərə rəğmən hətta Sovet dövründə də öyrənilmişdir. Şərq fəlsəfə ənənəsində – hinduizm, buddizm, caynizmdən tutmuş İslam zəminində meydana gələn dini-mistik, panteist fəlsəfi cərəyanlara qədər bilik, qneseoloji anlayışlar həmişə etik anlayışlarla, mənəvi dəyərlərlə, yəni şəfqət, xeyir, şər, məhəbbət, fədakarlıq, insan əzabları, həyəcanları ilə sıx bağlı olmuş və həm də müəyyən dərəcədə ontoloji məna daşımışdır. Bu zaman öz daxili aləmini və dünyanı dərk etməyə imkan verən daxili görmə – bəsirət, mistik nurlanma, başqa sözlə, intuisiya, Allah və dünyanın son sirləri haqqında səhih biliyi təmsil edən qnosis mühüm rol oynamışdır. Sufilikdə belə hesab edilir ki, öz idealına çatma, yəni insanın Allahla – Həqiqətlə qovuşma məqamında (vəhdəti-vücud) artıq bilik və varlıq üst-üstə düşür, necə deyərlər, qnoseologiya və ontologiya bir-birindən fərqlənmir. Dünya-

nın bu cür rasional və irrasional, mistik yolla mürəkkəb dərkini hər bir sufi mütəfəkkiri öz mətnlərində müxtəlif simvollardan, yaradıcılığına xas müxtəlif hermenevtik vasitələrdən istifadə etməklə, "xəbərdar olmayanın" anlaya bilməyəcəyi, məna dərinliklərinə enə bilməyəcəyi şəkildə təsvir edir. Hər bir şərhçi, tədqiqatçı da öz növbəsində bu mətnlərdəki mənaları özünə məlum olan, təcrübəsində sınadığı hermenevtik üsulların köməyi ilə açmağa çalışır. Bu mənada tədqiqatçı təfsirinə ikincili hermenevtika demək olar [5, s.27, 30] Hürufiliyə görə, ilahi başlanğıc insanın öziində təzahür edir. Kainat əbədidir. Kainatm hərəkəti və bəşəriyyətin tarixi təkrarlanan zaman silsüələrindən keçir. Hər bir silsilənin başlanğıcmda Adəm yaranır, sonda Qiyamət günü olur. Eyni zaman silsiləsinə aid hadisələr və şəxslər növbəti süsilədə əbədi qayıdış prinsipi üzrə təkrarlarur. Tannnın təzahürləri ardıcıl olaraq peyğəmbərlik, müqəddəslik və Tannya çevrilmə formalan kəsb edir: peyğəmbərük Məhəmmədlə, müqəddəslik Əli bin Əbutaübdən Həsən əl- Əsgəriyə qədər on bir imamla, Tannya çevrilmək Fəzlullah Nəirıu ilə təmsil olunur. Nəimi Tannya çevrilmiş ilk insandır. Nəimirün "Məhəbbətnamə" adlı digər əsərində bütün dünyanın mahiyyəti kimi hərflərlə yanaşı, mistik sevgi çıxış edir: Allah dünyanı gözəl yaradandan sonra Özü ona vurulmuş, Məhəmməd Peyğəmbər isə gözəlhyi sevən Allaha, Yusif Züleyxaya və bütün insanlar bir-birilərinə vurulmuşlar. Məhəbbət təkcə Adəm övladlarmı əlaqələndirməklə bitmir, o, çox geniş əhatəlidir və bütün yaranmışlan - göyləri, Yeri, mələkləri və insanları bir-biri ilə bağlayır: "Kor olmayan şəxs görər ki, şəriət (dini qanunlar) bütünlüklə məhəbbət haqqında hekayətdir". Nəimi Teymurləngi və onun oğlu Miranşahı öz təliminə cəlb etməyə çalışmış, lakin böyük günah işlətməkdə təqsirləndirilərək həbs edilmiş və 1394-cü ildə Naxçıvan yaxmlığındakı Əlincə qalasmda edam edilmişdir [1, s.193, 194].

Hürufilik fəlsəfəsinin əsasında islam mistisizmi - təsəvvüf dayanır. Hürufilik öyrədir ki, hərflərin sirrini, bu yolla dünyada təzahür edənlərin ad və mahiyyətinin sirrini öyrənərək insan Yaradanın sirlərini anlayır, onun təzahürlərini yaradılanlarda, ilk növbədə özündə tapır. Lakin Allah yalnız elə insanda özünü göstərir ki, o insan ən yüksək kamillik dərəcəsinə çatmış olsun, yəni öz varlığını Onun varlığında yox etməyin zəruriliyini dərk etsin. Hürufızmin banisi Azərbaycan şairi və mütəfəkkiri Fəzlullah Nəimidir (1339-1394). Onun təliminin xüsusiyyəti ondan ibarətdir ki, mistik dünyagörüşü sisteminə yeni tərkib hissə daxil etmişdi. Hürufiliyin görkəmli təmsilçilərindən biri də böyük Azərbaycan şairi İmadəddin Nəsimidir (1369-1417). Onun dünyagörüşü hürufilik ilə məhdudlaşmır və bütövlükdə təsəvvüf fəlsəfəsini əhatə edir. Rəsmi dini təlimin əsas tələblərindən kənara çıxan fikir təbliğ etdiyinə görə Nəsimi Suriyanın Hələb şəhərində edam edilmişdi. O, əslində qatı dindar olub. Nəsimi Allahı nəinki inkar etməyib, əksinə öz varlığını Allaha qovuşduraraq yox etməyə çalışıb. Onun dünyagörüşünə məşhur İlahi eşq şairi Mənsur əl-Həllacm (859-912) Ənəlhaq (Mən Həqiqətəm) təliminin həlledici təsiri olmuşdu. Nəsimi göstərirdi ki, insan öz mənliyindən imtina edib Allahla birləşəndən sonra yalnız bir Mən - Allah qalır. Onun əsərlərində «Haqq» (Allah) ilə «cümlə aləm» arasındakı vəhdət üçün «İnsan» (Mən) anlayışı vasitə olur. İnsan ən geniş mənada Allah, həm də «cümlə aləm»dir. Lakin hər insan yox, ən kamil, təmiz mənəviyyata nail olub ilahiyyata qovuşan insan belə çıxış edə bilər. Belə «Mən» «Haqq» (Allah) ilə eyniləşdirilir [2, s.116]. Bu təlimin tərəfdarları da pifaqorçular kimi hərfləri və rəqəmləri əşyalardan ayırırdılar. Onları müstəqil mahiyyət və hətta müqəddəs hesab edirdilər. Onların fikrincə dünya və insan ilahi qüvvənin keçdiyi beş emanasiya pilləsinin (Dünya zəkası, Dünya ruhu, İlkin materiya. Məkan və Zamanın) nəticəsi kimi yaranmışdır. Hürufılərə görə ərəb əlifbasının hərfləri və onların sayına əsaslanan hesablamalar dünyamn dairəvi hərəkətinin simvollannı ifadə edir. Onların fikrincə Qurandaki sözlər, hərflər və rəqəmlər dünyanın yaranması üçün likin materiya rolunu oynayır. Hürufilikdə Allah təbiətlə bərabərləşdirilirdi. Göstərilirdi ki, allah təbiətin ali törəməsi olan insanların simasında təzahür edir.Nəimi və onun şagirdləri tərəfindən yazılmış bir sıra traktatlarda hürufizmin əsas müddəalan irəli sürülmüşdür. Bunlardan biri 64 kainatın əbədiliyinin qəbul edilməsidir. Hürufılərin fikrincə allah insanın siimasında təzahür edir. Çünki insan allaha bənzər şəkildə yaranmışdır. Allahın insanlarda təzahürü peyğəmbərlik, müqəddəslik və ilahilik formalarında özünü göstərir. Peyğəmbərlərin sonuncusu Məhəmməddir. Müqəddəslərin əvvəli Əli ilə başlayır, sonu isə imam əl-Həsənlə başa çatır. Fəzlullah Nəimi isə allaha bənzər vücuddur. Onun irəli sürdüyü və Şərqdə geniş yayılan "Mənəm allah" şüan bunu ifadə edir. Bu fikrinə görə Nəimi Teymurləng tərəfindən tutulub edam etdirilmişdi. Nəsiminin panteist yaradıcılığında insan ilə Allahın yaxınlığı açıq-aydın görünür. O, insanı qiblə adlandırır, onu yüksək-

lərə qaldırırdı. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam", yaxud da "Həq-təala adəm oğlu özüdür" deyərək o, insanı Allahla eyniləşdirirdi. Nəsimi sufiliyin "Mənəm Allah" şüannı da qəbul edirdi. Bunun üstündə onu 1417-ci ildə Hələb şəhərində diri-diri dərisini soymuşdular [6, s.64, 65]. Nəsimiyə görə kainatın bütün sirləri insanda təcəssüm edir. İnsan zəkası isə ilahi varlığı və dünyanı dərk edə bilər. O, ruhun cansız aləmdən bitkilərə, oradan da heyvana keçərək, sonra insana doğru inkişaf etdiyini göstərirdi. Onun şeirlərində ilk materiya, surət cövhər (substansiya), ərəz (aksidensiya), səbəb-nəticə, vacib və mümkün kimi fəlsəfi anlayışlara tez-tez rast gəlinir.

*Nəticə*. Beləliklə, Azərbaycan ictimai-tarixi və ədəbi-mədəni mühitində iki təriqət mövcud olmuşdur: sufizm və hürufizm. Bunlar müəyyən elmi konsepsiyaya söykənən dini-fəlsəfi baxışlar sistemi olmaqla bərabər bədii düşüncəyə, ədəbi fikrə də ciddi şəkildə təsir göstərmişdir. Sufizm orta əsrlərdə islam aləmində geniş yayılmış dinifəlsəfi, mistik mənəvi-əxlaqi düşüncə və davranış sistemi olmuşdur. Hürufiliyin siyasi-hüquqi ideologiyasının təhlili göstərdi ki, bu təlim Yaxın və Orta Şərqin deyil, həm də Avropanın ideoloji fikir cərəyanlarına bu və ya digər formada daxil olaraq, onların inkişafına xeyli dərəcədə təsir göstərmişdir. Əsası Fəzlullah Nəimi tərəfindən qoyulmuş və Nəsimi yaradıcılığında daha yüksək zirvəyə çatdırılmış hürufilik hərəkatı təlimi və onun mütərəqqi məzmunlu ideyaları sonrakı dövrlərdə Azərbaycanın bir çox mütəfəkkirlərinin, habelə siyasi-hüquqi fikir cərəyanlarının fəlsəfi və hüquqi dünyagörüşünün formalaşmasının ideoloji əsasına xidmət etmişdir. Bu təlimin bir sıra humanist ideyaları öz aktuallığını və həyatiliyini bu gün də itirməmişdir.

ƏDƏBİYYAT

1. Ramiz Mehdiyev. Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010, 360 s.
2. Yusif Rüstəmov. Fəlsəfənin əsasları (mühazirə kursu) Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 504 s.
3. Yaqub Babayev. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı, «Nurlan», 2007, 128 s.
4. Tağıyev Ə.M. Fəlsəfə (dərs vəsaiti). Bakı, "Zərdabi LTD", 2012, 384 s.
5. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik / red. Y.B.Yusifov. Bakı: İnterturan, 1994, 264 s.
6. Hacıyev Zeynəddin. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, “Turan evi” nəşriyyatı, 2012, 488s.

**СЕВИНДЖ МАМЕДОВА**
*Сумгаитский Государственный Технический Колледж при*
*Сумгаитском Государственном Университете*

## ФИЛОСОФИЯ СУФИЗМА И ХУРИЗМА В АЗЕРБАЙДЖАНЕ В XIII-XV ВЕКАХ

Философия XIII и XV веков занимала важное место в истории социально-философской мысли в Азербайджане. В то время основной темой азербайджанской философии были отношения между Богом и человеком. Среди выдающихся представителей суфизма и хурифизма этого периода были Махмуд Шабустари, Фазулулла Наими, Имадеддин Насими и другие. Суфизм ассоциировался с исламом как образ мышления. Хурифизм был не только религиозно-мистическим движением, но и политическим движением против господства Тимуридов.

*Ключевые слова*: Суфизм, sect, мистика, вера, хуризм,совершенство.

**SEVINJ MAMMADOVA**
*Sumgayit State Technical College under Sumgayit State University*

## PHILOSOPHY OF SUFISM AND HURIFISM IN AZERBAIJAN IN THE XIII-XV CENTURIES

The philosophy of the XIII-XV centuries occupied an important place in the history of socio-philosophical thought in Azerbaijan. At that time, the main theme of Azerbaijani philosophy was God-man relations. Among the prominent representatives of Sufism and Hurifism of this period were Mahmud Shabustari, Fazulullah Naimi, Imadeddin Nasimi and others. Sufism was associated with

Islam as a way of thinking. Hurifism was not only a religious-mystical movement, but also a political movement against the domination of the Timurids.

*Keywords*: Sufism, sect, mysticism, belief, hurifizm, perfection.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, f.e.d. Zeynəddin Hacıyev.*

**UOT 94**

**OĞUZ KAĞAN BAYRAKDAR**
*Bakı Dövlət Üniversitesi, Tarix Fakültesi, Türk xalqları tarixi kafedrası, doktorant*
**oguzkaganbayrakdar@outlook.com**

# BİR ANLAYIŞ OLARAQ ŞƏHƏR KİMLİYİ

*İnsanlıq tarixi ərzində təhlükəsiz bir yerdə yaşama hissi diri qalmışdır. Bu duyğuyla birliktə insanlar yaşadıqları yeri zaman keçdikcə dəyişdirmə, inkişaf və dövrün şərtlərinə uyğun olaraq yenidən inşa etmə meylində olmuşlardır. Bu irəliləyişə paralel olaraq zaman keçdikcə ətrafındakı yerlərə nisbətən "inkişaf etmiş" yerlər üzə çıxdı. İqtisadi, demoqrafik, siyasi və mədəni mərkəzə çevrilən bu strukturlar şəhər adı ilə günümüzə qədər gəlib çatmışdır.*

*Şəhərin görünüşü və ya şəhərin anlamı zaman keçdikcə coğrafiya, mədəniyyət, ideologiya kimi insanların perspektivlərinə dərindən təsir edən faktorların təsiri ilə dəyişiklik göstərdi. Şəhər nədir və şəhər nə olmalıdır sualı həm bölgədən bölgəyə, həm də zaman zaman bu fərqliliklərə paralel olaraq fərqli cavablar göstərmişdir. Bütün bu cavablar bu gün şəxsiyyət əlaməti olaraq şəhərə əlavə edildi. Bir şəhəri başqa bir şəhərdən fərqləndirən hər cür faktor o şəhərin müəyyən edən şəxsiyyət dinamikasına çevrilmiş və şəhər şəxsiyyətini formalaşdırmışdır. Bu məqalədə şəhər kimliyi anlayışı izah ediləcək.*

*Açar sözlər:* Şəhər, kimlik, Şəhər kimliyi, müasirlik.

*Giriş*. Tədqiqatçıların bugünku şəhərşünaslıqda diqqət etdikləri məqamlardan biri də "şəhər" və "mədəniyyət" sözləri arasındakı terminoloji əlaqələrdir.Qərb dillərində Civitas (şəhər)'dan törəmə Civilisation (mədəniyyət) şərq dillərində də qarşılıq tapmış,nəticədə Ərəbcədə şəhər mənasını verən "medine"sözü əldə edilərək mədəniyyət olmuşdur [10, 29]. Bir mədəniyyət məhsulu olan şəhərlər.

"Farsca şəhər sözü işləmə yaşındakı əhalinin əksəriyyəti ticarət, sənaye və idarəçiliklə məşğul olan böyük inzibati mərkəzləri ifadə edir.Türkcədə XI əsrdən bəri xalq dilində "şar" şəklində tələffüz edilən şəhər,Soğd mənşəli şəhər ilə (kant) "qala və saray" mənasını verən Balıq sözlərindən istifadə edilmişdir [12, 441].

Şəhərlər, sosial həyatın hər tərəfini əhatə edən, müxtəlif fəaliyyətlərin iqtisadi və mədəni yığımların olduğu fiziki və sosial mühit ilə sosial həyatın mərkəzini təşkil edir. Bəzi mənbələrə görə, ilk şəhərləşmə e.ə. 4400 -cü ildən etibarən Suriya, Fələstin, Misir və Mesopotamiyada başlayır. Ancaq Çatalhöyükün e.ə. 6800 -cü ilə aid bir şəhər məskəninin olduğunu göstərən sənədlər də var [12, 441].

Max Weberə görə şəhər şəxsi münasibətlərin çox böyük olmaması üçün böyük bir əraziyə əsaslanan sıx məskunlaşma istehkamı,bazar, məhkəmə və qismən muxtariyyət sistemidir [16, 73]. Weberin öz nöqteyi-nəzərindən verdiyi bu tərifi bütün şəhərlərə aid etmək asan deyil, əslində, Weber əsərlərində bu xüsusiyyətlərə malik olan şəhərləri mədəniyyət xəttində saxlayarkən, qalanlarını kənarda qoyur və onları şəhər anlayışından kənarda formalaşmış mərkəzlər kimi xarakterizə edir. Weberdən başqa təriflərə baxsaq; Təsirli bir ifadə olaraq, John Reader'in "Şəhərlər mədəniyyəti təyin edən insan əsərləridir" cümləsini qeyd etmək də fayda var [15, 17]. Əlavə olaraq Tuncer Baykara, "Bir şəhər, sakinlərinin öz sərhədləri daxilində yemək istehsal etmədiyi bir qəsəbədir" deyərək bu tərifi əlavə etdi [4, 528].

Cənubi Amerikadan Mesopotamiyaya, Anadoludan Orta Asiyaya qədim şəhər mərkəzlərinin ortaq nöqtəsi, bu mərkəzləri digər şəhərlərdən fərqləndirən xüsusiyyətlərin olmasıdır.Əhali baxımından sıx, memarlıq tərəfdən planlı,iqtisadi baxımından pul ya da pulun istehsal olunmadığı vaxtlar mübadilənin daha çox söz sahibi olduğu siyasi tərəfdən inzibati vahidlərin varlığının hiss edildiyi mərkəzlər olaraq günümüzə qədər gəlib çatmışdır. Oxşar təsvirlərə,ortaq xüsusiyyətlərə və ya çatışmazlıqlara sahib olmaq bu şəhərləri eyni edirmi? Eyni cümlələrlə izah edilsə də, hər bir şəhəri özünəməxsus edən xüsusiyyətlər var. Olduğu bölgə, mövcüd olan iqlim qurşağı, içində yaşayan insanların təsiri ya da din, dil kimi bir çox stimulun təsirinə görə digər şəhərlərdən fərqli bir kimliyi var.

*Şəhər kimliyi*. Kimlik termini, bənzərliyi və davamlılığı ehtiva edən Latınca "idem" kökündən əmələ gəlmişdir. Türk dilində "kim", sualın kökündən gəlir və hansı şəxsin nəyə aid olduğunu ifadə edir [3, 117].

Sözlükdə "bir insanın ictimai bir varlıq olaraq necə bir insan olduğunu göstərən əlamət, keyfiyyət və xüsusiyyətlərin məcmusu" olaraq təyin olunan kimlik, "şəxs və ya qrupun özünü təyin edir və özünü digər şəxs və qruplar arasında yerləşdirməsi" olaraq açıqlanmışdır. Şəxsiyyətin doğulması ilə başlayan bütün həyatı boyunca davam edən şəxsiyyətin əldə edilməsi bəzən qeyri-müəyyən olur bəzən də hakim xüsusiyyətləri ortaya qoyur. Bu xüsusiyyətlərin cəmiyyətdən cəmiyyətə dəyişməsi hətta eyni ailənin qardaşları arasında belə fərqlilik göstərməsi tədqiqatçıları şəxsiyyət fenomeni haqqında düşünməyə sövq edir.

"Kimlik bölmələrə ayrıla bilməz, o nə yarılardan ibarətdir nə də üçdə birlərdən, nə də mühasirəyə alınmış diyarlardan. Mənim bir çox kimliyim yoxdur, bir insandan digərinə heç vaxt eyni olmayan xüsusi bir "dozada" onu formalaşdıran bütün elementlərdən ibarət tək bir kimliyim var" [13, 5]. Amin Maaloufun cümlələri ilə izah etdiyi kimi, kimlik parçalana bilməz. Kimlik bir çox faktları ehtiva edən bir bütövdür. Bununla birlikdə, dominant görüntülər fərddən fərdə dəyişə bilər. Bu vəziyyət insanların özünü dominant dinamik/kimliklə eyniləşdirmə meylini yaratsa da, kimlik yalnız dominant tərəfindən təyin edilə bilməyəcək qədər zəngin bir anlayışdır.

İnsanlar vasitəsilə təyin olunan kimlik termini şəhərlər üçün də əhəmiyyətlidir. Fərd ilə bənzər şəkildə şəhərlər mövcud olan və olmayanlar üzərindən digər şəhərlər ilə oxşarlıq və fərqlilik əsasında kimlik əldə etməyə sahibdirlər. Şəhər kimliyi: "şəhərin imicinə təsir edən, hər bir şəhərin fərqli ölçüləri və şərhləri ilə öz kimliklərinə malik olan; fiziki, mədəni, sosial-iqtisadi, tarixi və formal amillərlə formalaşan, davamlı inkişaf edən və davamlı şəhər anlayışını yaşadan keçmişdən gələcəyə doğru gedən bir prosesin ortaya çıxartdığı məna yüklü bir birlikdir". [7, 14].

Şəhər kimliyi, cəmiyyətdən kənar olmayan bir şəhərin və ya mühitin sosial-mədəni xüsusiyyətləri ilə müəyyən edilir. Bu xüsusiyyətlər arasında görkəmli və ya dominant olanlar, bu şəhər kimliyini təyin etməyə, izah etməyə və digər şəhərlər baxımından təsnif etməyə kömək edir. Şəhər kimliyi, digərlərindən ayıraraq şəhərə dəyər qatan və o şəhərə aid olan elementlərdən meydana gələn bir fenomendir. Coğrafi, tarixi, iqtisadi, siyasi və s. Bu kimi xüsusiyyətlərinə görə başqalarından fərqlənə bilərlər və kənarda olanlar tərəfindən bu xüsusiyyətləri ilə diqqəti cəlb edə bilərlər [14, 280]. Geothenin "xaricimizdə heç bir şey yoxdur ki, içimizdə də tapılmasın" ifadəsi fiziki mühitin və coğrafiyanın insan, cəmiyyət və şəhər üzərinə təsirini ifadə edir [1, 58]. XIV əsr İslam alimi İbn Xəldunun da bu mövzuda müxtəlif fikirləri vardır. Coğrafiyanın taley olduğunu söyləyən Haldun, coğrafiyanın cəmiyyətləri, şəhərləri dəyişdirdiyini, formalaşdırdığını ifadə etmişdir [11, 546].

Gözləriniz bağlı bir şəhərə gedib və gözlərinizi açanda həmin şəhəri tanıya bilirsinizsə bu, ziyarət etdiyiniz şəhərin bir şəxsiyyətə sahib olması deməkdir.

Kimlik, bir şəhərin digərlərinə qarşı özünü qoruduğu geyimidir. Bu geyimdə digərlərindən bəzi parçalar olsa da özünəməxsus motivləri var. Buna görə də, bənzərsizdir və kənardan gələn üçün onu tanımaq, təsəvvür etmək və yaşadığı yerlə müqayisə etmək prosesini təşkil edir.

Məsələn, Trabzondan söz düşəndə ağla ilk olaraq dəniz kənarında, dağ ətəklərinə yaşıl və mavi rənglərlə inşa edilmiş bir şəhər, daha dəqiq desək çay və fındıq istehsalı ilə bərabər daxilində olan Ayasofya, Sümela Manastırı kimi tarixi məna daşıyan inşaalar gözümüzün önündə görünür. Bundan əlavə, şəhərlə inteqrasiya olunan Trabzonspor futbol komandası isə insanları şəhərdə bir araya gətirən tarixi ilə kollektiv yaddaşı canlı tutan bir dinamik olaraq şəhər şəxsiyyətinə töhfə verir. Mihlama, hamsili plov və tomara tavası kimi bölgədəki ənənəvi yeməklər, digər mətbəxlərə qarşı şəhərin alt şəxsiyyətlərini təşkil edir. Bunun kimi bir çox nümunə verilə bilər, diqqətəlayiq olanı, bu nümunələrin bütövlükdə şəhərin kimliyini təyin etməkdə rol oynamasıdır. Bu determinantlar kənardan gələn fərd üçün şəhəri tanıtmaqda vacib rol oynayır.

Şəhərə kimlik qatan determinantlardan biri də yeraltı sərvətlərdir. Xüsusilə, neft əhəmiyyətli bir yeraltı qaynağı olaraq təsirli bir şəkildə kimliyin əldə edilməsinə səbəb olur. İqtisadi, sosioloji, psixoloji və siyasi elementləri ehtiva edən neft, bölgəyə bir kimlik verərək bölgənin tanınmasına/ayrılmasına kömək edir. Bu baxımdan Azərbaycanın paytaxtı Bakı digər şəhərlərdən neftlə seçilən bir şəhərdir [5, 3391].

Şəhərə kimlik qatan cəhətlərdən biri də dildir. Keçmişdən mədəniyyətin axınına səbəb olan cəmiyyətdəki davranış tərzini tənzimləyən, insanların düşüncəsini təyin edən və nəticədə özünü ifadə etməsinə səbəb olan dil, şəxsiyyət kimliyinin formalaşmasında dominant rol oynayan amillərdən biri kimi görünür. Milli dövlətlərin ortaya çıxması ilə dilin vəzifəsi daha da artmış, millət ideologiyasını xalqa uyğunlaşdırmaq üçün körpü rolunu oynadı. Milli fərqlilikləri vurğulayan bir digər mədəniyyət qarşısında fərqli edici ünsürləri ön plana çıxaran dil, milli şəxsiyyətin qurulmasında, sosial-iqtisadi və mədəni həyatın davamlılığının təmin edilməsində danılmaz rola malikdir [2, 615].

Şəhər kimliyi uzun zaman ərzində meydana gəlir, dəyişir və formalaşır. Şəhərin coğrafi xüsusiyyəti, mədəni səviyyəsi, memarlıq anlayışı, ənənələri və həyat tərzi şəhəri formalaşdırır. Ona başqalarından fərqli bir kimlik verir [9, 9]. Tarixi prosesdə dəyişən yenilənmiş şəhərlər, keçmişdən gələn elementlərə əlavə olaraq yeni şeylər təklif etmək üçün səy göstərirlər. Bu prosesdə şəhər və əlaqədə olduğu kimlik hərəkət halındadır [8, 38].

Şəhər kimliyi fiziki, sosial-mədəni və funksional-sektoral xüsusiyyətlərlə formalaşır. Şəhər kimliyini təşkil edən fiziki dinamikalar, topoqrafiya, coğrafiya, iqlim şəraiti, bitki örtüyü, geoloji quruluş kimi təbii keyfiyyətlər və toxuma, memarlıq, kvadrat və şəhər mebeli kimi süni keyfiyyətlərdən ibarətdir. Şəhərin formalaşmasında sosial-mədəni dinamika əsas rol oynayır.Bu qrup daxilində dil, mədəniyyət, ideologiya, inanc, texnologiya, ünsiyyət vasitələri, qastronomiya kimi sosial sahəni narahat edən sahələr var. Sənaye, turizm, mənzil, marketinq, nəqliyyat kimi dinamikalar funksional-sektoral sahəyə nümunədir. Bir bütün olaraq düşünüldükdə bütün bu xüsusiyyətlər şəhər kimliyini yaratmaqda rol oynayan vasitələr olaraq şəhərlərdə görünməkdədir.

Sosial düşüncənin əhəmiyyətinə görə şəhərlər özündə müxtəlif düşüncə modellərini birləşdirən məkanlardır. Spesifik olan bir xüsusiyyət ümumən yayılaraq bütün şəhərdə baş verirdi. Parisin bir sevgi şəhəri, Texasın silahlı adamları, Sürix bankları buna bir nümunədir. Bəzən bir yazıçı və ya film də bir şəhəri xatırladır. Praqa ilə Kafka nə qədər eynidirsə,Bir Başkadır serialı ilə İstanbul da o qədər eyniləşdirilir. Bundan əlavə, bəzi dinamikalar ilə ön plana çıxan şəhərlərdə var. Səmərqənd tarixi binaları ilə gündəmə gəlir, Qüds dinlərin mərkəzi olaraq bütün dünyada tanınır, kanalları ilə Venedik, Nyu York göydələnləri və məscidləri ilə İstanbul ədəbiyyatda yer alır. Şəhərlərin önünə əlavə olunan bütün bu sifətlər, o şəhərin şəxsiyyətini formalaşdıran, düşünüləndə ağla gələn o şəhər kimliyi simvollarıdır. Kimliyi yaratdıqları kimi şəhərlərin bütün dünyada təmsil olunmasını təmin edirlər.

Şəhər kimliyi digər şəhərlərdən fərqi və davamlılığı ifadə edir. Bugünku böyük şəhərlərdə, qloballaşmanın da təsiri ilə bənzər yaşayış sahələri ortaya çıxdı. Oxşarlıq, müasir həyatın geri dönüşü olaraq şəhərin moda kimi bəzənməsini zəruri etdi. Əvvəl moda müəyyən edilir, sonra şəhərlər o dəbə uyğun olaraq bir evin çilçirağı kimi bəzədilir. Köhnəsi atılır, yenisi başqa yerə bənzər şəkildə şəhərə əlavə olunur. Bu kimliyi olmayan bir şəhərin ortaya çıxmasına səbəb olur.Üstəlik böyük şəhərləri dominant şəxsiyyət ilə xarakterizə etmək olduqca çətindir. Metropollar arasında Paris, Berlin, Boston, Monreal, İstanbul və ya Praqa kimi özünə xass kimliyə sahib şəhərlərin sayı məhduddur. Bu cür şəhərlər, müasir oxşarlıqlarından çox, keçmişləri ilə qidalanır [6, 38-39].

*Nəticə*. Kimsiniz? kimlərdənsiniz? Sualına cavab olan şəxsiyyət,çox şaxəli bir məfhumdur. Hər fərddə özəl olaraq bir çox şəxsiyyət əlamətləri olsa da, hamısının birləşməsi nəticəsində əldə edilən bənzərsiz bir kimlik var.

İnsanlar kimi şəhərlər də kimliyin əldə edilməsinə tabedirlər. İçindəki dominant xarakteri ilə təyin olunan coğrafiya, tarix, mədəniyyət, iqtisadiyyat və sivilizasiya kimi dinamikalarla qidalanan və digər şəhərlərə qarşı öz zirehini formalaşdıran şəhər kimliyi bir şəhəri daimi və bənzərsiz edən şeydir. Hər şəhər müəyyən dərəcədə kimlik sahibidir, geridə qoyduğu illər bu şəhərin daxilində özünəməxsusluğunu tapdı və cəmiyyətlə bir oldu. Şəhər kimliyi cəmiyyətlə ziddiyyət təşkil etməməlidir. Mövcud olan, istehsal edilən və ya eyniləşdirmə yolu ilə şəhərə əlavə edilən kimlik cəmiyyət tərəfindən qəbul edilməli, özünküləşdirilməli və şəhər kimliyinin bir hissəsi olmalıdır. Əks təqdirdə, hər cür bağlılıq səthi olacaq və yox olmağa məhkum olacaq.

Tarix, ədəbiyyat, mədəniyyət, qastronomiya, iqtisadiyyat, siyasət, dil, din, coğrafiya, iqlim, əhali, memarlıq və s. Bu dinamikalar bir şəhərin kimlik əldə etməsinə kömək etməklə yanaşı, digər şəhərlərlə fərqli cəhətlərini ortaya çıxarmasına səbəb oldu. Şəhərin istehsal etdiyi hər cür dinamika nəinki yaşadığı insanlara təsir etdi, həm də özünü xarici dünyanın stimullarından qorudu.

Qloballaşmanın təsiri ilə birlikdə böyük şəhərlərin şəxsiyyəti təhlükə altındadır. Bu baxımdan bir-birinə bənzəyən, bədəninə moda həyatı və moda kimliyi qatmağa çalışan qlobal şəhərlər, orijinal kimlikdən çox başqa bənzərliklərə əsaslanan bir kimlik yaşayır. Milli şəhərlər bu vəziyyətə diqqət yetirməlidir. Kənardan gələn güclü təzyiqə qarşı öz mədəniyyətini, milli fikirlərini, memarlıq anlayışını, dillərini, dinlərini, həyat tərzlərini şəhərin daxilinə əlavə etməli və bunları qorumalıdır. Bu istiqamətdə həm qloballaşma təhlükəsi ortadan qalxacaq, həm də şəhərin milli quruluşu qorunacaq. Əks təqdirdə digər şəhərlərə bənzər memarlıq elementlərinin, yeməklərin, geyimlərin, musiqinin və ya insanların küçələrini bəzədiyi şəhərlər orijinal bir kimlik elementi istehsal etməkdə çətinlik çəkəcəkdir.

## ƏDƏBİYYAT


1. Alptekin, M. Yavuz. (2010). "Max Weber'in Batı-Bağımlı Evrensel Şehir Anlayışı ve İslam Şehirleriyle İlgili Değerlendirmelerinin Kritiği". *Muhafazakar Düşünce*, sayı:23, s.51-71.
2. Ayaz, E. Sertaç. (2018). "Milli Kimliğin Kucusu ve Koruyucusu Olarak Dil" / *Uluslar arası Orta Asya Sempozyumu Bildiriler Kitabı*, Bişkek, s.610-627.
3. Aydoğdu, H. (2004). Modern kimlikte öznenin ölümü, *Kazım Karabekir Eğitim Fakültesi Dergisi*, 0 (10), s.115-147.
4. Baykara, T. "Osmanlı Devleti Şehirli Bir Devlet Midir?", *Osmanlı,* c.5, Ankara: Yeni Türkiye Yayınları, s.528-535.
5. Bayrakdar, O.K. (2020). Bir Dönüşüm Dinamiği Olarak Petrolün Bakü Şehir Kimliğine ve Şehirleşmesine Etkisi. *Turkish Studies-Social,* 15(8), 3387-3402.
6. Bilgin, N. (2011). "Sosyal Düşüncede Kent Kimliği", *İdeal Kent*, sayı:3, s.20-47.
7. Çöl, Ş. (Demirseren) (1998). *Kentlerimizde kimlik sorunu ve günümüz kentlerinin kimlik derecesini ölçmek için bir yöntem denemesi.* [Yayınlanmamış doktora tezi], Mimar Sinan Üniversitesi Fen Bilimleri Enstitüsü.
8. Dolu, A. *Osmanlı Kudüs'ü: Kent Kimliği Nüfuz ve Meşruiyet 1703-1789*, İstanbul: Küre Yayınları. 2019, s.292.
9. İlgar, E. (2008). "*Kemt Kimliği ve Kentsel Değişimin Kent Kimliği Boyutu: Eskişehir Örneği*" Yayınlanmamış Yüksek Lisans Tezi, Anadolu Üniversitesi Fen Bilimleri Enstitüsü Mimarlık Ana Bilim Dalı.
10. Kılıçbay, M. A. *Şehirler ve Kentler,* Ankara, Gece Yayınları, 1993, 246 s.
11. Kozak, İ. Erol. (1999). "İbn Haldûn", *TDV İslam Ansiklopedisi*. - https://islamansiklopedisi.org.tr/ibn-haldun#3 [Müraciət tarixi: 05.09.2021].
12. Küçükaşçı, M. S. "Şehir", *İslam Ansiklopedisi Diyanet vakfı*, c.38. İstanbul, 2010, s.441-446.
13. Maalouf, A. (2000). *Ölümcül kimlikler.* Aysel Boran (Çev), Yapı Kredi Yayınları.
14. Oğurlu, İ. (2014). Çevre – kent imajı – kent kimliği – kent kültürü etkileşimlerine bir bakış. *İstanbul Ticaret Üniversitesi Fen Bilimleri Dergisi,* (26), 275-293
15. Reader, J. Şehirler, çev. Fatine Bahar Karlıdağ, YKY, İstanbul, 2007, s.356.
16. Weber, M. *Şehir: Modern Kentin Oluşumu*, çev.Musa Ceylan, Yarın Yayınları, İstanbul, 2012, s.315.


**ОГУЗ КАГАН БАЙРАКДАР**

*Докторант Бакинского Государственного Университета*

## ГОРОДСКАЯ ИДЕНТИЧНОСТЬ КАК ПОНЯТИЕ

На протяжении всей истории человечества ощущение жизни в безопасном месте сохранялось. Наряду с этим чувством люди имели тенденцию со временем изменять, развиваться и восстанавливать свою среду обитания. Параллельно с этим прогрессом со временем появились "развитые" места по отношению к прилегающим территориям.Эти структуры, ставшие экономическими, демографическими, политическими и культурными центрами, сохранились до наших дней под названием города.

Внешний вид города или его значение со временем менялись под влиянием факторов, оказывающих глубокое влияние на взгляды людей, таких как география, культура и идеология. На вопрос о том, что такое город и каким он должен быть, давались разные ответы, как от региона к региону, так и время от времени, параллельно с этими различиями. Все эти ответы были добавлены к городу сегодня в знак идентичности. Каждый фактор, который отличает город от другого, стал динамикой личности, которая определяет этот город и сформировала его идентичность. В этой статье разъясняется понятие городской идентичности.

*Ключевые слова:* Город, Личность, Городская личность, современность.

**OĞUZ KAĞAN BAYRAKDAR**
*Baku State University, Faculty of History, Phd Student in History of Turkish World*

## URBAN IDENTITY AS A CONCEPT

The feeling of living in a safe place has remained alive throughout human history. With this feeling, people tended to change, develop and rebuild their place of residence over time in accordance with the conditions of the period. Parallel to this breakthrough, "advanced" places have emerged over time. These structures, which have become economic, demographic, political and cultural centers, have survived to the present day with the name city.

The view of the city or the definition of the city has changed over time with the influence of factors such as geography, culture, ideology that deeply affect people's perspectives. Parallel to these differences, the question of what is a city and what should be a city has shown different answers both from region to region and from time to time. All of these answers have been added to the city as a sign of identity today. All kinds of factors that distinguish a city from another city have become the defining identity dynamic of that city and formed the urban identity. In this study, the concept of city identity will be explained.

*Key Words:* City, Identity, City Identity, Modernism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. Qabil Əliyev.*

*Tarix və onun problemləri / История и её проблемы / History and its problems, 2021 №3, 52-54*

**UOT 94**

**KÜRŞAD KÖSE**
*Bakı Dövlət Universitetinin doktorantı*
**kursadkose207@gmail.com**

# HƏŞTƏRXAN XANLARININ ŞƏCƏRƏSİ

*Qızıl Orda Dövlətinin XV əsrin ortalarında zəifləməsi ilə, bu dövlətin ərazisində müxtəlif xanlıqlar yarandı. Bu xanlıqlar Qırım Xanlığı, Qazan Xanlığı, Həştərxan Xanlığı, Qasım Xanlığı və Noqay Orda dan ibarət idi. 1450-1460-cı illərdən sonra da Qızıl Orda Dövlətinin paytaxtı Saray şəhərində digər xanlıqlardan müstəqil Böyük Orda Xanlığı yarandı. Həştərxan xanları və Böyük Orda xanlarının nəsli Teymur Qutluqdan gəlir. Tarixi mənbələrin hamısında Həştərxan xanlığının banisi kimi Teymur Qutluq xan qeyd edilir.*

*Açar sözlər*: Həştərxan Xanlığı, Qızıl Orda, Qazan Xanlığı, Teymur Qutluq.

*Giriş.* Noqay Ordadan başqa hamı Cuçi xanın 13-cü oğlu Tukay (Tuka, Tokay) Teymurun nəslindən gəlir [1, s.30-32]. Noqay Orda Qızıl Orda Dövlətinin ərazisində yaransa da, bu orda xanlarının nəsli Çingiz xana söykənmir. Bu saydığımız xanlıqların hamısının atasının Tokay Teymur olmasına baxmayaraq ki, bunlar müxtəlif şöbələrə ayrılırdı və bu ataların bəzilərinin kim olduğu haqqında mənbələrdə fərqli fikirlər var idi [1, s.32]. Biz burada yalnız Həştərxan xanlarının şəcərəsini araşdıracağıq.

Həştərxan xanlığının nə vaxt yarandığı bu gün hələ mübahisəlidir. Bu məsələ bu günə qədər müzakirə edilmişdir. Mənbələrin qeyri-kafi olması səbəbi ilə xanlığın nə vaxt və hansı şəxs tərəfindən yarandığı müəyyən deyildir. Bizim fikrimizcə xanlığın banisi Qızıl Orda xanı Kiçik Məhəmməd Xanın nəvəsi Qasım xandır. Ancaq Rus müəllif İlya Zaytsev 2006-cı ildə nəşr olunan Həştərxan xanlığı kitabında xanlığın, 1502-cü ildə Krım xanı Məngli Gərayın Saray şəhərini işğal edib Qızıl Orda dövlətini yıxması ilə yarandığını iddia edir [2, s.62-63]. Bu mövzu həm keçmişdəki həmdə bugünkü tarixçilər arasında müzakirə edilməyə davam edir.

Türk tarixçi Akdes Nimet Kurat Qızıl Orda dövlətinin paytaxtı Taxt-ili (Saray) da baş verən qarışıqlıq və mübarizələr əsnasında Kiçik Məhəmməd xanın oğlu Mahmud xanın oğlu Qasım xanın 1466-ci illərdə Hacı Tarhan (Həştərxan) şəhərində müstəqil bir xanlıq qurduğunu deyir. Kuratın fikrincə Qasım xan Nogay mirzələri tərəfindən xan ilan edilmişdi. Qasım xan ayrıca İtil boyundakı Bərəkzan və Uslan kimi şəhərlərə də hakim idi. Həştərxan xanlığının Həştərxan şəhərində yaranması ilə bu xanlıq Qızıl Orda dövlətinin paytaxtı Saray şəhərinin yerini almaya başladı. Qasım xanın Həştərxanda müstəqil bir xanlıq qurması əmisi olan Qızıl Orda xanı Əhməd xana hoş gəlmədi və aralarında mübarizə başladı [3, s.275-276]. Ancaq 1480-ci ildə Qızıl Orda xanı Əhməd xanın Moskva Knyazı III.İvana elan etdiyi müharibədə qardaşı oğlu Qasım xanın, 6 oğlu və bir çox Tatar ilə birlikdə Əhməd xana kömək etdiyini görürük [4, s.20; 5, s.199]. Ugra çayı sahilində yapılan müharibə 5 gün müddətində davam etmiş ancaq Əhməd xan Moskva knyazlığını cəzalandırma məqsədinə çatmadan Saraya qayıtmağa məcbur qaldı [6, s.122-123]. Akdes Nimet Kuratın verdiyi məlumat düzdür. Rus xroniklərində Qasım xan haqqında братаничь его цар касымь ifadəsindən istifadə edilir. Rus xronikləri və mənbələrinin hamında Qızıl Orda xanları üçün цар= xan titulundan istifadə edilməkdə daha sonrakı illərdə Qazan və Krım xanları müstəqil olduqdan sonra цар titulu onlar üçündə istifadə edilmişdi. Rus xronikləri Həştərxan, Krım və Qazan xanlarına yalnız цар dəməkdə, Qızıl Orda xanlığı 1502-ci ildə yıxılana qədər Qızıl Orda xanları üçün царя болшия орды titulundan istifadə edirdilər. 2 xronikdə Qasım xana цар deyildiyi üçün onun müstəqil bir xan olduğunu anlaya bilərik.

Cuçi xan ulusunda əvvəla Orda-içən, sonra da Sayın xan sülaləsinin sonu ilə Saray taxtı boş qalıb. Qızıl Orda xanı Bərdibək xanın 1360-cı ildə ölümü ilə Şeybani oğlanları və Tokay Teymur oğlanları arasında taxt davası başladı. Nəhayət Urus xanın əvvəl Sığnaq, sonra da 1377-ci ildə Saray şəhərini fəthi ilə bu mübarizə bitdi. Urus xan həmçinin Tokay Teymur nəslindən olub Saray şəhərində taxta çıxan ilk hökmdar idi. Həştərxan xanlarının atası olan Teymur Qutluq, Toxtamış xanın

əmisinin oğlu idi və Urus xanın xidmətində idi. Bu Teymur Qutluqun nəvələri daha sonrakı dövrlərdə bir vaxtlar vahid olan Qızıl Ordanın mərkəzini, Saray, Həştərxan və Aşağı idil bölgəsinində üstünlük təşkil etdilər [7, s.76-77].

Tokay Teymurdan Əhməd xana qədər ki xanların siyahısını aşağıdakı kimidir: Tokay Temur oğlu, Kin Temur oğlu, Abay oğlu, Togan oğlu, Qutluq Teymur oğlu, Teymur Qutluq xan oğlu, Teymur xan oğlu, Kiçik Məhəmməd oğlu, Əhməd nəsli. Qutluq Teymurun oğlu Qutlu bəy nəslindən Şadi bəy və Qiyasəddin Qızıl Orda xanı olmuşlardır lakin bu sülalə davam etmədi. Qutluq Teymurun digər oğlu Teymur Qutluq xan nəsli davam etdi və Teymur Qutluq xanın oğlu Teymur xan və nəvəsi Kiçik Məhəmməd xan Qızıl Orda xanı oldular. Kiçik Məhəmməd xanın oğlu Əhməd xan nəslindən gələn xanlar Hacı Tarhan (Həştərxan) xanları oldular [1, s.31-32].

Qızıl Orda Dövlətinin paytaxtı Saray şəhərinin 1480-ci ildə Əmir Teymur tərəfindən məhvindən sonra Böyük Ordanın bir neçə xanı Həştərxana köçdü. Lakin Böyük Orda daha 20 il davam etdi və 1502-ci ildə Böyük knyazı Ivan III ın köməyi ilə Qırım xanı Məngli Gəray tərəfindən yıxıldı. Beləliklə 1520-ci il müstəqil Həştərxan Xanlığının yaranma tarixi olaraq qəbul edilə bilər. XV əsirdə Həştərxan Böyük Ordaya aid idi, buna görə də Cuçi qolunun xanlığın süquta uğraması ilə Teymur Qutluqun yəni xanlığın taxtını alması olduqca təbii idi. Bu səbəbdən Rus tarixçi İlya Zaytsev və bəzi tədqiqatçıların Həştərxan Xanlığının davamı olaraq görməsi normaldır [2, s.58-59]. Teymur Qutluqun Həştərxan ilə yaxından marağı nəzərə alındığında onun “Həştərxanın ilk xanı” olaraq adlandırılması təəccüblü deyil [8, s.43-49]. Yəni geriyə baxanda Teymur Qutluq Həştərxanın ilk xanı sayılır.

XVI-XVII əsirlərdə müxtəlif (dövlət və xüsusi) əcdad kitablarında qorunan Tatar xanlarının şəcərəsi Tatar və Türk tarixinin unikal bir abidəsidir. Əcdad kitablarının mənşəyi Qazan və Həştərxanın Ruslar tərəfindən işğalına söykənir. Soy kitablarının çoxu XVI əsrin 50-ci illərində Tatar mənbələrinə söykənərək tərtib edilmişdir [7, s.73].

Bu əcdad kitablarının РБ01 versiyasının bütün 4 xətti Toxtamış, Teymur Qutluq, Uluq Məhəmməd, Hacı Gərayı Tokay Teymur nəslindən gəlir olaraq hesab etməsi çox mühümdür. Qazan xanlığının banisi Uluq Məhəmməd ilə Qırım xanlığının banisi Hacı Gəray və Həştərxan xanlarının əcdadı Teymur Qutluqun uşaqları çoxdan elm ədəbiyyatında Tokay Teymur nəslindən gələnlər olaraq məlumdur. Ancaq Toxtamışın və sonra Qazaq xanlığının baniləri olacaq olan Canıbəy və Kərəyin əcdadları mübahisə mövzusu olmaya davam etdi. Tarixi mənbələr və elmi baxışlar ziddiyyətdə qaldı. Kimi onların Cuçinin ilk oğlu Orda İçenin nəvələri olduqlarını, başqa bir yazılı mənbə də onların Tuk (Tokay) Teymur nəslindən olduqlarını iddia etdi [4, s.73]. “Həştərxan, Qırım və Qazan xanlarının ailələri” başlıqlı mətnin ilk versiyası ilk dəfə N.İ. Novikov tərəfindən 1787-ci ildə nəşr edildi [7, s.74]. Qazan və Həştərxanın ələ keçirilməsindən sonra xristian olan hanlar və knyazlar, rus hakim elitası ilə birləşdi [7, s.75].

Macar tarixçi Istvan Vasary əcdad kitablarının bütün versiyalarını nəzərdən keçirdikdən sonra, bir həqiqəti kəşf etdiyini söyləyir. Rus dilində olan bu əcdad kitablarında 4 nəsil üçün eyni adlar qeyd edilir. (Teymur bəy oğlan - Teymur Qutluq – Teymur - Kiçik Məhəmməd, bəzən 1və ya 2 ad əskik), amma Kiçik Məhəmməddən sonra, Əhmədin nəvələri 5 əcdad kitabında göstərilir. Beləliklə РБ01( əcdad kitabının versiyası) Mahmud (Məhəmməd) və oğulları qeyd edilir. РККА1 versiyasında Mahmud və Yaqub (Egüp) dan da bəhs edilir, amma bunlar səthi və əskik hesab olunur. Digər tərəfdən Əhmədin şəcərəsi çox ətraflı təqdim edilmişdir və 7 versiyadan olduqca dəqiq və etibarlı bir şəcərə tərtib edilə bilər. Xüsusilə РКК2 etibarlılığı ilə seçilir, praktiki olaraq səhvsizdir. Həştərxan taxtına çıxan və Mahmudun nəslindən gələn Abdülkerim və oğlu Əbdürrəhmandan heç bəhs edilməz. Mahmudun şəcərəsindəki atalarına qarşı təhrif olunmuş bir səhlənkarlıq təsadüfi deyil. Taxt ilini (Saray) və Həştərxanı fəth etmək üçün Mahmud və Əhməd qardaşlar ilə oğulları arasındaki gərgin mübarizəni xatırlamaq lazımdır. Həştərxan taxtına ilk çıxanlar Mahmudun nəvələri idi. Amma qısa müddətdən sonra, Əhmədin oğulları hakimiyyəti ələ keçirtmək istədi. Yəqin ki Mahmudun oğullarının yaddaşını da silmək istəyirdilər və səyləri böyük ölçüdə uğurlu oldu [7, s.79].

*Nəticə*. Qazan, Qırım, Həştərxan, Böyük Orda və hətta Qazaq xanlarının hamısı Cuçinin oğlu Tokay Teymurun nəslindən gəlsələr də bunlar sonrakı dövrlərdə müxtəlif dallara ayrıldılar. Həştərxan xanları da 1400-cü illərdə Qızıl Orda xanı olan Teymur Qutluqun nəslindən gəlir. Həştərxan xanlığı 1556-cı ildə Ruslar tərəfindən işğal olunana qədər bu şəcərə davam etmişdir.

ƏDƏBİYYAT

1. Kafalı Mustafa. Altın Orda Hanlığının Kuruluş ve Yükseliş Devirleri. İstanbul, İstanbul Üniversitesi Edebiyat Fakültesi Yayınları No. 2085 Edebiyat Fakültesi Matbaası, 1976, 169 s.
2. Зайцев. И.В. Астраханское ханство. Москва, издательская фирма “Восточная литература” РАН, 2006, 303 с.
3. Kurat A.N. IV- XVIII. Yüzyıllarda Karadeniz Kuzeyindeki Türk Kavim ve Devletleri. Ankara, Murat Kitapevi, 1992, 511 s.
4. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссиею, “VI.Софийской Первой Летописи”. Санктпетербург, Том шестой, 1853, 358с.
5. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссиею, “VIII.Летописный сборникь, именуемный патрыаршею или никоновскою летописью”. Санктпетербург, том двенадцатый, 1901, 266 с.
6. Kemaloğlu İ. Altın Orda ve Rusya, Rusya Üzerindeki Türk-Tatar Etkisi. İstanbul, Ötüken Neşriyat, 2015, 366 s.
7. Vasary Istvan. Татарские правящие дома в русских источниках по генеалогии // Золооотдынское Обозрение. Golden Horde Review, Ш.Марджани Академии Наук Республики Татарстан, 2013, No:1, с.73, 76-77, 79.
8. Зернова В.В. Касимовскихь царяхь и царевичась. Том 1. Санктпетербург, в типографий императорской академии наукь, 1863, 558 с.

**КЮРШАД КОСЭ**
*Докторант Бакинского Государственного Университета*

## ГЕНЕЛОГИЯ АСТРАХАНСКИХ ХАНОВ

С ослаблением Золотой Орды в середине 15 века на территории этого государства возникли различные ханства. В состав этого ханства входили Крымское ханство, Казанское ханство, Астраханское ханство, Касымское ханство и Ногайская Орда. После 1450-1460 годов Великое Ордынское ханство, независимое от других ханств, было основано Сарай столицей Золотой Орды. Независимое от других ханство ханство было основано Сарай столицей Золотой Орды. Потомки астраханских ханов и ханов Великой Орды происходят от Теймура Кутлука. Во всех исторических источниках Теймур Кутлук хан упоминается как основатель Астраханского ханства.

*Ключевые слова*: Астраханское ханство, Золотая Орда, Казанское ханство, Теймур Кутлюк.

**KURSAD KOSE**
*Doctoral student of Baku State University*

## THE GENEALOGY OF THE ASTRAKHAN KHANS

With the weakening of the Golden Horde in the middle of the 15th century, various khanates emerged in the territory of this state. This khanates consisted the Crimean Khanate, the Kazan Khanate, Astrakhan Khanate, the Qasim Khanate and the Nogai Horde. After 1450-1460, the Great Horde Khanate independent of other khanates was established Sarai the capital of Golden Horde. The descendants of the Astrakhan khans and the khans of the Great Horde come from Teymur Qutluq. In all historical sources, Teymur Qutluq khan is mentioned as the founder of Astrakhan Khanate.

*Keywords*: Astrakhan Khanate, Golden Horde, Kazan Khanate, Temur Qutluq.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. İsmayıl Məmmədov.*

UOT 94(479.24)

**MUSA RƏHİMOĞLU (QULİYEV)**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*
**kuliyevm@yandex.ru**

# KƏNGƏRLİ SÜVARİLƏRİNƏ VERİLMİŞ FƏXRİ BAYRAĞIN MÜSƏLMAN QOŞUNLARININ HƏRBİ YÜRÜŞ ATAMANI EHSAN XANIN SARAYINA KÖÇÜRÜLMƏSİ VƏ DİGƏR FƏXRİ BAYRAQLAR HAQQINDA

*Məqalədə Naxçıvan Kəngərli süvarilərinə Rusiya çarı Nikolay tərəfindən bağışlanmış fəxri bayrağın Ehsan xanın sarayına təntənə ilə aparılmasından söhbət açılır. Gürcüstan Milli Arxivindən tapılan 12 səhifəlik bu tarixi sənəd 23 fevral 1845-ci ilə aiddir. Aparılmış araşdırmalar bir daha təsdiqləyir ki, çar hökuməti göstərdikləri döyüş hünərlərinə görə Naxçıvan kəngərli süvarilərinə böyük rəğbət bəsləmişlər. Bu arxiv sənədindən ilk dəfə istifadə olunmuşdur. Məqalədə, həmçinin sonralar Naxçıvanın Kəngərli süvarilərinə verilmiş fəxri bayraqlar da araşdırılmışdır.*

*Açar sözlər:* Qafqaz, kəngərli süvariləri, Ehsan xan, Qafqaz canişini, polkovnik Qaqarin, “Qafqaz" Hərbi Tarix Muzeyi, ataman, Krım müharibəsi, Murad xan Kəngərli, döyüş bayrağı (ştandart), dördbucaqlı yaşıl rəngli kəngərli süvari bayrağı.

*Giriş*. Gürcüstan Milli Arxivinin zəngin fondlarından biri olan “Qafqaz canişinin dəftərxanası”nda 1845-1858-ci illərə aid qiymətli sənədlər saxlanılır. Qeyd edək ki, bu fondda Naxçıvana və onun hərbçi Kəngərli süvari qoşunlarına aid çoxlu sənədlər vardır. Bunlardan biri Kəngərli süvarilərinin döyüş hünərlərinə görə Rusiya çarı tərəfindən verilmiş fəxri bayraq haqqındadır. 12 səhifədən ibarət olan bu tarixi sənəd 23 fevral 1845-ci ildən yazılmağa başlanmış və həmin ilin 13 iyununda tamamlanmışdır. Sənəd məxfi şöbəyə aiddir (3).

General-mayor I Ehsan xan I Kalbalı xan oğlu Qafqaz canişinliyinə məktub yazaraq xahiş edir ki, Naxçıvan şəhərinin qəza idarəsində fəxri qarovulun nəzarətində saxlanılan Kəngərli bayrağının onun sarayında saxlanmasına icazə verilsin. Yuxarıda adını çəkdiyimiz arxiv sənədi bu haqda yazışmalardan ibarətdir. Sənədlər rus dilində yazılmışdır. Onların Azərbaycan dilindəki tərcüməsini verməzdən əvvəl qeyd edək ki, bu bayraqların diqqətlə araşdırılması vacibdir. Çünki bu bayraqlarda olan rəng və rəmzlər Naxçıvan xanlığının bayraqlarından götürülmədir.

Kəngərli süvarilərinə məxsus fəxri bayrağın Ehsan xanın sarayına köçürülməsi.

Araşdırmalardan məlum oldu ki, bayrağın I Ehsan xanın sarayına köçürülməsinə rəhbərliyi Qafqaz canişini Knyaz Mixail Semyonoviç Vorontsov (1782-1856) özü etmişdir.

General-feldmarşal Knyaz M.S.Vorontsov çar Rusiyasının görkəmli dövlət xadimlərindən olmuşdur. İngiltərədə təlim-tərbiyə görmüş M.S.Vorontsov 1804-cü ildən Rusiya ordusunda hərbi xidmətə başlamışdır. 1803-cü ildə Gəncənin işğalında, eləcə də İmeretidə ləzgilərə divan tutulmasında və İrəvan xanlığının işğalında iştirak edən knyaz 1844-cü ildə Qafqaza canişin təyin edilmişdir (2, s.528).

1845-ci ilin 23 aprelində Tiflisdə yerləşən baş qərargahın rəsmi məktubunda I Ehsan xanın xahiş məktubu haqqında məlumat verilir (3, v.1).

Aprelin 24-də Naxçıvan Qəza İdarəsinin rəisinə göndərilən 44 №li məktubda qəza idarəsində saxlanılan Kəngərli süvarilərinə məxsus fəxri süvari bayrağının I Ehsan xanın sarayına aparmaq vəzifəsinin İranda rəsmi səfərdə olan polkovnik Qaqarinə həvalə olunduğu bildirilir (3, v.2).

Belə mətnli bir məktub Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanının köməkçisi knyaz Qaqarinə də göndərilib. Bu məktubun sonunda qeyd edilən bir cümlə I Ehsan xanın xahiş məktubunun nüfuzunun çox yüksək olduğunu göstərir: “Ehsan xana mənim məktubumu və hədiyyəmi təqdim edin və ona mənim ehtiramımı bildirin” (3, v.7-8).

Qafqazdakı Rusiya qoşunlarının baş komandanının qvardiya polkovniki knyaz Qaqarinə 25 aprel 1845-ci ildə yazdığı 498 №li məktub maraqlıdır: “Mərhəmətli padşahın Kəngərli tayfasına bağış-

ladığı fəxri bayraq indiki Naxçıvan Qəza İdarəsində saxlanılır. Müsəlman qoşunlarının hərbi-yürüş atamanı, general-mayor Ehsan xan xahiş edir ki, bu bayraq onun sarayına gətirilsin.

Ona görə də siz İrandan qayıdanda həmin bayraq təntənəli surətdə Ehsan xanın sarayına aparılsın. Təntənəli köçürülmə başa çatandan sonra mənə bildirin" (3,v.9).

Naxçıvan Kəngərlilərinə Rusiya çarı I Nikolay tərəfindən bağışlanmış fəxri bayraq I Ehsan xanın yaşadığı saraya təntənə ilə aparıldıqdan sonra onun Qafqaz canişini qraf Mixail Semyonoviç Vorontsova yazdığı təşəkkür məktubu da bu sənədlərin içərisindədir. Ehsan xan ona göstərilən etimaddan, hədiyyələrdən və Kəngərlilərə məxsus bayrağın onun sarayında saxlanmasına icazə verildiyindən çox razı olduğunu bildirir. Məktub 1845-ci il iyunun 1-də Naxçıvanda yazılmış və sonda I Ehsan xanın şəxsi möhürü və imzası ilə təsdiqlənmişdir (3, v.11).

*Əlahəzrət, Mərhəmətli hökmdar*
*Qraf Mixail Semyonoviç.*

*Əlahəzrət, Sizin adyutantınız polkovnik, knyaz Qaqarinlə mənə göndərdiyiniz hədiyyəni böyük səmimiyyətlə qəbul etdim. Sizin mənə göstərdiyiniz qürur doğuracaq qayğının ifadəsi olan bu hədiyyəni qiyməti olmayan xəzinə kimi saxlayacağam. Mənə göstərdiyiniz hörmət üçün sizə ürəkdən gələn səmimiyyətimi yazmağa söz tapmıram.*

*Kəngərli süvarilərinə bağışlanan bayraq mənim və knyazın müşayiəti ilə evimə gətirildi.*

*Əlahəzrət, mərhəmətli hökmdar, sizə dərin hörmətlə və sadəqatlə bildirirəm ki, həmişə xidmətinizdə hazıram.*

*İmza: Ehsan xan (möhür)*
*13 iyun 1845-ci il. Naxçıvan şəhəri.*

*Kəngərlilərə məxsus fəxri döyüş bayrağının təntənəli mərasimlə Ehsan xanın sarayına köçürülməsi başa çatdıqdan sonra Gürcü İmeretinin mülki qubernatoru 12 iyun 1845-ci il tarixli məktubla (№ 607) Qafqaz canişini, Novorossiyskinin və Bessarabiyanın general-qubernatoru M.S.Vorontsova məlumat vermişdir: "Naxçıvan Qəza İdarəsinin rəisi vəzifəsini icra edən şəxs mənə məlumat verir ki, əlahəzrət çarın 1831-ci ildə Kəngərli süvarilərinə mükafat olaraq bağışladığı bayraq indiyədək bizim idarədə saxlanılırdı. Sizin aprel ayının 24-də imzaladığınız əmrə uyğun olaraq, həmin bayraq ötən ayın 14-də qəza idarəsinin rəisinin və sizin yavəriniz polkovnik knyaz Qaqarinin iştirakı ilə təntənəli surətdə hərbi-döyüş atamanı, general-mayor Ehsan xanın sarayına aparılmışdır. Bayraq onun sarayında saxlanılacaqdır.*

*Bütün bunlar haqqında məlumat verməyi özümə borc bilirəm.*

*İmza: general-qubernator" (3, v.12).*

Milli Azərbaycan Tarixi Muzeyində müstəqil dövlətçiliyimizin rəmzi olan müxtəlif xarakterli bayraqlar saxlanılır. Bayraqların da öz taleyi olmuşdur. Onlar da əsir aparılmış, oğurlanmış, sürgün edilmiş, hətta dustaq da saxlanmışdır. Son illərdə yazılan bəzi monoqrafiyalarda Naxçıvanın Kəngərli süvarilərinə məxsus bayraqlar qarışıq salınır. Ona görə də biz yenidən Milli Azərbaycan Tarixi Muzeyində axtarışlar apardıq. Muzeyin bayraqşünasları "Azərbaycan bayraqları" kataloqunu çapa hazırlayarkən çox ciddi araşdırmalar aparmışlar (1). Biz də həmin kitab-kataloqdan istifadə edərək Kəngərli süvarilərinin 1830-cu ildən sonra aldıqları bayraqlar haqqında məlumatları dəqiqləşdirdik.

Qafqaz Hərbi Tarix Muzeyinin "Bələdçi" kitabındakı məlumatlardan aydın olur ki, atlı-müsəlman alaylarına rus ordusu tərkibində hünərlə döyüşdüklərinə görə 1830-cu ildən etibarən yeni fəxri bayraqlar verilmişdir (1, s.35).

Çar hökuməti tərəfindən Naxçıvanın Kəngərli süvari dəstəsinə də fəxri bayraqlar verilmişdir. Əvvəlcə qeyd edək ki, dördüncü atlı-müsəlman alayı İrəvan və Naxçıvan müsəlman-azərbaycanlı əhalisindən təşkil edilmişdi. Bu alayın da döyüş bayrağı digər atlı-müsəlman alaylarına verilən bayraqlar kimidir. Əsas fərqləndirici əlamət bayrağın qumaşının göy rəngdə olması, aşağıdakı lentdə isə fars dilində "dördüncü alay" sözlərinin yazılmasından ibarətdir.

Həmin bayraq Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır (inventar № 456) (1, s.39). Bilirik ki, Kəngərli süvarilərinin fəaliyyəti çox qədimlərə gedib çıxır. Əldə edilən sənədlərə görə, Naxçıvanın Kəngərli süvariləri Səfəvilər dövlətində yüksək döyüş hünər və qabiliyyətlərinə görə xüsusi nüfuza malik olmuşlar. 1830-cu ildə Kəngərli tayfasının başçıları bu hünər və qabiliyyətlərinə görə

rus komandanlığına müraciət edirlər ki, Kəngərli Süvari Alayı yaradılsın. Qafqaz Hərbi Tarix Muzeyinin "Bələdçi" kitabındakı məlumata görə, "Kəngərli süvariləri bütün Şərqdə özlərinin igidlikləri ilə şöhrət qazanmışlar. Ölümdən qorxmadıqlarını nümayiş etdirmək üçün döyüşə gedərkən düşmən onları uzaqdan görsün deyə atlarının boynuna qırmızı kapor taxarmışlar" (4, s.29).

Naxçıvan Kəngərlilərinin əvvəlki döyüşlərdə mərdliklə vuruşduqlarını nəzərə alan rus komandanlığı Kəngərli süvari dəstəsini yaratmağa icazə verir. Naxçıvanın Kəngərli süvarilərinə məxsus döyüş və fəxri bayraqlar hazırda Milli Azərbaycan Tarixi Muzeyinin "Yeni və ən yeni tarix" fondunda saxlanılır. Naxçıvanın Kəngərli süvarilərinin döyüş bayrağı (inventar № 458) digər atlı-müsəlman alaylarının bayraqlarından öz yaşıl rəngi və bəzi elementlərilə fərqlənir. Qanovuz ipək parçalardan olan dördkünc bayrağın ölçüləri 134x128 sm-dir. Bayrağın üzərində təsvir edilmiş qartal bir qədər sxematikdir. Qartalın sinəsindəki qalxan boz rəngdədir, caynaqlarındakı top lülələrinin təsviri də şərtidir. Digər alay bayraqlarından fərqli olaraq, bu bayrağın yuxarı kənarında verilmiş ərəb dilli yazı lent üzərində deyil, bayraq parçasının üstündə əks olunmuşdur: "Xeyirxahlıq xeyirxahlıqla mükafatlandırılır. Ədalətli sultan Allahın yerdə kölgəsidir. Əl-Murad Kəngərli" (1, s.40-41). Bu Muradxan I Kalbalıxanın ulu babasıdır. Ciddi axtarışlar nəticəsində müəyyən olundu ki, I Kalbalıxanın atası Böyük Ehsanxan Murad xanın nəticəsidir. Deməli, bu döyüş bayrağındakı elementlərin əksəriyyəti və Muradxanın sözləri sırf Naxçıvan Kəngərlilərinə məxsusdur. Bayrağın ağacı qara rənglidir.

Naxçıvanın Kəngərli süvari dəstəsinin fəxri bayrağı (bayrağın ölçüləri 158 sm x 140 sm) yaşıl rənglidir. Qanovuz iki qat ipək parçadan tikilmişdir. Bu bayrağın ortasında qızılı çələnglə əhatə olunmuş iki başlı qartal ağ fondadır. Bayrağın üst ucluğu sarı, qotazları və alt ucluğu digər fəxri alay bayraqlarındakı kimidir. Bu fəxri bayraq Ehsan xanın sarayına aparılan bayrağın nümunəsidir (1, s.4). Bu fəxri bayraq Sankt-Peterburqdakı hərbi muzeydə nümayiş etdirilir.

1854-cü ilin iyun ayında Krım (Şərq) müharibəsində Çınqıl yüksəkliklərində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə II Kalbalıxan Naxçıvanski-Kəngərli 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. Elə həmin il Rusiya çarı I Nikolay şəxsən II Kalbalıxanın adına döyüş bayrağı göndərmişdir (4,s.164).

Bayraq qumaşı (145x120 sm) dördkünc göy qanovuz ipəyindəndir. Bu bayraq Naxçıvan bəy drujinasının döyüş bayrağıdır (inventar № 468). Bayrağın üzv və arxa tərəflərində təsvirlər və yazılar vardır (1, s.46).

*Nəticə*. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın bütün yüzilliklərdə qəhrəmanlıq səhifələri yaratmış və içdiyi hərbi anda son ana qədər sadiq qalmış Kəngərli süvarilərinə məxsus bu bayraqlar da tariximizdir. Bu bayraqların rəngləri və üzərində olan milli rəmzlər imkan verir ki, Naxçıvan xanlığına məxsus olan bayraqları da tapaq. Çünki dövrün, dövlətin və siyasi hadisələrin ən vacib əlamətlərini özündə əks etdirən bayraqlar tariximizdə mübahisəli məsələlərin açılması üçün əvəzsiz mənbədirlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan bayraqları. Kataloq. Bakı: Elm, 2005, 88s.
2. ASE (Azərbaycan Sovet Ensiklopediyası). Bakı: Qızıl Şərq, 1978, 592s.
3. НАГ (Национальный Архив Грузии), Ф:4, опись 8, дело № 36, 12 л.
4. Путеводитель по Кавказскому Военно-Историческому Музею. Тифлис: Типография штаба Кавказского военного округа, 1913, 225с.

**МУСА РАГИМОГЛУ (КУЛИЕВ)**
*Ведущий научный сотрудник Института истории, этнографии и археологии*
*Нахчыванского филиала НАНА, доктор философии по истории*

## О ПЕРЕНОСЕ ПОЧЁТНОГО ЗНАМЕНИ КОННИЦЫ КЕНГЕРЛИ ВО ДВОРЕЦ ПОХОДНОГО АТАМАНА МУСУЛЬМАНСКИХ ЧАСТЕЙ ЭХСАН-ХАНА И О ДРУГИХ ПОЧЁТНЫХ ЗНАМЕНАХ

В статье рассказывается о торжественном переносе почётного знамени, присвоенного Нахчыванскойкенгерлинской коннице российским императором Николаем I. Исторический документ (12 листов), найдённый из Национального Архива Грузии, относится 23 февраля

1845 года. Проведённые исследования ещё раз доказывают, что царское правительство симпатизировало Нахчыванской кенгерлинской коннице за воинскую доблесть. Эти архивные документы были впервые использованы. Также в статье исследуется различные почётные флаги, которые потом присвоенные Нахчыванской конницам кенгерли.

*Ключевые слова*: Кавказ, кенгерлинская конница, Эхсан-хан I, наместник Кавказа, полковник Гагарин, Военно-Исторический Музей «Кавказ», атаман, Крымская война, Мурад-хан Кенгерли. боевое знамя (штандарт), четырёхугольное знамя кенгерлинской конницы зелёного цвета.

**MUSA RAHIMOGLU (GULIYEV)**
*Leading researcher of the Institute of History, Ethnography and Archeology of Nakhchivan Branch of ANAS, Doctor of Philosophy in History*

## ABOUT THE TRANSFER OF THE FLAG OF HONOUR PRESENTED TO THE KANGARLI CAVALRIES TO THE PALACE OF EHSAN KHAN, THE CAMPAIGN ATAMAN OF MUSLIM TROOPS AND OTHER FLAGS OF HONOUR

In the article the ceremonial transfer of the flag of honour presented to the Kangarli cavalries of Nakhchivan by the Russian tsar Nicholas I to the palace where Ehsan khan lived is mentioned. This historical document consisting of 12 pages found from the National Archives of Georgia belongs to February 23, 1845. The researches done once again prove that the Tsar government felt sympathy for the Kangarli cavalries of Nakhchivan for their bravery in the wars.This archive document is used for the first time. The flags of honour afterwards given to Kangarli cavalries of Nakhchivan are also investigated in the article.

*Keywords*: the Caucasus, the Kangarli cavalries, Ehsan khan I, the viceroy of the Caucasus, the colonel Gagarin, “Caucasus” Military History Museum, ataman, Crimean war, Murad khan Kangarli, war flag (Presidential standart), the Kangarli cavalry’s rectangular green flag.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: akademik İ.M.Hacıyev.*

UOT 94"16/18"

**САНУБАР ИСМАЙЛОВА**
*К.и.н., доцент Бакинского Государственного Университета*
**sanubar.is@gmail.com**

# РАЗВИТИЕ НАУКИ И ПЕЧАТИ В ЦЕНТРАЛЬНОЙ АЗИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

*Одной из актуальных проблем в истории тюркских народов является культура тюркских народов. Основной целью является изучение науки и печати во второй половине XIX века в Центральной Азии, освещение влияния русской культуры на развитие культуры местного населения. После присоединения Средней Азии к России в области науки и печати произошли большие изменения. С этой целью в статье нашло свое отражение достойные работы русских и тюркских исследователей.*

*Ключевые слова*: Центральная Азия, наука, печать, просвещение, культура.

*Введение*. Во второй половине XIX в. к России были присоединены огромные территории Средней Азии – от Каспийского моря до гор Тянь-Шаня и от Аральского моря до границы с Афганистаном. Территорию Средней Азии населяли многочисленные народы узбеки, таджики, казахи, туркмены, каракалпаки, киргизы. Еще в первой половине XIX века между Россией и народами Средней Азии установились тесные экономические связи. Огромное значение имело культурное сближение народов Средней Азии с русским народом. Русские ученые внесли значительный вклад в изучение природных богатств и истории народов края. В Средней Азии появились школы, типографии, первые газеты.

Современный этап развития общества свидетельствует о том, что проблема тюркского мира, культура тюркского народа, еще малоизвестна в контексте утверждения тезиса, что «культура каждого народа своеобразна и неповторима, что достижения культуры не могут быть измерены,взвешены или сравнены, чтобы выяснить, чья культура выше». Именно из этого мы исходим при изложении этой проблемы, ибо в этом видим актуальность.

Целью статьи является изучение философского понимания науки и прессы и стадий их исторического развития. Данная статья еще раз убеждает, что вторая половина XIX в.является сложным и важным не только в социально-экономическом, но и в общественно-политическом и культурном отношениях в истории народов Средней Азии.

Таким образом, после присоединения Средней Азии к России, в общественно-политической жизни края произошли большие изменения как в области политики, так и культуры, образования, науки и печати.

*Наука*. Присоединение Казахстана к России привело к тому, что с целью изучения географии, природных ресурсов, экономики, истории, этнографии сюда стали приезжать ученые, путешественники. Еще в XVIII веке, в 1769 году одну из первых экспедиций в край возглавлял П.С.Паллас. Результатом ее стал труд "Путешествие по разным провинциям Российской империи» (1773 год). В 1772 году Н.Рынков опубликовал «Дневные записки путешествия капитана Н.Рычкова в Киргиз-кайсацкие степи в 1771 году». Крупным этапом изучения Казахстана русскими стал выход в свет в 1832 году книг А.И.Левшина «Описание киргиз-казачьих, или киргиз-кайсацких орд и степей» (5, с.4). Одно из центральных мест в числе представителей русской культуры, внесших неоценимый вклад в изучение края, занимает В.И.Даль, который в 1833-1841 годах, будучи чиновником по особым поручениям при Оренбургском губернаторе, изучал устное народное творчество, быт, обычаи казахов. В 1833 году во время сбора материала о пугачевском восстании в Оренбурге и Уральске побывал А.С.Пушкин.

В XIX веке среди исследователей Казахстана были ученые с мировой известностью, такие как П.П.Семенов-Тянь-Шанский (1827-1914), глава Русского географического общества. Он исследовал Центральный Тянь-Шань, путешествовал по Алтаю, Семиречью, Центральной Азии. Под его руководством было составлено и издано многотомное исследование

«Россия. Полное географическое описание отечества». Два тома из них: «Киргизский край» и «Туркестанский край», посвящены Казахстану и Центральной Азии. Здесь описаны географические условия, природные богатства, история, быт казахов (10, с.4). Также изучали географию, флору, фауну Казахстана, его природные ископаемые Н.А.Северцев, И.В.Мушкетов. Большой вклад в изучение края внес востоковед, тюрколог, этнограф, академик Петербургской академии В.В.Родлов (1837-1918). Он изучал обычаи, обряды, фольклор народов Алтая, северных областей Казахстана, обследовал Семиречье. Его публикации «Образцы народной литературы тюркских племен» содержат казахские сказки, эпические произведения, лирику (8, с.4).

В развитии культуры и общественной мысли в Казахстане во второй половине XIX века важную роль сыграли научные общества и культурно-просветительные учреждения. Отделы Русского географического общества были открыты в Оренбурге (1868 год), в Омске (1877 год),затем подотдел в Семипалатинске, а в 1897 году-отдел в Туркестане. Они издавали сборники, где публиковались материалы по истории, этнографии, географии. В них сотрудничала казахская интеллигенция, например, членом-корреспондентом Оренбургского отделения географического общества был И.Алтынсарин, который публиковал в его сборниках свои исследования. Во второй половине XIX века в Казахстане были созданы областные статистические комитеты, которые публиковали «обзоры» областей, содержащие материалы по статистике, истории, этнографии, культуре. Например в работе Семипалатинского областного статистического комитета принимал участие Абай. Изучением Казахстана занимались и другие научные организации: Общество сельского хозяйства, любителей археологии и истории Востока, любителей естествознания, антропологии и востоковедения (4, с.134-135).

Во-второй половине XIX века жили и творили выдающиеся представители казахской культуры Ч.Валиханов, И.Алтынсарин, А.Кунанбаев. Чокан Валиханов (1835-1865 гг.) родился в крепости Кушмурун, до 12 лет обучался в частной школе, в 1847 году поступил и в 1853 году окончил Сибирской Кадетский корпус в Омске в звании корнет армейской кавалерии. В 1855 году в качестве адъютанта генерал-гебернатора Западной Сибири Гасфорта он принял участие в поездке от Омска до Заилийского Алатау, где закладывалось укрепление Верное. Во время этой поездки он собрал и обобщил богатый материал по истории, религии, обычаям, фольклору казахов. В 1856 году он принял участие в экспедициях от Ала-Куля до Иссык-Куля, а также в Кульджу. По результатам этих путешествий он написал: « Дневник поездки на Иссык-куль», «Записки о киргизах». Он записал отрывки из знаменитого киргизского эпоса «Манас», а по результатам поездки в Кульджу - «Западная провинция Китайской империи и г.Кульджа». В феврале 1857 года он был избран действительным членом Русского географического общества (6, с.131). В 1858-1859 годах Ч.Валиханов впервые после Марко Поло побывал в Кашгаре,где собрал уникальный исторический, этнографический материал, уникальные реликвии: рукописи, грамоты, предметы искусства. Результатом этой поездки стал капитальный труд « О состоянии Алтышара или шести восточных городов Китайской провинции Нан-Лу (Малой Бухарин)»,1856-1862 годы-это время пребывания его в Петербурге. Он работал в Военно-учетном комитете Генерального штаба, Азиатском департаменте, Географическом обществе. Здесь он поддерживал связи с востоковедом В.В.Григорьевым, В.В.Вельяминовым-Зерновым, А.Н.Бекетовым, В.П.Васильевым, писателем Ф.М.Достоевским, дружба с которым продолжалась еще с Семипалатинска; он общался с поэтами А.В.Майковым, Я.П.Полонским. Весной 1861 года он тяжело заболел и вынужден был вернуться. 10 апреля 1865 года в ауле Тезека в урочище Коген-Тоган он скончался. Ч.Валиханов оставил богатое научное наследие, в которое, помимо уже названных работ, вошли также: «Аблай», «Киргизское родословие», «Вооружение киргиз в древние времена и их военные доспехи», «Записки о судебной реформе», «О мусульманстве в степи», «Следы шаманства у киргизов», «О кочевьях киргиз» и другие. Он оставил многочисленные зарисовки, эскизы, наброски, рисунки. Его вклад в науку заключается в том, что он значительно уменьшил белые пятна в русской и мировой науке о практически малоизученных в то время таких регионах Центральной Азии, как Семиречье, Кыргызстан, Восточный Туркестан. Он собрал уникальный материал по истории, этнографии,

фольклористике, литературе, политическому, социальному и экономическому развитию этих земель. Он одним из первых ввел в научный оборот такой пласт исторических источников, как казахский и киргизской эпос, фольклор. Ему принадлежит приоритет в постановке и разрешении ряда узловых проблем истории тюркских народов, таких как этногенез, социальная структура, политическое положение, национально-освободительная борьба, роль ислама в их жизни.

Но надо отметить, что исламская религия была распространена в разных временах в разных областях Центральной Азии. Например, это религия распространилась в Киргизии и Казахстане еще в XIII-XIV вв. Причина позднего распространения религии в этих территориях состояла о занятии большей части населения кочевым скотоводством, так как у них отсутствовали условия для возникновения мечетей, чтобы превратить в жизнь религиозных ритуалов (7, с.418).

В рассматриваемый период активно творил казахский просветитель, общественный деятель, педагог Ибрай Алтынсарын (1841-1889годы). Рано потеряв отца, он воспитывался у своего деда, известного бия войскового старшины Оренгбурской пограничной комиссии Балхожи Жанбурчина. Затем учился в казахской школе при Пограничной комиссии. Ибрай Алтынсарын ученый в области педагогики, этнографии, фольклористики. Он явился создателем в Казахстане начальных и профессиональных учебных заведений. Благодаря его стараниям были открыты в крае женские, ремесленные, сельскохозяйственные училища (2, с.88). В 1879 году он был назначен инспектором школ Тургайской области. Им были написаны учебные пособия: «Киргизская хрестоматия», «Начальное руководство к обучению киргизов русскому языку», опубликованы отрывки из казахского эпоса «Кобланды-батыр», «Жанибек-батыр», материалы по истории «Кыпчак Сейткул», «Байулы» и другие. По этнографии в «Записках» Оренбургского отдела Русского географического общества он опубликовал статьи «Очерк обычаев при сватовстве и свадьбе у киргизов Оренбургского ведомства», «Очерк обычаев при похоронах и поминках у киргизов Оренбургского ведомства» (6,с.132-135).

*Печать*. Общественная и политическая жизнь в Центральной Азии в основном сосредоточивалось исключительно в городах, где имелось русское население, в особенности в Ташкенте, который являлся не только административным центром Туркестанского края, но и краевым центром просвещения и культуры. Первые печатные органы в крае появляются в Ташкенте. С 28 апреля 1870 года стали выходить «Туркестанские ведомости» первая официальная газета, положившая начало периодической печати в крае. С этого года печатались приложения к этой газете арабским алфавитом на одной четверти листа, выходившие четыре раза в месяц: два раза на узбекском и два раза на казахском языках.

С начала 1883 года «Приложения» превратились в небольшую самостоятельную газету «Туркестан вилоятининг газеты».Она выходила один раз в неделю на узбекском языке тиражом 500-600 экземпляров, а с начала 1885 г. по 1901 г. газета издавалась с переводом текста и на русский язык. В связи с этим увеличился, и ее тираж и газета стала называться «Туркестанская туземная газета». Газета должна была сообщать местному населению касающиеся его административные распоряжения, области общественной и сельскохозяйственной жизни, народного образовании, а также сообщать о научных открытиях, распространять среди коренного населения полезные сведения из истории и географии края, полемиризовать с татарскими панисламистскими газетами по вопросам обще мусульманского характера и наконец, помещать корреспонденции из разных местностей края, в которых описывались народные обычаи и местные происшествия. Так, например, в газете были напечатаны заметки «о древнегреческом медресе Сократе», об «Аристотеле», об открытии французского ученого «Пастера», об открытии «Америки» и другие.

Руководитель и многолетний редактор «Туркестанской туземной газеты», Н.П.Остроумов расширил программу установленную царским правительством и ее неофициальной части в разные годы стали печататься произведения узбекских писателей Фурката, Мукими, а так же передовые произведения Крылова, Пушкина (3,с.9).

В Туркестанском крае издавались и другие официальные и частные газеты и журналы так, например, в городе Ташкенте являющийся не только административным центром Сыр-Дарьинской области, но и политическим, экономическим центром культуры всего Туркестанского края, из газет на русском языке издавались частные газеты, «Окраины» (1890). В Семиреченской области из газет издавались семиреченские областные ведомости (1884-1917 гг.), позже, с января 1910 г. «Семиреченский сельскохозяйственный листок»-который располагался во всех селениях бесплатно, «Семиреченская жизнь – общественно – литературная газета и мемориационный журнал «Семиречье». В период первой русской революции в 1907 г. в г.Верном вышло всего лишь три номера нелегальной газеты «Обстрел» - органа Семиреченской революционной группы социалистов (1, с.122-123).

Среди легальных русских газет, выходивших в Туркестане, особого внимания заслуживает «Туркестан» издававшаяся в Ташкенте с 1898 г. В рассматриваемый период в Казахстане издавались газеты «Акмолинские областные ведомости», «Киргизская газета», «Оренбургский листок» и другие. 28 апреля 1870 года вышел в свет первый номер газеты «Туркестан валаяты» на казахском и узбекском языках.

Первой частной типографией было предприятие В.Ф.Пастухова, открытое в 1876 г. в г.Ташкенте в доме Ташкентского пивоваренного завода. В конце 1879 г. эта типография переводится в дом узбека Рахматулла бая, а в 1880 г. в полном составе переходит в собственность купца Семена Лахтина (9., с.118). Подробное и скрупулезное исследование представляет собой статья М.И.Рустамова «Книга в Средней Азии», в которой автор, обобщая опыт предыдущих исследователей, прослеживает историю становления среднеазиатской книги от рукописной к печатной.

Среди исследователей старопечатной среднеазиатской книги можно выделить Г.Н.Чаброва, большая часть трудов которого посвящена становлению узбекской печатной книги; в его трудах отмечены особенности художественного оформления среднеазиатской книги, подчеркнута близость литографированных книг к традициям рукописной книги (11, с.95).

В работах среднеазиатских исследователей Е.К.Бетгера, Г.Н.Чаброва отмечается, что первой книгой, изданной в 1880 г. в Хивинской литографии, была «Хамса» («Пятерица») Алишера Навои, «Диван Муниса», «Диван Раджи», собрание стихов Хивинского хана Мухаммед-Рахима.

*Заключение*. История науки и печати – развитие разнообразных наук или история современного научного мировоззрения. Изучение истории современной науки опирается на множество сохранившихся оригинальных или переизданных текстов. Развитие науки было составной частью общего процесса интеллектуального развития человеческого разума и становления человеческой цивилизации. Лишь в XIX веке наука стала профессиональной. В эту эпоху сложились основные институты современной науки, а возрастание роли науки в обществе привело к ее включению во многие аспекты функционирования национальных государств.

Вторая половина XIX столетия характеризуется невиданным ранее размахом и интенсивного изучения Центральной Азии: физической географии, этнографии, истории и культурного наследия народов, ее населяющих. Итак, в силу особенностей исторического развития Центральной Азии до и после присоединения к Российской империи, которое отличалось размытостью национальных границ, крепостью этнокультурных и социальных связей между народами, общностью религии, национальные или внутренние политические движения конца XIX-начало XX веков региона формировались уже не только на основе мусульманской (религиозной), но и, европейской (светской) культурной и образовательной традиции.

ЛИТЕРАТУРА

1. Авшарова М.П. Русская периодическая печать в Туркестане (1870-1917 гг.). Ташкент, Госиздат, 1960, 198 с.

2. Бендриков К.Е. Очерки по истории народного образования в Туркестан (1865-1924). М., Наука, 1960, 279 с.

3.Дубовицкая И.М. Н.П.Остроумов и становление СМИ в Средней Азии в конце ХХ вв. // Журнал «История и современность», № 2(10) сентябрь 2009, с.194-198.
4.Кляшторный С.Г. Восточный Туркестан глазами русских путешественников (втор. пол. XIX в.). М, Наука, 1998, 234 с.
5.Левшин А.И. Описание киргизо-кайсацких орд и степей. М., РИПОЛ классик, 2013, 915 с.
6.Мехтиева Н.Дж. История тюркских народов (на азерб.яз.). Баку, Адильоглы, 2003, 310 с.
7.Мухтарова А.И. История тюркских народов (на азерб.яз.). Баку, Адильоглы, 2019, 446 с.
8.Радлов В.В. Образцы народной литературы тюркских племен. М., РИПОЛ классик, 1978, 747 с.
9.Рустамов М.И. Книга в Средней Азии. М., Наука, 1972, 126 с.
10.Семенов Тянь-Шаньский. Путешествие в Тянь-Шань. т.9, М., ЭКСМО, 2017, 603 с.
11.Чабров Г.Н. Книгопечатание в Средней Азии второй половины XIX в. М., Наука, 1964, 466 с.

**SƏNUBƏR İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin dosenti*

**XIX ƏSRİN İKİNCİ YARISINDA
MƏRKƏZİ ASİYADA ELM VƏ MƏTBUATIN İNKİŞAFI**

Türk xalqları tarixinin aktual problemlərdən biri də türk xalqlarının mədəniyyətidir. Məqalədə əsas məqsəd XIX əsrin ikinci yarısında Orta Asiyada elm və mətbuatın inkişafını öyrənmək, rus mədəniyyətinin yerli əhalinin mədəniyyətinin inkişafına təsirini vurğulamaqdır. Orta Asiyanın Rusiyaya birləşdirilməsindən sonra elm və mətbuat sahəsində böyük dəyişikliklər baş verdi. Bu məqsədlə məqalədə rus və türk tədqiqatçılarının layiqli əsərlərindən bəhs olunmuşdur.
*Açar sözlər*: Mərkəzi Asiya, elm, mətbuat, maarif, mədəniyyət.

**SANUBAR ISMAYILOVA**
*Associate Professor of Baku State University*

**THE DEVELOPMENT OF SCIENCE AND THE PRESS IN
CENTRAL ASIA IN THE SECOND HALF OF THE 19th CENTURY**

Occupies in important place in the history of the Turkic peoples urgent problems of the Turkic people culture. The main goal is to study science and the press in the second half of the 19 th century in Central Asia, to highlight the influence of Russian culture on the development of the culture of the local population. After the accession of Central Asia to Russia, major changes took place in the field of science and the press Russian and Turkic researchers.
*Keywords*: Central Asia, the science, the press, enlightenment, culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**İBRAHİM ZEYNALOV**
*Bakı Dövlət Universitetinin professoru,*
*tarix elmləri doktoru*
**ibrahimzeynalov@bsu.edu.az**

**Qarabağ Azərbaycandır!**

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN VƏ TARİXİ ƏDALƏTİN BƏRPASI AZƏRBAYCAN RESPUBLIKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADI İLƏ BAĞLIDIR

*Elmi məqalədə 44 günlük Böyük Vətən müharibəsində əldə edilən misilsiz, şanlı və tarixi qələbəni təmin edən amillərdən bəhs edilir: İlk növbədə banisi Ümumilli Lider Heydər Əliyev olan müstəqil dövlət quruculuğunda əldə edilən yüksək sosial-iqtisadi nəticələrin, güclü, hər tərəfli inkişaf etmiş Azərbaycan iqtisadiyyatının rolu öyrənilir. Daha sonra dövlət büdcəsinin, qüdrətli, yenilməz iradəli, müasir dövlətçilik və diplomatiya tarixinə yeni səhifələr yazmış Respublika Prezidenti İlham Əliyevin mükəmməl ordu quruculuğunun və ölkədə bütün siyasi qüvvələrin, nəsillərin həmin dövrdə Prezident ətrafında sıx birləşməsinin Şanlı qələbənin əldə edilməsindəki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsindəki rolu öyrənilir.*

*Həmçinin elmi məqalədə ölkəmizin ərazi bütövlüyünün təmin olunması yolunda 1969-1982, 1993-2003-cü illərdə və son 17 ildə həyata keçirilən zəruri tədbirlərin rolundan danışılır, xüsusilə şanlı, qüdrətli Azərbaycan əsgərlərinin igidliyindən və müasir müharibə tarixində yeni üsullarla, yeni taktika ilə döyüş mərhələsinin əsasını qoyan Ordumuzun Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük dövlətçilik, idarəçilik siyasətindən bəhs olunur.*

*Açar sözlər*: Koroğlu, mərd oğullar, Qayıdış, VII qurultay, intibah, Yeni Azərbaycan Partiyası, Əsrin müqaviləsi, Böyük Vətən müharibəsi, Birləşmiş Millətlər Təhlükəsizlik Şurası.

*Giriş*. 1969-1982-ci illər və 1993-2003-cü illər, həmçinin son 17 il - 2003-2021-ci illər Azərbaycan xalqının həyatında silinməz hadisələrlə, çox böyük uğurlu sosial-iqtisadi, mədəni və siyasi proseslərlə zəngin olan tarixi bir mərhələni əhatə edir. Bu dövrün ən böyük hadisəsi milli müstəqilliyimizin, dövlətçiliyimizin bərpa edilməsi, onun qorunub saxlanması və möhkəmləndirilməsi, Azərbaycanın müstəqil, qüdrətli və regionun lider dövlətinə çevrilməsi, yenidən tarixi səhnəyə çıxmasıdır. Bu tarixi nailiyyətlərdə qüdrətli dövlət başçıları – Ulu Öndər Heydər Əliyev və onun işlərini uğurla davam etdirən, yüksək səviyyədə tamamlayan Azərbaycan Respublikasının Prezidenti, son 17 ildə iqtisadi-siyasi, sosial-mənəvi və mədəni quruculuq sahələrində böyük uğurlara imza atmış, 30 il işğal altında olan torpaqlarımızı mənfur düşməndən azad edilməsində, respublikamızın ərazi bütövlüyünün təminatçısı İlham Əliyevin fədakarlığı, misilsiz rolu, sözü ilə əməlinin bütövlüyü müstəsna əhəmiyyətə malikdir.

Çox böyük uğur və nailiyyət: əldə edilən bu nailiyyətlərin kökü sözlə əməlin, milli və siyasi, mənəvi birliyin, güclü iqtisadi inkişafın təmin edilməsindədir.

2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsində əldə edilən misilsiz , şanlı qələbə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Bu qələbə xalqımızın milli qürurunun, milli mənliyinin, qəhrəmanlıq qüdrətinin özünə qayıdışında ölçüyəgəlməz ictimai-siyasi və mənəvi hadisə oldu.

44 günlük müharibədə şanlı qələbəmiz Azərbaycan dövlətinin gücünü, ölkə başçılarının güclü, yenilməz iradəsini, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi.

Ölkə Prezidenti dəfələrlə öz çıxışlarında bəyan etmişdi ki, əgər işğal altında olan torpaqlarımızın azad edilməsi sülh yolu ilə öz həllinin tapmasa, biz bu məsələni müharibə yolu ilə həll edəcəyik. Və belə də oldu. 44 günlük müharibədə erməni faşistləri ağır məğlubiyyətə uğradı. Tarixi ədalət bərpa edildi.

Bu qələbədə ölkəmizin hər tərəfli inkişafı, müstəqil Azərbaycanın siyasi, iqtisadi və hərbi cəhətdən güclü olması, xalq-iqtidar birliyi həlledici rol oynamışdır.

Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə "Gülüstan" poemasında yazırdı: "Bəs hanı bu əsrin öz Koroğlusu- Qılınc Koroğlusu". Ruhun şad olsun Bəxtiyar müəllim! XXI əsrin öz qəhrəmanı, yenilməz sərkərdəsi gəldi. Dünyanın ən qüdrətli, ən cəsarətli, dönməz iradəli qəhrəmanı gəldi. Müasir diplomatiya tarixində yeni bir səhifə yazan, özünün dərin düşüncəli, məntiqli, hərtərəfli tarixi-siyasi fikirləri və ifadələri ilə diplomatiya, beynəlxalq münasibətlər sisteminə yenilik gətirən o, qəhrəman, Azərbaycan xalqının qüdrətli oğlu İlham Heydər oğlu Əliyevdir.

Bəxtiyar Vahabzadə deyirdi: "Hanı bu ellərin mərd oğulları?", "Yoxmu qanımızda xalqın qeyrəti?".

Bəxtiyar müəllim ruhun şad olsun! Bu ellərin, qədim qəhrəmanlar yurdu Azərbaycanın mərd, qəhrəman oğullarını zaman yenidən yetişdirdi. Onlar xalqımızın yetişdirdiyi, Ulu Öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi və hərbi quruculuq kursunu çox uğurla davam etdirən, Milli Ordumuzun Ali baç komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il sentyabrın 27-də verdiyi müqəddəs əmrlə 44 günlük Vətən müharibəsində möcüzə xarakterik qələbəni təmin edən, mənfur düşməni darmadağın edən, doğma torpaqlarımızın azad edilməsində qanlarından, canından keçən əsgərlərimiz, zabitlərimiz, generallarımızdır. 44 günlük tarixi Vətən müharibəsində qədim türk yurdunun qeyrətli övladları ayağa qalxdı. Ali Baş Komandanın ətrafında sıx birləşdi, vətən sevgisi, vətənpərvərlik söz açdı, düşmənə ölüm dedilər. Silahlar hərəkətə gəldi, gənclərimiz silaha sarılmaq, düşmən üstünə şahin quş kimi şığımaq üçün növbəyə durdu, əmr gözlədi. Azərbaycan xalqının bütün nəsilləri bir araya gəldi, bir yumruq kimi birləşdi, zəhərli ilanın başını əzdi.

Prezident 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı bir daha bəyan etdi ki, "Bu Qələbə tarixdə əbədi qalacaq. Bu Qələbə bütün dünyaya sübut etdi ki, ...bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur... Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq... heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək... Demişdim ki, biz bu məsələni istənilən yolla həll edəcəyik və etdik". Artıq bütün bunlar həqiqət və gerçəklikdir və Ermənistanla müharibədə Azərbaycan Respublikası Prezidentinin hərbi, siyasi, mənəvi qələbəsinin göstəricisidir [1].

Bu gün AR Prezidentinin müəyyən etdiyi Böyük Qayıdış proqramının icrasına başlanmışdır.

Bu qələbə ilə, təkcə Azərbaycanın ərazi bütövlüyü bərpa olmadı, həm də torpaqlarımızda qanunsuz məskunlaşmanın, şəhər və yaşayış məntəqələrimizin adlarının dəyişdirilməsinin, Azərbaycanın tarixi, mədəni, dini irsinin silinməsinin, erməni vandalizminin qarşısı alındı.

İndi qoy işğal altında olan doğma torpaqlarımızı, Ağdamı, Şuşanı, Füzulinin, Zəngilanı, Kəlbəcəri, Cəbrayılı azad görmək arzusu ilə, bu dünyanı böyük kədərlə, ürəklərində ağır dərdlə, böyük nisgillə tərk edən xalqımızın vətənpərvər oğullarının ruhu şad olsun. Qarabağ, Şuşa Azərbaycandır və nida işarəsi.

Bütün bunlar- torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz, fədakar, məqsədyönlü, düşünülmüş fəaliyyətinin, ulu öndər Heydər Əliyev siyasətinin uğurla, daha geniş, hərtərəfli şəkildə davam etdirilməsinin, son 17 ildə həyata keçirilən siyasi, sosial-iqtisadi və hərbi quruculuq sahəsində həyata keçirilən islahatların nəticəsidir [2].

Yeni Azərbaycan Partiyasının VII qurultayında söylədiyi nitqində Azərbaycan Respublikasının Prezidenti qeyd edir: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik... Bizə... tam, mütləq qələbə lazım idi. Biz mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq" [3].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başda olmaqla xalqımızın mərd, cəsur, qəhrəman övladlarının Vətən müharibəsindəki Şanlı qələbəsi Azərbaycanın siyasi, sosial-iqtisadi həyatında, onun beynəlxalq münasibətlərində yeni üfüqlər açdı, yeni hədəflərin müəyyənləşdirilməsi zərurətini yaratdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YAP-ın VII qurultayında çıxış edərək bildirdi ki, "Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır... Onun

siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə olan əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Burada, əlbəttə ki, onun 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı". Bu bir həqiqətdir. Belə ki, 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi rəhbərliyə gələn Heydər Əliyevin 1969-1982-ci illərdəki gərgin əməyi, böyük təcrübəsi və yüksək təşkilatçılığı və idarəetmə bacarığı sayəsində Azərbaycanda sosial-iqtisadi böhran vəziyyətinə, uzun müddətli geriliyə son qoyuldu, Respublikada tənəzzüldən tərəqqiyə dönüş başladı. Ulu Öndərin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin inkişafca irəliyə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illərdə Azərbaycanın ictimai həyatında intibah dövrü başladı [4].

Heydər Əliyevin fədakar əməyi, xüsusi təşkilatçılığı ili iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş ittifaq respublikalarından xeyli yüksək olmuşdur. 1970-1982-ci illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaq respublikalarından öndə getmişdir. Belə ki, 1969-1982-ci illərdə ulu öndərin təşəbbüsü və rəhbərliyi altında respublikada 250-dən çox zavod, fabrik, istehsal müəssisələri istifadəyə verilmişdi. Neft, neftqayırma, qaz sənayesi əsaslı şəkildə yenidən qurulmuşdur. Həmin illərdə kənd təsərrüfatının dinamik inkişafı, respublika iqtisadiyyatında onun xüsusi çəkisinin artması ən mühüm iqtisadi nəticələrdən biridir [5].

Ulu öndərin çox böyük səyi, gərgin əməyi və səmərəli iş təcrübəsinin nəticəsi olaraq 1981-ci ildə olaraq Azərbaycanda 1 milyon 151min ton pambıq, 1 milyon 616 min üzüm və digər kənd təsərrüfatı məhsulları tədarük edildi [6, s.116].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YAP-ın VII qurultayında giriş nitqi ilə çıxış edərkən xüsusi olaraq qeyd etmişdir ki, "Heydər Əliyevin fəaliyyəti nəticəsində 1982-ci ildə ... həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələri böyük dərəcədə inkişaf edirdi... Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır" [7].

Heydər Əliyev qeyd edirdi ki, "Xalq həmişə öz ziyalısı, öz mədəniyyəti, öz elmi ilə tanınır". Ulu öndər 196901982-ci illərdə, eləcə də 1993-2003-cü illərdə ki, fəaliyyəti dövründə təhsil, elm, incəsənət, mədəniyyət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində də ciddi və əhəmiyyətli addımlar atıldı.

Dahi şəxsiyyət, uzaqgörən dövlət xadimi Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin inkişafında ən böyük xidməti 1970-1980-ci illərdə Heydər Azərbaycandan kənarda, keçmiş Sovetlər Birliyinin 50-dən artıq böyük şəhərlərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın sosial-iqtisadi və mədəniyyətinin 80-dən çox sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 270-dən çox ixtisas üzrə 15 min 300-dən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaratması olmuşdur [8, s.285-286].

1978-ci ildə qəbul edilən, sayca Azərbaycan SSR-in 3-cü Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul olunmasına nail olunmuşdu.

Azərbaycan dövlətçiliyi, onun müstəqilliyi ilə bağlı olan Heydər Əliyevin birmənalı, cəsarətli, qətiyyətli çıxışları, gördüyü bütün tədbirlər xalqımız tərəfindən yüksək səviyyədə müdafiə olunurdu. Ermənistandan 300 mindən çox azərbaycanlının öz dədə-baba torpaqlarından qovulması Azərbaycan xalqının qəlbində yara kimi qalmışdı, çox ağır yük olaraq xalqımızın çiynində dururdu, bu xalqımıza çox böyük mənəvi zərbə idi. Həmçinin Dağlıq Qarabağdan da bütün azərbaycanlılar qovulmuşdu. Ağdam, Şuşa, Laçın və digər şəhərlərimiz, rayonlarımız işğal altına düşmüşdü. Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaranmışdı, 1 milyondan çox azərbaycanlı qaçqın və köçkün vəziyyətinə salınmışdı və bütün bunlar öz həllini gözləyirdi. **Müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi yolunda, iqtisadi tərəqqiyə və hərbi qələbəyə aparan yolda 1969-1982-ci illərin davamı olaraq 1993-2003-cü illər həlledici illər olmuşdur. Bu illərdə müstəqil dövlətçiliyin əsasları qoyulmuşdur.** Milli intibahın ikinci dövrü başladı; ordu quruculuğuna başlandı. Ordunun döyüş qabiliyyətinin, vətənpərvərliyinin artması, möhkəmləndirilməsi, ən müasir silah və texnikalarla təchiz edilməsi, peşəkar hərbiçilərin formalaşdırılması istiqamətində geniş miqyaslı işlərə başlanıldı. 1994-cü ilin mayında cəbhədə atəşkəsin əldə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması (1994-cü il 20 sentyabr) ölkənin sosial-iqtisadi və siyasi inkişafında mühüm rol oynadı; neft strategiyası Azərbaycanda demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin, sosial-iqtisadi və

mədəni inkişafın təmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına inteqrasiya etməsi, uğurlu xarici siyasətin qurulması, enerji və nəqliyyat sisteminin qurulması, yeni iqtisadi sistemin qurulması və 1996-cı ildən aqrar islahatlara başlanması gələcəkdə respublikaya bir çox əhəmiyyətli layihələrin gətirilməsi üçün möhkəm baza yaratdı.

Son 17 ildə isə ölkəmiz bu baza üzərində sürətlə inkişaf etmiş, daha uca zirvələrə yüksəlmiş, dayanıqlı inkişafı təmin etmiş və möhkəmləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, bu 17 ildə heç vaxt kənardan kiminsə diktəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çox konfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Məhz, bu siyasətin nəticəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də 44 günlük Vətən müharibəsində tarix yazan güclü, qüdrətli ordusunda öz təsdiqini tapdı.

Məhz, bazası 1993-2003-cü illərdə yaradılan, son 17 ildə isə möhkəmləndirilən və dünyanın 50 ölkəsinin ən güclü orduları sırasında özünün yerini tutan Müzəffər Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 29-30 il işğal altında qalan torpaqlarımızı erməni işğalçılarından, təcavüzkarlarından, vandallarından azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Ən önəmlisi odur ki, 2020-ci il noyabrın 8-də Azərbaycan mədəniyyətinin mərkəzi, qədim incəsənət və musiqi beşiyi, Qarabağın başının tacı, qeyrəti, namusu Şuşa şəhərinin müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin yüksək peşəkarlıqla həyata keçirilməsi nəticəsində azad olunması erməni faşistlərinin müqavimət potensialını heçə endirdi, bu qələbə düşmənin diz çökməsinə, sülh istəməsinə, yalvarışlarına səbəb oldu. Bununla da noyabrın 10-da üç ölkə prezidentlərinin – İlham Əliyev, Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı üç tərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı. Həm də faktiki olaraq, bu Ermənistan dövlətinin kapitulyasiyası idi [9].

Azərbaycan Respublikasının Prezidenti YAP-ın VII qurultayında çıxış edərkən bildirdi ki, "2003-2020-ci illər ... bir hazırlıq dövrü idi. Biz hazırlaşmalı idik və mən bunu gizlətmirəm. Mən deyirdim ki, sülh yolu ilə məsələ həll olunmasa, müharibə yolu ilə bunu həll edəcəyik... Deyirdim, bəli, hazırlaşıram, Xalq hazırlaşır, dövlət hazırlaşır".

Ulu Öndər Heydər Əliyev dəfələrlə bildirirdi ki, "Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olur-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik... Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi – Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycan Prezidenti heç vaxt bununla razı ola bilməz" [10, s.22].

Ulu öndər, həm də qeyd edirdi ki, "Müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsidir".

Böyük dühə Heydər Əliyev böyük qürurla deyirdi: "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu öndərin hələ o zaman söylədiyi dahiyanə fikirlər reallığa çevrildi. Son 17 ildə görülən işlər sübut etdi ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. İlham Əliyev Azərbaycanın müasir tarixinə yeni missiya ilə daxil olmuşdur. Son 17 illik tariximizə nəzər salsaq görərik ki, ölkə prezidentinin uzaqgörən, məntiqə söykənən uğurlu siyasəti ilə Azərbaycan Respublikası özünün milli dövlət quruculuğu və idarəçiliyinin daha üstün və şərəfli mərhələsini yaşayır.

Ölkə prezidenti İlham Əliyev böyük cəsarətlə bildirir ki, "müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə haqlısan məntiqi hökm sürür". Bu ifadələri söyləyən Prezident İlham Əliyev çox böyük uzaqgörənliklə ordu quruculuğu məsələlərini önə çəkmiş, ən ümdə məsələ kimi müəyyənləşdirərək, bu istiqamətdə inanılmaz möhtəşəm işlər gördü. Fakta diqqət yetirək, 2003-

2018-ci ilədək Azərbaycanın müdafiə büdcəsi 15, 2 dəfə artmışdır. Bunun nəticəsidir ki, dünyanın ən güclü orduları sırasında Azərbaycan 50-ci , Ermənistan isə 90-cı mövqedə durur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son 17 ildə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, ölkəmiz uca zirvələrə yüksəlmişdir, sosial-iqtisadi inkişaf surətinə görə adı dünyanın ən güclü dövlətləri sırasında çəkilir, regionun lider dövləti hesab edilir.

Ölkə prezidenti son 17 ildə lideri olduğu çoxmillətli Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn elə bir uğurlu, düşünülmüş siyasətin müəllifidir ki, bu siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapdı.

Vətən müharibəsində xalqımızın ordusunun Ali Baş Komandanı İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməsi Azərbaycanın erməni faşizmi üzərində qələbəsinin əldə edilməsində həlledici rol oynadı, 1988-ci ildən davam edən Qarabğ müharibəsinə son qoydu.

Azərbaycanın bugünkü sosial-iqtisadi, siyasi inkişafına, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbə və Zəfərə görə həm də ulu öndər Heydər Əliyevə borcluyuq.

Ölkə Prezidenti dəfələrlə qeyd edib: "44 günlük müharibədə və bizim tarixi qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq qələbə və mütləq qələbə olmamışdır". Prezident əldə edilən qələbədən, onun səbəblərindən bəhs edərkən bildirir ki, "Mənəvi hazırlıq həlledici rol oynamışdır. Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi".

Həmçinin, qələbəni təmin edən amillər sırasına ölkəmizdə son 17 ildə 20-dən artıq hərbi zavodun işə salınmasını, müasir hərbi-sənaye kompleksinin formalaşmasını və 5-ci nəsil silahların dünyanın aparıcı silah ixtiraçılarından alınmasını, bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi məsələlərini də daxil edilməlidir.

Bu da danılmaz faktdır ki, Milli Ordumuzun Ali Baş Komandanının yüksək hərbi-sərkərdəlik bacarığı, güclü, yenilməz iradəsi və qətiyyəti, qüdrətli, vətənpərvər, yenilməz ordumuzun qəhrəmanlığı və bütün nəsillərin –xalqımızın Prezidentin ətrafında sıx, möhkəm birləşməsi, onların dəstəyi, həmçinin bu gün dünyanın güc mərkəzlərindən birinə çevrilən Türkiyə kimi qardaş dövlətin Azərbaycanın yanında olması, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bildirməsi, qonşu dövlətlərdən, Rusiya, İran, İsrail və Gürcüstanın erməni faşistlərinin beynəlxalq hüquqa zidd addımlarını buxovlamağa çalışmaları və digər tərəfdaş ölkələrin Azərbaycanın ədalətli müharibəsini müdafiə etməsi də 44 günlük Vətən müharibəsində Azərbaycanın tam qələbə əldə etməsində həlledici amillərdəndir [11].

2021-ci il yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti giriş nitqi söyləmişdir. Prezident giriş nitqinin əvvəlində bildirmişdir ki, "son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olmasıdır Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi. Ermənistanı məğlub etdi. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yolla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 ildən davam edən işğalçılıq siyasətinə son qoyuldu" [12].

Əlbəttə, bu qələbənin əldə edilməsində, ölkəmizdə son 17 ildə qazanılmış uğurlarda, həmçinin ölkəmizdə siyasi, iqtisadi sistemin, siyasi mədəniyyətin formalaşmasında YAP-nın rolu da danılmaz faktdır.

Çox tezliklə ermənilərin təxribat xarakterli səfərlərə son qoyulacaq. AR-nın Prezidenti, xüsusi olaraq bəyan etmişdir ki, "Heç bir xarici vətəndaş bizim icazəmiz olmadan o əraziyə gedə bilməz. Heç bir beynəlxalq təşkilat –ancaq Qırmızı xaç istisna olmaqla oraya gedə bilməz. Bu bizim ərazimizdir. Bütün dünya bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

Bu qələbə, həm də eyni zamanda Azərbaycan xalqının Liderinə çevrilmiş İlham Əliyevin praqmatik siyasətçi, güclü diplomat, hadisələri, cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri dəqiq təhlil etməsi və qiymətləndirə bilməsi ilə, mühüm əhəmiyyətli məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını dəqiq müəyyənləşdirə bilməsi və onların həllinə nail olmaq bacarığına malik olması ilə bağlı idi.

32 il öncə pozulmuş tarixi ədalət 44 gün müddətində erməni ordusunun darmadağın edilməsi ilə bərpa oldu, beynəlxalq hüququn aliliyi bərqərar oldu və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri (882, 853, 874, 884) icrası hərbi və siyasi yolla həllini tapdı [13].

*Nəticə.* Hazırda ölkə prezidentinin rəhbərliyi ilə keçirilən siyasətin mərkəzində işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işlərinin həyata keçirilməsi, dayanıqlı inkişafın qorunması, Azərbaycan əhalisinin rifahının yaxşılaşdırılması və s. dayanır.

Azərbaycanda insan amili, onun maddi rifahının yaxşılaşdırılması, respublikada məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi son 17 ildə həmişə AR-nın Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasətin prioritet istiqamətlərindən olmuşdur.

Qürur mənbəyimiz olan tarixi Qələbəmizin əldə edilməsində əsas amillərdən olan Azərbaycan xalqının bir yumruq kimi birliyinin yaranması, həmrəylik göstərməsi siyasi mədəniyyətimizin göstəricisidir. Bu siyasi birlik, həmrəylik Vətən müharibəsindən sonra da yeni müstəvidə getdikcə güclənməkdədir.

Tarixi praktika bir daha göstərdi ki, mənəvi hazırlıq, Vətənə, torpağa sevgi həlledici amildir. Güc, qələbə birlikdədir, həmrəylikdədir. Yaşasın Azərbaycan xalqının mənəvi-siyasi birliyi, möhtəşəm həmrəyliyi. Təşəkkür edirik, bütün bunları yaradan Azərbaycan xalqının bugünkü lideri İlham Əliyevə!

## ƏDƏBİYYAT

1. Əliyev İ. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə giriş nitqi / “Xalq” qəzeti, 8 yanvar 2021-ci il.
2. Əliyev İ. Yeni Azərbaycan Partiyasının VII qurultayında giriş nitqi / “Azərbaycan” və “Xalq” qəzetləri, 6 mart 2021-ci il.
3.Əliyev İ. 32 il əvvəlki dirçəliş hərəkatının hədəfləri tam reallığa çevrildi / “Azərbaycan” qəzeti, 17 noyabr 2020-ci il.
4. ARPİİSSA, F.I, siy.16, iş 83.
5. ARPİİSSA, F.I, siy.56; 406, iş 106; 29.
6. Zeynalov İ. Azərbaycanın iqtisadi və sosial inkişafı (70-80-ci illər). Bakı, BUN, 1996, 314 s.
7. Əliyev İ. Yeni Azərbaycan Partiyasının VII qurultayında giriş nitqi / “Xalq” qəzeti, 6 mart 2021-ci il.
8. Zeynalov İ. Azərbaycanın sosial-iqtisadi və inkişafı XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2020, 204 s.
9. “Azərbaycan” qəzeti, 10 noyabr 2020-ci il.
10. Əliyev H. Müstəqillik yolu. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
11. Səmədzadə Z. İqtisadi tərəqqiyə və hərbi qələbəyə aparan böyük siyasət / “Xalq” qəzeti, 12 dekabr 2020-ci il.
12. Əliyev İ. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə giriş nitqi / “Xalq” qəzeti, 8 yanvar 2021-ci il.
13. Aslanov A. Günəşli payızın qırx dörd anı / “Azərbaycan” qəzeti, 3 dekabr 2020-ci il.

**ИБРАГИМ ЗЕЙНАЛОВ**
*Профессор Бакинского Государственного Университета,*
*Доктор исторических наук*

## ВОССТАНОВЛЕНИЕ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНА И ИСТОРИЧЕСКОЙ СПРАВЕДЛИВОСТИ СВЯЗАНО С ИМЕНЕМ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА

В научной статье рассматривается предпосылки блестящей исторической победы, достигнутой на 44 -дневной Отечественной войне. В статье, прежде всего, изучаются роль всесторонне развитой экономики и высоких социально-экономических результатов, достигнутых в период независимого государственного строительства в Азербайджане, основоположником которого является Общенациональный Лидер Гейдар Алиев. Далее, рассматривается роль

крепкого государственного бюджета, блестящего армейского строительства, солидарности всех политических сил и поколении азербайджанского общества вокруг политики Президента Ильхама Алиева, сильного лидера, написавшего новые страницы истории современной дипломатии и государственности.

В научной статье также рассматривается роль мероприятии, проведенных в Азербайджане в 1969-1982-х, 1993-2003-х и последних 17 лет, в подготовке почвы для возвращения земель и восстановления территориальной целостности Азербайджана. Далее, рассматривается подвиги и доблести азербайджанских солдат и офицеров Азербайджана, говорится о высокой организаторской способности Главнокомандующего Азербайджанской Армии и Президента Азербайджанской Республики Ильхама Алиева, который с применением новой тактики и новых средств, принес новшества в современное военное искусство мира.

*Ключевые слова*: Кероглу, отважные сыновья, возвращение, VII съезд, возрождение, Партия Новый Азербайджан, Контракт века, Великая Отечественная Война, Совет Безопасности ООН.

**IBRAHIM ZEYNALOV**
*Professor of Baku State University*

## RESTORATION OF THE TERRITORIAL INTEGRITY OF AZERBAIJAN AND HISTORICAL JUSTICE IS ASSOCIATED WITH THE NAME OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ILHAM ALIYEV

The scientific article examines the prerequisites for a brilliant historical victory achieved in the 44-day Patriotic War. The article, first of all, studies the role of a comprehensively developed economy and high socio - economic results achieved during the period of independent state building in Azerbaijan, the founder of which is the National Leader Haydar Aliyev. Further, there is examined the role of a strong state budget, brilliant army building, solidarity of all political forces and the generation of Azerbaijani society around the policy of President Ilham Aliyev, a strong leader who wrote new pages in the history of modern diplomacy and statehood.

The scientific article also illustrates the role of the events held in Azerbaijan in 1969-1982, 1993-2003 and the last 17 years, in preparing the ground for the return of lands and restoration of the territorial integrity of Azerbaijan. Further, there are clarified achievements of military soldiers and officers of Azerbaijan. It confirms the high organizational ability of the Commander-in-Chief of the Azerbaijan Army and President of the Republic of Azerbaijan Ilham Aliyev, who, using new tactics and new means, brought innovations to the modern military art of the world.

*Keywords*: Koroglu, brave sons, homecoming, VII Congress, revival, New Azerbaijan Party, Contract of the Century, Great Patriotic War, UN Security Council.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24)**

**HƏSƏN SƏFƏRİ**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*"Cənubi Azərbaycan" şöbəsi, tarix üzrə fəlsəfə doktoru*
**seferihesen@gmail.com**

# XX ƏSR CƏNUBİ AZƏRBAYCAN AZADLIQ HƏRƏKATLARINDA ŞEYX MƏHƏMMƏD XİYABANİNİN YERİ

*Məqalədə Cənubi Azərbaycanın Birinci Dünya müharibəsindən sonra muxtariyyət əldə etmək uğrunda hərkətə başlaması araşdırılıb. Bölgədə mürəkkəb ictimai-siyasi vəziyyətin hökm sürürməsinə baxmayaraq, Təbrizdə başlanan xalq hərəkatına Azərbaycan Demokrat Firqəsi və onun başçısı Ş.M.Xiyabani rəhbərlik etməyə başladı. 1920-ci il aprelin 7-də Təbrizdə üsyan qalib gəldi və hakimiyyət demokratların əlinə keçdi və Azadıstan dövləti yaradıldı. Lakin bütün bunlara rəğmən Azadıstan dövlətinin ömrü çox uzun sürmədi. Sentyabrın əvvəllərində yeni vali Hidayət Müxbirisəltənə Təbrizə gəlib və bir müddət sonra Xiyabaniyə qarşı dörd günlük döyüş baş verdi sentyabrın 14-də Xiyabaninin öldürülməsi ilə hərəkat məğlub oldu.*

*Açar sözlər*: Cənubi Azərbaycan, Xiyabani, Təbriz, ADF, azadlıq hərəkatı.

*Giriş*. Cənubi Azərbaycan XX əsrin əvvəllərindən azadlıq hərəkatlarının beşiyinə çevrilmişdi. Hələ 1907-1911-ci illərdə Cənubi Azərbaycan, xüsusilə Təbriz Məşrutə hərəkatında aparıcı rol oynamağa başladı. Səttar xan və Bağır xanın ətrafına toplaşan mücahidlər və azadxahlar konstitusiya uğrunda böyük bir hərəkat başlatsalar da, həmin hərəkat sonda yatırıldı. Cənubi Azərbaycan həmin hərəkatda istədiyi hüquqları tam şəkildə əldə edə bilmədiyinə görə, üstəlik ölkəyə xarici müdaxilələr burada ciddi narazılıqlara səbəb olurdu. Belə şəraitdə bundan öncə Səttar xanın ətrafına toplaşan və həmin hərəkatda yetişən azadxahlar və mücahidlər, eləcə də Cənubi Azərbaycanın ziyalıları I Dünya müharibəsi illərində Şeyx Məhəmməd Xiyabaninin ətrafına toplaşmaqla Cənubi Azərbaycanda yeni azadlıq hərəkatına başladılar. İngiltərənin ölkəyə müdaxilə etməsinə qarşı çıxmaqla başlanan bu hərəkat sonda Cənubi Azərbaycanda Azadistan adı ilə muxtariyyət məsələsini gündəmə gətirdi.

*I. Şeyx Məhəmməd Xiyabani hərəkatının başlanması*. Cənubi Azərbaycanın başçılıq etdiyi Məşrutə hərəkatı məğlubiyyətə uğradılıb və qarşıya qoyulan məqsədlərə tam nail olmağa imkan verilmədiyi üçün Cənubi Azərbaycanda narazılıq davam edirdi. Belə şəraitdə Birinci Dünya müharibəsinin başlanması ilə Cənubi Azərbaycan Antanta və Üçlər İttifaqının (daha sonra Dördlər) müharibə meydanına çevrildi. Bu isə vəziyyəti bir qədər də ağırlaşdırdı. Qacarlar xarici ölkələrin müdaxiləsinin qarşısını almaqda aciz olduğu kimi, Cənubi Azərbaycanda baş qaldıran Şeyx Məhəmməd Xiyabani hərəkatı da xarici ölkələrin, xüsusilə Rusiya və İngiltərənin müdaxilələri qarşısında gücsüz idi. Osmanlı dövləti ilə dil tapmaq istəməyən Ş.M.Xiyabaninin başlatdığı hərəkata Osmanlı qoşununun Azərbaycana, xüsusilə Təbrizə daxil olması da öz təsirini göstərirdi. Belə ki, Osmanlı qüvvələri 1918-ci ilin iyul ayında Xiyabanini qısa müddətə hətta sürgünə aparmışlar (1, s.47) Qeyd edilən mürəkkəb şəraitdə Ş.M.Xiyabani Güney Azərbaycanda milli azadlıq hərəkatı başlatmışdı və ilk dövrlərdən artıq hərəkatın əsas aparıcı qüvvəsi olan Azərbaycan Demokrat Firqəsinin (ADF) əsası qoyulmaqda idi. "Təbrizdən və Azərbaycanın digər şəhərlərindən seçilib konfransa gələn nümayəndələrin sayı 480 nəfərə çatmışdı. Konfrans 1917-ci il avqust ayının axırlarında keçirildi. Bir neçə gün davam edib 7 maddədən ibarət bir qərar qəbul edildi. Beləliklə, Azərbaycan Demokrat Firqəsi (ADF) yarandı" (2, s.40).

Hərəkat yenicə başlayarkən çar Rusiyasında 1917-ci il fevral inqilabı baş verdi və nəticədə rusların Cənubi Azərbaycanda siyasi proseslərə müdaxiləsi zəiflədi. Yaranan şəraitdən istifadə edən Ş.M.Xiyabani və silahdaşları ADF-ni yaradandan sonra onu genişləndirməkdə ciddi maneə ilə qarşılaşmadılar. Rus qoşununun Cənubi Azərbaycandan çıxması ilə "ADF Cənubi Azərbaycanda açıq fəaliyyətə başlayıb, Təbrizin məhəllələrində, Sarab, Ərdəbil, Zəncan, Urmiya, Miyana və s. şəhərlərdə öz şöbələrini yaratdı" (3, s.141). Tezliklə Ş.M.Xiyabani əslində ADF-nin orqanı da hesab edilən "Təcəddüd" qəzetini təsis etməklə inqilabi düşüncəni yaymağa başladı.

Hər növ xarici müdaxiləyə qarşı olan Ş.M.Xiyabani və yenicə yaranmaqda olan ADF Təbrizdə çar Rusiyasının azadlıq mücahidlərini edam etmələri ilə əlaqədar 1917-ci il 16 iyunda ümumi matəm günü elan etmişdilər. ADF fəalları, əhali, eləcə də rus konsul və zabitlərinin də iştirakı ilə (Rusiyada

Fevral inqilabı nəticəsində yaranmış Müvəqqəti Hökumətin nümayəndələri nəzərdə tutulur-H.S.) Leylava, Xiyaban və Nobər qəbiristanlıqlarında azadlıq yolunun mücahidlərinin məzarını ziyarət etmişdilər. Ş.M.Xiyabaninin xarici qüvvələrə üz verməməsinə baxmayaraq matəm mərasimindən sonra rus inqilabçılarla Təbrizdə bəzi inqilabçı qüvvələrin istəyi əsasında dostluq bəyanatı yayılmışdı (3, s.142). Lakin bu həmrəylik nümayişi ancaq həmin rus inqilabçılarla məhdudlaşdı və 1917-ci il oktyabr çevrilişindən sonra onları əvəz edən bolşevik ruslarla davam etdirilmədi. Xüsusilə "Xaricilərin, istər ingilis, istər rus olsun, İranın daxili işlərinə müdaxiləyə haqqı olmadığını bildirən Xiyabaninin əgər bolşeviklər İran ərazisinin hər hansı bir hissəsini qəsb etməyə cəhd göstərərlərsə İran azərbaycanlıları son damla qanına qədər onların əleyhinə vuraşacaqlar bəyanatı Təbriz üsyanı başçısının Sovet Rusiyası ilə münasibətlərinə qəti nöqtə qoyurdu" (4, s.105).

Ümumiyyətlə, Ş.M.Xiyabani Cənubi Azərbaycanda milli azadlıq hərəkatına başçılıq etməklə yanaşı həm də bütün xarici qüvvələrin, xüsusilə imperialist ölkələrin Cənubi Azərbaycanın daxili işlərinə qarışmasına kəskin şəkildə qarşı olduğu üçün rəhbərlik etdiyi hərəkatın bir növ antiimperialist xarakteri daşıdığını da görmək mümkündür. Ümumiyyətlə demək olar ki, "üsyanın əsas hədəflərindən biri (daha düzgün desək – birinci hədəfi) İranda ağalıq edən ingilis imperialistləri, onların ölkədəki qəsbkarlıq siyasəti idi. Üsyanın qələbə çaldığı gün – aprelin 7-də Xiyabaninin Təbriz əhalisi qarşısında söylədiyi aşağıdakı sözləri də hərəkatın antiimperialist mahiyyətini aydınlığı ilə göstərirdi. "Bu gün bütün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqüddövlə və inglislərlə talançı saziş bağlamış hökumət əleyhinə üsyan etmişik" (5, s.51).

Ş.M.Xiyabaninin özünəməxsus fikirlərinin olması, eləcə də daşıdığı fikirdən hər növ yayınmağa qarşı olması hərəkatın iştirakçılarından olan Seyid Əhməd Kəsrəvi tərəfindən tənqid edilirdi. O, Ş.M.Xiyabaninin arzu olunmayan şəxslərə partiya və idarəçilikdə daha çox üstünlük verməsi üzündən demokratlar arasında ixtilaf yarandığı və özünün (Kəsrəvinin-H.S.) də müxalif qismində iştirakı ilə demokratların artıq iki qrupa ayrıldığını qeyd edib (6, s.848). Lakin bütün bunlara baxmayaraq Ş.M.Xiyabani özü hərəkatının ictimai-siyasi və ideoloji əsaslarını hazırlamışdı və bu hərəkata başçılıq edəcək bir təşkilat-Azərbaycan Demokrati Partiyasını yaratmışdı. Buna görə də təbiidir ki, Təbrizdə olan az saylı kommunistlərə geniş demokratik azadlıqlar və fəaliyyət meydanı vermirdi (4, s.106).

Ş.M.Xiyabaninin bolşeviklərə qarşı olmasını Xiyabaniyə müxalif olan S.Ə.Kəsrəvi İngiltərənin bir dəfə Xiyabaniyə maliyyə yardımı ayırması ilə əlaqələndirmək istəyir. Lakin Kəsrəvinin bu iddiasının Xiyabani ilə ixtilafı üzündən qərəzlə yazdığı ehtimal edilir. Çünki, Ş.M.Xiyabaninin başlatdığı hərəkatın əsas hədəflərindən biri imperialist dövlətlərin təkcə Cənubi Azərbaycan deyil bütün İrana müdaxiləsinin qarşısını almaq olub. Hətta Xiyabani İranın cənubu və s. bölgələrində ingilislərin tərəfdarı olan qruplara da əhalinin qoşulmasını yaxşı qarşılamayıb və ingilislərə qarşı çıxan s. bölgə əhalisinin üsyanına da qucaq açırdı (3, s.156-157).

Ş.M.Xiyabani təkcə bolşeviklər və ingilislərlə deyil, ümumiyyətlə bütün xarici güclərlə razılaşmırdı. Belə ki, "Gilan Sovet Respublikası qoşunları adı altında Sovet Ordusunun Zəncana doğru irəliləyib, Xiyabaniya işbirliyi təklif edəndə o, bu təklifi geri çevirmiş, bu qoşunların Azərbaycanın içərisinə doğru irəliləməsinə qəti etirazını bildirmişdir. Bundan başqa Arazın güneyində yerləşmiş Abbasqulu bəy Şadlinskinin atlı dəstələrinin, eləcə də Mustafa Kamal Paşanın yardım təklifini rədd etmişdir" (7, s.148).

Ş.M.Xiyabani hətta Osmanlı tərəfindən tutulanda da, dindirilmə zamanı sulları cavablandırmır və türk dövlətinin islam birliyi çağırışına müsbət cavab vermirdi. O bu məsələdə o qədər qatı fikirləşiridi ki, yanılaraq cavab verirdi: "Sizin danışdığınız islam İngiltərənin formalaşdırdığı islamdı. Mən İslam Birliyi Təşkilatının arxasında İngiltərə siyasətinin əlini müşahidə edirəm" (3, s.140). O bir dəfə də Osmanlı ordusunun komandanına demişdi ki, "Təbriz təbrizlilərindir və binganələrə bu şəhərdə yer yoxdur" (3, s.140). Sözsüz ki, Ş.M.Xiyabaninin Türkiyənin yardım təklifini geri çevirməsini çox böyük səhv hesab etmək olar. Çünki, onsuz da Rusiya və Qərb dövlətlərinin öz maraqları üçün Cənubi Azərbaycanı nüfuzları altına almaq istədiyi bir vaxtda Ş.M.Xiyabaninin heç olmasa Osmanlı kimi güclü bir dayağı olması bu hərəkatın uğur qazanmasını sığortalaya bilərdi. Lakin Xiyabaninin Osmanlı dövləti və onunla əməkdaşlıqdan imtina etməsi hərəkatın rəhbərlərinin sürgün edilməsinə səbəb oldu. "Təbriz Demokrat Firqəsinin liderlərindən Şeyx Məhəmməd Xiyabani, Mirzə

İsmayıl Noubəri və Hacı Məhəmmədəli Badamçı bir neçə gün qabaq Təbrizdə osmanlılar tərəfindən tutulmuş və Urmuya gətirilmişdilər. Onları ordunun qərargahında saxlayır, kimsənin onlarla görüşməsinə icazə vermirdilər" (8, s.164). Bir müddət ordu qərargahında saxlanılan Şeyx Məhəmməd Xiyabani, Mirzə İsmayıl Noubəri və Hacı Məhəmmədəli Badamçını xüsusi qoruma altında Təbrizə apardılar. Sonradan məlum oldu ki, onları Xəlil paşanın saxlanıldığı Qarsa aparmışlar (8, s.169). Bu məsələ isə demokratların bir müddət başsız qalmasına gətirib çıxardı. Lakin onların sərbəst buraxılıb Təbrizə qayıtdıqdan sonra başlatdıqları hərəkatı qısa müddətdə nəticəyə çatdırmağa çalışdılar.

Qeyd edildiyi kimi Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda olduqca acınacaqlı vəziyyət hökm sürüdü. Ümumiyyətlə Cənubi Azərbaycannın bütün bölgələri xarici müdaxiləyə məruz qalmışdı. Lakin Cənubi Azərbaycanın qərb bölgəsində həm xarici müdaxilə, həm də ermənilərlə aysorların əhalini soyqırıma məruz qoyması və bu bölgəni işğal etmə cəhdlərindən əlavə kürdlərin Şəkkak tayfasının başçısı İsmayıl ağa Smitqo da əsasən Cənubi Azərbaycanın qərb bölgəsini talayıb, dəhşətli qırğınlar törədirdi (9, s.492). Bu acınacaqlı vəziyyətin hökm sürməsinə baxmayaraq Cənubi Azərbaycanda milli azadlıq hərəkatı sürətlə güclənirdi. Belə ağır şəraitdə hərəkatın fəalları, başda Ş.M.Xiyabani olmaqla Azadistan dövlətini qurdular.

*II. Şeyx Məhəmməd Xiyaninin qurduğu Azadistan dövlətinin fəaliyyəti və süqutu.* Ş.M.Xiyabaninin başçılığı ilə Cənubi Azərbaycanda Azadistan dövləti elan ediləndən sonra qısa müddətli böyük işlər görüldü. Həmin dövrdə görüləcək işlərin proqramını hazırlamaq və icra etmək üçün hökumət komissiyası yaradılmışdı. Lakin xarici müdaxilələr, erməni və aysorların Cənubi Azərbaycanın qərb bölgəsində soyqırım törətməsi hərəkatı zəiflətməkdə idi. Hərəkatı formalaşdıran Ş.M.Xiyabaninin Urmiya və Salmasda erməni-aysor silahlı dəstələrin Azərbaycanın qərb bölgəsində soyqırım törətməsinin qarşısını almaqda isə əlindən ciddi bir şey gəlmirdi. Yalnız o "vali Möhtəşəm əs səltənəyə təzyiq göstərib kazak dəstələrini Urmiyaya göndərtdirə bildi. Lakin bunun da ciddi nəticəsi olmadı" (1, s.46).

Cənubi Azərbaycanda xarici qüvvələrin, xüsusilə burada Rusiya, İngiltərə, Fransa və ABŞ-ın xarici nümayəndəliklərinin müdaxilələri Azərbaycanı dəhşətli fəlakətlərlə qarşı-qarşı qoyduğuna görə, Cənubi Azərbaycanda qıtlıq meydana gəlmişdi. Baş verəcək daha dəhşətli fəlakətin qarşısını almaq məqsədilə "Azərbaycan Demokrat Komitəsi Azərbaycanın idarəçilik işlərini qaydaya salaraq, Təbriz Ərzaq və İanə Komitəsini təşkil etdi. Azərbaycan Demokrat Komitəsinin Təbriz ətrafında gördüyü işlər nəticəsində Birinci Dünya müharibəsi zamanı Şərqi Azərbaycanda yaranmış gərgin vəziyyət nisbətən sakitləşdi" (10, s.91).

Eyni zamanda Ş.M.Xiyabani və onun rəhbərlik etdiyi ADF qıtlığın daha da kəskinləşməməsi üçün xeyirli tədbirlər görmüş, möhtəkirliyin qarşısını almışdı (1, s.46).

Hərəkatın mərkəzi Təbriz olsa da daha gərgin vəziyyətdə olan Cənubi Azərbaycanın qərbində də ADF-nin şöbəsinin yaradılması və faydalı işlər görülməsi diqqətəlayiq işlərdəndir. "Urmuda bir qrup azadlıqsevər Azərbaycanda ictimai vəziyyətə hərtərəfli nəzarət üçün Azərbaycan Demokrat Firqəsininin Urmiya şöbəsini açdılar. Onlar bu işdə uğur qazandılar, Urmiyada təşkilatın şöbəsini yaratdılar. Azərbaycan Demokratik Firqəsi camaatın düşüncəsini öz milli mənafeyinə yönəldə bildi. Bölgədə kasıbların, yoxsulların və camaatın rifahı üçün çalışdı. Bunun üçün yardım evi yaratdılar, çörəkçi dükanları açdılar" (10, s.107).

Qeyd edildiyi kimi Azadistan dövləti elan olunun kimi lazımı tədbirləri görmək məqsədilə hökumət komissiyası yaradıldı. "Torpaq islahatı, vergi sisteminin ədalətlə nizama salınması, maarif və mədəniyyət məsələləri, ölkədə savadsızlığın ləğvi, qızlar üçün məktəblərin açılması, teatr cəmiyyətinin təşkili, Təbrizdə və bölgələrdə tibb məntəqələrinin təşkili, yeraltı və yerüstü sərvətlərdən səmərəli istifadəsi, milli sənaye, ticarət və iqtisadi quruculuq işləri yaradılmış komissiyanın fəaliyyət proqramına daxil olmuşdur" (11, s.134).

Ş.M.Xiyabani hərəkatı təkcə Cənubi Azərbaycana yox, İrana da çox şey qazandırmışdı. Bu hərəkat vasitəsilə Qacarlar ölkəni demokratikləşdirmə imkanı qazansalar da İngiltərədən asılı vəziyyətə düşdükləri üçün bundan yararlana bilmədilər. Hətta İngiltərənin dəstəyi ilə hərəkatı yatırmaq üçün tədbirlər görməyə başladılar. Təbriz üsyanından təşvişə düşmüş ingilis imperialistləri üsyanın yatırılması planının hazırlanmasında iştirak edirdilər. İngiltərə səfirliyinin siyasi idarə rəisi general Edmond Təbrizə göndərilmişdi. General Edmond da «Tənqidiyyun» qrupu üzvləri, o cümlədən Əhməd Kəsvəri

ilə görüşərək onları üsyançılara qarşı sövq etmişdi" (12, s.182). Belə vəziyyətdə İranda Vüsuqüddövlə hakimiyyətinin süqutundan sonra Müşirüddövlə (Pirniya) baş nazir oldu. O "iki ay çalışdı ki, müzakirə apararaq, Ş.M.Xiyabani ilə razılığa gəlsin. Lakin Xiyabani açıq şəkildə bildirdi ki, dövlət Azadistanı (Azərbaycanı) tanımalıdı. Dövlət Müxbirəssəltənəni (Hidayət) Azərbaycana vali təyin etdiyini Xiyabaniyə deyəndə, o cavab vermişdir ki, ona ehtiyacımız yoxdur və Təbrizə gəlməməlidir" (1, s.43).

Müxbirəssəltənə 1920-ci il sentyabrın 5-də Təbrizə yollandı. Lakin ona Alaqapıya getməyə imkan verilmədi və o Rəşidülmülkün evinə getdi. Xiyabani isə evin ətrafına bir neçə polis gözətçi qoydu ki, onu nəzarətdə saxlasınlar. Müxbirəssəltənə həmçinin "Qaradağ xanı Əmir Ərşədlə anlaşdı ki, o üsyan qaldırsın və Xiyabani nəzarətində olan silahlılarını Qaradağa göndərməyə məcbur olsun, nəticədə isə Azadistan zəifləsin" (3, s.235).

Təbrizdə isə Müxbirəssəltənə on gün müddətinə Xiyabaniyə xəbər göndərib və müzakirə üçün onu yanına çağırırdı. Sonda isə Xiyabaniyə bildirdi ki, o şəhərdən çıxsın. Yoxsa onu şəhərdən zorla çıxaracaqlar. Həmin dövrdə Xiyabaninin ətrafında olanlardan bəziləri də gizlicə Müxbirəssəltənə ilə anlaşdılar. Tehrandan da kazak dəstələrinə teleqrafla göstəriş verilmişdi ki, Müxbirəssəltənəyə tabe olsunlar. Bundan sonra Müxbirəssəltənə kazak dəstələrini silahlandırıb gecə ilə Xiyabaninin xəbəri olmadan Təbrizə göndərdi (1, s.63-64).

Beləliklə, 1920-ci il sentyabrın 12-də komandanı rus olan şahın kazak dəstəsi Təbriz üzərinə yürüşə keçdi. Nəticədə Şeyd Məhəmməd Xiyabani şəhid oldu. Xiyabaninin şəhadəti hətta Qacarların öz məmurlarında belə təəssüf hissi doğururdu. Mərkəzi hakimiyyətin Urmiyadakı kargüzarı Rəhmətullah xan Mötəmütəlvüzarə yazırdı: "Sentyabrın 14-də xəbər gəldi ki, kazaklar Şeyx Məhəmməd Xiyabanini şəhid etmişlər. Rusiyaya getmiş Mirzə Tağı xan Rüfət Xiyabaninin şəhid olmasından sonra Sufiyanda intihar etmişdir... Çox təəssüflər olsun ki, şəhid Xiyabani kimi bu qədər vətən və ölkə dərdi çəkən və bir neçə aylıq üsyan ərzində bu cür qayda və qanunla Azərbaycanı idarə etmiş bir şəxsiyyətin ortaya çıxmasından ötrü illər lazım gələcəkdir!" (8, s.278).

Ş.M.Xiyabaninin şəhadətindən ciddi şəkildə üzülən tanınmış Azərbaycan yazıçısı Cəlil Məhəmmədquluzadə isə xalqı daha əzmlə azadlıq yolunda mübarizəyə davam etməyə çağırırdı (3, s.232).

Sentyabrın 13-də Hacı Müxbirüssəltənədən vilayətlərin valilərinə aşağıdakı məzmunda teleqraf göndərilmişdi: "Təbrizə gələndən sonra xoşluqla bəzi şəxslərin qarşısını almağa nə qədər çalışdımsa, alınmadı, nəticədə qüvvədən istifadə etməyə və qarışıqlığın qarşısını almağa məcbur oldum". Teleqrafdan məlum olurdu ki, kazak idarəsi qəflətən Alaqapıya basqın etmiş, oradakı firqə tüfəngçilərinin bir neçəsini öldürmüş, qalanlarını tutmuş, bəziləri isə qaçmışlar. Bu arada firqənin möhtərəm şəxslərinin evlərinə basqın edilmiş, 300 ev qarət olunmuş, bir neçə nəfər tutulmuşdur. Hətta orta məktəbi qarət etmişdilər (8, s.278).

Ş.M.Xiyabaninin başlatdığı hərəkat milli-demokratik xarakter daşıdığı üçün Seyd Əhməd Kəsrəvi kimi antimilli şəxslər bu hərəkat haqqında mənfi fikirlər yazsa da, bu hərəkat və Ş.M.Xiyabani haqqında yüksək fikirlər söylənilmişdir. Azərbaycan Xalq Cümhiriyyətinin İrandakı ilk səfiri Adil xan Ziyadxan 1920-ci ilin mart ayının başlarında Güney Azərbaycandakı siyasi durum haqqında yazırdı: "İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Respublikasına birləşmək istiqamətində hələ zəif də olsa, təbliğat gedir. Azərbaycan Respublikası yaxın gələcəkdə İranda baş verəcək hadisələrə hazır olmalıdı" (7, s.146).

Seyid Cəfər Pişəvəri Ş.M.Xiyabanini böyük mütəfəkkir adlandıraraq, onun başlatdığı hərəkatını dəyərləndirərkən bildirmişdir: "Təəssüflə qeyd etməliyəm ki, Şeyxin yaşadığı mühit münasib deyildir. O zaman azadlıq yolunun mücahidləri hələ sınaqdan çıxmamışdılar. Şeyx özü inam və etiqadla mübarizə aparırdı. Lakin bəzən onun dostları və silahdaşları arasında onunla əməkdaşlıq edən və arxadan ona zərbə vuranlar var idi. Mənim fikrimcə Şeyxin qiyamının sonunun necə qurtarmasından asılı olmayaraq İranda çox böyük əhəmiyyətə malikdir. Bizim hərəkatımız o hərəkatın davamıdır" (13, s.186).

Eyni zamandan səfir Adil xan Ziyadxan 1920-ci il aprelin 12-də xarici işlər nazirinə yazdığı məktub Təbrizdəki hadisəıərə onun marağını göstərirdi: "İran azərbaycanlıları açıq deyirlər ki, Azərbaycan azərbaycanlılar üçündür və nə vaxta qədər Tehrandan göndərilən fars hakimlərini dolandıracağıq. Onların yeganə məqsədi bədbəxt Azərbaycan xalqının şirəsini sormaqdan, qarət olunmuş xalq pulları ilə Tehranda saraylar tikib, bağ salmaqdan ibarətdir" (7, s.147).

Beləliklə, Ş.M.Xiyabaninin rəhbərliyi ilə başladılan milli azadlıq hərəkatı, İranın göndərdiyi valinin Cənubi Azərbaycanda müxtəlif qüvvələr arasında ixtilaf salmaq, eləcə də, kazak dəstələrini hərəkata qarşı səfərbər etməklə hərəkatı yatıra bildi. Sözsüz ki, Xiyabaninin Osmanlı kimi güclü dövlətlə dil tapa bilməməsi, xalqın isə Xiyabanini daha ciddi şəkildə müdafiə etməyə hazır olmaması hərəkatın məğlubiyyətində təsirsiz olmamışdır. Lakin bu hərəkat yatırılsa da Güney Azərbaycanda özündən sonrakı hərəkatlara ideya qaynağı olmuşdur.

*Nəticə*. Ş.M.Xiyabaninin başlatdığı hərəkatın növbəti mərhələlərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatlarının başlanmasına ideya qaynağı olması baxımdan öyrənilməsi bu gün də öz aktuallığını saxlamaqdadı. Bu nöqteyi-nəzərdən Ş.M.Xiyabaninin başlatdığı hərəkat, onun Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatında yeri, eləcə də bu hərəkatın zəif cəhətləri və məğlub olma səbəblərinin öyrənilib, təhlil edilməsi, hazırda Cənubi Azərbaycanda davam edən milli azadlıq hərəkatının möhkəm təməllər üzərində davam edib, əvvəlki hərəkatların səhvlərini təkrarlamaması baxımından da böyük əhəmiyyət kəsb edir. Eyni zamanda Ş.M.Xiyabaninin regionun güclü dövlətlərindən biri olan Osmanlı, eləcə də Azərbaycanın şimalında Azərbaycan Xalq Cümhuriyyəti ilə müttəfiqlik yerinə onlarla əməkdaşlıqdan imtina etməsi və onun bütün dost ölkələrə qapıları bağlamasının hərəkatın məlubiyyətində mühüm rol oynamasının üzə çıxarılması tədqiqat işinin elmi yenilyi hesab edilir. Bu amillə yanaşı Ş.M.Xiyabaninin mərkəzi hakimiyyətin bir sıra yerli qüvvələri ələ alıb, çevrilişlə hərəkatı məğlubiyyətə uğratma planını diqqətə almaması hərəkatın məğlub edilməsində mühüm rol oynamışdı.

## ƏDƏBİYYAT


1. احمد کسروی، قیام شیخ محمد خیابانی، تهران، نشر مرکز، 1376، 176 ص.
2. Məmmədli Q. Şeyx Məhəmməd Xiyabani haqqında, Azadlıq uğrunda mübarizə tarixindən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011, 232 s.
3. عبدالحسین ناهیدی آذر، جنبش آزادستان شیخ محمد خیابانی، تبریز، نشر اختر، 1379، 320 ص.
4. Rüstəmova-Tohidi S. Kominternin Xiyabani hərəkatına münasibəti, Azadlıq uğrunda mübarizə tarixindən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011, 232 s.
5. Tağıyeva Ş. Üsyanın başlanması, ictimai idarə heyətinin yaranması, Azadlıq uğrunda mübarizə tarixindən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011, 232 s.
6. سید احمد کسروي، تاریخ 18 ساله آذربایجان، چاپ 5، تهران، نشر امیرکبیر ، 1350، 919 ص.
7. Nəsibli N. Güneyli-quzeyli məsələlərimiz. Bakı, Aypara 3, 2003, 262 s.
8. Mötəmiəlvüzarə R. Urmu dünyanı yandıran müharibədə. Bakı, Nurlar, 2017, 384 s.
9. محمدامین ریاحی، تاریخ خوی (سیر تحولات اجتماعی و فرهنگی شهرهای ایران در طی قرون)، تهران، انتشارات طرح نو، 1378، 603 ص.
10. Məlikzadə T.D. Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində-soyqırımı. Bakı, Bakı Çap Evi, 2010, 260 s.
11. Rəhimli Bije Ə. XX əsr Güney Azərbaycan azadlıq hərəkatında Ş.M.Xiyabaninin yeri və rolu, Azadlıq uğrunda mübarizə tarixindən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011, 232 s.
12. Əmrahov M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı, ADPU nəşriyyatı, 2009, 371 s.
13. آوازخان رقص بردگان- گزیده ای از سخنرانیها و مقالات سید جعفر پیشه وری (1324-1325)، انتشارات منجنیق، تهران، 2015، 230 ص.


**ГАСАН САФАРИ**

*Отделение «Южный Азербайджан» Института востоковедения им. Акад.З.М.Бунядова, доктор философии по истории*

## РОЛЬ ШЕЙКА МАХАММЕДА ХИЯБАНИ В БОРЬБЕ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В XX ВЕКЕ

В статье исследуется вопрос обретения Южным Азербайджаном автономии после Первой мировой войны. Несмотря на продолжающееся осложняющее социально-политическое дело, народное восстание в Тебризе возглавлялось Демократической партией Азербайджана и

лидером Хиябани. 7 апреля 1920 г. в Тебризе победа одержала победу, и преимущество было в руках демократов. Но, тем не менее, государство свободы прожило недолго. В начале сентября в Тебриз прибыл новый правитель Хидаят Мухбусалтана, и какое-то время происходило дневное сражение с Хиябани. 14 сентября в результате этой битвы Хиябани покончил с собой, а революция потерпела поражение.

*Ключевые слова*: Южный Азербайджан, Хиябани, Тебриз, АДП, автономия.

**HASSAN SAFARİ**
*"South Azerbaijan" department of Institute of Oriental Studied*
*Named after Acad.Z.M.Bunyadov, Doctor of Philosophy in History*

## THE ROLE OF SHEYK MAHAMMED KHIYABANI IN THE STRUGGLE OF SOUTHERN AZERBAIJAN IN THE 20TH CENTURY

There was investigated to get autonomy of Southern Azerbaijan after the first world war in the article. Despite of continuing of the complicating social-political case the folk revolt happening in Tabriz was heading under of Azerbaijan Democratic Party and leader Khiyabani. On 1920 april 7 the revolt won in Tabriz and the awthority was in the hand democrats. But nevertheless the liberty state lived not long. In the beginning of september a new governor Hidayat Mukhbusaltana came to Tabriz and for a while there was abour-day battle against Khiyabani. In the 14 of September as a result of this battle Khiyabani was suicided and revolution was defeated.

*Keywords*: South Azerbaijan, Khiyabani, Tabriz, ADP, autonomy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Vaqif Abışov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 327; UOT 94(479.24)**

**SEVİNC SEYİDOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*tarix üzrə emlər doktoru*
**seyidovasevinj7@gmail.com**

# HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT KURSU BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIĞIN STRATEGİYASIDIR(1993-2003-CÜ İLLƏR)

*Məqalədə 1993-cü ilin ortalarında Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, Azərbaycanın xarici siyasət strategiyasının kökündən dəyişməyə başlaması, H.Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasət yeritməsi kimi məsələlər tədqiq edilmişdir. Məhz H.Əliyevin yürütdüyü bu çoxşaxəli, fəal xarici siyasət nəticəsində ölkəmiz dünya birliyinə inteqrasiya etmiş və hal-hazırda respublikamız dünyanın siyasi xəritəsində mühüm yer tutur. İndi bu siyasət Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən davam etdirilir.*

*Açar sözlər*: Heydər Əliyev, İlham Əliyev, xarici siyasət, Azərbaycan, Ermənistan, münaqişə.

*Giriş*. Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq mühüm yer tutur. Çox mühüm coğrafi-strateji məkanda yerləşən, zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi olan Azərbaycan bu təşkilatlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün müstəqil fəal xarici siyasət yeridir.

1991-ci ildən etibarən dövlət müstəqilliyini bərpa edən Azərbaycanın yeritdiyi bu siyasət ilk növbədə milli mənafeləri qorumaq, dövlətçiliyi möhkəmləndirmək, təhlükəsizliyin təmin olunması istiqamətinə yönəldilmişdir. Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyytələri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin çıxışlarında və Azərbaycanın Respublikasının Konstitusiyasında (12 noyabr 1995-ci il,7.2,10-cu maddələr) əks olunmuşdur[1, s.10-13].

*1.Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığını şərtləndirən və Azərbaycanın xarici siyasətinin əsas prinsiplərindən irəli gələn amillər.* 1993-cü ilin ortalarında Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, Azərbaycanın xarici siyasət strategiyası kökündən dəyişməyə başladı [4, s.227]. 1993-cü il oktyabrın 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında Heydər Əliyev qeyd etmişdir ki, “Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir” [3, s.205].H.Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünəlayiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır [6, s.164].

Azərbaycan Respublikasının özünəməxsus xüsusiyyətləri ilə seçilən xarici siyasətini ümummilli lider H.Əliyev aşağıdakı şəkildə ifadə etmişdir: “….bizim xarici siyasətimiz, sülhsevən siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqililiyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq” [3, s.205].

Azərbaycanın xarici siyasətinin yuxarıda qeyd edilən səciyyəvi xüsusiyyətləri ilə yanaşı, aşağıdakı mühüm amillərin də olması zəruri hesab edilmişdir:

- beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf tendensiyasına uyğun çevik, praqmatik və tarazlı siyasət yeridilməsi;

- qonşu ölkələrlə əlaqələr qurulmasına üstün yer verilməsi;
- dünya siyasətinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə əməkdaşlıq (partnyorluq) münasibətlərinin yaradılmasının ön plana çıxarılması, onların maraqları ilə Azərbaycanın strateji mənafelərinin uzlaşdırılması zəruriyyəti [6, s.165].

Müstəqil Azərbaycan Respublikasının xarici siyasəti demokratik prinsiplər əsasında qurulduğu üçün dini və etnik məhdudiyyətləri rədd edir, beynəlxalq normalardan kənara çıxmır. Beynəlxalq aləmdə beynəlxalq münasibətlər, dövlətlərarası münasibətlər etnik və milli birlik, həmçinin dini amillər üzərində deyil, tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminat əsasında qurulur [6, s.165]. Hərçənd bu amili tamamilə inkar etmək düzgün deyildir. Şübhəsiz ki, dövətlərarası münasibətlərə bu da öz təsirini göstərir. Lakin çox zaman dini, etnik amillərə üstünlük vermiş dövlətlər beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi ilə rastlaşır. Müasir dövrdə dövlətlər bərabərhüquqlu, qarşılıqlı – faydalı əməkdaşlığa əsaslandırılmış münasibətlər qurmağa üstünlük verirlər. Bu şəkildə qurulmaş münasibətlər dünya inteqrasiyası istiqamətində inkişaf etməyə kömək edir. Məhz Azərbaycanın xarici siyasətini də bu amillər xarakterizə edir. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika olduğu üçün (maddə 7.1) xarici məsələlərdə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır (maddə 7.2.) [1, s.10-11]. Yəni Azərbaycan Respublikası öz xarici siyasətini qurarkən beynəlxalq hüququn aşağıdakı norma və prinsiplərini əsas tutur:

1. Dövlətlərin bir-birinin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquq normalarına uyğun olaraq üzərinə götürdüyü öhdəliklərə əməl etmək.
2. Dövlətlərin ərazi bütövlüyünün və müstəqilliyinin toxunulmazlığı, dövlətlər arasında yaranan mübahisələrin dinc yolla həll edilməsi.
3. Dövlətlər arasında qarşılıqlı təhlükəsizliyi qoruyaraq siyasi, iqtisadi və mədəni əməkdaşlığı həyata keçirmək.
4. Dövlətlərlə qarşılıqlı əlaqələri yaradarkən beynəlxalq hüquq normalarına əsaslanmaq, beynəlxalq təşkilatların mənafeyinə toxunmamaq.
5. Dövlətlərin və xalqların təhlükəsizliyini nəzərə alaraq terrorizmə qarşı birgə mübarizə aparmaq.
6. Xalqların və millətlərin öz müqəddəratını təyin etməsinə hörmətlə yanaşaraq, insan hüquqları və haqlarının tapdalanmasına yol verməmək.
7. Qlobal problemlərin həlli üçün dünya dövlətləri ilə birgə əməkdaşlıq etmək və s. [2, s.91].

Azərbaycan Respublikasının xarici siyasətinin yuxarıdakı əsas prinsipləri beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərdir ki, bunlar da BMT-nin Nizamnaməsində, ATƏM-in "Helsinski aktında" və "Paris xartiyasında" göstərilmişdir. Bu beynəlxalq prinsiplər beynəlxalq təşkilatların üzvü olan bütün dövlətlər üçün məcburidir. Müasir dövrdə beynəlxalq təşkilatlar, dünya dövlətləri, ATƏM-in Helsinki Aktında (1975-ci il), "Paris Xartiyasında (1990-cı il)" göstərilən prinsip və normaları qorumağa, həmçinin onlara əməl etməyə borcludurlar [6, s.166].Müstəqil Azərbaycan dövləti tarazlaşdırılmış, balanslı və çoxşaxəli xarici siyasət yeridir, yəni Azərbaycan istər regionun, istərsə də dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqələri inkiaşf etdirmək siyasətinə üstünlük verir. Balanslı xarici siyasət yeridən Azərbaycan Respublikası ilk növbədə özünün geosiyasi mövqeyi, ictimai-siyasi və mənəvi-psixoloji inkişaf xüsusiyyətlərini nəzərə alır, mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermir, lakin Qərb və Şərqin dəyərlərindən istifadə edir.Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev tərəfindən təməli qoyulmuş balanslaşdırılmış xarici siyasət ilk növbədə Azərbaycan ərazisinin dünyanın güclü dövlətləri tərəfindən geosiyasi rəqabət meydanına çevrilməməsinin qarşısını almaq məqsədi daşımış və buna yol verilməmişdir. Həmçinin Azərbaycana qarşı «ikili standart» yanaşmalarının yolverilməzliyi məsələsi fikri də ilk dəfə H.Əliyev tərəfindən səsləndirilmişdir [5]. "İkili standart" - insanlara, xalqlara, dövlətlərə, dinlərə, irqlərə və digər insan toplularına eyni gözlə baxmamaq, onları fərqli qiymətləndirmək, haqqı, ədaləti birinin xeyrinə və digərinin ziyanına şərh etmək, pozmaq deməkdir. Siyasətdə böyük dövlətlərin kiçik dövlətlərə qarşı, ümumiyyətlə bir dövlətin digər dövlətə qarşı qərəzli yanaşması «ikili standarta» xas olan cəhətdir. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq ümummilli lider H.Əliyev Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinində Azərbaycana qarşı "ikili standart" yanaşmalarının, həmçinin 1991-1993-cü illərin ortalarına qədər xarici siyasətdə yol veril-

miş kobud səhvlərin aradan qaldırılmasına başlamışdır. O, həmçinin müxtəlif dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq aparılması, Avroatlantik məkana inteqarsiya, sivil Qərb dəyərlərinin mənimsənilməsi məsələlərinin Azərbaycanın xarici siyasət prioritetləri sırasında mühüm yer tutduğunu da bəyan etmişdir [5].

Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetləri sırasında aşağıdakıları da qeyd etmək vacibdir:

-Bölgədə regional səviyyədə sabitliyin bərqərar edilməsi;

-Ölkə iqtisadiyyatını daha da inkişaf etdirmək üçün əməkdaşlıq layihələrinə qoşulmaq, xarici sərmayələrin cəlb edilməsi;

-Dünya dövlətləri ilə müxtəlif sahələrdə geniş əməkdaşlıq münasibətlərinin qurulması;

-Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması[6,s.168].

*2.İ.Əliyev H.Əliyev kursunun layiqli davamçısı kimi.* Azərbaycan istər qonşu, istərsə də digər ölkələrlə həm ikitərəfli, həm də çox tərəfli münasibətlər qurur. Bu məqsədlə Azərbaycan müxtəlif layihələrdə fəal iştirak edir və xarici sərmayələrin ölkəyə cəlb edilməsində maraqlıdır. Azərbaycan Respublikasının xarici siyasəti Azərbaycanın milli mənafeyinə və milli maraqlarına xidmət edir və bu da Azərbaycanın ümummilli lideri H.Əliyevin əvəzsiz xidmətləri ilə bağlıdır. Azərbaycanın xarici siyasət kursunun formalaşması prosesi respublikada müstəqil dövlət quruculuğu prosesi ilə bərabər getmişdir. İlk andan Azərbaycanın xarici siyasətinin təməl prinsiplərinin əsasında dünya dövlətləri ilə bərabərhüquqlu əlaqələr, «ikili standartlara» qarşı mübarizə, milli mənafelərin qorunması məsələləri durmuşdur.

Hakimiyyətə gəldiyi ilk gündən Azərbaycanın xarici siyasətində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin prioritet kimi irəli sürdüyü məqsədlər sırasında aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

- Ermənistanın dünya miqyasında təcavüzkar dövlət kimi tanınmasına nail olmaq və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək;
- dünya siyasətinin istiqamətləndirən iri dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək;
- beynəlxalq ictimaiyyətdə respublikamızda həyata keçirilən mütərəqqi ruhlu iqtisadi və demokratik islahatlar barədə dolğun təsəvvür yaratmaq;
- xaricdə güclü diaspor və lobbi formalaşdırmaq [6,s.168].

Özünün müstəqilik və dövlətçilik mənafelərini qorumaq və bu yolda qarşıya çıxan bütün problemləri həll etmək üçün Azərbaycan beynəlxalq və regional təşkilatlara sıx əməkdaşlıq edir və böyük dünya siyasətinə qatılırdı. Azərbaycanın BMT, Avropa Şurası, ATƏT, MDB, Avropa Birliyi, İKT və digər beynəlxalq və regional təşkilatlara əməkdaşlığı onun dünya birliyinə inteqrasiyası demək idi. Azərbaycanın geosiyası və geoiqtisadi maraqlarını, əsas strateji həyati ehtiyaclarını təmin etmək məqsədilə, ölkənin geosiyasi addımlarını nüfuzlu beynəlxalq və regional dövlətlərin maraqları ilə uzlaşdırmaq lazım idi [6,s.168]. Lakin bu prosesdə Azərbaycan milli və geosiyasi maraqlarının ən vacib, strateji sahələrini hər hansı bir dövlətə güzəştə getməkdən uzaq idi. Bu uğurlu siyasətin nəticəsi olaraq 2020-ci ilin 27 sentyabr-10 noyabrına kimi davam edən 44 günlük müharibə nəticəsində Azərbaycan müharibə yolu ilə özünün tarixi torpaqlarını geri qaytardı və Ermənistan adlı işğalçı dövləti məğlub etdi. Bununla da Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoydu.

*Nəticə.* Yuxarıda sadalanan prioritetlərə üstünlüyün verilməsi Azərbaycanın əsas strateji mənafeləri, geosiyasi və milli maraqları baxımından vacib idi. Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev tərəfindən təməli qoyulmuş balanslaşdırılmış xarici siyasət ilk növbədə Azərbaycan ərazisinin dünyanın güclü dövlətləri tərəfindən geosiyasi rəqabət meydanına çevrilməməsinin qarşısını almaq məqsədi daşımış və buna yol verilməmişdir. 1992-ci ildən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatların müzakirə obyektinə çevrilmişdir. Bu illər ərzində Azərbaycan bir çox nüfuzlu beynəlxalq və regional təşkilatlarla hərtərəfli əlaqələr qurmuş və Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsini bu təşkilatların çərçivəsində sülh yolu ilə həll etməyə çalışmışdır. Ermənistan regionda sülh və sabitlik üçün ən böyük təhlükə olduğu halda, ATƏT-in Minsk Qrupu 30 ilə yaxın məsələyə laqeyd yanaşdı və Azərbaycan Respublikasının ədalətli mövqeyinə qarşı ikili standartları tətbiq etdi. Beləliklə, münaqişənin yeganə həlli yolu məhz müharibə oldu. Yalnız bu yolla Azərbaycan özünün tarixi torpaqlarını qaytara bildi. Azərbaycan Respublikası bu

ərazilərdə məhv edilmiş yaşayış yerlərini bərpa edərək, bir milyona yaxın qaçqın və köçkünləri öz doğma vətənlərinə qaytaracaqdır.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Kitab cəmiyyəti və «Azinterayl» firması, 1996, 125 s.
2.Beynəlxalq hüquq:/Dərslik/ Məsul redaktor və tərcüməçi h.e.n., R.F.Məmmədov. Bakı: Qanun, 2002, 752 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
4.Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri, keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI – Yeni nəşrlər Evi, 2005, 464 s.
5.Məmmədov N. Heydər Əliyevin xarici siyasət konsepsiyası uğurlu bəhrələrini verir / “Azərbaycan” qəz., Bakı, 2011, 14 aprel.
6.Seyidova S.M. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatlarin mövqeyi. Bakı, ADPU-nun nəşriyyatı, 2014, 411s.

**СЕВИНДЖ СЕИДОВА**
*Доктор философии по истории,*
*доцент Азербайджанского Государственного Педагогического Университета*

## ВНЕШНЕПОЛИТИЧЕСКИЙ КУРС ГЕЙДАРА АЛИЕВА - ЭТО СТРАТЕГИЯ СОТРУДНИЧЕСТВА С МЕЖДУНАРОДНЫМИ ОРГАНИЗАЦИЯМИ

В статье рассматривается внешнеполитический курс Гейдара Алиева как стратегия сотрудничества Азербайджанской Республики с международными организациями. Расположенный в очень важном географическом регионе с богатым экономическом потенциалом Азербайджан ведет независимую внешнюю политику. В результате многоплановой, активной внешней политики проводимой Г. Алиевым произошла интеграция нашей страны в мировое сообщество. Наша республика заняла важное место в политической карте. Ныне эта политика продолжается Президентом Азербайджанской Республики И.Алиевым.

*Ключевые слова*: Гейдар Алиев, Ильхам Алиев, внешняя политика, Азербайджан, Армения, конфликт.

**SEVİNJ SEYİDOVA**
*Doctor of Philosophy in History,*
*Associate Professor of Azerbaijan State Pedagogical University*

## HEYDAR ALIYEV’S FOREIGN POLICY IS A STRATEGY FOR COOPERATION WITH INTERNATIONAL ORGANIZATIONS

The article discusses Heydar Aliyev’s foreign policy as a strategy for the cooperation of the Republic of Azerbaijan with international organizations.

Located in a very important geographic region with a rich economic potential, Azerbaijan pursues an independent foreign policy. As a result of a multifaceted, active foreign policy pursued by H. Aliyev, our country's integration into the world community took place. Our republic has took place in the political map. Today, this policy is being continued by President of the Republic of Azerbaijan I.Aliyev.

*Keywords*: Heydar Aliyev, Ilham Aliyev, foreign policy, Azerbaijan, Armenia, conflict.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Oqtay Sultanov, t.e.d. Qabil Əliyev.*

**UOT 94; UOT 327(091)**

**MƏMMƏDAĞA BAXIŞOV**
*Bakı Dövlət Universitetinin dosenti*
**mammadagabakhisov@mail.ru**

# REGİONAL İNTEQRASİYA VƏ ONUN MƏRHƏLƏLƏRİ

*Məqalə Avropa İttifaqının yaranması və inkişafının əsasında dayanan mühüm nəzəri məsələlərə həsr olunmuşdur. Məqalədə regional inteqrasiya, onun xüsusiyyətləri, mərhələləri, əsas vəzifələri və ziddiyyətləri konkret tarixi faktlar əsasında şərh edilir. Müəllif dünyanın başlıca inteqrasiya təşkilatı olan Avropa İttifaqının fəaliyyətinin bünövrəsində dayanan ilkin amillərə xüsusi diqqət yetirir.*

*Açar sözlər*: inteqrasiya, proses, konsepsiya, mərhələ, Gömrük ittifaqı, iqtisadi fayda, qloballaşma, ziddiyyət, Avropa hüququ.

*Giriş*. İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə regional inteqrasiya prosesi başlandı. 1949-cu ildə Qarşılıqlı İqtisadi Yardım Şurası, 1951-ci ildə Avropa Kömür və Polad Birliyi, 1957-ci ildə Avropa İqtisadi Birliyi, 1960-cı ildə Avropa Azad Ticarət Birliyi yaradıldı. Üzvlərindən asılı olmayaraq bu təşkilatları birləşdirən əsas məsələ inteqrasiya prinsipləri əsasında daha sıx əməkdaşlıq idi. Ona görə inteqrasiya anlayışı, prosesin məzmunu və inkişaf mərhələl'ri böyük elmi əhəmiyyət kəsb edir və həmişə diqqət mərkəzindədir.

***

İnteqrasiya latın dilində "inteqr" sözündən olub "ümumi", "bütöv" mənasını verir. Bu cəhətən inteqrasiya həqiqətən yeni dövlətlərarası birliyin yaradılmasını nəzərdə tutur. Regional inteqrasiyanın Avropada və iqtisadiyyat sahəsində başlanması təsadüfi deyil. Eyni zamanda regional inteqrasiyanın bir sıra mühüm əlamətləri mövcuddur. Tədqiqatçılar adətən, onun yeddi əlamətini qeyd edirlər: 1.cəmi müsbətə bərabər olan bir oyundur, çünki hər bir iştirakçıya və bütövlükdə qrupa faydalıdır. Qrupda birləşən dövlətlər bir sıra imtiyazlar qazanır ki, təklikdə onu əldə etmək mümkün deyil; 2.Regional birlik dünyanın qalan hissəsindən ayrılır və təcrid olunur. İnteqrasiya qrupu çərçivəsində məhsul, kapital, xidmət və işçi qüvvəsinin sərbəst hərəkəti beynəlxalq münasibətlərdə ayrıseçki ilə uzlaşır (1, s.26). 3. Regional inteqrasiya könüllü və şüurlu prosesdir. Hökumətlərin iştirakı olmadan ölkələrin qarşılıqlı asılılığının artması inteqrasiya deyil, sadəcə iştirakçıların eyni prosesə daha çox cəlb olunmasıdır. Regional inteqrasiyanın ilkin şərti və əsas nəticəsi interqasiya olunmaqdır. İnteqrasiya iştirakçıların könüllü işi olduğuna görə ərazilərin zorla birləşdirilməsi və imperiya yaradılması inteqrasiya hesab edilmir; 4. İnteqrasiya iştirakçı ölkələrin daxili və xarici siyasətini əhatə edir. Məsələn, Avropa İttifaqında ümumi rəqabət qaydaları və dövlətin büdcə siyasətinin prinsipləri fəaliyyət göstərir və ittifaqın vətəndaşlığı mövcuddur. Regional qrupdan fərqli olaraq beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərin ayrı-ayrı sahələrini tənzimləyir. Ona görə Ümumdünya Ticarət Təşkilatının fəaliyyəti inteqrasiya sayılmır; 5.Regional inteqrasiya ictimai həyatın iqtisadiyyat, siyasət, hüquq, ekologiya, miqrasiya, elm, texnika və təhsil kimi sahələrini əhatə edir, beynəlxalq təşkilat isə əsasən bir sahədə fəaliyyət göstərir. Misal üçün Beynəlxalq Valyuta Fondu valyuta münasibətlərini, MAQATE nüvə enerjisi, OPEK neftin hasilatı və göndərilməsi ilə məşğul olur və inqterasiya təşkilatı deyil; 6. Regional inteqrasiya qrupunun ümumi orqanları və hüquqi bazası olur. Ümumi orqanlar hökumətlərarası əməkdaşlıq əsasında fəaliyyət göstərir. Əməkdaşlıq çərçivəsində üzv dövlətlərin nümayəndələri tərəfindən konsensus əsasında qərarlar qəbul edilir. İnkişaf etmiş inteqrasiya qruplarında üzv ölkələr suverenliyin bir hissəsini təşkilatın rəhbər orqanlarına verir (8, s.263); 7. Regional inteqrasiya iştirakçıların ümumi gələcək taleyi haqqında təsəvvürə əsaslanır. Belə təşəbbüs adətən ümumi tarix və mədəniyyətdən irəli gəlir. Ümumi gələcək tale konsepsiyası birliyin üzvlərinin bir-birinə münasibətdə daimi öhdəliklərinin olmasını nəzərdə tutur.

***

Regional inteqrasiya öz inkişafında müxtəlif mərhələlərdən keçir. Bu mərhələlərin təsnifatını ilk dəfə ABŞ iqtisadçısı B.Balaş vermişdir. Onun fikrincə, regional inteqrasiya mərhələlərə belə bö-

lünür: 1.Azad ticarət sazişi; 2. Gömrük ittifaqı; 3.Ümumi daxili bazar; 4. İqtisadi və valyuta ittifaqı; 5.Siyasi ittifaq.

Azad ticarət zonası inteqrasiya birliyinin iştirakçısı olan dövlətlər arasında ticarətdə gömrüyün və məhdudiyyətlərin azaldılmasını nəzərdə tutur. Eyni zamanda hər bir iştirakçı üçüncü ölkələrə münasibətdə öz ticarət rejimini saxlayır. Gömrük ittifaqı azad ticarət zonasının iştirakçılarının vahid gömrük tətbiq etməsi və üçüncü ölkələrə münasibətdə vahid ticarət siyasətinə keçməsi nəticəsində yaranır. Ümumi daxili bazar məhsulların, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətini təmin edən gömrük ittifaqını nəzərdə tutur. İqtisadi və valyuta ittifaqında vahid daxili bazar əsasında ümumi iqtisadi siyasətin və vahid valyutanın tətbiqi yolu ilə formalaşır. Siyasi ittifaq iqtisadi və valyuta ittifaqına ümumi daxili və xarici siyasətin əlavə olunmasını nəzərdə tutur ki, nəticədə regional birlik konfederasiya və ya federasiyaya maksimum yaxınlaşır. Qeyd edək ki, Avropa ittifaqında müəyyən zaman üçün azad ticarət zonası təşkil olunmadı, çünki onun üzvləri XX əsrin 50-ci illərində dərhal gömrük ittifaqının yaradılmasına başladılar. Həm də yuxarıda qeyd olunan təsnifatın əsasında iqtisadi inteqrasiya dayanır. Gömrük ittifaqı və ümumi bazar azad ticarət zonasından sərfəlidir, lakin onun yaradılması böyük səylər tələb edir. Müasir dövrdə dünyada mövcud olan inteqrasiya təşkilatlrı içərisində iqtisadi və valyuta ittifaqı yalnız Avropa İttifaqı çərçivəsində yaradılmışdır (5, s.257).

XX əsrin 60-cı illərində neqativ və pozitiv inteqrasiya anlayışları meydana çıxdı. Neqativ inteqrasiya regional birlik çərçivəsində biznesin sərbəst fəaliyyətinə şərait yaradan tədbirlərin məcmusudur. Bu yanaşmanın tərəfdarları hesab edir ki, ölkələr arasında maneələr aradan qalxdıqca bütün şirkətlər milli bazara bənzəyən vahid iqtisadi məkan yaradırlar. Bu yanaşmanın əleyhdarları hesab edir ki, inteqrasiya milli təsərrüfatları optimal fəaliyyət imkanı ilə təmin edən yeni iqtisadi mühit yaradır.

Neqativ inteqrasiya maneələrin aradan qaldırılması, pozitiv inteqrasiya isə yeni birlik formasının yaradılmasıdır. Azad ticarət zonası neqativ inteqrasiya nümunəsidir. Gömrük ittifaqında məhsulların sərbəst yerdəyişməsi neqativ, bazarı tənzimləyən ümumi qaydaların yaradılması pozitiv inteqrasiyadır. Vahid valyuta pozitiv, vizaya nəzarətin ləğvi neqativ inteqrasiyadır.

İntqerasiya bir sıra konkret vəzifəlri həll edir ki, onun üçün daha vacibdir: 1.İnteqrasiya birliyinin dünyada mövqelərinin möhkəmlənməsi; 2.Region daxilində siyasi sabitliyin təmin edilməsi; 3.İqtisadi inkişaf və rifahın artması (2, s.36). XXI əsrin əvvəllərində Avropa inteqrasiyasının prioritetləri sırasına ümumi dəyərlərin müdafiəsi və möhkəmləndirilməsi də əlavə olundu.

Regional inteqrasiyanı adətən özünü başqalarından qoruyan qalaya bənzədirlər. Gömrük ittifaqı iştirakçıları azad daxili ticarət məkanı və üçüncü ölkələrdən ümumi gömrük sərhədi ilə qorumaq imkanı yaradır. Daxili siyasi sabitlik üçün inteqrasiyanın əhəmiyyəti ondan ibarətdir ki, iştirakçı dövlətlər mehriban qonşuluq məqsədilə müttəfiq olur, onların vətəndaşlarında qonşusunu qəbul etmək normaya çevrilir. İqtisadi sahədə qarşılıqlı fəaliyyətin genişlənməsi nəticəsində qrup daxilində hərbi əməliyyatlar mümkünsüz olur.

İnteqrasiya iqtisadi inkişaf səviyyəsində olan regionlararası fərqlər, iqtisadi tərəddüdləri aradan qaldırmağa yönəlir və daxili münaqişələr üçün zəmin əsaslı şəkildə zəifləyir.

İnteqrasiyanın iqtisadi əhəmiyyəti bir neçə istiqamətdə qiymətləndirilir. Rəsmiləşdirilən ittifaq leqal şəkildə Ümumdünya Ticarət Təşkilatının qaydalarından yan keçib üçüncü ölkələrə münasibətdə məhdudiyyətlər tətbiq etməyə imkan verir. Avropa İttifaqı uzun müddətdir ki, özünün kənd təsərrüfatını yüksək gömrük vergisi, idxal norması və ixrac kreditləri ilə qoruyur. Gömrük və norma məhdudiyyətlərinin aradan qaldırılması daxili bazarın tutumunu artırır. Yerli şirkətlər öz məhsullarını ittifaqın bütün ərazisində satmaq və istehsalı genişləndirmək imkanı qazanır. İqtisadi inteqrasiya rəqabəti gücləndirir, struktur islahatlarının əlverişsiz sosial nəticələrinə görə məsuliyyəti azalır (1, s.19). Belə ki, iş yerlərinin və kreditlərin azalmasına görə daha çox təşkilatın rəhbər orqanları məsuliyyət daşıyır.

Dünyanın müxtəlif regionlarında inteqrasiya birliklərinin fəaliyyəti onların qurulmasının ümumi prinsiplərini müəyyənləşdirməyə imkan verir. İnteqrasiya onun bütün iştirakçıları üçün ümumi layihədir. İnteqrasiya qloballaşmanın mənfi və müsbət cəhətləri arasında balansı iştirakçıların xeyrinə dəyişir və bəzən daha zəif iştirakçılar üçün əlverişli şərait yaradır. İnteqrasiya mərhələli prosesdir. 1957-ci ildə Avropa İqtisadi Birliyini yaradan altı ölkə 11 il ərzində ümumi gömrüyə keçdi. Avropa

İttifaqı çərçivəsində ümumi bazar XX əsrin 90-cı illərinin əvvəlində formalaşdı (5, s.256). Avropa İttifaqı çərçivəsində ümumi valyutaya keçmək üçün 50 ildən artıq vaxt lazım gəldi. Ümumi valyutaya keçmək üçün XX əsrin 70-ci illərində göstərilən birinci cəhd uğursuz oldu.

İnteqrasiya üçün müvafiq qərar qəbuletmə mexanizmi zəruridir. Avropa İttifaqının uğurları uzun müddət ərzində kompromis axtarışının və mövqelərin razılaşdırılmasının nəticəsidir. Avropa İttifaqının rəhbər orqanları öz vəziflərini yerinə yetirir, təşkilatın mənafeyinə uyğun qərarlar qəbul edir və onların icrasına nəzarət edir.

Bütün inteqrasiya qruplarında ayrı-ayrı ölkələr arasında ixtilaflarla yanaşı dörd qrup daimi ziddiyyətər özünü göstərir. Birinci ziddiyyət ümumi və milli mənafelər arasında yaranır. Avropa Kömür və Polad Birliyinin yaradılması zamanı iştirakçı ölkələr razılaşdılar ki, kömür və metallurgiya sənayesinin sürətli inkişafı üçün ticarətdə gömrüyü ləğv etmək lazımdır. Əslində Fransa və Belçika kömür şaxtalarını və metallurgiya zavodlarını müdafiə etmək üçün ticarətdə gömrüyü saxlamağa çalışırdılar. Çünki AFR-in rəqabətindən qorxurdular. 2006-cı ildə MERKOSUR-da gömrük ittifaqı yaradıb ümumi gömrüyə keçmək haqqında qərar qəbul edildi. Braziliya inkişaf etmiş sənaye ölkəsi kimi ənənəvi sahələr üçün gömrüyün azaldılmasına və yeni sahələr üçün gömrüyün artırılmasına tərəfdar idi. Argentina, Paraqvay və Uruqvay ixrac üçün məhsul istehsal edən sahələri qorumağa və idxal edikləri məhsullar üçün gömrüyün azalmasına çalışırdılar.

İkinci ziddiyyət milli suverenliklə inteqrasiya təşkilatının səlahiyyətləri arasında idi. İnteqrasiyanın inkişafı ilə bağlı Avropa İttifaqının rəhbər orqanlarının səlahiyyətləri artdı (2, s.45). Deməli milli hökumətlər geniş miqyasda kollektiv iradəyə, digər ölkələrin mənafelərinə tabe olmalı idi. Digər tərəfdən, Avropa İttifaqı qərar qəbul etmə qaydalarında dəyişiklik etdi, səsvermə zamanı yekdillik prinsipindən mütləq və ya adi üstünlük qaydalarına keçdi. Əks halda təşkilatın idarə olunması çətinləşər və çevikliyi zəifləyə bilərdi. Ümumiyyətlə, dövlətlər öz funksiyalarını inteqrasiya orqanlarına çətinliklə verirlər.

Üçüncü ziddiyyət inteqrasiyanın inkişafı ilə təşkilatın bütövlüyü arasında özünü göstərir. İnteqrasiya inkişaf etdikcə məlum olur ki, ölkələrin bir qismi yeni layihələrdə iştirak etmək istəmir. Avropa İttifqında müxtəlif sürətlərin inteqrasiyası problemi valyuta ittifaqı ilə bağlı meydana çıxmışdı. İngiltərə və Danimarka vahid valyutaya keçməkdən imtina etdi (6, s.101). İngiltərə və Danimarka Şengen zonasına da qoşulmadı.

Dördüncü ziddiyyət təşkilatın praktiki və hüquqi fəaliyyəti arasında idi. Aİ rəhbərlərinin planları ilə ictmai rəy arasında fərq yaranırdı.

İnteqrasiyanın uğurlu inkişaf hakimiyyətini tədricən milli səviyyədən təşkilatın rəhbər orqanlarına keçməsini nəzərdə tutur. Bu vəziyyət əhalinin narazılığına səbəb oldu. Çünki inteqrasiyanın yüksək səviyyəsində vətəndaşların inteqrasiyanın məqsəd və qaydalarınını başa düşməsi çətinləşir. Ona görə əhali inteqrasiyanı zəif müdafiə edir və təşkilatın rəhbərliyi dilemma qarşısında qalır: əhalinin fikrini nəzərə almadan qərar qəbul etmək və ya inteqrasiya tempini zəiflətmək.

İkinci dünya müharibəsindən sonra Qərbi Avropa ölkələri sənaye cəhətdən Avropada birinci, dünyada ikinci yerdə idi. İnteqrasiya birliyinin yaradılması orada iştirak edən ölkələrdə sənayenin inkişaf səviyyəsindən birbaşa asılı idi. Müxtəlif çeşiddə hazır məhsul istehsal edən ölkələr sənayenin beynəlxalq ixtisaslaşmasında və kooperasiyasında maraqlı idi. XX əsrin 50-ci illərində Avropa inteqrasiyasında iştirak edən ölkələrin hamısında bazar iqtisadiyyatı formalaşmışdı. Bazar iqtisadiyyatlı ölkələr arasında inteqrasiya şirkətlərarası əlaqələr əsasında inkişaf edir (3, s.42).

Qərbi Avropada iqtisadi cəhətdən çoxmərkəzli struktur mövcud idi. Avropa inqterasiyasında bir neçə təxminən eyni gücə malik ölkə iştirak edirdi. Bu ölkələr əvvəlcə Fransa, AFR və İtaliya idi, sonra İngiltərə və İspaniya onlara qoşuldu. Bu xüsusiyyət regional qrup üçün böyük təsadüfdür. Çoxmərkəzli struktur qrupda millətüstü hakimiyyət orqanlarının yaradılmasının zəruri şərtidir (1, s.25). Qrupda bir ölkənin aparıcı olması ümumi qanunverici orqanda səslərin ədalətli bölgüsünə imkan vermir. "Bir ölkə - bir səs" prinsipindən istifadə ediləndə ən böyük dövlət birlik səviyyəsində öz əhalisinin mənafelərini gücünə uyğun təmsil edə bilmir. Millətüstü orqanların yaradılması inteqrasiyanın zəruri şərti saylmır, lakin inteqrasiyanın yüksək səviyyəsi həmin orqanlarsız mümkün deyil.

Avropa İttifaqında indiki vəziyyət XX əsrin 70-ci illərindəki vəziyyətdən çox fərqlidir. 1985-2007-ci illərdə Avropa İttifaqına daxil olan 15 ölkədən yalnız ikisində - Polşa və Rumıniyada

əhalinin sayı çox idi. Böyük və kiçik dövlətlər arasında qüvvələrin yeni bölgüsü Avropa İttifaqında rəhbər orqanların fəaliyyətinə ciddi çətinliklər yaradır.

Müasir Avropa çoxsaylı xalq və mədəniyyətlərin uzun müddətli birgəyaşayış və qarşılıqlı fəaliyyəti nəticəsində formalaşan konqlomeratdır. Müasir Avropa sivilizasiyasının səciyyəvi cəhətlərini müəyyənləşdirmək çətindir, eyni zamanda belə bir sivilizasiya mövcuddur. Bu sivilizasiyanın əsas elementləri sırasına demokratiya, insan hüquqları, hakimiyyətin bölgüsü, hüquqi dövlət, siyasi ənənələr, şəhər muxtariyyəti, yerli özünüidarəetmə, mülkiyyətin toxunulmazlığı və bazar iqtisadiyyatı daxildir.

Müasir Avropa mədəniyyətinin tarixi əsasını bütün Avropa üçün ümumi olan antik irs təşkil edir. Avropa xalqlarının əksəriyyəti Hind-Avropa qrupuna mənsub olan dillərdə danışırlar. Orta əsrlərdə Avropa Birliyinin institusionl əsasını katolik kilsəsi ilə anaşı, həm də təhsil sistemi təşkil edirdi. Avropada insanların qarşılıqlı anlaşmasında latın dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi geniş yayılması mühüm rol oynadı.

Çoxmillətli və sıx məskunlaşmış Avropanın torpaq və təbii sərvətləri az olduğuna görə həmişə birləşməyə ehtiyacı var idi. Lakin XIX əsrdə Avropada formalaşan milli dövlətlər sistemi iki dəfə dünya müharibəsinə səbəb oldu. Bu hadisələr göstərdi ki, Avropaya demokratiya, hakimiyyət bölgüsü prinsiplərini dövlətlərarası səviyyəyə yüksəldən beynəlxalq münasibətlər sistemi lazımdır. Milli suverenliyi məhdudlaşdırıb, onun bir hissəsini millətüstü orqanlara vermək lazım idi. Bu istiqamətdə ilk addım 1951-ci ildə Avropa Kömür və Polad Birliyinin yaradılması oldu (7, s.148). Bu təşkilata daxil olan Almaniya və Fransa çoxillik düşmənçiliyini kənara qoyub kömür və polad sənayesi üzərində ümumi nəzarətlə razılaşdı. İnteqrasiya Qərbi Avropa cəmiyyətinin hüquqi dövlət, xalqların çoxillik yanaşı yaşamaq təcrübəsi, dini və mədəni ümumililik, Avropa ideyasının ənənələri və İkinci dünya müharibəsinin dərsləri kimi dəyərlərinə əsaslanırdı.

*Nəticə.* Avropada müharbədən sonrakı vəziyyət inteqrasiyanın meydana çıxmasına şərait yaratdı. Qərbi Avropa ölkələri müharibə nəticəsində dağılmış təsərrüfatı bərpa etməli idi. Ticarət və sənaye sahəsində qonşularla sıx əməkdaşlıq etmədən iqtisadi bərpa ayrı-ayrı ölkələr çərçivəsində çətin idi. Müharibə dövündə Avropa dünyada iqtisadi lider mövqeyini itirmiş, onun yerini ABŞ tutmuşdu. Əsaslı şəkildə ABŞ-dan asılı vəziyyətə düşməmək üçün Qərbi Avropa ölkələri öz səylərini birləşdirməli idi.

Müharibə nəticəsində SSRİ-nin potensialı artdı və Şərqi Avropada sosializm sistemi yarandı. 1949-cu ildə Qarşılıqlı İqtisadi Yardım Şurası, 1955-ci ildə Varşava Müqaviləsi Təşkilatı yaradıldı. Avropanın iki hissəyə bölünməsi və soyuq müharibənin başlanması Qərbi Avropa ölkələrini birləşib öz bloklarını yaratmağa sövq etdi.

Müharibədən sonra İngiltərə, Fransa, Hollandiya və Belçika kimi Avropa dövlətlərinin öz müstəmləkələrinə təsiri zəiflədi. 1945-ci ildə Hollandiya İndoneziyanın müstəqilliyini tanıdı. Fransa 1946-1954-cü illərdə Vyetnamda, 1954-1962-ci illərdə Əlcəzairdə müharibə apardı və məğlub oldu. 1947-1950-ci illərdə İngiltərənin müstəmləkələri olan Birma, Pakistan və Hindistan müstəqillik qazandı. 1951-ci ildə Liviya müstəqil dövlət oldu, 1960-cı ildə Fransa Afrikada 14 müstəmləkənin müstəqilliyini tanıdı (7, s.186). Qərbi Avropa ənənəvi satış bazarını və xammal mənbələrini itrmək təhlükəsi ilə üzləşdi. İnteqrasiya birliyinin yaradılması həmin itkini müəyyən qədər əvəz etmək imkanı yaratdı.

## ƏDƏBİYYAT

1. Европейская интеграция. под ред. О.В.Буториной . Москва, Деловая литература, 2011, 720с.
2. Шемяпенков В.Г. Европейская интеграция. Москва: Международные отношения, 2003, 386с.
3. Борко Ю.А. От Европейской идеи – к единой Европе. Москва: Деловая литература, 2003, 172 с.
4. Бабынина Л.О. Гибкая интеграция в Европейском Союзе. Теория и практика применения. Москва: Международные отношения, 2012, 394 с.
5. Фененко А.В. Современная история международных отношений: 1991-2018. Москва: Аспект Пресс, 2019, 456 с.

6. Baxışov M.Ə. Avropa və Amerika ölkələrinin müasir tarixi (İkinci dünya müharibəsindən sonrakı dövr). Bakı: 3 saylı Bakı mətbəəsi ASC, 2018, 334 s.
7. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003-cü illər). Bakı: AZTU-nun mətbəəsi, 2012, 408 s.
8. Косова Ю. Мировая политика и международные отношения. Москва: Инфра, 2012, 360 с.

**МАММАДАГА БАХЫШОВ**
*Доцент Бакинского Государственного Университета*

## РЕГИОНАЛЬНАЯ ИНТЕГРАЦИЯ И ЕЕ ЭТАПЫ

Статья посвящена основным теоретическим вопросам, стоявших на основе создания и развитие Европейского Союза. В статье на основе конкретных исторических фактов излагается региональная интеграция, ее особенности, этапы, задачи, и ее конфликты. Автор уделяет особое внимание факторам, составляющим основу деятельности Европейского Союза.

*Ключевые слова*: интеграция, процесс, консепсия, этап, Таможенный союз, экономическая выгода, глобализация, конфликт, Европейское право.

**MAMMADAQA BAKHISOV**
*Associate Professor of Baku State Universitety*

## REGIONAL INTEGRATION AND ITS STAGES

The article is devoted to the main theoretical issues that stood on the basis of the creation and development of the European Union. On the basis of specific historical facts, the article describes regional integration, its features, stages, tasks, and its conflicts. The author pays special attention to the factors that form the basis of the activities of the European Union.

*Keywords*: integration, process, concept, stage, customs union, economic benefit, globalization, conflict, European law.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 avqust 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Habil Məmmədov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 94(479.24)**

**TAMAM CƏFƏROVA**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**tjafarova59@mail.ru**

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QANUNVERİCİLİK FƏALİYYƏTİNDƏ QADIN DEPUTATLARIN İŞTİRAKI (1995-2020-ci illər)

*Məqalədə Milli Məclisin sessiyalarında qadın deputatlarının qanun layihələrinin müzakirəsində iştirakı təhlil olunur. Milli Məclisin həm plenar, həm də ayrı-ayrı daimi komissiyaların iclallarında qadın millət vəkillərinin çıxışlarında qanun layihələrinə etdikləri düzəliş və irəli sürdükləri təkliflər onların müzakirələrdə fəal iştirak etdiyini təsdiq edir. Müstəqillik dövründə qadın millət vəkillərinin fəallığı şəraitində Azərbaycan Respublikasının Milli Məclisi dövlətin və cəmiyyətin həyatının müxtəlif sahələrini nizama salan minlərlə qanun və qərar qəbul etmişdir. Məqalədə göstərilir ki, qadın millət vəkilləri həmçinin büdcə layihələrinin müzakirəsində də fəal iştirak edirlər. Müzakirələrə dəvət olunan nazirlərə və digər dövlət rəsmilərinə qadın millət vəkilləri tərəfindən suallar verilr və iradlar da bildirilirdi. Qadın millət vəkilləri Parlamentdə müxtəlif mövzular ətrafında ictimai müzakirələr, diskussiyalar, konfranslar təşkil edilmiş, gündəmin mövzularına dair geniş müzakirələr açılmış və əhalinin müxtəlif təbəqələrindən gələn sosial sifarişlərini, istək və arzularını, mövcud problemlərin həlli yolları ilə bağlı təklifləri daim dinlənilmiş və həlli yollarını axtarmışlar.*

*Açar sözlər*: siyasi iştirak, hakimiyyət orqanlarında qadınların təmsilçiliyi, Milli Məclis, qadın deputatlar.

*Giriş*. Azərbaycan Respublikasında milli dövlət quruculuğu prosesində qanunverici orqanın - Milli Məclisin müstəsna yeri və həlledici rolu vardır. 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiya əsasında fəaliyyət göstərməyə başlayan Milli Məclisin qanunvericilik fəaliyyətində qadın deputatların iştirakı Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında iştirakının mühüm göstəricisidir. Bu baxımdan 1995-2020-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətində qadın deputatların iştirakı məsələsinin tarixinin öyrənilməsi elmi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Bu illər ərzində ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etmiş və təkmilləşdirilmişdir. Bu istiqamətdə ölkəmizin qazandığı uğurlarda ali qanunverici orqanın – Milli Məclisin qanunvericilk fəaliyyəti xüsusi rol oynamışdır. Araşdırılan dövrdə ərzində Azərbaycan Respublikası parlamentinin qadın deputatları ölkənin ictimai-siyasi, sosial-iqtisadi, həbi -strateji və mədəni həyatının bütün sahələrinə dair qanunların hazırlanması, müzakirəsi və qəbulu prosesində fəal iştirak etmişlər.

Birinci çağırış Milli Məclisdə (1995-2000-ci illər) 12 qadın millət vəkili təmsil olunmuşdu. Qadın deputatlar parlamentin tərkibində təşkil olunmuş 10 daimi komissiyanın 7-də təmsil olunmuşdular: Aqrar siyasət daimi komissiyasına Musayeva Tərlan Həsən qızı; Sosial siyasət daimi komissiyasına Qasımova Elmira Məmməd qızı; Yerli özünüidarə məsələləri daimi komissiyasına Piriyeva Səmayə Aslan qızı; İnsan hüquqları daimi komissiyasına Qurbanova Gülnarə Şıxəli qızı, Dünyamalıyeva Zəminə Dünyamalı qızı, Ələsgərova Solmaz Həbib qızı və Əliyeva Minayə Əlisahib qızı; Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasına Məmmədova Şəfiqə Haşım qızı; Elm, təhsil və mədəniyyət məsələləri daimi komissiyasına Ələkbərova Nigar İbrahim qızı, Abdullazadə Fatma Hüseyn qızı və Xanlarova Zeynəb Yəhya qızı üzv seçilmişdilər. Komissiyalardan birinə - Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasına isə Manafova Asya Sərdar qızı rəhbərlik edirdi. Birinci çağırış müddətində Milli Məclis 950 qanun, qərar və digər mühüm sənədlər müzakirə edilərək qəbul etmişdi.

Milli Məclisin 2000-ci ildə keçirilmiş son iclaslarından birində A. Manafovanın Kəlaməddin və Murovdağ neft yataqlarının işlənməsi üzrə bağlanmış beynəlxalq sazişin əsas kommersiya prinsipləri və hüquqi şərtləri barədə ətraflı məruzəsi diqqəti cəlb edir. Komissiya sədrinin çıxışında tərəflərin təminatları, qarşılıqlı hüquq və öhdəlikləri, ətraf mühitin mühafizəsi və təhlükəsizlik, sığorta,

etibarlılıq, layihə standartları və s. kimi məsələləri əhatə edən mühüm müddəalar şərh edilmişdi [15, s.590-597].

İkinci çağırış Milli Məclisdə (2000-2005) Azərbaycan qadınlarının 11 nümayəndəsi fəaliyyət göstərmişdi. Parlamentin birinci sessiyasında Muradova Bahar Əvəz qızı Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının; Hacıyeva Gültəkin Yunis qızı və Şahtaxtinskava Nairə Əliabbas qızı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının; Baxşəliyeva Gövhər Baxşəli qızı və Məmmədova Gülçöhrə Hüseyn qızı Elm və təhsil məsələləri daimi komissiyasının; Xanlarova Zeynəb Yəhya qızı və Pənahova Amalya Əliş qızı Mədəniyyət məsələləri daimi komissiyasının; Məmmədova Əsmətxanım Bəyəhməd qızı və Sofiyeva Aynur Məmmədiyyə qızı Regional məsələlər daimi komissiyasının; Əhmədova Gülər Mikayıl qızı və Həsənova Məlahət İbrahim qızı Sosial siyasət daimi komissiyasının üzvləri seçilmişdilər. Milli məclisin iki komissiyasına isə qadın deputat rəhbərlik etmişdi: Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri Manafova Asya Sərdar qızı, İnsan hüquqları komissiyasının sədri Aslanova Rəbiyyət Nurullah qızı [18]. 2001-ci ilin əvvəlində Milli Məclis sədrinin vəfat etmiş müavini Zakir Zeynalovun yerinə bitərəf deputat Gövhər Baxşəliyeva (57 saylı Bərdə-Ağcabədi seçki dairəsi) seçilmişdi.

İkinci çağırış Milli Məclisin 311 iclası keçirilmiş, bu iclaslarda 1042 akt, o cümlədən 909 qanun və 133 qərar qəbul edilmişdi. Parlamentdə qəbul olunmuş ən mühüm qanunlardan biri Azərbaycan Respublikasının Seçki Məcəlləsi oldu. Müzakirələri hələ 2002-ci ildə başlanan və böyük diskussiyalar doğuran Seçki Məcəlləsi 2003-cü il mayın 27-də qəbul olundu və iyunun 3-də qüvvəyə mindi. Ölkədə keçiriləcək bütün seçki proseslərini tənzimləyəcək bu qanunvericilik toplusunda seçki komissiyalarının təşkili ilə bağlı iki formul əksini tapmışdı. Seçki Məcəlləsinin 2005-ci il parlament seçkilərindən sonra qüvvəyə minən əsas formulu isə MSK-nın 18 üzvdən ibarət olmasını və iqtidar, müxalifət və bitərəflərin bərabər kvota ilə (6 nəfər) təmsil olunmasını nəzərdə tuturdu.

Ümumilikdə Birinci və İkinci çağırış Milli Məclisin fəaliyyəti dövründə (1995-2005-ci illər) dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini tənzimləyən 2500-dən çox qanun və qərar qəbul edilmişdi [7, s.7]. Bu illər ərzində parlamentin fəaliyyətinin bütün sahələrində yaxından iştirak etmiş qadın deputatlar müxtəlif mövzular ətrafında aparılmış ictimai müzakirələrə, diskussiyalara, konfranslara fəal qoşularaq əhalinin geniş təbəqələrinin sosial sifarişlərini, istək və arzularını ifadə edərək, mövcud problemlərin həlli yolları ilə bağlı təkliflər irəli sürmüşlər [1, s.8-11].

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlətçilik fəaliyyətinin mühüm mərhələsini təşkil edən deputatlıq fəaliyyəti məhsuldarlığı və səmərəliliyi ilə fərqlənir. Mehriban Əliyeva qanunvericilik orqanında fəaliyyəti ilə bu ali orqanda Azərbaycan qadınlarının maraqlarını ən yüksək səviyyədə təmsil edən siyasi lider olduğunu təsdiq etmişdir. 2005-ci il noyabrın 6-da III çağırış Milli Məclisə keçirilən seçkilərdə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 92,12 faiz (23106 səs) səs toplayaraq ilk dəfə olaraq deputat seçildi. Mehriban Əliyeva parlamentdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü, Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi geniş əhatəli fəaliyyət göstərmişdir. 12 ilə yaxın müddətdə Milli Məclisin üzvü kimi fəaliyyət göstərmiş Mehriban xanım Əliyeva MM-in qanunvericilik bazasının möhkəmləndirilməsində, parlamentin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak etmiş, onun rəhbərlik etdiyi işçi qrupları ölkəmizin beynəlxalq əlaqələrinin dərinləşməsinə böyük töhfələr vermişdir.

Mehriban xanımın Azərbaycanda milli qanunvericiliyin humanistləşdirilməsi, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində fəaliyyəti xüsusilə təqdirə layiqdir. Məhz onun təşəbbüsü və dəstəyi ilə parlament tərəfindən dörd amnistiya aktı qəbul olunmuşdu.

III çağırış Milli Məclisinə Lalə Abbasova, Elmira Axundova, Jalə Əliyeva, Qənirə Paşayeva, Həvva Məmmədova və Müsavat Partiyasının nümayəndəsi Aynur Quliyeva (Camalqızı) ilk dəfə qanunverici orqana seçilmişdilər [13]. Üçüncü çağırış Milli Məclisin ilk iclasında YAP-ın İcra katibinin müavini Bahar Muradova (84 saylı Füzuli seçki dairəsi) 99 “ehinə”, 4 “əleyhinə”, 1 “bitərəf” olmaqla Milli Məclisin sədrinin müavini, millət vəkili Rəbiyyət Aslanova Milli Məclisin İnsan hüquqları

daimi komissiyasının sədri seçilmişdi. Parlamentdə təmsil olunan qadın millət vəkillərinin 2 nəfərinin elmlər doktoru, 3 nəfərinin fəlsəfə doktoru elmi dərəcəsi var idi [9]. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının 14 aprel 2009-cu il ilə Qanunu ilə "daimi komissiya" sözü "komitə" sözü ilə əvəz edilmişdir [6, 2009. – № 06. – maddə 395]. Üçüncü çağırış Milli Məclisin 150 iclası keçirilmiş, bu müddətdə 115 akt, o cümlədən 956 qanun və 159 qərar qəbul edilmişdir [16, s.46].

Ümumilikdə 17 nəfər qadın millət vəkili, o cümlədən Aytən İnqilab qızı Mustafazadə İnsan hüquqları komitəsinin üzvü; Sədaqət Süleyman qızı Vəliyeva Sosial siyasət komitəsinin üzvü; Sevinc Həbib qızı Fətəliyeva Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini; Gülər Mikayıl qızı Əhmədova Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü; Leyla Arif qızı Abdullayeva Mədəniyyət komitəsinin üzvü; Zeynəb Yəhya qızı Xanlarova Mədəniyyət komitəsinin üzvü; Elmira Hüseyn qızı Axundova Sosial siyasət komitəsinin üzvü; Jalə Fazil qızı Əliyeva Mədəniyyət komitəsinin üzvü; Gövhər Baxşəli qızı Baxşəliyeva Elm və təhsil komitəsinin üzvü; Gülçöhrə Hüseyn qızı Məmmədova Elm və təhsil komitəsinin üzvü; Sahibə Əli qızı Qafarova Mədəniyyət komitəsinin üzvü; Məlahət İbrahim qızı Həsənova Sosial siyasət komitəsinin üzvü; Sevinc Əmirəhməd qızı Hüseynova Sosial siyasət komitəsinin üzvü; Qənirə Ələsgər qızı Paşayeva Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin üzvü; Kamilə Əli Ağa qızı Əliyeva Elm və təhsil komitəsinin üzvü; Aqiyə Həbib qızı Naxçıvanlı Elm və təhsil komitəsinin üzvü; Flora Qasım qızı Qasımova İnsan hüquqları komitəsinin üzvü seçilmişdilər [8]. İnsan hüquqları komitəsinin sədri vəzifəsinə deputat Rəbiyyət Aslanova seçilmişdi [12; 4, s.3].

IV çağırış Milli Məclisin 116 iclası keçirilmiş, ümumən 1410 akt, o cümlədən 1267 qanun və 143 qərar qəbul edilmişdi. Palamentdə qanun layihələri hazırlanarkən milli dəyərlərimiz əsas götürməklə, qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə olunmuşdur. Həmin dövrdə Milli Məclisə əhalidən 27 minə qədər təklif, ərizə və şikayət daxil olmuş, 20 midən çox vətəndaş deputatlar və parlamentin rəhbərliyi tərəfindən qəbul olunmuşdu. 2010-2015-ci illərdə Milli Məclisin beynəlxalq əlaqələrin inkişafı sahəsində 80-dən artıq ölkəyə 700-ə qədər səfər həyata keçirilmiş, 85-dən çox xarici dövlətin və beynəlxalq təşkilatın 850-dən artıq nümayəndə heyəti Milli Məclisdə olmuşdu [14, s.7-8].

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Milli Məclisinin aşağıdakı komitələri yaradılmışdı: Hüquq siyasəti və dövlət quruculuğu komitəsi; Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi; İnsan hüquqları komitəsi; Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi; İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi; Aqrar siyasət komitəsi; Əmək və sosial siyasət komitəsi; Səhiyyə komitəsi; Ailə, qadın və uşaq məsələləri komitəsi; Gənclər və idman komitəsi; İctimai birliklər və dini qurumlar komitəsi; Regional məsələlər komitəsi; Elm və təhsil komitəsi; Mədəniyyət komitəsi; Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi [5, s.2].

V Çağırış Milli Məclisdə isə komitələrin sayı artırılaraq 4 yeni komitə: Səhiyyə komitəsi, Ailə, qadın və uşaq məsələləri komitəsi, İctimai birliklər və dini qurumlar komitəsi və Gənclər və idman komitəsi yaradılmışdır. Yeni tərkibdə Təhlükəsizlik və müdafiə komitəsi Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi, İqtisadi siyasət komitəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi, Sosial siyasət komitəsi Əmək və sosial siyasət komitəsi yaradıldı. Milli Məclisin bu sahədə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə Ailə, qadın və uşaq məsələləri komitəsi aparıcı komitə olmaqla dövlət qadın siyasətinin həyata keçirilməsində iştirak edir. Komitənin üzvləri Azərbaycan qadınlarının sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələrinin hazırlanmasında və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verilməsində fəal iştirak edirlər.

Ölkədə həyata keçirilən qadın siyasətinin məqsəd və vəzifələrinə uyğun olaraq Azərbaycan Respublikası Milli Məclisinin 24 noyabr 2015-ci il tarixli qərarı ilə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi yaradılmışdı [10, v.91].

V çağırış Milli Məclisin qanunvericilik komitələrində qadın deputatların təmsil olunma səviyyəsində mühüm dəyişikliklər baş verdi. Millət vəkilləri Bahar Muradova İnsan hüquqları komitəsinin, Aqiyə Naxçıvanlı Ailə, qadın və uşaq məsələləri Komitəsinin sədri, Jalə Əliyeva Mədəniyyət Komitəsinin, Sahibə Qafarova Ailə, qadın və uşaq məsələləri Komitəsinin sədr müavini seçilmişdilər. Qadın deputatlar Milli Məclisin müxtəlif komitələrində (Mədəniyyət komitəsində – 3, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsində – 3, Əmək və sosial siyasət Komitəsində – 2, Səhiyyə Komitəsində 1, Ailə, qadın və uşaq məsələləri Komitəsində – 3, Elm və təhsil Komitəsində – 3, Gənclər və idman Komitəsində – 1, İnsan hüquqları Komitəsində – 1 üzvlə) təmsil olunmuşdular [11].

2020-ci ildə keçirilmiş seçkilər nəticəsində VI çağırış Milli Məclisin yeni tərkibi formalaşdı və martın 10-da parlamentin ilk iclası keçirildi. Azərbaycan Respublikasının Prezident İlham Əliyevin iştirak etdiyi iclasda Milli Məclisin yeni sədri, vitse-spikerlər, yeni komitə və komissiya rəhbərləri seçildi. İlk dəfə olaraq parlament rəhbərliyi çoxpartiyalılıq prinsipi əsasında müəyyənləşdi. Milli Məclisdə Yeni Azərbaycan Partiyası 70, müstəqillər 39, digər partiyalar 12 deputatla təmsil olunurlar. Azərbaycan parlamentinin tarixində ilk dəfə qadın deputat Sahibə Qafarova Milli Məclis Sədri seçildi. Beləliklə, yenilənmə həm mövcud parlamentin tərkibində, həm də ali qanunvericilik orqanının rəhbərliyində - spiker və onun müavinləri, komitə, komissiya sədrlərinin formalaşması prinsipində də özünü göstərdi. Prezident İlham Əliyev parlamentin ilk iclasında həm seçkilərin keçirilməsini, seçki prosesi ilə bağlı beynəlxalq təşkilatların, müşahidə qruplarının rəylərini dəyərləndirərək yeni tərkibə aşağıdakı tövsiyə və tapşırıqlarını vermişdir:

- qanunvericilik bazası daha da möhkəmləndirilməsi;
- əsas diqqətin kəmiyyətə deyil, daha çox keyfiyyətə yetirilməsi;
- informasiya təhlükəsizliyi ilə əlaqədar mövcud qanunların təkmilləşdirilməsi;
- milli dəyərlərin qorunması ilə bağlı qanunvericilik bazasının genişləndirilməsi;
- qəbul edilən qanunların icrasına nəzarətin gücləndirilməsi;
- informasiya təhlükəsizliyi ilə əlaqədar qanunvericilikdə yeni yanaşmaların tətbiq olunması;
- iqtisadi islahatların dərinləşməsi işinə töhfə verən qanunların qəbul edilməsi [3, s.1-3].

Qanunverici orqanın fəaliyyəti dövründə qadın millət vəkillərinin Milli Məclisin qanunvericilik komitələrində təmsil olunma səviyyəsində mühüm dəyişiklər baş vermişdir. Bu illər ərzində ali qanunverici orqanın müvafiq qanunvericilik komitələrinə seçilən qadın millət vəkillərinin sayı hər növbəti çağırışda artmaqda davam etmişdir. VI çağırış Milli Məclisdə Qadın millət vəkillərindən Əminə Ağazadə Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinə, Jalə Əhmədova İnsan hüquqları komitəsinə; Fatma Yıldırım və Afət Həsənova Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinə; Məlahət İbrahimqızı (sədr müavini); Sevinc Hüseynova Əmək və sosial siyasət komitəsinə; Kamilə Əliyeva, Məlahət İbrahimqızı və Sədaqət Vəliyeva Səhiyyə komitəsinə seçilmişdilər. Hicran Hüseynova (sədr), Jalə Əliyeva - Sədr müavini, Nigar Arpadarai, Tamam Cəfərova, Pərvin Orxan qızı Kərimzadə, Sevil Mikayılova, Könül Nurullayeva, Sədaqət Vəliyeva Ailə, qadın və uşaq məsələləri komitəsində təmsil olunurlar. Göründüyü kimi, bəzi qadın deputatlar Milli Məclisin bir neçə komitəsində fəaliyyət göstərirlər. Ailə, qadın və uşaq məsələləri komitəsi ailə, qadın və uşaq məsələləri üzrə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir. Komitə: ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq, qadın və uşaq hüquqlarının müdafiəsi və həyata keçirilməsi, gender (kişi və qadınların) bərabərliyinin təmin edilməsi, məişət zorakılığı ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir. VI çağırış Milli Məclisin qanunvericilik komitələrində qadın millət vəkilləri yalnız İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində və Aqrar siyasəti komitəsində təmsil olunurlar [2].

VI çağırış Milli Məclisin qanunvericilik komitələrində qadınların təmsil olunma səviyyəsi I çağırış Milli Məclisdə olduğundan demək olar ki, iki dəfə çox olmuşdur. Milli Məclisin bütün 25 illik tarixi ərzində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin tərkibinə qadın millət vəkilləri seçilməmişdir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin hərəsində 1 dəfə (üzv səviyyəsində, VI çağırış); Aqrar siyasət komi-

təsində cəmi 1 dəfə (üzv səviyyəsində, I çağırış); Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində cəmi 2 dəfə (sədr səviyyəsində, I-II çağırışlar) seçilmişdilər.

Qadın millət vəkillərinin təmsilçilik səviyyəsi İnsan hüquqları, Elm və təhsil, Mədəniyyət, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin tərkibində və sonradan yaradılan Ailə, qadın və uşaq məsələləri komitəsində daha yüksək olmuşdur. Belə ki, V çağırış Milli Məclisdə komitəyə 5 qadın millət vəkili (sədr, sədr müavini və üzvlər); VI çağırışda Milli Məclisdə isə 8 qadın millət vəkili (sədr, sədr müavini və 5 üzv) seçilmişdir. VI çağırış Milli Məclisin qanunvericilik komitələrində qadın millət vəkilləri 35 yerlə qərarlaşmışdır. Bu onunla əlaqədardır ki, parlament tarixində ilk dəfə olaraq deputatlar eyni zamanda iki komitəyə üzv seçilməsi Milli Məclisin işində qadın deputatların rolunu artırmaqla bərabər, onların fəaliyyətinin daha səmərəli təşkilinə və qanun layihələrinin müzakirəsində daha fəal iştirakına imkan verir.

Müstəqillik illərinin təcrübəsi göstərir ki, qadınlar dövlət siyasətinin istənilən istiqamətində səmərəli işləyib fəaliyyət göstərə bilər. Lakin bu gün onların fəaliyyətində ictimai-siyasi sahə ilə bərabər, həm də sosial siyasət sahəsi mühüm yer tutur. Hicran Kamran qızı Hüseynova, ölkə qadınlarının sosial problemləri ilə məşğul olan qadın deputatlardan biridir. O, 2006-cı ildən 2020-ci ilə qədər AQUPDK-nin sədri vəzifəsində dövlət qadın siyasətinin həyata keçirilməsinə rəhbərlik etmiş, VI çağırış Mıllı Məclisın deputatı və komıssıya sədrı seçilmişdir. Bahar Muradova Milli Məclis sədrinin müavini, II-V çağırış Milli Məclisin üzvü, 2000-ci ildən ali qanunverici orqanın sədrinin müavini vəzifəsini daşımış, 2020-ci ilin martından AQUPDK-nin sədridir.

Ölkənin ali qanunverici orqanının qadın millət vəkillərinin fəaliyyətinin mühüm istiqamətlərindən biri də respublikanın qadın ictimai birlikləri və təşkilatları ilə səmərəli əməkdaşlıqdır. Respublika qadınları arasındakı yeni əməkdaşlıq formalarının ənənəvi xarakter alması, cəmiyyətimizin inkişafının aktual məsələlərinə dair konstruktiv dialoqun aparılması qanunverici və normayaradıcı qərarların qəbul edilməsinə kömək edə bilər.

В ближайшее время стоит ожидать выхода взаимодействия Азербайджана и Европы на еще более широкое поле. В начале года Европейский союз выразил желание участвовать в процессе восстановления освобожденных территорий. Об этом сказал пресс-секретарь ЕС по иностранным делам и политике безопасности Питер Стано. По его словам, в настоящее время ЕС совместно с ООН и другими международными организациями обсуждает модальности и условия возможного участия в восстановлении Карабаха (14).

Это намерение Евросоюза заслуживает внимания, потому что в происходивших в последние несколько месяцев в нашем регионе процессах Европа не заняла какой-либо внятной позиции. А сегодня Евросоюз откликнулся на приглашение Президента Ильхама Алиева к друзьям и партнерам Азербайджана принять участие в возрождении освобожденных территорий. В какой бы форме не осуществлялось это участие, оно будет выгодно европейским компаниям и послужит укреплению мира. Имеет место чрезвычайно редкий, а может, и единственный в истории факт, когда страна, пострадавшая от тридцатилетней оккупации, освободив свои земли собственными силами, теперь восстанавливает их на собственные средства и приглашает державы на роль подрядчиков. Это большая работа, которая может стать символом объединения усилий и Запада, и Востока для реализации благородной цели.

С конкретными предложениями уже выступила Венгрия - давний и надежный партнер Азербайджана в Европе. Венгерский EximBank открыл кредитную линию в размере 100 миллионов долларов для компаний, намеревающихся участвовать в программе реконструкции освобожденных территорий. Кроме того, Венгрия также предложила грант в размере 25 тысяч евро на работы по разминированию.

К сожалению, некоторые политические круги в Западной Европе занимаются распространением дезинформации, демонстрируя антиазербайджанские подходы. Как отметил, принимая итальянскую делегацию, Президент Ильхам Алиев, война показала, кто, какие страны являются настоящими друзьями Азербайджана. Италия - одна из тех стран, которые поддержали Азербайджан. Несомненно, она находится в выигрыше, так как перед ней открываются возможности тех проектов, которые будут осуществляться на освобожденных территориях. Глава государства как раз говорил о том, что итальянским компаниям уже сделаны соответствующие предложения. Те же, кто занял антиазербайджанскую позицию, вряд ли смогут воспользоваться партнерством с Азербайджаном.

Позиция итальянских парламентариев, отметил политолог, показывает, что в Европе есть те, кто объективно оценивают ситуацию и стараются донести ее до широкой международной общественности. Наш собеседник выразил надежду, что объективная оценка найдет свое продолжение в рамках сессии ПАСЕ и будет поддержана и другими государствами. А объективная политико-правовая оценка последствий армянской оккупации будет способствовать укреплению мира и стабильности в регионе и позволит предотвратить повторение подобного в любой другой географии (15).

Ранее к работе по восстановлению освобожденных районов подключилась Италия, являющаяся одной из ведущих стран ЕС. Между Италией и Азербайджаном был подписан договор по сотрудничеству в рамках создания энергетической инфраструктуры Карабаха. Итальянская компания "Ansaldo Energia" обеспечит оборудованиями 4 подстанции мощностями 110 киловольт, которые будут построены в Агдамском, Физулинском, Кельбаджарском и Губадлинском районах Азербайджана (14).

На фоне больших изменений в нашем регионе после победы Азербайджана в войне, сегодня уверенно возвращается в повестку и вопрос заключения нового всеобъемлющего соглашения между Азербайджаном и ЕС. Некоторое время в этом вопросе по ряду причин наблюдалась пауза, теперь, когда одержавший военную победу Азербайджан в разы поднял свой авторитет на мировой арене, его позиции в переговорах с европейцами значительно укрепились. Наша страна с самого начала не стремилась к партнерству в общей массе, а выступала за особый характер взаимоотношений с Европой. Думается, теперь к этому будет стремиться и Европа. Тот же посол Франции в Азербайджане Закари Гросс на днях напомнил о соглашении, заявив, что укрепление партнерства Азербайджана и Европы посредством нового договора о сотрудничестве является одним из самых его заветных желаний (14).

Визит президента Турции Реджепа Тайипа Эрдогана в Азербайджан 15 июня 2021 года, посещение им города Шуша и подписание Шушинской декларации, несомненно, войдут в историю не только двусторонних отношений, но и всего региона как важное достижение, определяющее вектор политических процессов на годы вперед. Что касается непосредственно турецко-азербайджанского сотрудничества, то Шушинская декларация открывает новый этап

сотрудничества. Впервые за многолетнюю историю крепкой дружбы в двустороннюю политико-правовую базу вводится термин «союзничество» (2, с.4).

В случае угрозы или агрессии со стороны третьего государства или государств против независимости, суверенитета, территориальной целостности, неприкосновенности или безопасности международно-признанных границ любой из сторон предусматривается провести совместные консультации и выступить с инициативами в соответствии с целями и принципами Устава ООН для устранения этой угрозы или агрессии. Также предполагаются оказание необходимой помощи друг другу в соответствии с Уставом ООН, организация согласованной деятельности силовых и командных структур вооруженных сил (2, с.4).

В Шушинской же декларации акцент сделан именно на совместных усилиях по перестройке и модернизации вооруженных сил в соответствии с современными требованиями. Говорится о реализации мер, направленных на укрепление обороноспособности и военной безопасности, повышение навыков совместной деятельности вооруженных сил двух стран. То есть речь идет о координации и синхронизации процессов по строительству вооруженных сил, максимальной интеграции вооруженных сил двух стран. Этот процесс призван направлять регулярные совместные заседания советов безопасности обеих стран по вопросам национальной безопасности (2, с.5).

Турция берет обязательство встать на защиту Азербайджана в случае нападения на него, но также Азербайджан будет купировать риски, связанные с военно-политической безопасностью Турции в регионе присутствия, т.е. на кавказском направлении. В мире, где долгосрочные или ситуативные военно-политические альянсы становятся актуальными, Азербайджан не может участвовать в одиночку в выстраивании национальной системы безопасности. Особенно учитывая, что Армения продолжает активно вовлекать в свои военно-политические игры против Азербайджана и Турции нерегиональных акторов. В частности, известно о стараниях Еревана сформировать военный альянс Армения-Греция-Кипр. Откровенные заявления президента Франции Э.Макрона о готовности оказать военную помощь Армении также могут восприниматься в Баку как угроза его безопасности (2, с.5).

Таким образом, военно-политический союз Азербайджана с Турцией призван сбалансировать риски от вовлечения Армении в военные альянсы с внешними игроками и в конечном счете может содействовать безопасности и стабильности на Южном Кавказе.

17 июня 2021года президент Турции Реджеп Тайип Эрдоган упомянул о том, что создание военной базы ВС Турции в Азербайджане является исключительной прерогативой азербайджанской стороны. Он сказал, что этот вопрос не выходит за рамки положений Шушинской декларации, но не конкретизировал по этому поводу (2, с.5).

*Заключение.* Некоторые ангажированные эксперты и издания сразу же поспешили связать эту тему с усилением НАТО в регионе и активизацией натовских приготовлений против России. При этом совершенно не упоминалось, что НАТО является самостоятельным институтом, с которым Азербайджан реализует Индивидуальный план партнерства, и что отношения с ним не выходят за рамки этого плана. А взаимодействие Азербайджана и Турции в военно-политической и военно-технической сферах может лишь опосредованно влиять на отношения Баку и Брюсселя. При этом сам блок НАТО не будет стремиться покровительствовать военно-политическим шагам Баку, осуществлять над ним опеку в какой-либо форме. Поэтому ни о каком противостоянии по линии НАТО-Россия в Азербайджане речи быть не может (2, с.5-6).

## ЛИТЕРАТУРА

1. Алиев объявил о создании российско-турецкого центра по Карабаху в Агдаме / Газета «Известия». 12 декабря 2020. https://iz.ru/1099200/2020-12-12/aliev-obiavil-o-sozdanii-rossiisko-turetckogo-tcentra-po-karabakhu-v-agdame. Дата обращения: 15.07.2021.
2. Велизаде Ильгар. Платформа будущего // Журнал Region plus. №13(433), 1.07.2021. с.4-6.
3. Гасанов Намик. Курс на самоубийство // Журнал Region plus. №21 (419), 01.12.2020, с.4-10.
4. Гасанов Намик. Полный суверенитет // Журнал Region plus. №22 (420), 15.12.2020. с.10.

5. Qocayev İsmayıl. ABŞ hərəkətlənir, ancaq qatar çoxdan gedib. - https://sherg.az/x%C9%99b%C9%99r/148050?fbclid=IwAR2AV1nxwLcWbvrAwZ7QTuPXO59QEpP6Toj-7XbSr6td3I8UG0RAu0v0Lh8. Дата обращения: 15.07.2021.
6. Гусейнов Анар. Азербайджан считает карабахский конфликт завершенным. https://eadaily.com/ru/ampnews/2021/01/13/azerbaydzhan-schitaet-karabahskiy-konflikt-zavershennym-intervyu-s-ekspertom. Дата обращения: 15.07.2021.
7. Le Monde: Шуша была взята практически в рукопашном бою. https://1news.az/news/le-monde-shusha-byla-vzyata-prakticheski-v-rukopashnom-boyu. Дата обращения: 15.07.2021.
8. Маилов Намик. Карабах, мы вернулись! // Журнал Region plus. №20 (418), 15.11.2020, с.5-9.
9. Маилов Намик. Победа железного кулака // Журнал Region plus. №22 (420), 15.12.2020. с.4-6.
10. Мамедов Али. Кузнецов: Американский сценарий по Южному Кавказу... https://ru.axar.az/news/politika/533178.html?fbclid=IwAR0nbZz_b4bO_ZpLrjtiZ1Pm4gNHgNzHiWbxTUFy12XR5UwJQvwGELmHWQ0. Дата обращения: 15.07.2021.
11. Назимоглу Натиг. На пути к миру // Журнал Region plus. №22 (422), 15.01.2021, с.5.
12. Оруджев Рауф. Безграмотные действия французских парламентариев сопряжены с очень серьезными последствиями для их страны.. https://m.zerkalo.az/ekspert-bezgramotnye-dejstviya-frantsuzskih-parlamentariev-sopryazheny-s-ochen-sereznymi-posledstviyami-dlya-ih-strany/ Дата обращения: 15.07.2021.
13. Строкань Сергей. От всей Шуши Турция и Азербайджан создали новый альянс на Южном Кавказе / Газета "Коммерсантъ".. №101 от 16.06.2021, стр. 6.
14. Тарившердиева Лейла. Европа взглянула на Азербайджан по-новому после победы в Карабахе. https://news.day.az/politics/1306046.html?fbclid=IwAR2EYyAYmhLo-PlIjTFZdUbXR7zjIh9NLFsA6jOg1wDp5mlA9P7Mbs8eEKg. Дата обращения: 15.07.2021.
15.15. Таривердиева Лейла. Италия выбрала Азербайджан и получила огромные перспективы и возможности. https://news.day.az/politics/1296370.html. Дата обращения: 15.07.2021.

**AYNUR HÜSEYNOVA**
*t.ü.f.d., dosent əvəzi, Bakı Dövlət Universiteti,*
*Qafqaz xalqlarının tarixi kafedrası*

## QALİBİYYƏTLİ QARABAĞ MÜHARİBƏSİNƏ BEYNƏLALQ REAKSİYA

Azərbaycan uzun illər münaqişənin beynəlxalq birliyin vasitəçiliyi ilə sülh yolu ilə həllini gözləyirdi. Münaqişənin həlli üçün hüquqi bazanın gücləndirilməsi istiqamətində genişmiqyaslı işlər görülmüşdü. Azərbaycan diplomatiyasının səyləri ilə BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsinin vacibliyinə dair qəbul etdiyi dörd qətnamədən əlavə BMT Baş Məclisi, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərarlarlar da qəbul edilmişdilər. Lakin təəssüf ki, bütün bu qərarlar kağız üzərində qaldı. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli prosesi faktiki olaraq beynəlxalq hüquq qaydalarının dünya siyasətinin əsas oyunçularının maraqlarına xidmət etdiyini bir daha göstərmiş oldu. Onlar ehtiyac duyduqları beynəlxalq hüquq qaydaları işləyir, ehtiyacları olmadıqda isə münaqişə dondurulur, maraqlı qüvvələr bundan istifadə etməyə başlayırdı. Əks halda, təcavüzə məruz qalmış ölkənin təcavüzkar ölkə ilə eyniləşdirilməsini necə izah etmək olar? Hələ 27 il əvvəl BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını tanımış və erməni işğalçı qüvvələrinin oradan çıxarılmasını tələb etmişdi, lakin Ermənistanın bu qətnamələri yerinə yetirməsini tələb etmək əvəzinə ATƏT-in Minsk qrupu təmsilçiləri bütün bu illər ərzində "nə sənin, nə də bizim" formatında müxtəlif həll variantları təklif edən bəzi qarşılıqlı güzəştlərdən bəhs edirdilər.

Bütün bunlar münaqişənin hərbi yolla həllini qaçılmaz etdi. Erməni ordusu cəmi 44 gün ərzində məğlubiyyətə uğradıldı, texnikası və canlı qüvvəsi məhv edildi, Azərbaycan öz gücünü,

qüdrətini nümayiş etdirdi. 10 Noyabr 2020 tarixində Ermənistan kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı.

*Açar sözlər:* Azərbaycan, Rusiya, Türkiyə, ATƏT-in Minsk qrupu, Ermənistan, qarşıdurma, qələbə, bəyannamə.

**AYNUR HUSEYNOVA**
*Candidate of Historical Sciences, Acting Associate Professor*
*of the Department "History of the Peoples of the Caucasus" of Baku State University*

## INTERNATIONAL REACTION TO THE VICTORIOUS KARABAKH WAR

For many years, Azerbaijan, having gained patience, waited for the peaceful settlement of the issue through the mediation of the international community. Extensive work has been done to strengthen the legal framework for the settlement of the conflict. Through the efforts of Azerbaijani diplomacy, four UN Security Council resolutions on the need to liberate Azerbaijani lands from Armenian occupation were also supported by resolutions of the UN General Assembly, the European Parliament, the Non-Aligned Movement, the Organization of Islamic Cooperation and other international organizations. Unfortunately, all these documents remained on paper. The process of peaceful settlement of the Armenian-Azerbaijani conflict has shown that international law is actually put at the service of major players in world politics. When they need it, it works, when not, the conflict freezes and the interested forces begin to draw their benefits from it. How else can we explain the equating of the aggressor country with the victim? 27 years ago, the world, represented by the UN Security Council, recognized the occupation of Azerbaijani territories and demanded the withdrawal of the Armenian occupation forces from there, but instead of demanding that Armenia implement these resolutions, the international mediators, represented by the OSCE Minsk Group, have been talking about some mutual concessions all these years, offering various settlement options in the "neither yours nor ours"format.

All this made a military settlement of the conflict inevitable. The Armenian army was destroyed in just 44 days, its equipment and manpower were destroyed, and Azerbaijan demonstrated its strength, its power. On November 10, 2020, Armenia was forced to sign an act of surrender.

*Keywords:* Azerbaijan, Russia, Turkey, OSCE Minsk Group, Armenia, confrontation, victory, declaration.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. İradə Hüseynova, t.e.d. İbrahim Zeynalov.*

**UOT 316.285**

**MƏRYƏM ORUCLU**

*AMEA Arxeologiyavə Etnoqrafiya İnstitutunun Antropologiya Mərkəzinin aparıcıelmi işçisi, t.ü.f.doktoru,dosent*
**oruclu.meryem@gmail.com**

# ETNİK AZLIQLAR MƏSƏLƏSİ VƏ ETNO-SİYASİ MÜNAQİŞƏLƏRİN NİZAMLANMASINDAƏSAS PRİNSİPLƏR

*Məqalədə beynəlxalq aləmdə mövcud şəraitə uyğun olaraq etnik azlıqlar məsələsinə müxtəlif yanaşmalar tədqiq olunur. Eyni zamanda müasir dövrdə etnik münaqişələrin sayinin xeyli dərəcədə artması və onlarin nizamlanmasının dünyada qəbul edilmiş əsas prinsipləri geniş araşdırılır və təhlil edilir. O cümlədən etnik münaqişələrin nizamlanmasında əsas prinsiplərin mövcud situasiyaya uyğun dəyərləndirilməsi məsələsi analiz edilir.*

*Açar sözlər*: etnik azlıq, münaqişə, nizamlanma, prinsiplər.

*Giriş*. SSRİ-nin süqutu ilə iki super güc arasında mövcud olan gərgin soyuq müharibənin bitməsi yeni reallıqlar ortaya qoydu. Belə ki, post-sovet məkanında meydana gələn müstəqil milli dövlətlərdə etnik azlıq probleminin yaranması bəhs edilən məkanda etnik münaqişələrin geniş vüsət almasına gətirib çıxardı. XX əsrin sonlarından başlayaraq dövlətlərarası münaqişələrin sayının xeyli dərəcədə azalması və bunun əksinə olaraq etnik münaqişələrin sayının kifayət qədər artması etnik azlıqlar və etnik münaqişələrin nizamlanması məsələsini daha da aktuallaşdırdı.

Qeyd edək ki, müxtəlif tarixi şəraitlərə uyğun olaraq etnik azlıqlar məsələsi müntəzəm olaraq aktual olmaqda davam etmişdir. Eyni zamanda müxtəlif dövrlərdə etnik azlıq məsələsinə münasibətdə fərqli yanaşmalar mövcud olmuşdur. Xüsusilə, etnik münaqişələrin nizamlanması ilə əlaqədar tarixən formalaşan əsas prinsiplərin hansına üstünlük verilməsi daima mübahisə və müzakirə obyekti olmuşdur. Bu səbəbdən də mövcud şəraitə uyğun olaraqetnik münaqişələrin özünəməxsus xüsusiyyətlərinin dərindən öyrənilməsi və araşdırılması çox vacib və zəruridir.

*Etnik azlıqlar məsələsi*. Qeyd edək ki, ümumiyyətlə tarixə nəzər salsaq aydın olar ki, etnik azlıqlar məsələsinə ilk sistematik və beynəlxalq yanaşma Birinci və İkinci Balkan Müharibələrindən sonra Osmanlı imperiyasının hakimiyyəti altında olan Balkanlarda Qərb dövlətlərinin dəstəyi ilə milli dövlətlərin yaradılmasından sonra başladı. Xüsusilə Birinci Dünya Müharibəsindən sonra yaradılan Millətlər Cəmiyyəti etnik azlıqların dil, təhsil, mədəniyyət və siyasi təmsil olunma məsələlərinə xüsusi diqqət ayırmağa başladı. Lakin Millətlər Cəmiyyəti 1919-cu il Versal müqaviləsindən sonra mandat prinsipi əsasında qalib dövlətlər arasında bölüşdürülmüş ərazilərdə müstəqillik əldə etmiş milli dövlətlərdə etnik məsələlərin siyasiləşməsinin qarşısını ala bilmədi (1, s.4).

Beləliklə, Birinci Dünya Müharibəsindən sonra yaranan Millətlər Cəmiyyətinin mövcudluğu dövründə milli azlıqların hüquqlarının müdafiəsi prinsipi ön planda idisə, İkinci Dünya Müharibəsindən sonra isə etnik münaqişələrə münasibət kökündən dəyişdi. Belə ki, İkinci Dünya Müharibəsindən sonra dünyanın bir-birinə tamamilə ziddvə barışmaz düşmən olan iki qütbə bölünməsi etnik azlıqların hüquqlarının müdafiəsi məsələsini arxa plana atdı. Müharibədən sonra hegemon və supergüc hesab olunan ABŞ daha çox insan hüquqlarının müdafiəsini ön plana çıxardı.

Qeyd edək ki, soyuq müharibə dövründə hər iki qütb üçün vahid düşmənə qarşı mübarizə ön plana çıxdığına görə millətlər öz aralarındakı problemləri arxa plana atmağa məcbur oldular və ya məcbur edildilər. Məsələn, SSRİ kimi totalitar və güc əsasında qurulmüş, güclü nəzarətin mövcud olduğu cəmiyyətdə milli problemləri nəinki ön plana çıxarmaq, hətta bu problemlərdən danışmaq belə mümkün deyildi. Buna görə də soyuq müharibə dövründə kapitalizm və kommunizm kimi iki qütbə ayrılmiş ölkələrdə milli azlıqların hüquqları və ya etnik ziddiyyətlər önəmli məsələlər sırasında deyildi. Xüsusilə, milli məsələnin uğurla həllindən bəhs edən kommunist ideologiyasının hökm sürdüyü SSRİ-də vahid sovet xalqının formalaşması istiqamətində güclü təbliğat aparılır və əks qütbə qarşı vahid cəbhədə birləşmək əsas məqsəd hesab olunurdu. Göründüyü kimi, soyuq müharibə dövründə bir-birinə zidd olan kommunizm və kapitalizm cəbhələrində bir-biri ilə üst-üstə düşən azsaylı məsələlərdən biri din, dil və irqi əsasda münaqişələrin qəbul edilməzliyi idi. Belə ki, rəsmi kommu-

nist ideologiyası sinfi inqilabi mübarizəninin bütün dünyanı dəyişdirəcəyi prinsipindən çıxış edərək bütün insanların qardaşlığından və bütün dünya zəhmətkeşlərinin varlı istismarçılara qarşı birləşərək mübarizə aparmalı olduğundan bəhs edirdilər. Əks qütbün ideoloqları isə etnik münaqişələri nasizmin və faşizmin dirçəldilməsi kimi qiymətləndirərək bu cür münaqişələrin qəbul edilməzliyini əsaslandırmağa çalışırdılar.

Soyuq müharibənin başa çatması ikiqütblü dünya sisteminə son qoydu və dövlətlərarası münasibətlərdə yeni sistem zərurəti yarandı. ABŞ yeganə iqtisadi, siyasi və hərbi super güc oldu və o, dövlətlərarası münasibətlərin nəzarətçisi rolunu oynamağa başladı. O cümlədən soyuq müharibə başa çatdıqdan sonra Qərb dövlətləri etnik münaqişələrə bir qədər fərqli yanaşmağa başladılar. Belə ki, Qərb dövlətləri inkişaf etməkdə olan ölkələrə öz kapitalı vasitəsi ilə siyasi və hərbi müdaxilələr etməyə başladılar. Eyni zamanda keçmiş sosialist ölkələrinə qanunun aliliyi, demokratiya və s. Qərb dəyərlərinin müdafiəsi adı altında siyasi müdaxilələr edilməsi genişləndi.

Qeyd edək ki, soyuq müharibənin bitməsi nüvə müharibəsi təhlükəsini xeyli azaltsa da, etnik münaqişələrin qarşısını ala bilmədi. Belə ki, iki super güc SSRİ və ABŞ arasında barışmaz və kəskin qarşıdurmanın iflasa uğraması regional münaqişələrin nizamlanması ilə bağlı optimist fikirlərin yaranmasına səbəb olmuşdu. Lakin bu optimist fikirlər özünü doğrultmadı. Əksinə ikiqütblü dünyanın dağılması davakar millətçiliyin, separatizmin növbəti dalğasının yaranmasına gətirib çıxardı. Köhnə münaqişələr (Hindistan, Sudan,Yaxın Şərq, Böyük Britaniyada Olster, İspaniyada basklar, Fransada bretonlar və korsikalılar, Kanadada Kvebek və s.) öz yekun həllini tapmadı (2, s.5-7). Əksinə köhnə münaqişələrlə yanaşı, dünyanın müxtəlif bölgələrində çoxsaylı insan itkisinə səbəb olan yeni münaqişə ocaqları alovlanmağa başladı. Məsələn, keçmiş Yuqoslaviyada, post-sovet ölkələrində, xüsusilə Cənubi Qafqazda etnik münaqişələrin artması böyük narahatlıq doğurdu.

Qeyd edək ki, soyuq müharibə bitdikdən sonra post-sovet məkanında etnik münaqişələrin geniş vüsət alması polietnik sosialist federasiyaların süqutu və həmin məkanda meydana gələn gənc müstəqil dövlətlərdə yeni milli azlıq probleminin üzə çıxması ilə bağlı idi (3, s.95). Məhz keçmiş SSRİ-nin polietnik siyasi sistemə malik olması bu qurumun süqutundan sonra post-sovet məkanında etnik münaqişə riskinin artmasına səbəb oldu. Özünü SSRİ-nin varisi hesab edən Rusiyada mövcud olan münaqişə ocaqları - Çeçenistan, Kalininqrad anklavı, Kuril adaları və s. problemlər hələ də öz yekun həllini tapmayıb. O cümlədən, post-sovet məkanında xüsusilə Azərbaycan, Moldova, Ukrayna, Qazaxıstan, Gürcüstanda və s. mövcud olan münaqişələr həll olunmamış münaqişələr sırasındadır.

Son zamanlar aparıcı dövlətlər arasında iri miqyaslı müharibələrin mümkünlüyü ideyasından ibarət olan alman ideoloqu Klauzeviç paradiqması artıq öz aktuallığını itirməkdədir. Belə ki, soyuq müharibənin bitməsi münaqişələrin xarakterində ciddi dəyişikliyə səbəb olmüşdur. Yəni XX əsrin 90-cı illərindən başlayaraq dövlətlərarası münaqişələrin sayı xeyli dərəcədə azalmış və əksinə daxili müharibələrin, xüsusilə də etnik münaqişələrin sayı xeyli artmışdır. Məsələn, Mərkəzi Afrikada və Cənubi Asiyada çoxsaylı silahlı qarşıdurmalar baş vermişdir. Belə bir faktı qeyd etmək lazımdır ki, 1990-1999-cu illərdə dünyanın 80 ölkəsində qeydə alınmış 118 münaqişədən yalnız 10-u dövlətlərarası müharibələr olmuşdur. Qalan münaqişələr isə daxili siyasi münaqişələrin bu və ya digər formalarında öz əksini tapmışdır (4, s.31).

Dövlətlərarası münaqişələrin belə kəskin şəkildə azalmasının səbəbini bəzi tədqiqatçılar ilk növbədə qloballaşmanın nailiyyəti kimi qiymətləndirirlər. Müasir dövrdə əksər dövlətlər iqtisadiyyatın hərbi əməliyyatları əvəz etməsi tendensiyasına üstünlük verirlər. Hazırda iqtisadiyyatın qloballaşması elə bir səviyyəyə çatıb ki, dünyanın bir regionunda baş verən silahlı münaqişə "dalğa" effekti yaradaraq digər regionlara da ciddi təsir göstərir. Bu, qiymətlərin qalxmasında, inflyasiyada və s. özünü göstərir. Məhz bu amil dövlətləri bir-biri ilə müharibə aparmaqdan çəkindirir. Digər tərəfdən etnik münaqişələri yalnız daxili şəraitlə əlaqələndirmək və onu sırf daxili münaqişələr kateqoriyasına aid etmək əlbəttə ki yanlış olardı. Çünki bu münaqişələr bu və ya digər formada qonşu dövlətlərə öz təsirini göstərir və praktiki olaraq regionun sabitliyi üçün ciddi təhlükə yaradır.

Hazırkı dünyada baş verən etnik münaqişələrin əksəriyyəti yaşadığı dövlətin tərkibindən çıxmaq və həmin dövlətin ərazisində öz dövlətini yaratmaq məqsədini qoyur və bu məqsəd müəyyən separatçı qüvvələr tərəfindən həyata keçirilir.

Məsələn, Cənubi Qafqazda - Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Moldovada Dnestryanı separatçı qurumları buna misal göstərmək olar. Lakin müasir dövrdə dünya dövlətlərinin əksəriyyəti milli azlıqların ərazisində yaşadığı dövlətin razılığı olmadan ondan ayrılması hüququnu qəbul etmir və tanımır. Yəni bu məsələdə dünya dövlətlərinin "antiseparatist" konsensusu formalaşıb. Bunun nəticəsidir ki, artıq separatizm daxili silahlı münaqişələrin törədilməsi məqsədi kimi öz əhəmiyyəyini itirir (5, s.140).

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süqutundan sonra post-sovet ölkələrində meydana gələn etno-siyasi ziddiyyətlərin kökündə SSRİ hökumətinin müxtəlif vaxtlarda sövet respublikaları sərhədlərini dəfələrlə dəyişdirmə siyasəti dayanır. Belə ki, sovet hakimiyyəti dövründə sovet respublikaları arasında mövcud sərhədlər heç bir ədalət prinsipinə əsaslanmadan 40 dəfədən artıq dəyişikliyə məruz qalıb (6, s.57). Eyni zamanda muxtar respublikalar və vilayətlər arasındakı sərhədlər də daha çox dəyişikliyə məruz qalıb. Bunu sovet respublikalarından biri olan Azərbaycan torpaqlarının müxtəlif vaxtlarda Ermənistana və Gürcüstana verilməsi ilə bağlı faktlar bir daha sübut edir. Məhz SSRİ-nin 70 illik mövcudluğu dövründə bu cür sərhəd dəyişikliklərinin həyata keçirməsi və əhalinin müxtəlif vaxtlarda deportasiyası nəticəsində sovet imperiyası daxilindəki sərhədlər tarixi, hüquqi və etnik nöqteyi-nəzərindən sabit deyildi.

Korrupsiyanın və etnik ekstremizmin sıx əlaqədə olduğu bölgələrdə əksər etnik münaqişələrin həll edilməməsinin əsas səbəbi kimi bu amil önəçəkilir. Məhz bu qüvvələr maraq dairələrində olduqları bölgələrdə qeyri-sabit vəziyyətin saxlanmasında olduqca maraqlıdırlar. Belə qeyri-sabit vəziyyət mövcud resursları istismar etmək, hakimiyyəti əldə saxlamaq üçün lazım olur. Bu isə həmin qüvvələrə mövcud regionda sərvət və nəzarəti öz əlində saxlamağa imkan verir. Ona görə də bu qüvvələr mövcud münaqişələrin sona çatıb həll olunmasında deyil, əksinə bu münaqişələrin uzanmasında və dalana dirənməsində maraqlıdırlar. Məhz bunun nəticəsidir ki, dunyada mövcud olan münaqişələrin əksəriyyəti dondurulmuş vəziyyətdədir və nizamlanmamış qalırlar.

*Etno-siyasi münaqişələrin nizamlanmasına dair əsas prinsiplər*. Tarixən etnik münaqişələrin həllində iki prinsip əsas götürülür. Bunlar millətlərin öz müqəddəratını təyinetmə hüququ və ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı prinsipləridir.

İkinci Dünya Müharibəsindən sonra uzun müddət davam edən soyuq müharibə dövründə beynəlxalq münasibətlərdə sərhədlərin toxunulmazlığıvə ərazi bütövlüyü prinsipi üstünlük təşkil edirdi. Həmin dövrdə dünya SSRİ və ABŞ-ın rəhbərliyi altında qarşı-qarşıya duran düşmən və barışmaz hərbi-siyasi bloklara bölünmüşdü. Buna görə də həmin vaxt hər iki tərəf ehtiyat edirdi ki, özünü təyinetmə prinsipinə əsasən dünyada ola biləcək hər hansı dəyişiklik mövcud qüvvələr balansını poza bilər və qanlı toqquşmalara gətirib çıxara bilər. Həmin dövrdə istisna hallar yalnız müstəmləkə rejimlərində olan xalqlara edilirdi. Məhz bu istisnalar nəzərə alınaraq BMT-nin Baş Assambleyası 1960-cı ildə dekolonizasiya haqqında Bəyannamə qəbul etdi. Bunun nəticəsində müstəmləkə əsarətində olan bir sıra dövlətlər , o cümlədən Sinqapur, Banqladeş və digərləri azadlıq əldə etdilər.

SSRİ dağılandan və sosializm bloku ləğv edildikdən sonra vəziyyət bir qədər dəyişdi. Belə ki, yaranmış yeni situasiyada özünü təyinetmə və ərazi bütövlüyü məsələsinə fərqli yanaşmalar tələb edən fikir və mülahizələr meydan çıxdı. Həmin mülahizələrə görə, xalqların özünü təyinetmə hüququ ilə əlaqədar tələbləri legitim cəhd kimi görünə bilər. Lakin bu istəyin əksər hallarda mövcud dövlətin sərhədləri çərçivəsində həll olunması fikri üstünlük təşkil edir. Millətlərin öz müqəddəratını təyinetmə hüququ heç də "ayrılmaq"hüququ deyil. Yəni millətlərin öz müqəddəratını təyinetmə hüququ muxtariyyət, yerli özünü idarəetmə və s. formalarda təmin edilə bilər. Burada xüsusilə xalq, millət və etnik qrup anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Bununla bərabər, bəzi istisna təşkil edən hallarda yeni dövlətin yaradılmasının zəruriliyi də qeyd edilir. Əgər belə dəyişiklik baş verərsə bunun dinc yolla həllinin tapılması vurğulanır.

Müasir dünyada özünü təyinetmə və dövlət sərhədlərinin toxunulmazlığı probleminə yeni yanaşmanın tərəfdarları olan müasir nəzəriyyəçilər xalqların özünü təyinetmə tələblərinin aşağıdakı təsnifatını vermişlər:

Birincisi, antikolonial özünü təyinetmədən ibarət olan tələblərə dair prinsipdir. Bu özünü təyinetmə prinsipi heç bir mübahisə doğurmur və 1960-cı ildə BMT-nin qəbul etdiyi Bəyannaməyə uyğun olaraq həyata keçirilir.

İkincisi, subdövlət özünü təyinetmədən ibarət olan prinsipdir. Burada əsas məsələ mövcud dövlətin tərkibində olan etnik qrupun həmin dövlətin tərkibindən çıxıb yeni dövlət yaratmaq cəhdindən ibarətdir. Subdövlət özünü təyietmə kateqoriyasına Çində Tibet, Hindistanda Pəncabdakı sikx icması, Rusiyada Çeçenistan, Fransadan ayrılmağa çalışan Korsika və digərləri aiddir.

Üçüncü qrupa isə transdövlət özünü təyinetməsi aid edilir. Bu prinsipin əsas mahiyyəti ondan ibarətdir ki, xalqın bir qrupu yaşadığı mövcud dövlətdən ayrılıb başqa bir dövlətə birləşmək istəyir. Məsələn, Azərbaycanda yaşayan Dağlıq Qarabağ ermənilərinin Ermənistana, Kaşmirin Pakistana, Cənubi Osetiyanın Rusiyanın ərazisində olan Şimali Osetiyaya birləşmək cəhdləri bunun bariz nümunəsi ola bilər. Eyni zamanda Krım və Dnestryanı rusların Ukraynadan və Moldovadan ayrılıb Rusiyaya birləşmək cəhdləri, o cümlədən Şimali İrlandiyadakı katolik irlandların İrlandiya Respublikasına birləşmək istəklərini də buna misal göstərmək olar (7, s.38).

Burada bir məsələni qeyd edək ki, xalqların öz müqəddəratını təyin etmək uğrunda apardığı mübarizədə ərazi mübahisəsi olmadığına görə onlar ərazi mübahisəsinin subyekti ola bilməz. Əksər ərazi mübahisələrində subyekt iki dövlət olur. Ərazi mübahisələrini əsasən iki qrupa bölmək olar. Birincisi, sərhəd xətləri dəqiq müəyyənləşdirilməmiş olduğuna görə mübahisə onların necə müəyyənləşdirilməsi ilə bağlı olur. İkincisi isə, sərhəd xəttinin müəyyən edilməsi haqqında ya iki fərqli müqavilə olur və mübahisə onların hansının qanuni olması ilə bağlı olur, ya da mübahisə müqavilənin müxtəlif cür təfsir edilməsi ilə bağlı olur (8, s.121). Məsələn, Ermənistan-Azərbaycan münaqişəsi ərazi mübahisəsi deyil, ErmənistanınAzərbaycana qarşı təcavüzüdür.

XX əsrin 80-ci illərinin sonunda Sovet imperiyasının zəifləməsi fonunda sovet respublikalarının əksəriyyətində etnik münaqişələr və ya etnik münaqişə kini təqdim olunan toqquşmalar geniş vüsət aldı. Bu toqquşmaların yaranma səbəbləri müxtəlif amillərlə əlaqələndirilir. Bu məsələdə etnosların psixoloji durumu qeyd edilməklə bərabər, əksər milli problemlərin kökündə Sovet imperiyasının qeyri-rus millətlərə münasibətdə ayrı-seçkilik siyasəti yeritməsi ön plana çəkilir. Eyni zamanda ayrı- ayrı siyasi və sosial qrupların iqtisadi və təbii resurslar üzərində nəzarəti ələ keçirmək məqsədilə post-sovet ölkələrində mövcud olan ziddiyyətlərdən alət kimi istifadə etmək istəyini də bu amillər sırasına aid etmək olar.

*Nəticə.* Beləliklə, araşdırmanın əsasında belə nəticəyə gəlmək olar ki, Birinci və İkinci Balkan Müharibələrindən, xüsusilə Birinci Dünya Müharibəsindən sonra etnik azlıqlar məsələsinə xüsusi münasibət göstərilməyə başlanıldı. Bəhs edilən dövrdə etnik azlıqların hüquqlarının müdafiəsi ön planda idisə, İkinci Dünya Müharibəsindən sonra dəyişən situasiyaya uygun olaraq bu poblemlə bağlı məsələlər demək olar ki, arxa plana keçdi. Belə ki, dünyanın iki barışmaz qütbə bölünməsi və ABŞ-ın daha çox insan hüquqlarının müdafiəsinə üstünlük verməsi, o cümlədən SSRİ kimi totalitar cəmiyyətin mövcud olması etnik azlıqlar məsələsini kölgədə qoydu. Lakin XX əsrin sonlarında soyuq müharibənin bitməsi ilə əlaqədar olaraq Qərb dövlətləri etnik münaqişələrə fərqli münasibət göstərməyə başladılar. Yəni onlar inkişaf etməkdə olan ölkələrə Qərb dəyərlərinin müdafiəsi adı altinda siyasi müdaxilələr etməyə başladılar. Eyni zamanda meydana gələn gənc dövlətlərdə mili azlıq probleminin üzə çıxması etnik münaqişələrin güclənməsinə təkan verdi.

Etnik münaqişələrin nizamlanmasının əsas prinsiplərindən olan millətlərin öz müqəddəratını təyinetməvə ya ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərindən hansına üstunluk verilməsi məsələsi uzun müzakirə obyektinə çevrildi. Özünü təyinetmə prinsipinə əsasən dünyada ola biləcək hər hansı dəyişikliyin mövcud qüvvələr balansını poza biləcəyini nəzərə alaraq SSRİ və ABŞ soyuq müharibə dövründə bəzi istisnalar olmaqla ərazi bütovlüyü prinsipinə üstünlük verirdilər. Soyuq müharibə bitdikdən sonra münaqişələrin nizamlanması ilə əlaqədar tarixən formalaşan əsas prinsiplərə fərqli yanaşmalar meydana çıxdı. Belə ki, millətlətlərin öz müqədəratını təyinetmə hüququ ilə əlaqədar tələblərin də daha çox mövcud dövlətin sərhədləri çərçivəsində həll olunması fikri üstünlük təşkil etməyə başladı.

ƏDƏBİYYAT

1.Andreas Wiinner. Facing ethnic conflicts: Towani a new realizm. Columbia University, 2004, p.384.

2.Лебедева М.М. Политическое урегулирование конфликтов: Подходы, решения, технологии. М., Аспект Пресс,1997,с.5-7.
3. Зеленков М.Ю. Межнациональных конфликты: проблемы и пути их решения (правовой аспект). Воронеж, ВГУ, 2006, 262с.
4. Аклаев А.Р. Этнополитическая конфликтология: Анализ и менеджмент. Уч. пос. М., Дело 2005, 472с.
5. Кулагин В.М. Международная безопастность. Уч. пос.для вузов. М., Аспект Пресс, 2006, 318с.
6.Сикевич З.В. Социология и психология национальных отношений: Уч. пос. Санкт- Петербург, Издательства Михайлова В.А., 1999, 203 с.
7. Budaqova S. DağlıqQarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq münaqişə kimi // "Elmi xəbərlər", Qərb Universiteti, №3, 2012, s.30-43.
8. Qarabağ: bildiklrimiz və bilmədiklərimiz. Bakı, Qafqaz Universiteti Nəşriyyatı, 2010, 571s.

**МАРЬЯМ ОРУДЖЛУ**
*Ведущий научный сотрудник,*
*доцент Центра Антропологии Института Археологии и ЭтнографииНАНА*

## ПРОБЛЕМЫ ЭТНИЧЕСКИХ МЕНЬШИНСТВ И ОСНОВНЫХ ПРИНЦИПОВ УРЕГУЛИРОВАНИЯ ЗТНОПОЛИТИЧЕСКИХ КОНФЛИКТОВ

В статье анализируется проблема национальных меньшинств, остающаяся актуалной в разное время, и разные подходы к ней. В тоже время, в связи со значительным увеличением количества этнических конфликтов после окончания холодной войны, изучаются основные принципы их урегулирования. В частности подробно анализируется вопрос о том, какой из этих базовых принципов следует отдават предпочтение в зависимости от различных ситуаций, широко анализируются особенности урегулирования межнациональных конфликтов в современное время.

*Ключевые слова:* этнические меньшинства, конфликт, урегулирование, принципы.

**MARYAM ORUJLU**
*Anthropology Centerof the Institute of Archeology and Ethnography ofANAS,*
*leading researcher, associate professor*

## PROBLEMS OF ETHNIC MINORITIES AND THE FUNDAMENTAL PRINCIPLES OF THE SETTLEMENT OF ETHNO-POLITICAL CONFLICTS

The article analyzes the problem of national minorities, which remains relevant at different times, and different approaches to it. At the same time, in connection with the significant increase in the number of ethnic conflicts after the end of the Cold War, the basic principles of their settlement are being studied. In particular, the author analyzes in detail the question of which of these basic principles should be given preference depending on various situations, and analyzes widely the peculiarities of the settlement of interethnic conflicts in modern times.

*Keywords*:ethnicminorities, conflict, regulation, prinsiples.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Əliağa Məmmədli, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**ELŞAD HƏSƏNLİ**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
**elshadhasanli1968@mail.ru**

# ERMƏNİLƏRİN TERROR SİYASƏTİ VƏ REVANŞİST MEYLLƏR

*Erməni terroru müasir çağırışlar kontekstində diqqət mərkəzində saxlanılmalı olan prioritet məsələlərdəndir. Azərbaycan xalqı tarix boyu erməni terrorundan ziyan çəkib, onun acı nəticələrini görüb. Həm keçmişdə, həm də müasir dövrümüzdə Azərbaycan xalqına qarşı törədilmiş qanlı cinayətlər bunu sübut edir. Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra ermənilərin terror-təxribat, diversiya əməllərinə əl atdığı özünü qabarıq şəkildə göstərir. Ermənistanda yeni müharibəyə çağırışlar, ədalətsiz qisasçılıq açıq surətdə görünür. Tədqiqatda bu kimi meyllər araşdırılır, tarixi faktlar əsasında erməni terrorizminin nəticələri göstərilir, barışığa aparan yolun tapılması zəruriliyi əsaslandırılır.*

*Açar sözlər*: Qarabağ, münaqişə, erməni terroru, soyqırımı, dövlət, Azərbaycan ordusu, Zəngəzur, ikili standartlar, ədalət.

*Giriş*. Ermənilərin Azərbaycan ərazilərində yerləşdirilməsindən sonra xalqımıza qarşı aparılan siyasətin kökündə məhz Ermənistanın terrorçuluq siyasəti dayanır. Ermənistan terrorçuluğu dövlət səviyyəsinə qaldırıb və ondan həmişə öz maraqlarını təmin etmək üçün istifadə edib. Tarix boyu bu siyasət davam edib və bu gün də ermənilər öz cılız məqsədlərindən imtina etməyiblər. Həmişə "Böyük Ermənistan" xülyası ilə yaşayan bu toplum Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsindən sonra da məğlubiyyətlə barışmayıb, revanşist cəhdlər göstərir və ənənəvi terrorçuluq fəaliyyətindən istifadə etməyə can atır. Tədqiqat işində ermənilərin şovinist və separatçı fəaliyyətinin məntiqi nəticələri təhlil olunur, Qarabağ müharibəsindən sonra yaranmış vəziyyət sərf-nəzər edilir.

Qarabağ müharibəsindən sonra Ermənistanda isterika və revanşist meyllər baş qaldırmağa başladı. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və ədalətin zəfər çalmasını qəbul edə bilməyən bəzi qüvvələr və yaranmış şəraitdən öz maraqlarını təmin etməyə çalışan keçmiş siyasi və hərbi rəhbərlər əsassız bəyanatlar verməyə, siyasi gedişlər etməyə meylləndilər. Məğlubiyyətlə barışmayan erməni lobbisi və Ermənistana yerli-yersiz dəstək verən bəzi xarici ölkələr də Azərbaycanın qələbəsini həzm edə bilmirlər. Bəs buna səbəb nədir?

1. Ənənəvi erməni mənəmliyi, dırnaqarası erməni "qüruru";
2. Mövcud hakimiyyətin öz nüfuzunu itirməsi və siyasi səhnədən çıxmaq qorxusu;
3. Sabiq dövlət başçılarının yenidən hakimiyyətə gəlmək istəyi;
4. Həm mövcud, həm də keçmiş rəhbərlərin seçkilərdə xalqın səsini qazanmaq üçün çalışması;
5. Erməni lobbisinin dəstəyini qazanmaq və siyasi arenada qalmaq;
6.Erməni lobbisinin və ermənipərəst siyasət aparan ölkələrin köməyi ilə yeni münaqişə yaranmasına çalışmaq və reallıqla barışmamaq;
7. İkili standartları özünün fəaliyyət prinsiplərinə daxil edən bəzi beynəlxalq təşkilatların köməyindən istifadə etmək.

Tarix boyu başqalarının köməyinə arxalanan, öz mənafeləri üçün hər cür üsula əl atan, yeri gəldikdə öz sahiblərinə, havadarlarına belə xəyanət edən, "dünyada yaxşı nə varsa bizimdir" təfəkkürü ilə yaşayan, özünü ali irq hesab edən, terroru da mübarizə üsuluna çevirən ermənilər aydın məsələdir ki, Azərbaycanın haqlı qələbəsi ilə barışa bilməzlər. Çünki, bu onların xislətinə, arzularına tərs mütənasibdir. Lakin ermənilər istəsələr də, istəməsələr də bu reallıqdır və Azərbaycan bu gerçəkliyi təmin edib, öz haqq və hüququnu bərpa edib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi,"Biz bütün dünyaya göztərmişik ki,yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan ordusudur. Erməni mifini məhv etdik...Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq-müzəffər xalq kimi,güclü dövlət kimi,yenilməz ordu kimi, güclü iradə sahibi kimi" [1].

Yaranmış gərgin ictimai-siyasi və iqtisadi vəziyyətdən çıxış yollarını axtaran Ermənistan hökuməti gah real, gah da qeyri-real bəyanatlar səsləndirir. O, müxalifyönlü kütlənin rəğbətini qazanmaq üçün azərbaycanfob və türkfob fikirlər irəli sürür, digər tərəfdən isə blokada şəraitində olan ölkənin ticari-iqtisadi əlaqələrinin genişləndirilməsi üçün Zəngəzur dəhlizinin açılması məsələsində loyallıq göstərir. Bu yolun açılması həm də Azərbaycan və Rusiya prezidentləri , eləcə də Ermənistan baş nazirinin imzaladığı birgə bəyanatın tələblərindən irəli gəlir. Kommunikasiyaların açılması region ölkələri ilə yanaşı, Ermənistanın özünün də xeyrinədir. Lakin erməni düşmənçiliyi və şovinizmi onların öz iqtisadi mənafelərini də üstələyir, onların Azərbaycan və Türkiyəyə qarşı düşmənçiliyini açıq şəkildə göstərir. Azərbaycan isə Zəngəzur dəhlizinin – həm Ağbənd-Mehri hissəsinin, həm də anoloji avtomobil yolunun açılmasında israrlıdır. “Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Sənəddə həmçinin qeyd olunub ki, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir” [2, s.68-69].

Ədalətli, tərəfsiz siyasi şərhçilər, ekspertlər Ermənistan rəhbərliyinin qeyri-konstruktiv siyasətini düzgün qiymətləndirir, onların həqiqətə söykənməyən, əsassız iddialarının qəbuledilməz olduğunu başa düşürlər. “Avrasiya İdeyaları” Elmi Araşdırmalar Dəstək Fondunun Ekspert Şurasının sədri Qriqori Trofimçuk da bildirir ki, “ermənilər barışıq istəmir, hətta “revanş” qışqıranlar da az deyil. Buna görə də regionda hərbi münaqişəni hər an gözləmək lazımdır. Çünki revanş istəyən etmənilər hər bir təxribata əl ata bilər” [11].

1990-1993-cü illərdə Azərbaycan ərazilərini qəsb edən ermənilər qeyri-qanuni məskunlaşma həyata keçirərək ölkəmizin təbii sərvətlərini mənimsəyib, onlara məxsus olmayan torpaqlardan istədikləri kimi istifadə ediblər. Keçmiş SSRİ dövrünün xəritələrinə baxdıqda məlum olur ki, Ermənistanın hakimiyyət orqanları həm işğaldan qabaq, həm də münaqişə dövründə Azərbaycanın sərhədlərini kobud şəkildə pozaraq erməni əhalinin qeyri-qanuni olaraq yerləşməsinə şərait yaradıb. 44 günlük müharibədən sonra Azərbaycan sərhədçiləri mövcud xəritələr və ÇPS vasitəsi ilə əraziləri müəyyənləşdirəndə erməni tərəfi haray-həşir salaraq beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir, sərhəddə vaxtaşırı təxribatlar törədir. Ermənistan hakimiyyətinin bu ilin noyabr, aprel, may və iyun aylarında sərhəddə törətdiyi bir neçə pozuculuq fəaliyyəti onu deməyə əsas verir ki, yeni müharibə təhlükəsi qalmaqdadır. “Bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın” [3].

Ermənistan hökuməti Azərbaycan sərhədlərini pozaraq terror-diversiya törədən qrupun üzvlərini hərbi əsir kimi qələmə verərək onların azad olunmasına çalışır. Lakin rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycanda hərbi əsir yoxdur, 10 noyabrda imzalanmış üçtərəfli bəyanatdan-Azərbaycan və Rusiya prezidentləri, eləcə də Ermənistanın baş nazirinin imzaladığı sənəddən sonra ölkəmizin ərazisinə daxil olan silahlı qruplar terror fəaliyyəti ilə məşğul olub, silah işlədib, hərbi və mülki şəxslərimizi öldürüb və yaralayıblar. Digər qrup isə əraziləri minalayarkən ələ keçirilib. Göründüyü kimi, erməni tərəfi yaranmış hər bir vəziyyətdən yararlanmağa çalışır, necə deyərlər gözə kül üfürür.

Ermənistanın baş nazirinin Fransa, eləcə də Belçikaya son səfərləri də rəsmi Paris və Brüsselin dəstəyini qazanmaq məqsədini güdürdü. Erməni baş nazirin səfərindən bir neçə gün sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi və ölkəmizlə Avropa İttifaqı arasında münasibətlərin müzakirəsi, əməkdaşlığın inkişafından məmnunluq ifadə olunması ermənilərin yalanlarının Qərbin aparıcı qurumlarında Azərbaycana qarşı münasibəti dəyişə biməyəcəyini göstərir. Bununla yanaşı Azərbaycan prezidenti və ölkəmizin xarici siyasət idarəsi həmişə bəyan edib ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına başlamağa, eləcə də sərhədlərin delimitasiyası və demarkasiyasının beynəlxalq qanunlar çərçivəsində aparılmasına

tərəfdardır. Lakin Ermənistanın bu məsələdə də konstruktivlik göstərməsi nəzərə çarpmır və o, yenə də barışdırıcı addımlar atmaq istəmir.

Ermənilərin siyasi-hərbi fəaliyyətinin bir istiqaməti də terror üsulundan istifadədir. Onların XIX-XX əsrlərdə dünyanın müxtəlif ölkələrində yaratdıqları partiyalar həm də terrorçuluq fəaliyyəti ilə məşğul olmuş, əsasən də türklərə qarşı aktlar həyata keçirmişlər. “Armenakan”, ”Hnçaq”, ”Daşnaksütyun”, ASALA (Ermənistanın Azadlığı Uğrunda Erməni Gizli Ordusu), ASAO (Erməni Gizli Azadlıq Ordusu), Erməni Azadlıq Cəbhəsi, ”Orli qrupu”, ”Erməni Soyqırımı Ədalət Komandosları”, “Erməni birliyi”, ”Demokratik cəbhə” və s. partiya, hərəkat və dəstələr dünyanın müxtəlif ölkələrində - Türkiyə, Gürcüstan, İsveçrə, Kanada, Rusiya, Fransa, Suriya, Livan və digər dövlətlərdə yaradılsa da məqsədləri əsasən türk və azərbaycanlılara qarşı mübarizə aparmaq, terror yolu ilə siyasət və iş adamlarını aradan götürmək, ermənilərə qarşı çıxan istənilən toplum və şəxsləri cəzalandırmaq olub və bu iş hazırda da davam edir. ”Ermənilər deyirlər: ”Ədalətin bizim tərəfimizdə olub-olmaması önəmli deyildir, biz qalib gəlməliyik. Bu yeganə yoldur! Biz qalib gələndə, hansı üsullardan istifadə etdiyimizi bizdən soruşan omayacaqdır...” [6, s.1144]. Göründüyü kimi, ermənilər demək olar ki, hər zaman özlərini haqlı saymış, başqalarının fikir, düşüncə və siyasəti ilə razılaşmaq istəməmişlər. Bunun bir səbəbi də onları himayə edən ölkələrin apardığı siyasət, onların öz maraqlarının həyata keçirilməsində ermənilərdən istifadə etmələridir. Bu işdə erməni kilsələri, din xadimləri də çox fəal rol oynayıblar. Çox təəssüf ki, bu “xadimlər” sülhü, birgəyaşayışı təbliğ etmək, xoş münasibətlər qurmaq əvəzinə qarşıdurma, intriqa yaratmaq mövqeyində durmuş, şovinist, separatçı meyllərə dəstək vermişlər. “Dünya bu günümüzə qədər ermənilər tərəfindən törədilmiş minlərlə terror hadisəsinin şahidi olmuşdur. Lakin heç vaxt bu qanlı qətllər erməni başbilənləri, keşişləri, siyasi xadimləri tərəfindən qətiyyətlə pislənilməsi bir tərəfə qalsın, adi məzəmmət belə edilməmişdir. Nəticədə son iki yüz il ərzində 2,5-3 milyon türk-müsəlman əhalisi erməni terrorunun və təcavüzünün qurbanı olmuşdur” [7, s.412]. Xaricdə fəaliyyət göstərən erməni terror təşkilatlarının göstərişi əsasında indiyədək Türkiyənin 30-dan çox diplomatı və 70-dən artıq Türkiyə vətəndaşı dünyanın müxtəlif şəhərlərində qətlə yetirilmişdir.

Erməni terrorundan ən çox əziyyət çəkən ölkələrdən biri də Azərbaycandır. Hələ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbər şəxsləri olmuş Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Həsən bəy Ağayev Tiflisdə 1920-ci ildə, AXC-nin Daxili İşlər naziri olmuş Behbud bəy Cavanşir isə 1921-ci ildə İstanbulda erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir. Azərbaycanlılar erməni terroru ilə hələ 1905-1918-ci illərdə üzləşmişlər . Erməni terrorizminin ideoloqları – Andranik Ozonyan, Stepan Şaumyan, Drastamat Kananyan (Dro), Stepan Lalayan, Amazasp Srvantçyan, Qaragin Ter-Arutyunyan (Njde) və digər şəxslərin rəhbərliyi altında Türkiyə və İranda, Azərbaycanın qəzalarında və paytaxt Bakıda müsəlmanlara-Azərbaycan türklərinə, ləzgi, avar, talış, kürd və s. xalqlara qarşı soyqırımı törədiblər. Onların əməlləri tarixi sənədlərlə, araşdırma və şahid ifadələri ilə sübuta yetirilib."1905-06-cı illərdə olan kütləvi qırğınlardan sonra ilk dəfə Cənubi Qafqazda ermənilərə məxsus anklavlar yaranıb. 1918-20-ci illərdə azərbaycanlılara qarşı törədilən soyqırımlarda təkcə İrəvan quberniyasında təqribən 135 min nəfər soydaşımız soyqırıma və deportasiyaya məruz qalıb. Firudin bəy Köçərli, Əziz Əliyev, Mustafa bəy Topçubaşov, Miryusif Mirbabayev, Həbib bəy Səlimov kimi görkəmli şəxslər İrəvanda doğulublar. Bizim oradakı mədəni irsimizə qarşı vandalizm aktı törədilib. Xan sarayı, Sərdar Məscidinin 2014-cü ildə qalan qalıqları dağıdıldı. Göy məscid fars məscidi kimi təqdim olunur. Qalan məscidlər məhv edilib. 1828-ci ildə İrəvanda azərbaycanlı əhalinin sayı bütün əhalinin 75,6%-ni təşkil edirdi, 1989-cu ildə isə bu rəqəm 0% idi. İrəvan şəhərində Azərbaycan xalqına qarşı genosid, etnosid və kulturosid kimi aktlar həyata keçirilib" [5].

Tarixi sənədlər və şahidlərin ifadələri, səlahiyyətli şəxslərin yazdıqları məktublar, digər yazışmalar Türkiyədə türklərin ermənilərə qarşı deyil, ermənilərin türklərə qarşı soyqırımı törətdiyini təsdiqləyir. Arxivlərdə olan sənədlər, digər materiallar erməni xislətinin nədən ibarət olduğunu əyani şəkildə göstərir. Çar Rusiyasının Van və Ərzurumdakı baş konsulu Mayevski yazırdı ki, ”Türkləri hər hansı bir vəhşilikdə necə ittiham edirlər etsinlər, yalnız bunu deyə bilərəm. Türkiyənin müxtəlif şəhərlərində erməni-müsəlman toqquşmaları haqqında şəxsən mənə məlum olanlardan belə qənaətə gəlirəm ki, qanlı işlər hər yerdə məhz ermənilərin öz təşəbbüsləri ilə başlanmışdır. Türklər Asiyanın nəinki müsəlman, həm də başqa xalqlarının ən yaxşı hissəsidir” [4, s.5].

Ermənilərin Azərbaycan ərazisində törətdikləri vəhşilikləri, qırğınları 1920-ci ildə Fransanın Qafqaz üzrə ali komissarı Damien de Martelin öz ölkəsinə göndərdiyi məktubda da əksini tapıb. Martel iyulun 20-də Fransa Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda yazır: "Hərbi əməliyyatlara gəlincə, Ermənistandan yenicə qayıtmış şahidlərdən əməliyyatların necə aparıldığına dair bir sıra məlumatlar əldə etmişəm. İyun ayının axırlarında erməni qoşunları 40 000-dən çox azərbaycanlının yaşadığı İrəvanın cənubundakı 25 kəndi mühasirəyə alıblar. Paytaxta yaxın ərazidə yaşayan və hansısa müstəqillik iddiasında olmayan bu sülhpərvər əhali həmişə sakit həyat tərzi sürüb. Onları top atəşləri ilə yaşadıqları kəndlərdən qovaraq Araz çayına töküblər. Boşalan kəndləri isə qısa müddətdə gəlmə ermənilər işğal edib. Bu hadisə zamanı erməni əsgərlər tərəfindən, qadın və uşaqlar da daxil olmaqla 4 000 azərbaycanlı Araz çayına atılaraq öldürülüb"[10].

Ermənilər digər ölkələrdə də terror aktları həyata keçiriblər. Erməni gənclər tərəfindən 1981-ci ildə Fransada yaradılan "Orli qrupu" 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan çox terror əməli törədib. Daha fəal olan ASALA terror təşkilatı və onun himayəsi ilə yaradılan digər terror qrupları əlaqəli şəkildə fəaliyyət göstərirlər. Ümumilikdə götürüldükdə erməni təşkilatlarının əsas məqsədi özlərinin "Böyük Ermənistan" planlarını icra etməkdir. Bu terror təşkilatı üzvləri yazışmalarında və KİV nümayəndələrinə verdikləri müsahibələrində Türkiyəyə qarşı vuruşan PKK terror təşkilatı ilə əlaqəli olduqlarını, eləcə də Xocalı soyqırımını törətdiklərini etiraf ediblər. ASALA-nın qurucularından biri olan Akop Akopyan "Nyu-Nork" qəzetinə 1980-ci ilin 1 avqustunda verdiyi müsahibəsində bildirib ki, "bizim düşmənimiz türk rejimi, NATO və bizimlə əməkdaşlıq etməyən ermənilərdir" [8, s.6].

Erməni terror təşkilatları tarixin müxtəlif dövrlərində və mərhələlərində həm Avropada, həm də Asiyada fəaliyyət göstərib, məqsədlərinə çatmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə ediblər. Qeyd etdiyimiz kimi, çirkin niyyətli bu erməni partiya və qrupları yeri gələndə onlara maneə yaradan, ideyalarına əks mövqedə dayanan soydaşlarına qarşı da amansız rəftar ediblər.1933-cü il sentyabrın 24-də ABŞ-ın Nyu-York şəhərində bu ölkədəki erməni kilsəsinin baş yepiskopu Leon Touryan kilsədəki ibadət zamanı yüzlərlə insanın gözü qarşısında qətlə yetirilib. Çünki bu din xadimi öz moizələrində insanları sülhə, haqqa, ədalətə, müxtəlif xalqlara və dinlərə dözümlülüyə çağırırdı.

Ermənilər müxtəlif illərdə Rusiya ərazisində də terror aktları törətmişlər. 1977-ci ildə, yanvarın 8-də Moskva metropoliteninin "İzmailovskaya" və "Pervomtayskaya" stansiyaları arasında hərəkətdə olan qatarın vaqonu partladılıb. Eyni zamanda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin binası yaxınlığında yerləşən 15 nömrəli ərzaq mağazasında, eləcə də "25 oktyabr" küçəsində 5 nömrəli mağazada partlayış törədilib. SSRİ xüsusi xidmət orqanlarının apardığı tədqiqatlar nəticəsində bu terror əməllərini törədən ermənilər tutulsalar da istintaqın nəticələri uzun müddət ictimaiyyətdən gizlədilib. Daşnakların ideya və planlarını icra edən Zatikyan, Stepanyan və Bağdasaryanın məhkəmə prosesində Zatikyanın çıxışı onların iç üzlərini açır. O deyib: "Mən müqəssir deyiləm, mən ittihamçıyam. Sizin məni mühakimə etmək ixtiyarınız yoxdur, çünki rus və yəhudilərin idarə etdiyi imperiya hüquqi dövlət deyil! Bunu möhkəm yadda saxlamaq lazımdır. Digərlərinə də çatdırın ki, bizə yalnız qisas, qisas, bir daha qisas qalır" [9]. 1991-ci ilin aprelində Rusiyanın Rostov-Don şəhərində SSRİ DİN-nin Qafqaz üzrə Daxili Qoşunlarının komandanı, polkovnik V.P.Bloxotin öz evinin qarşısında ermənilər tərəfindən öldürülüb. Bu faktla bağlı istintaqın gedişində məlum olub ki, qətli törədənlər Ermənistan hökumətinin nəzarəti altında olan terror qrupunun üzvləridirlər.

Erməni terrorçular Sovet hakimiyyəti və müstəqilliyimizin ilk illərində də Azərbaycanda qeyri-döyüş şəraitində bir sıra terror cinayətləri icra ediblər. 1984-cü ildə Azərbaycanın paytaxtı Bakı şəhərində 106 nömrəli avtobusda partlayış törədilmiş və nəticədə iki uşaq anası olan qadın həlak olmuş, bir neçə nəfər yaralanmışdı. 1994-cü ilin mart ayının 19-da Bakı metropoliteninin 20 Yanvar stansiyasında qatarda törədilmiş terror hadisəsi nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər müxtəlif dərəcəli xəsarətlər almışdı. Erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə həmin il iyulun 3-də Bakı metrosunda daha bir partlayış törədilmişdi. Bu terror aktı zamanı 27 nəfər həyatını itirmiş, 91 nəfər yaralanmışdı. Aparılmış istintaq zamanı məlum olub ki, metronun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda törədilmiş partlayışın təşkilində Ermənistanın hakimiyyət orqanlarının, eləcə də Dağlıq Qarabağın qeyri-qanuni rejiminin üzvləri ilə birgə erməni yazıçı və şovinist ideoloqu Zori

Balayan da iştirak edib. Belə ki, təşkilatçılar separatçı "Sadval" hərəkatının üzvlərini öz təsirləri altına salaraq onlara təlimlər keçmiş və bu cinayəti həyata keçirməyə sövq etmişlər.

Qeyd etdiyimiz kimi ermənilərin Azərbaycan xalqına qarşı terroru keçmişdə də olub, hazırda da davam edir və belə görünür ki, gələcəkdə də bizə qarşı bu cür ağır cinayətləri istisna etmək olmaz. Çünki, terror Ermənistan hökumətinin siyasətinin bir halqasına, tərkib hissəsinə çevrilib. Bunu 2021-ci il iyunun 4-də Azərbaycanın Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində törədilmiş terror hadisəsi də sübut edir. Ermənilərin işğal zamanı törətdiyi vandallıq və barbarlıq əməllərinin nəticələrini lentə alan çəkiliş qrupunun olduğu avtomobilin yolun hərəkət hissəsində tank əleyhinə minaya düşərək partlaması, 3 nəfərin həlak olması, 4 nəfərin yaralanması onların qeyri-insani əməllərinin daha bir göstəricisidir və bu kimi halları nəzərə almaq, nəticə çıxarmaq lazımdır. İşğalçı qüvvələrin minaladığı ərazilərin xəritələrini Azərbaycana verməyə ciddi maraq köstərməməsi və erməni kəşfiyyat-diversiya dəstələrinin yenidən sərhədləri pozaraq terror aktları törətməsi onların sülh prosesindən hələ çox uzaq olduqlarını göstərir.

Bölgəmizdə sülhün bərqərar olması, regional əməkdaşlıq və təhlükəsizliyin təmin edilməsi əsas məsələlərdən biridir. Bu baxımdan iyunun 15-də Şuşa şəhərində Azərbaycan Ppezidenti İlham Əliyevin və Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğanın imzaladıqları** "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" mühüm əhəmiyyət kəsb edir. Bu sənəd iki ölkə arasında bütün sahələrdə əlaqələrin inkişafı ilə yanaşı, Zəngəzur dəhlizinin açılması ilə qonşu dövlətlərin də iş birliyi, eləcə də tranzit imkanları ilə beynəlxalq iqtisadi əməkdaşlığın da genişlənməsini özündə ehtiva edir.Yaranmış yeni şəraitdən düzgün istifadə xüsusilə "Altılıq" ölkələrin-Azərbaycan,Türkiyə, Rusiya,Ermənistan, Gürcüstan və İran üçün böyük fayda gətirə bilər.

*Nəticə*. Araşdırmada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra yaranmış vəziyyət, 44 günlük Vətən müharibəsinin nəticələri və ermənilərin məğlubiyyətlə barışa bilməmələrinin səbəbləri, bu məsələyə beynəlxalq ictimaiyyətin münasibəti və ermənilərin revanşist meylləri təhlil olunub. Tədqiqat işində erməni terrorizmi konkret faktlarla araşdırılıb, Ermənistanda terrorizmdən dövlət səviyyəsində siyasətin tərkib hissəsi kimi istifadə olunduğu müəyyənləşdirilib. Terrorçuluq, revanşist meyllər erməni xislətinin əsas göstəricisi kimi tədqiqatda diqqət mərkəzində saxlanılıb. Araşdırmada sülh və barışa çağırış, siyasətdə terrorun çıxış yolu olmadığı qırmızı xətlə göstərilir və dinc yanaşı yaşamağın zəruriliyi xüsusi vurğulanır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. https://president.az/articles/46840 [Müraciət tarixi: 17.06.2021].
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Laçının azadlığı ilə bağlı xalqa müraciəti // "Tarixi şəxsiyyətlər", beynəlxalq ictimai-siyasi jurnal, №49, dekabr, 2020, s.68-69.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. https://president.az/articles/50632 [Müraciət tarixi: 17.06.2021].
4. Xaqani İ. Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı, Bakı, "Saral", 2017, s.5.
5. "İrəvan şəhəri" kitabının onlayn təqdimatı. - https://525.az/news/166788-irevan-seheri-kitabinin-onlayn-teqdimati-kecirilib [Müraciət tarixi: 17.06.2021].
6. Qaraoğlu F. Ermənilər və həqiqətlər. 3-cü cild, Bakı, "Nurlar", 2009, 1144 s.
7. Məmmədli A. Gəlmələr ermənilərin gerçək tarixi. Bakı, "Çaşıoğlu", 2008, 412 s.
8. Nadir A. Erməni terroru tarixdə və bu gün / "Yeni Azərbaycan" qəzeti, 11 sentyabr, 2012.
9. Rusiyada erməni terroru ilə bağlı petisiya başladı / "Femida.az", Hüquq yüklü xəbər portalı, 09 yanvar 2017. - http://femida.az/az/news/45566/ [Müraciət tarixi: 17.06.2021].

10. Tanınmış fransızlar erməni xisləti haqqında / Azərbaycan Dövlət Tərcümə Mərkəzi, E-Kitabxana, 14 Oktyabr 2020. - https://www.aztc.gov.az/az/posts/id:1157 [Müraciət tarixi: 17.06. 2021].
11. Əli Məmmədov. Trofimçuk: Beş il sonra Qarabağdakı vəziyyət / "Axar.az" Operativ xəbər portalı, 2021.05.24. - https://axar.az/news/siyaset/560898.html [Müraciət tarixi: 17.06.2021].

**ЭЛЬШАД ГАСАНЛИ**
*доцент, доктор политических наук,*
*ведущий научный сотрудник Института философии и социологии НАНА*

## ПОЛИТИКА ТЕРРОРА И РЕВАНШИСТСКИЕ УСТРЕМЛЕНИЯ АРМЯН

Армянский террор, является одним из приоритетных вопросов, который должен оставаться в центре внимания в контексте современных призывов. На протяжении веков Азербайджанский народ страдал от армянского террора, пережил его трагические последствия. Это показывают кровавые преступления, совершенные против Азербайджанского народа как в прошлом, так и в современный период. Это вновь наглядно проявляется в террористическо-диверсионных действиях армян после 44 дневной Отечественной войны. Открыто проявляются в Армении призывы к новой войне, несправедливая мстительность. В работе исследуются такого рода поползновения, на исторических фактах показаны последствия армянского террора, обосновывается необходимость нахождения пути, ведущего к миру.

*Ключевые слова*: Карабах, конфликт, армянский террор, геноцид, государство, Азербайджанская армия, Зангезур, двойные стандарты, справедливость.

**ELSHAD HASANLI**
*Associate professor, PhD in Political sciences,*
*Leading research associate of the Institute of Philosophy and Sociology of ANAS*

## ARMENIAN TERRORIST POLICY AND REVANCHIST TENDENCIES

Armenian terrorism is one of the priority issues which should be kept under the concentration in the context of modern challenges. Throughout history, the Azerbaijani people have suffered from the Armenian terror and have seen its bitter consequences. The bloody crimes committed against the Azerbaijani people both in the past and in the present prove this. After the 44-day Patriotic War, the Armenians again resorted to acts of terrorism and sabotage. Calls for a new war and unjust revenge are clearly visible in Armenia. The study examines such tendencies, shows the consequences of Armenian terrorism on the basis of historical facts, and substantiates the need to find a way to reconciliation.

*Keywords*: Karabakh, conflict, Armenian terror, genocide, state, Azerbaijan army, Zangazur, double standards, justice.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**MƏTİN MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*
**Metin_memmedli@mail.ru**

# MƏRKƏZİ ASİYADA GEOSİYASİ PROSESLƏR RUSİYA VƏ ÇİNİN REGİONAL MARAQLARI KONTEKSTİNDƏ

*Məqalədə Mərkəzi Asiyada gedən geosiyasi proseslər Rusiya və Çinin regional maraqları kontekstində təhlil edilir. Mərkəzi Asiyada bir çox regional və qlobal güc mərkəzlərinin geosiyasi maraqları və təsiri var. Ancaq bölgənin ən nüfuzlu ölkələri Rusiya və Çindir. Hər iki ölkə bölgədəki təsir dairəsini genişləndirmək üçün fərqli təsir vasitələrindən istifadə edir. Məsələn, Rusiyanın bölgədə hərbi, siyasi, iqtisadi və mədəni rıçaqları olduğu halda, Çin daha çox iqtisadi və mədəni rıçaqlardan istifadə etməyə çalışır. Qeyd etdiyimiz kimi, bütün bu vacib məqamlar məqalədə ətraflı şəkildə araşdırılmışdır.*

*Açar sözlər*: Mərkəzi Asiya, geosiyasi proseslər, Rusiya, Çin, təhlükəsizlik mühiti, iqtisadi maraqlar, enerji resursları, tarixi əlaqələr, coğrafi yaxınlıq, beynəlxalq təşkilatlar, təbii resurlar, geostrateji mövqe, regional maraqlar, təsir dairəsi, regional rəqabət, hərbi bazalar, enerji təhlükəsizliyi, ixrac kəmərləri, ikitərəfli münasibətlər.

*Giriş*. Mərkəzi Asiya regionu dünyada cərəyan geosiyasi proseslərin periferiyası hesab olunsa da bir sıra geosiyasi, geoiqtisadi kriteriyalarına görə Avrasiya məkanının vacib bölgələrindən hesab edilməlidir. Asiyanın bu regionunda baş verən proseslərin, hadisələrin nəticələri yalnız bölgə dövlətlərinə deyil həm də qonşu ölkələrə, regionlara da ciddi təsir etmək gücündədir. Regionun təhlükəsizlik mühitini bir sıra daxili və xarici amillər formalaşdırır ki, onlardan biri də bölgədə cərəyan edən geosiyasi proseslərdir. Mərkəzi Asiyanı bizim üçün maraqlı, aktual edən digər vacib məqam ölkəmizə coğrafi yaxınlığı, tarixi, mədəni, iqtisadi əlaqələrin, etnik bağların mövcudluğudur.

Mərkəzi Asiya regionunun beynəlxalq münasibətlər sisteminə daxil olması Sovet İttifaqının dağılmasından sonrakı dövrə təsadüf edir. Mühüm geostrateji mövqeyə və zəngin təbii resurslara malik regionu 5 müstəqil dövlət təşkil edir: Qazaxstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan. 1992-ci ilə kimi bölgə Qazaxstan və Mərkəzi Asiya adlanırdı, məhz həmin il Daşkənddə keçirilən Mərkəzi Asiya dövlət başçılarının sammitində Qazaxstan prezidenti Nursultan Nazarbayevin təklifi ilə Qazaxstan da "Mərkəzi Asiya" regionu – termininə daxil edildi. Ümumiyyətlə, region çar Rusiyası dövründə vahid Türkistan şəklində mövcud olmuş, 1920-30-cu illərdə isə Sovet siyasətinə uyğun olaraq əhalinin etnik tərkibi əsasında respublikalara bölünmüşdür.

Mərkəzi Asiyanın əhəmiyyətli geostrateji mövqeyi və təbii resurslarla zəngin olması bölgəni bir sıra böyük, regional dövlətlərin maraq dairəsinə düşməsinə səbəb olmuşdur. Regionda maraqları (geosiyasi, iqtisadi və s.) olan əsas güc mərkəzlərini ikisini xüsusi qeyd etmək olar: Rusiya və Çin. Hər iki dövlət regionda maraqlarının müxtəlifliyi və xüsusi olması ilə seçilir.

Rusiya, Sovet İttifaqı dağıldıqdan sonra "yaxın xaric" siyasətinə uyğun olaraq Mərkəzi Asiyanı özünün həyati maraqları olan regionlardan biri kimi qəbul etmişdir. Regionda ciddi geosiyasi, təhlükəsizlik, iqtisadi maraqları ilə yanaşı eyni zamanda Moskva bu maraqlarını təmin etmək üçün də çeşidli imkanlara malikdir. Təhlükəsizlik məsələsi Rusiyanın regional siyasətinin əsas aspektlərindən biri kimi qəbul edilir. İlk növbədə cənub sərhədlərinin təhlükəsizliyi baxımından Mərkəzi Asiya Rusiya üçün "bufer zona" rolunu oynayır. Rusiya regionun beş dövlətindən üçündə (Qazaxstan, Qırğızıstan, Tacikistan) hərbi bazalara malikdir, hətta Tacikistanın Əfqanıstanla dövlət sərhəddinin mühafizəsində rus hərbiçiləri iştirak edir. Moskvanın bölgədə hərbi iştirakını ciddi formada davam etdirməsini bütövlükdə Mərkəzi Asiyanın Rusiyadan geostrateji asılılığını artıran amil kimi qəbul oluna bilər.

Rusiyanın Mərkəzi Asiya dövlətlərinə təsir vasitələrindən biri də bölgədə yaşayan çoxsaylı etnik rus icmalarıdır. 2021-ci il statistikasına görə bölgədə yaşayan ruslar əhalinin təxminən 33 faizini təşkil edirlər (1). Regionda yaşayan rusların yarıdan çoxu (4.2 mln) Qazaxstanda yaşamaqla

bu ölkə əhalisinin 24 %-ni təşkil edir. Eyni zamanda bölgədə yaşayan 16 milyondan artıq insan rus dilini gündəlik əsas ünsiyyət vasitəsi kimi istifadə edir. Ümumiyyətlə, bölgədə rus dilinə, mədəniyyətinə maraq böyükdür. Burada daha bir vacib məqam region dövlətlərinin siyasi-təhlükəsizlik elitalarının böyük əksəriyyətinin "sovet məhsulu" və Rusiyayönümlü olmasıdır (2). Bütün bu amilləri Rusiyanın region üzərində "yumşaq gücü"nün (soft power) əsas aspektləri kimi qəbul etmək olar.

Moskvanın regiona təsir imkanlarından biri də bölgə dövlətlərindən Rusiyaya miqrant axınının mövcud olmasıdır. Region dövlətlərindən təxminən milyonlarla miqrant Rusiyada işləyir və onların öz ölkələrinə göndərdikləri illik vəsait təqribən milyardlarla ABŞ dolları dəyərində qiymətləndirilir. Göndərilən bu vəsaitlər xüsusilə bölgənin kiçik ölkələrində sosial-siyasi, iqtisadi vəziyyətin sabit qalmasında mühüm rol oynayır.

Rusiyanı bölgəyə "cəlb edən" əsas faktorlardan biri də Moskvanın Mərkəzi Asiyada iqtisadi-enerji maraqlarıdır. Rusiyanın regionda enerji maraqları bölgənin enerji resurslarının istismarı ilə yanaşı, bu resursların dünya bazarlarına çıxarılması üzərində nəzarətlə şərtlənir. Çinlə bölgənin enerji əlaqələrini təmin edən boru kəmərləri istifadəyə verilənə, yəni, 2009-2010-cu illərə kimi, regionun bütün enerji dəhlizləri Rusiya ərazisindən keçməklə dünya bazarlarına birləşirdi. Məsələn, 2003-cü ildə istifadəyə verilən Xəzər Borukəməri Konsorsiumu (Caspian Pipeline Consortium-CPC) kəməri Qazax xam neftini Qara dənizdə Rusiyanın Novorosiysk limanına daşıyır və bu kəmər hələ də Astana üçün yeganə ən əhəmiyyətli ixrac kəməri olaraq qalmaqdadır (3). Mərkəzi Asiyanın neft-qaz resurslarını dünya, xüsusilə Avropa bazarlarına daşıyan əsas ixrac kəmərləri də Rusiya ərazisindən keçir. Onu da qeyd etmək istərdik ki, Mərkəzi Asiyanın əsas ixrac kəmərləri üzərində nəzarət faktorundan Rusiya həm də bölgəni təsir dairəsində saxlamaq vasitəsi kimi istifadə edir.

Rusiyanın Mərkəzi Asiyada təsirini artırmaq üçün həyata keçirdiyi strategiyalardan biri də region dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizimlərinin inkişaf etdirilməsidir. Xüsusilə, bölgə dövlətlərinin cəlb olunduğu çoxtərəfli əməkdaşlıq mexanizmlərinin inistitutlaşması Moskvanın son 30 ildə regional siyasətinin prioritetlərindən hesab olunmalıdır. Post soyuq müharibə dövrünün ilk illərindən bu günə kimi əsasən Moskvanın təşəbbüsü, region dövlətlərinin cəlbi ilə yaradılan beynəlxalq təşkilatları belə sıralamaq olar: MDB, KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı), ŞƏT (Şanxaq Əməkdaşlıq Təşkilatı), Avrasiya İqtisadi İttifaqı. Bütün bu sadaladığımız beynəlxalq təşkilatların yaradılmasında Moskvanın əsas məqsədlərindən biri də Mərkəzi Asiyanı nüfuz dairəsində saxlamaq və bölgəyə təsirini artırmaqdır.

Beləliklə, Rusiyanın regional siyasətinə və bölgəyə təsir imkanlarına nəzər saldıqda Moskvanın Mərkəzi Asiyada ən təsirli, güclü xarici aktor olması qənaətinə gəlmək olar. Bununla belə, Rusiyanın Mərkəzi Asiyada gücünü hüdudsuz hesab etmək yanlış olardı və ilk növbədə region dövlətlərinin digər böyük xarici aktorlarla münasibətlərini inkişaf etdirərək Moskvanın gücünü balanslaşdırmaq siyasəti rusların bölgədə dominantlığını mümkünsüz edir. Eyni zamanda Mərkəzi Asiyada maraqları olan digər güc mərkəzlərinin regional siyasətləri də Rusiyanın bölgə ilə bağlı iddialarını "cilovlamağa" vadar edir.

Mərkəzi Asiyada ciddi geosiyasi, iqtisadi, təhlükəsizlik maraqları olan və Sovet İttifaqı dağıldıqdan sonra bölgədə xüsusi fəallığı ilə seçilən regional dövlətlərdən biri də Çindir. Mərkəzi Asiyanı Çinin geostrategiyasında aktual edən vacib amillər bölgənin coğrafi yaxınlığı, enerji və digər təbii resurslarla zəngin olması, etno-mədəni xüsusiyyətləridir. Xüsusilə, son 27 ildə təhlükəsizlik qayğılarının azaldılması Pekinin region dövlətləri ilə münasibətlərində diqqət yetirdiyi məsələ olmuşdur. Region dövlətləri ilə geniş tərkibli əlaqələrinə baxmayaraq Pekinin 1990-cı illərdən başlayaraq Mərkəzi Asiyada sərgilədiyi mövqe Çinin təhlükəsizlik və stabillik narahatlıqları ilə bağlı olmuşdur (4). Mərkəzi Asiya dövlətlərinin müstəqillik əldə etməsi Pekində ölkənin şimal-qərbində yaşayan uyğurlarda etnik separatizmi, dini meyilləri gücləndirəcəyi ilə bağlı qorxuları xeyli artırdı. Onu da qeyd etmək istərdik ki, regionda etnik millətçilik və dini radikalizmlə mübarizə məsələsində Çin və Rusiyanın maraqları üst-üstə düşür. Hər iki dövlət etnik millətçiliyi və dini fundamentalizmi yalnız bölgədə milli maraqlarına deyil, ümumiyyətlə, özlərinin bütövlüyünə qarşı böyük təhdidlər kimi görürlər. Dini radikalizmin bölgədə yayılması qorxusu məsələsində yalnız Çin-Rusiya deyil, hətta Çin-ABŞ maraqları üst-üstə düşür.

Çinin Mərkəzi Asiyada təsirinin artması Rusiyanı strateji olaraq qane etməsə də, bəzi regional proseslərlə bağlı Moskva – Pekin oxunun yarandığını görürük. Məsələn, bölgədə ABŞ-ın təsirinin güclənməsinin qarşısının alınması və regional stabilliyin, balansın qorunub saxlanması ilə bağlı hər iki regional böyük dövlətin ortaq maraqları formalaşmışdır. Məhz bu ortaq maraqların nəticəsində 2001-ci ildə Çin və Rusiyanın təşəbbüsü ilə regional əməkdaşlığı, təhlükəsizliyi, strateji balansı təmin etməli olan Şanxay Əməkdaşlığı Təşkilatı yaradılmışdır. Qeyd edək ki, Çin və Rusiyadan başqa Mərkəzi Asiyanın 4 dövləti də (Qazaxstan, Özbəkistan, Qırğızıstan, Tacikistan) bu təşkilatda təmsil olunur.

Çinin sürətlə artan enerji tələbatını da Pekinin regiona marağını şərtləndirən əsas amillərdən biri kimi qəbul edə bilərik. Mərkəzi Asiyanın zəngin enerji mənbələri enerji idxalını müxtəlifləşdirməkdə maraqlı olan Çin üçün olduqca cəlbedici görünür. Əsasən Yaxın Şərq kimi qeyri stabil bölgələrdən enerji idxal edən Çin alternativ kəmərlərin çəkilməsinə enerji təhlükəsizliyinin vacib aspekti kimi yanaşır. 2009-2010-cu illərdə Mərkəzi Asiyadan Çinə neft-qaz kəmərlərinin tikintisi başa çatdırıldı və bununla da, həm Çin alternativ enerji mənbələri əldə etdi, həm də region dövlətləri enerji ixracında Rusiyadan asılılığı xeyli azaltdı. Bir faktı əlavə etmək istərdim ki, 2020-ci ildə Çin istehlak etdiyi qazın 15 %-ni Mərkəzi Asiyadan idxal etmişdir (4).

Çin Mərkəzi Asiya ilə iqtisadi əlaqələrini yalnız enerji idxalı ilə məhdudlaşdırmır, həm də region iqtisadiyyatının ayrı-ayrı sahələrində də fəallıq göstərir. Regionun hidrocarbon və digər təbii resurslarının istismarında Çin şirkətləri yaxından iştirak edir. Son illərdə Çin məhsullarının Mərkəzi Asiya bazarlarına axını da xeyli sürətlənmişdir. Çin Mərkəzi Asiyanın 2-ci böyük ticarət tərəfdaşı olmaqla (Avrasiya İqtisadi İttifaqından sonra) artıq bölgədə Rusiyanın iqtisadi dominantlığını belə təhdid edir (5). Qeyd edək ki, son zamanların statistik məlumatlarına görə Çin regionla ticarət dövriyyəsinin həcminə görə Rusiyadan belə öndədir (6). Mərkəzi Asiyanın region olaraq Çin üçün daha bir önəmi bölgənin Pekinin qlobal geostrateji, geoiqtisadi maraqlarını təmin etməli olan "Bir kəmər – bir yol" layihəsinə daxil olmasıdır. Eyni zamanda Çinin dövlət bankları region dövlətlərinə son illərdə çox milyardlı kreditlər ayırmışdır. Bütün bu qeyd etdiyimiz amillər Pekinin bölgə üzərində iqtisadi-siyasi təsir imkanlarını formalaşdırmışdır.

İqtisadi və siyasi təsir vasitələrindən başqa Pekinin bölgədə formalaşdırmağa çalışdığı amil "yumşaq güc"dür. Çin qəbul etdiyi "yumşaq güc" strategiyasına uyğun olaraq son illərdə Mərkəzi Asiya respublikalarında Çin dilini öyrədən çoxsaylı tədris müəssisələrinin, Çin mədəniyyətini təbliğ edən mərkəzlərin, institutların açılmasına nail olmuşdur. Çinin regionda həyata keçirdiyi "yumşaq güc" siyasətinin başlıca məqsədi bölgə dövlətləri üzərində Pekinin mədəni təsirini formalaşdırmaqdır.

Çinin Mərkəzi Asiyada xüsusi maraqlarının olmasına baxmayaraq Pekin bölgədə hərbi iştirakdan imtina edir. Pekində belə hesab edirlər ki, regionda hərbi bazalar saxlamaq həm bölgə xalqları arasında Çinfobiya meyillərinin güclənməsinə, həm də Rusiya ilə münasibətlərin korlanmasına səbəb ola bilər. Bölgədə hərbi iştirakdan imtina həm də onunla bağlıdır ki, Çin Mərkəzi Asiyanı özünün həyati maraqları olan regionlardan hesab etmir. Baxmayaraq ki, bölgədə Çinin ciddi təhlükəsizlik və iqtisadi, xüsusilə enerji maraqları var. Həmçinin Çin özünün Mərkəzi Asiya siyasətində Rusiya faktoruna xüsusi həssaslıqla yanaşır və çalışır ki, atdığı addımlar Moskvanı qıcıqlandırmasın. Çin Şanxaq Əməkdaşlığı Təşkilatı çərçivəsində bölgədə Rusiya ilə münasibətləri balanslaşdırmaq siyasətinə üstünlük verir. Eyni zamanda Mərkəzi Asiya dövlətləri də Çinlə əlaqələrinə özlərinin xarici siyasətlərini, ixrac bazarlarını və investisiya mənbələrini müxtəlifləşdirmək vasitəsi kimi baxır.

*Nəticə*. Beləliklə, Mərkəzi Asiyanın regional geosiyasi proseslər kontekstində ümumiləşdirilərək təhlil edilməsi bir sıra nəticələrə gəlməyimizə imkan verir. Rusiya və Çini bölgədə təsir imkanları daha çox olan ölkələr hesab etsək, yanılmarıq. Xüsusilə, Rusiya Mərkəzi Asiyada geniş hərbi-siyasi, iqtisadi, mədəni təsir rıçaqlarına sahib olmaqla region üzərində üstün mövqeyə malikdir. Həmçinin, Çin də regionda Rusiyadan sonra ən fəal kənar güc mərkəzi kimi xarakterizə oluna bilər. Pekinin regional siyasəti daha çox özünün iqtisadi, enerji, təhlükəsizlik maraqlarına əsaslanır və bölgə dövlətləri ilə münasibətlərində məhz bu amilləri nəzərə alır. Son olaraq qeyd edək ki, Mərkəzi Asiyada təhlükəsizlik mühitini formalaşdıran əsas amillərdən biri regionda cərəyan edən geosiyasi proseslər, böyük, regional dövlətlərin bölgədə üst-üstə düşən, toqquşan maraqları və bu maraqlara uyğun həyata keçirdikləri siyasətdir.

ƏDƏBİYYAT

1. CIA. The World Factbook – Central Asia. - https://www.cia.gov/the-world-factbook/central-asia/ [Müraciət tarixi: 05.09.2021].
2. A.Qəribov, R.İbrahimov, Geopolitical Competition in the Central Asia. The Dinamics of Relations with Azerbaijan. SAM Comments, Baku, August 2013, p.13
3. Edward C. Chow and Leigh E. Hendrix , (September, 2010) Central Asia's Pipelines: Field of Dreams and Reality, the national bureau of Asian research, special report #23, p.32. - http://csis.org/files/publication/1009_EChow_LHendrix_CentralAsia.pdf [Müraciət tarixi: 05.09. 2021].
4. Fabio Indeo (2012) The Rise of China in Central Asia. - http://temi.repubblica.it/limes-heartland/the-rise-of-china-in-central-asia/1928 [Müraciət tarixi: 05.09.2021].
5. Zabikhulla Saipov (September 01, 2012) China's Economic Strategies for Uzbekistan and Central Asia: Building Roads to Afghan Strategic Resources and Beyond // Eurasia Daily Monitor, Volume: 9, Issue: 172. - https://jamestown.org/program/chinas-economic-strategies-for-uzbekistan-and-central-asia-building-roads-to-afghan-strategic-resources-and-beyond/ [Müraciət tarixi: 05.09.2021].
6. Central Asia: İs The Menage A Trois With China And Russia Sustainable? / Coface for Trade, 04.18.2019. - https://www.coface.com/News-Publications/Publications/Central-Asia-is-the-menage-a-trois-with-China-and-Russia-sustainable [Müraciət tarixi: 05.09.2021].

**МАТИН МАМЕДЛИ**
*Доцент кафедры «Дипломатия и современные интеграционные процессы»*
*Бакинского Государственного Университета,*
*Доктор философии по политическим наукам*

## ГЕОПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В ЦЕНТРАЛЬНОЙ АЗИИ В КОНТЕКСТЕ РЕГИОНАЛЬНЫХ ИНТЕРЕСОВ РОССИИ И КИТАЯ

В статье анализируются происходящие геополитические процессы в Центральной Азии в контексте региональных интересов России и Китая. Многие региональные и глобальные центры силы в Центральной Азии имеют геополитические интересы и влияние. Однако Россия и Китай - самые влиятельные страны в регионе. Обе страны используют различные средства влияния для расширения своей сферы влияния в регионе. Например, в то время как у России есть военные, политические, экономические и культурные рычаги влияния в регионе, Китай пытается использовать в своих интересах больше экономических и культурных рычагов. Как мы уже упоминали, все эти важные моменты подробно изучаются в статье.

*Ключевые слова*: Центральная Азия, геополитические процессы, Россия, Китай, среда безопасности, экономические интересы, энергоресурсы, исторические связи, географическая близость, международные организации, природные ресурсы, геостратегическое положение, региональные интересы, сфера влияния, региональная конкуренция, военные базы, энергетическая безопасность, экспорт ремней, двусторонние отношения.

**MATİN MAMMADLİ**
*Associate Professor of Department of "Diplomacy and Modern Integration Processes" of Baku State University,*
*Doctor of Philosophy in Political Science*

## GEOPOLITICAL PROCESSES IN CENTRAL ASIA IN THE CONTEXT OF REGIONAL INTERESTS OF RUSSIA AND CHINA

The article analyzes the geopolitical processes taking place in Central Asia in the context of the regional interests of Russia and China. Many regional and global power centers in Central Asia have

geopolitical interests and influence. However, Russia and China are the most influential countries in the region. Both countries use various means of influence to expand their sphere of influence in the region. For example, while Russia has military, political, economic and cultural influence in the region, China is trying to take advantage of economic and cultural influence. As we have mentioned, all these important points are studied in detail in the article.

*Keywords*: Central Asia, geopolitical processes, Russia, China, security environment, economic interests, energy resources, historical ties, geographical proximity, international organizations, natural resources, geostrategic position, regional interests, sphere of influence, regional competition, military bases, energy security, exports belts, bilateral relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: s.e.f.d. Afət Səfərova, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**HƏCƏR SƏFİYEVA**
*AMEA-nın Fəlsəfə İnstitutunun dissertantı*
**khadijakamal342@gmail.com**

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ SİYASƏTİ FONUNDA İRAN-İRAQ MÜNASİBƏTLƏRİ, İRANIN İRAQA NÜFUZ ETMƏSİNİN TARİXİ SƏBƏBLƏRİ

*Məqalədə müasir dövrdə İran İslam Respublikasının xarici siyasətinin prioritet istiqamətləri nəzərdən keçirilir. Müəllif İran ətrafında yaranmış ümumi geosiyasi mənzərəni nəzərdən keçirərək, İİR-in Yaxın Şərq regionundakı dövlətlərlə, xüsusən İraqa münasibətdə xarici siyasətinin əsas prinsiplərinə aydınlıq gətirir. Eyni zamandabeynəlxalq siyasətin aktorları ilə münasibətlərində dəyişikliklərə xüsusi diqqət yetirməyə çalışır.*

*Məqalədə İran İslam Respublikasının xarici siyasəti fonunda İran-İraq münasibətləri təhlil olunur. Müəllifİranın İraqa nüfuz etməsinin tarixi səbəblərini və nəticələrini qısa şəkildə ifadə edir.*

*Açar sözlər*: İran, İraq,islam, region, Yaxın Şərq.

*Giriş.* Məlumdur ki, dövlətlərin xarici siyasətinin formalaşmasında onların tarixi, mədəniyyəti, coğrafi mövqeyi, geosiyasi və geoiqtisadi vəziyyəti, sərhədləri mühüm rol oynayır.

İranın zəngin mədəniyyəti və tarixi dünyasivilizasiyasına öz töhfələrini verməklə yanaşı ölkənin xarici siyasətinə böyük təsir göstrən amillərdən hesab oluna bilər.Çoxəsrlik mədəniyyətlə bağlı qürur hissi və İran imperiyasının dünya məkanının böyük bir hissəsini əhatə etməsi iranlıların sarsılmaz mədəni xüsusiyyətlərindən biri olmuşdur. Buna əsasən iranlılar özlərini qədim İran mədəniyyətinin daşıyıcısı hesab edirlər və hətta bəzi hallarda qonşuları üzərində dərin üstünlüyə malik olduqlarını düşünürlər. İranın ən güclü hakim sülaləsi olmuş Əhəmənilər İran tarixində ən böyük imperiya yaratmışdılar. II Kir müxtəlif xalqları vahid dövlətin hakimiyyəti altında toplaya bilmişdi. Buna görə də bəzi tədqiqatçıların fikrincə, iranlılar şüuraltı olaraq imperiyanın keçmiş şöhrətini dirçəltməyə can atırlar. Amerikalı politoloq Qrehem Fuller qeyd edir ki, İranın keçmiş əzəmətinin acı xatirəsi olan müasir sərhədlər İranın iddialarına cavabvermir(4). Politoloq və tarixçi Şirin Hanterin fikrincə, İranın liderləri son onilliklərdə Yaxın Şərq regionunda fövqəldövlətə çevirməyə çalışırlar(5, 189). Amerikalı keçmişdiplomat David Fillipsin fikrincə, İran bu ölkənin regional güc kimi tanınmasına can atır(6).

Bununla yanaşı, ölkənin coğrafi və geosiyasi mövqeyidə İİR-in xarici siyasətinə təsirsiz ötüşmür. Coğrafi və geosiyasi mövqeyi baxımından İran xarici siyasətə təsir göstərən unikal xüsusiyyətlərə malikdir. İran həmişə dünya güclərinin marağını cəlb edən və beynəlxalq əlaqələrdə mühüm rol oynayan ölkədir. Birincisi, bu ölkə dünyanın üç qitəsinin:Asiya, Avropa və Afrikanın qovuşuğunda yerləşir, yəni ənənəvi olaraq Qərb və Şərqin maraqlarının kəsişmə məkanına çevrilmişdir. Məhz buna görə də Qrehem Fuller İranı "dünyanın mərkəzi" adlandırır(4). İran bu mövqeyi səbəbindən beynəlxalq güc iddiaları ilə çıxış edir və daim xarici təhdidlərə, müdaxilələrə və hücumlara məruz qalır.

Eyni zamanda İranın xüsusi strateji geoiqtisadi mövqeyi də ölkənin xarici siyast kursunda öz inikiasını tapa bilmişdir. Belə ki, İran dünya enerji istehsalının və istehlakının kəsişmə mərkəzində yerləşir. İranın şimalında və cənubunda Fars körfəzinin, Qafqazın və Mərkəzi Asiyanınmühüm enerji mərkəzləri yerləşir. İrandan qərbdə və şərqdə isə enerji istehlakı regionları olan Şərqi Asiya və Avropa yerləşir.

Üçüncüsü, İran körpü kimi Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrini birləşdirərək, onların Fars körfəzinə çıxışını təmin edir.

İranın xarici siyasətinin formalaşmasına təsir edən digər daimi amil onun geniş ərazisidir. Siyasi anlamdaölkənin ərazisi milli qüdrətin elementlərindən biri hesab olunur və xarici siyasət yönümündə səmərəli rol oynayır. 1 milyon 648 min 195 kvadrat kilometr əraziyə malik İran dünyanın 16-cı ən böyük ölkəsidir. Coğrafi ərazi və əhalinin sayı İranı bölgədə güclü oyunçuya çevirir. Bu xüsusiyyət İranı bölgədə və hətta dünyada nüfuzlu ölkə olmağa təşviq edir. İranın coğrafi mövqeyi ilə sıx bağlı olan siyasətinə cavab olaraq, bölgə ölkələri, habelə beynəlxaq aktorlar İranın gücünün artma-

sına mane olmaq üçün balans yaratmağa çalışırlar. Balans yaradılması siyasəti dünyanın böyük dövlətləriilə konfederasiya və hərbi ittifaq yaradılması, regiondan kənar ölkələrin bölgəyə birbaşa müdaxiləsində iştirak və Fars Körfəzi ölkələri Birliyi Şurası kimi İslam Respublikasına qarşı duran regional birliklərin formalaşdırılması yolu ilə həyata keçirilir.

İranın xarici siyasətində islam faktorunun rolu xüsusi ilə qeyd olunmaldır.Məlumdur ki, 1979-cu ildə baş vermiş İslam inqilabışah rejiminin, yəni monarxiyanın devrilməsi İran İslam Respublikasının (İİR) yaranması ilə nəticələnmiş, İİR-in xarici siyasətinin məzmununda köklü dəyişikliklərə səbəb olmuşdur. İslam amili İranın daxili və xarici siyasət kursunun başlıca prinsipinə çevrilmişdir. İranın xarici siyasətinin məqsədlərini müəyyən edən ən mühüm mənbə isə İİR Konstitusiyasıdır. Onun müddəalarına uyğun olaraq, İranın beynəlxalq aləmdəki mədəni, sosial, siyasi və iqtisadi məqsədlərini müəyyənləşdirmək mümkündür. İranın xarici siyasətinin əsas məqsədləri aşağıdakılardır:

-"İnsan cəmiyyətinin idealının təcəssümü ilə insan xoşbəxtliyinə nail olmaq" (maddə 154);

-"Bütün təzyiq və avtoritarizm növlərinin inkar edilməsi və ya ədaləti, siyasi, iqtisadi, sosial və mədəni müstəqilliyi, habelə milli birliyi təmin edə biləcək alilik növünün tanınması" (maddə 2);

- "Ölkə üzərində və ya ölkə tərəfindən hər hansı hökmranlığın inkar edilməsi; bütün sahələrdə müstəqilliyin və ərazi bütövlüyünün qorunması; bütün müsəlmanların hüquqlarının qorunması; hegemon dövlətlər qarşısında öhdəlik götürməmə; ölkəyə qarşı düşmən niyyəti olmayan dövlətlərlə sülh münasibətləri"(maddə 152);

-"Müstəmləkəçiliyin tamamilə inkar edilməsi və xarici təsirin qarşısının alınması (maddə 3,4,5), ölkədə müstəqilliyin, ərazi bütövlüyünün və islam quruluşunun qorunması üçün ümumi hərbi təhsil vasitəsilə milli müdafiə potensialının gücləndirilməsi" (maddə 3, bənd 11);

-"Ölkənin iqtisadiyyatı üzərində xarici iqtisadi hökmranlığın qarşısının alınması" (maddə 43, bənd 8);

- "Təbii və iqtisadi sərvətlər, mədəniyyət, ordu və dövlət həyatının digər sahələri üzərində xarici hökmranlığın qurulmasının qadağan edilməsi" (maddə 153);

-"Ölkəyə qarşı düşmən niyyəti olmayan dövlətlərlə sülh münasibətləri";

-"Beynəlxalq müqavilələrə vicdanla və dürüst riayət etmək".

İranda İslam inqilabından sonra ölkənin xarici siyasətinin fərqləndirici xüsusiyyəti onun islamlaşması olmuşdur. İnqilabdan sonra İranın xarici siyasəti ilk növbədə İslam dəyərlərinə söykənirdi.

İran İslam Respublikasının xarici siyasətini başa düşmək üçün "siyasi İslam" anlayışı təhlil edilməlidir. 1979-cu il İran İslam İnqilabından sonra islamçılar hökuməti ələ keçirdilər. İslam Respublikasının qurulmasından sonrakı ilk onilliklərdə İranın siyasi həyatının bütün sahələrində İslam maraqları üstünlük təşkil edirdi. Bu kurs hamı tərəfindən qəbul edilmiş beynəlxalq davranış normalarına uyğun gəlmirdi. O vaxtdan bəri İslam bu günə qədər İranın xarici siyasətində çox mühüm rol oynamışdır, bu da ölkənin məqsədlərini və onlara nail olmaq yollarını açıqlayır (7).

Din və siyasətin qarşılıqlı münasibətləri baxımından qeyd olunmalıdır ki, din - İranın xarici siyasətinə böyük təsirə malikdir.İslam inqilabı İslam Respublikasının Konstitusiyasının preambulasında belə xarakterizə olunur: "İnqilab ... İranda və bütün dünyada məzlumların zalımlar üzərində qələbəsi uğrunda hərəkatdır. İnqilab beynəlxalq xarakter daşıyır, o, digər İslam xalq hərəkatları ilə əlaqələrin inkişafı yolu ilə vahid dünya İslam ümmətinin yaradılması yolunu tapmağa və bütün dünyada məzlum xalqların qurtuluşu uğrunda mübarizənin güclənməsinə təkan verməyə yönəlmişdir. Konstitusiyanın 154-cü maddəsində deyilir: "İran İslam Respublikası bütün insan cəmiyyətində insan xoşbəxtliyinə nail olmağı öz idealı hesab edir və müstəqilliyi, azadlığı, qanunun aliliyini və ədaləti dünyanın bütün xalqlarının hüququ hesab edir. Buna görə İran İslam Respublikası digər ölkələrin daxili işlərinə hər hansı bir müdaxilədən çəkinərək, məzlumların bütün dünyada zalımlara qarşı ədalətli mübarizəsini dəstəkləyir"(2).

Konstitusiyada bu iki əks məqsədin necə uzlaşması açıqlanmır. Xarici ölkələrin daxili işlərinə qarışmamaq prinsipi dövlətin oradakı məzlum əhalini dəstəkləməsinə imkan vermir. Bununla yanaşı, İran rəhbərlərinin fikrincə, bütün məzlumların hüquqlarının qorunması İslam Respublikasının üzərinə böyük məsuliyyət qoyur, çünki ideoloji və İslamçı maraqlar milli maraqlardan üstündür.

İslam inqilabından sonra İran regionun şiə əhalisini dəstəkləyən siyasət yürütməklə dünyanın müxtəlif ölkələrində və bölgələrində yaşayan şiələrin himayədarı olduğunu nümayiş etdirməyə ça-

lışmış, islam inqilabının ixracatçısı rolunda çıxış etməyə başlamışdır. İran yürütdüyü bu xətti məhz ölkənin xarici siyasət kursu ilə əsaslandırmışdır.

İranın regionda inqilab ixracatçısı roluna gəldikdə isə "inqilab ixrac"ı dedikdə islam inqilabı təcrübəsinin dünyanın digər ölkələrinə ötürülməsi nəzərdə tutulur. İran inqilabının ixracı məsələsinə dair Ruhulla Ramazani göstərir: "İnqilab ixracı anlayışı xarici siyasətin əsas nüvəsidir, İran inqilabının özü ilə bərabər İranın xarici siyasətinin dinamikasını əks etdirir. R.Ramazani İmam Xomeyninin inqilabın ixracını tələb etməsinin onun ideologiyasına və siyasi mədəniyyətinə söykəndiyini vurğulayır (3).

İİR-in xarici siyasət kursunun başlıca meyarı olan imam Xomeyninin «nə Qərb, nə Şərq» tezisinə görə, «islam inqilabı» ixracı yolu ilə «ümumdünya müsəlman dövləti» yaradılması planının bir hissəsi sayıla bilərdi və bundan başqa da bir şey deyildi.

Konstitusiyanın bəzi prinsiplərinə müraciət etsək, İranın xarici siyasətində təşviq sisteminin də üstünlük təşkil etdiyini gömək olar.

Belə ki, ərəb ölkələrindən Suriya, Liviya, Cənubi Yəmən kimi ölkələr və Fələstin Azadlıq Təşkilatı İranda baş vermiş islam inqilabı və İran İslam Respublikasının yaranmasını rəğbətlə qarşılasalar da, Körfəz ölkələri, Səudiyyə Ərəbistanı və İraq isə məlum inqilabdan narahat olmuşdular. Buondan irəli gəlirdi ki, İranda monarxiyanın ləğvi regionda ərəb monarxiyaları üçün bir nümunə ola bilərdi. Digər tərəfdən, bu ölkələrdə, xüsusilə də İraqda kifayət sayda şiə əhali var idi və onlar hər an İrandakı hakimiyyətəyiyələnmiş şiə liderlər tərəfindən dəstəklənə bilərdilər. Təhlilin nəticələrindən görmək olar ki,proses gələcəkdəbelə də olmuşdur və Xomeyni rejimi ilk gündən etibarən Orta Şərqdəki şiələri mövcud rejimlərə qarşı mübarizəyə təşviq etmişdir. 1979-cu ilin sentyabr-oktyabr aylarında İraqda, Küveytdə, Bəhreyndə, Səudiyyə Ərəbistanının Həsa əyalətində şiələrin etiraz aksiyaları baş vermişdir və bütün bunlar da həmin təşviqin nəticəsi kimi dəyərləndirilir.

İran liderlərinin fikrincə, islam həyat normalarının yayıla biləcəyi ölkələr arasında İraq xüsusi yer tuturdu. İraq əhalisinin yarısının şiə olması İran liderlərini bu qənaətə gətirirdi. Digər tərəfdən, həmin qənaəti reallaşdırmaq üçün də lazımi bəhanələr var idi (1).

Siyasi hadislərin gedişi göstərir ki, İranın İraqa nüfuz etməsi 2003-cü ildən ABŞ-ın İraqı işğal etməsi ilə daha qabarıq şəkildə özünü biruzə versə də,əslində bu proses hələ İranda baş vermiş islam inqilabı zamanından təşəkkül tapmışdır.Belə ki, 1979-cu ildə İranda baş vermiş inqilab bir çox ərəb ölkələrində hökm sürən avtoritar rejimlər üçün, o cümlədən İraq rejimi üçün təhlükə mənbəyinə çevrilmişdir. İraq rejimi 1970-1985-ci illər ərzində İraqdakı şiə liderlərinə çox böyük təzyiqlər göstərməklə hesab edirdi ki, onlar İraqdakı hökumət əleyhinə baş verən çıxışların əsas təşəbbüskarı və təşkilatçılarıdırlar. İİR İraqdakı müxalifət partiyalarına, habelə şiə əhaliyə ilk dəstəyini hələ 1980-1988-ci illərdə baş vermiş İraq-İran müharibəsi zamanı göstərmişdir. İran o illərdə İraq hakim partiyasının təzyiqləri ucbatından ölkədən mühacirət etmiş bir çox mühacirlər üçün qapılarını açmış oldu. Yüzlərlə şiə islamçılar (bariz nümayəndəsi olaraq Seyid Baqer Hakimi göstərmək olar) İrana mühacirət etsələr də, Məhmməd Baqir əs-Sədr, Qasim Əl Mubraqe, Qasim Şobbari kimi bir qrup şiə lider rejimin təzyiqlərindən canlarını qurtara bilməmiş, edam olunmuşdular.

Əslində İraq hökuməti İrana üz tutan şiə islamçıların gələcəkdə İran üçün canlı resursa çevriləcəyini və İİR-in gələcəkdə bu canlı qüvvələrdən öz xeyrinə səmərəli şəkildə istifadə edəcəyini, yəqin ki, hesablamamışdır. 1980-ci illərdən İrana üz tutan qüvvələr çox sonralar öz "töhfə"lərini verəcəkdilər. Sonrakı mərhələdə İraq üzərində artan ABŞ-İran rəqabəti İŞİD terror qruplaşmasının ortaya çıxması ilə qismən səngidi. İŞİD-ə qarşı Xalq Səfərbərlik Qüvvələrinin (Haşdi Şabi) formalaşmasında böyük rol oynayan İran,İraq üzərində təsirini daha da artırmış oldu.

Nəticə etibarilə hesab etmək olar ki, İranın İraqı təsir dairəsinə salması 2003-cü ildən,yəni ABŞ-ın İraqı işğalından sonra dahaaydın şəkildə nəzərə çarpsa da, prosesin əslində İrana köç etmiş mühacirət dalğasından başladığını hesab etmək olar.

Qeyd etmək lazımdır ki, 2003-cu ildə ABŞ-ın İraqı işğal etməsi, Səddam rejimini devirməsi İranın maraqları ilə üst-üstə düşsə də, ona İraqa nüfuz etmək kimi yeni imkanlar versə də,İran ABŞ-ın İraqa birbaşa hərbi müdaxiləsini özü üçün də ciddi təhlükə hesab etmişdir. Buna səbəb isə vaxtı ilə İraqdan İrana mühacirət etmiş qüvvələrin, habelə ölkədəki şiə və kürdlərdən ibarət siyasi fəalların İranda artıq böyük güc mənbəyinə cevrilməsi ola bilərdi. ABŞ-ın İraqı işğalı region ölkələri arasında

Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri üçün də arzuolunan bir hal deyildi,çünki onlar S.Hüseyn rejimini İrana qarşı regionda balans ola biləcək güc hesab edirdilər.

*Nəticə.* Bu baxımdan rəsmi İran ABŞ-ın İraqa hərbi müdaxiləsini pisləyərək bunu iki səbəbdən tənqid etmişdir:

1-cisi, İiraqa müdaxilə beynəlxalq təşkilatlar trəfindən dəstəklənməmişdir;

2-cisi, İran İraq böhranının həlli üçün birtərəfli strategiyanı qəbul etməyərək və bu böhranın həllini BMT-nin prinsipləri əsasında bölgədəki digər ölkələrin iştirakı ilə yalnız İraq xalqının həyata keçirə biləcəyinihesab edirdi.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, İran-İraq münasibətləri tarixən dəyişkən xarakter daşımış-dır. Bu baxımdan onlarıbir neçə mərhələyə bölmək olar:

1. İslam İnqilabından əvvəlki mərhələdə - İranın İraqla münasibətləri İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində inkişaf etmiş, ölkələr bir-birilə müttəfiq olmuşdurlar;

2. 1979-cu il inqilabından sonra, eyni zamanda İraqda BƏƏS partiyasının hakimiyyətə gəlməsi ilə iki ölkə arasında münasibətlərdə kəskin dəyişiklik baş vermiş,İraq-İran münasibətləri 8 illik müharibənin baş verməsi ilə nəticələnmişdir. Müharibədə heç bir tərəf üstünlük əldə edə bilməsə də, hər iki ölkənin iqtisadiyyatına ciddi ziyan dəyir, çoxsaylı insan itkisi ilə nəticələnir. Tərəflər arasında sülh müqaviləsi bağlansa da, münasibətlərdə dövlətlərarasıaçıq düşmənçilik, İrandan İraqdakı müxa-lifətə tam dəstək, İraq miqrantların qəbul edilməsi strategiyasımüşahidə olunmuşdur;

3. 2003-cü ildə ABŞ-ın rəhbərliyi altında koalisiya qüvvələrinin İraqa daxil olması ilə iki ölkə arasında münasibətlər dəyişərək yenidən normallaşmışıdır. İran rəsmən ABŞ müdaxiləsini pisləyərək İraq hökumətinin müttəfiqi olduğunu bəyan etmişdir. Hətta 2008-ci ildə İİR prezidenti Mahmud Əhmədnejad 1979-cu il İran inqilabından sonra İraqa səfər edən ik dövlət başçısı olmuşdur.

Ümumən, aparılmış təhlillərə əsasən demək olar ki, hazırda İran hökumətidövlətin xarici siya-sət kursuna əsaslanaraq Yaxın Şərq regionunda əsasən şiə əhalisi çoxluq təşkil edən dövlətləri,o cümlədən İraqı hərbi, siyasi, iqtisadi vəziyyətinə görə özündən asılı vəziyyətə salmaq siyasəti apar-maqda və buna hüquqi don geyindirməkdədir.

ƏDƏBİYYAT

1. Rafiq bəy İsmayıl. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 1-ci kitab. Bakı, Çaşıoğlu, 2002,400 s.
2. Эсмаили, Хейролла. Временное правительство. Тегеран: Центр документов Исламской революции, 2001, с.115-117.
3. John L. Esposito. The Iranian revolution and its global impact. University Press of Florida, 1990, 354 p.
4. Graham E. Fuller. The center of the universe: The geopolitics of Iran (Rand Corporation Research Study) // Orbis, 1992, 300 P.
5. Hunter, Sh. Iran's Foreign Policy in the Post-Soviet Era: Revising the New International Order / Sh. Hunter. Oxford: Oxford Univ. Pr., 2010, 189 P.
6. Phillips J. The Dangerous Regional Implications of the Iran Nuclear Agreement // Heritage, 2015. - https://www.heritage.org/middle-east/report/the-dangerous-regional-implications-the-iran-nuclear-agreemen
7. Wolfarm E. Hanrieder, Foregn Policies and the International System: A Theoretical International // New York: General Learning Press, 1971, 320 P.

**ХАДЖАР САФИЕВА**
*Диссертантка Института Философии НАНА*

## ИРАНСКО-ИРАКСКИЕ ОТНОШЕНИЯ НА ФОНЕ ВНЕШНЕЙ ПОЛИТИКИ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН, ИСТОРИЧЕСКИЕ ПРИЧИНЫ ПРОНИКНОВЕНИЯ ИРАНА В ИРАК

В статье рассматриваются приоритеты внешней политики Исламской Республики Иран в современный период. Рассматривая общий геополитический пейзаж вокруг Ирана, автор

уточняет основные принципы внешней политики Ирана относительно стран Ближнего Востока, в особенности Ирака. В то же время автор старается уделять особое внимание изменениям в отношениях страны с международными политическими акторами.

В статье анализируются ирано-иракские отношения на фоне внешней политики Исламской Республики Иран. Автор кратко описывает исторические причины и последствия вторжения Ирана в Ирак.

*Ключевые слова*: Иран, Ирак, Ислам, регион, Ближний Восток.

**HAJAR SAFIEVA**
*Dissertant at the Institute of Philosophy of ANAS*

## IRANIAN-IRAQI RELATIONS AGAINST THE BACKGROUND OF THE FOREIGN POLICY OF THE ISLAMIC REPUBLIC OF IRAN, THE HISTORICAL REASONS FOR IRAN'S PENETRATION INTO IRAQ

This article looks into current foreign policy priorities of the Islamic Republic of Iran. The author sheds light on the overall geopolitical situation that has taken shape around Iran, including the Islamic republic's relationships with countries in the region, particularly with Iraq. The article also highlights shifts in Iran's relations with main actors of international policy.

The article analyzes the Iranian-Iraqi relations against the background of the foreign policy of the Islamic Republic of Iran. The author briefly describes the historical reasons and consequences of Iran's invasion of Iraq.

*Keywords*:Iran, Iraq, Islam, region, Middle East.

*Məqalənin redaksiyaya daxil olduğu tarix:08 may 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Musa Qasımov, t.e.d. Sani Hacıyev.*

**UOT 32:93/94**

**AYTƏN QURBANOVA**

*müəllim, Beynəlxalq münasibətlər kafedrası*
**ayten.qurbanovaa@gmail.com**

# MÜNAQİŞƏ ANLAYIŞINA DAİR FƏRQLİ YANAŞMALAR

*Məqalədə "münaqişə" anlayışına dair fərqli və ya oxşar mənalarda istifadə oluna bilən yanaşmalar tədqiq edilmişdir. Eləcə də, beynəlxalq hüquq, sosiologiya və ya psixologiyaya aid mənbələrdə isə münaqişələrin təhlili ilə bağlı bir çox fərqli yanaşmalar araşdırılmış və üst-üstə düşməyən məqamlar təhlil olunmuşdur. Qeyd olunmuşdur ki, beynəlxalq platformada getdikcə daha çox şiddətlənən yeni zorakılıq növləri (terrorizm kimi) normal dövlətlərarası münasibətlərdə mövcud olmayan münaqişə anlayışına fərqli yanaşmalar tələb edir.*

*Açar sözlər:* konfliktologiya, sülh, müharibə, dövlətlər, beynəlxalq münasibətlər, siyasət, məqsəd, qarşıdurma.

*Giriş.* Sosial elmlərdəki bir çox anlayışlar kimi ***"münaqişə"*** anlayışı da fərqli və ya oxşar mənalarda istifadə oluna bilir. Bəzi siyasətşünaslara görə münaqişə ***"dəyərlər, güc, status-kvo və mənbələr üzərində haqq iddiası və mübarizəsi olmaqla yanaşı, rəqibləri məhv etmək istəyi və ya sosial mənsubiyyət, dil, din, mədəni, sosial-iqtisadi, siyasi və başqa fərqliliklər əsasında formalaşmış qrupların üst-üstə düşməyən maraqlar naminə bir-birlərilə mübarizəsi"*** [1, s.10-11] olaraq ifadə olunur. Beynəlxalq hüquq, sosiologiya və ya psixologiyaya aid mənbələrdə isə münaqişələrin təhlili ilə bağlı bir çox fərqli yanaşmalar mövcuddur.

Beynəlxalq hüquq nöqteyi-nəzərindən yanaşdıqda, ***"mübahisə"*** tərəflər arasında hüquq və mənafelərə dair fərqli istəklərin olması kimi izah olunur. ***"Münaqişə"*** isə daha çox silahlı qarşıdurmaları ifadə etmək üçün istifadə olunan anlayışdır [2]. Daha ətraflı izah etsək, mübahisə konkret məsələ ilə bağlı tərəflər arasındakı fikir ayrılığını və ya maraqların toqquşmasını vuğulamaq üçün istifadə olunan bir termindir. Münaqişə isə tərəflərin mövcud vəziyyətə uyğun olaraq mövqelərinin üst-üstə düşməməsi və ya heç vaxt düşməyəcəyi inancına əsaslanan güc, maraq və ya dəyərlər uğrunda mübarizə aparan qruplar arasındakı rəqabətin artması nəticəsində yaranmış qarşıdurmanı izah etmək üçün istifadə olunur [3, s.118]. Ancaq münaqişə və mübahisə anlayışlarının ən vacib ortaq nöqtəsi obyektiv şəkildə üst-üstə düşməyən maraqlar üzrə tərəflərin subyektiv yanaşmasının mövcudluğudur. Həmçinin mübahisə adətən silahlı qarşıdurmadan əvvəlki mərhələ olaraq da qəbul edilir [4, s.17]. Sosioloji nöqteyi-nəzərdən yanaşdıqda isə münaqişə anlayışı fərdlərin və ya qrupların iqtisadi və siyasi maraqlarının, prinsip və dəyərlərinin üst-üstə düşməməsi nəticəsində tərəflər arasında yaranan mübarizə, qarşıdurma və ya hətta müharibə kimi terminlərdən istifadə olunaraq izah edilir. Ancaq münaqişəyə dair sosioloji yanaşma özündə bir çox fərqli yanaşmaları da ehtiva edir [5, s.16].

Münaqişələrin təhlili ilə bağlı tədqiqatların bir çoxunda münaqişə ***"labüd, bəzən isə uzun müddət tələb edən maraqların təmin olunması, dəyərlər və inanclar uğrunda mübarizə, müharibə və davranış fərqliliyi"*** olaraq ifadə olunur [7, s.7]. Bundan əlavə, "***cahil, geniş yayılmış insan kütləsi, qruplar və ya beynəlxalq səviyyədə oxşar olmayan fərqli dəyərlər və maraqlar uğrunda rəqabəti təmsil edən struktur (iqtisadi münasibətlər, güc mübarizəsi, mədəni üstünlük və s.) və psixoloji (fikir ayrılığı və qərəz) amillərin təsirilə yaranmış mübarizə"*** forması olaraq təhlil edilir [6, s.7].

Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru, professor Niklas Swanström və İctimai Vətəndaş Cəmiyyətinin prezidenti Robert Weissman isə münaqaşilərin bir çox hallarda qavrayışla əlaqəli olduğunu və bu qavrayış formalarının davranış və münasibətlərdən daha çox tərəfləri idarə etdiyini iddia edirlər. Bu yanaşma əsasən müxtəlif şəraitdə mövqeləri üst-üstə düşməyən insanların qarşılıqlı münasibətlərinin mübahisə və hətta münaqişə ilə nəticələnə biləcəyini irəli sürərək ***"münaqişə"*** anlayışını izah etmiş olur. Burada münaqişə tərəflərinin bütün ortaq xüsusiyyətləri və yanaşmaları üst-üstə düşməyən maraqlar kontekstində nəzərə alınmır. Ona görə də, mübahisəyə səbəb olan məsələ münasibətləri çox asanlıqla uzun illər davam edəcək düşməçilik səviyyəsinə

çatdıra bilir. Beləliklə, tərəflərin hər hansı bir mövzu ilə bağlı qavrayış formasının əhəmiyyətini vurğulayan Swanström və Weissman, Wallensteenin münaqişə anlayışı ilə bağlı tərifini yenidən işləyərək təqdim edirlər. Bu tərifdə münaqişə ***"iki və ya daha çox tərəf arasında hər hansı bir məsələ ilə bağlı qavrayış fərqliliyi"*** olaraq ifadə olunur [8, s.8-9]. Bu nöqteyi-nəzərdən yanaşdıqda, münaqişəni sadəcə şiddətə əsaslanan hərəkət, davranış və ya düşmənçiliyin mövcud olduğu məsələləri əhatə edən dar çərçivə ilə məhdudlaşdırmaq mövzunun natamam qiymətləndirilməsinə səbəb ola bilər. Xüsusilə də, əgər münaqişələrə müdaxilə edilməsi və ya onun həll olunması ilə bağlı təsirli metodlar inkişaf etdirilsə, onda maraqların müxtəlifliyi olaraq ifadə etdiyimiz bir çox mübahisəli məsələlərin də nəzərə alındığı əhatəli terminoloji izahın verilməsi mümkün olar. Bilavasitə münaqişənin ətraflı tərifi gərginlik, anlaşılmazlıq, siyasi və iqtisadi maraqlar və tarixi düşmənçilik kimi məsələləri də əhatə etməklə yanaşı qəzəb, məhdudlaşdırma və müdaxilə kimi anlayışları da özündə ehtiva etməlidir. Belə bir tərif hərbi qarşıdurma mərhələsinə keçmədən də münaqişələrin forma və xüsusiyyətlərini izah etməyə müvəffəq ola bilər [8, s.9].

Sadə formada ifadə etdikdə, ***"münaqişə"*** bəzən sosial güclər arasındakı qarşıdurmalar zamanı meydana gələrək müxtəlif seçimlərlə bağlı qərarları əhatə edən gərginliklərlə sıx şəkildə əlaqələndirilir. Rəqabətin xarakterini müxtəlif ziddiyyətli sosial münasibətlərdən yaranan problemlərin necə müəyyənləşməsi və çərçivəyə salınması baxımından göstərmək olar. Heç bir məhdudiyyət olmadan müxtəlif sosial vəziyyətlərdən qaynaqlanan bir sıra problemlərlə qarşılaşırıq. Bilavasitə iqtisadi və sosial bərabərsizliyə dair davamlı şikayətlər müəyyən bir qrupun həyat səviyyəsinin ümumi göstəricilərdən aşağı olmasından irəli gəlir. Hər bir halda, mövqelərin və ya arqumentlərin fərqliliyi nəticəsində meydana gələ biləcək ixtilaflar istər təşkilati, istər ictimai, istərsə də beynəlxalq səviyyədəki münasibətlərdə sıxlıqla baş verən hadisədir.

Geniş mənada isə hər hansı bir səbəblə ictimai formada yaranmış qarşıdurmanı izah etmək üçün münaqişə anlayışının əhatə dairəsi daha da genişləndirilərək formalaşdırılmışdır. Belə ki, ***"münaqişə"*** termini dövlətlər arasındakı şiddətli qarşıdurmalarla yanaşı ailə və iş yerlərindəki mübahisələrə də tətbiq edilmişdir. Beləliklə, ***"münaqişə ilə qeyri-münaqişə halları arasındakı fərqlər ən yaxşı ehtimalda qeyri-müəyyən xarakter daşısada da, ən pis halda hər hansı bir ayırıcı xüsusiyyətlərin mövcudluğu göstərilməmiş olur".***

Bir çox tədqiqatçılar adətən ***"münaqişə"*** və ***"mübahisə"*** anlayışlarından sinonim olaraq istifadə etdikləri halda, John W.Burton bu iki termin arasında daha dəqiq fərqləri vurğulamışdır. Burtona görə, münaqişə mövcud normalara, münasibətlərə və qərar qəbuletmə mexanizminə münasibətdə inkişaf etdirilmiş problemlər kontekstində şərh olunur. Digər tərəfdən, ***"mübahisə"*** termini idarəetmə məsələlərinə və konkret siyasətin həyata keçirilməsi ilə bağlı yaranmış narazılıqların idarə olunmasına aiddir.

Fikir ayrılığı, mübahisə, və ya müharibə kimi anlayışların izahı bu fəaliyyətlərin intensivliyi və miqyası baxımından fərqlənir. Anlaşılmazlıq və yalnış anlama kimi terminlər məlumatın olmaması, düzgün mənbələrin seçilməməsi, bilik səviyyəsinin yetərsizliyi və ya qanuni prinsiplərin fərqli şərhləri kimi çeşidli səbəblərə əsaslana bilər. Ziddiyyətli maraqlar, düşmən münasibətlər və barışmaz dəyərlər antaqonist münasibət və davranışlara işarədir. Bu elementləri özündə ehtiva edən qarşıdurma forması sonrakı mərhələdə qarşı tərəfə fiziki zərər vurma cəhdlərini də istisna etmir.

Yüksək səviyyədəki dövlətlərarası münasibətlərin əksəriyyəti mövcud sistemdəki fikir ayrılıqlarını da aydın şəkildə əks etdirir. Belə ki, uzunmüddətli rəqabət mühitində olan dövlətlər üçün proses yetərsiz dəlillər və ya əhəmiyyətsiz hadisələr nəticəsində belə ölümcül bir yarışa çevirə bilər. Ona görə də, bəzən geniş kontekstdə dəyərləndirdikdə bir çox tədqiqatçılar münaqişəni intensiv rəqabət forması ilə müqayisə edirlər. Birbaşa əlaqələri olmayan dövlətlər belə bir çox hallarda beynəlxalq platformada bir-birləri ilə yarış vəziyyətində olmaq zərurəti ilə rəqabət halındadırlar. Məsələn, beynəlxalq istehlak bazarında daha çox satış əldə etmək cəhdləri bu prosesi sürətləndirməklə rəqabət mühiti daxilində var olma mübarizəsini dövlətlər üçün qaçınılmaz edir.

Beləliklə, davranış fərqliliyi nəticəsində yaranan rəqabət canlılar dünyasında ən universal və başlıca qarşılıqlı əlaqə formasıdır. Mübarizə bilavasitə və şüurlu şəkildə aparılırsa, bu artıq "münaqişə" forması kimi qəbul edilə bilər. Əslində, rəqabət münaqişə ilə eyni deyil, çünki yarışın məqsədi rəqiblərin məhv edilməsi deyil, sadəcə üstünlük əldə etməkdir.

İqtisadi əməliyyatlarda və idman yarışlarında rəqabət səlahiyyətli qurumların qərar qəbuletmə prosesi ilə tənzimlənir. Ona görə də, rəqabət mühitindəki qarşılıqlı fəaliyyətin bir çox forması tənzimlənə bilir və təşkilati xarakterə sahib olduğu üçün iştirakçılar nəticəni müəyyən edən qaydaların ədalətliliyinə şübhə etmirlər. Beləliklə, məhkəmə prosesindəki tərəflər və ya seçki yarışında iştirak edən namizədlər zorakılığın aradan qaldırılması və düşmənçiliyin minimum səviyyəyə endirilməsi üçün bütün iştirakçılar tərəfindən qəbul edilmiş qaydalar əsasında barışmaz məqsədlər uğrunda mübarizə aparırlar.

Adətən tənzimləmələr davranış qaydalarını və qadağaları formalaşdıraraq bu yarışda tərəflər üçün bütün mümkün istiqamətləri məhdudlaşdırmış olurlar. Ümumiyyətlə, rəqiblər öz səylərində və bir-birlərinə münasibətdə atacaqları addımlarda məhdud imkanlara sahibdirlər. Bu qaydalar güc tətbiqinin icazə verilən mümkün səviyyəsi ilə yanaşı qanuni forma və məcburetmə mexanizmini də müəyyənləşdirir.

Yarışın təşkilatlanma dərəcəsi qaydaların iştirakçılar tərəfindən qəbul edilmə səviyyəsinə və ənənəvi normalar və ya geniş qəbul edilmiş meyarlar əsasında dəstəklənmə göstəricilərinə görə fərqlənir. Beləliklə, davranışa nəzarətin səmərəliliyi yalnız qaydaların icrası üçün mövcud olan sanksiyalardan deyil, həm də daxili mənəvi öhdəliklərdən də təsirlənir.

Həmçinin pozulmuş sazişlər, yerinə yetirilməyən normalar və mənbələrə çıxış imkanı ilə bağlı haqsız qaydalar da mübahisələrin baş verməsinə səbəb ola bilər. Bunun qarşısını almaq üçün qrup sanksiyaları, arbitraj və ya məhkəmə prosedurlarını əhatə edən müdafiə vasitələri işlənib hazırlanmışdır. Təşkilati çərçivədə baş verən mübahisələr isə ya birbaşa sövdələşmə, ya da mütəxəssislərin cəlb edilməsi yolu ilə həll edilə bilər.

Beynəlxalq mübahisələr ətraf mühit və ya ticarət müqavilələrindən irəli gələn təşkilati qaydalar əsasında da həll edilə bilər. Məsələn, mal və ya xidmət mübadiləsində qeyri-bərabər təcrübədən qaynaqlanan mübahisələrin həll olunması üzv ölkələr tərəfindən razılaşdırılmış qaydaların şərh edilməsi səlahiyyətli orqan olaraq qəbul edilmiş Dünya Ticarət Təşkilatının arbitraj panellərinə həvalə olunmuşdur. Belə təşkilati qaydalar beynəlxalq mübahisələrin peşəkar idarə edilməsinə ehtiyacı əks etdirir.

Yeni qaydalara olan tələblər qeyri-müəyyənlik yaradan texnologiya və iqtisadi sistemlərdə edilən dəyişikliklərdən irəli gəlir. Dünya hakimiyyətinin olmaması, zəif beynəlxalq hüquq sistemi ilə birlikdə, ümumiyyətlə beynəlxalq qarşıdurmada təzahür edən maraqların və dəyərlərdəki fərqlərin tənzimlənməsində əsas maneələrdən biri olmuşdur [4, s.3]. Xüsusilə, beynəlxalq platformada getdikcə daha çox şiddətlənən yeni zorakılıq növləri (terrorizm kimi) normal dövlətlərarası münasibətlərdə mövcud olmayan münaqişə anlayışına fərqli yanaşmalar tələb edir.

*Nəticə.* Münaqişə vəziyyətində iki və daha çox sosial varlıq ehtiyac və maraqlarını digərinin hesabına təmin etmək üçün bir-birinin səylərinə müdaxilə edərək antaqonist qarşılıqlı fəaliyyət formalarından birinə keçmiş olurlar. Maraqların müxtəlifliyi nöqteyi-nəzərindən yanaşdıqda, qarşı tərəf hədəfə doğru gedilən yolda maneə hesab edildiyi üçün mübahisəli münasibətlər də təşviq edilmiş olur. Qarşı tərəfin üstünlük axtarışına mane olmaqla açıq bir mübarizə aparmaq mümkündür. Belə ki, status, güc və mənbələrə dair ziddiyyətli iddialar əksər hallarda iştirakçıların öz rəqiblərini məğlub etmək, onların qarşısını almaq, aradan qaldırmaq və ya ən pis halda onları neytrallaşdırmaq üçün məqsədyönlü səyləri ilə ifadə edilmiş olur.

Ancaq maraqların müxtəlifliyi öz-özlüyündə mütləq antaqonist münaqişə vəziyyətini yaratmır, çünki tərəflər hələ də dinc yanaşı yaşamaq üçün yollar tapa bilərlər. Belə ki, hər hansı bir məsələyə dair fikir ayrılığı və ya maraqların üst-üstə düşməməsi ilə bağlı fərqli yanaşmaların illüziya olduğu və ya real mənbələrə istinad edilmədiyi halda anlaşılmazlıqların aydınlaşdırılması yolu ilə mübahisə asanlıqla idarə edilə və ya aradan qaldırıla bilər. Əgər tərəflərdən hər birinin niyyəti digərinin istədiyi eyni obyekti almaq deyilsə, onda həmin tərəflər eyni hesab edilən məqsədə çatmaq niyyətində olmadıqlarını qəbul etməyə imkan verən bir yanaşma da formalaşdıra bilərlər.

ƏDƏBİYYAT

1. Kemal İnat, Burhanettein Duran, Muhittin Ataman, "Dünya Çatışma Bölgeleri", Ankara, Nobel Yayın ve Dağıtım, 2007, s.2010, 974 s.

2. Heseyin Pazarcı, Uluslararası Hukuk, Ankara, Turhan Kitapevi, 2004, 443 s.
3. Johan Galtung, Transcend and Transform, London, PlutoPress, 2004, 118 p.
4. Özgür Mengiler, Birleşmiş Milletler Çerçevesinde Uluslararası Uyuşmazlıkların Barışçı Çözümü, Ankara, Platin Yayınları, 2005, 385 s.
5. Peter Wallensteen, Understanding Conflict Resolution: War, Peace and the Global System, London, Saga, 2002, 320 p.
6. Ho-Won Jeong, Understanding Conflict and Conflict Analysis, Los Angles, SAGE Publications, 2008, 280 s.
7. Hugh Mial, Oliver Ramsbotham, Tom Woodhouse, "Contemporary Conflict Resolution: The Prevention, Management and Transformation of Deadly Conflicts", Cambridge, Polity Press, 2007, 65 p.
8. Niklas L.P. Swanströmand, Mikael S.Weissmann, "Conflict, Conflict Prevention and Conflict Management and Beyond: A Conceptual Exploration", Central Asia-Caucasus Institute and Silk Road Studies Programme, Washington, DC and Nacka, Sweden, 2005, 32 p.

**АЙТАН ГУРБАНОВА**
*преподаватель кафедры международных отношений*
*Бакинского Государственного Университета*

## РАЗЛИЧНЫЕ ПОДХОДЫ К ПОНЯТИЮ КОНФЛИКТА

В статье подробно рассматриваются подходы к понятию «конфликт», употребляемые в разных или близких смыслах. Однако основные различные точки зрения на анализ конфликта были изучены в соответствии с международным правом, социологией или психологией, и были проанализированы противоречивые данные. Следовательно, следует отметить, что новые виды насилия (например, терроризм), усилившиеся на международной платформе, требуют разнообразных подходов к концепции конфликта, чего на самом деле нет в типичных межгосударственных отношениях.

*Ключевые слова:* конфликтология, мир, война, государства, международные отношения, политика, цель, противостояние.

**AYTAN GURBANOVA**
*lecturer, Department of International Relations of Baku State University*

## DIFFERENT APPROACHES TO THE CONCEPT OF CONFLICT

Approaches to the concept of conflict used in different or similar senses are precisely examined in the article. However, primary different standpoints on conflict analysis have been studied according to international law, sociology, or psychology, and inconsistent data were analyzed. Consequently, it is noteworthy to emphasize that new types of violence (like terrorism) intensified on the international platform, require a variety of approaches to the concept of conflict what is actually absent in typical interstate relations.

*Keywords:* conflict studies, peace, war, states, international relations, policy, goal, confrontation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Sevinc Yusifzadə, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24)**

**ƏZİZAĞA QƏNİ-ZADƏ**
*Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasının dissertantı*
**Yupiter57@mail.ru**

# ZƏFƏRƏ GEDƏN YOLDA ORDU QURUCULUĞU

*Məqalədə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən konkret tədbirlər mötəbər mənbə və ədəbiyyatlar əsasında təhlil olunur. Azərbaycan Ordusunun yaradıcısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin daxili və xarici siyasətini əzmlə davam etdirən Ali Baş Komandan İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi son 17 il ərzində dövlətin bütün sahələri ilə yanaşı ordu quruculuğunun inkişafına, ordunun maddi-texniki bazasının gücləndirilməsinə, peşəkar hərbi kadrların hazırlanmasına, ümumilikdə, ordunun döyüş qabiliyyətinin artırılmasına və Silahlı Qüvvələrimizin dünya standartlarına uyğun inkişafına xüsusi diqqət yetirmişdir.*

*Açar sözlər*: Azərbaycan ordusu, ordu quruculuğu, hərbi təhsil, maddi-texniki baza, hərbi təlimlər.

*Giriş*. Tarixin bütün dövrlərində ordu dövlətin var olmasında, ərazi bütövlüyünün, suverenliyinin və təhlükəsizliyinin təmin edilməsində, regionda və dünyada söz sahibi olmasında xüsusi rola malikdir. Bu nöqteyi-nəzərdən, ordu quruculuğunun formalaşdırılması və gücləndirilməsi hər bir dövlətin qarşıya qoyduğu təxirəsalınmaz prioritet məsələlərdəndir.

Müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, həm də yüksələn xətlə inkişaf edərək müasir mərhələyə çatmış güclü ordu quruculuğudur. XXI əsrdə Azərbaycan Ordusu öz inkişafının ən uğurlu dövrünü yaşamaqdadır. Azərbaycan Respublikasının müstəqil dövlət kimi addımladığı bu illər ərzində uzun, çətin, amma çətin olduğu qədər də şərəfli yolda bütün istiqamətlərdə (iqtisadi-siyasi, sosial-mədəni sahələrdə), xüsusilə ordu quruculuğu sahəsində kifayət qədər böyük yol qət edilmiş və nəzərəçarpacaq dərəcədə nailiyyətlər imza atılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və təkmilləşdirilməsinə Xalqımızın Ümumilli Lideri Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra başlanmışdır.

Ümummilli Liderin daxili və xarici siyasətini, onun yarımçıq qalmış arzularını gerçəkləşdirən Ali Baş Komandan İlham Əliyev də ordu quruculuğuna, Silahlı Qüvvələrimizin daha da qüdrətlənməsinə xüsusi diqqət yetirmişdir. Onun ölkəmizə rəhbərlik etdiyi son 17 il ərzində ordumuzun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atılmış, hərbi təhsilin inkişafı yönündə təxirəsalınmaz işlər həyata keçirilmiş, peşəkar hərbi kadrların hazırlanması sahəsində əməli iş aparılmış, bir sözlə, ordunun peşəkarlıq, döyüş qabiliyyəti artırılmışdır. Bütün bunlarla yanaşı, Silahlı Qüvvələrdə ruh yüksəkliyi, döyüş əhval-ruhiyyəsi yüksəldilmişdir.

Ali Baş Komandan torpaqlarımızın işğaldan azad edəcək müzəffər ordunun yaradılmasının əsasını onun maddi-texniki bazasının müasir tələblər səviyyəsinə qaldırılmasında görürdü. Bu işin təşkil olunması isə bütünlükdə ölkənin iqtisadi inkişaf səviyyəsi ilə birbaşa əlaqəli idi. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi inkişaf strategiyası müasir Azərbaycan Respublikasını iqtisadi inkişafın yeni bir səviyyəsinə qaldırdı və bu da ildən-ilə hərbi büdcənin davamlı şəkildə artması və ordu quruculuğunun sürətli inkişafı ilə nəticələndi.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması xüsusilə milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açmışdır. Hərbi xərclər dedikdə, Milli ordu, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Müdafiə Sənayesi Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, DİN Daxili Qoşunları, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Feldyeger Xidmətinin saxlanılması xərcləri, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər nəzərdə tutulur.

Statistik məlumatlara əsasən, 2003-cü ildə cəmi 150 milyon olan hərbi büdcəmiz 2004-cü ildə artaraq 175 milyon dollar, 2005-ci ildə 300 milyon dollar, 2006-cı ildə 700 milyon dollar, 2007-ci ildə

1 milyard dollar, 2008-ci ildə 2 milyard dollar, 2010-cu ildə 2 milyard 150 milyon dollar, 2011-ci ildə 3 milyard 413 milyon dollar, 2012-ci ildə 3 milyard 474 milyon dollar, 2014-cu ildə 3 milyard 700 milyon dollara, 2015-ci ildə rekord 5 milyard dollar, 2016-cı ildə 2 milyard 642 milyon manat (ilin ortasındakı dollar məzənnəsini nəzərə alsaq 1 milyard 554 milyon dollar bərabər olur), 2017-cu ildə təxminən 1 milyard dollara, 2018-ci ildə 1.6 milyard dollara bərabər olmuşdur [12; 10, 641-642, 645, 647].

Ordunun gücü, döyüş qabiliyyəti həm də döyüş texnikaları və silah-sursat avadanlıqları ilə bağlıdır. Azərbaycan Respublikasının hərbi büdcəsi, ordumuzu ən yeni texnologiyalara əsaslanan hərbi texnika və döyüş vasitələri ilə təchiz etməyə imkan verir. Hal-hazırda ölkəmizin gəlirlərinin artması ilə yanaşı, Silahlı Qüvvələrin modernləşdirilməsi, yenidən qurulması, ən yeni və güclü döyüş vasitələri ilə təchiz edilməsi prosesi həyata keçirilir.

Azərbaycanın öz hərbi xərclərini yüksək səviyyədə saxlamasını zəruri edən başlıca səbəblərdən biri də Silahlı Qüvvələrin sərəncamında olan Sovet istehsalı, köhnələn hərbi texnikanı yeniləmək, onu ən yeni texnologiyalar əsasında hazırlanan müasir döyüş vasitələri ilə təchiz etmək, habelə silahlı qüvvələrin şəxsi heyətinin sosial vəziyyətini yaxşılaşdırmaq və hərbi tədrisdə yeni metodikanı tətbiq etmək zərurətidir. Ordumuz hərbi-texniki sahədə sıx tərəfdaşlıq etdiyi ölkələrdən yeni silah sistemləri və döyüş vasitələri əldə edir. Bu zaman Hərbi Hava Qüvvələrinin, Quru Qoşunlarının, Sərhəd Qoşunlarının, Hava Hücumundan Müdafiə qoşunlarının döyüş qabiliyyətinin artırılması ilə bağlı ehtiyaclar əsas götürülür.

Azərbaycan Ordusunun maddi-texniki bazasının bir qədər də təkmilləşdirilməsi, həmçinin ölkəmizdə Silahlı Qüvvələrin silah və hərbi texnika ilə təchizatında xarici ölkələrdən asılı olmamaq məqsədi ilə milli hərbi sənayemiz də formalaşdırılmış və birgə istehsal müəssisələri yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən sərəncam idi [12].

Bununla da ordu quruculuğunun inkişafında yeni mərhələnin əsası qoyuldu. 2009-cu ildə Müdafiə Sənayesi Nazirliyinin artıq 19 müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrdə 400 növdə müdafiə təyinatlı məhsul istehsal olunurdu [2, 1-2].

Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində hazırda 1300-dən çox müxtəlif adda hərbi təyinatlı məhsul istehsal və ixrac edilir. Silahlı Qüvvələrin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparılmışdır və bu müəssisələrdə ordumuzun inventarında olan hərbi texnikaların təmiri, ən müasir şəkildə modernləşdirilməsi həyata keçirilir [8].

Müdafiə Sənayesi Nazirliyinin öz mövqeyini getdikcə möhkəmləndirməsi Silahlı Qüvvələrimizin modernləşdirilməsi, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər mühüm işlər görülüb. Ordumuz yeni texniki imkanlar əldə etməklə həm də müasir, dünyada təcrübədən çıxmış müharibə və döyüş taktikalarını da mənimsəyib. Qeyd edək ki, 2016-cı ilin Aprel döyüşləri zamanı düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının məhv edilməsində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan silah və sursatlardan - “Tufan”, “İldırım” və “Qasırğa” milli zirehli maşınlarından, “İstiqlal” silahından, xüsusi təyinatlı “Yalquzaq”, “Mizrak” raket sistemlərindən geniş istifadə edilmişdir [3, 7].

Qeyd etmək yerinə düşər ki, Azərbaycan hərbi sənayesinin istehsalı olan döyüş texnikası və müasir silah-sursatın Bakıda keçirilən hərbi parad zamanı nümayişi dünyanın diqqətini ölkəmizə yönəltmişdir. Üzərində "Tütək" raket kompleksləri quraşdırılmış "Əqrəb" markalı xüsusi zirehli avtomobilləri, Daxili Qoşunların "SOFA", Dövlət Sərhəd Xidmətinin "Kobra" zirehli maşınlarını, xüsusi təyinatlı bölmələrin "Land Rover" və "Mersedes" maşınlarını, Daxili Qoşunların "Cardom" tipli minaatanlarını görən hər kəs sonsuz qürur hissi keçirirdi. Hərbi sənayemizin istehsalı olan silah və texnika bununla bitmir. Müxtəlif çaplı, müasir tipli yedəkli artilleriya sistemləri, avtomatik minaatanlar, tank əleyhinə toplar, haubitsalar, qoşqular, zireh sistemləri böyük maraqla qarşılandı. Bu hərbi texnikalar sırasında olan "Dolu-1" 20,4 km, "Leysan" 45km, "Şimşək" 150km, "Qasırğa" isə 70 və 90 kilometrlik məsafələrə reaktiv mərmi atmaqla hədəflərə dəqiq zərbə vurmaq imkanına malikdir [4].

Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan məhsullar dəfələrlə beynəlxalq sərgilərdə də nümayiş etdirilmişdir. Türkiyə, ABŞ, İngiltərə, Almaniya, İtaliya, Rusiya, Fransa və digər inkişaf etmiş dövlətlərin qarşısında Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin isteh-

salı olan hərbi texnikanın və silah-sursatın diqqəti cəlb etməsi hərbi sənayemizin inkişafından xəbər verir.

Görülən məqsədyönlü işlərin nəticəsində ordumuz ən müasir döyüş sistemləri ilə təchiz olunmuşdur. Buna misal olaraq aşağıdakıları göstərə bilərik: 152 mm-lik "Msta-C", 120 mmlik "Vena" özü yeriyən artilleriya qurğuları, 120 mm-lik "Sani" mina atan kompleksi, 220 mm-lik "TOS-1A" reaktiv qurğuları, 122 mm-lik T-122 "Sakariya", 300 mm-lik "T-Qasırğa", 300 mm-lik "Smerç" yaylım atəşli reaktiv artilleriya sistemləri, "Maşina-M" markalı özüyeriyən artilleriya divizionunun atəşi avtomatik idarə etmə kompleksi, PRTMK-1 radi opelenqasiya meteroloji kompleksi, "Mersedes-Benz" avtomobilinin şassisi üzərində yığılmış 120 mm-lik "CORDOM-M3" markalı özü yeriyən minaatan sistemləri, yeni növ döyüş sursatları, müxtəlif təyinatlı təmir və komanda-müşahidə maşınları, T-72, T-72M1, müasir T-90S tankları, BMP-3, BTR-82 zirehli texnikaları, BTS-4, BTS-5 markalı dartıcılar, səyyar təmir emalatxanaları, ən müasir hərbi təyyarələr və vertolyotlar, hava hücumundan müdafiə sistemləri, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan 60, 82 və 120 mm-lik minaatanlar, müxtəlif növ atıcı silahlar, elektro-optik, termal, gecə nişangahları, müşahidə sistemləri və s. silah və texnikalar [11].

Azərbaycan ordusunun daha da peşəkarlaşdırılmasında ölkədə və ölkədən kənar keçirilən təlimlər də böyük rol oynamışdır.

Qoşunların atəş qüdrətinin daha da gücləndirilməsinin təmin edilməsi üçün 2013-cü ilin dekabrında Raket və Artilleriya Qoşunları İdarəsi yaradılmışdı. 2014-cü ildə isə təmas xəttinin dərinliklərində yerləşən düşmən hədəfərini məhv etmək üçün reaktiv artilleriya divizionunun bazasında Raket briqadası yaradılmışdır [9, 663].

Raket və Artilleriya Qoşunlarının imkanlarının daha da artırılması məqsədilə mütəmadi olaraq bölmələrdə döyüş atışı üzrə taktiki təlimlər keçirilmiş, pilotsuz uçuş aparatlarından istifadə edilməklə atəşlərin həyata keçirilməsi məsələləri araşdırılmış, hədəflərin koordinatlarının təyin edilməsi və onların sınaq atəşləri ilə vurulması sahəsində vərdişlər şəxsi heyətə aşılanmışdır [9, 663].

Həmçinin, ordunu gələcək döyüşlərə hazırlamaq üçün qısa müddət ərzində tam təmin olunmuş müxtəlif təyinatlı bir neçə təlim bazası qurularaq qoşunların ixtiyarına verilmişdir [10, 667].

Ordunun şəxsi heyətinin müasir döyüşlərin ən mürəkkəb tapşırıqlarını yerinə yetirmə səviyyəsini öyrənmək üçün Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq hərbi təlimlər keçirilmişdir. Bu, ordunun döyüş qabiliyyətini və peşəkarlığını artırmış və yeni silah sistemlərindən və döyüş texnikasından istifadə bacarığını daha da təkmilləşdirmişdir.

2014-cü il iyunun 26-da Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirilmişdi. Təlimlərdə «Azərbaycan Respublikası ərazisinin müdafiəsi və təcavüzkarın məğlubiyyətə uğradılması məqsədilə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin birgə fəaliyyətinin planlaşdırılması və təşkili, dövlət sərhədinin mühafizəsi və müdafiəsi, əks-hücuma keçməklə təcavüzkarın əsas qüvvələrinin darmadağın edilməsi» mövzusunda məsələlər üzrə tapşırıqlar yerinə yetirilmişdi. Təlimlərə ümumilikdə 4000 nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş vertolyotu cəlb edilmişdi [10, 669-670].

Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyətinin daha da yüksəldilməsində ordunun beynəlxalq təlim və treninqlərə qatılması da böyük rol oynamışdır. Xüsusilə Azərbaycanın qardaş Türkiyə və Gürcüstan Respublikası ilə müştərək hərbi təlimlər keçirməsi ordumuzun peşəkarlığını daha da artırmışdır.

2014-cü ildə Azərbaycanda və xarici ölkələrdə keçirilmiş 5 hərbi təlimdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 475 nümayəndəsi, 2015-ci ildə keçirilmiş 9 təlimdə 1300-ə yaxın nümayəndəsi, 2016-cı ilin 1-ci yarısında keçirilmiş 7 təlimdə isə 275 nümayəndəsi iştirak etmişdir [10, 677]. Bu rəqəmlər ildən- ilə daha da artmaqdadır.

Silahlı Qüvvələrimizin gücünü, hərbi qüdrətini yüksəltmək məqsədilə Azərbaycan NATO ilə səmərəli əməkdaşlığa da üstünlük verir. Burada əsas məqsəd ordu quruculuğu prosesini təkmilləşdirmək, Azərbaycan ordusunu modernləşdirmək və dünya standartlarına uyğunlaşdırmaqdır. Bu gün ordumuzun nümayəndələri NATO ilə əməkdaşlığa, beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar

olunması prosesinə dəyərli töhfə verir və sülhməramlı əməliyyatlarda fəal iştirak edirlər. 2019-cu ildə NATO-nun "Qətiyyətli dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq, rotasiya qaydasında Əfqanıstanda xidmətə göndərilib. Xatırladaq ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb [3, 7].

Ancaq bu da danılmaz faktdır ki, Ordu nə qədər güclü, müasir, dəqiq və böyük dağıdıcı gücə malik silahlarla silahlansa da döyüş meydanında sön sözü deyən yenə də insan faktoru, döyüşə atılan insanların Vətən sevgisi və inandığı amal uğrunda gözünü qırpmadan canından keçməyə hazır olmasıdır. Bu mənada, Vətən müharibəsində Zəfər qazanmağımızda böyük rolu olan amillərdən biri də Azərbaycan əsgər və zabitlərinin peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri, cəsurluğu, vətənpərvərliyi, inamı, şəxsi rəşadətləri, qələbə əzmi, döyüş əhval-ruhiyyəsidir. Sözün həqiqi mənasında, döyüş meydanında yeni tarix yazan Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, qanı və canı bahasına bu qələbənin əldə olunmasını təmin etməsi hər birimizə qürurverici anlar yaşatdı, qəlbimizi fərəh hissi ilə doldurdu.

Çıxışlarının birində gənc və peşəkar hərbi kadrların hazırlanmasına dövlət qayğısını Ali Baş Komandan İlham Əliyev belə şərh edirdi: «Bizə hazırlıqlı hərbçilər lazımdır. Bütün sahələrdə yeni gənc kadrların yetişdirilməsi məsələlərinə böyük diqqət göstərilir. Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır. Bu proses bu gün də davam etdirilir. Azərbaycanda hərbi kadrların hazırlanmasına böyük diqqət göstərilir. Mən çox şadam ki, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti ildən-ilə artır və ruh yüksəkliyi yüksək səviyyədədir» [6].

Milli zabit kadrlarının hazırlanması sahəsində də vəzifələr uğurla yerinə yetirilməkdədir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 nömrəli qərarına əsasən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 4 bakalavr ixtisası çərçivəsində 9 hərbi uçot ixtisası üzrə, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində 4 bakalavr ixtisası çərçivəsində 4 hərbi uçot ixtisası üzrə, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində isə 3 bakalavr ixtisası çərçivəsində 8 hərbi uçot ixtisası üzrə zabit kadrlarının hazırlığı təşkil edilmişdir [10, 681].

Cənab Ali Baş Komandan İlham Əliyev deyirdi: "Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən, Azərbaycan üçün. Bu gün Azərbaycanda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan yeni şəraitə uyğun, müasir hərb elminin tələblərinə cavab verən, güclü ordu qurulmuşdur... Bu ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Arsenalında yüksək dəqiqlikli ən müasir silahlara, yüksək texnologiyaların tələblərinə cavab verən, mühəndis texniki qurğulara malik Azərbaycan Ordusu həm də bu silahları taktiki döyüş təlimlərində sınaqdan keçirmiş, onların idarə ediməsinə yiyələnmiş peşəkar zabit korpusuna, dünyanın ən qabaqcıl hərbi məktəblərində, ordularında müasir hərb elminin sirlərinə yiyələnmiş hərbi elitaya malikdir" [5].

Cənab Ali Baş Komandanın nə zamansa dediyi bu sözlərini Azərbaycanın qüdrətli Ordusu dəfələrlə - 2016-cı ilin aprel zəfərində də, 2018-ci ilin Günnüt hadisələri zamanı, 2020-ci ilin Tovuz döyüşlərində və ən nəhayət, 44 günlük Vətən müharibəsində döyüş meydanında qazandığı möhtəşəm zəfərlə sübut etdi. Azərbaycanın əsgər və zabitləri misilsiz şücaəti, qanı və canı ilə millətin milli qürur hissini özünə qaytarmaqla, xalqımızın tarixinə şərəfli səhifə - Zəfər səhifəsi həkk etdirdi.

*Nəticə*. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən konkret tədbirlər ordumuzun Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsi ilə nəticələnmişdir [1].

İkinci Qarabağ müharibəsinə daxil olarkən Azərbaycanın yüksək təchizatlı ordusu, hərb elmini yaxşı mənimsəmiş, hətta ona yeniliklər gətirə bilən ali zabit korpusu, ən əsası, bu ordu ilə qələbə qazanmağı, Dağlıq Qarabağ problemini hərbi-siyasi yolla, milli maraqlarımız çərçivəsində həll etməyi qarşısına məqsəd qoymuş Ali Siyasi İradə var idi. "Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik" [7] deyən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu yolda hər birimizə yeni uğurlar arzulayıram.

Qüdrətli Ordumuzun əldə etdiyi nailiyyətlər, 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər cəmiyyətimizi ayağa qaldırdı və çox sevindirdi. Xalqımız bir daha əmin oldu ki, ölkəmizin rifahı, müstəqilliyi, ərazi bütövlüyününün təmini etibarlı əllərdədir.

ƏDƏBİYYAT

1. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda Azərbaycan Respub likasının Prezidenti İlham Əliyevin çıxışı. - https://president.az/articles/21414 [Müraciət tarixi: 24.06.2021].
2. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 91-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev təlimin əsas mərhələsini izləmişdir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışı // "Xalq qəzeti", 25 iyun 2009-cu il, № 136, s.1-2.
3. Bədəlov Əliqismət. Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır // Xalq qəzeti, 26 iyun 2019-cu il, s.7.
4. Bədəlov Əliqismət. Güclü ordu güclü dövlət deməkdir. Azərbaycan Prezidenti belə bir qüdrətli ordunu qısa müddətdə formalaşdırdı // Xalq qəzeti, 2011, 14 avqust, s.4. - http://www.anl.az/down/meqale/xalqqazeti/2011/avqust/195241.htm. [Müraciət tarixi: 24.06.2021].
5. Göyüşov Ramiz. Qələbəyə aparan yol. 2020-10-29. http://www.binegedi-ih.gov.az/news/3082.html. [Müraciət tarixi: 24.06.2021].
6. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir. 25 iyun 2012-ci il. - https://mod.gov.az/az/news/heyder-eliyev-adina-azerbaycan-ali-herbi-mektebinde-xususi-teyinatli-herbi-tehsil-muessiselerinin-novbeti-buraxilisina-h-11645.html [Müraciət tarixi: 24.06.2021].
7. Məmmədova Nazilə. Ali Baş Komandanın Ordu quruculuğu və siyasi kursu. 2020-06-27 - http://www.xazar-ih.gov.az/news/913.html [Müraciət tarixi: 24.06.2021].
8. Prezidentin fəaliyyətində ordu quruculuğu birinci yerdədir. 2020-06-27 - http://www.neftchala-ih.gov.az/news/477.html [Müraciət tarixi: 24.06.2021].
9. Mehman Süleymanov. Azərbaycan ordusunun tarixi. V cild. Bakı, "Maarrif" nəşriyyatı, 2019, 784s.
10. Mehman Süleymanov. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi Bakı, «Elm və təhsil», 2018, 728 s.
11. Müdafiə naziri general-polkovnik Zakir Həsənov: "Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir". - https://mod.gov.az/az/news/mudafie-naziri-general-polkovnik-zakir-hesenov-silahli-quvvelerimiz-qarsiya-qoyulan-butun-tapsiriqlari-ugurla-yerine-yet-12516.html [Müraciət tarixi: 24.06.2021].
12. Verdiyev Ədalət. Müstəqil Azərbaycan və Ordu quruculuğu. 18 oktiyabr 2018-ci il.-Ordu.az - https://ordu.az/az/news/141828/musteqil-azerbaycan-ve-ordu-quruculugu- [Müraciət tarixi: 24.06.2021].

**АЗИЗАГА ГАНИ-ЗАДЕ**
*Полковник, Начальник Музея военной истории Азербайджана*

## АРМЕЙСКОЕ СТРОИТЕЛЬСТВО НА ПУТИ К ПОБЕДЕ

В статье анализируются конкретные мероприятия, осуществляемые под руководством Президента Азербайджанской Республики, Верховного Главнокомандующего Вооруженными силами господина Ильхама Алиева в области армейского строительства на основе авторитетных источников и литературы. Верховный Главнокомандующий Ильхам Алиев, настойчиво продолжающий внутреннюю и внешнюю политику общенационального лидера нашего народа Гейдара Алиева, создателя азербайджанской армии, в последние 17 лет руководства нашей страной, наряду со всеми сферами деятельности государства, особое внимание уделял развитию армейского строительства, укреплению материально-технической базы армии, подготов-

ке профессиональных военных кадров, повышению боеспособности армии в целом и развитию Вооруженных сил в соответствии с мировыми стандартами.

*Ключевые слова*: азербайджанская армия, армейское строительство, военное образование, материально-техническая база, военные учения.

**AZIZAGA GANI-ZADE**
*Head of the Museum of Military History of Azerbaijan*

## ARMY CONSTRUCTION ON THE WAY TO VICTORY

The article analyzes specific measures carried out under the leadership of the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief of the Armed Forces, Mr. Ilham Aliyev, in the field of army construction based on authoritative sources and literature. Supreme Commander-in-Chief Ilham Aliyev, persistently pursuing the domestic and foreign policy of the national leader of our people, Heydar Aliyev, the creator of the Azerbaijani army, in the last 17 years of the leadership of our country, along with all spheres of state activity, paid special attention to the development of army construction, strengthening the material and technical the base of the army, the training of professional military personnel, the increase in the combat effectiveness of the army as a whole and the development of the Armed Forces in accordance with world standards.

*Key words*: Azerbaijani army, army construction, military education, material and technical base, military exercises.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Nurulla Əliyev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 327**

**İLYAS HÜSEYNOV**

*Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
**ilyasdiplomat@gmail.com**

# AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA MƏNFİ TƏSİR EDƏN ƏSAS AMİLLƏR: SOCAR-DESFA SÖVDƏLƏŞMƏSİNİN POZULMASINI DOĞURAN SƏBƏBLƏRİN TƏHLİLİ

*Məqalədə Azərbaycan və Yunanıstan arasında enerji sahəsində əməkdaşlığa mənfi təsir edən əsas amillər təhlil edilir. SOCAR-ın Yunanıstanın DESFA şirkətinin səhmlərini alması ilə bağlı sövdələşmənin pozulmasını doğuran səbəblər və Yunanıstanın solçu hökuməti ilə ikitərəfli münasibətlərdə ziddiyyətlər dərindən araşdırılır.*

*Açar sözlər*: Yunanıstan, SOCAR, Avropa İttifaqı, enerji diplomatiyası, Cənub Qaz Dəhlizi, DESFA, enerji təhlükəsizliyi, TAP, Şahdəniz.

*Giriş*. Azərbaycan və Yunanıstan arasında enerji sahəsində formalaşmış əməkdaşlıq istiqamətləri çoxşaxəli və genişspektrli olmaqla yanaşı, bir sıra ziddiyyətlərlə də müşayiət olunmuşdur. Qeyd edək ki, SOCAR ilə Yunanıstanın "DESFA" şirkətinin səhmlərinin əldə olunması ilə bağlı razılaşmaların ləğv edilməsi müəyyən suallar doğurmuşdur. Avrozonada baş verən genişmiqyaslı iqtisadi böhran fonunda Yunanıstanda hakimiyyətə gələn SİRİZA-nın qarşıya qoyduğu strateji hədəflər əsasən öncəki iqtidarın planlarına qarşı çıxmaq və əldə edilmiş bütün razılıqların pozulması üzərində qurulmuşdu. Yunanıstanın solçu hökuməti və Avropa Komissiyasının Rəqabət üzrə Direktorluğunun ədalətsiz, qeyri-konstruktiv mövqeyi və konyuktur maraqları SOCAR-ın "DESFA"-nın səhmlərinə yiyələnməsinə əngəl olmuşdur.

*Azərbaycanın enerji şirkətinin "DESFA"-nın özəlləşdirilməsi ilə bağlı təşəbbüsləri*. 2013-cü ilin yazında, Şahdəniz konsorsiumunun qaz marşrutunun seçilməsinə dair yekun qərarından bir neçə həftə əvvəl Yunanıstanın Baş naziri Antonis Samaras Azərbaycana səfərə gəlmiş və "TAP"-a dəstək olmaq, onun seçilməsini müdafiə etmək üçün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüşdür. Bundan başqa, görüşdə Yunanıstanın Baş naziri Yunanıstanın qaz nəqli sisteminin operatoru olan "DESFA" şirkətinin özəlləşməyə çıxarıldığını və SOCAR-ın "DESFA"-nın alınmasına dair böyük maraq göstərdiyini bildirmişdir. 2013-cü ilin yayında "Şahdəniz" konsorsiumu, "Nabukko-Qərb" əvəzinə "TAP"-ı Türkiyə-Yunanıstan sərhədində TANAP ilə əlaqəli boru kəməri kimi seçdi. Digər tərəfdən, "DESFA"-nın SOCAR tərəfindən özəlləşdirilməsi ilə bağlı qərar qəbul edildi. Avropa Komissiyası sövdələşmənin 2015-ci ilin birinci yarısında rəqabət qaydalarına uyğun olub olmadığına dair qərar verəcəyi gözlənilsə də Yunanıstanın solçu hökuməti SOCAR-ın bu hüququ itirməsi üçün hər şeyi etdi [4].

"DESFA"-nın SOCAR tərəfindən alınması Yunanıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın fundamental bazasını təşkil etməyə yönəlsə də gözlənilən həyata keçməmişdir. Ümumiyyətlə, Azərbaycan və Yunanıstan arasında enerji sahəsində olan münasibətlərdə "DESFA"-nın özəlləşdirilməsi ən problematik sahə olduğunu qeyd edə bilərik. Yunanıstan iqtisadiyyatına dərin nüfuz etmiş böhranla əlaqədar Avropa Komissiyasının israrlı tələblərinin təsiri altında yerli dövlət şirkətlərinin özəlləşdirilməsi prosesinə başlanıldı. Bundan əlavə, "DESFA"-nın özəlləşdirilməsi Yunanıstan iqtisadiyyatına yeni maliyyə axını gətirməsi ilə yanaşı, Beynəlxalq Valyuta Fondu, Avropa Komissiyası və Avropa Mərkəzi Bankı tərəfindən qarşıya qoyulan hədəflərə çatmağa kömək etməyə hesablanmışdı. Daha sonra Avropa Komissiyası tərəfindən Yunanıstanın dövlət şirkətinin xarici bir dövlət şirkətinin idarəedilməsinə verilməməsi ilə bağlı digər şərt irəli sürüldü. Yunanıstan Özəlləşdirmə Agentliyi "HRADF"-nin İdarə Heyəti, 2013-cü ilin 20 iyun tarixli iclasında SOCAR-ın "DESFA"-nı əldə etmək üçün təkmilləşdirilmiş təklifindən məmnunluğunu ifadə etmişdir [9].

2013-cü ilin dekabrında SOCAR Yunanıstanın Dövlət Əmlakının İdarə Edilməsi Fondu və "Petroleum" şirkəti ilə Yunanıstanın "DESFA" qazpaylayıcı şirkətinin səhmlərinin 66%-nin alınma-

sına dair saziş imzaladı [11]. SOCAR "DESFA"-nın səhmlərinin 31%-ni Yunanıstan hökumətindən, 35%-ni isə "Hellenic Petroleum SA" şirkətindən almaq barədə razılığa gəlmişdir [5].

SOCAR "DESFA"-nın səhmlərinin 66%-nə sahib olmaq hüququnu qazansa da, sövdələşmə əvvəlcə Avropa Komissiyanın, daha sonra Yunanıstan hökumətinin etirazları ilə qarşılandı [12]. Yunanıstan hökuməti yanlış olaraq "DESFA"-nın özəlləşdirilməsi ilə bağlı məsələni iqtisadi mənfəət əldə etmək üçün münasib sövdələşmədən geosiyasi problemə qədər böyütməyə üstünlük verdi. Səhmlərin satışının tamamlanması ilə gecikmənin Avropa Komissiyasının Rəqabət üzrə Direktorluğu tərəfindən başlanan dərin araşdırma ilə bağlı olması bildirilirdi [13]. Nəticədə, Brüssel və SOCAR kompromisə gəldilər ki, Azərbaycan şirkəti səhmlərin 50%-nə yiyələnməli və SOCAR "DESFA"-nın 16%-ni güzəştə getməlidir [8]. Yunanıstanda yeni hakimiyyətə gələn solçu hökumət "DESFA"-nın yalnız 49%-ni SOCAR-a satmağı düşünürdü ki, bu da Yunanıstanın milli qaz operatorundakı nəzarət payının saxlanılmasına imkan verəcəkdi [6]. Sövdələşmənin Avropa antiinhisar orqanları tərəfindən təsdiq edilməsi üçün SOCAR əldə etdiyi səhmlərin 17%-nin üçüncü tərəfə satılması və 49%-nin özündə saxlanılmasını təklifini qəbul etdi. Səhmlərin 17%-nin İtaliya şirkəti "SNAM"-a satılması və bununla da "DESFA" məsələsinin həll edilməsi gözlənilirdi [10]. Yunanıstanın "DESFA" qaz nəqli şirkətinin SOCAR tərəfindən alınması ilə bağlı Avropa İttifaqının Azərbaycandakı səfiri Malena Mard qeyd etmişdi ki, razılaşdırma mərhələsi standart prosedur qaydasıdır və müqavilədə iştirak edən tərəflərdən hər hansı birinə qarşı yönəlməyib [7].

*SOCAR-ın qarşılaşdığı problemlər və maneələr*. Burada əsas məsələ ondan ibarətdir ki, Komissiya belə böyük qaz nəqli sisteminin nəzarət paketinin Avropa İttifaqına daxil olmayan ölkənin əlinə keçməsini istəmir, ölkənin qaz nəqli sistemi ilə bağlı strateji qərarların qəbulu üçün Yunanıstanın nəzarətində qalmasının tərəfdarı kimi çıxış edirdi. İkincisi, Avropa İttifaqı Yunanıstanın "DEPA" şirkətini almağa hədəfləyən Rusiyanın "Qazprom" şirkəti üçün qanuni presedent yaradılmasını istəmirdi. Bu, həm də Avropa İttifaqının enerji qanunvericiliyinin bütün üçüncü ölkələr və üzv dövlətlər üçün qüvvədə olduğu barədə Moskvaya açıq bir mesaj kimi qiymətləndirilirdi.

SOCAR-ın "DESFA"-da əsas payın əldə etməsi ilə bağlı istəkləri çoxsaylı amillərdən qaynaqlanırdı, çünki bu, Yunanıstanın qaz ötürmə/paylama sistemində və təbii qazın istehsalı və satışı üçün daha geniş bazarda Azərbaycanın dövlət şirkətinə əlavə iqtisadi dividentlər qazandıracaqdı. "DESFA", "DEPA"-nın bir törəmə şirkəti olaraq, Yunanıstanın milli qaz nəqliyyat sisteminin bir hissəsi kimi Yunanıstan-Bolqarıstan qaz kəmərinin Yunanıstana düşən ərazilərini idarə edir və Revituzadakı mayeləşdirilmiş təbii qazın yenidən tənzimlənməsi terminalına sahibdir. Solçu koalisiya Yunanıstanda hakimiyyətə gəldikdən sonra rəsmi Afina iqtisadi dividendlərini artırmaq üçün "TAP" müqaviləsini yenidən nəzərdən keçirəcəyini bildirmiş və "DEPA"-nın iştirakı ilə "TAP"-da pay istəmişdi. Bununla yanaşı, "TAP" üçün tranzit ödənişlərinə yenidən baxılması, Azərbaycan qazı üçün endirimlər və "DESFA"-nın yalnız 49 faizinin SOCAR-a satılması tələblər sırasında daxil idi. Bununla yanaşı, Yunanıstan solçu ritorikasını bir kənara qoymaq, rəqabətqabiliyyətli və inteqrasiya olunmuş enerji bazarının inkişafı üçün strateji addımlar atmaq, "TAP" və "IGB" layihələrinin vaxtında həyata keçirilməsi üçün praktiki addımlar atmamışdır [3].

2016-cı ilin dekabr ayının 1-də SOCAR, "Hellenic Petroleum S.A." şirkəti və Yunanıstanın Özəlləşdirmə Fondu DESFA-nın özəlləşdirilməsi layihəsinə xitam verilməsi ilə bağlı açıqlama yaymışlar. Bununla bağlı olaraq Yunanıstan müxalifətinin keçmiş lideri Kiriakos Mitsotakis Yunanıstan hökümətinin atdığı addımların investorların ölkədən qaçışına səbəb olduğunu və bunu hakimiyyətin fiaskosu adlandırmışdır. O, Baş nazir Aleksis Tsiprasın iqtisadi sahədə islahatların aparılmasında maraqlı olmadığını, bu səbəbdən də investorların ölkəni tərk etdiyini, sabiq energetika naziri Panos Skurletisin SOCAR-la DESFA arasında danışıqların uğursuz nəticələnməsində birbaşa məsuliyyət daşıdığını vurğulamışdır [1].

*Prezident İlham Əliyevin sərt reaksiyası*. Hər zaman ölkəmizin milli maraqlarını beynəlxalq platformalarda qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev 2020-ci ilin sentyabrın 2-də Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən "DESFA" ilə bağlı məsələyə aydınlıq gətirmişdir. "SOCAR-ın tender prosedurunda iştirak etməsini Yunanıstanın sabiq Baş Naziri cənab Samaras şəxsən məndən xahiş etdi. Açıq tender proseduru nəticəsində SOCAR ən yaxşı təklifi etdi və "DESFA"ya sahib olmaq hüqu-

qunu qazandı. Bu, bizim Cənub Qaz Dəhlizinin tikintisi ilə bağlı planlarımız baxımından da mühüm əhəmiyyət kəsb edirdi. Həmin vaxt əlbəttə ki, biz Azərbaycanla Avropa arasında bağlantı inşa etməyi, sadəcə olaraq, planlaşdırırdıq və düşündük ki, əgər Azərbaycan Yunanıstanı qazla təchiz edəcəksə, bu qazı paylaşdıran şirkətə sahib olmaq da yaxşı olar. İstənilən halda biz qiymətin 10 faizini təşkil edən 40 milyon avro məbləğində avans ödənişi etdik və 4 il ərzində - 2014-cü ildən 2018-ci ilədək həmin vəsait Yunanıstan hökumətinin ixtiyarında olub. Lakin siyasi səbəblərdən, Yunanıstanın əvvəlki hökumətinin Azərbaycana olan mənfi münasibəti səbəbindən bu legitim hüquqdan məhrum olduq. Sözsüz ki, bu, bizim artıq aşağı səviyyədə olan əlaqələrimizə ciddi təsir etdi" [2].

Prezident İlham Əliyev "DESFA"-nın özəlləşdirilməsi ilə bağlı yaranmış məsələni bir neçə dəfə Brüsseldə Avropa İttifaqının iki sabiq lideri ilə - cənab J.M.Barrozu və cənab D.Tuskla qaldırmışdır. Qeyd etmək lazımdır ki, "TAP" Azərbaycan qazının nəqli üçün yeganə variant deyildi. Azərbaycan qazının Türkiyə ərazisinə çatandan sonra nəql olunması üçün bir neçə variant nəzərdən keçirilirdi. Lakin "TAP"-ın seçilməsi həm də investorlar, xarici neft şirkətləri və Azərbaycan tərəfindən verilmiş qərar idi. Başqa sözlə, aparılan gərgin danışıqlardan sonra Azərbaycan Yunanıstana müsbət jest etməsinə baxmayaraq, Yunanıstanın qaz şirkəti "DESFA"-nın özəlləşdirilməsi ilə bağlı məyusedici məsələ yarandı. Lakin "SİRİZA" hökuməti hakimiyyətə gəlməmişdən əvvəl Azərbaycanın əvvəlki Yunanıstan hökumətləri ilə çox yaxşı münasibətləri formalaşmışdı. "SİRİZA"-nın rəsmiləri əvvəlki mühafizəkar A.Samaras hökumətinin bütün özəlləşdirmə planlarına qarşı çıxmış, əldə olunmuş razılıqları ləğv olunmasına çalışmışlar. SOCAR-ın "DESFA"-nı özəlləşdirilməsi haqqında razılaşmasının yubadılması ilə bağlı yekun qərarı Yunanıstan hökuməti deyil, Avropa Komissiyası tərəfindən qəbul edilməsinə baxmayaraq, bu, Azərbaycanla Yunanıstan arasında strateji enerji tərəfdaşlığına böyük zərbə kimi dəyərləndirilmişdir. SOCAR-ın "DESFA"-ya əldə etdiyi nəzarət Azərbaycana bütün "Cənub Qaz Dəhlizi"nin əlavə dəyər zəncirində qazın satışını təmin etməklə strateji üstünlük verəcəkdi.

1992-ci il Maastrix müqaviləsi ilə OTMS AB-nin qlobal bir qurum kimi geniş fəaliyyətinə təkan vermiş oldu. OTMS ilə ÜXTS bir-biri ilə əlaqədə fəaliyyət göstərən siyasi, diplomatik, iqtisadi, humanitar, mülki və hərbi sənəddir. 2009-cu ildə ildə qüvvəyə minən Lissabon müqaviləsindən sonra isə müdafiə və xarici təhlükəsizlik siyasəti Aİ üçün daha önəmli yer almaşa başladı. OTMS dünyanın hər bir yerində həm hərbi, həm də mülki əməliyyatlara müdaxilə etməyə qadirdir. Gücləndirici missiyalar, monitorinq missiyaları, icra missiyaları onun mülki siyasətini həyata keçirir [4, s.260]. Hərbi əməliyyatlara müdaxilə isə BMT Təhlükəsizlik Şurasının qərarı ilə həyata keçirilir. 2015-ci ildə biri Mərkəzi Afrika Respublikası, dirgəri Cənubi Aralıq dənizində olmaqla iki hərbi əməliyyat həyata keçirildi. Əməliyyat Cənubi Aralıq dənizində insan tələfatlarının qarşısını almaq üçün qaçqınlara dəstək olaraq başladıldı. Gəmilərin müəyyənləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizə əsas hədəflər olsa da, təbii ki, başlıca məqam insanların təhlükəsizliyini qorumaq idi.

Avropa Təhlükəsizlik Strategiyası qeyd etdiyimiz əsas iki siyasətə əsasən ÜXTS və OTMS prinsiplərinə əsasən beş əsas təhdidi müəyyən etmişdir ki, bunlar aşağıdakılardır:

1) Terrorizm
2) Kütləvi qırğın silahlarının yayılması (WMD)
3) Regional münaqişələr
4) Dövlət böhranı
5) Mütəşəkkil cinayət

2003-cü ildə İraq hadisəsinin ABŞ-ın Aİ daxilində siyasi və təhlükəsizlik ahəngini pozmasından sonra ümumi bir strateji baxışa ehtiyac var idi ki, nəticədə Avropa Təhlükəsizlik Strategiyası ortaya çıxdı. Strategiyada əsasən qonşuluqda Balkanlar, Aralıq Dənizi və Cənubi Qafqaz kimi zo-

nalarda inkişaf və təhlükəsizliyin qarşılıqlı əlaqədə aparılması ilə bağlı məqsədlər müəyyən edildi və insan təhlükəsizliyinin təmin olunması və qorunması əsas prioritetlərdən biri kimi olması müəyyən olundu. [8, s.60] Ancaq 2010- cu ildə isə Avropada təhlükəsizliyi yaxşılaşdırmaq üçün beş strateji hədəf qoyulmuşdur. Bunlar:

1) Mütəşəkkil cinayətkarlıq,
2) terrorizm,
3) kiber cinayətlər,
4) sərhəd təhlükəsizliyi
5) fəlakətə qarşı mübarizə.

2007-ci ildə Madrid Hesabatında Aİ-da insan təhlükəsizliyi konsepsiyasının inkişaf etdirilməsi və Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ATMS) ilə bağlı institutsional addımlar göstərilirdi. Madrid Hesabatında vurğulanırdı: İnsan Təhlükəsizliyi, təhlükə dövründə fərdlərin və cəmiyyətlərin əsas ehtiyacları ilə əlaqədardır. Bu, həm maddi həyatda qalma, həm də azad iradənin həyata keçirilməsində olduğu kimi, həm də küçədə özünü təhlükəsiz hiss etmə deməkdir. "Qorxudan azadlıq" və "ehtiyacdan azad olmaq" insanların rifah hissi və dinc yaşamaq istəkləri üçün hər ikisinin vacib olduğunu qəbul edir.

Təbii ki, Lissabon Müqaviləsinin əsas göstərişləri təhlükəsizliyə daha geniş yanaşmanı əks etdirir, insan təhlükəsizliyinə daha ətraflı baxış o müqavilədən başlanır. Müqavilədə insan təhlükəsizliyinin ifadəsi açıq şəkildə göstərilməsə də, bu konsepsiyanın əhəmiyyəti Ortaq Xarici və Təhlükəsizlik Siyasətinin (OXTS) konsepsiyasında strateji məqsədləri haqqında mətndə və müvafiq ümumi qaydalar daxilində tanınır. Aİ-nın insan təhlükəsizliyi siyasəti üçün ilk sınaq 2011-ci ildə başlayan Liviyadakı böhran oldu. Avropa İttifaqı 2011-ci ildə bir hərbi əməliyyata hazırlıq görsə də, müdaxilə etmədi. Bundan sonra Liviya böhranı dövründə qətiyyətli olmamaları və Liviya məsələsinin həlli üçün təşəbbüs göstərmək istəməmələri səbəbindən Aİ-na qarşı böyük tənqidlər oldu. Fransa Aİ ölkələrindən biri olaraq təşəbbüsü NATO da daxil olmaqla Böyük Britaniya ilə birgə başladı Buraya on dörd NATO dövləti daxil idi, onlardan onu da Aİ-na üzv dövlətlərdən də var idi. Beləliklə, ortaq xarici siyasətin davamlı olaraq təbliğ edilməsi və insan təhlükəsizliyi doktrinası ilə əlaqələndirilməsindən asılı olmayaraq, yüksək hərbi siyasət və beynəlxalq problemlərin güclə həll edilməsi, insan haqlarının əsas prinsiplərinə məhəl qoyulmaması Aİ-nın təhlükəsizlik siyasətinə məhəl qoymadı.

Bu uğursuzluqdan iki il sonra 2013-cü ildə Liviya səlahiyyətlilərinə dəstək vermək və Liviya sərhədinin təhlükəsizliyini qısamüddətli yaxşılaşdırmaq üçün imkanların inkişaf etdirilməsi üçün bir mülki missiya göndərilməsinə qərar verildi. Sərhədin uzunmüddətli idarə olunması üçün daha geniş strateji inteqrasiya üçün EUBAM Liviya kimi tanınan mülki bu missiya hələ də fəaliyyətdədir və bu missiyanın xərcləri ildə 26 milyon Avro təşkil edir. Bu missiya Moldaviya və Ukraynada da fəaliyyət göstərir və Aİ-nın mülki nümayəndəliklərinin Madrid Hesabatının göstərişlərini necə yerinə yetirdiyinə bir nümunədir.

Bu nümunələr bəzən doktrina ilə Aİ-da insan təhlükəsizliyinin institusional inkişafı arasında bir boşluq olduğunu açıq şəkildə göstərir. Aİ-nin institusional çərçivəsində Avropa Komissiyası və Parlamentinin bu yanaşmanı Avropa Şurası və onun xüsusilə Fransa və İngiltərə kimi üzv dövlətlərinə nisbətən daha çox dəstəklədiyi görünür.

Avropa İttifaqının xüsusilə ilə sərhəd təhlükəsizliyi ilə bağlı narahatlıqları həmişə operativ şəkildə ifadə olunmuşdur. Xüsusən Cənubi Qafqazda mövcud olan Ermənistanın Azərbaycana qarşı ərazi təcavüzü Azərbaycan öz torpaqlarını işğaldan azad edən zamana qədər həmişə pislənilmişdir. Hətta Ermənistanın təcavüzünün ilk başladığı zamanlarda Avropa İttifaqı 24 oktyabr 1993-cü il tarixində Dağlıq Qarabağ regionunda əldə edilmiş atəşkəsin pozulmasını pisləyir və bütün qüvvələri son vaxtlarda işğal edilmiş ərazilərdən geri çəkilməyə çağırmaq kimi bəyanat vermişdir. Avropa İttifaqı həmin sənəddə ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə verdiyi əhəmiyyəti bir daha vurğulayırdı.

Maraqlısı odur ki, bu sənəddə Avropa İttifaqını münaqişə nəticəsində yurdlarından didərgin salınmış insanların aqibəti, insanların təhlükəsizliyi xüsusilə narahat edir. İttifaq qeyd edirdi ki, bu insanların qəbul edilməsi və qorunması beynəlxalq ictimaiyyətin əsas vəzifəsi olmalıdır. Bundan

əlavə qeyd olunurdu ki, qaçqınların mövcudluğu münaqişənin beynəlxalq xarakter alması təhlükəsini artırır və bütün regionun sabitliyini təhdid edir.

Bu sənəddən də görünür ki, elə təkcə 30 il ərzində Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz torpaqlarından didərgin düşmüş bir milyona yaxın Azərbaycan vətəndaşları yəni qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarını qeyd etmək kifayət edir. Hazırda Azərbaycanın ərazi bütövlyü təmin olunsa da, 30 il ərzində viran qalmış ərazilərdə həmin sakinlərinin gedib yaşaması üçün imkan və şərait yoxdur. Hələ bura münaqişə zonasında keçmiş təmas xəttində cəbhəyanı kəndlərdə yaşayan əhalinin daima ermənilər tərəfindən hərbi təhdid altında yaşamasını da əlavə etsək, ərazi münaqişələrinin ilkin olaraq insanların təhlükəsizliyinə nə qədər böyük hədə olduğunu göstərmək kifayət edir. Təkcə ikinci Qarabağ müharibəsində ermənilər tərəfindən azərbaycanlı mülki əhaliyə raket zərbəsi endirilməsi, öz günlük həyatını yaşayan insanları o qədər qorxu içində saxlamışdı ki, insanlar artıq nə cür harada necə yaşayacaqlarını planlaya bilmirdilər.

*Nəticə.* Bütün bunlar göstərir ki, insan təhlükəsizliyinə ən böyük təhdid elə dövlətlərarası münaqişə zamanı yaranan hərbi münaqisələr zamanı yaranmış olur. Təbii səbəblər pandemiya və zəlzələ kimi səbəblər insanların həyat və fəaliyyətinə istəmədən qəfildən digər kənar müdaxilə olmadan təhdid kimi yaranırsa, ərazi münaqişələri böyük dövlətlərin maraqlarının toqquşduğu region və bölgələrdə qəsdən törədilir. O dövlətlər ki, onlar özləri elə beynəlxalq və regional təsisatların fəal üzvləridir və insan təhlükəsizliyi konsepsiyasının çarçıları hesab olunurlar. Sənədlərdə insan təhlükəsizliyini milli və beynəlxalq təhlükəsizliyin bazası qədər önəmli yerə çəkən həmin dövlətlər əməldə bunun əksinə olaraq öz milli maraqlarını təmin etmək üçün insan təhlükəsizliyinə hər növ təhdid yaratmaqda özlərini “azad” bilirlər. 2020-ci ilin oktyabrında İttifaqın Dağlıq Qarabağdakı vəziyyətin kəskinləşməsini dərhal dayandırmağa və siyasi dialoqa qayıtmağa dair çağırış edən Mişelin Aİ sammitinin ilk günündə çıxışı təcavüzkarın adının çəkilməməsi ikili standartların bariz nümunəsidir [10].

## ƏDƏBİYYAT


1. Buzan, B. (1983) People, states, and fear: The national security problem in international relations. United States: University of North Carolina Press. 18p.
2. Barry Buzan; Ole Wæver; Jaap de Wilde Security : a new framework for analysis Publisher: Boulder, Colo. : Lynne Rienner Pub., 1998. 298p
3. David J. Galbreath, Jocelyn Mawdsley, Laura Chappell Taylor & Francis Contemporary European Security, 20 мар. 2019 г. - Всего страниц: 232
4. Mary Kaldor, Human Security, Source: Society and Economy, December 2011, Vol. 33, No.3 (December 2011), pp. 441-448. Published by: Akadémiai Kiadó.
5. Mary Kaldor, Mary Martin and Sabine Selchow, Human Security: A New Strategic Narrative for Europe, Source: International Affairs (Royal Institute of International Affairs 1944-) , Mar., 2007, Vol. 83, No. 2, Europe at 50 (Mar., 2007), pp. 273-288.
6. Mary Martin, Mary Kaldor, The European Union and Human Security: External Interventions and Missions, Routledge, 16 дек. 2009 г., 208 с.
7. Z.Həsənalıyev, Azərbaycan Respublikasının mili təhlükəsizliyinin əsasları, 2016, 176 s.
8. ŠÁRKA WAISOVÁ, Human Security - the Contemporary Paradigm? Author(s): Source: Perspectives, Summer 2003, No. 20 (Summer 2003), pp. 58-72.
9. A Secure Europe in a Better World: European Security Policy. (2003). Brussels: Council of the European Union. - https://www.consilium.europa.eu/uedocs/cmsUpload/78367.pdf [Müraciət tarixi: 24.04.2021].
10. Avropa İttifaqı Dağlıq Qarabağ bölgəsində döyüşlərin dayandırılmasına çağırıb. - https://www.trt.net.tr/azerbaycan/dunya/2020/10/02/avropa-ittifaqi-dagliq-qarabag-bolg-sind-doyusl-rin-dayandirilmasina-cagirib-1501232 [Müraciət tarixi: 24.04.2021].
11. Boulder, CO: Lynne Rienner Publisher, European Union. Foreign & Security Policy s.a. European Union. - http://europa.eu/pol/cfsp/index_en.htm (3.5.2016) [Müraciət tarixi: 24.04.2021].

**НАРГИЗ ВАЛИЕВА**
*диссертант Бакинского Государственного Университета*

## ПОЛИТИКА БЕЗОПАСНОСТИ ЧЕЛОВЕКА ЕВРОПЕЙСКОГО СОЮЗА ВО ВРЕМЯ ВООРУЖЕННЫХ КОНФЛИКТОВ

В статье рассматривается политика Европейского Союза как региональной организации, направленная на обеспечение безопасности человека внутри и за пределами континента и на этой основе угрозы жизни и безопасности гражданского населения во время конфликтов. Фактически анализируется территориальная агрессия Армении против Азербайджана за 30 лет до прошлого года, угроза безопасности человека, исходящая от бывшего нагорно-карабахского конфликта.

*Ключевые слова:* безопасность человека, ЕС, конфликт, региональная безопасность, оборона.

**NARGIZ VALIYEVA**
*Doctoral student of Baku State University*

## HUMAN SECURITY POLICY OF EUROPEAN UNION DURING CONFLICTS

The article discusses the policy of European Union as a regional organization aimed at ensuring human security within and outside the continent and on this basis the threats to life and security of civilians during conflicts. In fact, the territorial aggression of Armenia against Azerbaijan for 30 years till last year, the threat to human security posed by the former Nagorno-Karabakh conflict is analyzed.

*Keywords:* human security, EU, conflict, regional security, defense.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: s.e.f.d. Eldar Cəfərov, t.e.d. Sevinc Yusifzadə.*

UOT 32:93/94

**VƏSİLƏ İBADLI**
*Azərbaycan Dillər Universitetinin müəllimi,*
*Bakı Dövlət Universitetinin doktorantı*
**vesileelif@gmail.com**

# YAXIN ŞƏRQ REGİONUNUN GEOSİYASİ ƏHƏMİYYƏTİ VƏ FRANSANIN REGİONDA TARİXİ MARAQLARINA DAİR

*Dünyanın mühim diplomatik və iqtisadi güclərindən biri hesab edilən Fransanın xarici siyasətində Yaxın Şərq regionu və region dövlətləri ilə əlaqələr çox mühim yer tutur. XVIII əsrın ikinci yarısından başlayaraq Fransanın müstəmləkəçilik siyasətində Yaxın Şərq xüsusi əhəmiyyət daşımışdır. Təsadüfi deyil ki, burjua inqilabından sonra Fransanın Avropadan kənarda ilk ekspansiyası məhz 1798-ci ildə Yaxın Şərqə edilmişdir. XX əsr ərzində Fransanın Yaxın Şərq siyasəti dəyişkən olmuşdur. Belə ki, I Dünya müharibəsindən sonra Fransa özünü əsil müstəmləkə ölkəsi kimi aparırdı. II Dünya müharibəsindən sonra isə yeni siyasi reallıqlardan nəticəsində özünün xarici siyasət kursunda dəyişikliklər etmək məcburiyyətində qaldı. Bu baxımdan Fransanın Yaxın Şərq regionuna tarixi maraqlarının öyrənilməsi böyük elmi və siyasi əhəmiyyət daşıyır. Məqalədə ilk dəfə olaraq problemin kompleks öyrənilməsinə cəhd göstərilmişdir.*

*Açar sözlər*: Yaxın Şərq, Fransa, geosiyasi əhəmiyyət, iqtisadi maraqlar.

*Giriş*. Avropanı Asiya ilə birləşdirən quru yolları və Aralıq dənizindən Qırmızı dənizə və Ərəbistan dənizinə açılan su yolları üzərində yerləşməsi baxımından Yaxın Şərq planetin ən strateji regionu hesab edilə bilər. İlk dəfə Admiral Alfred Tayer Mohan tərəfindən Ərəbistan və Hind yarımadaları arasında qalan və strateji əhəmiyyət daşıyan bir ərazini bildirmək üçün istifadə edilən "Yaxın Şərq" termini ötən əsrlər ərzində dəyişilmiş və yeni məna qazanmışdır. Bəzi tədqiqatçılar tərəfindən "qaynayan qazan", bəziləri tərəfindən isə "bataqlıq" kimi dəyərləndirilən Yaxın Şərq regionu unikal coğrafi, siyasi və strateji əhəmiyyətə malikdir. Tarixilik baxımından bu region mədəniyyətlərin inkişaf etdiyi, səmavi dinlərin meydana gəlib dünyaya yayıldığı, qitələrarası ticarət yollarının kəsişdiyi, fərqli mədəniyyətlərin qovuşduğu və başqa yerlərə də yayıldığı bir qovşaq nöqtəsi olmuşdur. Region tarixən son dərəcə vacib rola malik olduğu kimi, müasir dövrdə də fəaliyyətini davam etdirməkdədir. Müasir iqtisaiyyatın ən vacib enerji qaynağı olan neft və təbii qaz yataqlarının çoxunun da burada yerləşməsi regionun strateji əhəmiyyətini artıran əsas faktorlardır. Buna görə də, güclü dövlətlərin tarix boyunca daim bu regionda maraq dairələrini genişləndirmək cəhdləri təsadüfi deyildir. Həmçinin, geosiyasi əhəmiyyəti baxımından, regionda baş verən istənilən dövlətlərarası və ya dövlətdaxili konflikt sadəcə regional balansı pozmaqla qalmır, həm də qlobal stabilliyə də mühim təsir göstərir. Ona görə də, Yaxın Şərq regionu iqtisadi, siyasi və mədəni cəhətdən həssas bir ərazi olmaqla, dünyada baş verən hadisələrin əsas mərkəzi olmuşdur. Dünyanın mühim diplomatik və iqtisadi güclərindən biri hesab edilən Fransanın da xarici siyasətində Yaxın Şərq regionu və region dövlətləri ilə əlaqələr çox mühim yer tutur. XVIII əsrın ikinci yarısından başlayaraq Fransanın müstəmləkəçilik siyasətində Yaxın Şərq xüsusi əhəmiyyət daşımışdır. Təsadüfi deyil ki, burjua inqilabından sonra Fransanın Avropadan kənarda ilk ekspansiyası məhz 1798-ci ildə Yaxın Şərqə edilmişdir. Bu baxımdan Fransanın Yaxın Şərq regionuna tarixi maraqlarının öyrənilməsi böyük elmi və siyasi əhəmiyyət daşıyır. Məqalədə ilk dəfə olaraq problemin kompleks öyrənilməsinə cəhd göstərilmişdir.

*Regionun geosiyasi əhəmiyyəti*. Müasir dövrdə də Yaxın Şərq regionunun çox mühüm əhəmiyyətə malik olmasında üç ünsürün xüsusi rolu vardır. Bunlar, coğrafi ərazi, dinlər və zəngin yeraltı sərvətlərdir. Asiya, Avropa və Afrika qitələri arasında bu qitələrin hərəkət yolları üzərində yerləşən Yaxın və Orta Şərq Rusiya ilə isti dənizləri, Şərq ilə Qərbi, Aralıq dənizi ilə Hind okeanını birləşdirən, eyni zamanda Avropa ilə Asiya arasındakı bütün ticarət və mədəni əlaqələrin qurulduğu bir regiondur. Dünyanın ən mühüm quru və su yollarını idarə etmesinin qazandırdığı geosiyasi dəyər, Yaxın Şərqi tərixin qədim zamanlarından bəri dünya hökmranlığı iddiasında olan güc dövlətlərinin ilk hədəflərindən biri etmişdir.

Geostrateji baxımdan Avropa dövlətlərinə su yollarıyla, Hindistan və Çinə quru yolları vasitəsilə təsir etmə potensialına sahibdir. Coğrafi yerləşmə baxımından bir çox mədəniyyətlərə ev sahibliyi etdiyi üçün mədəni zənginlikləri ilə tarixin gedişatına dəfələrlə təsir etmiş, tarixən insanların həyat və fəaliyyətinə əsaslı təsir göstərmiş bir çox ixtiralar ilk olaraq bu bölgədə edilmişdir. Məsələn, ilkin məskunlaşmalar, ilk əkinçilik fəaliyyətləri, ilk yazı, ilk yazılı qanunlar və ilk dinlər, demək olar, hər daim burada meydana gəlmiş və daha sonra dünyaya yayılmışdır.

Yaxın və Orta Şərq regionunun geosiyasi əhəmiyyətini müəyyənləşdirən ən mühüm faktorlardan biri də dinlərdir. Bu ərazidə meydana gələn səmavi dinlərdən biri olan Yəhudilik, bölgədə tarix boyunca təsirli olmuş, Birinci və İkinci Dünya müharibələri ilə dinin ilk mərkəzi olan Fələstin bölgəsinə güclü yəhudi axınları yaşanmışdır. 1948-ci ildə qurulan İsrailin apardığı dinə söykənən siyasət nəticəsində Ərəb – İsrail müharibələri baş vermiş və bu müharibələr Fələstin bölgəsinə ciddi zərbələr vurmuşdur. Yaxın Şərqdə məskunlaşan yəhudilərin sayı təxminən 10 milyona yaxındır. Bu bölgədə meydana gələn digər səmavi din olan xristianlıq əsasən Roma imperiyası dövründə daha çox təsirə malik olsa da, bu bölgədəki xalqlar arasında o qədər də çox yayıla bilməmiş, region dövlətlərinin çoxunda azlıqlar halında yaşamışlar. Bu gün ölkə əhalisinin təxminən 40%-ini xristianların təşkil etdiyi Livan bu dinin mənsublarının ən çox məskunlaşdığı ərazidir. VII əsrin əvvəllərində Hicazda meydana gələn İslam da qısa bir zamanda dövlət dininə çevrilmiş və islam dövlətləri eyni əsr ərzində Yaxın və Orta Şərqin böyük bir hissəsində hakim dinə çevrilmiş və bu gün də regionun böyük bir hissəsi müsəlmanlardan ibarətdir. Dünya əhaləsinin mühüm bir hissəsini təşkil edən bu dinlərin bu coğrafi areala olan maraqları regionun əhəmiyyətini artırdığı kimi, eyni zamanda, keçmişdən bu günə qədər bir çox problemlərə səbəb olmuşdur. Səmavi dinlər üçün xüsusi əhəmiyyətə malik olan müqəddəs sayılan ortaq məkanların bu ərazidə yerləşməsi də, xüsusilə, davamlı qarşıdurmalar yaratmış və dini müharibələrə səbəb olmuşdur. Qüds şəhərini buna əyani misal kimi göstərmək olar. İslam, Xristianlıq və Yəhudilik dinləri üçün tarixən bu şəhər əvəzedilməz dəyərə malik olmuş, şəhəri ələ keçirtmək üçün çox müharibələr aparılmış, hətta tarixin ən böyük kollektiv hərəkatlarından biri olan Səlib yürüşlərinin də məqsədlərindən bir şəhəri ələ keçirmək, “müqəddəs torpaqları kafirlərdən azad etmək” idi. Bəzi region ölkələrindəki dini fərqliliklər müxtəlif səbəblər ilə qızışdırlaraq, regiondan hakim mövqeye sahib olmaq istəyən bəzi dövlətlər tərəfindən silah olaraq istifadə edilmişdir.

Sənaye çevrilişindən sonra sürətli şəkildə maşınlı texnikalardan istifadənin genişlənməsi, xüsusilə də, enerji mənbəyi kimi neftdən bir çox sahələrdə istifadə edilməsi XX əsrin əvvəllərindən etibarən bu xammala tələbatı daha da artırmışdır. Yaxın Şərq regionunda zəngin neft yataqlarının aşkar edilməsi, bu ərazilərə imperialist dövlətlərin maraqlarını daha da gücləndirdi. Yaxın Şərqin və buradan keçən su və quru yollarının strateji əhəmiyyəti də məhz bundan sonra böyük önəm daşımağa başlayır.

*Tarixi miras*. Regonda təsiredici faktorlardan biri də tarixi miras məsələsidir. Regionda millət və dövlətlərin formalaşmasına öz təsirini göstərən tarixi miras məsələsi, müasir dövrdə də davam edən bəzi köklü problemlərə yol açmaqdadır. XIX əsrin sonlarına kimi əsasən Osmanlı hökmranlığı altında olan Yaxın və Orta Şərq regionunda təxminən 400 illik hakimiyyətin ardından Birinci Dünya müharibəsindən sonra Osmanlı dövlətinin süquta uğraması ilə yeni dövlətlər quruldu. Bəzi tədqiqatçıların fikrincə, regionun siyasi xəritəsi 1916-cı ildə İngiltərə və Fransa arasında imzalanan gizli Sykes-Picot sazişi ilə formalaşmışdır. Birinci Dünya müharibəsinin gedişində, İngilis hökuməti müharibə dövründə Osmanlı tərəfindən idarə olunan ərəb torpaqlarını digər maraqlı tərəflərə vəd edir. Rusiya artıq Müttəfiqlərdən Türk Boğazlarına nəzarət hüququnun tanınmasını tələb etdiyi bir dövrdə, 1915-ci ildə Londonda imzalanan gizli bir müqavilədə İngiltərə və Fransa Rusiyanın iddiasını dəstəkləyəcəklərinə söz verirlər. Fransa, qərb cəbhəsində almanlarla döyüşərkən Yaxın və Orta Şərqə çox sayda əsgər göndərə bilmədi, lakin Livan və Fələstin də daxil olmaqla bütün Suriyanı istəyirdi. Beləliklə, İngiltərə, Fransa və Rusiya 1916-cı ilin mayında Sykes-Picot Sazişi adlı gizli bir saziş imzaladılar. Fransa Suriyanın şimal və qərb hissələrinin çoxunda birbaşa öz hökmranlığını və Şam, Hələb və Mosul da daxil olmaqla Suriyanın daxili bölgələrində təsir dairəsini təmin etdi. İngiltərə isə birbaşa aşağı İraqı idarə edəcəkdi [2, s.207]. Birinci Dünya müharibəsinin sonunda, Fransa Suriyanı Aralıq dənizi bölgəsində proqnozalşadırdığı hakimiyyətinin təməli olaraq görürdü. Fransa ilk əvvəllər Sinadan Mosula qədər bütün Suriyanı idarə edəcəyini düşünürdü. Həqiqətən də, bu gün

İsrail, İordaniya, Livan, Türkiyənin cənubunda və İraqın qərbi dediyimiz ərazilərdə yaşayan bir çox insan o zaman özlərini Suriyalı hesab edirdilər [2, s.256]. Müharibədən sonra Levanta (Transiordaniyaya) bariz bir şəkildə ingilislərin sahib olması, Aralıq dənizi bölgəsi iddialarını türklərə təslim edəcəyi, Fələstin və Mosulu da ingilislərin idarə etməsinə razı olacağı üçün, Fransa artıq ümidlərini sadəcə Suriyaya bağlayır.

Lakin qeyd olunan gizli sazişə baxmayaraq, bölgənin siyasi xəritəsi əsasən 1919-cu il Paris və 1920-ci il San-Remo konfranslarının qərarları ilə müəyyənləşdirilmişdir. 1919-cu ilin 28 iyun tarixində məğlub Almaniya ilə Versalda imzalanan sülh sazişinə əsasən İngiltərə Fələstin, Transiordaniya, İraq və digər əraziləri alır, Fransa isə Suriya və Livana sahib olmuşdu [6, s.19-20].1920-ci illərdə Türkiyə və İran ilə yanaşı regionda İngiltərə və Fransanın protektoratlığı altında olan bir neçə dövlət qurumu formalaşdırılmışdı. Bu qurumlar Paris konfransının qərarlarına əsasən İngiltərə və Fransanın mandatlığına verilmişdir. Beləliklə, Birinci Dünya müharibəsindən sonra Fransanın Yaxın Şərqdə nüfuzu xeyli dərəcədə güclənir.

İkinci Dünya müharibəsindən sonra isə Yaxın Şərqdə geosiyasi proseslər kökündən dəyişir, Soyuq müharibənin başlanması və ikiqütblü dünya sisteminin meydana gəlməsi, həmçinin, müstəmləkə sisteminin dağılması bu regionda da yeni dünya nizamının bərqərar olmasına gətirib çıxardı. Bu proseslər Fransanın da Yaxın Şərq siyasətinə təsirsiz ötüşmədi. Xüsusilə, 1958-ci ildə qurulan Beşinci Respublikanın xarici siyasətinin əsas istiqamətlərindən biri Şimali Afrika və Yaxın Şərqdəki fransız dilində danışan və keçmiş fransız müstəmləkəsi olan ölkələrlə yaxın əlaqələrin qurulması olmuşdur [1, s.138]. Bu ölkələrdə fransız müstəmləkəsinə son qoyulmasına baxmayaraq, Fransanın xarici siyasətində bu ərazilər yenə də fransız təsir dairəsi kimi hesab edilməkdə idi. Lakin, Fransanın İsraili dəstəkləməsi, Əlcəzair problemi, Süveyş böhranı bu dövlətin müsəlman dünyası və ərəb ölkələrindəki nüfuzuna xeyli dərəcədə mənfi təsir göstərdi. Buna görə də ölkəsinin neft kimi strateji mənbə baxımından zəngin olduğu bu bölgədə təsirsiz qaldığını düşünən Fransa prezidenti Şarl de Qoll 1960-cı illərdə regionda sürətlə dəyişən siyasi prosesləri nəzərə alaraq, "Ərəb siyasəti" adlı yeni bir Yaxın Şərq yönümlü xarici siyasət xətti irəli sürmüşdür [5]. Bu siyasətin əsasını ərəb dünyasının liderləri ilə dostcasına münasibətlərin qurulması və ikiqütblü dünya sisteminin fövqəlgücləri arasındakı rəqabətdən yararlanaraq regionda ABŞ və SSRİ-nin hegemonluq təsirlərini zəiflətmək xətti təşkil edirdi.

Jorj Pompidu dövründə Fransa xarici siyasəti beynəlxalq siyasi məsələlərdən daha çox iqtisadi cəhətdən mənfəət gətirən sahələrə yönəlmişdir. Bu dövrdə Fransa ərəb dövlətləri ilə daha sıx əlaqələr qurmağa cəhd etmi. Misir və İraqla da əlaqələrini yaxşılaşdırmışdı [3, s.118]. ABŞ-ın narazılıqlarına baxmayaraq, əsası hələ Şarl de Qoll dövründə qoyulan "ərəb siyasəti" daha sürətlə davam etdirilmişdir.

XX əsrin 70-ci illərində baş verən enerji böhranı və neftə tələbatın daha da artması Fransanın ərəb ölkələri, xüsusilə, Səudiyyə Ərəbistanı ilə sıx müasibətlər qurmağa vadar edir. Valeri Jiskar De Estenin hakimiyyəti illərində Fransa ərəb yönümlü bir siyasət yürütməyə başlayır: Fələstin Azadlıq Təşkilatı (FAT) tanınır, Səudiyyə Ərəbistanın kralı Xalid ibn Əbdüləziz əl-Suudun da təşəbbüsü ilə ərəb və fransız mədəniyyətləri arasında bir körpü qurmaq, ərəb dilini, ərəb mədəniyyətinin müxtəlifliyini və zənginliyini tanıtmaq məqsədi ilə Parisdə Ərəb Dünyası İnstitutu qurulması layihəsi irəli sürülmüşdür. 1980-ci ildə isə bu institut 18 ərəb dövlətinin də iştirakı ilə fəaliyyətə başlamışdır. V.J.De Esten ərəb ölkələri ilə münasibətlərdə iqtisadi mənfəətə üstünlük vermiş, bununla yanaşı, praqmatik siyasət yürüdərək İsrail dövləti ilə də münasibətləri korlamamağa çalışırdı. Lakin FAT-ın tanınması ilə İsrail-Fransa münasibətləri tədricən pozulmağa başlamışdır.

Fransua Mitteran dövründə də (1981-1995), Fransa sələflərinin yürütdüyü xarici siyasət xəttindən uzaqlaşmadan, yenə də regionda siyasi və iqtisadi maraqlarını qorumağa çalışırdı. Əvvəlki prezidentlərlə müqayisədə İsraillə daha yaxın əlaqələr qurmağa çalışan F.Mitteran prezident seçkilərindən sonra ilk səfərini də məhz bu ölkəyə etmək istəmişdi. Lakin, İsrailin İrqdakı nüvə santralını bombalaması nəticəsində bir fransız mühəndisin ölümü onun fikrini dəyişdirmiş və o da digər dövlət başçıları kimi ilk səfərini Körfəz ölkələrinə etmişdir [4, s.122]. Bu səfərlər zamanı imzalanan silah satış sazişləri ilə 1980-ci illər boyunca və sonrakı dövrlərdə də davam edən Fransanın ərəb ölkələrinə yüksələn xətlə artan silah ixracatı siyasətinin başlanğıcı qoyulur. Bu dövrdə Fransa Yaxın Şərqdə daha fəal xarici siyasət yürüdür və bu siyasət xeyli dərəcədə Şarl de Qollun siyasətini xatırladırdı.

Mtterana görə "Fransa ABŞ-dan bir qədər zəif, amma onunla eyni səviyyədə, Çindən daha gücsüz, ancaq daha çox səsini eşitdirə bilən, Almaniyadan daha az zəngin, ancaq daha təsirili bir beynəlxalq güc olmalı idi" [7, s.488]. Başqa sözlə, F.Mitteranın xarici siyasətinin əsas istiqamətini beynəlxalq proseslərə Fransanın təsirinin artırılması və dünya siyasətində bu dövlətin mövqelərinin gücləndirilməsi təşkil edirdi.

*Nəticə*. Yuxarıda qeyd olunanlardan bu nəticəyə gəlmək olar ki, Fransanın Yaxın Şərq siyasəti XX əsrin ayrı-ayrı dövrlərində özünü müxtəlif cür büruzə vermişdir. Əgər Birinci Dünya müharibəsindən sonra Fransa özünü sırf müstəmləkəçi dövlət kimi aparırdısa, İkinci Dünya müharibəsindən sonra yaranmış yeni siyasi reallıqlar daxilində öz ənənəvi xarici siyasət kursunu korrektə etməyə və dəyişməyə məcbur olur.

ƏDƏBİYYAT


1. Aras I. "Fransanın Arap Baharı Politikası"/ Türkiye Ortadoğu Çalışmaları Dergisi/ Cilt 4/ Sayı 2/ 2017
2. Arthur G.J, Laürence D. "A concise history of the Middle East"/ ninth edition, 2010
3. Fətəliyev M, Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. II hissə (1945-2002) / Bakı-2008
4. Fırat M."Soğuk Savaş Sonrasında Fransa'nın Dış Politikası"/ Ankara Üniversitesi SBF Dergisi/ Cilt 64, Sayı: 1
5. Güler S. "French Foreign Policy in the Middle East: The Case of Syria"/ Bilgesam Analysis/ No: 1131, 15 May 2014
6. Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 2 hissədə. I hissə (1918-1945)
7. Musaoğlu N. "Fransa'nın Ortadoğu Politikaları"/ Ortadoğu Yıllığı 2006



**ВАСИЛЯ ИБАДЛЫ**

*Преподаватель Азербайджанского Университета Языков,*
*Докторант Бакинского Государственного Университета*


## ГЕОПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ РЕГИОНА БЛИЖНЕГО ВОСТОКА И ИСТОРИЯ ИНТЕРЕСОВ ФРАНЦИИ В РЕГИОНЕ


Франция, одна из самых важных дипломатических и экономических держав в мире, имеет очень важные отношения с Ближним Востоком и странами региона в своей внешней политике. Со второй половины 18 века Ближний Восток играл особую роль во французской колониальной политике. Неслучайно первая экспансия Франции за пределы Европы после буржуазной революции произошла в 1798 году на Ближнем Востоке. В течение двадцатого века политика Франции на Ближнем Востоке изменилась. Таким образом, после Первой мировой войны Франция вела себя как настоящая колониальная страна. После Второй мировой войны в результате новых политических реалий он был вынужден изменить свой внешнеполитический курс. В этой связи изучение исторических интересов Франции на Ближнем Востоке имеет большое научное и политическое значение. В статье впервые делается попытка всесторонне изучить проблему.



*Ключевые слова*: Ближний Восток, Франция, геополитическое значение, экономические интересы.



**VASİLA İBADOVA**

*Lecturer at the Azerbaijan University of Languages,*
*Doctoral student at Baku State University*


## THE GEOPOLITICAL SIGNIFICANCE OF THE MIDDLE EAST REGION AND THE HISTORY OF FRANCE'S INTERESTS İN THE REGİON


France, one of the world's most important diplomatic and economic powers, has a very important role to play in the Middle East and its relations with the countries of the region. From the second half of the 18th century, the Middle East played a special role in French colonial policy. It is

no coincidence that the first expansion of France outside Europe after the bourgeois revolution took place in 1798 in the Middle East. During the twentieth century, France's Middle East policy changed. Thus, after World War I, France behaved like a real colonial country. After World War II, however, as a result of new political realities, he was forced to change his foreign policy course. In this regard, the study of France's historical interests in the Middle East is of great scientific and political importance. For the first time, the article attempts to study the problem comprehensively.

*Keywords*: Middle East, France, geopolitical importance, economic interests.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. N.Əsədov, t.e.d. Sani Hacıyev.*

**UOT 32:93/94**

**TURAL QASIMOV**
*Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının doktorantı*
**turalqasimov12@gmail.com**

# SİYASİ HAKİMİYYƏTİN MƏZMUNU VƏ XÜSUSİYYƏTLƏRİ

*Siyasi institutları, siyasi hərəkatları və siyasətin özünü başa düşmək üçün "hakimiyyət" politologiyada əsas anlayışdır. Hakimiyyəti xüsusi mənafeləri reallaşdıran, insanların qarşılıqlı fəaliyyətinin universal inteqrativ mexanizmi kimi başa düşmək onun təbiətini dərk etməyə imkan yaradır. Hakimiyyət və hakimiyyət münasibətləri siyasətin özəyini təşkil edir. Cəmiyyətdə yarandığına görə hakimiyyət öz təbiəti etibarilə sosial hadisədir, bu reallıq onun daşıyıcısı olan siyasi elitaya da aiddir. Siyasi elita məhz cəmiyyətdə, ictimai münasibətlər çərçivəsində siyasi hakimiyyətin təşkilini və həyata keçirilməsini reallaşdırır.*

*Açar sözlər*: siyasi hakimiyyət, məzmun, konsepsiya, xüsusiyyətlər, sistem, siyasət.

*Giriş*. Siyasətin əsasını hakimiyyət təşkil edir. Siyasəti cəmiyyət həyatının digər sferalarından (iqtisadi, sosial, mənəvi və b.) fərqləndirən cəhət ondan ibarətdir ki, onun əsası məhz hakimiyyətlə bağlıdır. O qrupların, birliklərin, təşkilatların qarşılıqlı fəaliyyətinin meyli, cəhdi və səbəbinin başlıca obyekti kimi çıxış edir. Hakimiyyət ümumi, qrup halında və xüsusi maraqların effektli təmin olunmasına imkan yaradır və cəmiyyətin siyasi həyatının subyektlərinin mübarizəsi və qarşılıqlı fəaliyyətinin başlıca obyektidir.

*Əsas mətn.* Siyasi hakimiyyətin mahiyyəti, təbiəti və həyata keçirilməsi mexanizmi hər şeydən əvvəl, ona konseptial yanaşmalarda əksini tapır. Həmin konsepsiyaların müqayisəli təhlili nəinki siyasi hakimiyyətin və eləcə də onun spesifik daşıyıcısı kimi çıxış edən siyasi elitanın cəmiyyətin siyasi sistemində yeri və rolunu vurğulamağa xidmət edir.

Siyasi hakimiyyət və siyasi elita anlayışları siyasət nəzəriyyəsinin başlıca anlayışlarından olmaqla – ilk öncə, siyasi münasibətləri və eləcə də siyasi institutları, siyasi sistemin mərkəzi elementi olan dövləti dərk etməyə kömək edir. Hakimiyyət və hakimiyyət münasibətləri məsələsi hətta antik dövrün siyasi və fəlsəfi mütəfəkkirlərinin diqqətindən yayınmamışdır. Platon və Aristotel həmin məsələyə xüsusi əhəmiyyət vermişlər. Daha sonralar Nikolo Makiavelli, Hobbs Con Lokk, İmmaniul Kant və başqaları hakimiyyət məsələlərinə böyük maraq göstərmişlər. Siyasi hakimiyyət və siyasi elita problemi hazırda qərb siyasi elmində xüsusi maraq doğurur.

Siyasi elmə dair ədəbiyyatda hakimiyyətin mahiyyəti və təbiəti müxtəlif mövqelərdən araşdırılır. Hakimiyyət ictimai münasibətlərin xüsusi növü kimi səciyyələnir. Hakimiyyət münasibətləri vasitəsilə insanların özünütənzimləməsi və təşkilinin obyektiv tələbatı ifadə edilir. Beləliklə, hakimiyyət münasibətləri ictimai həyatın tənzimlənməsi mexanizminə, müxtəlif cəmiyyətlərin bütövlüyünün təmin olunmasına xidmət edir. Hakimiyyət təsiretməni həyata keçirən xüsusi hadisədir: o elan edilmiş siyasi kursa tabe olmaynalara sərt sanksiyalar tətbiq etməyin köməyilə digər agentlərin siyasətinə təsir göstərən proses kimi səciyyələnir (7, s.96).

Hakimiyyət vakuumda mövcud deyildir. Onun başlıca parametrləri malik olduğu resurslardan, qarşısına qoyduğu məqsədlərdən və onun nəzarət etmək qabiliyyətindən asılı olaraq müəyyənləşdirilir. Bu kontekstdə qeyd etmək olar ki, o müxtəlif subyektlər arasında, subyekt və obyekt arasında, hakimiyyət münasibətləri sistemində iştirak edən tərəflər arasında özünəməxsus kommunikasiya sistemidir.

Hazırda siyasi hakimiyyətin müəyyənləşdirilməsinə cəhdlər azalmır, əksinə daha da artır. Müəlliflərin bir qrupu iddia edir ki, siyasi hakimiyyət insanlar arasında münasibət olmaqla bir nəfərin və yaxud bir qrupun öz iradəsini reallaşdırmaq imkanlarıdır. Digər müəlliflər bildirirlər ki, bu ictimai fenomen idarəetmə məsələlərinə münasibətdə müxtəlif subyektlər arasında əlaqə və fəaliyyət münasibətləri kimi səciyyələnir. Bəzi tədqiqatçılar isə belə mövqedən çıxış edirlər ki, hakimiyyət mövcud qaydaların spesifik dəyişdirilməsinə imkan yaradır, yradıcı başlanğıc və sosial bilik kimi

mənalanır. Hakimiyyət ümumi mənada hər hansı vasitələrin köməyi ilə insanların fəaliyyətinə, davranışına müəyyənedici təsir göstərən qabiliyyət və imkan kimi başa düşülür (2, s.81).

Sosial diferensiasiya cəmiyyətdə insanların qeyri-sosial bərabərliyinin mənbəyi olmaqla ayrıca fərdlərin və sosial qrupların maraqlarının uyğunsuzluğunu və əksliyini doğurur. Hakimiyyət subyektlərin bir-birinə zidd olan maraqlarını uzlaşdırır, onun daşıyıcıları arasında qarşılıqlı münasibətləri tənzimləyir və beləliklə, cəmiyyətin sabitliyini və dinamikliyini təmin edir. Hakimiyyət insanlar arasında iradəvi münasibətlərdir, o, təsiretmənin xüsusi növüdür, bu xüsusiyyət hakimiyyətin məcburetmə xarakterində təcəssümünü tapır. Hakimiyyət münasibətləri obyektiv olaraq ictimai həyata xasdır.

Siyasi hakimiyyətin mahiyyətinə və təbiətinə aydınlıq gətirmək üçün ilk öncə, onun xarakteristikasını açıqlamaq zəruridir. Sözün geniş mənasında bu ictimai hadisə cəmiyyətin birliyini və sabitliyini təmin edən anlayış kimi başa düşülür. Siyasi hakimiyyət anlayışı insanların fəaliyyəti və davranışının xarakterinə və istiqamətinə təsir qabiliyyətini ifadə edən sosial münasibətlərin forması kimi səciyyələnir. Siyasi hakimiyyətin xarakteristikasında çıxış nöqtəsi cəmiyyətə xas olan insanlar arasındakı münasibətlərdir, hakimiyyətin iradəsinin müəyyənedici olmasıdır. Hakimiyyətin vəzifəsi dövlət – siyasi institutlar daxil olmaqla bütövlükdə insanlar və cəmiyyət arasındakı münasibətləri tənzimləməkdən, cəmiyyətdə zəruri qaydalarla və cəmiyyət üzvlərinin çoxcəhətli maraqları arasında daim yaranan ziddiyyətləri həll etməkdən, münaqişələri aradan qaldırmaqdan ibarətdir (83, s.98).

Hakimiyyətin bilavasitə daşıyıcısı onun subyekti və obyektidir. Subyekt – aktor hakimiyyətin fəal, istiqamətləndirici başlanğıcını ifadə edir. Hakimiyyət və hakimiyyət münasibətlərinin təşəkkülü üçün onun subyektinin idarəetmə sistemində mövcudluq istəyi, nüfuzu və başqa zəruri keyfiyyətlərə malik olması vacibdir. Siyasi hakimiyyətin subyektləri mürəkkəb və çoxsəviyyəli struktura malik olmaları ilə fərqlənirlər. Siyasi hakimiyyətin ilkin aktorları fərdlər və eləcə də müxtəlif sosial qruplardır, daha yüksək səviyyəli subyektlər isə siyasi elitalar və siyasi liderlər sayılır.

Siyasi hakimiyyət həmişə ictimai xarakter daşıyır, xüsusi strukturların fəaliyyəti vasitəsilə təzahür edir, məcburetmədən, ənənələrdən, əxlaqi təsirdən, ideoloji və hüquqi normalar sistemindən istifadə olunmasını nəzərdə tutur. Siyasi və dövlət hakimiyyətinin münasibətini nəzərə almaq vacibdir. Siyasi hakimiyyət faktiki olaraq sinfi və digər sosial qüvvələrin qarşılıqlı münasibəti kimi çıxış edir. Siyasi hakimiyyət dövlət hakimiyyəti ilə eynilik kəsb etmir, hər cür siyasi hakimiyyət dövlət hakimiyyəti deyildir. Dövlət hakimiyyəti bilavasitə siyasi hakimiyyətin məhsuludur, o siyasi xarakterə malikdir, çünki dövlət öz fəaliyyətində praktiki olaraq əhalinin bütün təbəqələrinin maraqlarına toxunur. Hakimiyyət münasibətləri siyasi partiyaların, ictimai hərəkatların və təşkilatların fəaliyyətində təşəkkül tapır. Dövlət hakimiyyəti siyasi hakimiyyətin yüksək formasıdır, daha tam ifadəsidir, siyasi hakimiyyətin daha inkişaf etmiş növüdür.

Dövlət həmçinin siyasi xarakter kəsb edə bilən qeyri-siyasi vəzifələri yerinə yetirir. Beləliklə, siyasi hakimiyyətin mahiyyəti subyektin iradəsi, gücü və subyektin hakim mövqeyi ilə əlaqə kəsb edir.

Siyasi hakimiyyət bu və ya digər qrupun real hakim mövqeyi əsasında təşəkkül tapan və sosial münasibətlərdə möhkəmlənən normativ sistemdir. O ictimai resursların cəmiyyət üzvlərinin maraqları naminə yayılması üçün dövlətin müstəsna hüququndan, səlahiyyətlərindən istifadə edir.

Hökmranlıq etmək prosesi özündə aşağıdakıları birləşdirir:

– insanları müəyyən fəaliyyətə təhrik etmək;

– digərlərinin arzuolunmaz hərəkətlərinə yol verməmək;

– hökmranlıq, adamları manipulyasiya etmək;

– total, hər yerdə məcburetmə (qanun, ənənə).

V.Q.Ledyayev mənbələrə əsaslanaraq obyektin (tabelikdə olanların) subyektə – aktora (ağalıq edənlərə) tabe olması kontekstində hakimiyyətin aşağıdakı formalarını fərqləndirir:

– güc (psixi zorakılıq, güc tətbiq etmək təhlükəsi və b.) tətbiq etmək hakimiyyətin itirilməsi ilə nəticələnə bilər, lakin bu baş verməyə də bilər;

– məcburetmə. Tabe olmağın mənbəyini neqativ sanksiyaların tətbiqi təhlükəsi təşkil edir;

– məqsəd. Hakimiyyətin mənbəyi kimi mükafatlandırma çıxış edir, obyekt bunu tabe olmaq əvəzində əldə edir;

– inandırma. Hakimiyyətin bu formasının mənbəyi arqumentlərdir. Obyekt belə bir seçimə malikdir – subyektin arqumentini qəbul etsin və yaxud yox;

– manipulyasiya. O, subyektin obyektə gizli təsir etməsi qabiliyyətinə əsaslanır. Manipulyasiya hakimiyyətin formaları arasında elə qeyri-insani mahiyyət kəsb edəndir ki, obyekt ona təsir edilməsini dərk etmir;

– nüfuz. Hakimiyyətin mənbəyini subyektin xüsusiyyətləri, onun statusu təşkil edir, hakimiyyət obyekti məcbur edir ki, məzmunundan asılı olmayaraq onun komandasını qəbul etsin (4, s.61-62).

Ağalıq və tabelik münasibətlərinin mövcud olmadığı məkanda nəinki hakimiyyətdən, eləcə də onun subyekti və obyektindən mülahizə yürütmək mənasızdır. Çünki hakimiyyətin məzmunu geniş mənada onun sosial mahiyyət kəsb etməsi, sosial təbiəti ilə şərtlənir. Siyasi hakimiyyətin sosial təbiətini səciyyələndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, o yalnız siyasi sferada deyil, eləcə də iqtisadi və mənəvi (hüquqi, əxlaqi, psixoloji və b.) formalarda üzə çıxır.

Sosial təbiətə malik hakimiyyət konkret sosial biliklərə yiyələnməyi və bu zəmində fəaliyyəti, sosial qrupların, əhalinin bütün təbəqələrinin maraqlarının təmin olunmasını reallaşdırmağı səciyyələndirir. Sosial hakimiyyətə yiyələnmək azad fəaliyyət hüququ əldə etməyi ifadə edir. Sosial hakimiyyət fərdi inamların məhsulu deyil, qarşılıqlı fəaliyyətdə olan fərdlər qrupunun səciyyəvi əlamətidir.

Hakimiyyət və sosial təbiətə malik hakimiyyət anlayışları politoloji ədəbiyyatda xeyli müddətdir ki, məhz siyasi hakimiyyətin sinonimi kimi mənalandırılır. Bu anlayışların müəyyən oxşar xüsusiyyətlərə malik olması onları sinonimli termin kimi işlətməyə tam əsas verir. Çünki hakimiyyət sosial sistemin elementlərindən birinin bir sistem daxilində öz xüsusi maraqlarını real olaraq reallaşdırmaq qabiliyyəti və bacarığıdır. Hakimiyyət mövcud sosial sistemdə baş verən hadisə və proseslərə real təsir göstərməsi ilə səciyyələnir, onları qaydaya salmağa, tənzimləməyə istiqamətlənir. Sözün əsl mənasında hakimiyyət insanlar arasındakı münasibətlərdir, iqtidarla ona tabe olan qrup arasında münasibətlər tipidir (5, s.48). Politoloji ədəbiyyatda belə bir fikir təsdiqlənir ki, siyasi hakimiyyət böyük ictimai qruplar arasındakı münasibətlərdə onlardan birinin öz iradəsini real surətdə həyata keçirmək bacarığıdır, ağalıq və tabelik təbiəti ilə səciyyələnən reallıqdır.

Hakimiyyət münasibətləri sistemi dörd başlıca komponentə malikdir:

– hakimiyyətin azı iki fərdi və yaxud kollektiv partnyorunun mövcudluğu;

– qeyri-itaətkarlıq (tabesizlik) təzahür etdikdə müəyyən sanksiyaların mümkünlüyünü nəzərdə tutan hakimiyyətin iradəsinin (əmr, sərəncam, tələb) ifadəsi;

– hakimiyyəti həyata keçirənə tabeçilik;

– əmr verənlərin (tələb edənlərin) və ona tabe olanların hüququnu müəyyən edən ümumi qəbul olunmuş normaların mövcudluğu.

Siyasi hakimiyyət o zaman təzahür edir ki, mövcud məkanda təsiretmə qabiliyyəti təşəkkül tapır və ictimai qruplarda, təbəqələrdə, siniflərdə, bütövlükdə isə bütün sosial sistemdə (cəmiyyətdə) yayılır. O, iki məqamı özündə əks etdirir: əvvəla, sosial qruplar arasında və onların üzərində hakimiyyət tərəfindən reallaşdırılan ictimai bölgü, ikincisi isə ictimai, ümumdövət miqyasında mütəşəkkil məcburetmə. Deməli, leqal məcburetmə gücü siyasi hakimiyyəti səciyyələndirən xüsusi amil kimi çıxış edir.

Belə qənaətə gəlmək olar ki, siyasi hakimiyyət mütəşəkkil məcburetməyə, hüquqa və nüfuza əsaslanan böyük sosial qruplar arasındakı iradəvi münasibətlərdir. Məcburetmə (zorakılıq) hakimiyyətin iradəsinin reallaşması üçün yeganə vasitə deyildir. Zorakılıq güclü hakimiyyətin yox, hakimiyyətin gücünün ifadəsidir.

Siyasi hakimiyyətin mahiyyətini açıqlamağa cəhd edərkən, onu hakimiyyətlə ictimai marağın nisbəti məsələsi ilə əlaqələndirmək çox vacibdir. Bu mənada hakimiyyət kimə xidmət edir və hakimiyyət kimin əlindədir prinsipinə aydınlıq gətirməklə hakimiyyətin təbiətini müəyyənləşdirmək mümkündür.

Hakimiyyət münasibətlərinin bütün sisteminin özəyini "hökmranlıq etmək-tabeçilik" münasibəti təşkil edir. Tarixi təcrübə təsdiqləyir ki, insanların razılaşdırılmış fəaliyyətinə zərurət yarandıqda onların fəaliyyəti müəyyən məqsədlərin əldə edilməsinə tabe olur. Eləcə də elita ilə idarə olunan, hakimiyyətdə olanla hakimiyyətdən məhrum edilən, ağalıq səlahiyyətinə sahib olanla asılı vəziyyətə

düşən müəyyənləşdirilir. Tabelikdə olma motivləri müxtəlif formada təzahür edir. Həmin motivlər qarşıya qoyulan məqsədlərin əldə edilməsi marağına, əmrlərin reallaşması zərurətindən irəli gələn inama, elitanın nüfuzuna, qabiliyyətinə əsaslana bilər. Sadalanan motivlər hakimiyyətin rasionallığı üçün xüsusi əhəmiyyət kəsb edir və onun uzunömürlü olmasına real təminatdır.

Siyasi hakimiyyətin həyata keçirilməsi sosial sistem olmaq etibarilə cəmiyyətin bütövlüyünü və ahəngdar inkişafını reallaşdırmağa yönəlir. Elə buna görə də tədqiqatçıların bir qrupu "hakimiyyət" anlayışını müəyyənləşdirməyə cəhd edərkən onun ümumi əhəmiyyətini meyar kimi dəyərləndirirlər. Məsələn, rus alimi T.V.Polunina yazır: "Özünün ümumi əhəmiyyətinə görə hakimiyyət anlayışı birinin digərini tabe etdirmək, ona sərəncam vermək, digərini tabe etmək hüququnu və imkanlarını ifadə edir, birinin digərinə münasibətdə öz iradəsini həyata keçirmək, onların davranışına və fəaliyyətinə təsir göstərmək qabiliyyətini və imkanını nəzərdə tutur. Bu məqsədlə idarə edən öz nüfuzundan, hüququndan, gücündən və digər vasitələrdən istifadə edir" (6, s.53).

Hakimiyyətin mahiyyətini araşdırarkən onu insanların qarşılıqlı fəaliyyətinin inteqrasiyasının universal mexanizmi və xüsusi maraqları reallaşdıran fenomen kimi vurğulamaq çox vacibdir. Çünki hakimiyyətin təhlilinə belə yanaşma onun təbiətini başa düşməyə imkan yaradır. Cəmiyyət hakimiyyətsiz xaos vəziyyətinə düçar olar, sosial əlaqələrin və sosial münasibətlərin dağılması ilə müşahidə olunar. Buna görə o, tənzimləmənin obyektiv tələbatı və uzlaşmayan maraqların uyğunlaşdırılması ilə şərtlənir, eləcə də sosial münasibətlərin məqsədəuyğunluğu, onun ümumi davranış qaydaları vasitəsi ilə təşkilinin zəruriliyi ilə müəyyən olunur.

Məsələ ondadır ki, insanlar cəmiyyətdə eyni sosial vəziyyətdə deyildir, müxtəlif həyat səviyyəsinə, maddi zənginliyə, təhsilə, müxtəlif əmək növləri ilə məşğul olmağa malikdirlər, eləcə də ictimai qiymətləndirmə baxımdan fərqlənirlər. Cəmiyyətdə mövcud olan sosial diferensasiya insanların qeyri-sosial bərabərliyinin mənbəyidir. Bu qeyri-bərabərlik ayrıca fərdlərin və sosial qrupların maraqlarının bir-birinə zidd olmasına gətirib çıxarır. Əgər hakimiyyət olmasaydı cəmiyyət Hobbsun sözləri ilə desək, "hamının hamıya qarşı müharibəsi" vəziyyətində olardı.

Hakimiyyət subyektlərin uyğun gəlməyən maraqlarını uzlaşdırır, onların daşıyıcıları arasında qarşılıqlı münasibətləri tənzimləyir və beləliklə, cəmiyyətin sabitliyini və dinamizmini təmin edir.

Siyasi hakimiyyətin mahiyyəti və təbiəti bütövlükdə onun fəaliyyətinin aşağıdakı başlıca vəzifələri ilə səciyyələnir:

– milli – dövlət maraqlarını – millət və xalqın yaşaması, həyati tələbatının reallaşması, özünü mühafizəsi, özünütəsdiqi və öz təhlükəsizliyini təmin etməsi;

– bütün cəmiyyətin, həmçinin müxtəlif sosial birliklərin maraqları ilə bağlı müxtəlif sosial proseslərin uzlaşdırılması;

– ümumi məqsədlərə və ya hakim sosial qrupların maraqlarına uyğun olaraq sosial, siyasi münasibətlərə müəyyən istiqamət verilməsi;

– bu və ya digər sosial sistemin sabit fəaliyyətinin təşkili, qorunub saxlanması və keyfiyyətcə inkişafı;

– ictimai normalar halında legitim məcburetmənin (zorakılığın) reallaşdırılmasını nəzərə almaq.

*Nəticə*. Hakimiyyət çoxcəhətli xüsusiyyətlərə malikdir:

1. Onun başlıca xüsusiyyəti ümumiliyidir. Başqa sözlə, o, ictimai münasibətlərin bütün sferalarını və siyasi prosesləri əhatə edir;

2. Hakimiyyət insanların həyat fəaliyyətinin bütün növlərinə və tərəflərinə nüfuz etməyə qadirdir;

3. O, insanları, ictimai qrupları əlaqələndirmək və eləcə də onları bir-birinə qarşı qoymaq qabiliyyətinə malikdir.

"Hakimiyyət" anlayışı və hakimiyyətin özü insanlar və ya insanlar qrupu arasındakı münasibətlərdə, ictimai qruplar arasında qərarlaşan qarşılıqlı münasibətlərdə təşəkkül tapır. Belə qənaətə gəlmək olar ki, hakimiyyət münasibətləri ictimai həyata obyektiv surətdə xas olan hadisədir". “Bu, cəmiyyət həyatının özünəməxsus qazancıdır. Çünki cəmiyyətdə yaşayıb onun qaydalarından təcrid olmaq mümkün deyildir" (7, s.64).

Respublikamızda politologiya üzrə tanınmış görkəmli alim M.Əfəndiyevin siyasi hakimiyyətə dair verdiyi əhatəli tərifi nəzərə çatdırmaq məqsədəuyğundur: "Siyasi hakimiyyət bütün cəmiyyətə (dövlətə) rəhbərlik iradəsini həyata keçirmək, onu idarə etmək, dövlətin sərəncamında olan vasitələrin köməyilə xalq kütlələrinin davranışına müəyyənedici təsir göstərmək, adamları qarşıya qoyulan məqsədlərə çatmaq naminə səfərbər etmək, müxtəlif qruplar arasındakı münasibətləri tənzimləmək qabiliyyətidir" (8, s.328).

ƏDƏBİYYAT

1. Гаджиев К.С. Политология: Учебник. М.: Логос, 2001, 432 с.
2. Макеев А.В. Политология: Учебник. М.: Логос, 2000, 330 с.
3. Политология: Учебник/Под общ.ред. В.К.Мокшина. М.: Академический проспект, 2010, 575с.
4. Ледяев В.Г. Формы власти: типологический анализ // Полис, 2000, №2, с.60-73
5. Санестебан Л.С. Основы политической науки: Монография. М.: Логос, 1992, 164 с.
6. Политология: Учебник. Под ред. Т.В.Полуниной. М.: Юнити, 1996, 371 с.
7. Политология в вопросах и ответах: Монография. М.: Аспект Пресс, 1994, 423 с.
8. Əfəndiyev M.Ə. Siyasi elm: Monoqrafiya. Bakı: Siyasət, 2017, 862 с.

**ТУРАЛ КАСУМОВ**
*Докторант кафедры Политологии и социологии Бакинского Государственного Университета*

## СОДЕРЖАНИЕ И ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКОЙ ВЛАСТИ

В статье раскрывается понятие политической власти, анализируются ее содержание, природа и особенности, а также уделяется внимание основным тенденциям развития политической власти в современный период, исследуется сущность концептуальных подходов к понятию политической власти.

*Ключевые слова*: политическая власть, содержание, концепция, особенности, система, политика.

**TURAL KASUMOV**
*Doctoral student of the Department of Political Science and Sociology of Baku State University*

## THE CONCEPT AND FEATURES OF POLITICAL POWER

The article reveals the concept of political power, analyzes its content, nature and features. Attention is also paid to the main trends in the development of political power in the modern era, the essence of conceptual approaches to the concept of political power is studied.

*Keywords*: political power, content, concept, features, system, policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 aprel 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: f.ü.f.d. Məcid Əfəndiyev, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94**

**SEVİNC İMANLI**
*Gəncə Dövlət Universitetinin müəllimi*
**imanli_sevinc@mail.ru**

# ŞİMALİ VƏ CƏNUBİ QAFQAZ RESPUBLİKALARI: MÜSTƏQİLLİK UĞRUNDA İLK ADDIMLAR VƏ QARŞILIQLI ƏLAQƏLƏR

*1917-ci il hadisələrindən sonra bütün Qafqazda baş verən proseslər ümumregional xarakter daşısa da, müəyyən lokal xüsusiyyətlər də mövcud idi. Şimali Qafqazın 1918-ci ildə müstəqilliyini elan etmiş Cənubi Qafqaz Respublikaları ilə qarşılıqlı əlaqələri problemi bu dövrün öyrənilməsində maraqlı və mühüm hesab olunur. Məhz bu dövrdə həm Şimali, həm də Cənubi Qafqazda milli, suveren dövlət yaradılması və onun qorunmasına cəhdlər edilirdi. Qafqaz liderləri dövlət suverenliyi qazanmaq üçün bu geostrateji bölgədə xüsusi nüfuz sahibi olmaq istəyən müxtəlif böyük dövlətlərlə əlaqə saxlamaq və razılaşdırılmış addımlar atmağa hazır idilər. Ancaq, məhz böyük dövlətlər, əsasən də, bolşevik Rusiyası müstəqil dövlətlərə son qoydu.*

*Açar sözlər*: Şimali Qafqaz, respublika, müstəqillik, qarşılıqlı əlaqələr, siyasi proseslər.

*Giriş*. Ümumimperiya istilası baxımından müəyyən tarixi oxşarlığı olan Qafqaz respublikaları geosiyasi baxımdan böyük dövlərlərin maraq dairəsində qalmaqda idi. Yeni yaranan vəziyyətdə bölgədəki xalqların müstəqilliyini elan edə bilməsi üçün real şərait yaranmışdı. 1918-ci ildən etibarən yerli xalqların müstəqilliklərini elan etməsi ilə qarşılıqlı siyasi-mədəni əlaqələr artmağa başladı, təbii ki, Şimali və Cənubi Qafqaz respublikaları arasındakı bu əlaqələr zaman-zaman fərqli istiqamətlərdə cərəyan edirdi. Odur ki, Şimali Qafqaz dağlıları və Dağıstan ittifaqı, eləcə də Dağlı Respublikası ilə Cənubi Qafqaz respublikaları arasındakı əlaqələr həm bu dövrdə aparılan vətəndaş müharibəsi, həm də bölgənin geosiyasi problemləri baxımından maraqlı və çoxşaxəli mərhələ hesab oluna bilər.

*Əsas mətn*. Şimali Qafqazda mövcud siyasi elita yaranmış şəraitdə Cənubi Qafqaz respublikaları ilə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində maraqlı idi, çünki siyasi mövcudluğu qoruyub saxlamaq üçün birgə fəaliyyətə ehtiyac olduğu məlum idi [4]. Hətta mənbələrdə də "Şimali Qafqazın müdafiəsinin Cənubi Qafqaz respublikaları olmadan qeyri-mümkün olması" bildirilirdi [6, 13-18]. 1918-ci ilin fevralında Vladiqafqazda Şimali Qafqazla Zaqafqaziyanın (Cənubi Qafqaz) siyasi birləşməsi haqda qətnamə qəbul olunmuşdu [5, 206]. Cənubi Qafqaz Seymində də 1918-ci ilin martında dağlılarla birlikdə bolşeviklərə qarşı birgə mübarizə aparmaq məsələsi gündəmə gəlsə də bu məsələ erməni və gürcülərin müqaviməti nəticəsində reallaşmadı. Bununla belə elə həmin dövrdən azərbaycanlılarla dağlılar arasında qarşılıqlı münasibətləri nizamlamaq üçün Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Aslan bəy Səfikürdski, Məhəmməd Qazi Dibirov, Heydər Bammatov, Əbdülməcid Çermoyevin təmsil olunduqları komissiya yaradılmış, məhz bundan sonra dağlıların Trabzon konfransında təmsilçiliyi reallaşmışdı. Belə ki, müsəlman fraksiyasının təkidi ilə Trabzona sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibinə dağlı nümayəndəsi İbrahim bəy Heydərov da daxil edilmişdi.

Hətta 1918-ci ilin 18 mayında Batum konfransında Qafqaz dağlıları ittifaqının nümayəndələri Rusiyadan ayrıldıqlarını bəyan etdikdən sonra Dağlı ittifaqının xarici işlər naziri Heydər Bammatov 1918-ci ilin aprelində Trabzon konfransında Qafqazda iqtisadi-siyasi birliyin yaradılmasının vacibliyini vurğulamışdı [5, 208]. Ümumilikdə, Trabzonda Azərbaycan və Dağlı nümayəndələri Şimali Qafqazla Cənubi Qafqazın vahid müstəqil dövlətdə birləşməsini təklif etsələr də, gürcü və erməni nümayəndələri, eləcə də alman komandanlığının təmsilçisi Qafqazda müstəqil dövlət yaradılması zamanı bölgədə müsəlman-türk təsirinin artmasından, Osmanlı dövlətinin mövqeyinin güclənməsindən ehtiyatlanaraq buna razılıq vermədilər [2].

Hələ 1918-ci ilin əvvəlindən Şimali Qafqazda gedən siyasi proseslərə xarici müdaxilə müşahidə olunurdu. Belə bir şəraitdə öz müstəqilliyini qoruyub saxlamaq istəyən dağlılar xarici dövlətlərlə müəyyən əlaqələr qurmağa çalışırdlar. T.Çermoyev, H. Bammat və başqalarının təmsil olunduğu nümayəndə heyəti İstanbulda Türkiyə baş naziri və hərbi naziri ilə görüş keçirərək Şimali Qafqazda dövlət quruluşu, Dağlı Respublikasının yaradılmasına köməklik göstərilməsi kimi mühüm

məsələləri müzakirə etmişdilər [2]. Bundan əlavə dağlılar 1918-ci ilin aprelində bir sıra Avropa dövlətlərinə müraciət edərək onların hökümətinin tanınmasını xahiş etmişdilər.

Bu dövrdə bütün Şimali Qafqazda siyasi vəziyyət dəyişməyə başlamışdı. Qısa müddətdə Dağıstan liderləri Nəcməddin bəy Qotsinskiy və Uzun Hacının rəhbərliyi ilə ətraf ərazilərdən bolşeviklər çıxarıldı. Məhz bundan sonra artıq Almaniya general fon Lossovun simasında Qafqaza nümayəndə heyəti göndərərək buradakı vəziyyətə birbaşa nəzarət etməyə başladı. Təbii ki, bu cəhdlər regionda siyasi nüfuz qazanmaq istəyən böyük dövlətlərin iştirakı ilə paralel həyata keçirilirdi. Alman nümayəndə heyətinin sədri olan fon Lossov bu məsələdə daha aktivlik göstərərək Gürcüstanla Dağlı ittifaqı arasında danışıqları təşkil etmək üçün Almaniyanın Qafqazdakı diplomatik missiyasının rəhbəri qraf Şulenburqa rəsmi məktub ünvanlamışdı [8, 82]. Faktiki olaraq Gürcüstan müstəqilliyini elan edəndən sonra "Abxaz məzələsi"nə görə dağlılarla qarşıdurma yaranmış və ən qısa müddətdə Abxaziyaya alman və gürcü qoşunlarının yeridilməsi Dağlı hökümətində narazılıqla qarşılanmışdı [3, 33]. Bununla belə Abxaz xalq qurultayında qəbul olunmuş bəyannaməyə əsasən Abxaziyanın Dağlı ittifaqının tərkibinə aid olması bildirilirdi [8, 53]. Gürcüstan isə bu bəyannaməni ciddi qəbul etməyərək onu öz ərazisi hesab edirdi. Siyasi cəhətdən Türkiyənin regionda nüfuzunun möhkəmlənməsi də bir çox siyasi dairələri narahat edirdi. Türkiyə isə rəsmi olaraq bu məsələdə neytarallığını qoruyub saxlamaqla Almaniya ilə bu bölgədə qarşıdurma yaratmaq istəmirdi [8, 93].

Belə bir vəziyyətdə Azərbaycanla Qafqazın şimalı arasında əlaqələr tam fərqli istiqamətdə gedirdi. Bu dövrdə Azərbaycandan olan aparıcı liderlər mümkün vasitələrlə Şimali Qafqazda müstəqillik ideyalarını dəstəkləyir və yardım göstərməyə çalışırdılar. Sonradan qarşılıqlı əlaqələrin qurulmasında və inkişafında bu dövrdə baş verən hadisələr əhəmiyyətli rol oynadı. Cənubi Qafqaz Seyminin məşhur 13 aprel iclasından sonra Seymin müsəlman fraksiyası Şimali Qafqaz nümayəndələri ilə birləşərək sonrakı siyasi məsələləri birgə həll etməyi nəzərdə tutsa da bu məslədə yekdil fikir olmadı. Bu proseslərin nəticəsində mayın 11-də Dağlı Respublikasının yaradılmasına və Türkiyə tərəfindən tanınmasına nail oldular. Öz növbəsində bolşeviklər də Rusiyanın cənub bölgəsindəki Fövqəladə komissarı Q.K.Orjonikidzenin xüsusi səyi ilə Terek respublikası yaratmaqla dağlılara qarşı Şimali Qafqazda alternativ qurum yarada bildilər [2].

Sonradan noyabrın 8-də yenə də Vladiqafqazda keçirilən iclasda Şimali Qafqaz Dağlıları müxtəlif sahələr üzrə birgə komissarlıqlar yaratmaqla dekabrda İttifaq qurulmasına şərait yaratdılar. Müvəqqəti hökümət mümkün idarəçilik sistemi yaratmağa cəhd etsə də rus-bolşevik təzyiqi ilə burada milli qarşıdurmalar başladı. 1918-ci ilin sentyabrında N.Ramişvilinin rəhbərliyi altında yaradılmış komissiya Gürcüstan və Dağlı respublikaları arasında siyasi və iqtisadi məsələləri həll etmək üçün layihə hazırlamalı idi [7].

Məlum olduğu kimi Qafqaz respublikaları beynəlxalq səviyyədə öz müstəqilliklərinin tanınmasına nail olmağa çalışırdılar və bu baxımdan, yeni Respublikaların hər biri Paris sülh konfransına öz nümayəndələrini göndərməyə çalışırdı. Hətta sülh konfransında belə dağlı və gürcü nümayəndə heyəti arasında həm Abxaziya, həm də Cənubi Osetiya məsələsində fikir ayrılıqları özünü göstərirdi.

Şimali Qafqaz isə belə bir vəziyyətdə açıq konfiliktə girməkdən ehtiyat edirdi, çünki bolşevik təhlükəsi qarşısında təkcə dayanmaq çətin ola bilərdi və eyni zamanda Qafqazın ingilislər tərəfindən tutulması ilə dağlılar etibarlı müdafiə əldə edə bilmədiklərini anlayırdılar. Birinci Dünya müharibəsindən sonra Şimali Qafqazda İngiltərənin mövqeyinin güclənməsi müşahidə olunurdu. 1918-ci ilin 17 noyabrında ingilis hərbi missiyasınnı rəhbəri Tomson Şimali Qafqaz xalqlarına müraciət etmiş və dağlı hökumətinin siyasi xəttini bəyənmədiyini bildirmişdi. Bu məsələdə Azərbaycan Xalq Cumhuriyyəti qonşu respublikaya biganə qalmamış, dövlət səviyyəsində öz münasibətini bildirmişdi. Belə ki, 1919-cu il mart ayının 6-da parlamentin iyirminci iclasında Fətəli Xan Xoyski Dağıstanda yaranmış böhranlı vəziyyətlə bağlı deputatlara geniş məlumat verərək müraciət etmişdi: "...Hamımıza yaxın dost və həmdəm olan Dağıstan cümhuriyyəti üzərinə Könüllü ordu qoşunu yürüş edib, yerlərini istila edir və hökumətinə təklif edir ki, özünü ləğv etsin, Dağıstan qoşunlarını buraxsın, özləri də yerli əhalidən əsgər yığmağa başlayırlar. Biz bu sözləri eşidən kimi onların səfirlərindən məlumat istədik" [1]. Azərbaycan hökuməti Dağıstan hökumətinin səfirindən dəqiq məlumat əldə etdikdən sonra öz etirazını bildirdi. "... Bizim hökumət və parlament və bütün Azərbaycan camaatı bir fikir-

dədir ki, dağıstanlılara belə zülm olan halda biz sakit otura bilmərik. İndi hökumət özünü borclu bildi ki, bu xüsusda müttəfiqlərin nümayəndəsi general Tomsona Azərbaycan hökumətinin nöqteyi-nəzərini bildirsin". Azərbaycan hökuməti şimaldakı hadisə ilə bağlı Tomsona öz etiraz notasını da verir. "Biz var qüvvəmizlə Şimali Qafqaziya hökumətinə kömək etməliyiz, siz bilirsiniz ki, Könüllü ordunun əsl siması indi açılır. Əvvəlcə onların hərəkəti bir balaca Gürcüstanda oldu. Azərbaycan dairəsindən biz onları çıxarmışıq. Şimali Qafqaziyada olan Könüllü ordunun fikri yalnız bolşeviklərlə mübarizə deyil. Onların mübarizəsi cəmi xırda millətlər ilədir və istəyirlər ki, xırda millətlərin ixtiyarını yox edib tapdalasınlar. Bu barədə bir millət o birinin ixtiyarının əlindən alınmasına aşkardır ki, bitərəf baxa bilməz və aşkardır ki, Dağıstan hökumətinə dəyən zərbə bizə dəymiş kimidir. Mən bizim hökumət və parlamentimizin Dağıstan hökumətinə (352-353) kömək edəcəyini onların səfirinə xəbər verdim. Azərbaycanın nə hökuməti, nə də parlamenti qoymayacaqdır onların hüququ tapdalansın, var qüvvəmizlə onlara kömək edəcəyiz" [1]. Buna baxmayaraq 1919-cu ilin fevralında Şimali Qafqazın tutulması respublikanın sonuna gətirib çıxardı. Hökumətin general A.Denikinlə danışıqlar üçün göndərdiyi nümayəndə heyəti qəbul edilmədi və A.Denikin rəsmi olaraq elan etdi ki, o dağlı respublikasını tanımır. 1919-cu ilin 24 mayında Dağıstanda A.Denikinin təyin etdiyi general M.Xəlilov hakimiyyəti ələ alaraq dağlılardan hakimiyyətdən imtina etməyi, ordunu buraxmağı tələb etmişdi. Bundan sonra Ə.Çermoyevin rəhbərliyi altında olan Dağlı Respublikası Azərbaycana – Gəncəyə köçmüş və həmin ilin iyunun 8-də Osmanlı Türkiyəsi ilə "Dostluq və əməkdaşlıq" haqqında müqavilə bağlayaraq Nuru paşanın başçılığı altında olan Qafqaz İslam Ordusunun 74 zabit və 577 nəfərlik hərbi dəstəsinin yardıma gəlməsinə nail olmuşdular [6, 55-78]. Mövcudluğu dövründə Azərbaycanla Dağlı respublikası arasında qarşılıqlı münasibətlər kifayət qədər müsbət olmuşdur. Parlamentin ilk iclasındakı çıxışında M.Ə.Rəsulzadə qonşu millətlərlə münasibətlərin qurulmasını belə şərh edirdi: "Qafqaziya millətlərinin istiqlal və bərabərlikdə müstəqil olaraq yaşamaları bir xəyali-bənd deyildir. Qardaş millətimiz olan Şimali Qafqaziya və bütün cüziyyata rəğmən daima səmimi qalan gürcülərin bizə bir çox mədəni xidmətləri toxunmuş, rus camaatının mühüm bir qismi ilə əl-ələ verərək biz Zaqafqaziyanın müqəddəratını bu qitə üzərində yaşayan millətlərin arzusu vəchilə təmin edə bilərik" [1]. Daha sonra parlamentdə çıxış edən Fətəli xan Xoyski qeyd edirdi ki, "...öhdəmizə düşən vəzifələrdən birisi də Qafqaziyada bəzən din və qan qardaşlarımız və bəzən də qonşularımız tərəfindən təşkil edilmiş olan hökumətlər ilə dostanə əlaqə və münasibətimiz məsələsidir. Hökumət dostluq üçün var qüvvəsilə çalışdı. Gürcüstan ilə aramızda heç bir ixtilaf vaqe olmamışdır. İki qardaş arasında da mübahisə olar. Lakin mübahisəli məsələlərin həpsi dostanə bir tərzdə həll edilir. Şimali Qafqaziya bizə daha yaxındır. Həmişə sözümüz, yolumuz, işimiz bir olmuş, bir-birimizə mütəqabil kömək etmişik" [1]. Göründüyü kimi Azərbaycan Cumhuriyyəti bu çətin vəziyyətdə Şimali Qafqaza qarşı biganə qalmamış və mümkün köməkliyi etməyə çalışmışdır.

*Nəticə*. Şimali və Cənubi Qafqazda yaranmış müstəqil respublikalar belə bir şəraitdə, siyasi təhlükə və təzyiqlər qarşısında birgə fəaliyyətin qaçılmaz olduğunu başa düşsələr də həmin dövrdə Qafqazda konsolodasiya yaradılması mümkün olmadı. Son nəticədə suverenliyə qısa müddət ərzində nail ola bilmiş respublikalar çox qısa müddətdə mövcud olsalar da xalqlarının dövlətçilik ənənələrini, müstəmləkəyə qarşı mübarizə əzmini və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinin mümkünlüyünü göstərə bildilər.

## ƏDƏBİYYAT

1. Abışov V. Azərbaycan Xalq Cumhuriyyətinin xarici siyasətində parlamentin yeri // http://www.azerbaijan-news.az/view-154224/Az%C9%99rbaycan-Xalq-C%C3%BCmhuriyy%C9%99tinin-xarici-siyas%C9%99tind%C9%99-parlamentin-yeri [Müraciət tarixi: 22.07.2021].

2. Əliyev Q. Azərbaycan Xalq Cumhuriyyətinin Dağlı respublikasına yardımları // https://www.aztc.gov.az/az/posts/id:800 [Müraciət tarixi: 22.07.2021].

3. Абхазия – документы и материалы (1917–1921) / Сост. Р. Х. Гожба. Сухум: Дом Печати, 2009. 708 с.

4. Алиева С.И. Азербайджанская демократическая республика и Горская республика: сотрудничество, проекты объединения и взаимодействия с Османской империей (по документам,

договорам и нотам 1918–1920 гг.). Часть 1, 2 // Северо-Кавказский юридический Вестник. 015. № 4. С.115–137; 2016. № 1. С. 90–114.
5. Гайдар Баммат – известный и неизвестный: сборник документов и материалов / Авт.-сост. Хаджи Мурад Доного. Баку: Азербайджанское ист. об-во, 2015. 458 с.
6. Кажаров А. Г. Союз объединенных горцев и проблема автономии народов Северного Кавказа в 1917–1920 гг. // Известия Самарского научного центра Российской академии наук. 2011. № 3. С.11–117.
7. Маркедонов С.М. Большой Кавказ: старые конфликты и новый геополитический дизайн URL: http://noev-kovcheg.ru/mag/2011-22/2932.html [Müraciət tarixi: 22.07.2021].
8. Союз объединенных горцев Северного Кавказа и Дагестана (1917–1918 гг.) и Горская Республика (1918–1920 гг.). Документы и материалы. Махачкала: АЛЕФ (ИП Овчинников), 2013. 290 с.

**СЕВИНДЖ ИМАНЛЫ**
*Преподаватель Гянджинского Государственного Университета*

## РЕСПУБЛИКИ СЕВЕРНОГО И ЮЖНОГО КАВКАЗА: ПЕРВЫЕ ШАГИ ЗА НЕЗАВИСИМОСТЬ И ВЗАИМООТНОШЕНИЯ

Несмотря на то, что процессы на всей территории Кавказа после событий 1917-го года характеризовано общерегиональными особенностями, но были и локальные черты. Проблема отношений Северного Кавказа с провозглашенными в 1918 г. республиками Южного Кавказа является важной и интересной для изучения того периода. Именно в это время и на Севере, и на юге Кавказа предпринимались попытки создания и защита национального, независимого государства. Кавказские лидеры стремились поддерживать связи и не отказывались от любых возможностей согласования действий в процессе получения государственного суверенитета с разными великими государствами, которые хотели иметь на этом геостратегическом регионе особую влиянию. Но именно эти большие государства, особенно, большевисткая Россия расправилась независимыми государствами.

*Ключевые слова*: Северный Кавказ, республика, независимость, взаимоотношения, политические процессы.

**SEVINJ IMANLI**
*Lecturer at Ganja State University*

## REPUBLIC OF THE NORTH AND SOUTH CAUCASUS: THE FIRST STEPS FOR INDEPENDENCE AND RELATIONSHIPS

Despite the fact that the processes throughout the Caucasus after the events of 1917 were characterized by general regional features, there were also local features. The problem of relations between the North Caucasus and the republics of the South Caucasus proclaimed in 1918 is important and interesting for the study of that period. It was at this time that attempts were made to create and defend a national, independent state both in the North and in the South of the Caucasus. The Caucasian leaders strove to maintain contacts and did not give up any opportunities for coordinating actions in the process of obtaining state sovereignty with various states that wanted to have a special influence in this geostrategic region. But it was these large states, especially the Bolshevik Russia, who cracked down on the independent states.

*Keywords*: North Caucasus, republic, independence, relationships, political processes.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d.Vüsalə Veysəlova, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**ŞEYDA ÇEVİKEL**
*Xəzər Universiteti Humanitar, Təhsil və Sosial elmlər fakültəsi,*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*
**Sheyda.Cevikel@khazar.org**

# KIRGIZİSTAN DIŞ POLİTİKASINDA ÜÇ BÜYÜK GÜCÜN ETKİSİ

*Bu çalışmanın amacı Kırgızistan'ın bağımsızlığından itibaren yönelimlerinin ve 3 büyük güç (Rusya, ABD ve Çin) ile ilişkilerinin dış politika açısından durumunu değerlendirmek ve tespitler de bulunmaktır. Bu bağlamda dış politikasını çok vektörlü olarak ifade eden Kırgızistan'ın, başta bu 3 büyük güç ile dengeli bir dış politika sürdürebilme konusunda ne kadar başarılı olduğu sorusuna yanıt aranacaktır.*

*Anahtar kelimeler:* Kırgızistan, ABD, Rusya, Çin, Dış Politika.

*Giriş*. Sovyet Sosyalist Cumhuriyetler Birliği(SSCB)'nin dağılmasının akabinde oluşan uluslararası ortamda Orta Asya'daki ülkeler, birer bağımsız aktör olarak yeni düzende yerlerini almıştır. Bu ülkelerden biri de Kırgızistan olmuştur. Çok taraflı bir dış politika sürdürmeyi amaçlayan Kırgızistan'ın, Orta Asya'nın diğer devletleri ile mukayese edildiğinde demokrasi adına çabaları, özellikle Batılı devletlerden ve uluslararası kuruluşlardan maddi destekler almasına da olanak sağlamıştır. Bunun yanında Kırgızistan, bulunduğu coğrafya itibari ile Rusya ve Çin ile de birçok işbirliği gerçekleştirmiştir.

Çin ile sınır komşusu olan ve aynı zamanda ortak geçmişe sahip olduğu Rusya'nın da güçlü etkisinin hissedildiği Kırgızistan, stratejik bir noktada yer almaktadır. Özellikle ABD'de gerçekleşen 11 Eylül terör saldırılarının ardından ABD açısından stratejik önemi artan Orta Asya'da, Kırgızistan da ABD'nin askeri güçlerini yerleştirdiği bir ülke olmuştur. Böylece 3 büyük güç, Orta Asya'nın küçük ama stratejik bölgesinde karşı karşıya gelerek; bu küçük ülkenin dış politika davranışlarını etkilemiş; çok yönlü dış politikayı savunan ülkenin bu büyük güçler ile ilişkilerinde seçim yapma durumunda kalması bazı ülkelere daha yakın durması ile sonuçlanmıştır. Bu çalışmada Kırgızistan'ın ayrı ayrı 3 küresel güç ile ilişkileri analiz edilecek ve Çin'in Kırgızistan dış politikasında en etkili aktör olduğu savunulacaktır.

*Kırgızistan Dış Politikası'nda 3 Büyük Gücün Etkisi*. Soğuk Savaş'ın sona ermesiyle; çift kutuplu düzen yerini çok kutuplu düzene bırakmıştır. SSCB'nin halefi diyebileceğimiz Rusya ve yine çift kutuplu düzenin aktörlerinden Amerika Birleşik Devletleri(ABD) ve yükselen güç Çin de büyük güçler arasında yerini almıştır. Elbette ki büyük güçler, bu üç ülkeyle sınırlı değildir; ancak Kırgızistan'ın dış politikasında bu üç büyük devletin etkisi fazladır. Kırgızistan'ın ilk cumhurbaşkanı Akayev'in (2003) de kitabında bahsettiği gibi küçük ülke (Kırgızistan) ile büyük dostları (ABD, Rusya, Çin) arasında güç farkları olduğundan; büyük ülkelerin davranışları, küçük ülkelerin dış politika davranışlarını da etkilemektedir [1]. Kırgızistan'ın da çok taraflı olarak sürdürdüğü dış politikasında, bu üç büyük güç ile karşılıklı çıkarlar nezdinde temasları olmuştur.

*ABD'nin 11 Eylül sonrası Kırgızistan'a gelişi*. ABD, Orta Asya ile ilgili çalışmalarını Güney ve Orta Asya İlişkileri Bürosu aracılığıyla yürütmektedir. ABD, Kırgızistan'da hukukun üstünlüğü ve insan haklarına saygı temelinde, kapsayıcı bir demokrasi geliştirilmesini desteklemektedir [2]. "Demokrasi adası" olarak anılan Kırgızistan'ın demokrasisini güçlendirmek ve kalkınma amacıyla ABD'den yardımlar aldığı da bilinmektedir. Bunu da USAID aracılığıyla gerçekleştirmektedir [3]. ABD, Orta Asya'ya 11 Eylül 2001'de yaşadığı terör saldırısının ardından askeri işbirlikleri kurmak amacıyla yaklaşmış ve burada askeri üssünü kurmuştur. Yani bölgeyle yakın ilişkisi diğer iki büyük güce göre biraz daha geç başlamıştır. ABD, bölgeye refah ve demokrasi hedefleriyle geldiğini iddia etse de; bölgedeki enerji kaynaklarından faydalanma ve Çin'i çevreleme gibi gizli amaçlar güttüğü de öne sürülmektedir [4, pp.10-11]. Dolayısıyla Çin, ABD'nin Kırgızistan'daki varlığından hoşnut olmamış; ABD'nin demokrasi söylemlerinin etkisinin, Kırgızistan'a komşu Doğu Türkistan'a sıçrama ihtimalinden rahatsız olmuştur. Bu durum, Çin'in istikrarını koruma çabalarını tehlikeye sokma-

nın yanında; ABD'ye, Çin'in sınır bölgelerini ve nükleer alt yapısını takip etme fırsatı da sunmuştur [5]. Kırgızistan, hem Rus hem de ABD hava üssünün olduğu dünyadaki tek ülke olma özelliğine sahip olmuştur. Fakat ABD üssünün ülkeye yerleştiğinde ne kadar kalacağının belli olmaması, Rusya ve Çin'in hoşuna gitmemiştir [4, p.10]. Kırgızistan'da 6 yıl kalma amacıyla imzalanan ABD'nin hava üssü antlaşması, süresi dolmadan Rusya'nın da etkisi ile iptal edilmeye çalışılmıştır. O dönemde ABD ve Kırgızistan arasında yapılan pazarlıklar sonucu Kırgızistan, kira bedelini 2 milyon dolardan 17 milyon dolara çıkarmış [6, p. 341]; 2009 yılında antlaşma yenilenmiştir [7]. 2001 yılında açılan Gansi Hava Üssü, 2009'da Manas Transit Merkezi olarak faaliyetini sürdürmüş ve Temmuz 2011'de kapanmıştır. Ülkeden ayrılırken ABD, 30 milyon dolar değerinde araç ve teçhizatı ülkede bırakmıştır [8]. Bu üssün Kırgızistan'da bulunduğu süre zarfında buradan gelen kira bedeli ve ABD yardımlarıyla ülke bütçesine katkı sağlanmış; aynı zamanda Fergana Bölgesi'ndeki teröre karşı mücadelede, Özbekistan'a olduğu gibi Kırgızistan da ABD'nin desteğini elde etmiştir [5].

*Hem Küresel Hem Bölgesel Güç Rusya*. Rusya, diğer iki güçle mukayese edildiğinde Orta Asya ile tarihsel bağları olan baskın bir güçtür. Sovyetler Birliği yıkılmış; bağımsız cumhuriyetler ortaya çıkmış olsa da; Rusya'nın bölge üzerindeki etkisi sürmektedir. Bu nedenle Rusya, rakiplerine göre daha avantajlı bir pozisyondadır. Rusya "sert güç" ile Orta Asya ülkelerinde ortaya çıkan politik, etnik, din gibi sebeplerden ortaya çıkan krizlerde, bu ülkelerin iç ilişkilerine karışabilmekte; hatta barış ortamını muhafaza etme ve arabuluculuk gibi görevlerle de bölgedeki olaylara dâhil ola bilmektedir [4, pp. 2-3]. Bunun yanında "yumuşak güç" unsurlarından ekonomik gücü vasıtasıyla enerji sağlama ve göçmen işçi kabul etme olanaklarını bölgeye sunması, işsizliğin yüksek olduğu Kırgızistan gibi ülkeler için önemlidir. Bu aynı zamanda Rusya'ya ekonomik açıdan bağımlılık örneğidir [4, pp.3-4]. Mesela 2018 yılı Gayrisafi Yurtiçi Hasılası (GSYİH) 8,01 milyar dolar [9] olan Kırgızistan'ın ekonomisinde, Rusya'da çalışan işçilerin gönderdiği dövizler, önemli bir yere sahiptir. Kırgızistan Merkez Bankası verilerine göre; Kırgızistan'a yurtdışından 2018'in ilk dokuz ayında %90'nının Rusya'dan olmak üzere 1 milyar 970,5 milyon dolar gönderilmiştir. Bunun yanında Kırgız Cumhuriyeti Devlet Göç Hizmeti'nin kaynaklarına göre; çalışma amacıyla yurtdışında bulunan 750 binden fazla Kırgızistan vatandaşının %80'ni Rusya'da yaşamaktadır[10]. Rusya, bölge ülkelerinin de üye olduğu Bağımsız Devletler Topluluğu (BDT) ve Şanghay İşbirliği Örgütü (ŞİÖ)'nün kuruluşunda öncülük etmiştir. Diğer büyük güç Çin ile ŞİÖ'yü de ABD'ye karşı ortak eylemde buluna bilecekleri bir örgüt olarak düşünmektedir [4, p.16]. Ayrıca Rusya, 2003 yılında kendi sınırları dışında ilk kez Kırgızistan'da askeri üs açmıştır. Rusya'nın Kant'taki askeri üssünün 2020'ye dek Kırgızistan'da kalabilmesine olanak sağlayan antlaşma da imzalanmıştır [5]. Yani Kırgızistan'da ABD üssü kapatılmış olsa da daimi müttefik olarak görülen Rusya'nın askeri üssü hala aktif olarak Kırgızistan'da bulunmaktadır.

*Yeni Bir Büyük Güç Çin*. Kırgızistan, Avrasya Ekonomik Birliği'nin, Gümrük Birliği'nin bir üyesi; Rusya'nın stratejik ortağı ve müttefikidir. Hemen hemen her 6 Kırgız vatandaşından 1'inin Rusya'da göçmen olarak çalışıp Kırgız ekonomisine döviz akışı sağladığı düşünüldüğünde, Rusya'ya birçok açıdan ihtiyaç duyan Kırgızistan için güncel durum biraz daha farklıdır [11].

Özellikle son senelerde Çin yatırımları ve projeleri ile iki ülkenin ekonomik temaslarının arttığı ve Kırgızistan dış politikasında, Çin'in etkinliğinin daha göz önüne çıktığı görülmüştür. Bunun en büyük nedeninin de Kırgızistan'ın Çin yatırımlarından veya kredilerinden yararlanması sonucunda yüklü bir borca sahip olması gösterilebilmektedir. Bu sebepten de Çin, kendisine ihtiyaç duyan Kırgızistan ile ikili ilişkilerini daha çok kendi güvenlik endişeleri ve ekonomik çıkarlarının ön planda tutarak sürdürebilmektedir.

Çin-Kırgızistan-Özbekistan Demir Yolu ve oldukça kapsamlı bir girişim örneği olan Eski İpek Yolu'nu canlandırarak geniş topraklarda yatırımlar ve işbirlikleri sunan "Bir Kuşak Bir Yol Girişimi" Kırgızistan açısından olumlu fırsatlar sunuyor gibi görünse de; Çin kredileri kullanılarak gerçekleşmesi, ülkenin borç yükünü oldukça arttırmıştır. 2020 Mayıs itibariyle Kırgızistan'ın toplam borcu 4,8 milyar dolar olmuş ve bunun 4,2 milyar dolarlık bölümü dış borcu temsil etmektedir. Kırgızistan'a kredi veren Çin Exim Bank'a olan borcu da dış borcunun %42'sine denk gelen 1 milyar 774 milyon dolardır. Analistler, alt yapı inşası ve tamiri öne sürülerek alınan bu borçların, gelecek nesillerin de problemi olacağı ve Çin'e olan bağımlılığın her geçen gün artacağı endişesini ön planda

tutmaktadır. Aynı zamanda ödenemeyen borçların toprak kaybıyla sonuçlanabileceği de düşünülmektedir. Kırgızistan'ın yıllardır süregelen Çin'e olan yüklü borcunun 2020 yılında vadesi dolmuştur. Ancak borcu tekrar yapılandırmak zorunda kalan Kırgızistan'a, uzun süreli görüşmeler sonucunda 2020 yılının Kasım ayında, o yılki 35 milyon $ 'lık ödemenin % 2 faiz oranıyla 2022-2024'e çekilmesini sağlayacak bir ödemesiz dönem sunulmuştur [12]. Yani Çin'e olan ekonomik bağımlılık hala sürmektedir.

Kırgızistan'da yerel ekonomi ve siyaset üzerinde de Çin'in etkisi göz ardı edilemeyecek boyuttadır. Pekin'in çıkarları, madencilik, altyapı ve hidroelektrik gibi çok çeşitli alanları kapsamaktadır. Kırgızistan da Çin malları için bir yeniden ihracat merkezi ve enerji kaynaklarını çeşitlendirmeye çalışan Çin için değerli bir doğal kaynak olarak görülmektedir [13, p.200]. Bunun yanında Kırgızistan'ın iç işlerine karışmayan Çin'in kendi istikrarını sağlama adına Kırgızistan'a bağlı önemli çıkarları mevcuttur. Kırgızistan, periyodik çatışmaların gerçekleştiği Doğu Türkistan ile sınırdaş olduğundan; radikal grupların Kırgızistan'dan destek görmesini ya da orada bu grupların, güvenli bir sığınak oluşturmasının engellenmesini istemektedir [14]. Ekonomik hedeflerinin gerçekleştirebilmenin şartlarından birini ülkede istikrarı sağlamak ve etnik azınlıkların sorun çıkarmaması ile ilişkili olduğunu düşünen Çin, Orta Asya ülkelerinden özellikle Batı sınırına destek verilmemesi için Kırgızistan gibi bölge ülkeleriyle ilişkilerini sıcak tutarak ve kendisine borçlandırarak sağlamaktadır. Bunu da ŞİÖ'yü kullanarak kolaylıkla hayata geçirebilmektedir [15, p.4636].

*Sonuç*. Genel anlamda baktığımızda Çin ve Rusya, ABD'nin karşısında Kırgızistan nezdinde daha etkili gözüken iki ülke olmuştur. ABD'nin bölgedeki varlığı, diğer iki büyük güç Rusya ve Çin'i rahatsız etmiş ve Kırgızistan, çok vektörlü dış politikasını uygularken; kendi çıkarlarını düşünmenin yanında, daha çok işbirliğine sahip olduğu Çin ve Rusya'nın çıkarlarına aykırı eylemlerde bulunmamaya da dikkat etmiştir. Ayrıca ŞİÖ vasıtasıyla Çin ve Rusya bölgede birbirlerinin gücünü dengelerken; ABD'yi de bölgeden daha uzak tutabilmiştir. Nitekim Kırgızistan'daki ABD askeri üssünün kapatılması ve Rusya'nın askeri üssünün hala varlığını koruması da buna örnek oluşturmuştur. Bağımsızlığından beri Rusya'ya hep yakın duran Kırgızistan, demokratik hamleler yaparak ABD'nin yardımlarından da payını almıştır. Ne kadar çok yönlü ilişkiler kursa da Kırgızistan'da Rusya'nın etkin bir güç olduğu göz ardı edilemez. Öte yandan Çin'den yüksek miktarlarda aldığı krediler de ülkeyi Çin'e bağımlı bir pozisyona düşürmüştür. Sonuç olarak belirgin bir Rusya etkisinin yanında ülkede mecburi bir Çin etkisi ağırlık kazanmıştır.

## KAYNAKÇA

1. Akayev A.A. Kyrgyz Statehood and the National Epos "Manas. New York: Global Scholary Publication, 2003, 364 c.
2. A Guide to the United States' History of Recognition, Diplomatic, and Consular Relations, by Country, since 1776: Kyrgyzstan / Office of The Historian, Foreign Service Institute US Department State. - https://history.state.gov/countries/kyrgyzstan [Erişildi: 05.09.2021].
3. Administrative Assistant At USAID / Kyrgyz Republic, (11/2017). - https://www.usaid.gov/sites/default/files/documents/1861/Country_Profile_-_Kyrgyz_Republic__Mar_2017_ENG_0.pdf. [Erişildi: 05.09.2021].
4. Esra Hatipoğlu. Güney Kafkasya ve Orta Asya'da Büyük Güçler Arasındaki Oyun: Bölgesel Örgüt ve Oluşumların Rolü. USAK "Orta Asya-Kafkasya Güç Politikası" kitabında. Der. M.Turgut Demirtepe. Ankara, USAK, 2008, pp.1-29.
5. Turgay Düğen. Dar Alanda Büyük Pazarlık: Kırgızistan'da ABD ile Rusya'nın Üs Mücadelesi // Ekoavrasya, Yaz 2012. - https://21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/orta-asya-arastirmalari-merkezi/dar-alanda-buyuk-pazarlik-kirgizistanda-abd-ile-rusyanin-us-mucadelesi#_ftn3. [Erişildi: 05.09.2021].
6. Z. Çotaev. Kırgızistan Dış Politikası: Devam eden ve Değişen Eğilimler». In Cengiz Buyar (Ed.), Kırgızistan: Tarih-Toplum-Ekonomi-Siyaset. Bişkek, BYR Publishing, 2017, pp. 319-377.
7. Sputnik. «Kyrgyz president signs law on U.S. Manas transit center» 2009. - https://sputniknews.com/world/20090707155456605. [Erişildi: 05.09.2021].

8. Kırgızistan'daki ABD askeri hava üssü kapandı / TRT Haber, 11 Temmuz 2014. - https://www.trthaber.com/haber/dunya/kirgizistandakiabd-askeri-hava-ussu-kapandi-135685.html. [Erişildi: 05.09.2021].
9. Kyrgyzstan - Gross domestic product in current prices / Knoema. - https://knoema.com/atlas/Kyrgyzstan/GDP [Erişildi: 05.09.2021].
10. Kırgızistan'a 9 ayda yurt dışından 1,9 milyar dolar gönderildi / Kabar, 02.12. 2018. - http://tr.kabar.kg/news/k-rg-zistana-9-ayda-yurt-d-ndan-1-9-milyar-dolar-gonderildi/ [Erişildi: 05.09.2021].
11. Кыргызско – китайские отношения и российский фактор: настоящее и перспективы (часть 1) / Elgezit, 10 сентября 2018. - https://elgezit.kg/2018/09/10/kyrgyzsko-kitajskie-otnosheniya-i-rossijskij-faktor-nastoyashhee-i-perspektivy-chast-1/. [Erişildi: 05.09.2021].
12. Şeyda Çevikel. Çin- Kırgız İlişkileri Bağlamında Kırgızistan'ın Dış Borcu / IV. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu Bildiriler Kitabı. Ankara, 2020, s.333-340.
13. Matteo Fumagalli. Semi-Presidentialism in Kyrgyzstan: The 2010 Constitution, the Switch to PremierPresidentialism and the Potential for a Democratic Breakthrough. İn book: “Semi-presidentialism in Central Asia and the Caucasus. Palgrave Macmillan, 2016, pp.173-205.
14. Richard Weitz. China, US, Russia eye Bishkek / The Diplomat, April 12, 2010. https://thediplomat.com/2010/04/china-us-russia-eye-bishkek/ [Erişildi: 05.09.2021].
15. Şeyda Çevikel. Kırgızistan Çin Güvenlik İlişkileri ve Doğu Türkistan Meselesi // Tarih Okulu Dergisi (TOD), Aralık 2020, no. XLIX, pp. 4631-4657.

**ШЕЙДА ЧЕВИКЭЛ**
*Докторант Хазарского Университета*

## ВЛИЯНИЕ ТРЕХ БОЛЬШИХ СИЛ НА ВНЕШНЮЮ ПОЛИТИКУ КЫРГЫЗСТАНА

Это исследование направлено на оценку внешнеполитической ситуации Кыргызстана с момента обретения независимости и его отношений с тремя великими державами (Россией, США и Китаем), а также на определение. В этом контексте исследование будет искать ответ на вопрос, насколько успешно Кыргызстан, который выражает свою внешнюю политику как многовекторную, поддерживает сбалансированную внешнюю политику с этими тремя великими державами.

*Ключевые слова*: Кыргызстан, США, Россия, Китай, внешняя политика.

**SHEYDA CHEVİKEL**
*Doctoral student of Khazar University*

## THE EFFECT OF THREE BIG POWERS ON FOREIGN POLICY OF KYRGYZSTAN

This study aims to evaluate the foreign policy situation of Kyrgyzstan since its independence and its relations with the three great powers (Russia, USA, and China) and to make determinations. In this context, the study will seek an answer to how successful Kyrgyzstan, which expresses its foreign policy as a multi-vector, is in maintaining a balanced foreign policy with these three great powers.

*Keywords*: Kyrgyzstan, The USA, Russia, China, Foreign Policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, s.e.d. Adil Mirabdullayev.*

UOT 902

**QÜDRƏT İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin professoru*
**GÜLNAZ ABDULLAYEVA**
*Bakı Dövlət Universiteti*
**SEVİL HEYDƏROVA**
*t.ü.f.d., Bakı Dövlət Universiteti*
**PƏRVİN ƏLİZADƏ**
*Bakı Dövlət Universiteti*
**i.qudrat@yahoo.com; s_heydarova@mail.ru**

# URMİYA GÖLÜ HÖVZƏSİNİN ÇOXTƏBƏQƏLİ ABİDƏLƏRİ, ONLARIN XÜSUSİYYƏTLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

*Tarixi Azərbaycan torpaqlarında yerlərin tarixi çoxtəbəqəli zəngin abidələrindən biri də Cənubi Azərbaycanda Urmiya gölü hövzəsidir. Arxeoloji qazıntılar nəticəsində bu bölgədə Paleometal dövrünə aid çoxsaylı nadir abidələr aşkar edilmişdir. Onların tədqiqi İngilis arxeoloqlarının adları ilə əlaqələndirilir. Arxeoloji qazıntılar zamanı ərazidə erkən əkinçiliklə əlaqəli maraqlı və elmi əhəmiyyətli tapıntılar aşkar edilmişdir. Urmiya hövzəsindəki çoxtəbəqəli abidələr arasında Göytəpə, Həsənlıtəpə, Firuztəpə, Yanıttəpə və Neolitik dövrlər və digər abidələr xüsusilə maraqlıdır. Arxeoloji qazıntılar bu abidələrin erkən əkinçiliyin, xüsusən Kür-Araz mədəniyyətinin və daha əvvəlki Eneolitin ardıcıl mərhələlərini əks etdirən zəngin təbəqələrini aşkar etmişdir. Tədqiqatlar bu ərazilərdən alınan maddi mədəniyyət nümunələrinin Şimali Mesopotamiyanın müasir mədəniyyətləri sistemi ilə sıx əlaqəli olduğunu göstərdi.*

*Açar sözlər*: abidə, təbəqə, göl, yaşayış yeri, tunc dövrü, qəbir abidəsi, mədəniyyət.

*Giriş.* Azərbaycan ərazisi çoxtəbəqəli abidələrlə zəngindir. Onların maraqlı bir hissəsi Cənubi Azərbaycanın payına düşən Urmiyagölü hövzəsində cəmlənmişdir. Maraqlıdır ki, bu abidələr Tunc dövrünün ardıcıl inkişaf mərhələlərini əhatə edən çoxtəbəqəli abidələrdir. Onların içərisində öz elmi dəyərinə görə Göytəpə və Həsənlitəpə qədim yaşayış yerləridir. Bu abidələrə maraq ötən əsrin 30-cu illərində başlansa da əsaslı tədqiqi müharibədən sonrakı illərlə bağlıdır. Göytəpə abidəsinin tədqiqi 1948-ci ildə tanınmış ingilis arxeoloqu T.Burton-Braun tərəfindən başlanmışdır. Axeoloji qazıntılarla abidədə ilkin Tunc dövrünün bütün tarixi mərhələləri izlənilmişdir.

***

Tarixi Azərbaycan ərazilərində çox maraqlı və eyni zamanda yüksək elmi dəyərli çoxtəbəqəli abidələrin mükəmməl bir qrupu Urmiya gölü hövzəsində cəmlənmisdir. Özünəməxsus özəllikləri ilə Urmiya Cənubi Azərbaycanın payına düşən göldür.

Bütöv Azərbaycan ərazisi, onun hər bir yeri, təbiətinin zənginliyi təbii ehtiyatlarının tükənməzliyi - yeraltı sərvətlərini, rəngarəngliyi, torpaqlarının məhsuldarlığı ilə seçilir. Qarlı, zirvəli dağlar, üfüqlərə qədər uzanan düzlər, bol sulu çaylar və göllər, sıx yaşıl meşəliklər, sərin yaylaqlar onun əbədi yaraşığıdır. Cənubi Azərbaycan bunların heç birindən məhrum deyildir. Onun əlverişli torpaq iqlim şəraiti minilliklər boyu qədim sakinlərin yaşayışı üçün yararlı olmuşdur. Dağ silsilələri öz gözəlliyi ilə yanaşı, əlçatmazlığı ilə onları yadellilərdən qorumuşdur. Cənubi Azərbaycanın çoxsaylı dağ silsilələri içərisində ən hündür zirvəsi 4820 m-ə çatan Savalan dağ silsiləsi xüsusi yer tutmuşdur. Cənubi Qafqaz silsiləsinin davamı olan Savalan silsiləsinin tutduğu ərazi Arazın dərin və elli yatağını təşkil etmişdir.

Ondan bir qədər cənubda yerləşən Səhənd dağ silsiləsi sanki onun üzvi hissəsi kimi Urmiya gölünə kimi uzanmış və onun sonu görünməyən təpələrlə əhatə etmişdir.

Bununla əlaqədar, Urmiya gölü dağ gölü hesab olunur. Ayrılıqda Urmiya gölü 1275 m. hündürlüyündə yerləşən axarsız göldür. Ona çoxlu sayda şirin sulu çaylar tökülsə də, suyu sordur və təsərrüfat əhəmiyyəti daşımır. Bununla əlaqədar, gölün ətrafında geniş sahəli şoranlıqlar mövcuddur. Bütün bunlara baxmayaraq, Urmiya gölü hövzəsində qədim dövrlərin izlərini saxlayan çoxlu abidələr üzə çıxarılmışdır.

Onların əksəriyyəti Urmiya gölü hövzəsinin payına düşın düzənliklərlə qeydə alınmışdır. Belə düzənliklərdən biri Solduz düzüdür. Solduz düzü Urmiya gölünə tökülən Qodar çayın şərq hissəsini tutur. Düzün şimal hissəsi o qədər də hündür olmayan təpələr silsiləsi ilə sərhədlənmişdir. Düz sonu görünməyən təpələrlə əhatə etmişdir. Bununla əlaqədar, Urmiya gölü dağ gölü hesab olunur. Urmiya gölü 1275 m. hündürlüyündə axarsız göldür. Ona çoxlu sayda şirin sular tökülsə də, suyu şordur və təsərrüfat əhəmiyyəti daşımır. Gölün ətrafında geniş sahəli şoranlıqlar mövcuddur. Bütün bunlara baxmayaraq, Urmiya gölü hövzəsində qədim dövrlərin izlərini saxlayan çoxlu qədim abidələr üzə çıxarılmışdır. Onların əksəriyyəti Urmiya hövzəsini əhatə edən düzənliklərdə qeydə alınmışdır. Belə düzənliklərdən biri Solduz düzüdür. Solduz düzü Urmiya gölünə tökülən Qodar çayin şərq hissəsini tutur. Düzün şimal hissəsi o qədər də hündür olmayan təpələr silsiləsi ilə sərhədlənmişdir. Düz cənub tərəfdən İran Kürdüstanının dağlıq əyalətləri ilə əhatə olunmuşdur. Onu qərb tərəfdən Zaqros dağ silsiləsi tutur. Zaqros silsiləsi eyni zamanda Solduz düzünü Mesopatamiya ərazisindən ayırır. Solduz düzünün tutduğu ərazi o qədər də kiçik deyildir. Onun uzunluğu şimaldan-cənuba 28 km, şərqdən-qərbə isə 26 km-dir.

Solduz düzünün böyük hissəsi hal-hazırda şoranlıqlardan ibarət olsa da, qədim dövrlərdə əkinçilik üçün çox yararlı olmuş və hətta yüksək əkinçilik mədəniyyətlərinin yarandığı yerlərdən olmuşdur. Güman etmək olar ki, belə vəziyyət keçən müddətdə təbiətdə baş verən dəyişikliklərlə bağlı olmuşdur. Solduz düzünün ən böyük abidəsi gölün qərb hissəsində yerləşən Göytəpə adlı qədim yaşayış yerinin qalığıdır. Arxeoloji qazıntılardan əvvəl Göytəpə hündürlüyü 24 m. olan nəhəng təpədən ibarət olmuşdur. Onun tutduğu sahə 25 hektara yaxındır (1, 3-13).

Göytəpə abidəsinin arxeoloji tədqiqi məşhur ingilis alimi T.Barton Braunun adı ilə bağlıdır. T.Barton Braun İkinci Dünya Müharibəsindən az sonra 1948-ci ildə Göytəpədə arxeoloji tədqiqatlara başlamış və qazıntı işləri üçün 8 sahə seçmişdir. O, ilboyu apardığı ardıcıl qazıntı işləri ilə Göytəpədə qalınlığı 22 m-ə çatan möhtəşəm mədəni təbəqə üzə çıxarmışdır. Həmin təbəqədə Neolit dövründən tutmuş Son Tunc dövrü və Dəmir dövrünün başlanğıcına aid zəngin laylar müəyyən ləşdirilmişdir. Onların içərisində Erkən Tunc dövrünə və yaxud Kür-Araz mədəniyyətinə - Erkən Tunc dövrünə aid təbəqə möhtəşəmliyi ilə seçilmiş və 7 m-ə qədər qalınlıqda olmuşdur (2, 25-30).

Tədqiqatçı qeyd olunan dövrün mədəni təbəqəsini "K" işarəsi ilə nişanlamışdır. O, bu təbəqənin 3 inkişaf mərhələsini müəyyən etmiş, onları arıdıcıl şəkildə "K-1", "K-2" və "K-3" ilə qeyd etmişdir (3, 25-28). Həmin təbəqədə ümumilikdə çiy kərpiclərdən tikinti qalıqları, qədim əkinçiliklə bağlı əmək alətləri və çoxlu sayda gil məmulatı üzə çıxarmışdır. Hal-hazırda Göytəpənin bu təbəqəsi Naxçıvan ərazisindəki I Kültəpə abidəsinin ikinci təbəqəsi ilə müqayisə edilmişdir (4). Diqqətə çatdırmalıyıq ki, tarixi Azərbaycan ərazisində Kür-Araz mədəniyyətinə aid onlarca məişət-təsərrüfat abidələri müəyyən edilmişdir. Nümunə üçün Mingəçevirdə açılmış qədim yaşayış yerini, Babadərviş abidəsini, Quruçay və Köndələnçay hövzəsindəki qədim yaşayış yerlərini, eləcə də Naxçıvanın digər abidələrini də göstərə bilərik (5).

Göytəpə Kür-Araz mədəniyyətinə aid mədəni təbəqədən altda daha qədim dövrə, ilkin əkinçilik mədəniyyətinə aid təbəqə də üzə çıxarmışdır. Bu təbəqəni ingilis tədqiqatçısı "M" hərfi ilə işarələnmişdir. "M" təbəqəsindən üç ədəd ən qədim metal məmulatı da tapılmışdır. Əldə edlən qədim maddi-mədəniyyət nümunələrinin əksəriyyəti gil məmulatı ilə təmsil olunmuşdur. Bu təbəqədən eyni zamanda Azərbaycanın Naxçıvandakı I Kültəpə, Əliköməktəpə və Mil düzündəki Kamiltəpə, Nərgiztəpə, Şahtəpə abidələrində təsadüf olunan boyalı qab nümunələri də tapılmışdır (6, 3-12). O qədər də qalın olmayan mədəni təbəqədə bitki qalığı olan əldə hazırlanmış ibtidai qab nümunələri üzə çıxarılmışdır. Sonralar bu təbəqələrin tapıntıları, xüsusən, gil məmulatı 1 Kültəpənin alt təbəqəsi ilə tutuşdurulmuşdur. Qeyd etməliyik ki, Göytəpənin adı çəkilən mədəni təbəqədən altda daha qədim dövrü, T.Barton Braunun fikrincə, Neolit dövrünün qalıqları da aşkar olunmuş və alim onları "N" işarəsi ilə qeydə almışdır.

Arxeoloji qazıntılarla Göytəpə abidəsində Qaraköpəktəpədə olduğu kimi, Orta Tunc dövrünə aid zəngin mədəni təbəqə aşkar olunmuşdur. İngilis alimi həmin təbəqənin özündə də Orta Tunc dövrünün ardıcıl mərhələlərini əhatə edən qatları da müəyyənləşdirmişdir. Bu qatlardan üstdə olan mədəni təbəqələr Tunc dövrünün sonrakı inkişaf mərhələlərini əhatə etmiş və tədqiqatçı tərəfindən onları aşağıdakı hərflərlə işarələmişdir (7, 3-20).

Diqqətə çatdırmalıyıq ki, Göytəpə abidəsində Tunc dövrünün ayrı-ayrı mərhələlərinə aid daş qutu və torpaq qəbirləri də üzə çıxarılmışdır. Onların hər biri müəyyən avadanlıqla təchiz olunmuşdur (8).

Orta Tunc dövrünü tədqiqatçı "D" işarəsi ilə qeydə almışdır. Məlumdur ki, Göytəpə abidəsində Son Tunc dövrünə aid də zəngin mədəni təbəqə aşkarlanmışdır. T.Barton Braun həmin təbəqəni "B" hərfi ilə işarələmiş və onun bütün artefaktlarının geniş təsvirini vermişdir. Ümumilikdə, alimin tədqiq etdiyi abidənin dərin təhlili onun 1951-ci ildə nəşr etdirdiyi "Exhavation in Azerbaijan 1948" kitabında vermişdir (9, 7-22).

Həsənlitəpə arxeoloji kompleksi. Cənubi Azərbaycanda arxeoloji cəhətdən tam öyrənilmiş abidələrdən biri də Həsənlitəpə kompleksidir. Onun yerləşdiyi ərazi Urmiya hövzəsinin cənub-şərq hissəsini əhatə edir. Arxeoloji qazıntılara qədər Həsənlitəpə 25 ha-dan artıq geniş sahəli hündür təpədən ibarət olmuşdur. Hündürlüyü isə 30 m-ə çatmışdır (10, 28-32). Qaraköpəktəpə abidəsi kimi, Həsənlitəpə də öz möhtəşəmliyi ilə həmişə diqqət mərkəzində olmuşdur. 1934-cü ildə təpədə (kommersiya xüsusiyyətli) axtarışlar aparılmışdır. 1935-1936-cı illərdə isə Qərb arxeoloqlarından olan A.Steyn Həsənlitəpədə kəşfiyyat axtarışlarına başlamış və qazıntılar nəticəsində bir neçə qəbir müəyyən etmişdir. Həmin qəbirlər e.ə. I minilliyə aid edilmişdir. Çox keçmədən təpədə yerli mütəxəssislərdən olan M.Rada və A.Hakimi qazıntılara başlamışdılar. Onların axtarışları nəticəsində maraqlı arxeoloji materiallar üzə çıxarılmışdır. Təpədə aşkar olunan maraqlı tapıntılardan biri skiflərə məxsus sərdabə İranın arxeologiyası üçün nadir arxeoloji kəşf olmuşdur. Orada 4 atla birlikdə dəfn olunmuş skif sərdabəsinin skeletləri üzə çıxarılmışdır. Həsənlitəpə abidəsinin sonrakı qazıntıları 1951-ci ildə başlamış və ayrı-ayrı fasilələrlə 1975-ci ilə qədər davam etmişdir. Bu qazıntılar ABŞ Pensilvaniya Universitetinin Muzeyi və Metropoliten Muzeyinin başçılığı ilə aparılmışdır (11).

Aparılan qazıntılarla Həsənlitəpə Neolitdən Dəmir dövrünədək uzun bir dövr əhatə olunmuşdur. Üzə çıxarılan təbəqənin qalınlığı 27 m-ə yaxın olmuşdur. Nəzərə çatdırmaq lazımdır ki, Həsənlitəpə tədqiqatları üçün tanınmış Amerika arxeoloq-alimi Robert Dayson tərəfindən xüsusi proqram hazırlanmışdır. İstedadlı alim R.Dayson qazıntılar zamanı əldə edilən zəngin gil məmulatına və digər tapıntılara, eləcə də müqayisəli materiallara əsaslanaraq, Həsənlitəpə abidəsində müəyyən edilən qalın mədəni təbəqəni xronoloji arıdıcıllıqla aşağıda qeyd olunan tarixi mərhələlərə bölmüşdür:

1. Həsənli - X. E.ə. VI minilliyə - Neolit dövrünə aid edilmişdir. Bu dövr Urmiya hövzəsinin və Solduz düzünün payına düşən Firuztəpə abidəsində daha mükəmməl təmsil olunduğundan, R.Daysonun Həsənlitəpə ilə bağlı müşahidə və nəticələri Firuztəpənin göstəricilərinə əsaslanmışdır. Qazıntılar zamanı birinci təbəqədə bir neçə qəbir də üzə çıxarılmışdır. Maraqlıdır ki, skeletlərin üzərində oxra izləri olmuşdur. Qeyd edək ki, eyni vəziyyətdə Naxçıvan ərazisindəki I Kültəpə abidəsində də izlənilmişdir. Üst təbəqədə üzə çıxarılan tapıntılar içərisində xırdabuynuzlu heyvan və it sümükləri, kiçik ölçülü qadın fiquru, üzərində həndəsi naxışlar olan ibtidai qab qırıqları da olmuşdur.

2. Həsənli - IX. Bu xronoloji qat e.ə. V minilliyə aid edilmişdir. Təbəqədə yuxarı təbəqə ilə bağlılıq nəzərə çarpmışdır. Həsənlitəpənin bu dövrə aid etalon abidəsi Solduz düzündə yerləşən Dəlmətəpə qədim yaşayış yeri hesab olunur. Bu təbəqədə aşkar olunan tikintilər məişət və təsərrüfatla bağlı olmuşdur. Yaşayış evlərinin içərisində xüsusi ocaq yeri nəzərə çarpmışdır. Əldə edilən gil məmulatı əsasən cam formalı olmuşdur. Onların gilinin tərkibində bitki izlərinə rast gəlinir. əldə edilən gil qabların səthi bəsit həndəsi naxışlarla bəzədilmişdir.

3. Həsənli - VIII. Bu mərhələ e.ə. IV minilliyə aid edilmişdir. Bu təbəqədə memarlıq və dəfn mərasimi haqqında məlumatlar zəif təmsil olunmuşdur. Əldə edilən məmulatın gili qırmızımtıl və sarı-yaşıldır. Qabların formasında müəyyən dəyişikliklər izlənilir. Bəzəklər nisbətən mürəkkəb formadadır. Aşkar olunan tapılmış özüllərə əsaslanmışdır. Tikintilərin içində iri ölçülü gil ocaqlara təsadüf edilmişdir.

Həsənlitəpə abidəsinin öyrənilməsində tanınmış ingilis arxeoloqu R.Daysonun xidməti xüsusilə böyükdür.

*Nəticə.* Hal-hazırda Göytəpə elmi aləmdə Erkən Tunc dövrünə aid ən dəyərli abidələrdən biri hesab olunur. Eyni sözləri Urmiya hövzəsinin payına düşən Həsənlitəpə abidəsi haqqında da demək olar. Arxeoloji tədqiqatlarla Həsənlitəpə abidəsində Erkən Tunc dövrünə aid mükəmməl mədəni təbəqə aşkar edilmişdir ki, bu təbəqə nəinki Erkən Tunc dövrünün müvafiq mərhələsini, hətta Tunc

dövrünün bütün inkişaf mərhələlərini əhatə etməklə hazırda tarixi Azərbaycan ərazilərinin ən nadir abidələrindən biri hesab olunur.

ƏDƏBİYYAT

1.Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, Элм, 1987, 260 s.
2.Иессен А.А. Кавказ и Древний Восток. В 4-3 тыс. до нашей эры. КСИИМК, Москва, 1963, вып.93, с.25-30.
3.Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва, Наука, 1975, 415 с.
4. Burton-Brown T. Expedition in Azerbaijan 1948, London, 1955, 123 s.
5. Абибуллаев О.А. Энеолит и Бронза на территории Нахчывана АССР. 1976, Баку, Элм, 1982, 314 s.
6.Казиев С.М. Древний Мингечаур. Баку, Элм, 1952, 232 с.
7.Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, Элм, 2008, 280 с.
8.Aşurov S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, AMEA nəşriyyatı, 2002, 157 s.
9. Həbibullayev O.A. Kültəpədə arxeoloji qazıntılar. Bakı, Elm, 1959, 184 s.
10. İsmayılzadə Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, AMEA nəşriyyatı, 1981,184 s.
11. İsmayılzadə Q.S. Meynətəpə abidəsi və ilk Tunc dövrü abidələrinin bəzi xüsusiyyətləri // AE Xəbərləri. Bakı, 1976, No 3,s.28-36.
12.Barney C.A. Excavation at Yanıktepe. North West İran // İran, vol.XXIII, 1961 p.138-153.
13.Dyson J., Robert H. Hasanli 1972 from Proceedings of the 1 st Annual / Sympozium of Archaeological Research in Iran/ Bastan Museum. Tehran, 1971, p.1-29.
14. Dyson J., Robert H. Problems of Protohhistoric Iran az seen from Hasanli //| Journal of Near Eastern Studies, vol. 24, no 3, Erich F. Sehmidt, Memorial Issue Part One/ 1965, p.193-217.

**ГУДРАТ ИСМАИЛЗАДЕ**
*Профессор Бакинского Государственного Университета*
**ГЮЛЬНАЗ АБДУЛЛАЕВА**
*Бакинский Государственный Университет*
**СЕВИЛЬ ГЕЙДАРОВА**
*Д.ф.и.н., Бакинский Государственный Университет*
**ПАРВИН АЛИЗАДЕ**
*Бакинский Государственный Университет*

## МНОГОСЛОЙНЫЕ ПОСЕЛЕНИЯ БАССЕЙНА ОЗЕРИ УРМИЯ, ИХ ОСОБЕННОСТИ И СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

Одним из богатых историческими многослойными памятниками мест исторических земель Азербайджана является бассейн озера Урмия в Южном Азербайджана. Археологические раскопки выявили в этом регионе редкие многослойные памятники палеометаллического периода. Их применение связано с именами английских археологов. При археологических раскопках в памятнике были обнаружены интересные и научно значимые находки, связанные с ранним земледелием. Среди многослойных памятников бассейна Урмии особенно интересны Гойтепе, Гасанлытепе, Фирузтепе, Янигтепе и периоды Неолита и другие памятники. Археологические раскопки выявили богатые пласты этих памятников, которые отражают последовательные этапы раннего земледелия, особенно Куро-Аразской культуры и более ранние Энеолита. Исследования показали, что образцы материальной культуры, полученные их этих памятников, тесно связаны с системой современных культур Северной Месопотамии.

*Ключевые слова*: памятник, слой, озеро, поселение, бронзовый век, погребальный памятник, культура.

**GUDRAT ISMAILZADEH**
*Professor of Baku State Universitety*
**GULNAZ ABDULLAYEVA**
*Baku State Universitety*
**SEVIL HEYDAROVA**
*PhD, Baku State Universitety*
**PARVIN ALIZADEH**
*Baku State Universitety*

## MULTI-LAYER SETTLEMENTS OF THE URMIA LAKE BASIN, THEIR FEATURES AND COMPARATIVE ANALYSIS

One of the rich historical multi-layered monuments of places in the historical lands of Azerbaijan is the basin of lake Urmia in southern Azerbaijan. Archaeological excavations have revealed rare multilayered monuments of the paleometallic period in this region. Their use is associated with the names of English archaeologists. During archaeological excavations, interesting and scientifically significant findings related to early agriculture were discovered at the site. Among the multilayered monuments of the lake Urmia basin, Goytepe, Hasanlitepe, Firuztepe, Yanigtepe and other monuments are especially interesting. Archaeological excavations have revealed rich layers if these monuments, which reflect the successive stages of early agriculture, especially the Kur-Araz culture and earlier - The Neolithic and Neolithic periods. Studies have shown that the samples of material culture obtained from these sites are closely related to the system of modern cultures of Northern Mesopotamia.

*Keywords*: monument, layer, lake, settlement, Bronze Age, funerary monument, culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Əmrah Dadaşov, t.e.d. Qabil Əliyev.*

**UOT 902**

**ƏMRAH DADAŞOV**
*Tarix elmləri doktoru,*
*Bakı Dövlət Universitetinin proessoru*
**s_heydarova@mail.ru**

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ ORTA TUNC DÖVRÜNÜN TƏSƏRRÜFAT-MƏİŞƏT KOMPLEKSLƏRİ

*Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət*
*sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq,*
*özünəməxsus mədəni-mənəvi irs yaratmışdır*

HEYDƏR ƏLİYEV

*Azərbaycan ərazisində Üzərliktəpə, I və II Kültəpə və Qaraköpəktəpədə aparılmış geniş arxeoloji tədqiqatlar yaşayış yerlərinin xüsusiyyətlərini öyrənməyə imkan vermişdir. Abidələrdə tapılan zəngin arxeoloji tapıntılar və maddi mədəniyyət nümunələri Azərbaycan ərazisində orta Tunc dövrünə aid yaşayış yerlərinin əkinçilik və maldarlıq xarakteri haqqında tam təsəvvür əldə etməyə kömək edir. Aşkar olunan tikinti təbəqələrində oraq dişləri, dən daşı, həvəngdəstə, bıçaq, ev heyvanlarının sümükləri və gil qablar əkinçilik və maldarlığın inkişafına dəlalət edir. Bundan başqa Xanlar rayonunda 1 və 2-ci yaşayış yerləri, Mingəçevir, Sarıtəpə, Alazan, Zərgərtəpə, Şəkərcik qədim yaşayış yerlərində də Orta Tunc dövrünü xarakterizə edən nümunələr aşkarlanmışdır ki, bunlar da qədim məskənlərdə təsərrüfat-məişət həyatının olmasını sübut edir.*

*Açar sözlər*: Azərbaycan, Cənubi Qafqaz, əkinçilik, maldarlıq, təsərrüfat kompleksləri, məişət.

*Giriş.* Eramızdan əvvəl III minilliyin ikinci yarısı – II minilliyin birinci yarısını əhatə edən Orta Tunc dövrü Cənubi Qafqazın şərq hissəsinin, o cümlədən Azərbaycanın istehsal edən iqtisadiyyatının inkişafında yeni mərhələ olmuşdur. Şum sisteminin əkinçilik təsərrüfatına geniş tətbiqi, yüksək dağlıq zonaların otlaq kimi mənimsənilməsi və aparıcı kustar sənayesində köklü irəliləyişlər bu dövrdə mədəniyyət - təsərrüfat sahəsində yüksəliş üçün zəmin olmuşdur. Mövcud məskənlərin funksiyalarının genişlənməsi və onların istehsal edən iqtisadiyyatın, ixtisaslaşmış kustar sənaye sahələri və mədəni-iqtisadi əlaqələrin iri mərkəzlərinə çevrilməsi məhz həmin dövr üçün səciyyəvidir.

*Əsas hissə.* Azərbaycan ərazisində orta Tunc dövrünə mənsub obyektlər nisbətən zəif tədqiq olunmuşdur. Geniş arxeoloji qazıntılar aparılmış yeganə məişət abidələrindən Üzərliktəpə, Qaraköpəktəpə və II Kültəpəni göstərmək olar.

Üzərliktəpə qədim yaşayış yeri. Cənubi Qafqaz ərazisində ən iri və müfəssəl öyrənilmiş məskəndir. 1954-cü ildə kəşf olunub. K.X.Kuşnareva tərəfindən tədqiqat işləri aparılıb [1].

Qədim insanların məskunlaşdığı bu ərazi Mil-Qarabağ düzü abidələri sırasına daxildir və Ağdam şəhərinin yaxınlığında yerləşir. Bu qeyri-düzgün olduqca yayğın görünüşü təpədir. Ölçüləri şimaldan-cənuba - 202 m., qərbdən-şərqə - 196 m. Orta hündürlük 10 metrə yaxındır. Cənub-qərb tərəfdə təpə bir qədər irəli çıxaraq geniş çıxıntılar yaradır. Zirvəsi çox yastıdır. 1954-1956-cı illərdə aparılmış arxeoloji qazıntılar zamanı 3 metr qalınlığında mədəni təbəqə aşkar edilmişdir. Heç bir halda sterli qatlarla arası kəsilmir. Bu da kənddə fasiləsiz həyatın uzun müddət davam etməsindən xəbər veriri. Üzərliktəpənin əsas təbəqəsində müdafiə divarının bir hissəsi və çiy kərpicdən hörülmüş digər tikinti qalıqları aşkar edilmişdir. Ocaq yerləri də tapılmışdır. Maraqlıdır ki, əksər tapıntılar əkinçilik alətlərindən ibarətdir: oraq dişləri, yığma oraqlar, sürtgəc, dən daşı, həvəngdəstə və s. Dişlər birtərəfli və ikitərəflidir.Müəyyən edilmişdir ki, tədqiqat obyekti olan qədim insan məskəninin təsərrüfat əsasını əkinçilik və maldarlıq təşkil edirdi [2, s.407]. Əkinçilik, göstərilən alətlərlə yanaşı, ayrı-ayrı mənzillərin döşənməsində kömürlənmiş və eləcə də gil qablarda tapılmış dənli bitkilərlə əsaslandırılır. Burada müxtəlif növ buğda və qılçıqsız arpa toxumları, habelə paxlalı bitkilər, yağlı bitkilərin, üzümün mədəni növlərinin tumları tapılmışdır.

Kəndin maldarlıq təsərrüfatı, ilk növbədə ev heyvanlarının, o cümlədən öküz, keçi, qoyun, at, donuzların böyük miqdarda tapılmış sümükləri ilə əsaslandırılır. A.A.İessenin fikrincə, Üzərliktəpənin əhəmiyyəti ondan ibarətdir ki, davamlı möhkəmləndirilmiş qəsəbələrdə əkinçilik və maldarlıqla məşğul olan əhalinin məskunlaşma faktı müəyyən edilmişdir [3, s.67].

I Kültəpə qədim yaşayış yeri. Əsas etibarilə orta Tunc dövrünə aid edilən üçüncü mədəni təbəqənin aşağı qatları ilə təmsil olunur [4, s.83-89]. Orta hesabla 2 metr qalınlığındadır. Üst qatlar daha gec Tunc dövrünə mənsubdur. Təəssüflə qeyd etmək lazımdır ki, həmin təbəqə çox məhdud sahədə qorunub saxlanmışdır və bu səbəbdən tikinti qalıqları çox az tapılmışdır. Daha dəqiq desək, cəmi bir tikili. Onun əsasında isə tikilinin xarakterini müəyyənləşdirmək olduqca çətindir. O, daş plitələrlə döşənmiş kiçik tikilinin döşəmə qalıqları ilə təmsil olunur. Üçüncü təbəqədə tapıntılar çox cüzidir. Dulusçuluq məmulatları nisbətən çoxluq təşkil edir. Aşkar edilmiş bir hissəsi dən daşı, sürtgəc, həvəngdəstə, obsidiandan hazırlanmış tiyəşəkilli lövhələrdən ibarətdir. Sümük məmulatları da azdır. Bunlar nadir təsadüf olunan iy başlıqları, biz və qıyıqdann ibarətdir. Bununla belə, tapılmış osteoloji material Orta Tunc dövründə həmin yaşayış yeri sakinlərinin təsərrüfatında maldarlığın mühüm rol oynamasından xəbər verir [5, s.62].

II Kültəpə qədim yaşayış yeri. Naxçıvan şəhərindən 12 km. şimalda, Uzunoba və Didvar kəndləri yaxınlığında Cəhri və Naxçıvan çaylarının qovuşduğu yerdə yerləşir. Cəhriçayın hündür yaylasında qərarlaşıb. Yaşayış yerinin böyük hissəsini çay yumuşdur. Və nəticədə hündürlüyü 11 metrə çatan mədəni təbəqədə yarğan əmələ gəlmişdir. Qalın təbəqə bütünlükdə erkən Tunc dövründən tutmuş Dəmir dövrün başlanmasınadək böyük zaman kəsiyinə aid mədəni təbəqədən ibarətdir. Müəyyən edilmişdir ki, II Kültəpə bir vaxtlar 10 ha ərazini tuturdu, indi onun ərazisi 3 ha-dan artıq deyil. Cəhri çayı cənub-qərb tərəfdən kəndin lap yaxınlığından keçir. Şərq tərəfdən Naxçıvançay onu məhdudlaşdırır. Bu sahədə kəndin ərazisi kəskin şəkildə azalır və tədricən Naxçıvançayın məcrasına keçir. Şimal hissədə də bu, müşahidə olunur, azalma düzəngaha keçir. Kəndin əsas hissəsinin səthi düzəngahdır. Yalnız şimal-şərq hissəsi təpəlikdir. Burada çay daşından tikilmiş dairəvi müdafiə divarının qalıqları tapılmışdır. Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir ki, bu yaşayış yerində Orta Tunc dövrünün mədəni təbəqəsinin qalınlığı 5 metrə yaxındır və o, ümumi qalınlığı 7 metrədək olan erkən Tunc dövrü mədəniyyətinin laylarının üzərinə yatan dolğun mədəni təbəqə ilə təmsil olunub. Üst təbəqə son Tunc və ilk Dəmir dövrünə aiddir. Güclü dağıntılar nəticəsində cüzi qalınlıqda saxlanılmışdır [6, s.180].

II Kültəpənin Orta Tunc dövrünə mənsub təbəqəsində əsas etibarilə müdafiə divarlarının qalıqları və bir sıra təsərrüfat-məişət və istehsal tikililərinin qalıqları olan dörd tikinti təbəqəsi müəyyən edilmişdir. Əkinçilik alətləri, əsasən, oraq dişləri, dən daşı, sürtgəc, həvəngdəstə və daş vəllə təmsil olunmuşdur. Daş məmulatlar arasında Naxçıvan ərazisi üçün səciyyəvi olan xeyli sayda gürz və s. alətlər vardır. Müəyyən edilmişdir ki, tədqiqat aparılan ərazidə təsərrüfatın aparıcı sahələrindən biri maldarlıq olmuşdur. Böyük miqdarda osteoloji material tapılmış qaramal və ələlxüsus da xırdabuynuzlu heyvanların sümükləri, at sümüyü bunu əyani şəkildə sübut edir [6, s.182].

Beləliklə, qədim II Kültəpə yaşayış məskəni Azərbaycan ərazisində mühüm əkinçilik-maldarlıq abidələrindən ibarətdir.

Qaraköpəktəpə qədim yaşayış yeri. Bu abidədə orta Tunc dövrü fasiləsiz olaraq alt qatların üzərinə lay-lay yatan dolğun mədəni təbəqə ilə təmsil olunub. Onun qalınlığı 3 metrdir [7, s.53]. Həmin yerə mənsub təbəqənin üst qatlarında uzunluğu 20 m. və eni 3 m. olan möhtəşəm müdafiə divarının qalıqları aşkar edilmişdir. Divar iri qaya parçaları və çay daşlarından hörülmüşdür. Aşağı təbəqələrdə daş özüllü çiy kərpicdən hörülmüş yaşayış evlərinin qalıqları, əkinçilik alətləri, zəngin gil qablar, bürünc, sümük, əqiqdən hazırlanmış ayrı-ayrı bəzək əşyaları, çaxmaq daşı və obsidiandan ox ucluqları tapılmışdır. Ev heyvanlarının çox sayda sümükləri aşkar edilmişdir.

Dulusçuluq materialları içərisində Üzərliktəpə tipli boz-qara cilalı qablar üstünlük təşkil edir. Qabların üzəri özünəməxsus əyri xətli, nöqtələr şəklində naxışla işlənilmişdir. Eyni zamanda, Naxçıvan ərazisinin Orta Tunc dövrü abidələri üçün səciyyəvi olan naxışlı keramika fraqmentlərinə də təsadüf edilir. Qeyd etmək lazımdır ki, Quruçay və Köndələnçay arasındakı yerdə Orta Tunc dövrünün maddi mədəniyyət izləri Qaraköpəktəpədən savayı bir sıra digər abidələrdə, o cümlədən Günəştəpə, Uzuntəpə, Şomulutəpə, Xantəpə (Füzuli rayonu) [8, s.51] qədim yaşayış yerlərində təsadüf edilir. Kəşfiyyat qazıntıları ilə ayrı-ayrı abidələrdə tikinti qalıqları və erkən Tunc dövrünə məxsus tapıntılarla zəngin erkən Tunc dövrünün möhtəşəm mədəni təbəqələrinin mövcudluğu müəyyən edilmişdir ki, bu da bütövlükdə, çayarasında tədqiq edilən dövrdə intensiv həyatdan xəbər verir.

Beləliklə, təsvir etdiyimiz qədim yaşayış yerlərinin xüsusiyyətləri və zəngin tapıntılar Azərbaycan ərazisində Orta Tunc dövrünə aid yaşayış yerlərinin əkinçilik-maldarlıq xarakteri haqqında tam təsəvvür əldə etməyə imkan verir.

Xanlar rayonunda yaşayış yeri 1 və 2 Y.İ.Qummel tərəfindən aşkar edilib öyrənilmişdir [10, s.19]. Hər ikinci münbit şabalıdı və açıq-şabalıdı torpaq örtüyünə malik Gəncəçay vadisində əkinçilik üçün əlverişli geniş terasda yerləşib. Yaşayış yeri I Gəncəçayın hündür sol sahilində 3 ha sahəni əhatə edir. Onun şərqində torpaq hasar qalıqları tapılmışdır ki, bu da cənubdan daş divarla davam etdirilmişdir. Qədim məskəndə icmalara məxsus böyük evlərin qalıqları tapılmışdır. Bunlar təbii daşlardan hörülmüş divarları olan yarımqazmalardır. Daxildən ayrı-ayrı otaqlara bölünürdü. Tapılmış əşyalar əsas etibarilə əkinçilik alətlərindən ibarətdir: daş toxa, dən daşı, oraq dişləri. Onlardan savayı ev heyvanları - öküz, at, qoyun, donuz sümükləri tapılmışdır. Bu əşyalar və heyvanat qalıqları yaşayış yeri 1-nin qədim sakinlərinin iqtisadiyyatında əkinçilik və maldarlığın mühüm əhəmiyyət kəsb etməsindən xəbər verir.

Yaşayış yeri 2 yuxarıda təsvir edilən qədim insan məskəninin yaxınlığında, Lülədi dərəsində yerləşir. Burada evlər düzbucaqlı planlı yarımqazmalarla təmsil olunmuşdur. Yaşayış yeri 1-in tikililərindən fərqli olaraq onların gil məhlulla suvanmış torpaq divarları var. Tapıntılar, əsasən əkinçilik alətlərindən ibarətdir ki, bunların da arasında daş toxalar üstünlük təşkil edir. Diqqəti cəlb edən məsələlərdən biri də budur ki, belə alətlərin sayı 40-ı ötür. Onlar yastı çay daşlarından hazırlanmışdır. Digər kateqoriyaya dən daşı və sürtgəclər aiddir. Yaşayış yerləri 1 və 2-nin yaxınlığında yerləşmiş 2 saylı kurqanda çox maraqlı tapıntı - daş dişləri olan vəl aşkar edilmişdir [10, s.20]. Yaşayış yeri 1 və 2-də tapılmış daşların qalıqları şəklindən və materialından asılı olmayaraq onu göstərir ki, bu abidələr oturaq həyat tərzi ilə bağlıdır.

Mingəçevir qədim yaşayış yeri abidənin ikinci üst təbəqəsi ilə təmsil olunub və bu bilavasitə, erkən Tunc dövrünün son mərhələsinə mənsubdur.

Erkən Tunc dövrünün təbəqələrini örtən mədəni təbəqədə yaşayış binaları ilə yanaşı, təsərrüfat və istehsal tikililəri də aşkar edilmişdir. Burada onlarca yaşayış məskəninin qalıqları tapılmışdır. Onlar da alt təbəqənin yaşayış tikililəri kimi, böyük bir sahəni əhatə edir, yarımqazma şəklindədir, uzunsov dördbucaqlı planlıdır. Ən kiçik yaşayış sahəsi 16 kv.m., ən böyüyünün isə 51 kv.m.-dir. Bunun bu tikililərin divarları saman qarşıq gillə suvanmışdır. Bir sıra hallarda divarların örtüyü qamış və ya çör-çöplə suvanmışdır. Divar boyu qazıntılar zamanı hörülmüş üst örtüyə dayaq kimi basdırılmış sütun izləri aşkar edilmişdir. Evlərdə ocaqlar tapılmış, müxtəlif yardımçı tikililər qeydə alınmışdır.

Burada taxıl ehtiyatı saxlamaq üçün təyin olunmuş təsərrüfat anbarları (quyular) üzə çıxarılmışdır. İkinci mədəni təbəqədə böyük təsərrüfat küpləri, habelə dulusçuluq sobası tapılmışdır ki, bu da əhalinin oturaq həyat tərzinə tutarlı sübutdur. Bütün əldə edilmiş məlumatlar bir daha onu təsdiq edir ki, Mingəçevirdə qədim yaşayış yeri uzun müddət daimi yaşayış məskəni kimi fəaliyyət göstərmişdir.

Sarıtəpə qədim yaşayış yeri. Qazax rayonunda Ağstafaçayın sol sahilində yerləşir. İ.Q.Nərimanov və C.A.Xəlilov tərəfindən kəşf olunub tədqiq edilmişdir [11, s.223-224]. Qazıntılara qədər diametri 100 m, hündürlüyü 10 metrdən artıq güclü uçuntuya məruz qalmış təpə idi.

Qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, son Tunc və ilk Dəmir dövrünə aid, həmçinin e.ə. VII-VI əsrlər əhəmənilər dövrünə aid mədəni təbəqələrin qalınlığı 3,5 m. təşkil edir. Hər iki mədəni təbəqədə tikinti qalıqları və maddi mədəniyyətin müxtəlif nümunələrinə rast gəlinir.

Son Tunc dövrü və ilk Dəmir dövrü təbəqəsində çay daşları və şüvüldən tikilmiş, gillə suvanmış məişət, təsərrüfat, dini ayin tikililərinin qalıqları, təsərrüfat anbararı (quyular) aşkar edilmişdir. Bu qədim məskəndən, həmçinin çoxsaylı iri təsərrüfat küpləri və taxıl anbarları taplıb üzə çıxarılmışdır. Əkinçiliklə bağlı tapıntılar dən daşı, çaxmaqdaşından qayrılmış oraq dişləri, toxa və digər alətlərdən ibarətdir.

Tapıntılar əsasında güman etmək olar ki, Sarıtəpə son Tunc və ilk Dəmir dövründə əkinçi-maldar tayfaların məskəni kimi fəaliyyət göstərmişdir.

Baba Dərviş qədim yaşayış yeri. Eyniadlı təbii sərhəddə yerləşib və üçüncü, dördüncü, beşinci təpələrin üst hissəsini tutur. Bunlardan üçüncü və dördüncü məskənlər tam tədqiq olunub.

Üçüncü təpənin sahəsi 0,25 ha, hündürlüyü 2,5 m.-dir. Divarı planlı formaya malikdir. Qazıntı nəticəsində müəyyən edilmişdir ki, təpədə qeyd edilən dövrə aid 1,5 m. qalınlığında mədəni təbəqə vardır. Burada düzbucaqlı planlı dini ayin təyinatlı tikili, mürəkkəb strukturlu ocaq qalıqları, 32 təsərrüfat quyusu kəşf edilmiş və çoxsaylı maddi mədəniyyət qalıqları tapılmışdır.

Tapıntıların böyük əksəriyyəti təsərrüfat əşyasından ibarətdir ki, bu da həmin yaşayış yeri sakinlərinin əkinçi həyat tərzini əks etdirir. Belə tapıntılara aiddir: daş toxalar, dən daşı, taxıl saxlamaq üçün böyük küplər [13, s.87-89]. Dördüncü təpədə yerləşən yaşayış məskəni cənub-qərbə doğru 30 m. məsafədə yerləşir. O, özüldən dairəvi, üst konturlarına görə isə dördbucaqlıdır. Təpənin hündürlüyü 7 m., mədəni təbəqənin qalınlığı 1 metrdir. Burada 11 təsərrüfat quyusu və çay daşından hörülmüş divarın qalıqları aşkar edilmişdir. Maddi mədəniyyət nümunələri müxtəlif formalı gil qablarla təmsil olunub. Əmək alətləri: daş toxa, dən daşı və oraq dişləri.

Böyük miqdarda tapılmış sümük materialı əsas etibarilə ev heyvanlarına mənsubdur və bununla da tədqiq olunan abidəni əkinçilik alətləri ilə birlikdə Azərbaycan ərazisində son Tunc və ilk Dəmir dövrünün oturaq əkinçilik yaşayış yerləri ilə bir sırada qoyur.

Alazan qədim yaşayış yeri. Öz xarakterinə görə tapıntı yuxarıda adları çəkilən abidələrlə eynilik təşkil edir. Azərbaycanın Qax rayonunda, Alazan düzənliyinin qərb hissəsində, Ağrıçayın sol sahilində yerləşir [14, s.85-86]. Müəyyən edilmişdir ki, bir vaxtlar həmin məskən yaxınlıqda yerləşən iki geniş təpəni əhatə edirdi. Düzənliyin özü Azərbaycanın əkinçilik üçün yararlı rayonlarından biridir. Onun Qərbdə sərhədi Alazan çayı, şimalda Ağrıçaydan keçir, cənub-şərqdə Böyük Qafqaz dağlarının ətəklərinə çatır. Bura mülayim iqlimli münbit düzənlikdir. Buna görədir ki, indinin özündə də onun böyük hissəsindən əkinçilik və maldarlıq üçün istifadə olunur. Qədimlərdə də bu ərazidə əsasını əkinçilik təşkil edirdi, buradakı məskənlər oturaq həyat tərzi keçirən tayfalara mənsub idi.

Arxeoloji qazıntılarla nəzərdən keçirdiyimiz abidədə qalınlığı 2 m. olan mədəni təbəqələrin mövcudluğu müəyyən edilmişdir. Bu onu göstərir ki, burada Tunc dövrünün son mərhələsində oturaq əhali məskunlaşmışdır. Həmin yaşayış yerindən qədim əkinçilik təsərrüfatı ilə bağlı müxtəlif alətlər tapılmışdır ki, onların da əksəriyyətini daş toxalar, oraq dişləri, dən daşı və digər tapıntılar təşkil edir.

Kültəpə qədim yaşayış yeri. Azərbaycan ərazisində Araz çayının sol sahilində yerləşən eyniadlı üçüncü qəsəbədir. Hazırda abidə 3 ha sahəni tutan böyük uzunsov təpədən ibarətdir [15, s. 65-67]. Digər məskənlərdən fərqli olaraq Kültəpə əkinçilik üçün yararlı münbit torpaqların mərkəzində yerləşir. Yerin topoqrafiyası təsdiq etməyə əsas verir ki, burada qədim dövrlərdən süni suvarmadan istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı təpənin üstündən və ətəklərindən qədim əkinçilik təsərrüfatının inkişafının bütün mərhələlərini əks etdirən əmək alətləri tapılmışdır. Onlara aiddir: oraq dişləri, dən daşları, daş toxa və s.

Zərgərtəpə qədim yaşayış yeri: Füzuli şəhərindən 2 km. şimal-qərbə doğru yerləşir [15, s.42-43]. 1 sahəni tutur. Yaşayış məskəninin ətrafında əkinçilik üçün geniş və yararlı sahə avrdır. Hazırda burada dəmyə əkinçiliyi təcrübədən keçirilir. Zərgərtəpə öz mövqeyinə görə Azərbaycanda son Tunc dövrünün digər yaşayış yerlərindən fərqlənir. Su mənbəyinin yaxınlığı, əlverişli torpaq və iqlim amilləri Tunc dövrünün bütün mərhələlərində oturaq məskənlərinin mövcudluğunun zəruri şərtləri olmuşdur. Zərgərtəpə və onun ətrafında elə ilk arxeoloji qazıntılar zamanı bütün amilləri faktlarla təsdiq olunmuşdur. Burada qədim əkinçilik təsərrüfatı ilə bağlı xeyli miqdarda əmək alə\ti tapılmış-dır. Onlar 70-dən çox daş toxa, habelə oraq dişi və dən daşının qırıqları ilə təmsil olunur. Toxaların əsas hissəsi həmin məskənin ətrafındakı müasir əkin yerlərindən tapılmışdır.

Şəkərcik qədim yaşayış yeri. Kiçik Qafqazın cənub-şərq ətəklərində maraqlı abidələrdən biridir. Dairəvi formalı kiçik təpədir. 1965-ci ildə qeydə alınmışdır. Füzuli şəhərinin yaxınlığında, ondan bir qədər şimal-şərqdə yerləşir [16, s.42-44]. Yaşayış məskəni üçün səciyyəvi olan əkinçilik alətləri bunlardır: iki çox da böyük olmayan daş toxa, çaxmaqdaşından dişlər və dən daşı. Bu tapıntılar Şəkərciyi oturaq əkinçi-maldar tayfaların məskəni kimi səciyyələndirir.

Üçtəpə qədim yaşayış yeri: Mil düzündə A.A.İessen tərəfindən təhdid olunmuş möhtəşəm və kifayət qədər maraqlı qədim insan məskənlərindən biridir [17, s.104-108]. O, eyniadlı təbii tərzdə Mil düzünün şimalında, Kərkərçaydan 4-6 km. cənubda yerləşir. Öz adını həmin yerin zahiri görkəmini müəyyənləşdirən üç böyük kurqandan götürmüşdür. Həmin yer dağətəyi tipli maili düzənlikdir. Üçtəpə yaşayış yerində qazıntılar 1957-1960-cı illərdə aparılmışdır. Məişət və təsərrüfat

tikililərinin qalıqları, böyük təsərrüfat quyuları, ocaq qalığı kəşf edilmişdir. Böyük miqdarda əşyalar üzə çıxarılmışdır. Üçtəpədən demək olar ki, şaquli formalı divarlara malik qazmalar tapılmışdır. Üç belə qazma aşkar edilib, onlar iki müxtəlif tiplidir. Bir və üç saylı qazma düzbucaqlı, iki saylı isə kvadrat formasındadır.

Qazıntılar zamanı hər üç qazmadan təsərrüfat –məişət qablarının qırıqları, manqallar, əmək alətləri, o cümlədən dən daşı, sürtgəc, oraq dişləri, biz, bıçaq, ox ucu və s. tapılmışdır. Güman edilir ki, becərilən sahələr yaşayış yerinin yaxınlığında yerləşirmiş.

*Nəticə.* Göründüyü kimi, tədqiq edilən qədim yaşayış yerləri Azərbaycan ərazisində əkinçilik mədəniyyətinin inkişafının bütün tarixi mərhələlərini əhatə edir. Bu məsələdə paleometal dövrünün böyük zaman kəsiyində dürüst məlumatlara malik çoxtəbəqəli yaşayış yerləri böyük elmi əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Кушнарева К.Х. Новые данные о поселении Узерликтепе около Агдама // МИА СССР, № 125, т.2. М.-Л., 1965, с.123-128.
2. Кушнарева К.Х. Раскопки на холме Узерликтепе около Агдамского КСИММК, вып.69, 1957, с.406-410.
3. Иессен А.А.Из исторического прошлого Мильско-Карабхской степи // МИА СССР, № 125, т.2., М-Л., 1965, s.65-73.
4. Абибуллаев О.А.Археологические раскопки в Кюльтепе. Баку, Издательство Академии наук Азербайджанской ССР, 1979, 126 с.
5. Алиев В.Г. Новый памятник эпохи бронзы в Нахичевани // Изд.АН Азерб. ССР, 1962, № 2, 135 с.
6. Абибуллаев О.А.Археологические раскопки в Кюльтепе. Баку, Издательство Академии наук Азербайджанской ССР, 1979, 220 с.
7. Исмаилов Г.С. Гаракепектепе – древний памятник материальной культуры Азербайджана. Баку, AMEA nəşriyyatı, 1987, 134 с.
8. Алиев В.Г., Исмаилов Г.С. Новые находки расписной керамики в междуречье Гуручай и Кенделанчай // Изд.АН Азерб. ССР, 1969, № 2, с.49-58.
9. Гуммель Я.И. Археологические очерки. Баку, Elm, 1940, 184 с.
10. Гуммель Я.И.Курган № 2 близ Ханлара. КСИИМК, вып.24, 1949, с.13-22.
11. Нариманов И.Г. Археологические раскопки на поселении холма Сарытепе // Изд.АН Азерб. ССР, 1959, № 2, с.41-48.
12. Алиев В.Г. Археологические раскопки в урочище Баба-Дервиш // СА, 1971, № 2, с.223-229.
13. Асланов Г.М., Исмаилов Г.С. Поселение эпохи поздней бронзы и освоения железа в долине р.Алазани // Изд.Азерб. ССР, 1973, № 3, с.87-95.
14. Исмаилов Г.С. Памятник Кюльтепе в Физулинском районе // АН Азерб. ССР, 1973, № 4, с.85-89.
15. Исмаилов Г.С. Древнее поселение Зергертепе и некоторые вопросы мотыжного земледелия в древнем Азербайджане // Изд.АН Азерб ССР, 1968, № 1, с.65-73.
16. Исмаилов Г.С. Древнее поселение Шекерджик // Ан Азерб. ССР, 1969, № 1, с.42-46.
17. Иессен А.А.Поселение Учтепе (1958-1960 гг.) // МИА ССР, № 125, т.2., М.-Л., 1965, с.104-127.

**АМРАХ ДАДАШЕВ**
*Доктор исторических наук,*
*Профессор Бакинского Государственного Университета*

## ХОЗЯЙСТВЕННЫЕ И БЫТОВЫЕ КОМПЛЕКСЫ СРЕДНЕБРОНЗОВОГО ПЕРИОДА НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

Обширные археологические исследования, проведенные в Узерликтепе, I и II Култепе и Гаракопектепе на территории Азербайджана, позволили изучить особенности поселений. Об-

наруженные в памятниках богатые археологические находки и образцы материальной культуры помогают составить полное представление о земледельческом и животноводческом характере поселений средневековья эпохи бронзы на территории Азербайджана. Зубы серпа, камень, раствор, ножи, кости домашних животных и глиняные горшки в обнаруженных слоях конструкции свидетельствуют о развитии земледелия и животноводства. Кроме того, в 1-м и 2-м поселениях Ханларского района, в древних поселениях Мингячевир, Саритапа, Алазань, Заргартепе, Шекержик были обнаружены образцы, характеризующие средний бронзовый век, что свидетельствует о существовании бытовой жизни в древних поселениях.

*Ключевые слова*: Азербайджан, Южный Кавказ, сельское хозяйство, животноводство, хозяйственные комплексы, домохозяйство.

**AMRAH DADASHOV**
*Professor of Baku State Universitety*

**ECONOMIC AND HOUSEHOLD COMPLEXES OF THE MIDDLE BRONZE PERIOD ON AZERBAIJAN TERRITORY**

Extensive archeological researches conducted in Uzerliktepe, I and II Kultepe and Garakopektepe in the territory of Azerbaijan made conveniences to study the features of the settlements. The rich archeological finds and material culture samples found in the monuments help to get a full picture of the agricultural and cattle-breeding character of the Middle Bronze Age settlements in the territory of Azerbaijan. Sickle teeth, grain stone, mortar, cattle breeding knives, pet bones and clay pots in the revealed constructed agriculture. In addition, samples characterizing the Middle Bronze Age were found in the 1st and 2nd settlements of Khanlar region, Mingachevir, Saritapa, Alazan, Zargartepe, Shekerjik ancient settlements, which prove the existence of household life in ancient settlements.

*Keywords*: Azerbaijan, South Caucasus, agriculture, cattle breeding, economic complexes, household.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 iyun 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Qüdrət İsmayılzadə, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 902**

**VÜSALƏ AXUNDOVA**
*Gəncə Dövlət Universitetinin*
*Azərbaycan tarixi kafedrasının doktorantı*
**v.axundova@uteca.edu.az**

# DAŞKƏSƏN RAYONUNUN ALBAN XRİSTİAN DİNİ ABİDƏLƏRİ

*Daşkəsən rayonu ərazisində zəngin alban xrsitian dini abidələri çoxluq təşkil edir. Rayonun Dəstəfur kəndində yerləşən monastırının uzunluğu 20 metr, eni isə 10 metrdir. Onun ətrafındakı tikili qalıqları isə monastır kompleksinə daxil olan yardımçı binalar və s. olmuşdur. Dəstəfur məbədi üçnefli bazilikanı xatırladır. Məbədin daxili üstü tağbəndli sütunlarla üç hissəyə bölünmüşdür. Məbədin üst hissəsi günbəz formasındadır. Məbəd çay daşı, yerli qara daşlardan və əhəng daşından istifadə edilməklə əhəng məhlulu qarışığı ilə tikilmişdir. Bayan kəndində yerləşən məbəd Çilçirəvənd və ya Çiçərvəng də adlandırılır. Məbədin ümumi sahəsi 500 kv. metrdir. Məbədin qalınlığı 1 metr olan divarları əvvəlki görkəmini saxlasa da, bəzi yerlərində dağılmalar müşahidə olunur. Məbəd divarlarının yanından əldə edilən arxeoloji materiallar və məbədin memarlıq quruluşu abidənin IV-V əsrlərdə tikildiyini göstərir. Məbəd beş salondan ibarətir. Salonlar arasındakı məsafə 3 metrdir. Böyük məbəddən 5 metr məsafədə kiçik məbəd yerləşir. Bu məbədin də hündürlüyü 7 metr, eni isə 6 metrdir. Dam örtüyü kirəmitlə döşənmişdir.*

*Daşkəsən bölgəsindəki qədim dini abidələrdən biri də Xaşbulaq kəndində yerləşən alban kilsəsidir. Bu məbəd də bölgədəki digər məbədlər kimi VII-VIII əsrlərə aid edilmişdir. Qabaqtəpə məbədi XV əsrdə inşa edilmişdir. Bu məbəd üçnefli düzbucaqlı formada inşa edilmiş bazilikadır. Bu məbədin uzunluğu 21,5 metr, eni isə 13,30 metrdir. Daşkəsən rayonunun Quşçu kədnində yerləşən qədim alban məbəddir. Məbəd Müqəddəs tərcüməçilər monastırı adlanır. Bu kilsənin 487-ci ildə inşa edilmiş, 989 və 1845-ci illərdə bərpa edilmişdir. Hal-hazırda kilsə yarıuçuq vəziyyətdədir.*

*Açar sözlər:* Daşkəsən rayonu, Çiçrəvəng məbədi, Dəstəfur bazilikası, Müqəddəs tərcüməçilər monastırı, Qabaqtəpə məbədi.

*Giriş.* Azərbaycanın tunc dövründən etibarən yaşayış məskənlərinin və zəngin abidələrinin olduğu bölgələrindən biri də Daşkəsən rayonudur. Daşkəsən rayonu ərazisində orta əsrlər dövrünə aid zəngin abidələr, o cümldən də dini abidələr mövcuddur. Bunlar ilk orta əsrlər dövründə burada əhalinin sıx məskunlaşmasından xəbər verir. Daşkəsən bölgəsindəki abidələrdən tunc və erkən dəmir dövrü abidələri, kurqanlar, o cümlədən də orta əsr abidələri tədqiq edilmişdir. Bölgənin müxtəlif dövrlərə aid zəngin abidələrinin tarixi-arxoloji baxımdan tədqiqinə böyük ehtiyac vardır. O cümlədən də orta əsr Alban xrsitian dini abidələrinin mövcud vəziyyəti, onların daha geniş şəkildə tədqiq edilməsi zərurətini ortaya qoyur. Digər tərəfdən Daşkəsən bölgəsində qalın meşəlik ərazilərdə qeydə alınmamış dini abidələrin olması fikrimizi bir daha əsaslandırmağa imkan verir.

Daşkəsən rayonu ərazisində dövrümüzə gəlib çıxmış xeyli sayda dini abidələr vardır. Daşkəsən bölgəsinin dini abidələrini həm dövr etibarı ilə, həm də dini xarakterinə görə iki qrupa bölmək olar. Dini xarakterinə görə abidələr xrsitan və islam dini abidələridir. Dövr etibarı ilə həm ilk orta əsrlər dövrünə aid, həm də inkişaf etmiş və son orta əslər dövrünə aid xrstian və islam dini abidələrinə rast gəlinmişdir. Onu da qeyd edək ki, Daşkəsən rayonu ərazisində zəngin alban xrsitian dini abidələri çoxluq təşkil etməsinə baxmayaraq bölgənin bütövlükdə alban xrsitian abidələrinin, xüsusilə də məbədlərinin ciddi şəkildə tarixi-arxeoloji tədqiqinə böyük ehtiyac vardır. Daşkəsən rayonunun elə bir kəndi yoxdur ki, onun ərazisində, yaxınlığında alban xristian dini abidələrinə rast gəlinməsin. Bunlardan bir neçəsi haqqında elmi ədəbiyyatda müyyən məlumatlar vardır.

Elmi ədəbiyyatda Daşkəsən məbədindən bəhs edilmişdir [1, s.136; 4, s.118]. Lakin tədqiqatçılar məbədin harada yerləşməsi haqqında məlumat verməmişlər. Belə hesab etmək olar ki, haqqında bəhs olunmuş məbəd Daşkəsən rayonunda yerləşən məbəddir və yerli əhali onu çox vaxt Alban məbədi deyə adlandırır. A.M.Məmmədov yazır ki, bu məbəd Mağara məbədi kimi tanınır [2, s.21; 3, s.37]. Alban xrsitian abidələrinin tədqiqatçısı M.C.Xəlilov bu məbədi elmi ədəbiyyatdakı təsvirinə

əsaslanaraq onu xaçvari kilsələr sırasına daxil etmişdir [1, s.136]. Alban xrsitian məbədlərinin memarlığını, yeri gəldikcə tarixi məsələlərini tədqiq etmiş tədqiqatçı G.H.Məmmədova M.Barxudar-yanın "Arsak" əsərindəki məlumatlara istinad edərək yazır ki, Daşkəsən rayonundakı məbədin divarlarında on pəncərə yeri düzəldilmiş, məbəddə iki pastofori tikilimişdir. Günbəzlə örtülmüş bu kilsənin uzunluğu 11 m, eni 10,25 m olmuşdur. Epiqrafik materialına əsasən Daşkəsən məbədinin 989-cu ildə inşa edildiyi məlum olur [4, s.118]. Elmi ədəbiyyatdakı bu məlumatlardan aydın olur ki, tədqiqatçılardan heç biri bilavasitə məbəddə olmamış, yerində tədqiqat işləri aparmamışdılar. Məlum olur ki, bəhs etiyimiz kilsə böyük bir məbəddir və bir monastırdır.

Daşkəsən bölgəsindəki məbədlərdən biri Dəstəfur kəndində yerləşir. Dəstəfur məbədi öz quruluşuna və tikinti xüsusiyyətlərinə görə Qoşqarçay və İncəçay hövzəsində yerləşən digər alban məbədləri ilə oxşarlıq təşkil edir [3, s.7-37]. Bu məbədlərin açıq dağlıq ərazilərdə yerləşməsi, yaxınlıqda məbədlərin dövrünə uyğun yaşayış məskənləri və qəbirstanlıqların olması, onların ərazidə xristianlığın dövlət dini səviyyəsinə qaldırıldığı dövrdə, yəni V-VII əsrlərdə tikildiyini göstərir [2, s.22]. Qeyd etmək lazımdır ki, Dəstəfur məbədi quruluşuna və memarlıq xüsusiyyətlərinə görə monastırdır və Azərbaycanın digər bölgələrindəki, o cümlədən də yaxın qonuşuluqdakı Göygöl rayonu ərazisindəki monastır tipli dini abidələrə bənzəyir. Tədqiq etdiyimiz bölgədə xrsitianlığın uzun əsrlər boyu mövcud olması, əhalinin (albanların, başqa sözlə Azərbaycan türklərinin) əvvəlki dinlərində, yəni xristianlıqda qalması burada xristian məbədlərinin uzun əsrlər boyu fəaliyyətdə olmasına gətirb çıxarmışdır. Nəticə etibarı ilə məbədlər müəyyən vaxtlarda təmir edilmiş, onların dağılmasının qarşısı alınmışdır. Onu da qeyd edə bilərik ki, orta əsrlər dövrünə aid Daşkəsən və Göygöl rayonlarında, Goranboy rayonunun dağlıq hissəsində, Şəmkir rayonunun dağlıq kəndləri olan ərazisində, Gədəbəy rayonunda, Dağlıq Qarabağda, Laçın və Kəlbəcər rayonları ərazisində və s. islam dini abidələrinə ya rast gəlinmir, ya da son dərəcə az sayda təsadüf edilmişdir. Bəhs olunan bölgələr orta əsrlər dövründə Alban katolikosluğunun fəaliyyət dairəsinə daxil idi.

Dəstəfur məbədi buradkı Nazik su dərəsinin solunda, Dəstəfur kəndinin girəcəyindən bir km cənub-qərbdə yerləşir. Məbədin yerləşdiyi dağın üstündə Eynal taxtı (Eynal düzü) adlanan sahə var. Məbədin üzü şərqə, Nazik su dərəsinə doğrudur [2, s.22]. Ümumiyyətlə, tədqiq etdiyimiz bu bölgədə, bütün xrsitian məbədlərinin mehrab hissəsi şərq istiqamətinədir. Yuxarıda bəhs etdiyimiz digər məbədlər kimi, Dəstəfur monastırının da giriş qapısı qərb tərəfdən olmuşdur.

Dəstəfur məbədi çay və əhəng daşından əhəng qarışığı məhlulu ilə hörülmüşdür. Məbədin uzunluğu 20 metr, eni isə 10 metrdir. İçərisində iki hücrə (yəni pastofori – V.A.) vardır. Bundan əlavə yaxınlıqda da hücrələr və yaşayış evləri olmuşdur [2, s.22]. Bu məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, Dəsətəfur məbədi monastır kompleksidir. Onun ətrafındakı tikili qalıqları isə monastır kompleksinə daxil olan yardımçı binalar, din xadimlərinin yaşadığı evlər və s. olmuşdur. Dəstəfur məbədi üçnefli bazilikanı xatırladır. Məbədin daxili üstü tağbəndli sütunlarla üç hissəyə bölünmüşdür. Məbədin üst hissəsi günbəz formasındadır. Məbəd çay daşı, yerli qara daşlardan və əhəng daşından istifadə edilməklə əhəng məhlulu qarışığı ilə tikilmişdir.

Azərbaycanın bir çox tarixi-memarlıq abidələrinin, xüsusilə də alban xrsitian dini abidələrinin vaxtilə mənfur ermənilər tərəfindən saxtakarlıqlara məruz qalması məlumdur. Belə saxtakarlıqlar Dəstəfur monastır kompleksində də həyata keçirilmişdir. Sovet hakimiyyəti dövründə bərpa adı altında burada çalışan və yerli əhalinin qonaqpərvərliyi və sadəlövhliyindən, rəsmi dairələrin isə maymaqlığından istifadə edən ermənilər buradakı monastır kompleksinində bu gün də bəlli olmayan işlər görmüş, burada aşkar edilən maddi mədəniyyət nümunələrini özləri ilə götürmüş, məbədi "ermənləşdirməyə", qədim erməni qriqoryan kilsəsinə çevirməyə cəhd etmiş, qapının yan divarların erməni yazıları yerləşdirmişlər. Acınacaqlı hal ondan ibarətdir ki, yerli əhalinin verdiyi məlumatlara görə, hələ keçən əsrdə burada nə isə axtarıb tapmaq məqsədilə kimlərsə kilsənin bir hissəsini partla-yıcı vasitə ilə partladıb dağıtmışlar. Məbədin iki tağı beləliklə məhv edilmişdir. Buna baxmayaraq məbəd öz varlığını hələ də saxlayır. Bu məbədin bərpa edilməsinə, onun və digər belə abidələrimizin qorunmasına ciddi ehtiyac vardır.

Bölgədə diqqəti cəlb edən məbədlərdən ikisi Daşkəsən rayonun Bayan kəndində yerləşir. Bayan məbədləri eynilə Göygöl rayonunun Zurnabad kəndindəki məbədlərlə oxşarlıq təşkil edir. Belə ki, Bayan kəndindəki kimi Zurnabad kəndinə də iki məbəd vardır, bunlardan kiçik olanı daha

qədimdir və daha çox dağıntılara məruz qalmışdır. Eyni tale Bayan məbədlərinə də qismət olmuşdur. Hər iki kənddəki böyük məbədlər isə XVI-XVII əsrlərdə inşa edilmişdir. Çiçərvəng (Çilçirəvənd) bazilikasının XV əsrdə inşa edilməsi ilə bağlı fikirlər də vardır. Belə hesab etmək olar ki, yeni məbədlərin inşası, qədim məbədlərin yenidən qurulması və bərpası Alban katolikosluğunun nəzarəti altında olmuş, katolikosluqda yeni inşa ediləcək məbədlərlə bağlı standart layihə mövcud olmuşdur. Digər tərəfdən əsrlər boyu formalaşmış memarlıq üslubiyatının olmasını da nəzərdən qaçırmaq olmaz. Bütün bunlara görədir ki, tədqiq etdiyimiz bölgənin orta əsr dini abidələrinin memarlıq quruluşu eynilik təşkil etməkdədir. Həmçinin onu da qeyd edək ki, inşaat işlərinin həyata keçirildiyi bölgə də bir-biri ilə oxşarlıq təşkil etmişdir, yəni eyni memarlıq quruluşuna malik məbədlərin inşa edildiyi ərazilər dağlıq bölgə olduğu üçün inşaat işlərini yerinə yetirlməsi zaman hər hansı bir fərqliliklər də ortaya çıxmamışdır.

Bayan kəndində yerləşən məbəd elmi ədəbiyatda Çiçeravan məbədi adı ilə tanınır. Tdəqiqatçı A.M.Məmmədov belə ifadə etmişdir [2, s.25]. Məbəd Çilçirəvənd və ya Çiçərvəng də adlandırılır. Məbədin ümumi sahəsi 500 kv. metrdir. Məbədin qalınlığı 1 metr olan divarları əvvəlki görkəmini saxlasa da, bəzi yerlərində dağılmalar müşahidə olunur. Məbədin interyerində, pəncərələrin kənarlarında, qapının üst və yan tərəflərində alban dini memarlığına məxsus naxışlar, hörmə naxışlarla haşiyələnmiş alban xaçları və digər dini motivli bəzəklər vardır.

Çiçərvəng məbədi Daşkəsən rayonu ərazisindəki məbədlər içərisində müstəsnalıq təşkil edir. Belə ki, rayon ərazisindəki məbədlərin əksəriyyəti VII-VIII əsrlərdə tikilmişdir. Çiçərvəng məbədi isə daha əvvəlki dövrlərdə inşa edilmişdir. Məbəd divarlarının yanından əldə edilən arxeoloji materiallar və məbədin memarlıq quruluşu abidənin IV-V əsrlərdə tikildiyi ehtimalını söyləməyə əsas verir [2, s.25].

Böyük məbədin hündürlüyü mərkəzdən 7 m, qarşıdan 6,5 metrdir. Məbəd qaya üzərində tikildiyi üçün arxa tərəfdən hündürlüyü 4,5 metrdir. Divarları çay daşı ilə hörülmüşdür. Quruluşuna görə Çaykənd məbədi ilə oxşardır. Beş salondan ibarətir. Salonlar arasındakı məsafə 3 metrdir [2, s.25-56]. Bayan monastırı hazırda qəzalı vəziyyətdədir. Daşkəsən rayonundakı digər monastırlardan böyüklüyü ilə seçilən tikilinin əsas binasından başqa həyətində otaqlar, sədd divarları, yardımçı-təsərrüfat binaları, çay daşlarından inşa edilmiş xeyli sayda quyular vardır. Əsas binanın qarşısında, mərkəzdə böyük bir meydan yerləşir. Bu isə vaxtilə burada kütləvi tədbirlərin, yığıncaqların və dini ayinlərin həyata keçirildiyini deməyə əsas verir. Monastırın bünövrə və aşağı hissəsi çay daşları və qara daşlardan tikilmişdir. Binanın əsas hissəsi isə yerli ağ və qırmızı rəngli qaya və tuf daşlarından inşa edilmişdir. Məbədin interyerində divarlarda alban hörmə naxışla haşiyələnmiş xaçdaşları, alban əlifbası ilə yazılmış mətnlərdən ibarət kitabələr yerləşdirilmişdir. Diqqəti cəlb edən mühüm məqamlardan biri də binanı inşa edən ustaların inşaat sənətinin sirlərinə vaqif olmalarıdır. Belə ki, məbədin daxilində səs akustikasını yaramaq üçün məbədin divarlarına içi boş küplər hörülmüşdür. Məbədin divarlarının üzü tökülmüş hissələrində belə küpləri görmüş yerli sakinlərdən olan hansısa şəxslər onların divara hörülüb gizlədilmiş dəfinə olduğunu zənn edərək divarları dağıtmışlar.

Böyük məbəddən 5 metr məsafədə kiçik məbəd yerləşir. Bu məbədin də hündürlüyü 7 metr, eni isə 6 metrdir. Dam örtüyü kirəmitlə döşənmişdir [2, s.25-56].

Daşkəsən bölgəsindəki qədim dini abidələrdən biri də Xaşbulaq (***Haşiyə.*** *Daha əvvəllər rəsmi olaraq Xaçbulaq, müasir dövrdə isə Xoşbulaq adlandırılır. Yerli əhali uzun əsrlər boyu bu kəndi Xaşbulaq adlandırmışdır, buna görə də biz də burada Xaşbulaq ifadəsinə üstünlük veririk. Digər tərəfdən Xaşbulaq toponimi ilə bağlı tədqiqatçıların müxtəlif fikir və təhlilləri vardır. Görkəmli arxeoloq, AMEA-nın müxbir üzvü, t.ü.e.d, professor V.H.Əliyev Xaçbulaq adını buradakı xaçdaşları ilə əlaqələndirmişdir. Qocaman arxeoloq, t.ü.f.d. Firuzə Muradova Xaçbulağın adını yaxınlıqda yerləşən Alban məbədi ilə bağlı olduğu qənatinə gəlmişdir [2, s.26]. Bizim fikrimizə görə bir yerin adının formalaşmasında əsas amillər oranın təbii-coğrafi amilləri, orada yaşamış qədim yerli əhalinin dili, etnik mənsubiyyəti ilə bağlıdır. Əsrlər boyu yerli əhali tərəfindən Xaşbulaq adlandırılması təsadüfi deyildi. Burada söhbət nə xaşdan, nə də ki, xaçdan gedir. Məsələ ondadır ki, bu yer adı iki komponentin, xaş və bulaq sözlərinin birləşməsindən yaranmışdır. Bu hər iki söz yalnız və yalnız qədim türk dillərində, başqa sözlə Azərbaycan dilində məna kəsb edir. Xaş/xaşa sözü qədim türk dillərində, o cümlədən arxaik Azərbaycan türkcəsində, albanların dilində, o cümlədən də qıpçaq*

*dilində yaylaq mənasındadır, yəni yaylaq yerinə xaş/xaşa deyilmişdir. Adının ikinci hissəsi olan bulaq sözünün isə təhlilə ehtiyacı yoxdur. Beləliklə, buranın adının qədim zamanlardan Xaşbulaq adlandırılması təbii-coğrafi amillərlə (yaylaq və bulaq sözlərinin birləşməsi nəticəsində yaranmış mürəkkəb yer adı) bağlı olub, buranın qədim yerli əhalisinin dilində yer adı olaraq formalaşmışdır. –* **V.A.**) kəndində yerləşən alban kilsəsidir. Bu məbəd də bölgədəki digər məbədlər kimi VII-VIII əsrlərə aid edilmişdir. Xaşbulaq məbədinin də giriş qapısı qərb divarında yerləşir. Qapının üstündə kiçik pəncə yeri düzəldilmişdir. Məbədin mehrab hissəsi onun şərq divarındadır. Mehrabın üst tərəfində şərqə doğru kiçik pəncərə yeri vardır. Məbəd çay daşı, yerli qara daşlardan hörülmüşdür.

Daşkəsən rayonunun Danayeri kəndi yaxınlığında, yaylaqlara gedən yolun üstündə, qalın meşəlik ərazidə yerləşən dini kompleks unikallığı ilə diqqəti cəlb edir. Burada bir-birinin yaxınlığında yeddi kilsə mövcuddur. Bu dini kompleksin ilk orta əsrlərdə inşa edilməsi şübhə doğrurmur. Məbədələrin mehrab, mehrabların yan hissəsləri, yan divarlarının bir hissəsi buranın yerli əhalisindən olan hansısa şəxslər tərəfindən nə isə tapmaq istəy ilə dağıdılmışdır. Digər tərəfdən meşəlik ərazidə otarılan mal-qara sürüləri də məbədlərə müəyyən zədə yetirmişdir. Belə ki, yay mövsimində günorta saatlarında otlaqdan qayıdan mal-qara məbədlərin içinə girir, burada gölgələnib yatır, nəticə etibarı ilə bu qədim abidələrin dağılmasına səbəb olurlar.

Daşkəsən rayonunun qədim yaşayış məskəndlərindən biri olan Qabaqtəpə kəndində yerləşən kilsə bölgədəki böyük məbədlərdən biridir. Qabaqtəpə məbədi kəndin mərkəzində, kəndaxili yolun kənarında yerləşir. Məbədin XV əsrdə inşa edilməsi ehtimal olunur. Bu məbəd üçnefli düzbucaqlı formada inşa edilmiş bazilikadır. Bu məbədin uzunluğu 21,5 metr, eni isə 13,30 metrdir. Bu məbədin memarlıq quruluşu, interyerindəki motivlər, naxışlar və xaçlar Bayan kəndindəki Çiçərvəng məbədində bənzəyir.

Diqqəti cəlb edən dini abidələrdən biri də Daşkəsən rayonunun Quşçu kədnində yerləşən qədim alban məbəddir. Məbəd Müqəddəs tərcüməçilər monastırı adlanır. Bu kilsənin 487-ci ildə inşa edilmiş, 989 və 1845-ci illərdə bərpa edilmişdir. Hal-hazırda kilsə yarıuçuq vəziyyətdədir.

*Nəticə.* Beləliklə, məlum olur ki, Daşkəsən rayonu ərazisindəki Alban xrsitian məbədlərinin bir çoxunun mövcud vəziyyəti acınacaqlı haldadır. Bu abidələrin qorunmasına, onların bərpa edilməsinə, məbədlərin hərtərfli şəkildə tarixi-arxeoloji baxımdan tədqiq edilməsinə böyük ehtiyac vardır. Çox-saylı dini abidələrin olması bölgədə ilk orta və orta əsrlər dövründə əhalinin sıx məskunlaşmasından xəbər verir.

ƏDƏBİYYAT


1. Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). Bakı, Xəzər Universiteti nəşriyyatı, 2011, 344 s.
2. Məmmədov A.M. Dəstəfur-Daşkəsən (tarixi-arxeoloji-etnoqrafik tədqiqat). Bakı, “Elm” nəşriyyatı, 2000, 62 s.
3. Məmmədov A.M. Gəncəbasarın Alban dövrü xristian abidələri. Bakı, “Ağrıdağ” nəşriyyatı, 2000, 56 s.
4. Мамедова Г.Г. Зодчество Кавказской Албании. Баку, Чашыоглу, 2004, 224 с.



**ВУСАЛА АХУНДОВА**

*Докторант кафедры история Азербайджана*
*Гянджинского Государственного Университета*


## АЛБАНСКИЕ ХРИСТИАНСКИЕ РЕЛИГИОЗНЫЕ ПАМЯТНИКИ ДАШКЕСАНСКОГО РАЙОНА


Дашкесанский регион богат множеством албанско-христианских религиозных памятников. Монастырь, расположенный в деревне Дастафур, имеет длину 20 метров и ширину 10 метров. Останки здания вокруг него – это вспомогательные здания, входящие в монастырский комплекс. Храм Дастафур напоминает трехнефную базилику. Внутренняя поверхность храма разделена на три части арочными колоннами. Верхняя часть храма имеет форму купола. Храм

был построен из смеси речного камня, известкового раствора с использованием местных черных камней и известняка. Храм в деревне Баян также называют и Чильчираванд, и Чичерванг. Общая площадь храма составляет 500 кв.м. м. Хотя стены храма толщиной в 1 метр сохраняют свой первоначальный вид, некоторые части храма все же рухнули. Археологические материалы, найденные возле стен храма и архитектурное строение храма, свидетельствуют о том, что памятник был построен в IV-V веках. Храм состоит из пяти залов. Расстояние между залами 3 метра. В 5 метрах от большого храма находится маленький храм. Высота этого храма 7 метров, а ширина 6 метров. Крыша черепичная.

Одним из древних религиозных памятников в Дашкесанском регионе является албанская церковь, расположенная в селе Хашбулаг. Этот храм, как и другие храмы региона, датируется VII-VIII веками. Храм Кабактапа был построен в XV веке. Этот храм представляет собой базилику, построенную в треугольной форме. Длина Храма 21,5 метров и ширина 13,30 метров. Это древний албанский храм, расположенный в селе Гушчу Дашкесанского района. Храм назывался Монастырь Святых Переводчиков. Эта церковь была построена в 487 году и перестроена в 989 и 1845 годах. Церковь в настоящее время в полуразрушенном состоянии.

*Ключевыя слова*: Дашкесанский район, храм Чичраванг, базилика Дастафур, Монастырь Святых Переводчиков, храм Кабактапа.

**VUSALA AKHUNDOVA**
*Doctoral student of the Department of History of Azerbaijan,*
*Ganja State University*

## ALBANIAN CHRISTIAN RELIGIOUS MONUMENTS OF DASHKASAN REGION

The Dashkesan region is rich in many Albanian-Christian religious monuments. The monastery, located in the village of Dastafur, has a length of 20 meters and a width of 10 meters. The remains of the building around it are auxiliary buildings belonging to the monastery complex. The Dastafur temple resembles a three-nave basilica. The inner surface of the temple is divided into three parts by arched columns. The upper part of the temple is shaped like a dome. The temple was constructed from a mixture of river stone, limestone solution using local black stones and limestone. The temple in the village of Bayan is also called Chilchiravand and Chichervang. The total area of the temple is 500 sq.m. Although the walls of the temple are 1 meter thick and still retain their original appearance, some parts of the temple have collapsed. Archaeological materials found near the walls of the temple and the architectural structure of the temple indicate that the monument was built in the IV-V centuries. The temple consists of five halls. The distance between the halls is 3 meters. A small temple is located 5 meters from the big temple. The height of this temple is 7 meters and the width is 6 meters. The roof is tile.

One of the ancient religious monuments in the Dashkesan region is the Albanian church located in the village of Hashbulag. This temple, like other temples in the region, dates from the 7th-8th centuries. The Kabaktapa temple was built in the 15th century. This temple is a basilica constructed in a triangular shape. The Temple is 21.5 meters long and 13.30 meters wide. This is an ancient Albanian temple located in the village of Gushchu in the Dashkesan region. The temple was called the Monastery of the Holy Translators. This Church was built in 487 and rebuilt in 989 and 1845. The Church is currently in a dilapidated state.

*Keywords*: The Dashkasan region, Chichravang temple, Dastafur Basilica, Monastery of the Holy Translators, Kabaktepe temple.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 may 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Arif Məmmədov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 39**

**BƏSİRƏT ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*
**besretzeynal@yahoo.com**

# XX ƏSRİN BİRİNCİ YARISINDA TAXILÇILIQ TƏSƏRRÜFATINDA BİÇİM, DÖYÜM VƏ TAXILIN SAXLANMASI QAYDALARI

*Məqalədə XX əsrin birinci yarısını əhatə edən, Naxçıvanın Babək və Şahbuz bölgələrinin materialları əsasında öyrənilməsi nəzərdə tutulan əkinçilik mədəniyyətinin taxılçılıqla əlaqəli etnoqrafik tədqiqatlarından bəhs olunur. Həm də bu sahədə taxıl əkini mövcud ədəbiyyat və araşdırmalara əsaslanaraq biçim, döyülmə, taxıl saxlama təcrübələri və əsrlər boyu əldə etdiyi biliklərə istinad edərək aydınlaşdırılır. Bundan əlavə, taxıl istehsalında istifadə olunan əmək alətlərinin dəqiqliyi və onların işləmə prinsipi məqalədə izah edilmişdir. Eyni zamanda, toplanmış materialların təhlilləri, Naxçıvanın təsərrüfat həyatının bu sahəsinin, Naxçıvanın və onun əsas göstəricilərinin özünəməxsus əkinçilik mədəniyyəti ilə seçilməsinə baxmayaraq, Azərbaycanın kənd təsərrüfatının ayrılmaz bir parçası olduğunu göstərir.*

*Açar sözlər:* Əkinçilik mədəniyyəti, taxılçılıq, biçim, döyüm, təsərrüfat, səpin.

*Giriş.* Naxçıvanın istər Babək rayonunda, istərsə də Şahbuz və digər rayonlarında təsərrüfat məişətində taxıl biçimi və döyümü zəngin etnoqrafik xüsusiyyətlərə malik olmuşdur.

Bu baxımdan XX əsrin əvvəlləri taxıl biçimində istifadə edilən əmək alətləri, eləcə də biçim üsulları daha çox diqqəti cəlb edir. Taxıl biçimində istifadə edilən əmək alətləri haqqında danışarkən demək olar ki, əsasən əl əməyinə əsaslanmaqla primitiv xarakter daşıyırdı.

Babək və Şahbuz rayonlarında taxıl biçimində istifadə edeilən əmək alətləri haqqında informator Babək rayonunun Sirab kənd sakini, 1948-ci il təvəllüdlü Babayeva Səadət, Şahbuz rayonunun Külüs kənd sakini 83 yaşlı Qızxanım arvadın dediklərinə görə, əsasən oraq, mərəndi, taxta əlcək, dəryaz və başqalarından ibarət olmuşdur.

Arxeoloji və etnoqrafik tədqiqatlardan aydın olur ki, Naxçıvanda taxıl biçimində istifadə edilən əmək alətləri, eləcədə biçim üsulları e.ə VI-I minilliklərdə Naxçıvan ərazisində istifadə etdikləri əmək alətlərindən o qədərdə fərqləri yoxdur. Qeyd etmək olar ki, e.ə birinci minilliyə qədər Azərbaycanda eləcədə, Naxçıvanda başlıca olaraq biçin aləti kimi quraşdırma oraqlardan istifadə edilmişdir.

XX əsrin əvvəllərində isə Naxçıvan biçinçiləri xüsusən dağlıq rayon olan Şahbuz rayonu ərazisində qismən oraqla, düzənlik ərazilərdə isə əsasən Babək rayonu ərazisində mərəndi ilə biçməyə üstünlük verilirdi.

Azərbaycanın etnoqrafik bölgələri arasında, ancaq Naxçıvan bölgəsi üçün xarakterik olan mərəndi biçin alətinin sapı ağacdan düzəldilən və uzunluğu dəyirmi olmaqla yetmiş, səksən santimetrə bəzən isə bir metrə qədər çatan itiləşdirilmiş tiyədən ibarət olmuşdur. Oraqdan fərqli olaraq mərəndinin tiyəsi uzun olduğuna görə əkin sahəsinin taxılını tez biçmək mümkün olduğundan Babək rayonunda ondan daha çox istifadə olunurdu.

Mərkəzi hakimiyyət uğrunda gedən mübarizədə keçmiş Qızılbaş dövləti ayrı-ayrı qrupların döyüş meydanına çevrildi. Azərbaycanda da yaranan xanlıqlar vahid bir güc ətrafında birləşə bilmədilər. Urmiyalı Fətəli xan digər xanlıqları öz ətrafında birləşdirməyə yaxın olduğu bir vaxtda, əvvəl siyasət meydanında, sonra da döyüş meydanında məğlub oldu [3, 37]. Kiçik feodal dövlətlərə parçalanmış Azərbaycan xanlıqlarını və əvvəllər Azərbaycana tabe olan əraziləri ələ keçirmək üçün Rusiya dövləti yaranmış fürsətdən istifadə etdi, XVIII yüzilliyin ikinci yarısı - XIX yüzilliyin əvvəllərində işğalçılıq siyasətini davam etdirərək Azərbaycanın şimal torpaqlarını ələ keçirdi. [11].

XIX yüzillikdə də köçürmə siyasət davam etdirildi, tabe olmaq istəməyən müsəlman əhali qovuldu, yerində yeni köçkünlər yerləşdirildi. Kürəkçay (1805) [16], Gülüstan (1813), Türkmənçay (1828) [8], Ədirnə (1829) müqavilələri bağlandığı dövrdən erməni hayların torpaqlarımıza köçürülməsi prosesi sürətləndi [18]. Türkməncayda bağlanan müqavilə ilə torpaqlarımızın ikiyə parçalanma-

sı yeni faciələrə yol açdı, şimal ərazilərimiz ilhaq edildi və erməni hayların kütləvi köçürülməsi ilə xalqımızın başına gələn faciəyə yenisi də əlavə edildi.

İmperiya tərəfindən torpaqlarımıza köçürülən ermənilərin qərb ərazilərimizdə, əsasən keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazisində kompakt yerləşdirilməsi sonrakı ərazi iddialarına yol açdı [28]. Ermənilərin kütləvi köçürülməsindən sonra İrəvan və Naxçıvan xanlığını ləğv edib yerində "erməni vilayəti" adlı qurum yaradıldı. [28;4]. 12 ildən sonra əhalisinin 75 faizi müsəlman türklərdən ibarət olan qurumun adı dəyişdirildi, ancaq "erməniləşdirmək" istiqamətində mahiyyəti dəyişmədi [1, 399].

Şimali Azərbaycanın qərb ərazilərinə iddiaları üçün əvvəlcə ermənilərə "qədim tarix" yaratmaq lazım idi. Tarixi hadisələri ardıcıl izləyəndə görürük ki, XIX yüzilliyə aid Rusiya tarixşünaslığı bu işin öhdəsindən "uğurla" gəlib, ermənilərə "qədim vətən" tapılıb [15,195]. Digər uğurları isə ondan ibarət idi ki, vaxtilə Qarabağ ərazisinin dağlıq hissəsində yaşayan, tədricən İslam dinini qəbul etməkdə olan azsaylı xristian türkləri də "erməni" kimi qeyd etdilər. Əvvəlki xristian əhali ilə sonradan gələn erməni hayların fərqi göstərilmədi, əvvəlki xristian türklərin yurdlarında məskunlaşanları "din ayrı qardaş" kimi qələmə verdilər. XX yüzillikdə Sovet tarixşünaslığında elə təəssürat yaradıldı ki, guya XIX yüzillikdə bura köçürülmüş ermənilər elə qədimdən burada yaşayıblar və bununla da erməni "aborigen"liyini şüurlara həkk etdirməyə çalışdılar. Onun təsirindən çoxları indi də çıxa bilmir.

*Qarabağ haqqında yanlış məlumatlar*. XVIII yüzilliyin əvvəllərində I Pyotrun yürüşünə qədər Qızılbaş dövlətinin ərazisində ticarətlə məşğul olan bəzi ermənilərin "xəbərçi" kimi xüsusi statusları var idi. Onların yerli xristian türklərə aidiyyəti olmasa da onların adından məktublar yazdıqları məlumdur. İsrail Ori, vardapet Minas və bunlar kimi kilsə və Avropa dövlətləri tərəfindən yönləndirilən "agent"lər, lazım gələndə yerli əhalinin dilindən danışmaqdan çəkinmirdilər [5; 6; 7]. Onların fəaliyyəti nəticəsində Qarabağda müsəlman türklərlə yanaşı yaşayan xristian türklər Rusiyaya və Gürcüstana meylləndirilir, separatçılıq meylləri formalaşdırılırdı.

I Pyotr zamanındakı məktublaşmaların ümumi xarakteri ondan ibarətdir ki, məktublar keşişlərin, yaxud şəhərlərdə məskunlaşmış erməni tacirlərin diktəsi ilə yazılıb. Elə həmin məktublarda, yaxud sonradan onlara verilən başlıqlarda saxtakarlıqlar göz önündədir. Müxtəlif tacir və məliklər tərəfindən yazılmış məktubları mahal naibləri olan məliklər və əhali tərəfindən yazılmış kimi qələmə verirlər. Halbuki, məktub Gəncədə, Bərdədə yaşayan tacir və digər xristian bəylərə aiddir [29]. Ermənilərin Qafqaza köçürülməsindən sonra çap olunan bir sıra əsərlərdə erməniləri cənub-qərbi Qafqazın, o cümlədən Qarabağın əsas əhalisi kimi göstərməyə başlamışdılar. Bu məlumatların saxtalaşdırmasında imperiyanın özü maraqlı idi. P.Butkov, İ.Şopen kimi hərb tarixçilərinin "məlumatları" illik nəşrlərdə öz əksini tapır və süni erməni tarixi yaradılırdı [11; 28].

*P.Q.Butkovun əsərinə və "Qafqaz gündəliyi"nə münasibət*. Hərbçi kimi fəaliyyətə başlayan P.Q.Butkov ilk dəfə Azərbaycan torpaqlarına 1796-cı ildə V.Zubovun başçılığındakı ordu ilə gəlmişdi. 1803-cü ildə Qafqazı tərk etsə də, sonrakı illərdə də zənginləşdirdiyi arxivindəki sənədlər ölümündən sonra çap edilmişdir [11; 12; 13]. P.Butkovun ölümündən sonra çap olunmuş qiymətli əsərinə ermənilərin xeyrinə əlavələr edilib. Bu əlavələrdə məqsəd yalançı erməni tarixini "sənədləşdirmək" olmuşdur. Butkovun əsərinə edilən "M" saylı əlavə əsərin I hissəsinin 236-cı səhifəsi üçün nəzərdə tutulub [11, 385]. Maraqlı odur ki, əsərin 236-cı səhifəsində "Qarabağlı yaxud Şuşalı Pənah-Xan Cavanşir"dən söhbət getdiyi halda, əsərin sonlarındakı "əlavə"lərlə mahiyyəti tamam dəyişməyə cəhd ediblər [11, 236]. Bu və digər çoxsaylı faktlar sübut edir ki, XIX yüzilliyin ikinci yarısında süni erməni tarixi yaradılması prosesi sürətlənir və belə əlavələr də həmin məqsədə xidmət edirdi. "M" saylı əlavə Qarabağ xristianlarını "erməni" kimi qələmə verən uydurulmuş tarixin bir hissəsidir və burada məlik Məjlum, Fridon kimilərinin "nağılı" ilə tarix yaradılmışdır [11, 385-387]. Əsərə əlavədə "Qarabağ" Kür-Araz arasında yerləşən, əsasən "ermənilərin" yaşadığı 5 məlik tərəfindən idarə olunan dağlıq ölkə kimi qeyd edilir [11, 385]. Əslində isə xanlıqlar yaranana qədər Qarabağ (Gəncə) bəylərbəyiliyinə tabe olan ərazilərdə yaşayan xristian əhalinin erməniyə heç bir aidiyyəti yox idi və onların sayı o qədər az idi ki, diqqət də cəlb etmirdi. Qarabağ xanlığı isə 1813-cü ilə qədər 25 mahaldan ibarət idi. Gülüstan müqaviləsindən sonra bəzi mahallar Qacar dövlətinin tabeliyində qaldı və 1823-cü il sayımlarında Qarabağ əyalətində 22 mahal qeyd edilir [24, 412]. Xan tərəfindən mahal naibləri olan məliklərin idarəçiliyinə verilən "5 mahal" həm ərazisinə, həm də əhalisinin sayına görə

elə ciddi əhəmiyyətə malik olmadığından, beşi də bir yerdə "Xəmsə" adlanırdı [2, 35-38]. Buranın əhalisi nəinki bəylərbəyilik dönəmində, ondan sonrakı xanlıq dönəmində də özlərini "erməni" yox "alban/ağvan" sayırdılar [19, 15].

P.Butkovun əsərinin birinci hissəsində "M" saylı əlavənin sonradan əlavə olunduğu şübhəsizdir. Çünki, ikinci hissəsində məliklərdən danışanda aydın olur ki, Qarabağın sahibi var, xanı var və bu xan Qarabağın əsas əhalisinə arxalanaraq hakimiyyəti idarə edir. Xan mahal naiblərini istədiyi zaman cəzalandıra bilər, yaxud xəyanətinə, günahına görə əmlakını müsadirə edə bilər. Xəyanətlərinə görə Məjlum və Abovun cəzalandırılmasını qələmə alan müəllif Qarabağın yiyəsinin kim olduğunu dolayısı ilə göstərir [12, 281-282]. Əsərə əlavədə "bu məliklərin" birbaşa "Nadir şaha tabe" olmaqları qabardılıb, o zamandan indiyə qədər, erməni tarixşünaslığı bir yana, hətta bizim tarixi ədəbiyyatlarda da özünə yer edib. Əslində Ziyadoğullarının hakimiyyətini zəiflətmək üçün Qarabağdakı bəzi türk tayfalar Xorasana sürgün olunmuş, xristian əhalinin yaşadığı mahalların tabeçiliyi Gəncədən alınıb Təbrizə verilmişdi [2, 30-31]. Bu inzibati yerdəyişməni "müstəqillik" kimi verməyə cəhd edənlər, burada yerli xristian əhalinin etnik kimliyini, yəni onların alban türkləri, yaxud qafqazdilli udinlər olmasını da gizlədirlər. Digər tarixi ədəbiyyatlarda və sayım sənədlərində bənzər təhriflər davam etmişdir.

Qarabağ əhalisi ilə bağlı saxtalaşdırmalar xanlığın ləğvindən və bura erməni hayların köçürülməsindən sonra yeni mərhələyə qədəm qoymuşdur. Qarabağın türk-müsəlman əhalisini xatırlamadan 1845-ci ildən çap olunan "Qafqaz gündəliyi"ndə, 1797-ci ildə məliklərin tabeçiliyində olan 11 min ailənin Rusiya təbəəliyini qəbul edərək Qafqaz hərbi xəttinə köçdüyü qeyd edilir [20, 62]. 1848-ci ildən çap olunan "Qafqaz gündəliyi"ndə isə 1797-ci il tarixi 1798-ci il ilə əvəz olunur, köçürülən əhalinin sayı isə olduğu kimi qalır [21, 13]. "Qafqaz gündəliyi"nin 1849-cu ilindən etibarən çap olunan nəşrlərində isə köçürülən "ermənilərin" Qızılyarda (Kizlyar) və başqa yerlərdə məskunlaşdırıldıqları qeyd edilir [22, 13]. Belə məlumatlar demək olar ki, 1845-ci ildən 1910-cu ilə qədər mütəmadi olaraq təkrar olunmuşdur. Əslində isə həmin şəhərlərdə o zaman bir o qədər əhali yaşamırdı. 1796-cı ildə Azərbaycandan Şimali Qafqaza köçən, xristian olduqları üçün özlərini "erməni" sayan, ancaq hələ də Azərbaycan türkcəsində danışan Stavropolun Edissiya kəndi var [23]. Bu da onu göstəricisidir ki, Rusiya imperiyasının işğalına qədər Qarabağdan və digər bölgələrimizdən gedənlər öz etnik kimliklərini qoruyub saxlaya biliblər. Onlar "erməni" sözünü dini mənsubiyyət kimi nəzərdə tutublar, etnik kimliklərini isə danışdıqları türk dilində saxlayıblar.

*II Yekaterinanın "imtiyazları" işğalçılıq siyasətinin tərkib hissəsi kimi.* Qızılbaş dövlətinin təbəələri üçün Rusiya çarlarının I Pyotrdan ardıcıl başlayan cəlbedici imtiyazları, II Yekaterinanın hakimiyyəti illərində davam etdi. Osmanlı dövləti ilə 1774-cü ildə bağlanan Kiçik Qaynarca sülhündən sonra Rusiya Qafqazın şərq və qərb ərazilərindən Cənubi Qafqaza müdaxiləsini təmin etmiş oldu. 1783-cü ildə Georgiyevsk müqaviləsi bağlandı. Polkovnik S.Burnaşev tabeçiliyində rus hərbi hissələri Tiflisə gəldi. Kiçik də olsa, rus hərbi hissələrinin Gürcüstana gəlişindən sonra Rusiyanın tabeliyindəki ərazilərdə yaşamaq istəyənlərin sayı artmaqda idi. Bu məqsədlə 22 dekabr 1782-ci ildə Senatın əmri ilə knyaz Potyomkinə icazə verilmişdi ki, Qafqaz müdafiə xəttində, Mozdokda məskunlaşmaq istəyənlərə torpaq paylasın [10, 1137]. 1784-cü ildə Knyaz Potyomkin "erməniləri" məşkunlaşması üçün yer də müəyyənləşdirmişdi, həmçinin 14 iyul 1785-ci ildə çar tərəfindən ermənilərin sərbəst ticarətlə məşğul olmaları üçün manifest verildi. Rusiyanın işğal dairəsində olan ərazilər yaşayış üçün hətta müəyyən üstünlüklər verilir və 6 illik vergidən də azad edilirdilər. Ticarətlə məşğul olan, eyni zamanda yaşadıqları dövlət haqqında hər cür satqınçılıq edən tacir erməniləri toplamaqda çariçanın məqsədi gələcək ekspedisiyalara hazırlıq idi. Butkovun da qeyd etdiyi kimi İmperatriça Yekaterinanın niyyəti Qafqaz quberniyasında ermənilərdən ibarət şəhər salmaq idi [12,169; 10,1138]. Həmçinin keçmiş Qızılbaş təbəələri olan xristianları Gücüstan ətrafında toplayaraq müsəlman hökmdarlarına qarşı dura biləcək dövlətin yaradılması da planda idi.

XVIII yüzilliyin sonlarında Cənubi Qafqazda siyasi proseslər daha da mürəkkəbləşdi. Rusiya dövləti keçmiş Qızılbaş dövlətindəki qarışıqlıqdan istifadə edərək yenidən Cənubi Qafqaza soxuldu. 1796-cı ildə Xəzərsahili əraziləri və Şirvanın düzən ərazilərini ələ keçirən general V.Zubov qonşu ərazilərin xanlarının təslim olmalarını tələb edirdi. Bəzi xanlar Qacar ordusunun Xorasanda olmasından istifadə edərək manevrlərlə özlərini tabe kimi göstərir, bəziləri isə həqiqətən Rusiyanın işğalçı si-

yasətini qəbul edirdi. Qarabağ xanlığı bu dövrdə daha mürəkkəb duruma düşmüşdü. Ağa Məhəmməd xan Qacar 1795-ci ildə Şuşanı tuta bilmədiyi üçün İbrahim xana qəzəbli idi. Digər tərəfdən isə İbrahim xan Rusiyanın xanlıqlardakı xristian əhaliyə olan münasibətindən narahat olurdu [12, 405-406]. Ancaq Ağa Məhəmməd şah Qacarın Xorasandan geri qayıdışı və Rusiyada hakimiyyət dəyişikliyi rusların işğal etdikləri ərazilərdən təcili geri çəkilmələri ilə nəticələndi. 1797-ci ildə rus qoşunlarının Xəzərsahili ərazilərdən gedən zaman özlərilə 500-ə yaxın xristian ailəsi də aparırlar. Butkova görə onlar əsasən Müşkürdə məskunlaşan "erməni"lər idi [12, 424-425]. Əslində isə onların əsas hissəsi xristian türklər idi, bəzi kəndlər Şimali Qafqazda Azərbaycan türkcəsini indi də saxlayırlar [23].

*Rusiya çarlarının xristian təəssübkeşliyi*. Rusiyanın Xəzəryanı əraziləri işğal etdiyi 1722-1735-ci illərdə, dini təəssübkeşlik adı altında bölgədə yaşayan xristian məzhəbli əhalini öz tərəfinə çəkmək üçün bütün vasitələrdən istifadə edilmişdi. Vədlərlə keşişləri öz tərəflərinə çəkən generallar, onların vasitəsilə əhalini də Rusiyaya meylləndirməyə çalışırdılar və qismən buna nail olmuşdular. Bölgənin xristian türkləri, udinləri, ticarətlə əlaqədar olaraq şəhərlərdə məskunlaşan erməni tacirləri keşişlərin təbliğatı ilə güclü hami rolunda olan Rusiyaya meyləndirilirdilər. Erməniləri Xəzər dənizi sahillərində məskunlaşdırılması üçün I Pyotr Dərbənd komendantı general Kropotova göstəriş vermişdi [27, 56]. Sonralar II Yekaterinanın dövründə də əvvəlki metodlardan istifadə edilmişdi. 1783-ci ildən sonra S.Burnaşevin başçılığı ilə Kartli-Kaxet xanlığına göndərilən rus qarnizonu separatçılıq meyllərini daha da gücləndirmişdi. 1796-cı ildə V.Zubovun başçılığında Azərbaycanın şimal torpaqlarını işğal edən Rusiya dövləti, əvvəlki illərdə ələ aldığı xristian keşiş, məlik, tacirlərin övladlarından istifadə etməyə başladı. Qarabağda olan xristian əhali vaxtilə Şəki və Gəncə xanlarına arxalanaraq Pənahəli xana qarşı çıxmışdı, indi onların övladları da gizlin düşmənçiliklərini davam etdirirdilər [2, 35]. Qisas yanğısı ilə də Qafqazı ələ keçirməkdə olan Rusiyaya sığınır, xanlıqlarda baş verən proseslər haqqında casus məlumatları ilə çar məmurlarını vaxtında xəbərdar edirdilər.

Qarabağdan və digər bölgələrdən qaçan ailələr ya Gürcüstana, ya da Mozdoka, Qızılyara qaçıb Rusiya himayəsinə sığınırdılar. Rusiya isə həmin ailələrdən, onların qohumlarından məlumatlar toplamaqla geniş agentura şəbəkəsi formalaşdırmışdı. Gülüstan məliyi Firidunun məktubları buna misal göstərilə bilər [9, 631-632]. Fridun qeyd edir ki, "20 il əvvəl general qraf Suvorov" Həştərxanda olan zaman "oradan Qarabağa, mənim atam məlik Bəylər-Yusifə məktub" yazaraq onu rəiyyəti ilə birlikdə Rusiyaya dəvət etmişdi [9, 631]. O zaman məlik Yusif Bəylər bu istəyi yerinə yetirə bilməmişdi. Bir neçə il sonra general Potyomkin məlik Yusifə eyni təklifi etmişdi, yəni rəiyyətini götürüb Gürcüstana, polkovnik Burnaşevin yanına getsin. Firidunun dediyi kimi, eyni təkliflə sonralar hərbi Qafqaz xəttinin komandanı olan general Potyomkin atası məlik Bəylərin onların "daimi düşməni olan ləzgilər tərəfindən öldürülmüş" olduğunu bilmədən yenə də məktubla müraciət etmişdir [9,631]. Mənbələri araşdırarkən aydın olur ki, Qafqaz sərhədd xəttini möhkəmləndirmək üçün Rusiyanın daxili quberniyalarından uzunmüddətli vergidən azadetmə ilə şirnikdirilib məskunlaşdırılan əhali ilə yanaşı, Cənubi Qafqazdan da xristian əhalinin bura köçürülməsi planı həyata keçirilmişdir. Sonralar bir hissəsi Rusiya himayəsində olan xristian əhali ilə yurdlarında qalan əhali arasındakı əlaqələrdən Rusiya dövləti bütün gücü ilə yararlanmışdır.

Maraqlı cəhətlərdən biri də odur ki, məliklərin yazdıqları məktublarda onlar özlərini xristian kimi qeyd etsələr də milliyyətcə erməni kimi qeyd etmirlər. Onlar da erməni olmadıqlarının fərqində idilər. Rus məmurlarının məliklərə yazdıqları məktublarda isə onlar mütəmadi olaraq erməni adlandırılmağa başlanılmışdır. Məlik Firidun dayısı məlik Cəmşidlə birlikdə 1000 ailəyə qədər rəiyyəti 1797-ci ilin sentyabrında Gürcüstana gətirdiyini qeyd edir [9, 632]. [v]Əslində isə bu ailələrin sayı çox az idi. Özünü Vərəndə məliyi Cümşüd adlandıran şəxs xahişnaməsində, Qarabağdakı əhali "erməni" yox "xristian" adlandırır, digər yerdəkiləri isə erməni kimi qeyd edir. Məktubdan görünür ki, məliyin tabeliyində xristian əhali ilə yanaşı müsəlmanlar da var [9, 633].

Fridunun da məktublarından göründüyü kimi xanlıqlarda yaşayan keşişlər və məliklər xristian təəssübkeşliyi ilə Rusiyanın agentura şəbəkəsinə cəlb olunmuşdular. Görünür Qarabağ xanı İbrahim xan artıq bəzi məliklərin xəyanətindən xəbərdar olmuşdu. Məktublaşmalar, onlardan hakimiyyət mənsublarının xəbərdar olması sübut edir ki, xanlıqda kəşfiyyat və əks-kəşfiyyat qurumları fəaliyyət göstərmişdir. Xana, xan hakimiyyətinə xəyanət edən Yusif-Bəylər və oğlu Firidun (Fridon) kimi digər satqınların cəzalandırılması sübutdur. Qarabağ xanı İbrahimxəlil xan xəyanətinə görə Firidunu

(Fridon) cəzalandırmış və əmlakını müsadirə etdirmişdi [9, 631]. Qeyd etmək yerinə düşər ki, Xan hakimiyyəti əhalini dini mənsubiyyətinə görə bölməyə meylli olmamışdır. Ancaq rus generallarının, keşişlərin, tacirlərin məktublarında "xristian"lara təzyiqlər xüsusi vurğulanır, dini hisslər qızışdırılırdı. Əhalini dini təəssübkeşliklə öz tərəfinə çəkmək Qafqazı tam ələ keçirməyə cəhd edən Rusiya hakimiyyətinə sərf edirdi.

S.Burnaşevin başçılığı ilə rus qoşunları və Kartli-Kaxet xanı İraklinin qoşunları Qarabağın hücum məqsədilə Gəncəyə gələndə, məlik Fridunun onlara "xidməti" İbrahim xanı qəzəbləndirmişdi. Xəyanətinə görə cəzalanacağından qorxan Fridun İraklinin yanına qaçıb onun xidmətinə girmişdi [9, 631]. Artıq xəyanətinin üstü açıldığı üçün Qarabağa qayıda bilməyən Fridun, V.Zubovun başçılığı ilə rus ordusu Şimali Azərbaycan torpaqlarına hücum edən zaman onun yanına gedərək xidmətinə girməyə çalışırdı. Zubova arxalanaraq Qarabağdan vaxtilə onun tabeliyinə verilmiş kəndlərin əhalisinin "qaçırılmasına" çalışırdı. Fridun məktubunda qraf Zubovun yanına gedərək onun xidmətinə girmək və "Qızılbaşda qalmış rəiyyətini Rusiyaya aparmaq üçün" çalışdığını qeyd edir [9, 631].

*Nəticə*. XVIII-XIX yüzillikdə bəhs etdiyimiz mövzu ilə bağlı müasir tarixşünaslığımızda yeni baxışlarla kifayət qədər araşdırmalar olsa da [5; 6; 7; 8;], bu istiqamətdə araşdırmalar davam etdirilməlidir. Çünki üç yüz il boyunca mxitaristlər, musin-puşin məktəbindən dərs alanların əleyhimizə yazdıqlarına qısa müddətdə tam cavab vermək, formalaşdırılmış fikirləri dəyişdirmək çətindir.

XIX yüzilliyə qədər Qarabağda olan xristian əhali türklər olmuşdur və onların sonradan köçürülən erməni haylara heç bir aidiyyatı yoxdur.

Tarixi ədəbiyyatda xristian əhaliyə "zülm verilməsi "kimi fikirlərin heç bir əsası yoxdur və mənbələrdən də görünür ki, xanlığa-hakimiyyətə xəyanət edənlər cəzalandırılıb. Ağvəng yaxud Qanzasar (Gəncəsər) yepiskopu Sərkislə general Knorriqin yazışması bu separatçılığın bariz nümunəsidir [9, 638].

Azərbaycanın şimal torpaqları Rusiya imperiyası tərəfindən işğal olunandan sonra, işğala qədər burada yaşamış xristian türklər də yurdlarından didərgin düşdülər. Müxtəlif yerlərə dağılan və işğalla barışmayan həmin əhali İslamı qəbul edərək eyni dildə danışdığı əhaliyə qarışdılar. Qarabağ xristianlarından az sayda xaricə gedənlər içərisində xristian türklər də var idi. Onlar dinlərini saxladılar, ancaq "erməni" adlandırılmalarına baxmayaraq türkcə danışıqlarını hələ də itirməyiblər.

Qarabağın yerli xristian türkləri ilə sonradan gələn digər xristianlar qarışdırılmamalıdır. Qarabağ ərazisindəki vənglər (kilsə) xristian türklərə və müxtəlif səbəblərdən bura gəlmiş qafqazdilli udinlərə aiddir.

İndiyə qədər tarixi ədəbiyyatlarımızda, ümumiyyətlə rus dilindən tərcümələrdə "Persiya" istilahı "İran" kimi tərcümə olunub. Ancaq hesab edirik ki, XIX yüzilliyin əvvəlləri üçün, o dövrə xas olan "Qızılbaş", sonrakı dövrlər üçün isə "Qacar" istilahını işlətməyimiz daha doğru olar.

Qarabağ ərazisindəki məliklər mahal naibləri idi, sadəcə olaraq onlar xristian əhali yaşayan mahalların naibləri olduqları üçün "məlik" adlanmışdır [3, 38].

Ermənilər, Osmanlı və Qacar dövlətlərindən Azərbaycanın şimal, Rusiyanın işğalı altındakı ərazilərə köçürüləndə, qaçıb dağılmış yerli türk əhalisinin yurdlarında məskunlaşdırılırdılar. Bunu hətta erməni müəllifləri zamanla təsdiq etmişdilər. Mənbələr təsdiq edir ki, erməni köçkünləri "əhali tərəfindən tərk edilmiş kəndlərdə məskunlaşmağa can atırdılar. Onlar əsasən məhsuldar, suvarılan torpaqlar idi, həmçinin burada hazır evlər var idi" [17]. 1828-1829-cu illərdə ermənilərin kütləvi məskunlaşdırılmasından sonra yeni gələn ermənilərlə yerli türk əhalisi arasında mübahisələr yaranmağa başladı. Müharibə dövründə müxtəlif yerlərə, "dağlara qaçmış əhali 1829-cu ildə" geri qayıdanda yurdlarında erməniləri gördülər [17]. Müharibədən sonra yerlərinə qayıtmış əhali "öz evlərinin tutulduğunu gördü, onlar yeni ev sahibləri ilə mübahisələrə girdilər, bəzən qalib gəlsələr də, əsasən güzəştə getməyə məcbur olurdular, ya yaxınlıqdakı əlverişsiz yerlərdə, ya da dağlara qayıdıb özlərinə yeni kəndlər qurub, yeni yerdə daimi məskunlaşırdılar". Rusiya işğalı xalqların başına müsibətlər gətirdi, bütün müsibətlərlə yanaşı, bizim başımıza erməni kimi tayfa ilə qonşu olmaq müsibəti gətirdi.

## ƏDƏBİYYAT

1. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Çaşıoğlu, 2009, 620 s.

2. Qarabağnamələr. Birinci kitab. Bakı: Yazıçı, 1989, 192 s.
3. Mustafayev Q.X. Azərbaycanın müasir dövlətçilik tarixi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2017, 128s.
4. Mustafayev Q. "Erməni vilayəti"nin yaradılması haqqında / Qafqaz böyük sarsıntılar şəraitində: Tarixi təcrübə, müasir dövr və perspektivlər. Respublika elmi konfransı, Bakı, 2017, s.77-78.
5. Mustafazadə T. Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 333 s.
6. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 246 s.
7. Nəcəfli G. Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin mənbələrinə dair // AMEA Milli Tarix Muzeyi. Bakı, 2015, s.88-100.
8. Şükürov K. Türkmənçay-1828. Tarixi xronika. Bakı: Çaşıoğlu, 2006, 188 s.
9. Акты, собранные Кавказской археографической комиссией. В 12-и тт. Под ред. А. Берже. т.I, Тифлис: Типография Глав.Управ. Наместника Кавказа, 1866, 815 с.
10. Акты, собранные Кавказской археографической комиссией. В 12-и тт. / Под ред. А. Берже. Т.II, Тифлис: Типография Глав.Управ. Наместника Кавказа, 1868, 1237 с.
11. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг.: В 3-х ч., ч.1. СПб., 1869, 620 с.
12. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг.: В 3-х ч., ч.2. СПб., 1869, 601 с.
13. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг.: В 3-х ч., ч.3. СПб., 1869, 620 с.
14. Бурнашев С.Д. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, в Типографии Курского Приказа, 1793, 27 с.
15. Вейденбаум, Е.Г., Кавказские этюды. Тифлис, Издание Центральной книжной торговли, 1901, 320 с.
16. Гарабаг: Кюрекчайский договор-200, Баку: Тахсил, 2005, 176 с.
17. Газарян И. Переселение армян из Персии в Армянскую область в 1828 г . / Известия Академии наук Армянской ССР, №7,1957, с.69
18. Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. Баку, Елм, 1990, 144 s.
19. Ереванци С., Джамбр. Памятная книга зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей. Москва, Изд. Вост. лит. 1958. с.400
20. Кавказский Календарь на 1846 год. Тифлис: Типография Главного Управления Закавказским краем, 1845, 247 с.
21. Кавказский Календарь на 1849 год. Тифлис: Изданный от Канцелярии Кавказскаго Наместника,1848, 466 с.
22. Кавказский Календарь на 1850 год. Тифлис: Изданный от Канцелярии Кавказскаго Наместника,1849, 406 с.
23. Крюков М., Путевыя заметки. Георгиевск. Моздок. Эдессия. С.Прасковея и Св.Креста. // Газета "Kavkaz", 1852 г.,№ 60
24. Описание Карабахской провинции, составленное в 1823 году, действительным статским советником Могилевским и полковником Ермоловым. Тифлис, 1866. Переиздан. Баку: Nurlan, 2003, 425 с.
25. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Т.3., Царствование Михаила Федоровича / изданы под редакцией Н. И. Веселовского. Санкт-Петербург: Лештуковская паровая скоропечатня П. О. Яблонского, 1898, 731 с.
26. Сношения России с Кавказом. Вып.1. 1578-1613 гг., (Материалы, извлеч. из Моск. глав. архива М-ва иностр. дел С. Ал. Белокуровым), Москва: Унив. тип., 1889, 584 с.
27. Собирание актов, относящихся к обозрению истории армянского народа. Часть 2-ой. Москва: В типографии Лазаревых института восточных языков, 1838, 504 с.
28. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, 1232 с.

29. Эзов Г.А. Сношения Петра Великаго с армянским народом. С.Петербург: Тип. Имп. акад. наук, 1898, 512 с.

**ГОРХМАЗ МУСТАФАЕВ**
*доктор философии по истории, доцент*
*Азербайджанского Университета Языков*

## ОБ ИСКАЖЕНИИ И ПРЕУВЕЛИЧЕНИИ ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ В КАРАБАХЕ В ИСТОЧНИКАХ XIX ВЕКА

В статье исследуются имеющиеся в источниках XIX в. сведения относительно региона Карабаха, которые были искажены и преувличенно представлены уже в тот период, показаны ошибочные выводы, сформировавщиеся в российской и европейской историографии после завоевания Российской империей западных областей северного Азербайджана, в частности региона Карабаха.

В статье изучены ошибочные искаженные сведения имеющиеся в некоторых источниках XIX в. относительно мусульманского и христианского тюркского населения Карабаха, а также переселенных сюда армян, выражено мнение автора по рассмотренным вопросам.

*Ключевые слова:* Карабахское ханство, агван, мелик, Ибрагим хан.

**GORKHMAZ MUSTAFAYEV**
*Azerbaijan University of Languages*
*associate professor, PhD in history*

## ON FALSİFİCATİON AND EXAGGERATİON OF POLITICAL PROCESSES IN KARABAKH IN NINETEENTH CENTURY SOURCES

The presented paper analyses the exaggeration of the information about the Karabakh region of Azerbaijan in the sources of the 19th century and the falsifications made during that period. After the occupation of Northern Azerbaijan by the Russian Empire in the 19th century, misconceptions about our western territories, especially the Karabakh region, were formed in Russian and European historiography.

The paper examines and analyses the distorted information given in some 19th century sources about the main muslim and christian turkic population of the Karabakh region, as well as the armenians resettled here.

*Keywords:* Karabakh khanate, agvan, melik, Ibrahim khan.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi:22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Ərşad Həsənov, t.e.d. Anar İsgəndərov.*

UOT 930:314; UOT 94(479.24)

**AYDIN MƏMMƏDOV**
*Bakı Dövlət Universiteti*
*Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti*
**aydin.mmmdov.67@ mail.ru**

# AZƏRBAYCANIN 60-70-Cİ İLLƏR TARİXŞÜNASLIĞINDA TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

*Azərbaycanın XX əsrin 60-70-ci illər tarixşünaslığında xalqımızın təbii və mexaniki artımı, məskunlaşması ilə bağlı bir sıra qiymətli əsərlər meydana gəldi. Bu əsərlərdə xalqımızın sosial-iqtisadi, siyasi-ictimai, mədəni və mənəvi problemləri çoxsaylı etibarlı mənbələrə istinad olunmaqla elmi-obyektiv şəkildə öz əksini tapmışdır. Azərbaycanın XX əsrin 60-70-ci illər tarixşünaslığına tariximizin müxtəlif dövrlərinə dair sanballı əsərləri ilə böyük töhfələr verən tarixçi alimlərimiz tarixi demoqrafik mühiti də geniş şəkildə təsvir etməyi bacarmışlar. Belə ki, azərbaycanlı alimlər Vətənimizdə baş verən dağıdıcı müharibələrin və onların doğurduğu aclıq, epidemiya və kütləvi xəstəliklərin əhali artımına və məskunlaşmasına vurduğu ağır nəticələri, o cümlədən sülh danışıqları nəticəsində əldə olunan nisbi siyasi sabitliyin demoqrafik vəziyyətə müsbət təsirini çoxsaylı tarixi faktlarla tədqiq etmişlər.*

*Açar sözlər:* Azərbaycan tarixşünaslığı, Azərbaycan əhalisi, tarixi demoqrafiya, əhali artımı, əhali məskunlaşması.

*Giriş.* Azərbaycanın XX əsrin 60-70-ci illər tarixşünaslığında Vətən tariximizin ən müxtəlif tarixi dövrlərinə dair bir çox qiymətli tədqiqat əsərləri meydana gəlmişdir. Bir-birindən maraqlı bu tədqiqat əsərlərində xalqımızın sosial-iqtisadi, siyasi-ictimai, mədəni və mənəvi problemləri çoxsaylı mənbələrə istinad olunmaqla elmi-obyektiv şəkildə öz əksini tapmışdır. Sözügedən dövrə dair tədqiqat əsərlərində Azərbaycan xalqının təbii və mexaniki artımı, daxili və xarici miqrasiyası, o cümlədən məskunlaşması kimi tarixi demoqrafik proseslərə təsir edən obyektiv səbəblər də işıqlandırılmışdır.

XX əsrin 60-70-ci illərində maraqlı elmi məqalələri ilə diqqəti cəlb edən tədqiqatçılardan biri Məmmədəli Şərifli (1909-1969) olmuşdur. Onun 1978-ci ildə işıq üzü görən "IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri" adlı monoqrafiyası ilkin ərəb və fars mənbələri əsasında tədqiq edilən və sözügedən dövrdə Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatını son dərəcə geniş və elmi-obyektiv surətdə işıqlandıran unikal əsərdir. Bu monoqrafiyada müəllifin diqqət yetirdiyi məsələlərdən biri də əhali demoqrafiyası məsələləsidir. Belə ki, M.Şərifli sözügedən əsərində ayrı-ayrı tayfaların Azərbaycanda məskunlaşması məsələsini mənbələr əsasında araşdırmağa cəhd göstərmişdir: "X əsrin məşhur tarixçisi Məsudi qeyd edir ki, hələ VI əsrdə Qafqaz dağlarında bir sıra istehkamların tikilməsi, səddlərin çəkilməsi, bununla əlaqədar olaraq bəzi tayfaların bu rayona köçürülməsi, buradakı xəzər, türk, sərir və s. tayfaların hücumlarından mühafizə etməkdən ibarət idi" (4, 34-35). M.Şərifli dərhal həmin məlumatın ardınca məsələyə münasibətini bildirərək: Bu tayfaların əksəriyyəti çox qədimdən burada yaşayan yerli tayfalar idi" – deyə, yazır.

M.Şərifli, çoxsaylı türk tayfalarının Azərbaycana tarixən şimaldan gəldiyini və burada əvvəldən məskun olan türkdilli etnoslarla çox tez qaynayıb-qarışdığını həm etnik qohumluqla, həm də ərazinin coğrafi mövqeyi ilə izah edirdi: "X əsrdə Şirvan ərazisində müxtəlif tayfaların olmasının başlıca səbəbi bu ölkənin yaşayış üçün əlverişli olması, hərbi-strateji əhəmiyyətə malik olması, şimaldan cənuba və cənubdan şimala keçib gedən tayfaların burada məskən salması və sair bir sıra tarixi amillərlə izah edilməlidir". M.Şərifli elə bu səbəbdən də istər Qafqazda, istərsə də Azərbaycanda öz dilləri olan yüzlərlə etnosun məskunlaşmasını da bu səbəblə izah edir və fikrini əsaslandırmaq üçün ilkin mənbələrə müraciət edir: "Qafqaz dağlarında yaşayan tayfalar və onların dilləri haqqında ən dəqiqləşdirilmiş məlumatı İbn Hövqəl verir. O yazır ki, deyilənlərə görə Qafqaz dağlarında yaşayan əhali üç yüz altmış dildə danışır, mən əvvəllər özüm bir çox şəhərləri görməyənə qədər bu

şəhərlərin hər birində türk (Azərbaycan) və fars dillərindən başqa yerli dillərin mövcud olmasınadək bunu inkar edirdim" (4, 35-36).

M.Şərifli Azərbaycan xalqının təşəkkülü prosesində müxtəlif türkdilli və digər tayfaların fəal iştirak etdiyini, o cümlədən, bu hadisənin öz əksini yaşayış məskənlərində əks etdirdiyini də əminliklə söyləmişdir: "... Hələ X-XI əsrlərdən başlayaraq təşəkkül etməkdə olan Azərbaycan xalqının tərkibinə bu tayfaların əksəriyyəti qarışıb assimilyasiya etmişdir. Bunlardan bəziləri öz xüsusiyyətlərini və dilini zəmanəmizə qədər saxlamışdır. Məsələn, xəzərlər, albanlar, zıxlar, şəkinlər, dudainlər və başqa tayfaların yalnız adları və yaxud adları ilə bağlı şəhər, kənd, dağ və yer adları qalmışdır" (4, 36).

Burada Azərbaycan tarixinin görkəmli tədqiqatçısı Ziya Bünyadovu (1923-1997) xatırlamamaq olmur. Belə ki, Z.Bünyadov 1965-ci ildə nəşr olunan "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasında sözügedən problemə dair yazır: "Azərbaycan əhalisinin türkləşməsi məsələsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur". Göründüyü kimi, digər tədqiqatçılardan fərqli olaraq Z.Bünyadov türklərin Azərbaycana kənardan gəlməsi fikri ilə nəinki barışmır, əksinə Vətənimizin tarixin ən qədim çağlarından türkdilli tayfaların məskunlaşdığı ərazi olmasını elmi baxımdan daha düzgün olması qənaətinə gəlir. Görkəmli alim fikrinə davam edərək: "Türkləşmə prosesi yalnız türk aborigenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" – deyə, yazmışdır (1, 171; 5).

Z.Bünyadov da Azərbaycanda müxtəlif dillərdə danışan, çoxsaylı etnosların və xalqların məskunlaşmasını özünəməxsus bir xüsusiyyət kimi qeyd edir. Məhz bu xüsusiyyət: "Azərbaycan əhalisinin ərəbləşməsinə mane olmuşdur". Müəllif Qafqaz albanların ərəb xilafəti dövründəki vəziyyətindən bəhs edərkən: "Ola bilsin ki, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb-qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar." – deyə yazır (1, 170).

C.İbrahimov 1962-ci ildə işıq üzü görən "XV əsr Azərbaycan ərazisində feodal dövlətləri" adlı əsərində yazırdı: "Müasir tarixşünaslıqda Azərbaycanın XV əsr sosial-iqtisadi quruluşu İ.Petruşevskinin "XV əsr Azərbaycan dövlətləri" adlı əsəri istisna olunmaqla tədqiq olunmamışdır". Müəllif sözügedən əsərində tarixi demoqrafiya baxımından böyük əhəmiyyət kəsb edən sosial-iqtisadi inkişaf məsələlərinə toxunaraq yazır ki, həmin dövrün səyyah və tarixçilərinin verdiyi məlumatlara görə XV əsrdə Azərbaycanın iqtisadi inkişafı heç də hər yerində eyni səviyyədə olmamışdır (6, 53).

Müəllif 1475-ci ildə Şirvanda olmuş venesiyalı səyyah Ambroco Kontarinin məlumatlarına istinadən yazır: "Sözügedən dövrün səyyah və tarixçilərinin məlumatlarına görə Azərbaycanın şimal hissəsi, yəni Şirvan ölkənin digər əraziləri, vilayətləri ilə müqayisədə iqtisadi baxımdan daha çox inkişaf etmişdir. Ambroco Kontarini Azərbaycanın şimal və cənub ərazilərinin sosial-iqtisadi inkişafı arasındakı bu uyğunsuzluğu, yaxud kəskin fərqi XV əsr boyu, yəni Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mövcud olduğu dövr ərzində bu iki dövlət arasındakı fasiləsiz surətdə davam edən dağıdıcı müharibələrdə görmüşdür. Müəllif haqlı olaraq dağıdıcı münasibətlərin misilsiz fəlakət, aclıq və qırğınlar gətirməsi baxımından Azərbaycanın cənub hissəsinin sosial-iqtisadi durumunu mənfi hal kimi qiymətləndirir. Azərbaycanın şimal hissəsinə gəlincə isə burada şəhərlərin, xüsusən Şamaxının yüksək inkişafını daha çox vurğulayır: "A.Kontarini Şamaxını varlı şəhər, Şirvanı isə məhsuldar və münbit torpaqlı diyar kimi qiymətləndirir. Kontarini Şirvanda Azərbaycanın cənub hissəsi ilə müqayisədə qiymətlərin, xüsusən də ərzaq məhsullarının qiymətlərinin çox aşağı olması da heyrətləndirmişdir" (6, 54).

Nəzərə alsaq ki, ticarət və sənətkarlığın mərkəzləri sayılan şəhərlərin inkişafı, qiymətlərin, xüsusən də ərzaq məhsullarının qiymətlərinin ucuzluğu əhalinin maddi rifahən əsas göstəricilərindəndir, onda bəhs olunan dövrdə Azərbaycanın şimal hissəsində əhalinin normal inkişaf dinamikası haqqında da fikir söyləyə bilərik. Çünki, ayrı-ayrı dövlətlər arasında fasiləsiz müharibələrin Azərbay-

canı böyük bir hərb meydanına çevirdiyi dövrdə sosial-iqtisadi inkişafın yuxarıda sadalanan xüsusiyyətləri diqqət çəkməyə bilmir. C.İbrahimov özü məsələyə münasibət bildirərək yazır: “Tarixçilər Elxanilər dövlətinin süqutundan XV əsrin sonlarınadək 165 ilin keçdiyi və bu illər ərzində cəmi 75 ilin nisbətən sülh şəraitində keçməsində bəhs edirlər. Qalan 90 il fasiləsiz olaraq davam edən münasibətlərdən və çəkişmələrdən ibarət olmuşdur”.

Görkəmli tarixçi Əlisöhbət Sumbatzadənin (1907-1992), 1964-cü ildə nəşr olunmuş “XIX əsrdə Azərbaycan sənayesi” adlı monoqrafiyasında müəllif çarizmin müstəmləkə əsarəti şəraitində Azərbaycanın XIX əsrdə iqtisadi inkişaf dinamikasını geniş surətdə işıqlandıra bilmişdir. Beş bölmədən ibarət bu son dərəcə geniş tədqiqat əsərinin hər bir hissəsi, hər bir bölməsi, hətta ayrı-ayrılıqda belə tədqiq olunan mövzunun əhatə dairəsinin genişliyi, müəllifin son dərəcə zəngin faktoloji materialları və mənbələri elmi dövriyyəyə cəlb etməsi baxımından böyük maraq doğurur.

“Paltar, ayaqqabı və ev məişətində istifadə olunan əşyaların istehsalı” adlanan birinci fəsildə adından da göründüyü kimi müəllif Azərbaycan kəndlisinin və şəhər əhalisinin istehlak etdiyi məhsulların böyük və mühüm sferasını tədqiq etmişdir. Müəllif XIX əsrin 30-cu illərində həmin əsrin 90-cı illərinin sonunadək Azərbaycanın demoqrafik inkişaf dinamikasına, artım tempinə böyük önəm vermiş, tərtib etdiyi son dərəcə dəyərli sxemdə Azərbaycanın ayrı-ayrı bölgələri üzrə həm kişi, həm də hər iki cinsin sayını göstərməklə istehlak və istehsal arasındakı üzvi asılılığın sintezini yarada bilmişdir. Bu cədvəllərdən bəlli olur ki, Azərbaycanın şəhər əhalisi XIX əsrin 30-cu illərində 84 min nəfərdən, həmin əsrin 60-cı illərinin ortalarında 134 min nəfərədək, yəni, 50 min nəfərədək artmışdır (7, 23-44).

Azərbaycan tarixşünaslığında tarixi demoqrafiya məsələlərini özündə əks etdirən maraqlı tədqiqat əsərlərindən biri Tağı Musəvinin 1967-ci ildə işıq üzü görən “Bakı tarixinə dair orta əsr sənədləri” adlı əsərində Azərbaycan tarixinə dair çox maraqlı faktlar öz əksini tapmışdır. Kitabda istifadə olunan ilk mənbələrdən, xüsusilə dövrün ən etibarlı mənbəsi sayılan Fəzlullah Rəşidəddinin “Came ət-təvarix” əsərindən məlum olur ki, Qazan xan 1300-cü ildə Bakıya gəlmiş və Bibiheybət məqbərəsini ziyarət edərək orada məscid tikilməsi haqqında göstəriş vermişdir. Həmin dövrdə Şirvanın hökmdarı olan Fərruxzad bin Əxşican və ya Əxistan isə, məhz Qazan xanın göstərişi əsasında qeyd edilən məscidi tikmişdir (8, 324; 3, 8). Qazan xanın 1295-ci ildə İslam dinini qəbul etməsi təbii ki, Hülakülər dövlətinin tabeliyində olan müsəlman əhalisinə qarşı münasibətini də müsbət mənada dəyişmişdir. Bu isə, əhalidən alınan çoxsaylı vergilərin ləğv edilməsi, ticarət, məhkəmə, rabitə və ictimai həyatın digər sahələrində müsbət addımların atılması – islahatların həyata keçirilməsi ilə nəticələnmişdir. Təbii ki, bütün bu sosial-iqtisadi tədbirlər Azərbaycan əhalisinin təbii və mexaniki artımına müsbət təsir göstərmişdir. Qazan xanın mərkəzi dövləti gücləndirmək cəhdləri nisbi siyasi sabitliyin əldə olunmasına, bu isə oturaq əhalinin məskunlaşması prosesinə ciddi təsir göstərmişdir.

T.Musəvi Osmanlı-Səfəvi müharibələrinin Azərbaycan əhalisinin sosial-iqtisadi və deməli, demoqrafik durumuna ciddi zərər vurduğunu konkret faktlarla tətqiq etmişdir. Müəllif müharibələrin yaratdığı qarışıqlıqdan yetərincə faydalanmağa cəhd göstərən Səfəvi hökmdarlarının hətta vəqf torpaqlarının da öz mülkiyyətləri kimi rəsmiləşdirmələrini məhz həmin illərin xaosu kimi qələmə verir. T.Musəvi adı çəkilən əsərində əsasən fars mənbələri əsasında Azərbaycan əhalisinin sosial-iqtisadi vəziyyətini təsvir etmişdir (3, 41-42).

Öz əsərlərində avropalı səyyahların məlumatlarına geniş yer ayıran görkəmli tədqiqatçı Yaqub Mahmudovun 1972-ci ildə nəşr olunan “Öyrənilməmiş səhifələr” adlı kitabında Azərbaycan Ağqoyunlu dövlətinin yadellilərin təcavüzkarlığına qarşı mübarizəsini, müxtəlif ölkələrlə, o cümlədən Avropa ölkələri ilə qurduğu diplomatik əlaqələri geniş surətdə işıqlandırmışdır. Sözügedən kitabda Azərbaycanın ilk qadın diplomatı Sara xatun, dövrünün görkəmli sərkərdəsi Uzun Həsənin və digər dövlət xadimlərimizin fəaliyyəti, o cümlədən xalqımızın məişəti, adət-ənənələri və həyat tərzi haqqında maraqlar məlumatlar əks olunmuşdur. Məsələn, müəllif toy adətlərimizdən bəhs edərkən: “...O zaman hətta Azərbaycanda da, varlı ailələrin qız köçürərkən Venesiya güzgüsü verməsi dəb düşmüşdü” (2, 18). Kitabda demoqrafik baxımdan maraq kəsb edən ailə quruculuğu, nikah məsələlərinə dair son dərəcə qiymətli olan bilgilər də öz əksini tapmışdır. Buradakı məlumatlardan məlum olur ki, azərbaycanlı ailəsi evinə, ocağına gəlin seçərkən onu ağıllı, xoşxasiyyətli olmasına xüsusi önəm vermişdir. Döyüşlərdən birində əsir düşmüş Trabzon imperatorunu Ağqoyunlu hökm-

darı Uzun Həsənin yanına gətirdikdə ondan soruşmuşdu: "Hansı məbləğdə özümü satın ala bilərəm?" Uzun Həsən isə cavabında: "Arzu etdiyim adam əlimə düşmüşdür. Mən onu pulla qiymətləndirmirəm. Deyilənə görə, sizin Feodora adında ağıllı və xoşxasiyyət qızınız var. Onu mənə ərə verin" – demişdi. Trabzon imperatoru "biz xristian, siz isə bütpərəst olduğunuz halda mən bunu necə edə bilərəm?" – deyə etiraz etdikdə Uzun Həsən "bu məni narahat etmir" demişdi. Bundan sonra Feodora Ağqoyunlu sarayına göndərilmişdi (2, 26). Bu fakt xalqımızın tarixən multikultural dəyərlərə hörmətlə göstərdiyini, irqindən, miliyyətindən və dinindən asılı olmayaraq bütün qadınlara ehtiramla yanaşdığını, analarımızın, qız-gəlinlərimiz ailənin saflıq və ucaqlıq rəmzi, toxunulmazlıq simvolu hesab edildiyini aşkar surətdə göstərir.

Y.Mahmudov sözügedən kitabında Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövlətinin iqtisadi cəhətdən möhkəmlənməsini də, xüsusi olaraq qeyd etmişdir. Bununla bağlı müəllif yazır: "O, hakimiyyətə gələrkən Ağqoyunlu dövləti ərazicə geniş olsa da, iqtisadi və siyasi cəhətdən o qədər də möhkəm deyildi. Tez-tez yadellilərin hücumuna və qarətinə məruz qalmış Ağqoyunlu dövləti ərazisində ümumi iqtisadi tərəqqi pozulmuşdu. Kənd təsərrüfatının inkişaf səviyyəsi xüsusilə aşağı idi" (2, 45). Həqiqətən də, Uzun Həsənin həyata keçirdiyi islahatlara qədər, əhali çoxlu – 31 növ vergi verir və çoxsaylı mükəlləfiyyətlər daşıyırdılar. Təbii ki, bütün bunlar əhalinin təbii və mexaniki artımına mənfi təsir göstərirdi. Ölkədə siyasi sabitliyin olmaması, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən hərbçi əyanların getdikcə qüvvətlənməsi dövlət üçün olduqca təhlükəli idi. Ümumiyyətlə, siyasi sabitliyin olmaması bütün dövrlərdə əhalinin təkrar artımını əngəlləyən ciddi səbəblərdən biri olmuşdur. Tez-tez baş verən feodallararası çəkişmələr əhalinin ərzaq təminatına maneələr yaradır, uşaq ölümünün artması ilə nəticələnirdi. Təbii ki, bütün bunlar görkəmli və uzaqgörən dövlət xadimi Uzun Həsəni narahat etməyə bilməzdi. O, yaxşı başa düşürdü ki, güclü dövlət yaratmaq üçün, onun suverenliyini qoruyub saxlamaq üçün əhalinin sosial-iqtisadi güzəranını, maddi rifahını yüksəltmək lazımdır.

Y.Mahmudov yazır: "Uzun Həsən özündən əvvəlki Ağqoyunlu hakimlərindən fərqli olaraq oturaq əhaliyə arxalanmağın zəruri olduğunu anlayırdı. Buna görə də, o, Ağqoyunlu dövlətini iqtisadi və siyasi cəhətdən qüvvətləndirmək üçün sonralar "Həsən padşahın qanunları" adı ilə məşhurlaşan, hətta XVI əsrdə də qüvvədə qalan "Qanunnamə" hazırlatdı. Bu "Qanunnamə"yə əsasən, kəndlilərdən alınacaq vergilər müəyyənləşdirildi və dəqiqləşdirildi, vergi sistemi nisətən səhmana salındı. Vergi yığan məmurların özbaşınalığı azaldı". Nəticədə, əhalinin vəziyyəti xeyli yüngülləşdi: "Uzun Həsən qanunları ölkədə məhsuldar qüvvələri xeyli canlandırdı, kəndli və sənətkarlardan alınan vergilərin birbaşa xəzinəyə axması təmin olundu. Dövlət iqtisadi cəhətdən xeyli qüvvətləndi" (2, 46).

Ümumiyyətlə, Azərbaycan xalqının ailə quruculuğu ilə bağlı təfəkkür və düşüncə tərzində ailənin əxlaqi-mənəvi dəyərləri, prinsipləri həmişə böyük önəm kəsb edib. Sözügedən kitabda Y.Mahmudov xalqımızın məskunlaşdığı əraziləri də göstərmişdir: "...XV əsrin 60-70-ci illərində Xorasandan Qaramana qədər, Kür çayından İran körfəzinə qədər yerləri əhatə edən Ağqoyunlu dövləti Yaxın və Orta Şərqdə böyük hərbi-siyasi qüvvə idi (2, 24).

Oqtay Əfəndiyevin (1926-2013) Səfəvi dövlətinin tarixinə dair yazdığı əsərlər də böyük maraq və əhəmiyyət kəsb edir. O.Əfəndiyevin 1961-ci ildə nəşr edilən "XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması" adlı əsərində yazır: "İlk mənbələrdəki məlumatların qeyri-səlisliyi bizə sözügedən dövrdə zəhmətkeş kütlələrin və rəiyyətin vəziyyətini aydın şəkildə təsvir etmək imkanını yaratmır. ... Qeyd etmək lazımdır ki, I Şah İsmayıl mərkəzi dövlət yaratmaq işinin öhdəsindən gələ bilmədi" (9, 100). O.Əfəndiyev Səfəvilər dövlətində də istər qızılbaş tayfa başçılarının mərkəzi hakimiyyətə tabe olmamaları, istər fasiləsiz ara müharibələri, bir-biri ilə çəkişmələri, istərsə də Osmanlı-Səfəvi müharibələrinin xalqın sosial-iqtisadi vəziyyətini son dərəcə ağırlaşdırdığı faktoloji materiallar əsasında tədqiq etmişdir: "... Xarici, qeyri-iqtisadi amillər də şəhərlərin yüksəlişi, yaxud tənəzzülü. Bəzən də sonrakı mövcudluğu üçün az əhəmiyyətə malik deyildi. Onların sırasında Səfəvi-Osmanlı müharibələrini (1514, 1533. 1578-1590), feodal çəkişmələrini, aclığı, epidemiyaları və s. göstərmək olar" (9, 108-118, 138).

Beləliklə, Azərbaycanın XX əsrin 60-70-ci illər tarixşünaslığında xalqımızın artım və azalmasına, o cümlədən məskunlaşmasına təsir göstərən mühüm sosial-iqtisadi, ictimai-siyasi proseslər etibarlı mənbələrə istinad olunmaqla elmi-obyektiv şəkildə əks olunmuşdur.

*Nəticə*. Azərbaycanda sovet hakimiyyəti illərində Vətən tariximizin tədqiqinə ciddi diqqət yetirilmir, tariximizin qədim, orta əsrlər dövrünə dair çox az kitablar nəşr edilirdi. Azərbaycanlı tarixçilərin qarşısında əsərlərini yazarkən sovet ideologiyasının müəyyən etdiyi tələb və şərtlərə ciddi surətdə əməl etmək tapşırığı qoyulurdu. Başqa sözlə desək, tədqiqat obyektinin özündə cəmləndiyi informasiyaya hələ həmin informasiya əldə edilmədən öncə bolşevik ideologiyası zorla "yapışdırılırdı". Lakin, sovet dövrünün humanitar elmlər, xüsusilə də tarix elmi üzərindəki ciddi ideoloji nəzarətinə, milli tariximizin tədqiq olunmasına qoyduğu maneələrinə baxmayaraq, Azərbaycanın 60-70-ci illər tarixşünaslığında son dərəcə maraqlı tədqiqat işləri meydana gəldi. Azərbaycanlı alimlər, Vətən tariximizin ictimai-siyasi sferalarının inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını da elmi obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar.

## ƏDƏBİYYAT

1. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. B., Azərnəşr, 1989, 336 s.
2. Mahmudov Y. Öyrənilməmiş səhifələr. B., Gənclik, 1972, 97 s.
3. Musəvi T. Bakı tarixinə dair orta əsr sənədləri. B., AzSSR EA, 1967, 149 s.
4. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B., Elm, 1978, 343 s.
5. Буниятов З. Азербайджан в VII-IX вв. Б., АН АзССР, 1965, 383 с.
6. Ибрагимов Дж. Феодальные государства на территории Азербайджана. Б., АПИ, 1962, 111с.
7. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в. Б., АН АзССР, 1964, 500 с.
8. Фазлуллах Рашид-ад-дин. Джами-ат-таварих. Б., АН АзССР, 1957, 540 с.
9. Эфендиев О. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Б., АН АзССР, 1961, 207 с.

**АЙДЫН МАМЕДОВ**
*Доцент Бакинского Государственного Университета*

## ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В ИСТОРИОГРАФИИ АЗЕРБАЙДЖАНА В 60-70-Х ГГ.

В историографии Азербайджана 60-70-х годов XX века появился ряд ценных работ, связанных с естественным и механическим ростом и народонаселением нашего народа. В этих произведениях научно и объективно отражены социально-экономические, политические, бытовые, культурные и духовные проблемы нашего народа со ссылкой на многочисленные достоверные источники. Наши историки, внесшие большой вклад в историографию Азербайджана в 60-70-е годы XX века своими значительными трудами, посвященными различным периодам нашей истории, сумели также описать историческую и демографическую среду в широком смысле. Так как, азербайджанские ученые изучили последствия разрушительных войн, тяжелых голодовок, а также эпидемий и массовых заболеваний к роста населения и народонаселения, в нашей стране а также положительное влияние относительной политической стабильности на демографическую ситуацию с многочисленными историческими фактами.

*Ключевые слова*: Азербайджанская историография, населения Азербайджана, историческая демография, рост населения, народонаселение.

**AYDIN MAMMADOV**
*Associate professor of Baku State University*

## HISTORICAL DEMOGRAPHIC ISSUES IN THE 60-70'S HISORIOGRAPHY OF AZERBAIJAN

A number of valuable works related to the natural and mechanical growth and population of our people appeared in the historiography of Azerbaijan in the 60-70s of the XX century. These

works, with reference to numerous reliable sources, scientifically and objectively reflect the socio-economic, political, social, cultural and moral issues of our people. Our historians, who made a great contribution to the historiography of Azerbaijan in the 60-70s of the twentieth century with their significant works dedicated to various periods of our history, were able to describe in detail the historical and demographic environment. Since, Azerbaijani scientists investigated both destructive wars, famine, epidemics and mass diseases in our country, as well as their grave consequences, caused great damage to population growth and population growth, as well as the positive impact of relative political stability on the demographic situation.

*Keywords:* Azerbaijani historiography, Population of Azerbaijan, historical demography, population growth, settle of population.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 fevral 2020-ci il.*
*Məqalənin çapa qəbul olma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. A.İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ULDUZ PAŞAYEVA**
*BDU, Tarix fakültəsi, böyük elmi işçi*
**star.miri@mail.ru**

# XIX ƏSRİN II YARISINDA ŞAMAXI QƏZASI ÜZRƏ ƏHALİNİN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

*Məqalədə XIX əsrin II yarısında Şamaxı qəzası üzrə əhalinin ailə-nikah, doğum-ölüm göstəriciləri araşdırılır. XIX əsrin II yarısında qəzada baş verən demoqrafik proseslər "Qafqaz təqvimi"nin məlumatlarına əsaslanaraq təhlil edilir. Aparılmış təhlillər göstərir ki, nikahların bağlanması və pozulması prosesinin özü də əhalinin təbii artımına daha çox təsir edən amildir. Aparılan təhlillərdən və toplanmış materiallardan bölgələrin tarixi-demoqrafik baxımdan öyrənilməsində mənbə kimi istifadə oluna bilər və əhali problemlərinin araşdırılmasının əhəmiyyətini daha da aktuallaşdırar.*

*Açar sözlər:* Şamaxı, qəza, şəhər, əhali, nikah, boşanma, doğum, ölüm, təbii artım.

*Giriş*. Şamaxı xanlığı 1747-ci ildən 1820-ci ilədək mövcud olmuşdur. Xanlığın paytaxtı Şamaxı şəhəri, arabir Yeni Şamaxı (Ağsu), ən sonda isə Fitdağ şəhəri olmuşdur.

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində çar Rusiyası ilə Qacarlar İranı arasında baş vermiş müharibələrin nəticəsində bağlanmış Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın tarixi torpaqları bölüşdürülərək iki yerə (Şimali Azərbaycana və Cənubi Azərbaycana) parçalanmışdır. Şimali Azərbaycanın torpaqları bütünlükdə Rusiyaya qatılmış, Cənubi Azərbaycanın ərazisi isə Qacarlar İranının tərkibində qalmışdı [1]. Bu parçalanma əhalinin həyat tərzinə də mənfi təsir göstərmişdir.

Azərbaycanın Arazdan şimalda yerləşən xanlıqlarının çar Rusiyası tərəfindən işğal olunmasından sonra Şamaxı xanlığı tarixi mənbələrdə "Şirvan xanlığı" adı ilə xatırlanır.

Azərbaycanın ən iri xanlıqlarından olan Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimali Azərbaycanın ələ keçirilməsində mühüm əhəmiyyət kəsb edirdi. Şamaxı xanlığı digər xanlıqlar arasında mərkəzi mövqe tuturdu. Hərbi-strateji və sosial-iqtisadi proseslərin gedişatı Şamaxının demoqrafik vəziyyətinə öz təsirini göstərmişdir.

Şamaxı qəzası çar Rusiyasının 1840-cı il 10 aprel tarixli inzibati islahatına əsasən Kaspi vilayətinin tərkibində yaradılmışdır. Quba, Bakı, Cavad və Göyçay qəzaları ilə həmsərhəd idi.

Şamaxı quberniyası çar Rusiyasının 1846-cı il dekabr tarixli inzibati islahatına əsasən Zaqafqaziyada təşkil edilmiş 4 quberniyadan (Tiflis, Kutaisi, Şamaxı, Dərbənd) biri idi. Azərbaycan ərazisinin əsas hissəsi Şamaxı quberniyasının tərkibinə daxil edilmişdir. Quberniyanın tərkibinə Şamaxı, Şuşa, Nuxa, Bakı və Lənkəran qəzaları daxil idi. Şamaxı şəhəri 1859-cu ildə zəlzələ nəticəsində dağılandan sonra quberniyanın inzibati mərkəzi Bakıya köçürüldü və o, Bakı quberniyası adlandırıldı [2].

Şamaxı qəzasının mərkəzi Şamaxı şəhəri idi. 1897-ci ildə Şamaxı qəzasının sahəsi 6.653 kv. km, əhalisi 123.610 nəfər idi. Şamaxı qəzası 1929-cu ildə ləğv edilmişdir [3, 99].

Məqalədə Şamaxı qəzasının demoqrafik vəziyyətini təhlil etdikdə şəhər və qəzalarda qeydə alınan ailə-nikah, doğum və ölüm əmsallarını fərqləndirərək təhlil etməyə cəhd göstərilir.

Tədqiqatın məqsədi bu təhlillərin demoqrafiya tarixinin öyrənilməsində, demoqrafik göstəricilərin təhlilində bir mənbə kimi istifadə edilməsidir.

Mövzunun aktuallığı ondan ibarətdir ki, ilk dəfə olaraq burada mənbələr və rəsmi məlumatlar əsasında XIX əsrin II yarısında Şamaxı qəzası əhalisinin sayı, nikah, doğum, ölüm və təbii artımda baş verən dəyişikliklər və onlara təsir edən amillər kompleks şəkildə tədqiq edilib ümumiləşdirilmiş, aşağıdakı təhlillər aparılmışdır.

*Demoqrafik göstəricilər*. XIX əsrin II yarısında Şamaxı bölgəsində gedən demoqrafik proseslərin öyrənilməsi, təbii artım, doğum, ölüm, nikah və boşanma hallarının statistik rəqəmlər əsasında təhlili mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, əhalinin say dinamikası onun təbii artım göstəricilərinin fərqini müəyyən edir. Bu göstəricilər əhalinin təkrar istehsalının əsasını təşkil edən əsas demoqrafik amillərdən biridir.

Əhalinin artımı təbii artımla yanaşı mexaniki artım vasitəsilə də tənzimlənir. Əhalinin demoqrafik quruluşunda ən vacib göstəricilərdən birincisi əhalinin yaş-cins strukturudur. Əhalinin yaş-cins strukturu üç əsas prosesin təsiri altında formalaşır: doğum, ölüm və əhalinin miqrasiyası.

Rusiyanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti Azərbaycanın ərazisinə və əhalinin say dinamikasına təsir göstərmişdir. 1849-1850-ci il Qafqaz təqviminin materiallarına görə hər iki cins daxil olmaqla Şamaxı şəhərində əhalinin sayı 20.150 nəfər, onlardan 10.351-i kişi, 9.798-i qadın idi. 1848-ci ildə döğulanlardan 272 nəfəri oğlan, 199 nəfəri qız, ölənlərdən 145 nəfəri oğlan və 92 nəfəri qız uşaqları olmuşdur [4, 92].

1864-cü ildə qəzalarda əhalinin say dinamikasını, döğum və ölümün say tərkibini təhlil etdikdə göruruk ki, quberniya üzrə 418.264 nəfər kişi, 385.203 nəfər qadın, onlardan doğulanlarlardan 21.288 nəfəri oğlan və 19.352 nəfəri qız, ölənlərin sayında 14.887 nəfər oğlan və 15.678 nəfər qız uşaqları qeydə alınmışdır. Həmçinin quberniya üzrə qeydə alınmış nikahların sayı 7.171 nəfər təşkil etmişdir. Şamaxı qəzası üzrə nikahların sayı Şuşa qəzasından sonra ikinci yeri tuturdu. Doğulanlar və ölənlər arasında da fərqlər müşayət olunur. Qafqaz təqviminin 1864-cü il məlumatlarında Şamaxı qəzasında ölənlərin sayına nəzər saldıqda kişi və qadınlar arasında cox böyük fərqin olduğunu görürük, yəni 1.298 nəfər kişi və 4.601 nəfər qadının ölmüşdür ( fərq 3.303 nəfər). Qadınlar arasında ölümün daha çox olduğu diqqəti cəlb edir.

**Cədvəl 1.**

**1864-cü ildə qəzalar üzrə doğum və ölümün say tərkibi** [5, s.132,326; 9]

| Qəzalar | Əhalinin ümumi sayı | | Doğulanların sayı | | Ölənlərin sayı | | Doğulanlar və ölənlər arasındakı say fərqi | | Nikahların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | |
| Bakı | 27295 | 24950 | 858 | 727 | 651 | 470 | 207 | 257 | 284 |
| Şamaxı | 96280 | 86038 | 5484 | 5175 | 1298 | 4601 | 4186 | 574 | 1669 |
| Lənkəran | 43357 | 45765 | 2292 | 1206 | 2999 | 2602 | 707 | 1396 | 890 |
| Şuşa | 108488 | 94212 | 7467 | 6484 | 5990 | 4066 | 1477 | 2418 | 2047 |
| Nuxa | 71150 | 69549 | 2604 | 2198 | 2401 | 2063 | 203 | 135 | 1561 |
| Quba | 71694 | 64689 | 2583 | 3562 | 1548 | 1876 | 1035 | 1686 | 720 |
| **Cəmi** | 418264 | 385203 | 21288 | 19352 | 14887 | 15678 | 7815 | 6466 | 7171 |

Onu da qeyd edək ki, 1864-cü il və 1894-cü il arasındakı 30 il müddət ərzində Şamaxı qəzasında rəsmi qeydə alınmış nikahların sayında da fərqlər olmuşdur. O, cümlədən statistik məlumata görə 1894-cü ildə 803, 1895-ci ildə 832, 1896-cı ildə 724, 1897-ci ildə 970, 1898-ci ildə 1213, yəni 5 il müddətinə 4.542 nikah qeydə alınmışdır. Digər qəzalar üzrə say fərqini müqayisə etdikdə görürük ki, Bakı 3.032, Lənkəran 3.668, Quba 9.168, Göyçay 6.118 və Cavad da 3.384 rəsmi nikah bağlanmışdır.

Ümumilikdə qəzalar üzrə 5 il müddətinə olan statistik məlumata əsasən ən yüksək göstərici Quba, Göyçay və Şamaxı qəzalarının payına düşürdü.

Şəhərlər üzrə isə 1894-1898-ci il müddət ərzində Bakı 3.237, Şamaxı 1.247, Lənkəran 288, Quba 888 şəhərlərində rəsmi nikah qeydə alınmışdır. Burada nikahların sayına görə Bakı və Şamaxı şəhərləri üstünlük təşkil edir.

Quberniya üzrə şəhər əhalisinin 5 il müddətinə olan ümumi sayına daxil olan 17.540 nəfər doğulan və 14.218 nəfər ölən, onlardan Şamaxı şəhəri üzrə 2.106 nəfər doğulan, 1.708 nəfər ölən qeydə alınmışdır. Cədvəldən görürük ki, Bakı (doğum 11.607 nəfər, 9.575 nəfər ölüm) və Quba (doğum 2.633 nəfər, 1.899 nəfər ölüm) şəhərlərində də döğum və ölüm əmsalı yüksək olmuşdur.

Quberniyada qəzalar üzrə 5 il müddətinə olan əhalinin ümumi sayına daxil olan 77.209 nəfər doğum və 55.632 nəfər ölüm qeydə alınmış, o cümlədən Şamaxı (doğum 14.311 nəfər, 9.016 nəfər ölüm), Bakı (doğum 4.658 nəfər, 3.129 nəfər ölüm), Quba (doğum 26.163 nəfər, 19.753 nəfər ölüm),

Lənkəran (doğum 12.271 nəfər, 9.518 nəfər ölüm), Göyçay (doğum 14.482 nəfər, 10.485 nəfər ölüm) və Cavad (doğum 5.324 nəfər, 3.731 nəfər ölüm) qəzalarında baş verən döğum və ölüm səviyyəsini müqayisə etdikdə belə bir nəticəyə gəlirik ki, bu qəzalar üzrə ən yüksək göstərici Quba, Göyçay və Şamaxı qəzalarının payına düşmüşdür.

**Cədvəl 2**

**1894-1898-ci illərdə qəzalar üzrə əhalinin təbii artımı** [6, s.296, 299-301]

| Qəzalar və şəhərlər | Nikahların sayı | Doğulanlar | | | | Ölənlərin Sayı | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | | Həmçinin nikahdan kənar doğulanların sayı | | | |
| | | kişi | qadın | kişi | qadın | kişi | Qadın |
| **Bakı qəzası** | | | | | | | |
| 1894-cü ildə | 635 | 481 | 434 | - | - | 278 | 256 |
| 1895 | 556 | 478 | 370 | - | - | 302 | 226 |
| 1896 | 624 | 580 | 528 | - | - | 354 | 311 |
| 1897 | 683 | 447 | 444 | - | - | 451 | 393 |
| 1898 | 534 | 482 | 414 | - | - | 289 | 269 |
| 5 il müddətinə cəmi: | 3032 | 2468 | 2190 | - | - | 1674 | 1455 |
| Ildə orta hesabla | 526 | 494 | 438 | - | - | 335 | 291 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 8,0 | 7,5 | 6,7 | - | - | 5,1 | 4,4 |
| **Şamaxı qəzası** | | | | | | | |
| 1894-cü ildə | 803 | 1386 | 1149 | 1 | - | 830 | 713 |
| 1895 | 832 | 855 | 592 | 1 | - | 526 | 430 |
| 1896 | 724 | 1639 | 1498 | - | - | 944 | 832 |
| 1897 | 970 | 1685 | 1506 | - | - | 1079 | 953 |
| 1898 | 1213 | 2097 | 1904 | - | - | 1523 | 1186 |
| 5 il müddətinə cəmi: | 4542 | 7662 | 6649 | 2 | - | 4902 | 4114 |
| Ildə orta hesabla | 908 | 1532 | 1330 | - | - | 980 | 823 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 9,0 | 14,9 | 12,9 | - | - | 9,5 | 8,0 |
| **Quba qəzası** | | | | | | | |
| 1894-cü ildə | 1889 | 3917 | 3563 | 3 | - | 2105 | 1948 |
| 1895 | 1757 | 2446 | 1995 | - | - | 2103 | 1894 |
| 1896 | 1944 | 2394 | 1841 | 1 | 1 | 2260 | 1937 |
| 1897 | 1797 | 2516 | 2657 | 1 | - | 1949 | 2075 |
| 1898 | 1781 | 2719 | 2115 | 2 | - | 1928 | 1554 |
| 5 il müddətinə cəmi: | 9168 | 13992 | 12171 | 7 | 1 | 10345 | 9408 |
| Ildə orta hesabla | 1834 | 2798 | 2434 | 1 | - | 2069 | 1882 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 11,0 | 16,9 | 14,7 | - | - | 12,5 | 11,3 |
| **Lənkəran qəzası** | | | | | | | |
| 1894-cü ildə | 856 | 1633 | 1364 | 1 | 1 | 1078 | 949 |
| 1895 | 481 | 855 | 592 | 1 | - | 526 | 430 |
| 1896 | 492 | 670 | 520 | 1 | - | 812 | 599 |
| 1897 | 883 | 1768 | 1496 | 2 | - | 1454 | 1028 |
| 1898 | 956 | 1768 | 1605 | 1 | - | 1464 | 1178 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 5 il müddətinə cəmi: | 3668 | 6694 | 5577 | 6 | 1 | 5334 | 4184 |
| Ildə orta hesabla | 734 | 1339 | 1115 | 1 | - | 1067 | 837 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 7,1 | 13,0 | 10,8 | - | - | 10,3 | 8,1 |
| **Qəza üzrə cəmi:** (Cavad və Göyçay daxil olmaqla) | 29912 | 41977 | 35232 | 16 | 5 | 30301 | 25331 |
| Ildə orta hesabla | 5902 | 8395 | 7046 | 3 | 1 | 6060 | 5066 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 9,0 | 13,2 | 11,1 | - | - | 9,9 | 8,0 |
| **Şəhərlər üzrə cəmi** | 6522 | 9339 | 8201 | 198 | 195 | 7731 | 6487 |
| Ildə orta hesabla | 1264 | 1868 | 1640 | 40 | 39 | 1546 | 1297 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 7,6 | 11,0 | 9,7 | - | - | 9,1 | 7,7 |
| **Quberniya üzrə cəmi:** (Cavad və Göyçay daxil olmaqla) | 36434 | 51316 | 43433 | 214 | 200 | 38032 | 31818 |
| Ildə orta hesabla | 7167 | 10263 | 8687 | 43 | 40 | 7606 | 6364 |
| Ildə orta hesabla 1000 qadına olan nisbətdə | 8,9 | 12,8 | 10,8 | - | - | 9,4 | 7,9 |

Aparılmış təhlillər göstərir ki, nikahların bağlanması və pozulması prosesinin özü də əhalinin təbii artımına daha çox təsir edən amildir. Azərbaycan ərazisində 1872-ci ilədək cahil ruhanilərin verdikləri dini fətvaya görə evlilik yaşı qızlar üçün 9, oğlanlar üçün 12 yaş hesab olunurdu. 1872-ci ildən sonra isə qızlar üçün 13 yaş, oğlanlar üçün 15 yaş nəzərdə tutulmuşdu [7, 24].

Ailədə qızların erkən nikahlara və ümumiyyətlə ailədə hansısa məsələyə etiraz etmək hüquqları yox idi. Cox vaxt ailələrdə qız uşaqlarının çoxluğu, həyat tərzinin aşağı olması və imkansızlıq üzündən valideyinlərin qızlarını zorla, dini kəbinlə erkən yaşında ərə verməsi, həmçinin qohumlar arasında evlilik sövdələşməsi qızların kiçik yaşlarında məcburi izdivaca girməyə sövq edirdi.

Çar Rusiyasının Şimali Azərbaycanın müxtəlif qəzalarında həm 1864-cü ildə, həm də 1897-ci ildə apardığı siyahıyaalmaları müqayisə etdikdə əhalinin say dinamikasında əhəmiyyətli dəyişikliklərin olduğunu görürük. Bu baxımdan əhalinin ümumi artım əmsalı, həm də təbii artım əmsalı diqqəti cəlb edir. Bakı qəzasında1864-cü ildə kişi əhalinin sayı 27.295 nəfər, qadın əhalinin isə sayı 24.950 nəfər təşkil edirdisə, 1897-ci ildə kişi əhali 104.420 nəfərə, qadın əhali isə 73.186 nəfərə qədər artmışdır. Göründüyü kimi, 33 il ərzində kişi əhalinin ümumi artım əmsalı 77.125 nəfər və ya 282,5%, qadın əhalinin ümumi artım əmsalı 48.236 nəfər və ya 193,3% təşkil edir. Yaxud, Quba qəzasında 1864-cü ildə kişi əhalinin sayı 71.694 nəfər, qadın əhalinin sayı 64.689 nəfər təşkil edirsə, 1897-ci ildə bu rəqəm kişi əhalidə 96.775 nəfər, qadın əhalidə 84.740 nəfərə çatmışdır. Lənkəran qəzasında 1864-cü ildə 43.357 nəfər kişi əhali, 45.765 nəfər qadın əhali olduğu halda, 1897-ci ildə bu rəqəm artaraq 61.732 nəfər kişi və 50.468 nəfər qadın qeydə alınmışdır. Lakin, bəzi qəzalarda əhalinin say dinamikasında azalma da müşahidə olunur. Məsələn, Şamaxı qəzasında 1864-cü ildə kişi əhali 96.280 nəfər, qadın əhali 16.038 nəfər təşkil etsə də, 1897-ci ildə kişi əhalinin sayı 66.547, qadın əhalinin sayı 57.063 nəfərə enmişdir. Azalma kişi əhali üçün 29.733 nəfər və ya 30,9%, qadın əhali üçün 28.975 nəfər və ya 33,7% təşkil edirdi. 1864-cü ildə 6 qəzada (Bakı, Şamaxı, Lənkəran, Şuşa, Nuxa və Quba) yəni doğulan oğlan və qız uşaqlarının ümumi sayı 40.640 nəfər, ölən oğlan və qız uşaqlarının ümumi sayı 30.565 nəfər, demək bu artım əmsalını K=N-M (K-koeffisent; N-doğulanlar; M-ölənlər) düsturu ilə hesablasaq belə bir nəticə çıxır ki, K=40.640-30.565=10.075 nəfər olmuşdur. Beləliklə, 1864-cü ildə Şimali Azərbaycanın yuxarıda adı çəkilən 6 qəzasında təbii artım koeffisenti 10.075 nəfər təşkil etmişdir.

1897-ci il Ümumrusiya siyahıyaalma materiallarında Şamaxı bölgəsində yaş qrupları üzrə ailələrin say tərkibi, ailə-nikah vəziyyəti haqqında məlumatlar öz əksini tapmışdır. Cədvəl 3- də qəza və şəhərlərdə yaş qrupları üzrə əhalinin ailə tərkibi göstərilmişdir: nikahda olanlar, nikahda olmayanlar,

boşananlar, dullar və ailə vəziyyətini göstərməyənlər. Nikahda olanlara nəzər salsaq görürük ki, 10-12 yaşda nikahda olanlar çox az, 13 yaşdan yuxarı isə nikahların sayında artım hiss olunur.

Cədvəl 3-dən (**bax əlavəyə**) məlum olur ki, Quberniya üzrə 346.407 nikah, onlardan 177.048-i kişi və 169.359-u qadınlar arasında qeydə alınmışdır. Həmçinin şəhərlərdə 70.286 (38.897 kişi, 31.389 qadın) və qəzalarda 276.121 (138.151 kişi, 137.970 qadın), o cümlədən Bakı (78.193 qəzada, 47.918 şəhərdə), Şamaxı (49.939 qəzada, 7.538 şəhərdə), Quba (74.207 qəzada, 5.921 şəhərdə), Lənkəran (56.988 qəzada, 3.343 şəhərdə) və d. bölgələrdə nikahlar qeydə alınmışdır. Şəhər və qəzalar üzrə nikahda olanları müqayisə etsək belə bir nəticəyə gəlirik ki, qəzada və şəhərlərdə bağlanan nikahların sayında xeyli dəyişikliklər olmuşdur. Burada həm də erkən nikahların şəhərlərə nisbətən qəzalar üzrə say tərkibinin artdığını statistik rəqəmlər vasitəsilə görmək olur. Quberniyada yaş qrupları üzrə boşanma halları da diqqəti cəlb edir. Yəni, ən çox boşanma 20-29 yaşda olanlar arasında qeydə alınmışdır. Şamaxı qəzasında isə boşananlar arasında bir o qədər də böyük fərq qeydə alınmayıb.

*Nəticə.* Tədqiqat işində əhalinin nikah, doğum, ölüm və təbii artım əmsalı statistik mənbələr əsasında hesablanmışdır. Həm şəhərlərdə, həm də qəzalarda əhalinin sayının formalaşmasında əsas yeri təbii artım tutur. "Qafqaz təqvimi"nin məlumatlarının müqayisəli təhlili göstərir ki, əhalinin təbii artımında dəyişikliklər baş vermişdir. Burada XIX əsrin II yarısında Şamaxı və digər qəzalar üzrə əhalinin ümumi sayında və təbii artımında baş verən dəyişikliklər təhlil edilmiş, müvafiq cədvəllər verilmişdir. Araşdırmadan belə məlum olur ki, erkən evlilik halları xüsusən kənd yerlərində və şəhərdə məskunlaşan kəndlilər arasında geniş yayılmışdır. Bu evliliyin yoxsul təbəqə və təhsil səviyyəsi aşağı olan və ümumiyyətlə təhsili olmayan insanlar arasında geniş yayılması danılmaz faktdır. Həmin qəzalarda erkən ailə quran qızların əksəriyyəti valideynlərinin razılığı və ya onların təkidi ilə məcburi ailə qurmağa sövq edilirdilər.

Onu da qeyd edə bilərik ki, ilk Ümumrusiya siyahıyaalma materiallarına əsasən 1897-ci ildə Bakı quberniyası üzrə əhalinin ailə vəziyyətinə görə ümumi cəmi 826.716, onlardan 656.721-i qəzalarda və 169.995-i şəhərlərdə, o cümlədən erkən evlilik faktlarının 39 %-i şəhərlərdə, 61 %-i isə kənd yerlərində qeydə alınmışdır. Şamaxı, Bakı, Lənkəran, Quba qəzasında qızların erkən evliliyə, yaxın qanqohumları ilə izdivaca məcbur edilməsi çoxluq təşkil etmişdir.

## ƏDƏBİYYAT

1. Muradov Ş.M. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu:əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər). Bakı, "Elm", 2008, 240 s.
2. Azərbaycan tarixi.Yeddi clddə. IV cild (XIX əsr). Bakı, "Elm" nəşriyyatı, 2007, 504 s.+48 s. illüstrasiya.
3. Paşayeva U.M. Bakı şəhər əhalisinin say dinamikası (1897-1917-ci illər). Dünya azərbaycanlıları:tarix və müasirlik (Elmi-nəzəri toplu). Bakı,"Füyuzat" nəşriyyatı, 2020, 222 s.
4. Кавказский календарь на 1849 год. Изданный при главном управлении наместника Кавказского XXI год. Тифлис 1850 год. В типографии главного управления, 661 s.
5. Кавказский календарь на 1866 год. Изданный при главном управлении наместника Кавказского XXI год. Тифлис 1866 год. В типографии главного управления,1865,661 s.
6. Кавказский календарь на 1901 год. Тифлис. Типография, М.Шарадзе, 1900 год., 778 с.
7. Мурадова А. Вовлечение женщин Азербайджанской ССР в органы государственной власти (20-30-ые годы XX века). Баку, Типография "Нурлан" 2007, 176 с.
8. Первая Всеобщая перепись населения Российской империи 1897 г.: [кн. 1-89] /под редакцией Н. А. Тройницкого. Санкт-Петербург: издание Центрального статистического комитета Министерства внутренних дел, 1899-1905. 61. Бакинская Губерния, 188 стр. - https://www.prlib.ru/item /436609. Müraciət tarixi: 24.04.2021
9. Məmmədova A.Ə., Paşayeva U.M. Şəki rayonunda əhalinin ailə-nikah vəziyyəti (siyahıyaalma materialları əsasında). Bakı, "Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası)" nəşriyyatı, №3, 2015, 228 s.

# ƏLAVƏ

Cədvəl 3

**1897-ci ildə qəzalar üzrə əhalinin ailə vəziyyətinə və yaş qruplarına görə bölgüsü** [8, 33-39]

| Ailə tərkibi: qəzalarda yaş qrupları üzrə | Nikahda olmayanlar | | Nikahda olanlar | | Dullar | | Boşananlar | | Ailə vəziyyətini göstərməyənlər | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| **Bakı qəzası** | **62.070** | **32.586** | **44.443** | **33.750** | **1.590** | **7.874** | **80** | **156** | **265** | **83** | **108.448** | **74.449** |
| 10 yaş | 21.302 | 20.125 | - | - | - | - | - | - | - | - | 21.302 | 20.125 |
| 10-12 | 6.244 | 4.538 | - | 11 | - | 1 | - | - | - | - | 6.244 | 4.550 |
| 13-14 | 3.130 | 2.176 | 4 | 89 | - | - | - | 1 | - | - | 3.134 | 2.266 |
| 15-16 | 4.208 | 2.251 | 23 | 466 | 1 | 5 | - | 2 | - | 1 | 4.232 | 2.725 |
| 17-19 | 6.008 | 1.557 | 302 | 2.173 | 2 | 26 | 2 | 10 | 6 | 2 | 6.320 | 3.768 |
| 20-29 | 16.406 | 1.225 | 10.589 | 13.225 | 153 | 444 | 18 | 58 | 99 | 21 | 27.265 | 14.973 |
| 30-39 | 3.629 | 398 | 15.253 | 9.585 | 337 | 1.044 | 24 | 44 | 71 | 20 | 19.314 | 11.091 |
| 40-49 | 706 | 170 | 9.345 | 4.887 | 317 | 1.485 | 20 | 18 | 30 | 11 | 10.418 | 6.571 |
| 50-59 | 166 | 70 | 4.551 | 2.099 | 264 | 1.762 | 9 | 13 | 6 | 5 | 4.996 | 3.949 |
| 60 və yuxarı yaş | 213 | 55 | 4.313 | 1.158 | 514 | 3.099 | 7 | 9 | 8 | 18 | 5.055 | 4.339 |
| Yaşı məlum olmayan | 58 | 21 | 63 | 57 | 2 | 8 | - | 1 | 45 | 5 | 168 | 92 |
| **Şamaxı qəzası** | **39.288** | **25.540** | **24.289** | **25.650** | **1.095** | **5.819** | **24** | **33** | **36** | **68** | **64.732** | **57.110** |
| 10 yaş | 20.226 | 18.207 | - | - | - | - | - | - | - | - | 20.226 | 18.207 |
| 10-12 | 5.737 | 3.791 | - | 15 | - | 2 | - | - | - | - | 5.737 | 3.808 |
| 13-14 | 2.340 | 1.560 | 6 | 155 | - | 1 | - | 1 | - | - | 2.346 | 1.717 |
| 15-16 | 2.762 | 1.089 | 55 | 1.039 | - | 7 | - | 3 | - | 3 | 2.817 | 2.141 |
| 17-19 | 2.481 | 448 | 382 | 2.232 | 2 | 36 | - | 2 | - | 8 | 2.865 | 2.726 |
| 20-29 | 4.975 | 291 | 5.743 | 9.692 | 109 | 221 | 8 | 14 | 12 | 25 | 10.847 | 10.243 |
| 30-39 | 584 | 57 | 7.356 | 6.861 | 147 | 701 | 8 | 5 | 9 | 8 | 8.104 | 7.632 |
| 40-49 | 101 | 40 | 5.188 | 3.547 | 163 | 1.216 | 1 | 2 | 6 | 9 | 5.459 | 4.814 |
| 50-59 | 37 | 23 | 3.060 | 1.453 | 207 | 1.401 | 6 | 3 | 2 | 3 | 3.312 | 2.883 |
| 60 və yuxarı yaş | 32 | 29 | 2.498 | 653 | 464 | 2.232 | 1 | 2 | 5 | 8 | 3.000 | 2.924 |
| Yaşı məlum olmayan | 13 | 5 | 1 | 3 | 3 | 2 | - | 1 | 2 | 4 | 19 | 15 |
| **Quba qəzası** | **58.941** | **39.415** | **36.097** | **38.110** | **1.617** | **8.768** | **80** | **136** | **36** | **42** | **96.771** | **86.471** |
| 10 yaş | 31.957 | 28.457 | - | - | - | - | - | - | - | - | 31.957 | 28.457 |
| 10-12 | 8.177 | 5.010 | 7 | - | - | - | - | - | - | - | 8.184 | 5.010 |
| 13-14 | 2.616 | 1.803 | 13 | 6 | - | - | - | - | - | - | 2.629 | 1.809 |

**Cədvəl 3 davamı**

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 15-16 | 5.046 | 2.473 | 240 | 1.405 | - | 3 | - | 11 | 1 | - | 5.287 | 3.892 |
| 17-19 | 3.139 | 757 | 582 | 2.927 | 4 | 74 | - | 16 | 3 | 1 | 3.728 | 3.775 |
| 20-29 | 6.925 | 705 | 9.515 | 15.146 | 205 | 408 | 38 | 47 | 18 | 2 | 16.701 | 16.308 |
| 30-39 | 849 | 91 | 11.308 | 10.686 | 351 | 921 | 18 | 32 | 4 | 2 | 12.530 | 11.732 |
| 40-49 | 131 | 45 | 7.336 | 4.948 | 285 | 1.904 | 12 | 17 | 1 | 8 | 7.765 | 6.922 |
| 50-59 | 43 | 23 | 3.727 | 1.967 | 235 | 1.995 | 5 | 9 | 2 | 11 | 4.012 | 4.005 |
| 60 və yuxarı yaş | 39 | 32 | 3.361 | 1.005 | 534 | 3.449 | 7 | 4 | 2 | 16 | 3.943 | 4.506 |
| Yaşı məlum olmayan | 19 | 19 | 8 | 20 | 3 | 14 | - | - | 5 | 2 | 35 | 55 |
| **Lənkəran qəzası** | **42.600** | **25.232** | **28.299** | **28.689** | **1.491** | **4.472** | **55** | **59** | **47** | **43** | **72.492** | **58.495** |
| 10 yaş | 23.424 | 19.021 | - | - | - | - | - | - | - | - | 23.424 | 19.021 |
| 10-12 | 6.378 | 3.008 | 30 | 131 | 1 | 2 | - | - | - | - | 6.409 | 3.141 |
| 13-14 | 1.461 | 849 | 21 | 156 | - | 2 | - | - | - | - | 1.482 | 1.007 |
| 15-16 | 3.676 | 1.347 | 387 | 1.483 | 4 | 11 | 1 | 3 | - | - | 4.068 | 2.844 |
| 17-19 | 2.342 | 518 | 867 | 2.849 | 15 | 23 | 3 | 7 | 2 | - | 3.229 | 3.397 |
| 20-29 | 4.517 | 356 | 8.295 | 11.894 | 210 | 232 | 25 | 22 | 18 | 6 | 13.065 | 12.510 |
| 30-39 | 587 | 58 | 8.511 | 7.145 | 338 | 631 | 11 | 14 | 12 | 8 | 9.459 | 7.856 |
| 40-49 | 108 | 17 | 5.357 | 3.260 | 281 | 1.051 | 4 | 7 | 3 | 6 | 5.753 | 4.341 |
| 50-59 | 26 | 19 | 2.584 | 1.218 | 206 | 1.027 | 6 | 1 | 4 | - | 2.826 | 2.265 |
| 60 və yuxarı yaş | 65 | 17 | 2.245 | 539 | 435 | 1.489 | 5 | 5 | - | 20 | 2.750 | 2.070 |
| Yaşı məlum olmayan | 16 | 22 | 2 | 14 | 1 | 4 | - | - | 8 | 3 | 27 | 43 |
| **Quberniya üzrə cəmi** (Cavad və Göyçay daxil olmaqla) | **272.508** | **163.034** | **177.048** | **169.359** | **7.749** | **35.439** | **294** | **464** | **466** | **355** | **458.065** | **368.651** |
| **Şəhərlər üzrə cəmi** (Cavad və Göyçay sahələri daxil olmaqla) | **56.851** | **32.022** | **38.897** | **31.389** | **1.488** | **8.743** | **105** | **185** | **173** | **142** | **97.514** | **72.481** |
| **Qəzalar üzrə cəmi** (Cavad və Göyçay daxil olmaqla) | **215.657** | **131.012** | **138.151** | **137.970** | **6.261** | **26.696** | **189** | **279** | **293** | **213** | **360.551** | **296.170** |

**УЛДУЗ ПАШАЕВА**
*Бакинский Государственный Университет,*
*Исторический факультет, старший научный сотрудник*

## ДЕМОГРАФИЧЕСКИЕ ПОКАЗАТЕЛИ НАСЕЛЕНИЯ ШЕМАХИНСКОГО УЕЗДА ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

В статье исследуются показатели семейно-брачных отношений, рождаемости и смертности населения Шемахинского уезда во второй половине XIX века. Демографические процессы, происходившие во второй половине XIX века в уезде, анализируются на основе данных «Кавказского календаря». Проведенный анализ показывает, что сам процесс заключения и расторжения браков также является фактором, который в большей степени влияет на естественный прирост населения. Проведенный анализ и собранные материалы могут быть использованы в качестве источников при изучении регионов с историко-демографической точки зрения, что еще более актуализирует значение исследования проблем народонаселения.

*Ключевые слова*: Шамаха, уезд, город, население, брак, развод, рождение, смерть, естественный прирост.

**ULDUZ PASHAYEVA**
*Baku State University,*
*Faculty of History, Senior Researcher*

## DEMOGRAPHIC INDICATORS OF THE POPULATION OF SHAMAKHI DISTRICT IN SECOND HALF OF 19$^{TH}$ CENTU

The article examines the indicators of family and marriage relations, birth rate and mortality of the population of the Shamakhi province in the second half of the 19th century. The demographic processes that took place in the second half of the 19th century in the district are analyzed on the basis of data from the "Caucasian calendar". The analysis shows that the process of contracting and dissolving marriages is also a factor that has a greater extent impact on natural growth of the population. The analysis and material collected can be used as sources in the study of regions from a historical and demographic point of view, which further actualizes the importance of studying population problems.

*Keywords*: Shamakhi, district, city, population, marriage, divorce, birth, death, natural increase.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Aydın Məmmədov, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24); UOT 930.2**

**GÜLNARƏ SƏDRƏDDİNOVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi, elmi işçi*
**ayxan.sadraddinov@mail.ru**

# XIX ƏSRDƏ ŞAMAXI BÖLGƏSİ ÜZRƏ ƏHALİNİN MİLLİ TƏRKİBİ VƏ TƏHSİL SƏVİYYƏSİ (STATİSTİK MƏLUMATLAR ƏSASINDA)

*1813-cü və 1828-ci illərdə Rusiya ilə Qacarlar dövləti arasında bağlanan müqavilələrə görə, İrəvan xanlığı da daxil olmaqla bütün Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının hakimiyyəti altına keçdi. Azərbaycanın siyasi həyatında dönüş nöqtəsi olan bu faciəli tarixi hadisələrlə əlaqədar, ölkədə qeyri-sabit inzibati quruluşun müşahidə olunması, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətin, həmçinin demoqrafiyanın dəyişkənliyinə səbəb oldu. Bu dövrdə əhalinin əsas hissəsinin müsəlmanlardan ibarət olması çarizmin müstəmləkə siyasətinə mane olurdu. Çar Rusiyasi özünə sosial iqtisadi dayaq yaratmaq məqsədilə Şimali Azərbaycana, həmçinin Şamaxıya qeyri-müsəlmanları yerləşdirməyə başladı. Dövlət idarəçiliyi yalnız rus dilində aparılırdı. XIX əsrin birinci yarısından müstəmləkə rejimi altında olan Şimali Azərbaycanda yerli əhali çox ağır milli və dini zülmə məruz qalır, öz dilinin hətta ikinci dil kimi işlədilməsinə mane olunurdu. Ruslaşdırma – xristianlaşdırma istiqamətində atılan addımların təsiri bu dövrün təhsil sisteminin formalaşmasına öz təsirini göstərdi. 1829-cu ildə təhsil nizamnaməsinin qəbul edilməsi ilk belə addımlardan oldu. Şamaxı, Bakı, Quba, Gəncə, Şəki, Şuşa, Lənkəran və digər bölgələrdə qəza məktəbləri yarandı və fəaliyyətə başladı. Bu ikisinifli məktəblərdə şəriət, qiraət, hüsnxət, hesab, rus və Azərbaycan dilləri tədris edilirdi.*

*Açar sözlər*: Azərbaycan, Şamaxı bölgəsi, əhali, müsəlmanlar, qeyri-müsəlmanlar, təhsil, statistik göstəricilər.

*Giriş*. XVIII əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanı öz təsir dairəsinə salmaq uğrunda aparılan mübarizələr, ölkədə sosial-siyasi və siyasi-coğrafi dəyişikliklərə səbəb olmuşdur. Nadir şah Əfşarın ölümündən sonra (1747-ci il) müstəqil xanlıqlara bölünən Azərbaycan ərazisinin şimal hissəsi XIX əsrin əvvəllərində rus ekspansiyasına məruz qaldı [6, s.185-186]. 1801-1804-cü illərdə Gəncə, Qarabağ, Şəki və Şirvan xanlıqları, habelə Borçalı, Qazax, Şəmsəddil və Tabasaran sultanlıqları və Car-Balakən camaatlığı Rusiya imperiyası tərəfindən işğal edildi. işğal edilən bəzi Şimali Azərbaycan xanlıqları kimi Şamaxı xanlığının xanlıq statusu ləğv edilməmişdi. Bu barədə P.Q. Butkovun 1869-cu ildə Sankt–Peterburqda nəşr olunan "Qafqazın yeni tarixinin materiallarına dair 1722-ci ildən 1803-cü ilə qədər" əsərində göstərmişdir ki, Şirvan əslində Şamaxı xanlığı adlandırılmışdır [5, s.130].

Bu dövrdə əhalinin əsas hissəsinin müsəlmanlardan ibarət olması çarizmin müstəmləkə siyasətinə mane ola bilərdi. Çar Rusiyasi özünə sosial iqtisadi dayaq yaratmaq məqsədilə Şimali Azərbaycana, həmçinin Şamaxıya qeyri-müsəlmanları yerləşdirməyə başladı. Ermənilərin Qacarlar dövlətindən Şimali Azərbaycana köçürülməsi isə 1804-cü ildən etibarən həyata keçirilməyə başladı. Ümumən 1600 aysor rus general Pavel Sisianov tərəfindən Şimali Azərbaycana köçürüldü.

1813-cü və 1828-ci illərdə Rusiya ilə Qacarlar dövləti arasında bağlanan müqavilələrə görə, İrəvan xanlığı da daxil olmaqla bütün Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının hakimiyyəti altına keçdi. Azərbaycanın siyasi həyatında dönüş nöqtəsi olan bu faciəli tarixi hadisələrlə əlaqədar, ölkədə qeyri-sabit inzibati quruluşun müşahidə olunması, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətin, həmçinin demoqrafiyanın dəyişkənliyinə səbəb olmuşdu.

XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqları 6 əyalətə (Bakı, Quba, Şəki, Şirvan, Qarabağ, Talış), 2 dairəyə (Yelizavetpol, Car-Balakən) və 2 distansiyaya (Qazax, Şəmşəddil) bölünmüşdü. 1820-ci ildə Şirvan xanlığı ləğv edildi. Rusiyanın müstəmləkə siyasəti, çar məmurlarının özbaşınalıqları geniş yayıldığından bəzən xanlıq dövrü həsrəti çəkilirdi. Rusiyanın müxtəlif yerlərindən Şirvana, yerli əhalinin torpaqları hesabına 6 molokanlar ("zərərli təriqətçilər") köçürülürdü [3, s.5]. Müsəlman ruhanilərin əhali üzərindəki təsirini nəzərə alan çar hökuməti 1829-cu ildə şüyxülislam və müfti vəzifələrini təsis etdi. Lakin XIX əsrin 30-cu illərində Rusiyanın müstəmləkə siyasətinə qarşı baş verən üsyanlar göstərir ki, bu müsəlman əhalini nəzarətdə saxlamaq siyasəti istənilən nəticəni vermədi. Bu isə ölkədə komandant idarə üsulunun ləğvinə gətirib çıxardı.

1841-ci ilin yanvarın 1-dən Zaqafqaziyada inzibati islahat qanununa əsasən Cənubi Qafqaz mərkəzi Şamaxı olmaqla Kaspi (Xəzər) vilayətinə və mərkəzi Tiflis olan Gürcü – İmereti quberniyasına bölündü. Kaspi vilayətinə Şamaxı, Şuşa, Şəki (Nuxa), Lənkəran, Bakı, Quba, Dərbənd qəzaları daxil idi. Yerli əhalinin yuxarı – varlı təbəqəsindən müstəmləkə siyasətində istifadə etmək üçün 1843-cü ildə tərkibi ağa və bəylərdən ibarət olan "ali müsəlman silki" təsis edildi.

Çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli fərmanı ilə Cənubi Qafqaz 4 quberniyaya - Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Keçmiş Kaspi vilayətinə daxil olan qəzalar Şamaxı quberniyasına birləşdirildi, Quba qəzası isə Dərbənd quberniyasında qaldı.

1847-ci ildə Tiflisdə nəşr olunmuş "Qafqaz təqvimi" jurnalında Şamaxı quberniyasının inzibati idarə sistemi və idarə üzvlərinin geniş siyahısı verilmişdir. Verilən idarə sistemi Şirvan bölgəsinin etnoqrafiyası ilə birbaşa olmasa da, bilavasitə bağlıdır [8, s.21-22]. Bundan əlavə, 1859-cu ilə qədər Şamaxı quberniyasına 3 hərbi qubernator rəhbərlik etmişdir. General mayor, baron Aleksandr Yestafeviç Vrangel 1846-1850-ci illərdə, general mayor, Sergey Qavriloviç Çelyayev 1850-1857-ci illərdə, general mayor, knyaz Konstantin Davıdoviç Tarxan-Mouravov 1857-1859-ci illərdə quberniyanın hərbi qubernatorları olublar. 1850-ci ildə quberniya 5 şəhərdən, 1 qəsəbədən, 20 bölgədən və 1 pristavlıqdan ibarət olub. Bölgələr isə mahallara və minbaşılıqlara bölünmüşdür.

Şamaxıda əhalinin yerləşməsini təhlil etdikdə görürük ki, şəhərdə hər iki cins aid olmaqla 20.150 nəfər adam hesablanmışdır. Onlardan 10.351-i kişi, 9.798-i isə qadındır. Əhalinin əsas hissəsi bəylərdən, ruhanilərdən, tacirlərdən, sənətkarlardan ibarətdir. Əhalinin hər iki cinsi daxil olmaqla erməni qriqoryanlar 2.450, katoliklər 200, lüteranlar 25, rus təriqətçilərindən duxoborlar, malakanlar və digərlərindən 300, müsəlmanlar 16.250, yəhudilər 25 nəfər təşkil edirdilər. 1848-ci ildə 272 oğlan, 199 qız doğulmuşdu. Ölənlərdən 145-i kişi, 92-i qadın idi [8, s.94]. Digər bir məlumata əsasən Şamaxıda hər iki cins daxil olmaqla əhalinin sayı 20.000 nəfərə qədər çatır, onlardan ¾ müsəlmanlardan ibarətdir. Bakı quberniyasının Göyçay qəzasının sahəsi 4,156 kvadrat verst və ya 86 kvadrat mil, Bakı qəzasının sahəsi 5,768 kvadrat verst və ya 118 kvadrat mil təşkil edirdi. Nəticə etibarilə Göyçay qəzası bütün quberniyanın 12,22 %- i, Şamaxı qəzası isə 16,73 %-i təşkil edirdi [11, s.103].

XIX əsrin 50-ci illərində Şamaxı quberniyası inzibati cəhətdən Bakı, Şamaxı, Lənkəran, Nuxa və Şuşa qəzalarında ibarət idi. 1851-ci ildə Rusiyada əhali sayının müəyyənləşdirilməsi həyata keçirilmiş üçün IX təftiş əsasında quberniyanın əhalisinin ümumi sayının 603.006 nəfər olduğu müəyyən edilmişdir [12]. Əhalinin ümumi sayı haqqında məlumatlar imperiyanın Maliyyə Nazirliyinin Zaqafqaziya idarəsi tərəfindən təqdim olunmuşdu. Məlum olur ki, əhalinin 319.923 nəfəri kişi, 283.083 nəfəri qadın idi. Kişilərin qəzalar üzrə sayı haqqında məlumat isə Tiflisdən həqiqi dövlət məsləhətçisi Aleksey Fyodoroviç Kruzenştern tərəfindən təqdim olunmuşdu [9, s.154].

Şamaxı şəhəri zəlzələ nəticəsində dağılandan sonra 1859-cu il sentyabrın 25-də Knyaz Baryatinski Şamaxı qubernatoruna, Şamaxı şəhərinin dağılması ilə əlaqədar bütün quberniya idarələrinin dərhal Bakıya köçürülməsinə hazırlıq işlərinə başlanması ilə bağlı əmr göndərir. 1859-cu il dekabr ayının 6-da isə Rusiya imperatoru 2-ci Aleksandr fərman imzalayır. Beləliklə, Şamaxı quberniyasının mərkəzi Bakı şəhəri olur və quberniya Bakı quberniyası adlandırılır. Bronevski S.M. "Qafqazın coğrafiyası və tarixinin ən yeni xəbərləri" əsərinin "Bakı şəhərinin təsviri" adlı bölməsində qeyd etmişdir ki, göstərilmiş bütün bölgələr içərisində Şirvan bölgəsi daha geniş əyalətdir. O Bakıda Şirvanlıların da yaşadığını qeyd etmişdir. Müəllifin XIX əsrə aid bu əsərində ipəkçiliyin Şirvanın kənd təsərrüfatının əsas sahəsi olduğu qeyd olunmuşdur [4, s.434-435].

S.M.Bronevski əsərdə Şirvanın hansı qəza və mülklərə bölündüyünü də qeyd etmişdir: Gerblərə görə Şirvan aşağıdakı qəzaları özündə birləşdirir: Dərbənd, Müşkür, Niyazabad, Şabran, Rustau, Şeşpər, Beş Barmaq, Şamaxı, Qəbələ, Ağdaş, Bakı, Salyan, Cavad. Həmçinin Şirvanın aşağıdakı mülklərə bölündüyünü yazır: Quba xanlığı, Bakı xanlığı, Salyan dairəsi, Şamaxı xanlığı, Şəki xanlığı [4, s.451].

Bakı quberniyasının Şamaxı şəhərində evlərin sayı 4.972, əhalinin sayı 25.087 nəfər idi (onlardan 13.999 nəfəri kişi, 11.088 nəfəri isə qadındır). Göyçay qəzasında 9.990 həyət, 50.053 nəfər əhali (onlardan 27.509 nəfəri kişi, 22.544 nəfəri isə qadındır) yaşayırdı. Şamaxı qəzasında 10.854 həyət, 71.216 nəfər əhali (38.354 nəfəri kişi, 32.862) siyahıya alınmışdı. Göyçay və Şamaxı qəzalarında kəndlərdə əhalinin (hər iki cins daxil olmaqla) yerləşməsinə nəzər yetirsək, Göyçay qəzasında

(şəhərsiz) 1 həyətə orta hesabla 5,01, Şamaxı qəzasında (şəhərsiz) isə 6,57 nəfərin düşdüyünü görərik [11, s.101-102].

İ.P. Petruşevskinin qeydlərinə görə Şirvan vilayətində güclü köçəri tayfalar mövcud deyildi. Bundan əlavə, müəllif Salyan və Mahmudabad mahallarının Şirvan vilayətindən asılı olduğunu yazır [10, s.192]. 1861-ci il və 1872-ci illərdə Şamaxıda baş verən zəlzələlər böyük dağıntı və tələfatlar törətmişdi. 1874-cü ildə isə Ərəş qəzası Şəki (Nuxa) qəzasının cənub hissəsindən ayrılmışdı [10, s.3].

Brockhaus və Efron Ensiklopedik Lüğətinə əsasən, 19-cu əsrin sonunda Şamaxıda 20.008 nəfər yaşayırdı (10.450 kişi və 9.558 qadın). Onlardan "Azərbaycan tatarları" (azərbaycanlılar) 79%, ermənilər 18%, ruslar 3% təşkil edirdi. Dini mənsubiyyətlərinə görə əhalinin 79% -i müsəlmanlar (22% -i sünni, qalanları isə şiə ); qalan 21% -i xristianlar (erməni və pravoslav) idi.

1 yanvar 1885-ci il tarixli statistik nəticələrinə əsasən Şamaxı şəhərində əhalinin ümumi sayı 28.312 nəfər, 1886-cı ildə 22.139 nəfər və 1897-ci ildə 20.007 nəfərlə azalma müşahidə olunmuşdur [12].

**Cədvəl 1.**

| Etnik qrup | Sayı, 1886-cı il | Nisbəti, 1886-cı il | Sayı, 1897-ci il | Nisbəti, 1897-ci il |
|---|---|---|---|---|
| Toplam | 22139 | 100 % | 20 007 | 100 % |
| azərbaycanlı | 17 509 | 79.09% | 16 160 | 80.8 % |
| rus | 668 | 3.02% | 728 | 3.6 % |
| erməni | 3 962 | 17.89% | 756 | 4.2 % |
| digər | … | … | 604 | 3 % |

*Ethno-Caucasus, Этнодемография Кавказа: Шемахинский район (1886-1897 г.)*

Sovet tarixi mənbələrinə görə Azərbaycanın əhalisinin sayı haqqında ilk rəsmi statistik məlumat 1863-cü ilə aiddir. Belə ki, 1863-cü il yanvarın biri üçün verilən məlumata görə Azərbaycanın əhalisi 1.190 min nəfər olmuşdur. 1886-cı ilin rəsmi statistikasına görə isə Azərbaycanda artıq 1.600 min nəfər əhalinin yaşadığı təsbit edilmişdir [7, s.12].

1897-ci ildə Rusiya imperiyası hökümətinin keçirmiş olduğu ilk Ümumrusiya əhali sayımı Azərbaycan Respublikası ərazisini də əhatə edirdi. Belə ki, 19-cu əsrin əvvəllərində Şimali Azərbaycan, yəni hazırki Azərbaycan Respublikasının ərazisi Rusiyanın işğalına məruz qalmış və onun inzibati ərazi vahidlərinə çevrilmişdi. Azərbaycanın tarixində əhali haqqında ilk dolğun demoqrafik qaynaq, məhz 1897-ci il əhali sayımı materiallarından ibarətdir.

**Cədvəl 2.**

**1897-ci ildə Şimali Azərbaycan əhalisinin milli tərkibi**

| Quberniya, qəzalar və şəhərlər | Mövcud əhali (min. nəfər) | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | | Ruslar | | Ermənilər | | Başqa millətlər | |
| | | Min. nəfər | Yekuna nisbətən %-lə | Min. nəfər | Yekuna nisbətən %-lə | Min. nəfər | Yekuna nisbətən %-lə | Min. nəfər | Yekuna nisbətən %-lə |
| Bakı Quberniyası | 826,7 | 485,1 | 58,7 | 52,2 | 6,3 | 77,7 | 9,4 | 211,7 | 25,6 |
| Bakı qəzası | 182,8 | 63,4 | 34,7 | 22,6 | 12,43 | 45,5 | 24,9 | 51,3 | 28,1 |
| Bakı şəhəri | 111,9 | 40,3 | 36,0 | 19,0 | 17,0 | 40,0 | 35,7 | 12,6 | 11,3 |
| Şamaxı qəzası | 121,8 | 89,8 | 73,7 | 14,3 | 11,7 | 11,4 | 9,4 | 6,3 | 4,2 |
| Şamaxı şəhəri | 20,0 | 16,2 | 81,0 | 2,5 | 12,5 | 0,8 | 4,0 | 0,5 | 2,5 |

XIX əsrin birinci yarısından müstəmləkə rejimi altında olan Şimali Azərbaycanda yerli əhali çox ağır milli və dini zülmə məruz qalır, öz dilinin hətta ikinci dil kimi işlədilməsinə mane olunurdu. Dövlət idarəçiliyi yalnız rus dilində aparılır, Azərbaycan türkləri "müsəlman" və "tatar" adlandırılırdı. Lakin təhsilin inkişaf etdirilməsi üçün müəyyən addımlar atıldı. 1829-cu ildə təqdim olunan təhsil nizamnaməsi bu vacib məsələni bir qədər də sürətləndirdi. Tədricən Şamaxı, Bakı, Quba, Gəncə, Şəki, Şuşa, Lənkəran və digər bölgələrdə qəza məktəbləri yarandı və fəaliyyətə başladı. Bu ikisinifli məktəblərdə şəriət, qiraət, hüsnxət, hesab, rus və Azərbaycan dilləri tədris edilirdi.1854-cü il yanvar ayının 18-də Şamaxıda 4 sinifli ilk ibtidai məktəb açıldı. Lakin 1859 il Şamaxıda baş verən güclü zəlzələdən sonra Quberniya mərkəzinin Bakıya köçürülməsi ilə əlaqədar bu məktəb də Bakıya köçürüldü və orada 4 sinifli Ali ibtidai məktəb adı altında fəaliyyət göstərməyə başlamışdı.

Azərbaycanda XIX əsrdə təhsilə böyük ehtiyac duyulurdu. 1848 il aprel ayının 30-da "Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyətinin açdığı rus qız məktəbi 2 il fəaliyyət göstərdikdən sonra 1859-cu il may ayının 30 da maliyyə imkanının tükənməsinə əsasən öz fəaliyyətini dayandırmalı olmuşdu. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda kapitalist cəmiyyətinə xas olan əlamətlərin meydana çıxması, ölkəyə külli miqdarda kapitalın gəlməsi, mədəniyyətin – elm, təhsil və incəsənətin inkişafı yeni ziyalı nəslinin formalaşmasına və Azərbaycan xalqının millətə çevrilməsi prosesinə təkan verdi. Həsən bəy Zərdabi böyük çətinliklə Rusiya hökumətinin razılığını alaraq 1875-ci ilin iyulun 22-də Azərbaycan dilində ilk qəzet olan "Əkinçi"ni nəşr etdirdi.

Şamaxıda yeni üsulla təhsil verən məktəblərin açılmasına səy göstərən ziyalılardan biri Didə təxəllüslü Şirvan şairi Mirzə Nəsrulla Qurbanbəyov olmuşdur. O, XIX əsrin 60-cı illərində Şamaxıda məktəb açmışdır [2, s.151-152]. XIX əsr Azərbaycan şair və maarifçisi, Şamaxıda ruhani ailəsində anadan olan Seyid Əzim Şirvani qəzetin fəal əməkdaşlarından idi. S.Ə.Şirvani 1870-ci ildə özünün "üsuli-cədid" (yeni üsul) məktəbini açır. Bu məktəb mollaxana və mədrəsələrdən fərqlənirdi. Üsuli-cədid XIX əsrin sonları XX əsrin əvvəllərində yaranmış məktəb və mədrəsələrdə tətbiq edilən yeni dərs üsulu, mütərəqqi pedaqoji cərəyan idi. Burada dərslər ana dilində keçirilir, rus dili müstəqil fənn kimi tədris edilirdi. Tədris planına ümumtəhsil xarakterli fənlər, dünyəvi biliklər daxil edilirdi. Əlifba təlimi yeni üsulla aparılırdı. 1869-cu ildə Şamaxı qəza məktəbi Bakı quberniyasının Xalq Maarif Nazirliyinin tabeliyinə daxil idi. Bu qəza məktəbində 7 müəllim, 61 şagird, Şamaxı şəhərində isə 3 müəllimin dərs dediyi və 26 şagirdin təhsil aldığı 3 sinifli şəxsi məktəb fəaliyyət göstərirdi [2, s.175-178].

Azərbaycanın maarif xadimi, yazıçı Sultanməcid Qənizadə 1887-ci ildə institutu bitirib Bakıya gəlmiş, Həbib bəy Mahmudbəyovla birlikdə yeni tipli ilk rus-müsəlman (Azərbaycan) məktəbi (indiki 132 saylı orta məktəb) açmışdır. 1 Azərbaycanda ana dilində məktəblər açılması, dərsliklər yazılması, milli mətbuat və teatrın inkişafında Sultanməcid Qənizadənin xidmətləri var. Dörd hissədən ibarət "Samouçitel tatarskoqo yazıka", "Lüğəti-rusi və türki" (1891), "Rus dilinin dilmancı" (1894), "Samouçitel russkoqo yazıka" (1896), "Kəlidi-ədəbiyyat" (1900, Ə.Cəfərzadə ilə birlikdə), "Lüğəti-türki və rusi" (1904) və s. əsərlərin müəllifidir [2, s.241-242].

**Cədvəl 3.**

**Bakı quberniyası üzrə təhsil müəssisələri barədə məlumat (1861-ci il)**

| Təhsil müəssisəsinin adı | Tədris müəssisələrinin sayı | Təhsil alan oğlanların sayı | Təhsil alan qızların sayı |
|---|---|---|---|
| Şamaxı Qəza məktəbi | 1 | 6 | 82 |
| Nuxa Qəza məktəbi | 1 | 7 | 83 |
| Şuşa Qəza məktəbi | 1 | 7 | 185 |
| Lənkəran İbtidai məktəbi | 1 | 3 | 90 |
| Quba İbtidai məktəbi | 1 | 3 | 30 |
| Cəmi | 11 | 43 | 861 |

*Mənbə*:Кавказский календарь на 1861 год.Тифлис, 1860 г.575 с.

**Cədvəl 4.**

**1863-cü ildə Bakı quberniyasında Qəzalar üzrə şagirdlər və tələbələrin sayı**

| | | |
|---|---|---|
| Bakı | 19 | 148 |
| Şamaxı | 6 | 94 |
| Quba | 2 | 40 |
| Şuşa | 6 | 241 |
| Nuxa | 6 | 56 |
| Lənkəran | 3 | 58 |
| Cəmi | 42 | 637 |

1897-ci ildən sonrakı 114 ili əhatə edən dövrdə Azərbaycan Respublikasının əhalisinin sayı bu dövrdə gedən tarixi, sosial-iqtisadi və siyasi proseslərin gedişatından və xarakterindən asılı olaraq bəzi hallarda kəskin şəkildə azalmış, bəzi dövrlərdə sürətlə artmış, bir müddət də stabil artım dinamikasına malik olmuşdur [1, s.12]. Məsələn, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda məktəbyaşlı uşaqların böyük əksəriyyəti ibtidai təhsildən kənarda qalırdı. Qafqaz Tədris Dairəsinin 1900-cü ilə olan məlumatına görə, Azərbaycanda cəmi 172 ibtidai məktəb fəaliyyət göstərirdi. Bakı quberniyasındakı 95 ibtidai məktəbdə təhsil alan şagirdlərin sayı isə 6197 nəfər idi. Həmin dövrdə bütün Qafqazda məktəbyaşlı azərbaycanlı uşaqların yalnız 7,6%-i ibtidai təhsilə cəlb olunmuşdu [1, s.12].

*Nəticə*. XIX əsrin birinci yarısından başlayan və XIX əsrin ortalarında Qafqazın rus komandanlığının sərəncamındakı bütün qüvvələrin səfərbər edildiyi Rusiyanın köçürmə siyasəti nəticəsində digər bölgələr kimi Şamaxı əhalisinin etnik tərkibi də dəyişikliklərə məruz qalmışdı. XIX əsrin ikinci yarısında Azərbaycanda əhalinin etnik tərkibinə görə ikinci yerdə ruslar idi. Qafqazın Baş hakiminin hazırladığı tədbirlər planına uyğun olaraq ruslaşdırma – xristianlaşdırma istiqamətli atılan addımların təsiri bu dövrün təhsil sisteminin formalaşmasında əsas rol oynadı.

## ƏDƏBİYYAT

*1. Mərdanov M. Azərbaycanın təhsil tarixi. I cild. Bakı: Təhsil, 2011, 295 s.*
2. Şamaxı elm və təhsil. "Şamaxı ensiklopediyası". Bakı: Şərq-Qərb, 2015, 432 s.
3. Xəlilli F. S.Ə.Şirvani adına Şamaxı Tarix-Diyarşünaslıq Muzeyi. Bakı: Gənclik, 2009, 246 s.
4. Броневский С.М. Новейшие географические и исторические известия Кавказе. Часть вторая. Типография С.Селивановского. Русский архив. Алфавитный каталог. Путешествия и описания земель. Москва: Издательство: Тип. С. *Селивановского*, 1823, 485 с.
5. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годь. Часть вторая. Санкт-Петербург: Типография императорской Академии Наук. 1869, 621 с.
6. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку: Элм, 1991, 500 с.
7. Демографический энциклопедический словарь. Москва: Советская энциклопедия, 1985, 608с.
8. Кавказский календарь на 1848 годь. Тифлись: Типография канцелярии наместника Кавказского, 1847, 166 с.
9. О народонаселение России по губерниям и уездам: LXII. Шемахинская губерния //Девятая ревизия. Исследование о число жителей в России в 1851 году Петра Кеппена. Санкт-Петербург: В Типографии Императорской Академии наук, 1857, 297 с.
10. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX веке. Ленинград: Издательство Ленинградского государственного ордена Ленина Университета имени А.А. Жданова, 1949, 382 с.
11. Списки населенных мест Российской империи. По Кавказскому краю. LXV. Бакинская губерния. Составлен главным редактором Комитета Н. Зейдлицем. По сведениям 1859 по 1864 год. Тифлис: Типография главного управления наместника Кавказского, 1870, 103 с.

12. Şahbaz Muradov, Çingiz Baxış. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və rallıqlar. Bakı, 2013, 135 s. - http://www.anl.az/el/Kitab/2013/Azf-275520.pdf [Müraciət tarixi: 07.09.2021].

**ГЮЛЬНАРА САДРАДДИНОВА**
*Бакинский Государственный Университет,*
*Исторический факультет, научный сотрудник*

## НАЦИОНАЛЬНАЯ СТРУКТУРА И ОБРАЗОВАТЕЛЬНЫЙ УРОВЕНЬ НАСЕЛЕНИЯ ШЕМАХИНСКОГО РЕГИОНА В XIX ВЕКЕ (НА ОСНОВЕ СТАТИСТИЧЕСКИХ ДАННЫХ)

Согласно договорам, подписанным между Россией и государством Каджар в 1813 и 1828 годах, все земли Северного Азербайджана, в том числе Иреванское ханство, перешли под власть Российской империи. В связи с этими трагическими историческими событиями, которые являются поворотным моментом в политической жизни Азербайджана, наблюдение за нестабильной административной структурой в стране привело к изменениям социально-экономической и социально-политической ситуации, а также демографии. В то время тот факт, что большинство населения составляли мусульмане, препятствовал колониальной политике царизма.

Царская Россия начала селить немусульман в Северном Азербайджане, а также в Шамахе, чтобы создать социально-экономическую поддержку. Государственное управление велось только на русском языке. В Северном Азербайджане, который находился под колониальным господством с первой половины 19 века, местное население подвергалось суровым национальным и религиозным преследованиям, из-за чего их язык даже не использовался в качестве второго языка.

Влияние шагов, предпринятых в направлении русификации-христианизации, оказало влияние на формирование системы образования этого периода. Принятие в 1829 г. хартии об образовании было одним из первых таких шагов. В Шамахе, Баку, Губе, Гяндже, Шеки, Шуше, Лянкяране и других регионах созданы и начали работу школы скорой помощи. В этих двухклассных школах преподавались шариат, декламация, каллиграфия, арифметика, русский и азербайджанский языки.

*Ключевые слова*: Азербайджан, Шемахинский район, население, мусульмане, немусульмане, образование, статистика.

**GULNARA SADRADDINOVA**
*Baku State Universitety, Faculty of History, Researcher*

## NATIONAL STRUCTURE AND EDUCATIONAL LEVEL OF THE POPULATION OF THE SHAMAKHI REGION IN THE 19TH CENTURY (BASED ON STATISTICAL DATA)

According to the treaties signed between Russia and the Qajar state in 1813 and 1828, all the lands of Northern Azerbaijan, including the Iravan Khanate, came under the rule of the Russian Empire. In connection with these tragic historical events, which are a turning point in the political life of Azerbaijan, observation of the unstable administrative structure in the country has led to changes in the socio-economic and socio-political situation, as well as demography. At that time, the fact that the majority of the population were Muslims impeded the colonial policy of tsarism.

Tsarist Russia began settling non-Muslims in Northern Azerbaijan, as well as in Shamakhi, in order to create socio-economic support. State administration was conducted only in Russian. In Northern Azerbaijan, which was under colonial rule from the first half of the 19th century, the local

population was subjected to severe national and religious persecution, because of which their language was not even used as a second language.

The influence of the steps taken in the direction of Russification-Christianization influenced the formation of the education system of this period. The adoption in 1829 of an education charter was one of the first such steps. Ambulance schools have been set up and launched in Shamakhi, Baku, Guba, Ganja, Sheki, Shusha, Lankaran and other regions. Sharia, recitation, calligraphy, arithmetic, Russian and Azerbaijani languages were taught in these two-grade schools.

*Keywords*: Azerbaijan, Shemakhinsky district, population, Muslim, non-Muslim, education, statistics.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevil Heydərova, t.e.d. Anar İsgəndərov.*

UOT 94(479.24); UOT 930.2

**İLQAR ABDULLAYEV**
*Bakı şəhəri, Nərimanov rayonu, MLK-nın tarix müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru, Əməkdar müəllim*
**ilqar.heyderoglu@mail.ru**

# AZƏRBAYCANIN XARİCİ ÖLKƏLƏRLƏ ƏLAQƏLƏRİ MİF və AŞIQ YARADICILIĞINDA

*Azərbaycan tarixin ən qədim çağlarından qərblə şərq arasında olmuş ticarət əlaqələrində Qızıl körpü rolunu oynamışdır. Haqqında danışılan əlaqələr orta əsrlər dövründə daha da güclənmiş, xalqımızın yaratmış olduğu müxtəlif mif və aşıq yaradıcılığı nümunələrində öz əksini tapmışdır. Bu məqalədə Azərbaycanın xarici ölkələrlə əlaqələrinin mif və aşıq yaradıcılığında öz əksini necə tapmasından danışılır.*

*Açar sözlər*: mif, aşıq yaradıcılığı, folklor, Çin, Gürcüstan.

*Giriş.* Hər hansı bir xalqın keçdiyi tarixi inkişaf yolu, onun xarici ölkələrlə olmuş əlaqələri həmin xalqın mif və əsatirlərində də bu və ya digər dərəcədə öz əksini tapır. Ona görə də miflərin öyrənilməsi həm də tarixi keçmişimizin müxtəlif qaranlıq səhifələrini işıqlandırmağa imkan verir. Digər xalqlar kimi Azərbaycan xalqının da folkloru mifologiya ilə sıx bağlıdır [8, s.294].

Göstərilməlidir ki, bir çox hallarda ayrı-ayrı xalqlar arasında olan yaxınlıq, əlaqə miflərdən də bilinir. Məsələn, Azərbaycan xalqının formalaşmasında mühüm rol oynayan hunlar inanırmışlar ki, Metenin oğlu yer və göydən doğulmuşdur. Buradan aydın olur ki, Metenin oğlunun iki ata-anası vardır. Ata-analardan biri uşağın real, digəri isə miflə bağlı olmuşdur. O da hun inamına görə Yer və göydür. Belə inamlara başqa türk dilli xalqlarda da rast gəlmək olar. Heç uzağa getmədən azərbaycanlıların etnik tərkibində iştirak edən oğuzların mifologiyasından bir hadisəni araşdıraq. ”Basat Təpəgözü öldürdüyü boyu bəyan edər” boyu bu baxımdan çox xarakterikdir. Belə ki, buradan bəlli olur ki, Basatın dünyəvi ata-anası Aruz və onun xanımıdır [7, s.112]. Amma Təpəgöz Basatla ölüm-dirim davasına girərkən ondan kimlərdən olduğunu soruşanda aydın olur ki, onun ikinci mifik ata-anası da vardır. Bu mifik valideynlərdən ana Qaba Ağac-Dünya ağacının, ata isə qağan Aslan Günəşin rəmzidir [13, s.154]. Digər türkdilli xalqların da mifologiyasında aslan və qurd Günəşi təmsil edirmişlər. Bu fakt şübhəsiz ki, bir çox əski xalqlar kimi azərbaycanlıların da öz soy-köklərində iştirak edən soy birləşmələrin köklərini öz onqonlarında axtarmaları ilə, totemlə eyni kökdən olması inamı ilə əlaqədardır. O, soyların məğlubedilməz himayəçisi kimi çıxış edirdi. M.H.Təhmasibin “Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər” adlı məqalələr məcmuəsinin I cildindəki Dədə-Qorqud boyları haqqında məqaləsində də Oğuzun atasının öküz olması göstərilir [5, s.17]. Yakutlarda qu-quşunun nənə, altaylarda ulu əcdad Nişudunun anasının, Aqşinin isə atasının qurd totemi olması da yuxarıda deyilənlərlə kifayət qədər səsləşir [13, s.23]. Bütün bu hallar isə onunla izah olunur ki, Azərbaycan hələ e.ə. II əsrdən Çin və Yaxın Şərq ölkələri ilə Qərb ölkələri arasındakı Böyük ipək yolunun, dünya ticarətinin tranzit yolunda yerləşmiş, özü də bu ölkələrlə geniş iqtisadi, siyasi, mədəni və s. əlaqələr saxlamışdır [15, s.19]. Azərbaycan ərazisində ən qədim ipək parça qalıqları Şamaxı ərazisində aşkar edilmiş I əsrə aid küp qəbirlərdə və Mingəçevirdə II əsrə aid olan katakomba qəbirlərdə tapılmışdır. Son dövrlərdə Azərbaycanın özündə ipək istehsalının kifayət qədər qədim dövrlərdən istehsal olunması haqqında məlumatlar olsa da, əsasən VII əsrdən daha geniş miqyasda istehsal edildiyini nəzərə alsaq, bu parçaların Çin mənşəli olduğunu qəbul etməli oluruq. Çin malları karvan yolları ilə Mərkəzi Asiyadan keçməklə Xəzər dənizi sahilinə gətirilir, buradan isə dənizin o biri tayına keçməklə Kür və Rioni çayları vasitəsilə Qara dəniz sahilindəki Fasis (Poti) şəhərinə çatdırılırdı [15, s.20]. Çindən keçən digər ticarət yolu isə quru yolu olub Mərkəzi Asiya, İran[1], Atropatena Qandzakı vasitəsilə Cənubi Azərbaycandan keçirdi. Göstərilməlidir ki, Qədim Şərq ölkələri, eləcə də Ön Asiyadan təkcə saxsı qab-qacaq yox, həm də «ön asiya tipli» xəncərlər də

[1] *Səfəvilər imperiyası nəzərdə tutulur* – İ.A.

gətirilmişdir ki, onların da qalıqları Azərbaycan ərazisində, Qızılvəngdə, Talışda, Muğanda, Gədəbəydə və s. rayonlarda tapılmışdır. Bu tapıntılır e.ə. II əsrin axırlarından etibarən Uzaq Şərqin bütün ölkələrində, habelə Qafqazda yayılmışdır [15, s.17]. Bu faktları isə Uzaq Şərq ölkələri ilə Azərbaycan arasında olmuş müxtəlif səpkili ticarət və iqtisadi əlaqələrin təzahürü kimi qəbul edə bilərik. Belə əlaqələr isə təbiidir ki, miflərdə də öz əksini tapmışdır. Aydındır ki, bu əlaqələr orta əsrlər dövründə də davam etmişdir. Bütün bu misalları nəzərdən keçirərkən yuxarıda "Kitabi-Dədə Qorqud" dastanında göstərildiyi kimi, Oğuzun atasının öküz olması və bununla da bəzi əski türk xalqları kimi azərbaycanlıların da öz soyköklərində iştirak edən soy birləşmələr və onların ulu babalarının köklərini öz onqonlarında axtarmalarının şahidi oluruq. Bu baxımdan aşağıdakı misalı çəkmək yerinə düşərdi.

Məsələn, Xızır surəti haqqında Mirəli Seyidovun «Yaz bayramı» əsərində göstərilir ki, xalqın mifik inamına görə Xızır yazın istiliyinin insanlaşmışıdır. Elə buna görə də onunla bağlı törən nəğməsində deyilir: «Xızıra çıraq qoyarlar» [3, s.30]. Arxaik inamla səsləşən bu deyim mifoloji baxımdan ayrıca maraq doğurur. İnsanlar yazın tez, uğurlu gəlməsi üçün odu, istini yardıma çağırırdılar. Buna görə də çırağı-odu yandırırdılar və bununla da inanırdılar ki, od çevrəni, torpağı qızdıracaq, nəticədə də onu əkinə hazırlayacaq, otu bitirəcəkdir. Belə bir inam əkinçiliklə, maldarlıqla məşğul olan qəbilə birləşmələrində, xalqlarda oxşar görüşlər, adətlər yaratmışdır. Belə ki, Fransız katolikləri də haqqında söz gedən dövrlərdə kilsənin birinci bayramını "təmizlənmə", "saflaşma" günü kimi qəbul edərək ona "şam günü"də demişlər. Həmin gün kəndlilər əllərində şam əkin yerlərini səssizcə gəzir və inanırlarmış ki, şam-od guya oradakı şər ruhları qovur, əkin-biçin işlərinə isə hərarət gətirməklə bolluq, artım bəxş edəcəkdir [18, s.13].

Burada qeyd ermək yerinə düşərdi ki, müxtəlif səfərnamə və tarixi mənbələrə görə Təbrizə Firəngdən silah, Almaniyadan mahud, kətan, yun parçalar, qalay və s. gətirilirdi [13, s.59]. Bu baxımdan hesab etmək olar ki, xalqımızla fransız xalqı arasında çırağa, oda, şama, istiliyə olan inamın eyniliyi yuxarıda göstərildiyi kimi ölkələrimiz arasında mövcud olmuş ticarət-iqtisadi əlaqələrlə də sıx bağlı olmuşdur.

Məlum olduğu kimi, Azərbaycanda həmin dövrlərdə xalça istehsalı da çox yüksək səviyyədə olmuşdur. Belə ki, XVI əsrin II yarısında Azərbaycanda olmuş ingilis səyyahı A. Cenkinsonun məlumatlarına görə Şirvanda o dövrlərdə iki növ-xovlu və hamar (xalı), eləcə də "cicimi" tipli xalçalar toxunmuşdur. Bu tip Şirvan xalıları digər ölkələrdə də məhşur olmuşdur [16, s.65]. Bir çox xarici ölkələrdə XVII əsr Şirvan xalçaları indi də saxlanılır. Məsələn, Londondakı Viktoriya və Albert muzeyində Qafqaz xalçaları içərisində "sumaxı" tipli Şirvan xalçaları saxlanmaqdadır [16, s.21].

Təbiidir ki, bütün yuxarıda göstərilənlər Azərbaycanla Avropa ölkələri arasında olmuş geniş miqyaslı ticarət əlaqələrinə sübutdur. Bu əlaqələr isə yuxarıda göstərildiyi kimi muxtəlif mif və inancların eyniliyində, yaxud da oxşarlığında öz əksini tapmışdır. Belə ki, ticarət və müxtəlif iqtisadi əlaqələr nəticə etibarilə bir qayda olaraq həm də şifahi xalq yaradıcılığında bu və yaxud da digər dərəcədə öz inikasını tapır.

Yəqin ki, bu məsələlər gələcəkdə özünün daha dərin təhlilini tapacaqdır.

Qeyd edək ki, Azərbaycan hələ qədim zamanlardan təkcə Şərq ölkələri ilə deyil, Qərb ölkələri ilə də geniş miqyasda müxtəlif xarakterli qarşılıqlı əlaqələr saxlamışdır. Bu, arxeoloji materiallar və başqa mənbələrlə də sübut olunur. Haqqında söz gedən əlaqələrin izləri folklor materiallarında da qalmışdır.

Azərbaycan xalqının mifik görüşlərlə, inamlarla bağlı adət-ənənəsini, tarix boyu rastlaşdığı, əlaqədə olduğu xalqların mifolojisi ilə qarşılıqlı şəkildə araşdırarkən xalqımızın bu xalqlarla olan əlaqələrinə qəti şəkildə əmin oluruq. Məsələn, «Məlik Məmməd» nağılındakı alma ağacı ilə bağlı mifi başqa türk xalqlarının ulu zoomorfik, mifoloji rəvayətləri, anlayışları ilə əlaqələndirərkən çox sıx uyğunluq, yaxınlıq görürük. Belə ki, burada göstərilir ki, bir padşahın bağında insanı cavanlaşdıran alma ağacı var imiş. Lakin hər dəfə alma yetişəndə bir div səhərə yaxın gəlib onları dərirmiş. Padşah almaların oğurlanmasının qarşısını almaq üçün özünün üç oğlundan ikisini – böyük və ortancıl oğlanlarını bağına gözətçi kimi göndərir. Lakin onların hər ikisini səhərə yaxın yuxu tutur və nəticədə almaların oğurlanmasının qarşısını ala bilmirlər. Yalnız kiçik oğul Məlik Məmməd barmağını kəsib yerinə duz tökməklə yuxusunu qaçırır və səhərə yaxın almaları oğurlamağa gələn divi

öldürür və almaları atasına gətirir. Belə bir motiv, yəni bitkinin adamı cavanlaşdırması ideyası bir çox başqa türk xalqlarının da miflərində vardır. Ümumiyyətlə, Azərbaycan nağıllarında, o cümlədən "Məlik Məmməd" nağılında da bir çox miflər verilmişdir. Bu məqalədə söhbət miflərdən getdiyindən nağılların adlari bəzən onlardakı miflərdən istifadə edildiyi üçün çəkilir.

«Məlik Məmməd»dəki ənənəvi mövzuya biz bəzi digər türkdilli xalqlarda da rast gəlirik. Məsələn, uyğurlardakı "Tuqluq Batur" nağılına nəzər salarkən burada ikinci süjet xəttinin «Məlik Məmməd»dəki süjet xəttinə lap yaxın olduğu məlum olur. Belə ki, "Məlik Məmməd" nağılında Məlik Məmməd div tərəfindən əsir edilib yerin altındakı qaranlıq dünyada saxlanılan bir qızı əsirlikdən azad edib, onu işıqlı dünyaya çıxarır [4, s.173-174]. Amma qardaşlarının xəyanəti ucbatından özü quyuda qalır. "Tuqluq Batur"nağılında da baş qəhrəman Tuqluq Batur Məlik Məmməd kimi qızı azad edib quyudan çıxarır, amma özü orada qalır [19, s.125]. Bu nağılda da "Məlik Məmməd"dəki kimi Tuqluq Batur Simurq quşunun balalarını yemək istərkən əjdəhanı öldürür və Simurq quşu ona kömək edir. Bu ədəbi paralel həmin ənənəvi mövzunun təkcə Azərbaycanda deyil, digər türkdilli tayfalar arasında da geniş miqyasda yayıldığını göstərir. Bu paralel həm də Azərbaycanın qeyd olunan digər türk tayfalarla tarixən olmuş əlaqələrinə sübutdur. Belə ki, Böyük ipək yolunun keçdiyi ölkələrdən biri də Uyğurustan idi. Buna görə də təbiidir ki, buradan gələn tacirlər özləri ilə təkcə ipək və digər malları yox, həm də orada eşitdikləri müxtəlif mifləri, nağılları, şifahi xalq ədəbiyyatının digər janrlarında eşitdikləri nümunələri də gətirirdilər. Beləlklə, Azərbaycanda yaranmış müxtəlif mif və folklorun digər janrlarında uyğurlarda formalaşmış müvafiq janrlardakı detalları, elementləri görürük.

*Aşıq poeziyasinda xarici ölkələr haqqında təsəvvürlərin inikası*. Aşıq yaradıcılığı Azərbaycan ədəbiyyatının mühüm bir sahəsini təşkil edir. XVI əsrədək aşıqlar "ozon" adı ilə məşhur idilərsə, XVI əsrdən etibarən "aşıq" sözü daha çox işlənmişdir və bu da məhəbbət dastanlarının sayının çox olması ilə izah olunur [8, s.295]. Tarixin çox qədim dövrlərindən başlayaraq inkişaf edib gələn bu zəngin yaradıcılıq sahəsi indi də davam və inkişaf eməkdədir. Aşıq xalqın sevimlisi, onun qəlbinə, ürəyinə yaxın bir sənətkardır. O, geniş xalq kütlələrinin içərisində böyük hörmət və məhəbbətlə qarşılanır, xalqın şad və qəmgin günlərində onlarla birlikdə sevinib kədərlənir. Məhz buna görə də aşıq ədəbiyyatı və aşıqlıq sənəti xalq içərisində hörmətlə qarşılanaraq yaşamış, bu gün də yaşamaqdadır. Əvvəlki fəsillərdə göstərildiyi kimi Azərbaycanın ticarət mərkəzləri Avropa ilə Asiya arasında ticarət əlaqələrinin saxlanılması işində böyük rol oynamışdır [17, s.36]. Belə ki, Osmanlı Sultanı II Mehmet tərəfindən 1453-cü ildə Konstantinopolun tutulması ilə Qara dənizlə Aralıq dənizi arasındakı boğazlar Türkiyənin əlinə keçdi, sonradan isə Krımın da Osmanlı imperiyası tərkibinə qatılması Asiya və Avropa arasında Qara dəniz vasitəsilə aparılan ticarət əlaqələrinə ağır zərbə vurdu. Qara dəniz sahillərini Mərkəzi Asiya, oradan da Şərqin digər ölkələri ilə birləşdirən ticarət yolları özlərinin əvvəlki əhəmiyyətlərini itirdilər [17, s.36]. Bu isə təbiidir ki, Mərkəzi Asiya və digər Ön Asiya ticarət mərkəzlərindən Aralıq dənizinə gedən karvan yollarının əhəmiyyətini xeyli dərəcədə artırmış oldu. Belə karvan yolları isə ya Azərbaycan torpaqlarından, ya da Azərbaycan torpaqlarının daxil olduğu feodal dövlətlərin ərazisindən keçirdi [17, s.36]. Azərbaycan şəhərlərinin Avropa ölkələri ilə ticarətində əsasən yüksək keyfiyyətli ipək parçalar, xam ipək, müxtəlif daş-qaş və ədviyyat məhsulları satılırdı. Bu baxımdan təsadüfi deyil ki, Azərbaycan aşıq sənətinin orta əsrlər dövrünə aid olan nümunələrində İranın[*], Misirin, Ərəbistanın, Bağdadın, Türkiyənin, Şamın, Firəngin, Çinin, Mərkəzi Asiyanın adları bu və ya digər dərəcədə hallanır. Təbiidir ki, bütün bunlar Azərbaycanın adı çəkilən ölkələrlə tam müxtəlif - iqtisadi, ticarət, siyasi, mədəni və s. sahələrdə əlaqə saxlamasıyla sıx bağlıdır.

Azərbaycanın qonşu dövlət kimi Gürcüstanla da tarixən müxtəlif səpkili əlaqələri olmuşdur. Orta əsrlər dövründə, Səlcuqilərin vaxtında Alp Arslanın (1063-1072) hakimiyyəti dövründə Gəncə əmiri Şavur müvəqqəti olaraq həm də Ərəmaniyyə vilayətinin hakimi təyin olunur. Şavurun vəfatından sonra onun varisi II Fəzl (1067-1073) Şəddadilər dövlətini idarə etmişdir. Alp Arslan müttəfiqi olan Şavurun varisi, hakimiyyətə 1067-ci ildə atasının ölümündən sonra gəlmiş II Fəzli

[*] *Səfəvilər imperiyası nəzərdə tutulur – İ.A.*

özünün Tiflis və Rustavidəki atabəyi təyin edir [6, s.384]. Təbiidir ki, bu hadisə Azərbaycan və Gürcü xalqları arasında sıx yaxınlığa səbəb olmuşdur.

Bundan başqa XV əsrdə Gürcüstanda hakimiyyətə gəlmiş I Aleksandr çar hakimiyyətini möhkəmləndirməyə çalışırdı və buna görə Samsxe atabəyi I İvaneyə qarşı mübarizə aparırdı. Həmin dövrlərdə gürcü çarı I Aleksandr və onun təsiri altında olan Samsxe hakimi atabəy İvane Azərbaycan Qaraqoyunlu dövlətindən asılılığı qəbul edir və illik bac verməyə məcbur olur. Beləliklə, XV əsrin başlanğıcında Qaraqoyunlu Gürcüstan münasibətləri Qara Yusifin üstünlük qazanması və gürcü çarını bac ödəməyə vadar etməsi ilə nəticələnir [12, s.152]. Bu yaxınlıq isə sonrakı dövrlərdə müxtəlif aşıq yaradıcılığı nümunələrində, məsələn, Aşıq Qurbaninin yaradıcılığında öz əksini tapmışdır. Yeri gəlmişkən qeyd etmək yerinə düşərdi ki, XV - XVI əsrin ən məşhur aşıqları Sarı Aşıq və Qurbani idilər [8, s.294].

Belə ki, onun "Ellərə doğru" qoşmasında deyilir:

Sevdiyimin gürcü imiş atası
Əskik olmaz qoç igidin xatası,
Qaşı kaman, sinən onun butası,
Qatı yay çəkilir qollara doğru [9, s.27].

Göstərilən şer parçasında aşığın dilindən sevgilisinin atasının gürcü kimi verilməsi faktının özü Azərbaycanın orta əsrlərdə Gürcüstanla kifayət qədər sıx əlaqə saxlamasının təzahürü kimi qəbul edilməlidir.

Məlum olduğu kimi Roma papası Türkiyəyə qarşı onun arxasında hərbi ittifaq yaratmaq üçün Trabzona Boloniyalı Lüdoviq adlı bir elçi göndərmişdi. Həmin elçinin Türkiyə əleyhinə təşkil edəcəyi Trabzon – Gürcüstan ittifaqına Uzun Həsən başçılıq etməli idi [11, s.31].

O zamanlar Trabzon – Gürcüstan ittifaqının yaranması, bu ittifaqa isə Uzun Həsənin başçılıq etməsi şübhəsiz ki, Azərbaycanla Gürcüstan arasında müxtəlif səpkili əlaqələrin yaranmasına şərait yaradırdı ki, bu da bəzi aşıq yaradıcılığı nümunələrində də öz təzahürünü tapmışdır. Məsələn, Azərbaycanın Gürcüstanla olan əlaqələri Aşiq Qurbaninin «Gürcünün» adlı şerində də verilib:

Qurbani der sizə: «Ay gürcü qızlar,
Yerdəki çiçəklər, göydə ulduzlar!
Yaralıyam, yaram hey yanar, sızlar,
Var olsun dünyada eli gürcünün!» [10, s.98].

Yuxarıda aşıq yaradıcılığı nümunələrindən göstərilən parçalar təbiidir ki, Azərbaycanın xarici ölkə - Gürcüstanla olmuş müxtəlif səpkili əlaqələrinin bariz sübutudur.

*Nəticə.* Bəli, məlum olduğu kimi Vətənimiz tarixin ən əski çağlarından şərqlə qərb arasında Qızıl körpü rolunu oynamışdır. Buna görə də şərqdən qərbə və əksinə gedən ticarət karvanları əsasən ölkəmiz ərazisindən keçib getmişdir. Aydındır ki, bu ticarət əlaqələrində azərbaycanlı tacirlər də heç də az rol oynamırdılar. Bu baxımdan qeyd etmək istərdim ki, ölkəmizdə yaranmış müxtəlif mif və aşıq yaradıcılığı nümunələrində də məqalədən göründüyü kimi vətənimizin digər ölkələrlə saxlamış olduğu müxtəlif səpkili – iqtisadi, siyasi, ticarət, mədəni, diplomatik və s. əlaqələr öz əksini tapmışdır. Belə ki, ölkəmizə gələn əcnəbi, yaxud öz tacirlərimiz başqa ölkələrə gedərkən özləri ilə təkcə müxtəlif əntiq mallar yox, həm də folklor nümunələrini də aparır, orta əsrlərdə geniş yayılmış karvansaralarda çalıb oxuyurdular. Aydındır ki, belə folklor nümunələri bu yollarla ağızdan ağıza keçərək geniş miqyasda yayılır, son nəticə etibarı ilə xalqımızın müxtəlif ölkələrlə saxlamış olduğu müxtəlif maddi əlaqələrinin şifahi xalq yaradıcılığı, o cümlədən mif və aşıq yaradıcılığı nümunələrində də öz əksini tapmasına səbəb olurdu.

## ƏDƏBİYYAT

1. Aşıqlar. Red.: H.M.Araslı. Bakı: Az. SSR MN Respublika yaradıcılıq evi, 1957, 78 s.
2. Azərbaycan aşıq şerindən seçmələr. 2 cilddə, I c, Bakı: Şərq-Qərb, 2005, 376s.
3. Azərbaycan folkloru Antologiyası. 2 cilddə, I c, Red.: O.Qasımzadə. Bakı: Az. SSR EA nəşriyyatı, 1968, 290 s.

4. Azərbaycan nağılları. 2 cilddə. I c. Bakı: "Beytül-Əhran", 2004, 368 s.
5. Azərbaycan xalq ədəbiyyatına dair tədqiqlər. Red.: H.Seyidov, 7 cilddə, IIIc. Bakı: Azərb. SSR EA, 1991, 257 s.
6. Azərbaycan tarixi. 7 cilddə, II c, Məsul red.: O.Əfəndiyev. Bakı: Elm, 1998, 596 s.
7. Kitabi Dədə Qorqud. Red.: M.Təhmasib. Bakı: Azərnəşr, 1962, 176 s.
8. Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf, 2008, 448s.
9. Qurbani 55 şeir. Bakı: Gənclik, 1972, 62 s.
10. Qurbani. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1990, 228 s.
11. Mahmudlu Y.M. Azərbaycan tarixi. İntibah dövrü. Bakı: Altay dünyası, 1996, 81 s.
12. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı: Çaşıoğlu, 2012, 603 s.
13. Onullahi S. XIII – XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 279 s.
14. Seyidov M.M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983.
15. Ашурбейли С.Б. Экономичкские и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, 150 с.
16. Гейдаров М. Х. Ремесленное производство в городах Азербайджана в XVII вв. Баку: Наука, 1967, 199с.
17. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. /II половина XV – начало XVII вв/ Баку: Издательство Бакинского Университета, 1991, 263 с.
18. Покровская П.В. Народы Франции. Календарные обычаи и обряды странах зарубежной Европы. М.: Наука, 1977, 312 с.
19. Уйгурские народные сказки. Сост. и перевод с уйгурского М.Е.Кабиров и Ш.Т.Шахматов. М., Госполитиздат, 1951, 228 с.

**ИЛЬГАР АБДУЛЛАЕВ**
*Доктор философии по истории, Заслуженный педагог*

## МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА В АШУГСКОМ ТВОРЧЕСТВЕ И МИФАХ

Азербайджан еще с древности играл роль «Золотого моста» в торговых отношениях между востоком и западом. Эти связи стали еще сильнее в средние века отразившись в созданных азербайджанским народом мифах в ашугском творчестве. Эта статья рассказывает о связях Азербайджана с соседними странами которые получили отражение в мифах и ашугском творчестве.

*Ключевые слова*: мифы, ашугская творчество, фольклор, Китай, Грузия.

**ILQAR ABDULLAYEV**
*Doctor of Philosophy in History, Honored Teacher*

## AZERBAIJANS RELATION WITH FOREIGN COUNTRIES IN MYTHS AND ASHUG CREATIVITY

Azerbaijan has playeda golden bridge role in the commersial relations between the West and the East in the oldest period of historu. The relations spoken about developed more in middle-age century and found their reflections in the myths and examples of ashug creativity created by our people. In this article it is spoken about how Azerbaijan s relations with foreign countries find their reflections in myths and ashug creativity.

*Keywords*: myth, ashug creativity, folklore, Chine, Georgia.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Sahin Fərzəliyev, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24); UOT 930.2**

**BİLLURƏ QURBANZADƏ**
*Bakı Dövlət Universitetinin doktorantı*
**billure.qurbanzade@gmail.com**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTU MƏSƏLƏSİ XX ƏSRİN 20-30-CU İLLƏR MÜHACİR TARİXŞÜNASLIĞINDA

*Məqalədə 1920-1930-cu illər mühacir tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin süqutu məsələsi araşdırılmışdır. 1920-ci ildə regionda və Azərbaycanda baş vermiş tarixi hadisələr yüzlərlə və minlərlə azərbaycanlının vətəni tərk edərək yad ölkələrə üz tutmağa məcbur etmişdi. Həmin mühacirlər Azərbaycan yenidən müstəqilliyinin bərpası üçün xarici ölkələrdə fasiləsiz olaraq mübarizə aparmış, böyük zəhmət hesabına qəzet və jurnallar ərsəyə gətirmişlər. Bu əsərlərdə Azərbaycan Xalq Cühuriyyətinin fəaliyyəti və süqutu ilə bağlı qiymətli fikirlər öz əksini tapmışdır.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, M.Ə.Rəsulzadə, 1920-1930-cu illər, aprel işğalı, mühacirət, tarixşünaslıq.

*Giriş.* Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tədqiq edilməsi Azərbaycan tarixşünaslığında mühüm elmi və siyasi əhəmiyyət kəsb edən, geniş və ətraflı araşdırılması hər zaman başlıca vəzifə olaraq qalan aktual problemlərdəndir. Çünki, bugünkü dövrdə müstəqil Azərbaycan dövləti üçün Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dönəmində üzləşdikləri çətinliklər, onun xarici və daxili problemlərə baxışı və bu problemlərin həlli yolları dövlətçilik təcrübəsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Sözü gedən problemin araşdırılması zamanı diqqət yetirilməsi vacib olan ən mühüm hadisələrdən biri Azərbaycan Xalq Cümhuriyyətinin süqutu məsələsidir. Aprel işğalını araşdırarkən biz Azərbaycan Xalq Cümhuriyyətinin o zamankı mövcud vəziyyəti, süqutunun daxili və xarici səbəbləri haqqında geniş məlumatlar əldə edirik. Cümhuriyyətin süqutu məsələsinə həm "Qırmızı Professorlar İnstitutu" məzunlarının tədqiqatlarında, həm də bolşevik tarixçilərinin əsərlərində yer verilsə də, mühacir tarixşünaslığında problem daha hərtərəfli və geniş şəkildə işıqlandırılmış və məsələyə obyektiv yanaşılmışdır. Məqalədə Azərbaycanın yenidən öz müstəqilliyinə qovuşmasında ağlasığmaz fədakarlıqlar göstərən Azərbaycan mühacirlərinin Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti və süqutu ilə bağlı qiymətli fikirləri öz əksini tapmışdır.

*Azərbaycan Xalq Cümhuriyyətinin süqutu məsələsi XX əsrin 20-30-cu illər mühacir tarixşünaslığında.* Azərbaycan Xalq Cümhuriyyətinin süqutu məsələsini araşdırarkən bir daha şahidi oluruq ki, 23 aylıq fəaliyyəti dövründə respublika öz təhlükəsizliyini təmin etmək üçün çox səmərəli fəaliyyət göstərmiş, beynəlxalq şəraitin verdiyi imkanlardan bacarıqla istifadə etmişdir. Belə ki, Osmanlı və Atlanta dövlətlərinin köməyindən istifadəyə yönəlmiş xarici siyasət kursu, ABŞ və Avropa ölkələri tərəfindən tanınma, Qafqaz Birliyinin gerçəkləşməsi istiqamətində aparılan işlər, Ə.M.Topçubaşovun rəhbərlik etdiyi heyətin Paris missiyası Azərbaycan Xalq Cümhuriyyətinin çevik diplomatik fəaliyyətini təsdiq edən tutarlı dəlillərdir. Bu dəlillər müqabilində istər-istəməz belə bir suala cavab vermək lazım gəlir: Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin qorumaq mümkün idimi? Respublikanın daxilində onun süqutuna səbəb olan amillər hansılar olmuşdu?

1920-ci ildə yaranan tarixi şəraitin təhlili göstərir ki, nəinki Azərbaycanın, bütövlükdə Qafqazın işğalı bəlkə də qaçınılması mümkün olmayan tarixi gerçəkliyə çevrilmişdi. Çünki, Qafqaz respublikalarının süqutu daxili amillərlə bağlı deyildi. Qafqaz respublikalarının devrilməsinin başlıca səbəbi xarici amillərlə - konkret olaraq isə rus-bolşevik istilası ilə bağlı idi [3, s.328].

Təbii ki, mühacir tarixşünaslığında da Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi səbəbləri Rusiyanın məmləkəti əsgəri işğal altına alması ilə izah olunur. Lakin, hökümətin süqutunda eyni zamanda köməkçi daxili amillər də müəyyən rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsinə təkan verən daxili amillərin ilk obyektiv təhlilinə M.Ə.Rəsulzadənin əsərlərində təsadüf olunur. M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan tarixi", "Azərbaycan Cümhuriyyəti" kimi əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin bütün aspektlərinə toxunulmuşdur. Lakin aprel işğalı məsələsinə daha geniş

şəkildə 1925-ci ildə yazdığı "İstiqlal məfkurəsi və gənclik" əsərində toxunmuşdur. Əsəri oxuyarkən çox maraqlı məqamlar ortaya çıxır, belə ki, M.Ə.Rəsulzadə göstərilən əsərdə müstəqillik çağlarında Azərbaycanda istiqlal şüurunun zəif olduğunu göstərirdi: "Azərbaycanda milli fikir nisbətən əski olsa da, sözün həqiqi mənasında istiqlalçılıq fikri çox yenidir" [7, s.5]. Müəllif daha sonra, 1918-ci ildə Azərbaycan xalqının heç də hamısının müstəqil dövlət həyatına hazır olmadığını yazırdı: "Milli hərəkatın yeni nəsli belə 1918-ci ildə elan olunan Azərbaycan istiqlalını özlərinin gözlədikləri xoşbəxt hadisə, xəyallarında həsrət çəkdikləri bir fikrin nəhayət gerçəkləşmiş bir məhsulu deyil, gözlənilməyən bir hadisə kimi qiymətləndirmişlər. Başa gələn hadisə kimi qəbul etmək zorunda qalmışlar. Etiraf etməliyik ki, müstəqil Azərbaycan hökumətini idarə edən ziyalılarımızdan bir çoxu bir gün gəlib də milli hökumət başında duracaqlarını düşünmüş deyillərdi" [7, s.6]. Əlbəttə, Azərbaycan millətində formalaşmış bu milli şüurun zəifliyi bir əsrlik rus müstəmləkəçiliyinin nəticəsi və rus imperiyasının xalqımızda istiqlaliyyət, dövlətçilik məfkurəsini sarsıtması ilə bağlı idi. Doğrudan da, Azərbaycanın öz milli müstəqilliyi uğrunda mübarizə aparması danılmaz tarixi gerçəklik olduğu halda, istiqlaliyyətin "əmrə-vaqe", yəni "taleyin hökmü" kimi təqdim olunması ciddi yanlışlıq sayılmalıdır [6, s.130].

M.Ə.Rəsulzadə daha sonra yazırdı: "Türkiyədə milli Azərbaycanla indiki Azərbaycan arasında fərqi bir çoxları idrak etmirdilər. Azərbaycanın müstəqil ikən get-gedə bütün hüququnun Rusiyaya nədən tərk etdiyini soranlara rast gəldik. Bolşeviklərin Azərbaycana millət tərəfindən çağırıldığına inananlar var" [3, s.330].

M.Ə.Rəsulzadə 1937-ci ildə "Qurtuluş" dərgisində dərc etdirdiyi "Mühitdin Birgənə görə Azərbaycan-Türkiyə münasibətləri" məqaləsində də bir sıra tarixi və çağdaş anlaşılmazlıqların qaldığını, "Türkiyənin qulağını Azərbaycanın ingilisçi Müsavat Partiyasının hökuməti barədə yalanlarla doldurulduğunun" [7, s.7] bu iki qardaş ölkə arasında münasibətlərin soyumasına təsir göstərdiyini bildirirdi. Bu dövrdə Əli Əmiri kimi türkiyəli sağçılar "Azərbaycan Türkiyəyə bağlı deyil, müstəqil qaldığı üçün yıxıldı" fikrini yayırdılar [3, s.331].

M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərində Səyavuş obrazı, onun faciəsi ilə Azərbaycanın 1920-ci il 27 Aprel faciəsi arasında bir əlaqənin olduğuna işarə edilməsi də ciddi mübahisələr mövzusu olmuşdu. Ş.Erəl yazır: "M.Ə.Rəsulzadə Səyavuş olaraq Azərbaycan hökumətini nəzərdə tutur. Əfsanədəki Səyavuş necə ki, Türk hökümdarı tərəfindən öldürülmüşsə, bu günkü Səyavuş da (yəni Azərbaycan Cümhuriyyəti) türklər tərəfindən düşmənlərin əlinə tərk edilmişdir". [1, s.42]. İran və Türk meyvəsinin bəhrəsi olan Səyavuşun türk babası Əfrasiyab tərəfindən qətlə yetirilməsini doğrudan da 27 Aprel faciəsi ilə əlaqələndirən M.Ə.Rəsulzadə isə məsələnin başqa cəhətlərini də açıqlayırdı: "Azərbaycan kəndi hamilərindən və xilaskarından olan türklərin, kommunist olsalar da, kəndi əleyhinə sui-qəsd bəsləməyəcəklərini ümid eyləmişdi" [5, s.41]. Hər iki nümunədə məntiq 27 Aprel faciəsində türklərin iştirakını inkar etmir, lakin ikinci nümunədə bu türklərin məhz kommunistlər olduğu açıqca deyilir. M.Ə.Rəsulzadə 1937-ci ildə də bu məsələyə qayıdaraq türk kommunistlərini "Gənc Azərbaycan faciəsinə səbəb verən... macəraçılar" adlandırır, eyni zamanda qardaş Türkiyənin suçlandırılmasını əsaslı xəta hesab edirdi: "Biz heç zaman üzüntülü hadisənin məsuliyyətini ümuma aid etmədik; Bakı şəhidliyində yatan Anadolu mehmetciklərinin əziz xatirəsi haqqında bəslədiyimiz müqəddəs minnətdarlıq hissi buna hər zaman mane olmuşdur" [6, s.112].

İlk dəfə 1921-ci ildə İstanbulda çapdan çıxan "Azərbaycan və inqilabı" əsərinin müəllifi və Azərbaycan mühacir tarixşünaslığının görkəmli nümayəndələrindən olan Məhəmməd Şərif Əfəndizadə də istiqlaliyyətin əldən getməsinə milli şüurun zəifliyinin az təsir etmədiyini və bunun rus müstəmləkəçiliyindən doğulduğunu yazırdı. Onun sözlərinə görə "Rus idarəsi altında bütün siyasi varlığını itirmiş azərbaycanlılar kəndi kəndilərini idarəyə alışmadıqlarından pək çox xətalarda bulundular" [2, s.23].

Müstəqillik ilə birdən-birə üz-üzə dayanan, hələ özünüidarəyə vərdiş etməyən Azərbaycanda gün-gündən artan hökumət böhranları bir sıra ciddi problemlər doğururdu. Üzücü müharibə, partiyalararası təfriqələr, bolşeviklərin, eser və menşeviklərin ölkə daxilində törətdikləri təxribatlar F.Xoyskinin israr etdiyi kimi, fövqəladə tədbirlər görməyə ehtiyac yaratmışdı. Sonralar M.Ə.Rəsulzadə də parlamenti buraxıb, sərt rejim yaratmaqla bəlkə də vəziyyəti xilas etməyin mümkünlüyü qənaətinə gəlmişdi: "Hadisələrin də göstərdiyi kimi, bu qədər liberal bir şəkildə qurulmuş bulunan parlaman üsulunun başlıca iki zəif tərəfi vardı: bunlardan biri şəklə, o biri də mənaya aiddi. Şəklə aid

olan səhv, digər Qafqaz Cümhuriyyətlərində olduğu kimi, böhran günlərində parlamanı dağıdaraq bilavasitə xalqa müraciət etmək səlahiyyətinə malik icra məqamının (rəisi-cümhur) yoxluğundan ibarət idi. Zaman vardı ki, vəziyyəti qurtarmaq üçün hakim firqə parlamanı dağıdacaqdı. Fəqət olmadı" [4, s.17].

1920-ci il aprel işğalı ərəfəsində Azərbaycan istər yerli kommunistlərin, istərsə də rus və türk kommunistlərin tüğyan etdiyi bir bölgəyə çevrilmişdi. Bu dövrdə Bakı fəaliyyət üçün ən əlverişli şəhər sayılırdı. Əliheydər Qarayev Bakı mitinqlərinin birində yerli bolşeviklərin Rusiya üçün Azərbaycanın məhv edilməsinə də hazır olduqlarını bəyan edirdi: "Denikini əzmək üçün Rusiya fəhlələri ilə Azərbaycan fəhlələri əl-ələ verərək, lazım gəlsə lap Azərbaycanın meyidinin üzərindən keçib moskvalı yoldaşlarına kömək edəcəklər" [8, s.71].

AXC-in süqutunu şərtləndirən daxili amillər sırasında mühacirlər Milli Ordu ilə bağlı problemlərin də mövcudluğunu göstərirlər. Milli Ordunun Qarabağa göndərilməsi nə qədər zəruri olsa da, XI Ordunun Dağıstan şəhərlərini işğal edə-edə Azərbaycana yaxınlaşdığını, "əsas təhlükənin şimaldan gəldiyini" bilərək sərhədlərimizin müdafiəsini təşkil etməməyə haqq qazandırmaq asan deyil [3, s.331]. İşğaldan bir ay sonra Azərbaycanı bürüyən üsyanlarda Milli Ordu əsgərlərimizin göstərdikləri fədakarlıq belə bir fikir söyləməyə əsas verir ki, ölkənin müdafiəsi problemi əsgərlərimizin qabiliyyətsizlyi, qorxaqlığı ilə deyil, ordu rəhbərliyinin, bütövlükdə hökumətin qüsurlu fəaliyyəti ilə bağlı olmuşdu. Mühacir tarixşünaslığında Azərbaycanın, bütövlükdə Qafqazın istilasına, bölgə cümhuriyyətlərinin bir-birilərinə yardım etməməsinin xüsusi təsir göstərdiyini əks etdirən çoxsaylı tədqiqatlar mövcuddur.

Şərafəddin Erəl "Azərbaycan politikaçılarının yanlışları" əsərində Azərbaycanın Şimali Qafqaza hərbi yardım etməməsini bağışlanılmaz səhv adlandırıb yazırdı: "Azərbaycana yardımda şəhid olan bir çox Şimali Qafqaz zabit və əsgərinə qarşı bir tək hərbiçi belə Azərbaycandan Şimala göndərilməmişdi" [1].

Azərbaycan mühacirlərinin tanınmış simalarından olan Ceyhun Hacıbəyli isə məsələyə münasibətini belə açıqlayırdı: "Vaxtı ilə Azərbaycan və Şimali Qafqazın birləşməsinə acınacaq bir cəhalət mane oldu və bu vəziyyətdən istifadə etmiş olanlar, şübhəsiz, kəndi istiqlaliyyətlərinin düşmənləridir. Ümumi Qafqazın Şimali Qafqazlılara qarşı tarixi bir borcları var. Şimali Qafqazlılar Rusiyaya qarşı mücadilədə vətənlərini kəndi həyatları bahasına müdafiə edərkən, Azərbaycan və digər Qafqaz millətləri onlara dost bir yardım əli uzatmadılar" [8].

Ümumiyyətlə, müstəqillik dönəmində Qafqaz Cümhuriyyətlərinin "Qafqaz Birliyi" məsələsinə qədərincə qiymət verməmələri mühacirlər arasında uzun-uzadı diskussiyalar mövzusu olmuşdu. Bu diskussiyaların yekunu kimi Qafqaz mühacirlərinin belə bir yekdil fikrə gəldiklərini söyləmək mümkündür: Cümhuriyyətləri XI Ordunun əsgəri işğal altına alması danılması mümkün olmayan həqiqətdir. Lakin, bununla yanaşı, Qafqaz cümhuriyyətləri həm də bir-birilərinə bağlı olmadıqlarından yıxıldı [3, s.335]. Bağlılıq bir tərəfə - əksinə, Ermənistan Azərbaycan və Gürcüstana qarşı apardığı müharibə ilə birliyin formalaşmasına imkan vermir, işğal üçün zəmin yaradırdı. 1920-ci il aprel işğalından sonra Türkiyədə də Azərbaycanın müstəqilliyinin itirilməsi ilə bağlı aldadıcı təəssürat yaradılmışdı. Bir sıra hallarda isə araya təfriqə salmaq üçün uydurma tezislər ortaya atılır, nə vaxtsa səslənilmiş fikirlər bilərəkdən təhrif edilərək, səhv yozulurdu.

*Nəticə.* Ümumiyyətlə mühacir tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə bağlı olduqca geniş və araşdırılması vacib olan məqamlara toxunulmuşdur. Hətta bəzi tədqiqatçıların əsərlərində Azərbaycan Cümhuriyyətində bəzi rütbəli məmurların korrupsiyaya qurşandığının, dövləti Azərbaycan adlandırmaqla Şimali Qafqaz və Cənubi Qafqaz türklərinin birbirindən ayrı salınmasının, bəzi dövlət adamlarının bacarıqsızlığının işğalı asanlaşdıran amillər olduğunu göstərən fikirlərə, bir sıra subyektiv mülahizələrə də təsadüf olunur. Buna əsasən demək olar ki, geniş şəkildə araşdırılmasına baxmayaraq, bu günki günümüzdə Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə öz müstəqilliyini itirməsi məsələsi ilə bağlı ən xırda təfərrüatların belə açıqlanması, araşdırılması tarixşünaslığımızda çox aktual problemlərdəndir. Bu, tarixi gerçəklərin ortaya çıxarılması, 1918-1920-ci illər təcrübəsindən düzgün nəticə çıxarılması, eyni zamanda 1991-ci ildə əldə etdiyimiz milli müstəqilliyimizin möhkəmləndirilməsi baxımından da faydalıdır.

ƏDƏBİYYAT

1. Erəl Ş. Azarbaycan Politikaçılarının yanlışları. İstanbul, Baha matbaası, 1968, 53 s.
2. Əfəndizadə M. Ş. Azərbaycan və inqilabı, "Türk dünyası Araşdırmaları" (hazırlayan Fariz Şaşan), Bakı, Azərnəşr, 2003, 144 s.
3. İbrahimli X. C. Azərbaycan mühacirəti tarixi. Bakı, ADPU nəşriyyatı, 2012, 358 s.
4. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyati. Bakı, Elm, 1990, 113 s.
5. Rəsulzadə M. Ə. Əsrimizin Siyavuşu. Bakı , Qanun nəşriyyatı, 2017, 59 s.
6. Rəsulzadə M.Ə. Məktublar. Şəfibəyçilik (tərtib edən, ön sözün və izahların müəllifi t.e.d. Aydın Balayev). Bakı, "Təknur" nəşriyyatı, 2017, 196 s.
7. Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və genclik. Bakı, Azərnəşr, 1991, 56 s.
8. Tahirli A. Azərbaycan mühacirəti (Tarixi, mətbuatı, mədəniyyət mərkəzləri), Bakı, "Tural-Ə " Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001, 344 s.

**ГУРБАНЗАДЕ БИЛЛУРА**
*докторант Бакинского Государственного Университета*

## ПРОБЛЕМА КОЛЛАПСА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ В ИСТОРИОГРАФИИ ИММИГРАНТОВ ИСТОРИОГРАФИИ 20-30-ЫХ ГОДОВ XX ВЕКА

В статье исследуется проблема коллапса Азербайджанской Демократической Республики в истории эмигрантов в 1920-1930 годах. Исторические события в регионе и Азербайджане в 1920 году вынудили сотни и тысячи азербайджанцев покинуть родину и отправиться в зарубежные страны. Эти эмигранты постоянно боролись за восстановление независимости Азербайджана в зарубежных странах, с большим трудом создавали газеты и журналы. Эти работы отражают ценные идеи о деятельности и распаде Азербайджанской Демократической Республики.

*Ключевые слова:* Азербайджанская Демократическая Республика, М.А.Расулзаде, 1920-1930, апрельская оккупация, эмиграция, историография.

**GURBANZADE BILLURE**
*Doctoral student of Baku State University*

## THE ISSUE OF THE COLLAPS OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN THE EMIGRATION HISTORIOGRAPHY OF 20-30 YEARS OF THE XX CENTURY

Works of immigrant researchers written in 1920-1930 which related with the issue of the collaps of the Azerbaijan Democratic Republic are investigated in the article. Historical events in the region and in Azerbaijan in 1920 forced hundreds and thousands of Azerbaijanis to leave their homeland and go to foreign countries. These emigrants constantly fought in foreign countries for the restoration of independence of Azerbaijan and created many newspapers and magazines. These works reflect valuable ideas about the activities and the collapse of the Azerbaijan Democratic Republic. All of these have been analised in the article.

*Keywords:* Azerbaijan Democratic Republic, M.A.Rasulzade, 1920-1930s., aprel occupation, emigration, historiography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 sentyabr 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 930.2**

**SÜRƏYYA ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**allahverdiyevasurayya@mail.ru**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN QƏLƏMİNDƏN İOSİF VİSSARİONOVİÇ STALİNİN KİMLİYİ

*XX əsrin məşhur dövlət xadimlərinin siyasi fəaliyyətinin təhlili böyük əhəmiyyətə malikdir. Bu baxımdan, Məmməd Əmin Rəsulzadə və İosif Vissarionoviç Stalini xüsusilə qeyd etmək lazımdır. Azərbaycan tarixində silinməz izlər qoymuş bu iki mütəfəkkir eyni tarixi dövrdə yaşamış və hətta zaman-zaman yolları da kəsişmişdir. Məmməd Əmin Rəsulzadənin əsərlərində bu iki tarixi şəxsiyyətin siyasi fəaliyyətinin bir hissəsini əhatə edən görüşləri xatırlanır. Müəllifin "Stalinlə ixtilal xatirələri" əsəri Stalinlə tanışlığı ilə bağlıdır. Əsərin mənbə kimi təhlili bir çox tarixi məsələlərə aydınlıq gətirməyə imkan verir.*

*Açar sözlər*: bolşevik, müsavat, Bakı, Moskva, həbs, terror, tarix, M.Ə.Rəsulzadə, İ.V.Stalin.

*Giriş.* Bəzi tarixçilər üçün siyasi fəaliyyətinə görə bəşəriyyətin əhəmiyyətli, bir digərləri üçün isə qəddarlığına görə yadda qalan liderlərindən olan İ.V.Stalin ilə M.Ə.Rəsulzadənin tanışlığı hər ikisinin də siyasi fəaliyyətinin ilk illərinə təsadüf edir. 1904-cü il iyun ayında Rusiyada dövrünün siyasi fəalı olan İ.V.Stalin inqilabi iş aparmaq üçün Bakıya gəlir. O vaxtlar inqilabçılar arasında "Koba" ləqəbi ilə tanınan İosif Stalin həm Bakıda bolşeviklərin siyasi mübarizəsinə başçılıq etməli, həm də RSDFP (Rusiya Sosial Demokrat Fəhlə Partiyası) üçün Bakıda maliyyə mənbələri tapmalı idi. O isə bunun üçün bir qrupla birlikdə yerli bankları yarmaq və əldə etdiyi pulları Leninə göndərmək yolunu tutmuşdu. Qeyd edək ki, Bakıdakı fəaliyyəti dövründə İ.V.Stalin RSDFP-nin Bakı Komitəsinin müsəlman gəncləri arasında fəal iş aparan, onları maarifləndirən və milli dirçəliş fikirləri yayan 20 yaşlı M.Ə.Rəsulzadəni və onun başçılıq etdiyi "Azərbaycanlı Gənc İnqilabçılar" təşkilatını öz təsiri altına salmağa çalışırdı. Stalin o dövrdə tez-tez fəhlə yığıncaqlarında iştirak edərək alovlu nitqlər söyləyirdi. Rəsulzadə Stalinlə belə yığıncaqlardan birində tanış olmuşdu. İ.V.Stalinlə M.Ə.Rəsulzadəni ilk dəfə tanış edən əmisi oğlu M.Ə.Rəsuloğlu olmuşdu. Bakının Balaxanı bölgəsində fabrik işçilərinə məxsus bir otaqda keçirilən bu təsadüfi görüş sonunda onların yaxın dostluq münasibətləri yarandı. Sonrakı dövrdə M.Ə.Rəsulzadə Stalinin Bakının Bayıl həbsxanasından qaçırılmasında önəmli rol oynayır [3, s.18]. Bu hadisəni unutmayan İ.V.Stalin gələcəkdə artıq müstəqil Azərbaycan Xalq Cumhuruyyətinin banisi olmuş M.Ə.Rəsulzadəni bolşevik işğalı zamanı xüsusi təqiblərdən qorumağa çalışacaqdır.

1904-cü ilin axırlarında Azərbaycanda "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı" yaradılıb, bu qurumun banilərindən biri də M.Ə.Rəsulzadə olub. Yuxarıda qeyd etdiyimiz görüşlərin nəticəsi olaraq bolşevik idealarını təbliğ edən bu təşkilatın yaradılmasında M.Ə.Rəsulzadənin xüsusi xidmətləri olmasına baxmayaraq bu əməkdaşlıq çox da uzun müddət davam etmir. Çünki M.Ə.Rəsulzadənin hələ ilk vaxtlardan siyasi məqdəsi, amalı bambaşqa idi və dövrünün bolşevik düşüncəli siyasi fəallarından xeyli fərqlənirdi.

1908-ci ildə Şərqdə ilk opera olan "Leyli və Məcnun" operası Bakıda məhz "Nicat" cəmiyyətinin fəallığı ilə izləyicilərə təqdim edilmişdir. Cəmiyyət həftədə bir dəfə "Nicat" adlı qəzet buraxırdı. Qəzet İsa bəy Aşurbəyovun vəsaiti və redaktorluğu ilə dərc olunurdu. Cəmiyyət benefislər keçirir, şəhər bağında arabir gəzintilər təşkil edir, toplanan vəsaiti xeyriyyə işlərinə sərf edirdi. M.Ə.Rəsulzadənin rəhbərliyi ilə təşkil olunan belə gəzintilərin birindən toplanan 200 rubl vəsaitlə İ.V.Stalini həbsxanadan qaçırmaq mümkün olmuşdur [3, s.19]. Ümumiyyətlə tarixi biliklərimizə əsasən deyə bilərik ki, M.Ə.Rəsulzadə Stalini iki dəfə ölümdən xilas edib.

Belə ki, Stalinin varlılar əleyhinə təbliğat apardığını görən qoçular onu tutaraq neft quyusuna atmaq istəmişdilər. Bundan xəbər tutan Rəsulzadə dərhal hadisə yerinə gedərək, Stalini qoçuların əlindən almış, sonra isə onun polis tərəfindən həbsinə imkan verməmək üçün Novxanıya aparmışdı. Rəsulzadənin atası məşhur din xadimi Axund Molla Ələkbər Stalini səmimi qarşılamışdı. Sonra da

onu polisin əlindən xilas etmək üçün məscidə apararaq minbərin altında gizlətmişdi. Ara sakitləşəndən sonra isə Rəsulzadə və atası Stalinə gizlicə Bakını tərk etməkdə yardım etmişdilər.

Rəsulzadə ikinci dəfə Stalini Lənkəranda ölümdən xilas etmişdi. Belə ki, yoldaşları ilə ticarət gəmisini qarət edən Stalin baş verən atışmada ayağından yaralanaraq ələ keçmişdi. Onu Lənkəranda güllələmək istəyirdilər. Lakin bundan xəbər tutan Rəsulzadə yenə də onun köməyinə gedərək, Stalini labüd ölümdən xilas edə bilmişdi. O vaxt Stalin Rəsulzadəyə demişdi ki, sən iki dəfə məni ölümdən qurtardın, sənə iki borcum var və onu hökmən geri qaytaracağam. Stalin, həqiqətən də, sonralar bu sözünə əməl etmiş və AXC-nin süqutundan sonra M.Ə.Rəsulzadənin bolşevik terrorunun qurbanlarından olmasına imkan verməmişdir.

Beləliklə, Məhəmməd Əmin Rəsulzadənin qeydlərində Stalinlə bağlı xatirələri öz əksini tapmışdır. Müəllifin tarix yüklü qələm nümunələrindən biri də Stalin ilə bağlı yazdığı qeydlərdir. Məmməd Əmin Rəsulzadənin Stalinlə bağlı xatirələri Türkiyədə "Dünya" qəzetinin 1954-cü il may-iyun nömrələrində 28 məqalədə çap edilmişdir. "M.Ə.Rəsulzadə kimdir?" adlı bioqrafik yazı da bu məqalələrə əlavə edilmişdir. M.Ə.Rəsulzadənin xatirələrini tam adı orijinalda "Bir türk milliyətçisinin Stalinlə ixtilal xatirələri" adlanır. Bu əsər bir qayda olaraq "Stalinlə ixtilal xatirələri" kimi məşhur olduğundan elimi ədəbiyyata bu adla təqdim edilmişdir. Onu da deməliyik ki, bu məqalələrin fotosurətini dostu doktor Əli Yavuz bəy Ağpınar göndərmişdir. Xatirələrdə Stalinin və stalinizmin anatomiyasının açılması ilə yanaşı, əsrimizin ilk onillərində Azərbaycanda gedən çox maraqlı proseslər təsvir edilir [4, s.3]. Müəllifin qeydlərində "Çingizlərə rəhmət oxudan bir tiran, kamunizimin peyğəmbəri" adlandırdığı Stalin ilə şəxsi tanışlıqları haqqında məlumatlar tapmaq mümkündür.

"Bolşevik - menşevik mücadiləsi" başlıqlı məqaləsində bu iki terminin yaranma tarixinə və siyasi məqamlarına aydınlıq gətirilmişdir. "Sosial - demokratlar məşhur London konqresində (1903) ikiyə parçalanmış; bir qolu Leninin liderliyində bolşevik, digər qolu da Martovun liderliyində menşevik fraksiyalarını təşkil edirdilər" [4, s.9]. Məlum olduğu üzrə bu iki fraksiyanı bir-birinə toqquşduran ana mövzu məşhur taktika məsələsi idi. Menşeviklər rejimə qarşı siyasi yolla mübarizə edərək çarlığı devirmək, yerinə cümhuriyyət idarəsi yaratmağın tərəfdarı idilər. Bunu edərkən sosializm prinsiplərinin tətbiqini tələb etdikləri halda, mövcud kapitalizm şərtləri içində sosial bünövrənin yaradılmasını inqilab yolu ilə deyil, tədricən inkişaf etdirilməsini tövsiyə edirdilər. Eyni zamanda menşeviklər burjua sinfinin çarlıq rejimi əleyhində olan liberal və radikal zümrələri ilə siyasi koalisiya yapmağı təklif edirdilər.

Müəllif qeyd edir ki- "Halbuki bolşeviklər buna tamamilə zidd olan bir taktika yeridirdilər; bir kərə bunlar burjua partiyaları ilə hər cür koalisiyanın əleyhində idilər; siyasi bir sistem olaraq, çarlıq rejimi ilə birlikdə onlar iqtisadi bir sistem olaraq kapitalizmi də devirmək əzmində idilər" [4, s.9].

"Stalinlə ixtilal xatirələri" əsərində Stalinlə ilk qarşılaşmasını qeydə alan M.Ə.Rəsulzadə onun ilk vaxtlar "Koba" ləqəbi ilə tanındığını xatırlayır. Bu qeydlərdən aydın olan bir digər məqam Bakı şəhərinin XX əsrin əvvəllərində nəinki regionda, hətta bütün Çar rusiyasında siyasi proseslərin mərkəzi olmasıdır. Hələ Stalinin kominizim uğrunda apardığı mübarizənin ilk illərində olan rastlaşmalardan birini xatırlayan müəllifin Osmanlıdakı burjua əhəmiyyətli inqilab haqqında yazdığı məqalənin dərc edilməsinə verdiyi dəsdəyi xatırlayaraq Stalinin hadisələrə necə soyuqqanlı və ikili yanaşdığını xatırlayır. Eyni zamanda müəllif Stalinin Bayıl həbsxanasında olduğu günləri və həmin günlərdə silahdaşlarının onu həbsdən çıxartmaq üçün göstərdiyi mübarizəni təsvir edir.

Daha sonra bolşevik istilası və bu istila nəticəsində rastlaşdığı təqiblərdən yaxa qurtarmaq üçün Lahıcda gizlənməsi, eyni zamanda tezliklə "çekalar" tərəfindən tutularaq "Osobı otdel"ə təslim edilməsindən söhbət açan müəllif o vaxtlarda neçə çətin günlər keçirdiyini qeyd edir [4, s.16]. Müəllifin özünü "əski mücadilə arkadaşım Kazımzadə Abbasqulu bəy" dediyi silahdaşı ilə birgə keçirtdiyi bu çətin günlərin arğılı-acılı mənzərəsini tam təfsilatı ilə əks edilmiş, hətta keçmiş günlərdəki həbsxana həyatı ilə yeni başına gələnləri müqayisə də etmişdir.

"Eyni gündə bizə evdən bir paket içində yemək göndərilmişdi. Yeməklər bir qəzet kağızına bükülmüşdü. Bu kağız bir neçə gün əvvəl intişar edən türkcə "Kommunist" qəzetinin bir nüsxəsi idi. Bizim durumda olan bir adamın bu qəzeti nə cür bir ciddi cəhdlə oxuyacağını, şübhəsiz, təxmin edərsiniz. Qəzetə dərhal bir göz gəzdirdim. Azərbaycan Sovet hökumətinin sədri dr.Nəriman Nərimanovun imzası ilə ilk səhifədə rəsmi bir məlumat vardı. Məlumatın xatirimdə qalan mətnini əslinə yaxın

bir şəkildə burada nəql edirəm: "Məmməd Əmin Rəsulzadəni vilayətlərdə hər cür təhlükədən qorumaq məqsədilə Sovet hökuməti onun paytaxta gətirilməsinə qərar vermişdir. Burada isə həyatı əmniyyət altındadır, əhalinin bu xüsusda əmin olmasını və həyəcana düşməməsini tövsiyə edirik" [4, s.17] – bu cümlələr müəllifin həmin günlərdəki yaşadıqlarını və cəmiyyətdə M.Ə.Rəsulzadənin həyatı ilə bağlı nə dərəcədə narahatlığın olmasının bariz göstəricisidir. Qeydlərində məşrutə hərəkatın zamanı yaşadıqlarını da qeyd edən müəllif keçmiş silahdaşlarının mövcud vəziyyətdən narahat olduğunu və dəfələrlə hakim dairələrə lazımı müraciətlər elədiyini də vurğulayır.

"Həbsxanada Stalinlə başbaşa" başlığı ilə verilən hissə də tarixi görüşün təsviri verilib. Bu görüşdə diqqəti çəkən digər tarixi məqamlar da var. Əvvəla belə bir görüşü vacib edən səbələri araşdırdıqda bəzi reallıqlar aydın olur. M.Ə.Rəsulzadə sözü gedən dövürdə Sovet rusiyasının hakim dairələrinin çəkindiyi bir şəxsiyyət idi. AXC və Müsavatın digər nümayəndələrindən fərqli olaraq M.Ə.Rəsulzadəyə münasibətdə ehtiyatla yanaşılırdı. Çünki əhali arasında çox rəğbətli bir ziyalı idi və cəmiyyətin ona olacaq hər hansı qərəzli münasibətə reaksiyasından çəkinirdi mövcud hakimiyyət. Hətta Stalinin bu görüşdə M.Ə.Rəsulzadə ilə qurduğu dialoqdan da aydın olur ki mövcud hakimiyyətin məqsədi M.Ə.Rəsulzadəni öz tərəflərinə meyilləndirmək və onun tərəfdaşlarını da öz sıralarına qatmaqdır. Lakin M.Ə.Rəsulzadə buna qəti etiraz edir. Etirazın səbəbini həm söhbətinin elə özü öz dili ilə etiraf edir. Azərbaycanın ictimayətində bolşeviklər öz etibarını 1918-ci ildə Şaumyanı Bakıya göndərməklə və onun qətliamlarına biganə qalmaqla çoxdan itirmişdilər. Stalin bunun səhv addım olduğunu öz həm söhbətinə öz dili ilə etiraf edir. Soyqırımı təsdiqləyən və "Müsavat" ilə "bolşeviklər" arasındakı kəsgin və gərgin münasibətin səbələrini ortaya çıxaran bu qısa amma tarix yüklü görüş elə M.Ə.Rəsulzadənin qələmi ilə bütün gizlinləri ilə oxuculara çatdırılmışdır.

Görüş zamanı Stalinə Türklərin adından istifadə edərək bolşeviklərin müstəqilliyimizi qəsb etdiyinin fərqində olduğunu və bununla heç vaxt barışmayacağını, N.Nərimanovun hadisələri düzgün dəyərləndirə bilmədiyini də deməsi bir daha ən çıxılmaz anda belə M.Ə.Rəsulzadənin öz iradəsindən dönmədiyini göstərir.

"Tam yerinə yetirilməyən vədlər" başlığı ilə qələmə aldığı hissədə artıq həbsdən çıxdığını və vidalaşmaq üçün ailəsinin yanına gəldiyini bu vida zamanı o həbsdə olan zaman dünyaya gələn, artıq iki aylıq olan balaca oğlu Azər ilə necə sağollaşdığını təsvir edərək Stalinlə birgə Bakını tərk etdiyini, hətta onları yola salmağa N.Nərimanovun da gəldiyini qeyd edir. Bu qeydlərdə Stalinin Dərbənd səfəri, Stalinin İrana, İngiltərəyə, Almanyaya olan münasibətindən, düşüncələrindən kiçik parçalar verilmişdir. İrandakı "məşrutə" hərəkatı bağlı müəllifin xatirələri ilə maraqlanan Stalin bu qeydlərin Bakıda qaldığını öyrənəndə M.Ə.Rəsulzadənin geri qayıdıb qeyidləri götürməsini təklif edir. Bu təklifə Rəsulzadənin: - "Hələlik qalsın, birdəfəlik Moskvada yerləşdikdən sonra baxarıq, lazım olarsa, Məhəmməd Əli oradan da Bakıya gələ bilər, elə deyilmi?" [4, s.29] - cavabı M.Rəsulzadənin Stalinə gələcəkdə geri qayıtmağı planladığının bariz etirafıdır.

Müəllif qeydlərində Stalinin nümunəvi siması olaraq qəbul etdiyi, "müdhiş İvan" kimi təqdim etdiyi IV İvan Qroznunun siyasətinin özəyinin terror olduğunu vurğulayaraq, Stalinin idarəçiliyi dövründə bu torpaqları nəyin gözlədiyinin icmalını vermişdir. Müəllif hələ siyasi fəaliyyətinin ilk günlərindən etibarən Stalinin demokratiyaya xüsusi nifrət bəslədiyini xatırlayır. Bolşeviklərin siyasi fəaliyyətinin ilk illərindən etibarən antisemitizim meyillərinin açıq şəkildə təbliğ edildiyi oxucunun diqqətinə çatdırılır. Avropa mədəniyyəti və siyasətini heç də qəbul etməyən, onların sahib olduqlarının təməlini işğal etdikləri xalqların istismarınıda görən Stalinin sənaye cəhətdən Avropadan geridə qalan Sovet rusiyasının sənayeləşməsi üçün lazımı tədbirlər planı da mövcud idi. Müəllif bolşevik liderlərinin ölkəni beş il ərzində daxili müstəmləkələr hesabına tam sənaye ölkəsinə çevirmə lahiyyəsinin nəticələrini indidən planlaşdırdıqlarını qeyd edirdi. Ancaq tarixi təcrübə isə bunun tam əksinin göstərdi və nəticədə mövcud problemlər dərinləşdi, elə bu səbəbdən bolşevik liderlər tez-tez mövqey dəyişdirməyə başladılar.

Əsərdə müəllif Sovet Rusiyası ilə Türkiyyənin münasibətlərində çox ciddi prablemlərin yarandığını və Stalin vaqon ilə Bakıdan Moskvaya yollanan zaman səfər boyu dəfələrlə bu iki ölkənin qarşılaşdığı anlaşmazlıqlarla bağlı teleqramların gəldiyini və Stalinin məsələyə laqeyid yanaşdığını xatırlayır.

Moskvada keçirdiyi çətinliklərlə dolu iki ili xatırlayan müəllif burdakı maddi prablemlərdən çox hər zaman Stalinin göz həbsində olmasının hissi ilə yaşadığı çətinlikləri qeyd edir. M.Ə.Rəsulzadə eyni zamanda Moskvadakı ilk günlərində Lelin, Trotski kimi fəal bolşeviklərdən fərqli olaraq Stalinin nə adı, nə də fəaliyyəti haqqında xalqın içində heç bir xəbərin olmamasını təəccüb içində qeyd edir. Digər bolşevik fəallarından fərqli olaraq Stalin arxa planda qalmışdı. Moskvada qaldığı dövürlərdə müəllif Stalinlə dəfələrlə baş tutan görüşlərini, Türkiyəyə getmək isdəyini, burdakı akademik fəaliyyətinə davam etməsini xatırlayır.

Müəllifin qeydlərində tarixdən də bildiyimiz məşhur aclıq vaxtını da təsviri var. Bilirik ki I Dünya müharibəsi artıq iki il idi bitmişdi, amma fəsadları qalmaqda idi. Bundan əlavə daxildəki vətəndaş müharibəsi, xarici ölkələrin hərbi müdaxiləsi, bolşeviklərin elmi ədəbiyyatda "hərbi kommunizim" adlanan iqtisadi siyasəti də təbii ki bu aclığa səbəb olan amillərdən idi.

M.Ə.Rəsulzadə Moskvada olduğu müddətdə dəfələrlə Stalin Rəsulzadə kimliyindən istifadə edərək onu bu və ya digər təşkilatlara yönəldib. Beləliklə bolşeviklər Müsavatçılar arasında da etibar qazanmağa çalışırdılar. Eyni zamanda Stalin M.Rəsulzadəni burada göz həbsində saxlaya bilmək, onun fəaliyyətini yaxından izləmək isdəyirdi.

M.Ə.Rəsulzadə əsərdə eyni zamanda Moskvada qəfil qarşılaşdığı Ənvər Paşa, Camal Paşa ilə olan görüşlərindən, sonrada hər ikisinin də öldürülməsindən, Stalinin onlar haqqında yazdığı məqaləsində "türk milliyyətçiliyinin" bolşeviklərin düşüncəsindəki təzahüründən bəhs edir. Hər fürsətdə Moskvadan və "Stalinin himayəsindən" qaçmağa çalışan M.Ə.Rəsulzadə Finlandiyaya qaçamağı necə planladığını da qeydlərində əks etdirir. Finlandiyadan İstanbula qədər uzanan yolculuğunun istiqamətinin qısaca təsvirini bu sözlərlə göstərir: "Oradan Feriokidəki qarantində on beş gün qaldıqdan sonra Helsinkiyə; Helsinkidə bir aya qədər tatar koloniyasının müsafiri olduqdan sonra Almaniyaya, oradan Parisə, Parisdən də İstanbula gəldim. İstanbul o zaman hələ müttəfiq ordularının işğalı altında idi" [4, s.56]. Bu qeydlərdə Rusiyanı tərk etdikdən sonra Stalinə yazılmış "üzürxahlıq" məktubu da var. Bu məktub vaxtilə İstanbulda çıxan 23.1.1923-cü il tarixli və 5 nömrəli "Yeni Qafqaziya" dərgisində nəşr olunmuşdur. Sonda isə müəllif bolşevik Rusiyası ilə azad Finlandiyanı; Rusiyanın paytaxtı Moskva ilə Finlandiyanın paytaxtı Helsinkini; Marks abidəsi ilə Helsdinkidəki şəhidlər üçün ucaldılan abidəni müqayisə edir.

*Nəticə.* Ümumilikdə əsərin yazılma səbəbini həm başına gələnlərin qeydi kimi, həm də real siyasi mənzərələrin və mütəfəkkirin özünün aydınlaşdırdığı siyasi və tarix əhəmiyyətli hadisələrin təsviri kimi dəyərləndirmək mümkündür. Əsərdə aydınlıq gətirilən məsələlərin tarixi əhəmiyyəti tarixşünaslığımızda bu gün də öz aktuallığını qorumaqdadır. Elə bu səbəbdən M.Ə.Rəsulzadənin digər əsərləri kimi Stalin haqqında olan qeydləri də həm mənbə, həm də tarixşünaslıq əsəri kimi təhlil və tədris edilməlidir.

## ƏDƏBİYYAT

1. Məhəmməd Əmin Rəsulzadə. Bakı, "Mütərcim" nəşriyyat-poliqrafiya mərkəzi, 104 s.
2. Nəsiman Yaqublu. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, TS mətbəəsi, 2001, 153 s.
3. Nəsiman Yaqublu. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı, Kitab Klubu, 2013, 506 s.
4. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Qanun, 2010.132 s.
5. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991, 110.s.

**СУРАЙЯ АЛЛАХВЕРДИЕВА**
*Докторант Бакинского Государственного Университета*

## ЛИЧНОСТЬ ИОСИФА ВИССАРИОНОВИЧА СТАЛИНА ГЛАЗАМИ МАМЕД АМИНА РАСУЛЗАДЕ

Большое значение имеет анализ политической деятельности многих известных государственных деятелей XX века. Особо следует отметить Мамед Амина Расулзаде и Иосифа Виссарионовича Сталина. Эти два мыслителя, оставившие неизгладимые следы в истории Азер-

байджана, жили в один исторический период и даже время от времени их пути пересекались. В произведениях Мамед Амина Расулзаде он запомнил часть политической деятельности этих двух исторических личностей и их встречи. Работа автора «Сталинле ихтилал хатирелери» связана с его знакомством со Сталиным. Анализ произведения как источника позволяет прояснить многие исторические вопросы.

*Ключевые слова*: большевик, Мусават, Баку, Москва, арест, террор, история, М.А.Расулзаде, И.В.Сталин.

**SURAYYA ALLAHVERDIYEVA**
*Doctoral student of Baku State University*

## THE IDENTITY OF JOSEPH VISSARIONOVICH STALIN THROUGH MAMMAD AMIN RASULZADEH'S EYES

The analysis of the political activities of many prominenet statesmen in the twentieth centuryis of great importance. Mammad Amin Rasulzadeh and Joseph Vissarionovich Stalin must be especially mentioned . These two thinkers, who had indelible traces in the history of Azerbaijan, lived in the same historical period and even from time to time their paths crossed. In the works of Mammad Amin Rasulzadeh he remembered a part of the political activity of these two historical figures and their meetings. The author's work "Stalinle iikhtilal khatireleri" is on his acquaintance with Stalin. The analysis of the work as a source allows us to clarify many historical issues.

*Keywords*: Bolshevik, Musavat, Baku, Moscow, arrest, terror, history, Rasulzadeh, Stalin.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyul 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d.Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**DÜZƏLİŞ BÖLMƏSİ**

**UOT 902**

**İRADƏ AVŞAROVA**
*t.ü.f.d., Bakı Dövlət Universitetinin dosenti*
**iradaavshar@icloud.com**

# AZƏRBAYCANIN ANTİK DÖVR TAYFALARININ MƏNƏVİ MƏDƏNİYYƏTİ YAZILI VƏ ARXEOLOJİ MƏNBƏLƏRDƏ*

*Albaniyanda yaşamış qədim tayfaların etnik və dini mənsubiyyətinin öyrənilməsi, bu gün də qədim tariximizin aktual və mühüm məsələlərindən biri sayılr.*

*Məlum olduğu kimi, Albaniyada yaşamış türk tayfalarının dini dünyagörüşləri və mədəniyyəti və öz kökləri ilə daha qədim dövrlərə söykənir. Tədqiqatlardan göründüyü kimi, qədim ənənələrin davamı antik dövrdə belə tayfaların dini dünyagörüşlərindən yan keçməmişdi. Miladdan öncə və miladdan sonra (ərazidə xristianlığın qəbul edilməsinə baxmayaraq) çox allahlılıq (politeizm) dini tayfalar arasında əsas din forması kimi qalmaqda davam etmişdir. Bütün bunlar, ərazidə arxeoloji cəhətdən tədqiq olunan qədim məbədlər və qəbir abidələri əsasında izlənilir. Katakomba tipli qəbir abidələrindən fərqli olaraq, ərazidə müxtəlif tip qəbirlərdə izlənilən dəfn adətləri daha qədim dövrlərə söykənməklə yanaşı, demək olar ki, özlərində eyni də xüsusiyyətləri daşıyır.*

*Aşar sözlər*: tayfa, çoxallahlılıq, məbəd, qəbir, etnos, din.

*Giriş.* Antik dövrdə Azərbaycanın qədim ərazilərinin bir hissəsi Albaniya adlanırdı. Albaniya qədim Azərbaycanın ərazilərində e.ə. IV minillikdə meydana gəlmiş və kiçik ölkələr zəminində formalaşmış bir dövlətdir. Həmin dövrdə Azərbaycan ərazisində dövlətçiliyi antik dövrə söykənən üç dövlətin formalaşması təbii ki, təsadüfü olmamışdır.

Qafqazın qədim dövlətlərindən biri olan Albaniya Azərbaycanın antik və ilk orta əsrlər dövrünün tarixi və arxeoloji cəhətdən öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

"Albaniya" dövləti haqqındakı məlumatlara ilk dəfə e. ə I minillikdə yunan alimi Strabonun "Coğrafiya" əsərində rast gəlinir. Əsərində alban və iberlərin məhz Qafqazın yerli tayfalar olduğu haqqında mənbələr öz əksini tapır [1, 475-477].

V.Ömərov da qeyd edir ki, Albaniyanın mərkəz və aran rayonları türk etnoslarının, Dağıstana yaxın əraziləri isə Qafqaz iberdilli etnosların yaşadığı ölkələr olmuşdur. "Alban" etnonimi məsələsinə gəldikdə isə, bu sözün mənası qədim türk dilində "cəsur, icid" deməkdir [2, 14].

Albanların etnik görünüşü haqqında məlumatlar da yunan filosoflarının əsərlərində yer alır. Belə ki, Q.A.Qeybullayev Piliniyə istinadən yazır: "Albaniyada insanlar boz-mavi gözlü, ağ saçlı doğulurdu. Göz bəbəylərinin rəngi boz olduğu üçün, onlar axşam daha yaxşı görürdülər, nə ki gündüz. Saçlarının ağ olduğuna görə dövlətləri də Albaniya adlandırılmışdı [3, 59].

Strabon "Coğrafiya" əsərində qeyd edir ki, "Kaspiana" Alban ölkəsinə mənsubdur. Miladdan əvvəlki dövrlərdə Albaniya ərazisində başqa tayfalar da yaşamışlar. Hələ Herodot öz kitabında ərazidə yaşayan kaspi, uti, tək tayfalarının adını çəkir. Strabon isə kaspi, uti tayfalarından başqa qel, leq, mard, amard, qarqar və s. tayfaları yad edir. O, arqian sakasinlərin də adını albanlarla yanaşı çəkmişdir. Plini (I əsr) silv, lupeki, sodi, udin, Ptolomey isə ud tayfalarının adını çəkmişdir [2, 14].

Strabon yazır ki, "Albanlar daha çox maldardırlar, hardasa köçəriliyə yaxındırlar" [1, 475-477]. Şübhəsiz ki, Strabon yaylaq maldarlığını nəzərdə tutmuşdur. Bildiyimiz kimi, azərbaycan tayfaları yaylaq maldarlığı ilə məşğul olmuşlar. Bu gün də maldar tayfalar yay aylarında sürünü yaylağa çəkirlər.

---

* "Tarix və onun problemləri" jurnalının 2021-ci il tarixli 2-ci sayında nəşr edilmiş (s.216-220) eyni adlı məqalənin düzəliş edilmiş təkrar nəşri. – *Əsas: Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasının (protokol №10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" haqda qərarı, 31-ci bənd.*

**Düzəliş bölməsi**

Bir çox sovet tədqiqatçılarının, o cümlədən K.V.Treverin [4, 306-315], Q.A.Klimovun [5, 97], İ.M.Dyakonovun [6, 23] və b. əsərlərində alban etnoniminin daşıyıcılarının qafqazdilli olduğu haqqında fikirləri mövcuddur.

Türkdilli etnik birliklərin Albbaniya ərazisində olması haqqında məlumatlar hələ e.ə. IV əsrə təsadüf edir [3, 74]. Albaniyada yaşayan türkdilli tayfalar albanlar, qarqarlar, saklar, kəngərlər, peçeneqlər, çolalılar, kataklar, kerğillər, komanlar, icmahilər, şarvanlar, aranlar, tərtərlər, savdeylər, madjarlar, xurslar, bolqarlar, dondarlar, xəzərlər və s. ibarət olmuşlar [3, 73-141].

Komanlar türkdilli tayfaları olsalar da ilk orta əsrlərdə belə xristian dininin daşıyıcıları olmuşlar.

Bizcə, avşarlar və kaspi tayfalarını da bu siyahıya almaq düzgün olardı. Atropotenada yaşayan kaspi tayfalarının türkdilli olduğu bir çox tədqiqatçılar tərəfindən təsdiq olunmuşdu. Nədənsə, Albaniya ərazisində yaşayan kaspi tayfalarının hansı dildə danışmaları bəzi tədqiqatçılarda şübhə doğurur. Ərazidə olan qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı kaspi tipli tayfalarının bu ərazilərdə minilliklərlə yaşadıqlarını sübuta yetirən çox sayda dəlil toplanılmışdır.

T.R.Əliyev və B.İ.İbrahimli qeyd edirlər ki, Yunan mənbələrində Azərbaycan ərazisində Avşarların adı ilə adlanan Absaros yaşayış məskəninin hələ e.ə. IV əsrin sonlarında mövcud olduğu haqqında məlumatlar yer alır [7; 8]. Bu da Avşarların ərazidə e.ə. IV əsrdən də öncə yaşadığını bir daha təsdiqləyir. Oğuz-kaspi tipli tayfalarının ərazidə minilliklər boyu yaşadığını eneolit və ondan sonrakı dövrlərə aid qəbir abidələrindən əldə olunmuş antropoloji insan qalıqları da sübut edir. Bu fakt da Oğuz tayfalarının ərazidə aborigen tayfalar olduğunu bir daha sübut edir.

Avşarlar əsasən Qərbi Azərbaycan (indiki Ermənistan) və Qarabağ ərazisində yaşamış, oturaq əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşlar.

Azərbaycan, Qərbi Azərbaycan, Cənubi Azərbaycan, Türkiyə ərazisində "Avşar" adını daşıyan kəndlər belə mövcuddur.

Kaspi tipli tayfaların mənşəyi məsələsinə gəldikdəsə bəzən bu antropoloji tip Obeyd tayfaları ilə də bağlanır və bir qayda olaraq, şumerlərin Dəglə-Fərat vadisinə gəlişi şərq istiqaməti ilə əlaqələndirilir. Bir çox tədqiqatçıların ərazidə yaşayan «kaspi tipi»li insanlar haqqında dəyərli fikirləri vardır. Elə həmin səbəbdən rus antropoloqları V.P.Alekseyev, V.V.Bunak və B.Qroznı, A.N.Yarxonun fikirləri üzərində dayanmaq bizcə düzgün olardı. Belə ki,V.P.Alekseyev azərbaycanlıların (Qafqaz ərazisində) xüsusi antropoloji tipin daşıyıcıları olduğunu qeyd edir. Onun tədqiqatlarına görə Qafqazda həmin tipin daşıyıcıları yalnız azərbaycanlılar və cənubi Dağıstan ərazisində yaşayan bir neçə etnik qrupdur. Onlar özünəməxsusluqları ilə digər xalqlardan seçilir. Bu tipə malik xalqlar vaxtı ilə «Şərqi Aralıq dənizi tipi», «kaspi tipi» və s. kimi müxtəlif adlarla adlandırılmışlar. Məsələn, V.V.Bunak bu tipin xüsusi fərqləndiyini nəzərə alaraq, onu kaspi tipi adlandırmışdı. O, qeyd edir ki, kaspi tipinin daşıyıcıları olan xalqlar qarabuğdayı, qara saçlı, qara gözlü insanlardı. Həmin tipin daşıyıcıları olan azərbaycanlılar türk dilidirlər, fiziki tiplərinə görə isə onlar Əfqanıstan və Hindistan tipinə yaxındırlar. Azərbaycanın qərb ərazilərində, o cümlədən Mincəçevirin qəbir abidələrində aparılan arxeoloji qazıntılardan əldə olunan antropoloji qalıqlar (e.ə. X-VII əsrlər bükülü vəziyyətdə və VII-V əsrlər arxası üstə basdırılmış dolexokran tipli insanlar) qədim dövrlərdə belə Azərbaycan ərazidə yaşayan əhalinin müasir Azərbaycan tipinin daşıyıcıları olduğunu sübut edir. Onlar ensiz sifətli kaspilərdir. Belə ki, ağvanlar (albanlar) azərbaycanlıların uzaq qohumları yox, babaları – əcdadları olmuşlar. A.N.Yarxo apardığı arxeoloji tədqiqatlara əsaslanaraq türkmənlərin də azərbaycanlılar kimi, kaspi tipinin daşıyıcıları olduğu qənaətinə gəlmişdir. Bu fakt Azərbaycan xalqının etnogenezini öyrənmək baxımından çox önəmlidir. Ona görə ki, Türkmənistan və Azərbaycan əhalisinin arasında müasir dövrdən keçmişə qədər-ilk dəmir dövrünə qədər qohumluq əlaqələri bir körpü atır. Türkmənistan ərazisində Qaratəpə, Göytəpə kimi ilk neolit dövrü qəbirlərində öyrənilən antropoloji qalıqlar eyni tipə malik insanlara-uzunsifətlərə, daha çox avropoid irqinə yaxındır [9, 4-55; 10, 33-37].

B.Qroznı yazır: "Həmişə olduğu kimi, son vaxtlar da Azərbaycan ərazisində biz eyni antropoloji tipə-kaspi tipinə aid insan qalıqlarına rast gəlirik. Hal-hazırda da həmin tip müasir azərbaycanlıların tipi kimi təqdim olunur" [11, 29].

**Düzəliş bölməsi**

Göründüyü kimi, V.P.Alekseyev, A.N.Yarxo Türkmənistan ərazisində yaşayan kaspi tipli tayfaların bəlkə də neolit dövründən də qabaq həmin ərazidə yaşadıqlarını düşünür. Buradan da belə nəticəyə gəlmək olar ki, (əcnəbi arxeoloqların apardığı tədqiqatlara əsasən) antropoloji tədqiqatlar hər iki ərazidə yaşayan kaspi tili xalqların köklərinin avtoxton olduğunu deməyə əsas verir.

Tədqiqatlardan göründüyü kimi, Azərbaycan türklərinin özəyini təmsil edən "kaspi" tipli insanlar hələ eneolit dövründə Cənubi Qafqazda geniş yayılmışdı. Bu tipin Cənubi Qafqaza gəlmə olmasını təmsil edən heç bir əsaslı dəlil yoxdur.

Alban dövləti və yaşayış yerləri haqqında məlumat yazılı mənbələrdə yetərincə olmadığı üçün onun tarixinin bir çox məsələləri ərazidə aparılan arxeoloji qazıntılarla müəyyən olunmuşdu. Strabon xristianlığı qəbul etməmişdən öncə albanların Günəş, Ay, Yer və Göy tanrılarına sitayiş etdikləri haqqında məlumat vermişdir.

F.C.Məmmədova qeyd edir ki, Alban yazılı mənbələrinin yaranması prossesində əsasən xristian abidələri üstünlük təşkul edirdi və alban ədəbiyyatı qədim Qafqazda olduğu kimi xristianlığa xidmət edirdi [12, 12]. Bəlkə də, məhz bu səbəbdən də digər tayfalara və dinlərə aid olan abidələr haqqında məlumatlara çox az rast gəlinir.

Strabonun verdiyi məlumatlara görə Albanlar daha çox Aya sitayiş etmişlər [1, 476-477]. Bunu da qeyd etmək lazımdır ki, Aya sitayiş türkdilli tayfalar üçün xarakterik olmuşdu, qədim türklərdə Ay- Tangri (Ay tanrısı) sözü mövcud olmuşdur [3, 76].Gədəbəy rayonunda Maxrasa adlı məbədin qalıqları mövcuddur. Həmin yer "Albaniya tarixi"ndə Astlablur ("Ulduz təpəsi") adlanır. Maxrasa toponimi fars dilində olub, max "ay", rous "təpə" deməkdir [3, 76]. Q.Qeybullayev Albanlarda Aya sitayişin qədim türk mənşəli olduğunu qeyd edir. Onun "Alban Ay adları barədə" apardığı tədqiqatlar maraq doğurmaya bilməz. O, Alban Ay adlarının sonunda "Nam-ay" adının qədim türk dilində namo "sitayiş", "təzim", "diz çökmə" və "ay " sözlərindən olduğunu qeyd edir. Yakutlarda da Aya sitayiş qalıqlarının indiyədək qaldığı, onların dilində Ay "yaradıcı başlanğıc", "xeyirxaq başlanğıc" mənasında olduğu, Ayın Ilahə adının kökünü də "Ay" sözü təşkil etdiyini söyləyir. O, qədim türklərdə də 30 günlük müddəti adı olan "ay" sözünü həm də Ay planetinin adı ilə eyniləşdirilir. Onun apardığı etnoqrafik tədqiqatlardan birində, göstərilir ki, azərbaycanlıların inanclarına əsasən keçmişdə, pis ruhlara qarşı körpələrin yaxasına aypara və nal formalı metal muncuqlar tikilmişdi. O, həmin inancın da Aya sitayişin qalıqlarından biri olduğunu qeyd edir [13, 12-14].

Ərazidə aparılan arxeoloji tədqiqatlar da albanların "Göyə", "Günəşə" və "Ay"a sitayiş etdiklərini sübuta yetirmişdir.

Belə sitayiş yerlərindən biri də Qax rayonunda yerləşən Kürmük məbədidir. Qədim alban məbədi olan Kürmük hal-hazırda həm müsəlmanların, həm də xristianların ziyarət yeri sayılır. Bu məbəd yeri sakinlərin monoteist dinləri-xristianlığı və islamı qəbul edəndən sonra öz qədim inanclar sistemini unutmadığına əyani nümunədir. Məbəd erkən orta əsrlərə aid Alban monastırının (I-III əsrlər) qədim xarabalıqları üzərində ucaldılıb. Kürmük məbədi yaxınlığındakı yüksək qayalıq ərazidə qədim zamanlarda Ay məbədi mövcud olmuşdur. Bu qədim məbədin qalıqları zəmanəmizəcən gəlib-çıxmışdır. Antik mənbələr, habelə arxeoloji və etnoqrafik tədqiqatlar uzaq keçmişdə həmin ərazidə Ay məbədinin olduğunu deməyə əsas verir. Strabonun İberiya yaxınlığında göstərdiyi, Selena məbədinin yerləşdiyi yer isə Şəki vilayətidir. "Tarixi etnoqrafik məlumatlar onu da göstərir ki, Albaniyanın şimal-qərb ərazilərini əhatə edən, əsas siyasi-inzibati mərkəzlərdən biri olan Şəki vilayəti Ay məbədləri ilə zəngindir. Həmin arenada, müasir Azərbaycanın Şəki-Zaqatala regionunda Ay kultunun izləri bizim günümüzəcən gəlib-çıxmışdır. Bu regionda mövcud olan Kürmük, Kİş, Komrad, Almatay məbədləri ilkin təyinatına görə qədim albanların sitayiş etdikləri müqəddəs üçlüyə - Göy, Günəş və Ay tanrılarının şərəfinə inşa edilib, sonradan isə, erkən xristianlıq dövründə xristian mərasimlərinin keçirildiyi xristian məbədlərinə çevrilmişdir" [14, 9].

Şəkinin Kiş kəndində yerləşən Kiş məbədinin daxilində aparılan arxeoloji qazıntılar məbədin e.ə. II - I əsrlərə aid Ay-Selena (qədim dövrlərdə Ay tanrısının adı) məbədinin üzərində tikildiyin müəyyən etmişdir. Abidədə antik dövrə aid katakonba tipli qəbirdə "ay" inancını özündə daşıyan öküz buynuzuna rast gəlinmişdi. Göründüyü kimi, Sin (şumerlərin Ay tanrısı) və Sel Ay tanrısı adlarında ümumi bir bağlılıq vardır. Bəlkə də bu iki qədim türk mənşəli Ay adları eyni sözün

kökündən götürülmüş və sonradan Selena adı altında, təhrif olunaraq zəmanəmizəcən gəlib çıxmışdır.

Arxeoloji tədqiqatlar Azərbaycan ərazisində qədim dini ənənəyə söykənmiş ilk orta əsrlər dövrü tayfalarının da Aya etiqad etdiklərini göstərir.

Belə ki, Naxçıvan ərazisində IV Plovdağ adlandırılan yerdə aparılan arxeoloji qazıntılar zamanı aypara formalı tikli qalığına rast gəlinməsi bunu bir daha sübut edir. Həmin ev mərkəzdə tikilib, ətrafı düzbucaqlı evlərlə əhatə olunmuşdu [15, 27-28]. Çox güman ki, həmin tikili Ay məbədi ilə bağlı olub, ibadət xarakteri daşımışdı.

Qeyd etdiyimiz kimi, Azərbaycanın tədqiq olunmuş bir neçə qədim məbədlərində Göy, Günəş və Ay müxtəlif atributlar vasitəsi ilə birləşərək bir bütövlük əmələ gətirmişdir. Tunc dövründə artıq mövcud olmuş belə məbədlərdən I Maxta, Baba-dərviş, Sarıtəpə və s. göstərmək olar. Həmin məbədlərdə Günəş aparıcı rol oynasa da, onun memarlıq atributlarında “Ay”ın simvolik işarələri və obrazları yer almışdır. Bu da onu göstərir ki, Azərbaycanın qədim cəmiyyətlərində öz ifadəsini tapmış Ay və Günəş planetləri-ulduzları ibtidai düşüncələrdə özlərində tanrıları ifadə etməklə yanaşı, mifologiya, memarlıq, incəsənət və folklor mətinlərində belə bir-birilərinə bağlılıqlarını itirmədən, hər zaman bir yerdə, yanaşı yer almışlar.

Ay inancı haqqında məlumatlar mixi yazılı mənbələrdən də məlumdur. Qeyd etdiyimiz kimi, qədim Azərbaycan türk tayfaları lullubilər, kutilər səma cisimlərinə, o cümlədən Ay tanrısına sitayiş etmişlər. Lullubilərin Ay tanrısı Sinin adı “Daş sütun abidəsində” olan mixi yazılı mənbədə çəkilir. Kuti hökmdarlarının qısa mətnli kitabələri də mixi yazısı ilə tərtib olunmuşdu. Onlar aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edir və kitabələrdə bu adların yalnız Akkad adları (İştar və Sin) çəkilmişdi [16, 72-75]. Araşdırmalardan göründüyü kimi, dini ənənənin davamı alban tayfalarının Aya sitayişlə bağlı inanclarında da izlənilmişdi.

*Nəticə.* Göründüyü kimi, tədqiq olunan dövrlərdə yaşamış tayfaların dini inanclarının bir parçasına çevrilən və onların fəlsəfi baxışlarının ifadəsi olan Ay kultu ilə bağlı obraz və simvollar şübhəsiz ki, minilliklər boyu dövrün insanlarının fəlsəfi duyumlarında formalaşmış və sonunda piktoqrafik simvollara və miflərə çevrilərək, maddi və mənəvi mədəniyyətlərdə dərin iz buraxmışdır. Elə həmin səbəbdən də eneolit və tunc dövrü maddi-mədəniyyətində müxtəlif formalarda təqdim olunan “Ay kultu” ilə bağlı təsəvvür və elementlərə nəzər saldıqda, tarixi dövrlərdə yaşamış qədim tayfaların düşüncə və dünyaya baxışlarının tərəqqisinin şahidi oluruq.

Belə ki, alban tayfalarının dini dünyagörüşləri öz kökləri ilə daha qədim dövrlərə söykənir. Ərazidə yaşayan türk tayfalarının mənəvi mədəniyyəti qədim dövrlərə söykənib və islamın qəbul edilməsinə qədər çox allahlılıq (politeizm) dini dünyagörüşləri əsasında formalaşırdır. Bunu biz, qəbir abidələri əsasında izləyirik.

Azərbaycanın qədim dövr arxeoloji komplekslərini və həmin ərazilərdə formalaşmış mədəniyyətlərin sahibi olan etnik qrupların tutduğu mövqeyi, əsrlər boyu yaranıb-formalaşan mədəniyyətlərin bir-biri ilə varislik bağlılığını, müəyyən etmək mövzunun aktuallığını şərtləndirən problemlərdəndir.

Mövzunun aktuallığı bir də ondadır ki, ərazi haqqında tarixi və arxeoloji mənbələr son nailiyyətlərə əsaslanır və kompleks şəkildə tədqiq olunur.

## ƏDƏBİYYAT

1. Страбон. География. Кн.XI, гл.IV, 8, с.470-533. Пер. Г.Стратановского. Москва, Наука, 1964, 944 с.
2. Vahid Ömərov. Albaniya dövlətinin yaranması və süqutu / Səs qəzeti, 14 avqust 2012. - https://sesqazeti.az/news/mia/307983.html [Müraciət tarixi: 05.03.2021].
3. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев (историко-этнографическое исследование). Том I. Баку, Елм, 1991, 549 с.
4. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., Издательство АН СССР, 1959, 391с.
5.Климов Г.А. Кавказские языки. Москва, Наука, 1960, 191с.

**Düzəliş bölməsi**

6. Дьяконов И.М. Языки древней Передней Азии. Москва, Наука, 1967, 491 с.
7. Avşarlar və çərkəzlər. - http://avsarobasi.blogspot.com/2013/06/avsarlar-kimdir_16.html [Müraciət tarixi: 05.03.2021].
8. Əliyev Təvəkkül, İbrahimli Bəhlul, Hüseynova Gülanə. Nərgiztəpədə türk-Avşar qəbristanlığı // Azərbaycan arxeologiyası və Etnoqrafiyası jurnalı, 2015, №1, s.117-124. - https://www.academia.edu/30346815/N%C9%99rgizt%C9%99p%C9%99d%C9%99_Av%C5%9Far_q%C9%99bristanl%C4%B1%C4%9F%C4%B1 [Müraciət tarixi: 05.03.2021].
9. Qasımova R.M. Azərbaycan xalqının etnogenezi (paleoantropoloji və antropoloji materiallar əsasında). Azərbaycan Respublikası Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Arxeologiya və etnoqrafiya üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işinin Avtoreferatı. Bakı, 1997, s.3-55.
10. Алексеев В.П. Предки тюркских народов // Наука и жизнь, № 5, Москва, Издательство журнала «Наука и жизнь», 1971, с. 33-37, PDF
11. Грозный Б. Доисторрические судьбы Предней Азии. Вестник Древней Истории. Институт Истории Академия Наук СССР. Revue Dhistoire Ancienne. № 3-4, Государственное социально-экономическое издательство (Огиз-Соцэкиз), 1940, с.24-45.
12. Мамедова Ф.С. Кавказская Албания и албанцы. Центр Исследований Кавказской Албании. Баку, 2005, 798 с.
13. Qeybullayev Qiyasəddin. Albanların Ay adları barədə. Tarix və onun problemləri. 3/4, Bakı, "Bakı Dövlət Universitetinin nəşriyyatı", 1999, 11-15 s.
14. "Lap qədimlərdən müxtəlif mədəniyyətlərin və dinlərin formalaşdığı Azərbaycan..." ! Məhəbbət Paşayeva: "Spesifik, müxtəlif və zəngin mədəni irsə malikdir" / Xalq Cəbhəsi qəzeti, 2016 16 mart, s.9. - http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/mart/481704.htm [Müraciət tarixi: 05.03.2021].
15. İbrahimli B.İ. Xaraba Gilan arxeoloji ekspedisiyasının 2017-ci ildə apardığı arxeoloji tədqiqatlar // B.İ. İbrahimli, F.Y. Səfərli, T.F. Xəlilov [və b.]. "2017-ci ildə Azərbaycanda aparılmış Arxeoloji və Etnoqrafik tədqiqatların yekunları" mövzusunda Elmi Sessiyanın Materialları. Bakı, Afpoliqraf, 2017, s.27-28.
16. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) Ali məktəblər üçün dərslik: / tərt. ed., Yusif Yusifov və Ziya Bunyadov. C.I. Bakı, Çıraq nəşriyyatı, 2011, 719 s.

**ИРАДА АВШАРОВА**
*Доцент Бакинского Государственного Университета*

# ДУХОВНАЯ КУЛЬТУРА АНТИЧНЫХ ПЛЕМЕН АЗЕРБАЙДЖАНА В ПИСЬМЕННЫХ И АРХЕОЛОГИЧЕСКИХ ИСТОЧНИКАХ

**Резюме:** Изучение этнической и религиозной принадлежности античных племен, проживавших в Албании, является одним из актуальных и важных вопросов нашей древней истории и на сегодняшний день. В современное время благодаря новейшим технологиям можно точно воссоздать образы гробниц разного типа и на основе этого сделать весомые доводы об этнической и религиозной культуре, племен, прошивающих на территории Азербайджана. Исходя из исследований, известно, что политеизм довольно продолжительное время занимал господствующее место среди всех верований как до, так и после распространения Христианства в этом регионе. Албанское государство существовавшая на территории Азербайджана с IV века до н.э. отличалась этническим разнообразием и вызывала интерес многих исследователей и ученых мирового масштаба.

*Ключевые слова*: племя, политеизм, храм, могила, этнос, религия.

**Düzəliş bölməsi**

**IRADA AVSHAROVA**
*Associate professor of Baku State University*

## SPIRITUAL CULTURE OF THE ANCIENT TRIBES OF AZERBAIJAN IN WRITTEN AND ARCHAEOLOGICAL SOURCES

The study of the ethnic and religious affiliation of the ancient tribes that lived in Albania is one of the most relevant and important issues of our ancient history and today. In modern times, thanks to the latest technologies, it is possible to accurately recreate the images of tombs of various types and on the basis of this to make weighty arguments about the ethnic and religious culture of the tribes living on the territory of Azerbaijan. Based on research, it is known that polytheism for quite a long time occupied a dominant place among all beliefs, both before and after the spread of Christianity in this region. The Albanian state that existed on the territory of Azerbaijan since the IV b. c. century was distinguished by ethnic diversity and aroused the interest of many researchers and scientists of the world scale.

*Keywords*: tribe, polytheism, temple, grave, ethnos, religion.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 mart 2021-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 22 sentyabr 2021-ci il.*
*Rəyçilər: t.e.d. Qüdrət İsmayılzadə, t.e.d. Qabil Əliyev.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала "История и ее проблемы":***
**TarixVeOnunProblemleri@gmail.com**

**Requirements for scientific publications**

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

*Çapa hazırlayanlar:* *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov*
*Tərcüməçi radaktorlar:* *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova*
*Web-redaktor:* *Nigar Nurəddin qızı İsmayılova*

**Yığılmağa verilmişdir: 22.09.2021. Çapa imzalanmışdır: 29.09.2021.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**